# Heydər Əliyev

Şəxsiyyət və zaman



I HİSSƏ

## 1923-1969

Elmira Axundova

BAKI
2007

**Redaktor –** Vladimir Morozkov,
Azərbaycanın əməkdar jurnalisti

**Rəssam –** İsmayıl Məmmədov,
Azərbaycanın əməkdar rəssamı

Elmira Axundova
**Heydər Əliyev. Şəxsiyyət və Zaman.**
Bakı, «Ozan», 2007, 352 səh.

Tanınmış Azərbaycan yazıçısı, publisisti, ictimai xadimi Elmira Axundova Heydər Əliyevin ilk bioqraflarındandır. Onun dahi şəxsiyyətin siyasi bioqrafiyasının müxtəlif dövrlərini əks etdirən «Naşirin qətli» (2001), «Həqiqət anları» (2003), «Şüşə saray» kitabları ölkənin mədəni həyatında hadisəyə çevrilmişdir.

Elmira Axundova «Heydər Əliyev. Şəxsiyyət və Zaman» adlı çoxcildlik roman-tədqiqatını ömrünün ən mühüm layihəsi sayır. Beş ilə yaxın gərgin zəhmət, kitab qəhrəmanının uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə lentə alınmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə müsahibələr, DTK arxivlərində, Prezidentin şəxsi arxivində iş ulu öndərimizin ən dolğun və obyektiv bioqrafiyasını yaratmaq cəhdi olan romanın unikal sənədli əsasını təşkil edir. Kitab dərin təhlil və müəllif şərhləri ilə müşayiət edilən xeyli sayda az məlum olan fakt, epizod, eksklüziv informasiya ilə zəngindir. Yazıçının Heydər Əliyevlə şəxsi tanışlığı və dostluğu romana xüsusi emosionallıq və səmimiyyət gətirir.

Elmira Axundova respublikanın əməkdar jurnalisti, Milli Məclisin deputatı, H.Zərdabi, R.Rza, N.Nəcəfov adına mükafatların laureatıdır, «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

4702060204-51
A ------------------- 2007
On-047-07

© E.Axundova, 2007

# İki əsrin qəhrəmanı

İş belə gətirdi ki, Elmira Axundovanın əlyazmasını mayın 10-da oxuyub qurtardım. Heydər Əliyevin ad günündə. Bu faktın gözlənilməz simvolikliyini anlayaraq, həmkarımın əsərinə öz rəyimi elə həmin gün başa çatdırmağa çalışdım. Bu, nə bir nəşriyyat üçün daxili resenziya, nə də mətbuat üçün məqalə deyil, – sadəcə, oxuduğumdan aldığım təəssüratın əks-sədasıdır.

...2003-cü il mayın 10-da Bakıya, Ustadın 80 illiyinə gəldim, amma bayram keçirilmədi: Heydər Əlirza oğlu Türkiyənin hərbi hospitalına yollanmağa hazırlaşırdı. Təyyarə uçub getdi. Biz kiçik dairədə yığışıb Müəllimin sağlığına badə qaldırdıq, ona şəfa dilədik. Amma sağlıqlar deməklə eynimiz açılmadı. O günlərdə Elmira öz niyyətini söylədi – iki dəfə hakimiyyətə gələn (ikincisi təqaüd yaşında), münaqişəyə girişməkdən, yeni düşmənlər qazanmaqdan çəkinməyən, lakin neçə nəsli tərbiyə etmiş, sovet onilliklərində respublikanı yüksəldə bilmiş və yenicə qazandığı müstəqilliyini az qala itirəcək yaralı dövləti xilas etmiş insan haqqında ensiklopedikcəsinə dolğun sənədli roman yazmaq.

Və budur, bu üçcildlik əsərin ilk oxucularından biri olmaq şərəfi mənə nəsib oldu. Əlyazmanın ayrı-ayrı fəsilləri elektron poçt ilə Parisə ilin əvvəlindən gəlməyə başladı. Mən onları oxuyurdum və qalın qovluqlar kabinet-kitabxanamdakı «Azərbaycan rəfi»ndə digər Azərbaycan yazıçılarının əsərləri, o cümlədən

E.Axundovanın özünün kitabları – «Naşirin qətli», «Bu bizik», «Şüşə saray» – ilə yanaşı yer tuturdular.

Ədiblərin arasında yayılmış «sağlığında böyük şəxsiyyət kimi tanınmış adamlar haqqında bioqrafik kitab yazmaq asan olsa da, hər dəfə zəhmətinə dəyən iş olmur» fikrində müəyyən həqiqət var. Yazmaq asandır, çünki dramaturgiyanı uydurmaq lazım gəlmir: ömür yolunun süjetləri və hadisələr baş verdiyi dövr öz-özlüyündə maraqlı, dramatik baxımdan zəngindir. Bir dərya sənədli material, minlərlə səhifə xronika, kilometrlərlə kino-videolentlər toplanmışdır.

Baş qəhrəmanın tarixən mühüm və gündəlik əməllərin epizodlarını yaddaşında saxlayan yaşıdları (əməkdaşları, həmkarları, silahdaşları) hələ sağdır və bu ayrıntıları Böyük Adın iriləşdirici linzasında görmək müəllifə nəsib olur və onlar qeyri-adilik kəsb edir.

Belə rahat şəraitdə kənardan olan professional üçün, doğrudan da, bu vəzifənin öhdəsindən gəlmək çətin deyil. Necə ki, bir turistə ekzotik ölkəni təsvir etmək çətin olmur. Lakin müəllif öz yurdu ilə illəri, keşməkeşli dönəmləri birgə yaşayıbsa, bu yaşam tərzindən ürəkdə qalan izlər, ilişgilər təhkiyəni ağırlaşdırır: vətənin dolğun mənzərəsini vermək daha çətin olur.

Böyük insanlar haqqında bolluca yazılmışdır, çox vaxt sağlıqlarında da. Mənim oxucu və yazıçı təcrübəm imkan verir ki, yanılmadan aşkarlayım: hansı halda müəllifi qələmə sarılmağa Baş qəhrəmana olan hörmət-ehtiram, hansında isə adicə yaltaqlıq təhrik etmişdir.

E.Axundovanın bu kitabı məhəbbətdən qaynaqlanmışdır. Hərçənd müəllif bəzən həddən artıq vasvasılıqla işıq-kölgə fəndindən faydalanır və portreti işıqla qəlizləşdirir. Bəzən sözçülük və «faktaj ifratçılığı» təsiri yaranır. Lakin mən redaktorun yerində olsaydım ixtisar etməzdim. Belə kitablar zaman ötdükcə, oxucu ilə birgə inkişaf edir. İndi az dəyərli görünən detallar illər ötdükcə, hazırda daha çox nəzərə çarpan ayrıntılara nisbətən şəxsiyyətin xarakterindən xəbər verən tarixi fakt çəkisini əxz edirlər. Sənədli əsər yazan ədibin bədii həqiqətə deyil, yalnız həyat həqiqətinə haqqı vardır. Hərçənd, sonuncusu heç də həmişə həqiqətə istedadlı müəllifin inandırıcı təxəyyülündən daha yaxın olmur. Lakin E.Axundova prinsipialcasına faktdan aralanmır.



O, təşkilatçılıq qabiliyyətli bir insanın boy atmasını, ictimai yaşamın nataraz pillələrilə qalxmasını, insanlarla, «instansiyalar»la, xalqla ünsiyyət təcrübəsi toplayaraq ümummilli liderə çevrilməsini diqqətlə izləyir.

Belə kitablar gərəklidir: onlar yeni rəhbər nəsillərinin tərbiyəsinə yardım göstərir. Eyni ölkədə iki dövlətə rəhbərlik etmək nəsib olmuş Heydər Əliyevin unikal təcrübəsi xüsusən dəyərlidir.

Heydər Əliyev sağlığında bir çox mükafatlara və fəxri adlara layiq görülmüşdür. Amma mənim aləmimdə, ən dəqiq adı son illərdə yazılmış məktəbli inşalarında səslənmiş, Lermontovun köhnəlməyən «Zəmanəmizin qəhrəmanı» xatırlanaraq onu belə adlandırmışlar.

Lakin əfsus ki, orta məktəbləri çoxdan bitirmiş, sərt həyat universitetlərinin sınaqlarından keçmiş bizlər üçün məlum olmuşdur ki, «zəmanəmiz» iki qeyri-bərabər hissəyə kobudcasına parçalanmış epoxadır.

(«İqor alayı haqqında dastan»da XII əsrin ozanı, vaxtilə bir bütövlük olan, lakin dargöz knyazların və onların çöllü qudalarının hərc-mərcliyi ucbatından fəraq düşmüş Rus elini və Çölü nəzərdə tutaraq ən nüfuzlu böyük knyazları səylərini əsirgəmədən bu zəmanənin iki qanadını birləşdirməyə çağırmışdır).

İyirminci əsrin hər bir görkəmli şəxsiyyətinə İyirmi birinci yüzillikdə də böyüklük mərtəbəsində qalmaq müyəssər olmamışdır.

Bu, yalnız o şəxsiyyətlərə nəsib olmuşdur ki, vaxtilə müxtəlif orqanları vahid orqanizmdə birləşdirən sinir, qan damarları kimi xalqlar arasında ilgilər «keçid dövrü»ndə qırılan çağlarda, zəka ucalığını, iradə, xarakter qüdrətini saxlamış və faciəvi şəkildə parçalanan məkan və zamanların «yarımçıqlarını» birləşdirməyə çalışmışlar. Avrasiyada belə şəxsiyyətlər çox az idi. Və birincilər sırasında Heydər Əliyevin – (parçalanmış) zəmanəmizin qəhrəmanının adını çəkməyə haqqımız var.

Azərbaycanda bu zaman obrazı təbii olaraq cırılmış xəritə, parçalanmış ölkə ilə ilgilənir. Artıq on beş ildir ki, işğalın qanlı

çapığı – hər bir azərbaycanlının və bu ölkəni sevən hər kəsin şüurunda və qəlbində sağalmaz yaradır. Qarabağ faciəsi xatırladır ki, siyasət kəmsavadlılığı tanımır.

SSRİ dağılandan sonra inqilabi dəyişikliklər baş vermiş respublikalarda kapitan kürsüsündə və sükan arxasında təcrübəli başçılar əvəzinə siyasi «yunqa»lar yer tutduqları halda dağılma reaksiyası davam etdi. Gürcüstan, Moldova, Tacikistan, Azərbaycan... 1993-cü ildə xalq təcrübəli Heydər Əliyevi çağırmasaydı, hər şey daha da dəhşətli sonluqla nəticələnə bilərdi.

Onun onillik prezidentliyi dövründə Azərbaycan ayağa qalxdı, iqtisadi baxımdan möhkəmləndi. Dünyada gənc dövlətin çətinliklərini anlamış tərəfdarlarını qazandı.

Heydər Əliyev bir dəqiqə də olsun əsas problemi unutmurdu. O inanırdı ki, ərazinin bütövləşdirilməsi Sağlam Düşüncə qələbəsinin nəticəsi kimi baş verəcək. Cənubi Qafqaz dövlətləri, Rusiya, Türkiyə, İran, ABŞ və Avropanın birgə barış səylərinin təntənəsi olacaqdır.

O bu barədə bütün siyasi səviyyələrdə yorulmadan söz açırdı, bununla belə simvolik haldır ki, ömründə son nitqini Azərbaycanın Hərbi Akademiya kursantları qarşısında söyləmişdir.

Və indi bu çıxışı, yəqin ki, onun vəsiyyətinin ən vacib qayəsi kimi qavramaq gərəkdir – Vətənin bütövlüyünün bərpa edilməsinə, lazım gələrsə, silah gücünə də nail olunmalıdır.

Azərbaycanda olarkən, gördüklərimi dünya inkişaf standartlarını ötüb keçən rəqəmlərlə tutuşduraraq əmin oluram ki, Ustadın vəsiyyəti İlham Əliyev komandası tərəfindən ardıcıllıqla yerinə yetirilir: hər bir yeni istehsalat Bərpa gününü yaxınlaşdırır.

Və indi ən başlıcası – bu qüvvətlənən prosesi səngitməmək, dayandırmamaqdır.

...Qədimlərdə salnaməçidən hökmdarın adını və mübarək əməllərini tarixdə həkk etmək, hökmdardan isə – dövləti qorumaq, onu xalq üçün və hər bir insan üçün möhkəm, istili-tüstülü ocağa çevirmək tələb olunurdu. İstili-tüstülü deyəndə yəni odalova qərq olan yox.



Bu barədə söz deməli oluruq, çünki «tranzit dövr» hələ başa çatmamış və hər bir məmləkətdə azadlıq məşəllərini barıt anbarları üzərində alışdırmaq istəyənlər yetərincədir.

Biz adətən «suverenlik», «hökumət» anlamlarını işlədir və onların «suveren», «hökmdar» kəlmələrilə kökdən bağlılığını unuduruq. Onları «prezident», «rəhbər», «lider» kimi evfemizmlərlə əvəz etməyə çalışırıq. Lakin həyat, xüsusən Şərq həyatı, minilliklərlə yaşayan anlayışların məğzini siyasi nəzakətin terminoloji çəpərləri arasından sezdirir. **Hökumət ən əvvəl hökmdardır.**

Qüdrətli hökmdarlar dövlətləri yaradır, qoruyur, zəif, səriştəsiz hökmdarlar isə – dağıdırlar. Qarşısında gələcəyə doğru yüksəlişin çətin illəri duran yeni, müstəqil Azərbaycanın təməllərini qoyan Heydər Əliyev ömür və mübarizə təcrübəsindən belə bir ibrət hasil edirsən.

**Oljas SÜLEYMENOV,**
Paris, 10 may 2007-ci il.

# Heydər Əliyevin xeyir-duası ilə

Bu böyük işə mən Heydər Əliyevin xeyir-duası ilə başlamışdım. Daha sonralar, ən müxtəlif adamların xatirələri, şəhadətləri yazılmış yüzlərlə audiokaset üst-üstə qalanıb toplananda, hardasa şübhələr baş qaldırdı: belə nəhəng, həqiqətən nadir material qatlarını necə qaldırasan, təhkiyəni necə ardıcıl qurasan ki, tuşladığın hədəfdən yayınmayasan?.. Bilavasitə qəhrəmanımın uğur diləməsi idi mənə güc verən, inam aşılayan.

...2003-cü ilin aprel ayının əvvəllərində kabinetimdə telefon zəngi səsləndi. Prezidentin referenti Tariel Ağayev xəbər verdi: indi sizinlə Heydər Əliyev danışacaq. Bir neçə saniyə ötəndən sonra dəstəkdən tanış səs gəldi: «Hə, salam. Kefin-əhvalın necədir?»

– Sağ olun, Heydər Əliyeviç, yaxşıdır.

– Tariel mənə bu yaxınlarda sənin yeni kitabını verdi. Afərin! Bilirdim ki, səfərlərim haqqında çox yazırsan, məqalələrini həm Moskva, həm də yerli mətbuatda oxumuşdum. Amma, bax, bütün bunları saxlamağın, sistemli işləməyin və belə uğurla kitabında təqdim etməyin mənim üçün gözlənilməz oldu. Sağ ol!

Söhbət Azərbaycan Prezidentinin xarici siyasət sahəsində fəaliyyətinə həsr olunmuş, Heydər Əliyevin 80 illiyi münasibətilə nəşr edilmiş analitik məqalələr və oçerklər toplusundan gedirdi. Heydər Əliyevin, demək olar ki, bir çox xarici səfərlərində onu müşayiət etmək, dövlətimizin başçısının xarici ölkə liderlərilə ən mühüm danışıqlarında iştirak etmək mənə də müyəssər olmuşdur. Odur ki, «Həqiqət anları» kitabımda gənc respublika üçün həqiqətən tarixi onilliyin başlıca məqamlarını qələmə almağı – vurğulamağı qət etdim.



Kitab gözəl tərtibatda, bir çoxu ilk dəfə işıq üzü görən maraqlı fotoşəkillərlə çap olunmuşdu və prezidentdə maraq doğurmuşdu.

İfrat təvazökarlığa varmadan qeyd etmək istərdim ki, Heydər Əliyev mənim publisistik yazılarıma daima diqqətlə yanaşmış, az olmayan şəxsi görüş və söhbətlərimizdə dəfələrlə təqdir etmişdir. Həyatının ən dramatik dövrlərinin əksini tapmış, İsa Nəcəfovla birgə yazdığımız «Naşirin qətli» kitabını o çox qiymətləndirirdi.

Yadımdadır, Heydər Əliyevlə ilk dəfə Naxçıvanda görüşdüyüm zaman (1990-cı ilin payızında) onda əsl hekayəçi təhkiyəsi olduğunu aşkar edərək, soruşdum ki, bəs nə üçün o memuarlar yazmır.

«Mən artıq onların üzərində işləyirəm, hərdən qaralama kimi qeydlərimi qələmə alıram, – deyib əlavə etdi. – Mən böyük ömür yaşamışam – həm zaman, həm də hadisələrin zənginliyi baxımından. Çox şeylər görmüşəm, ən mühüm tarixi hadisələrlə təmasda olmuş, onların şahidi və iştirakçısı olmuşam. Odur ki, düşünürəm, xatirələrim istər bir çox müasirlərim üçün, istərsə də haçansa gələcəkdə bu dövrün obyektiv tarixini yazacaq insanlar üçün faydalı olacaq. İndi mən Naxçıvanda cavanlarla görüşürəm. Onların 20-25 yaşı var; onlar indi-indi siyasi fəaliyyətə qoşulur, çox şeyləri bilmirlər, çox şeyləri də dövrün konyunkturuna uyaraq onlara təhrif olunmuş halda təqdim edirlər. Beləliklə, bu xatirələr kiməsə nəyisə isbat etmək üçün deyil, həqiqəti aydınlaşdırmaq üçün lazımdır».

...Dövlət başçısı olduğu zaman, özü də Azərbaycan üçün bunca ağır, taleyüklü bir dövrdə, Heydər müəllim öz memuarları üzərində işləməyə macal tapa bilmədi. Hərçənd, mən dəqiq bilirəm ki, sabiq SSRİ-nin ünlü yazıçıları, publisistləri ona bu sahədə öz xidmət və yardımlarını təklif edirdilər.

Mən özüm də Heydər Əliyevlə birgə onun xatirələri üzərində işləməyi arzulayırdım, dəfələrlə bu layihənin gerçəkləşdirilməsinin zəruriyyətini ona xatırladırdım. Hərdən, onu «tərpətmək» üçün xəbər verirdim: baxın, Boris Yeltsin artıq özü haqqında be-

şinci kitab yazır. Qorbaçovun memuarları bütün xarici dillərə tərcümə olunmuşdur, biz isə hələ də mövzunun astanasındayıq...

– Yeltsinin əvəzinə başqaları yazır, mən isə hər işi özüm görməyə vərdiş etmişəm, – deyirdi. – Bunun üçün vaxt tapılmalıdır, vaxt da ki yoxdur.

Bir dəfə ürəklənib prezidentə gələcək işimizi necə gördüyüm haqqında uzun-uzadı açıqlama yazdım. Plan-prospekti əlavə etdim və hətta birinci hissə üçün geniş həcmli suallar siyahısı tutdum. Bütün bunlar Heydər Əliyevə çatdırıldı. O nəzərdən keçirməyə macal tapıb bəyəndi. Lakin təəssüf ki, onun xəstəliyi ucbatından biz praktiki işə başlaya bilmədik.

2003-cü ilin aprel ayındakı mənim üçün unudulmaz (əfsus ki, sonuncu dəfə qismət olan) söhbətimizdə Heydər Əliyevə bildirdim ki, onun siyasi bioqrafiyası üçün material toplamağa başlamışam. Cavabı dəqiq yadımdadır: «Yaz, Elmira, yaz. Səndə bu pis alınmır... mən isə... Görürsən də, vaxtım necə kasaddır...»

Bu, Heydər Əliyevin mənə verdiyi xeyir-dua, bir növ «kartblanş» idi. 2003-cü ilin payızında, bəlkə də ömrümdə ən mühüm, ən başlıca iş olan genişmiqyaslı layihəni reallaşdırmağa başladım.

* * *

...Heydər Əliyev özündən yadigar olaraq heç bir xatirələr kitabı qoymasa da, araşdırıcılar müxtəlif qaynaqlarda böyük sayda bioqrafik bilgilər tapa bilərlər. Onlar, ən öncə, onun çıxışlarında, müsahibələrində, mədəniyyət və incəsənət xadimləri ilə söhbətlərində əks olunmuşdur. Və bu, çox güman ki, bu gün mövcud olan əliyevşünaslığın ən dəyərli materialıdır.

Prezident çox fotogenik görkəmə malik idi, bunu özü də bilirdi, bu səbəbdən fotomüxbirlərlə ünsiyyətdən nadir hallarda imtina edirdi. Sonralar onun fotosurətləri onlarla gözəl fotoalbom təşkil etdi, beləliklə, bu unikal şəxsiyyətin zahiri görkəmi xoşbəxtlikdən ən yüksək professional səviyyədə əks olunmuşdur (hələ məşhur rəssamların fırçalarına mənsub olan Heydər Əliyevin portretlərini demirik). Amma onun daxili aləmi, şəxsiyyət və xarakterinin özəllikləri, şahidi olduğu və qatıldığı, müasirlərdən



müəyyən müddət məxfi qalan hadisələr əvvəlkitək az araşdırılmışdır.

«Bütün açıqlığı ilə yanaşı, Heydər Əliyev bir şəxsiyyət kimi müasirləri üçün müəmma olaraq qalır, – onun komandasında uzun illər çalışmış Ramiz Mehdiyevin mülahizəsi belədir. – Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalələr, broşür və kitabların müəllifləri onun müxtəlif cəhətlərini – vətəndaş, şəxsiyyət və lider, vətən tarixində bütöv bir epoxanı təmsil edən insan müstəvisində açıqlayırlar. Lakin onlar hamısı bir məqamda yekdildir: Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. Amma yenə də, zənnimcə, bu məqalələr və kitablarda Heydər Əliyevin səciyyəvi cəhətlərinin tam açılmasına, istedadının və parlaq şəxsiyyətinin sonadək işıqlandırılmasına müvəffəq olunmayıb. Ən əvvəl ona görə ki, bu həddən artıq çətindir. Heydər Əliyevin dolğun sayıla biləcək siyasi portretini yaratmaq ən azı ona görə asan deyil ki, bu, bütöv bir epoxanı təsvir etmək cəhdi misalındadır. Bu isə olduqca mürəkkəb məsələdir».

Hər halda oxuculara təqdim edilən trilogiyada məhz həmin məqsəd, – XX əsrin fonunda Heydər Əliyevin siyasi bioqrafiyasının yaradılması və insani taleyinə güzgü tutulması – qarşıya qoyulmuşdur. Kitabda iki bərabərhüquqlu qəhrəman var – Heydər Əliyev və onun zəmanəsi. Eləcə də onun böyüdüyü, püxtələşdiyi ab-hava, yaşadığı və çalışdığı mühit, ünsiyyətdə olduğu, dostluq etdiyi, təmasda olduğu adamlar. Beləleri isə yüzlərlə, minlərlə idi – sadə fəhlə və kolxozçulardan tutmuş dünya səviyyəli siyasətçilərədək. Onların canlı səsləri, düşüncələri, şərhləri, hadisələrin yozumları kitaba polifoniklik gətirərək, dəyərləndirmələrdə birmənalı və qərəzli hökmlərdən çəkinməyə imkan verir.

Mən Heydər Əliyevin həyat və fəaliyyətinin ilk dövrünü – 40-70-ci illəri daha müfəssəl işıqlandırmağa çalışmışam. Onun hakimiyyətə qayıdışı və müstəqil Azərbaycana rəhbərlik etdiyi dövr haqqında çoxsaylı kitablar yazılmış, çıxışlarının topluları, fotoalbomlar və s. nəşr edilmişdir. Lakin sovet illəri yenə də kölgədə qalırdı. Son onillikdə postsovet məkanında memuar ədəbiyyatının, demək olar ki, püskürməsi baş vermişdir və bunun obyektiv səbəbləri var. Stalın və Stalindən sonrakı dönəmlərin reallıqlarını

göstərən bədii ədəbiyyat, poeziya və publisistika nümunələri yetərincədir, amma o zamanın sənədli şəhadətnamələri yox dərəcəsində idi. Bunun səbəblərini açıqlayan akademik G.Arbatov qeyd edir: «Ətraflı məktub yazışmaları, epistolyar janr öz-özlüyündə, eləcə də gündəliklər aparılması – bu qaynaqlar bir çox əvvəlki dövrlərin salnaməçiləri üçün necə də əvəzsiz olmuşdur! – sərt Stalin dövründə az qala yox dərəcəsinə çatdırılmışdır. Ən öncə kütləvi xof mane olurdu. Həm də dövrün qaçhaqaç tempi, minvalı, həyat və düşüncə tərzi ətraflı məktub və gündəlik yazmağa yer qoymurdu».

Buna görə qarşınızdakı kitab-tədqiqatın (üçcildlik daha üç cild əlavələrlə tamamlanacaq) məqsədi həm də tariximizin həmin mühüm və mürəkkəb dövrünün şahidlərini tapıb sorğu aparmaq, bu və ya digər olayların iştirakçılarına, şahidlərinə (nə qədər ki, sağdırlar və sağlam hafizəlidirlər) söz demək imkanı verməkdir.

Kitabda onların səsləri ilə Zaman dilə gəlir, ötən Dövr danışır. Mənim bir çox müsahiblərim Heydər Əliyevin müxtəlif fəaliyyət mərhələlərində onun yanında olmuş, onlardan kimlərsə Əliyevin vəfatınadək onun komandasında çalışmış, bəziləri kənara çəkilmişlər. Bir qismindən özü incik düşərək 90-cı illərdə özünə yaxın buraxmamışdı. Necə deyərlər, «kimlərsə daha yox, kimlərsə uzaq...»

Amma onların hamısı Əliyev komandasının üzvü olmuş, eyni amallara xidmət etmiş, eyni əmələ qatlaşmışlar və ona görə də xatirələri çox dəyərli məlumat qaynaqlarıdır. Bu gün siyasi konyunktur xətrinə onların adlarını tarixin yaddaşından silməyə bizim haqqımız yoxdur.

Mənimlə ünsiyyətdə olmağa vaxtını sərf edən, şifahi (diktofona yazılmış), ya qələmə alınmış materialları sərəncamıma verən insanlara öz təşəkkürümü bildirmək istəyirəm. Bütün həmsöhbətlərimi kitabın tamhüquqlu müştərək müəllifləri sayır, onların qarşısında baş əyirəm!

Üçcildlik müxtəlif qaynaqlar, sənədlər, şahidlərin canlı hekayətləri, arxiv materialları, siyasi və memuar ədəbiyyatı, KİV xəbərləri, şəxsi müşahidələr və müəllif şərhləri əsasında təşəkkül tapmışdır. Bir sıra şəhadətlərin təhlil yoluyla və başqalarıyla müqayisə edilməklə yoxlanılması problem kimi çox olurdu. Bir çox şeylər saf-çürük edilirdi. Yalnız bir neçə qaynaqlarla təsdiqlənən, yaxud tam etibar edilən məxəzlərdə (məsələn, Heydər Əliyevin qardaşlarının, bacılarının, qızının xatirələrində) göstərilən faktlara yol verilirdi. Bəzən, nadir hallarda (sənədləşdirilmiş, dərc edilmiş) uydurmalara və şayiələrə də yer verməyi rəva bilirdim ki, bir sıra hallarda onları təkzib edəm, digər hallarda isə Heydər Əliyevin xalq içində populyarlığını əyaniləşdirəm, – axı qeyri-populyar lider haqqında onun sağlığında rəvayətlər, əfsanələr uydurmazlar. Heydər Əliyev isə sağlığında əfsanəyə çevrilmişdi.

Əminəm ki, belə miqyaslı şəxsiyyət haqqında hekayətdə xırda sayılacaq ayrıntılar yoxdur, ola da bilməz. Buna görə də Heydər Əliyevin fenomenal şəxsiyyətini formalaşdıran qaynaqlara işıq sala biləcək hər nə varsa, zərrə-zərrə, damla-damla yığmağa çalışırdım. Bununla belə, onun müxtəlif dövrlərdə gördüyü nəhəng işlərin nəticələrindən daha çox məni bu prosesin özü, – **nələr** yaratdığı deyil, **necə, hansı minvalla** bunlara nail olduğu maraqlandırırdı. Arabir bədiilik ünsürləri ilə (indiki təqdirdə tamamilə məqsədəuyğun bilərək) aşılanmış kitab, publisistik ovqatı ilə yanaşı bütövlükdə tarixilik kəsb edir; müəyyən elmi aparata (memuar, elmi-tarixi, siyasi ədəbiyyat, Azərbaycan Respublikası və Rusiya Federasiyasının dövlət arxivlərindən, respublika MTN arxivindən və Heydər Əliyevin şəxsi arxivindən materiallar) malikdir; burada Heydər Əliyevin bioqrafiyasına aid bir çox, indiyədək xatırlanmayan faktlar ilk dəfə dəqiqləşdirilir. Əslində, kitabı «Naməlum Əliyev» də adlandırmaq mümkün idi, – bu epitet Rusiya siyasi tarixşünaslığında dəfələrlə işlədilib «çeynənmiş» kimi görünməsəydi.

Mənim üçün daha bir vacib «həqiqət məqamı»: qəhrəmanımızın tövsiyəsinə əməl edərək, öz hekayətimdə tam obyektiv olmağa çalışmışam, «sərt» dönərgələri «malalamamışam». İnsan ömründə, xüsusən belə səviyyəli bir insanın həyatında yalnız yüksəlişlər, qələbələr baş vermir. Geriləmələr də, taktiki fasilələr də olur ki, bu da yeni irəliləyişə başlamaq üçün geriyə atılan «iki addım» misalındadır. Əsl rəhbərin, prinsipial siyasətçinin həyatda

nəinki dostları, bədxahları da olur. Heydər Əliyevin ömür kitabında bütün bunlar bolluca idi – sürətli yüksəlişlər də, böyük uğurlar da, bədxahların, rəqiblərin paxıllığı, qatı düşmənçiliyi də. Üstəlik komanda üzvlərinin açıq-saçıq dönüklüyü, xəyanətkarlığı, tənələr, təqiblər... və – hər şeyə rəğmən! – siyasi Olimp zirvəsinə müzəffər qayıdış!

Odur ki, kitabı yazarkən onun öz haqsevərliyinə, bizə, qələm əhlinə verdiyi «həqiqəti yazın» öyüdünə sadiq qalmağa çalışmışam.

Heydər Əliyevlə şəxsi ünsiyyətimdən bilirəm ki, o, ən kəskin, ən tənqidi mətbu yazılara, o cümlədən mənim yazılarıma təmkinlə, səbrlə yanaşırdı. Və bütün bu çıxışlar ölkə prezidentilə xoş münasibətlərimizə xələl gətirməmişdir. Barışmadığı, rədd etdiyi yeganə hal bədniyyət böhtan və dezinformasiya idi. Jurnalistlərlə söhbətləşəndə hər dəfə «düzünü deyin, düzünü yazın» – öyüdünü təkrarlayardı. Zənnimcə, biz hamımız bu məsləhətə əməl etməliyik. Böyük rus yazıçısı Lev Tolstoy dəqiqcəsinə demişdir ki, «insanın doğruçuluq dərəcəsi onun mənəvi kamillik dərəcəsinin göstəricisidir».

* * *

...2004-cü ilin 28 may günündə, «Gülüstan» sarayında Respublika günü qeyd olunanda mənə Azərbaycan prezidenti İlham Heydər oğlu Əliyevlə söhbətləşmək və düşündüyüm kitab haqqında niyyətimi bildirmək nəsib oldu. Cənab prezident layihəyə böyük maraqla yanaşdı və onun tərəfindən hansı yardım lazım olduğunu soruşdu.

Mən öz arzumu bildirdim: «Heydər Əliyevin şəxsi arxivindən materiallarla işləmək istərdim». Cəmi iki-üç gün sonra bu geniş həcmli arxivə cavabdeh olan Yuri Petroviç Kamayevlə görüşdük və onunla əməkdaşlığa başladıq. O, prezidentin adından bu sözləri çatdırdı: «Biz istəyəcəyiniz bütün materialları sərəncamınıza vermək haqqında tapşırıq almışıq». Buna görə mən cənab prezidentə, möhtərəm İlham Əliyevə sonsuz dərəcədə minnətdaram və bunu ən yüksək etimad nişanəsi sayıram.



Şəxsi arxivlə çalışmalarım iki il davam etdi, nəticədə 1969-cu ildən 1987-ci ilədək dövrü tam əhatə edən Heydər Əliyevin həyat və fəaliyyət salnaməsi, görkəmli ədəbiyyat və incəsənət xadimlərilə məktublaşması, xarici radiosəslərin xəbər və verilişlərinin yazılı surətləri, Qərb KİV-nin qəhrəmanım haqqında məqalələrinin tərcümələri – bütün bunlar və bir çox başqa materiallar arxiv qatlarından üzə çıxarılmış və indi geniş oxucu dairələrinin varına çevrilir. Bir çox bilgiləri Heydər Əliyev Fondundan əxz etmək mümkün olmuşdur. Həmin fond öz prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın səyləri sayəsində Azərbaycan xalqının ən ali insanpərvər ənənələrinin fəal davamçısına, ümummilli liderin zəngin məfkurəvi və yaradıcı irsinin toplayıcısına, qoruyucusuna və təbliğatçısına çevrilmişdir.

İşimlə bağlı uzun zaman Moskvada, Kiyevdə, Sankt-Peterburqda olmuşam, Rusiyanın arxivləri və kitabxanalarında çalışmış, Siyasi Büronun və sovet hökumətinin sabiq üzvlərilə söhbət etmiş, Rusiya ziyalılarının görkəmli nümayəndələrilə ünsiyyətdə olmuşam. Bütün bunlar onlarla bloknot, kilometrlərlə maqnitofon lentlərində əksini tapmış və bu qeydlərin şifrini açmaqda qələm dostlarım Lalə Yusupova və Mirzə Hüseynzadə mənə yardım göstərmişlər. Polkovnik Xaqani Bağırov başda olmaqla Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin Arxiv İdarəsi əməkdaşlarına şükranlığımı bildirirəm, – onlar DTK veteranları ilə görüşmələrimə, eləcə də nazirlik arxivlərində lazımi sənədlərin axtarılmasında mənə köməklərini əsirgəməmişlər.

Kitabın ərsəyə çatmasında dəyərli məsləhətçim, ilk oxucum və əsərin redaktoru Azərbaycanın tanınmış jurnalisti Vladimir Morozkov oldu. Görkəmli qazax şairi, yazıçı, ictimai xadim, dost adlandırmağı özümə şərəf bildiyim Oljas Süleymenovdan bir çox dəyərli məsləhətlər və tövsiyələr aldım. Bu kitaba xeyirxahlıqla yazdığı ön sözünə görə ona minnətdaram.

Öz aləmimdə dərk edirəm ki, mənim Heydər Əliyev haqqında düşüncələrim, onun taleyi haqqında versiyam heç də mübahisəsiz olmayacaq. Həmçinin hansısa məlumatların natamam, ya qeyri-dəqiq ola biləcəyini ehtimal edirəm. Hər halda, gələcək tarixçilər

və bu şəxsiyyətin bioqrafları üçün yetərincə böyük «tədarük» var. Əminəm ki, bu mürəkkəb, çoxcəhətli və parlaq şəxsiyyətə yönələn maraq zaman ötdükcə artacaqdır.

Və ümidvaram ki, mənim kitabım dünənimiz, bugünümüz, sabahımızla maraqlanan hər bir insan üçün faydalı ola biləcək.

*Elmira AXUNDOVA,*
*Azərbaycanın əməkdar jurnalisti.*



# Uşaqlıq və gənclik illəri

## Dövlət təhlükəsizliyi orqanlarında keçdiyi həyat məktəbi

*Birinci fəsil*

# Ömür yolunun başlanğıcı

## Qaynaqlar

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olub. Naxçıvanlı hesab olunsa da, valideynləri – Əlirza kişi ilə İzzət xanımın əsilləri Qərbi Azərbaycanlıdır.

Əliyevlər nəslinin əsasını qoymuş əcdadları, onların qədim Zəngəzur dağlarının döşündə məskunlaşma şəraiti barədə çox az şey məlumdur. Onların kökü Comərd və Alagöz Məhəmməd adlı iki qardaşdan başlayır. Zəngəzurun tarixini araşdıran şair-publisist Musa Urud bu nəslin mənşəyi barədə vaxtilə o yerlərin ağsaqqallarından eşitdiyi maraqlı bir rəvayət danışırdı.

Həmin rəvayətə görə, qardaşlar Ərdəbildə doğulubmuşlar və İran hökmdarı Nadirqulu şah Əfşarın (hökmranlıq dövrü 1736-1747-ci illər) ordusunda yüksək mənsəb sahibi imişlər. Məhz bu şah Səfəvilər sülaləsinin hökmranlığına son qoyaraq, İranı, Azərbaycan ərazisi də daxil olmaqla demək olar ki, bütün Zaqafqaziyanı təsir dairəsinə almışdı[1].

1738-ci ildə Nadir şahın ən mötəbər, nüfuzlu sərkərdələrindən biri olan Pənahəli xan Cavanşir şahla aralarında rəqibləri tərəfindən qızışdırılan münaqişə üzündən Xorasandan Qarabağa qaçır. Nadir şahın ölümündən sonra Pənahəli xan müstəqil Qarabağ xanlığının əsasını qoyur[2]. Xanlığın mərkəzi əvvəlcə Şahbulaq qalası, 1751-ci ildə isə qədim Şuşa şəhərinin xarabalıqları üzərində yenidən qurulmuş qala olur və əsasını qoyan şəxsin şərəfinə Pənahabad adlandırılır.

Comərd və Alagöz Məhəmməd Pənah xanın tərəfinə keçib, onun rəhbərliyi altında parlaq hərbi qələbələr qazanaraq bir sıra Azərbaycan torpaqlarını Qarabağ xanlığına birləşdirdilər. Sədaqətlə xidmət etdiklərinə görə Pənah xan öz döyüşçülərinə Sisian mahalında torpaqlar bəxş edirdi və qardaşlar da istisna olmadılar (XVIII əsrin ortalarında Sisian Qarabağ xanlığına daxil idi). İstefaya çıxandan sonra onlar Zəngəzur dağlarının cənub-şərq yamaclarında, sonralar onların adlarını daşıyan Comərdli və Məhəmmədli adlı iki kənd saldılar.

Heydər Əliyevin əcdadları haqqında akademik Budaq Budaqov belə yazır: «Comərdlilərin kökü Qarabağın hökmdarı İbrahim xanın hakimiyyəti illərinə gedib çıxır. İbrahim xanın ordusundan ayrılan bir qrup əsgər və zabit məskunlaşmaq üçün münasib torpaq axtarırdı. Bu torpaq təsərrüfat üçün yararlı olmaqla yanaşı, yaşayış üçün də təhlükəsiz yer olmalı idi. Bu səbəbdən Comərdli kəndini dağın sıldırım yamacında, ətraf dərə və biçənəklərin, otlaqların aydın göründüyü yerdə salmışdılar[3].

Heydər Əliyevin əcdadlarından kiminsə görkəmli hərbi xadim olması və «saray intriqaları ucbatından Zəngəzur dağlarına çəkilməsi» barədə Fatma Abdullazadənin bioqrafik «Doğulmaq anı» oçerkində də bəhs olunur[4].

Aradan iki yüzillik keçəndən sonra əcdadların «hərbiçilik» geni üzə çıxdı: general mundiri ulu babasınınkı kimi yaşılımtıl-ala gözləri olan enlikürək, qamətli Heydər Əliyevə çox gözəl yaraşırdı.

Ümumiyyətlə, Heydər Əliyevin nəslində cəsur, igid döyüşçülər çox olub. XX əsrin əvvəllərində bu qədim nəslin kişilərinin yarıdan çoxu erməni quldur dəstələrinin Zəngəzura basqını zamanı döyüşlərdə həlak olmuşdu. XX əsrin sonlarında onların xələflərindən olan Qarabağ müharibəsi cəbhəsində döyüşmüş iki zabitə – Aqil Quliyevə və Fəxrəddin Nəcəfova isə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdi.

* * *

Əlirza kişinin ata-babası imkanlı adamlar idi. Bunu onların kərbəlayi olması da sübut edir. O zamanlar Kərbəlaya getmək hər adamın işi deyildi. Bu, yalnız varlı-karlı, imkanlı müsəlmanlara nəsib olurdu.



Heydər Əliyevin əmisi Zeynalabdinin oğlu Süleyman Əliyev kitabın müəllifinə bu böyük nəslin həyatının maraqlı və son dərəcə dramatik təfərrüatlarından söhbət açdı. Əsər boyu biz bu xatirələrə dəfələrlə üz tutacağıq.

«Atam 1950-ci ildə, mənim on bir yaşım olanda dünyasını dəyişib, odur ki, onun söhbətlərini çox yaxşı xatırlayıram. Məsələn, atam danışırdı ki, ulu babamız, müasir dillə desək, Pənahəli xanın müdafiə naziri olub və Şuşada yaşayıb. Hakimiyyət İbrahim xanın əlinə keçəndən sonra o, istefaya çıxaraq Comərdliyə köçüb.

Babamız Cəfər iki dəfə Kərbəlaya ziyarətə gedib, onu Kəlbeyi* Cəfər deyə çağırırdılar. Hündürboylu, yaraşıqlı kişi idi. Heydərlə Cəlal ona çəkiblər.

Babam çox varlı-karlı adam olub, onun böyük qoyun sürüsü, çoxlu mal-qarası vardı. Comərdli dağ kəndi idi. Əkinə yararlı torpağı az olduğundan kəndlilər əsasən maldarlıqla məşğul olurdular. Mal-heyvana atam Zeynalabdin nəzarət edirdi.

Kəlbeyi Cəfərlə Urud kəndindən olan arvadı Gülcahan Kərbəlayi Abbasqulu qızının qurduqları ailə böyük idi – beş oğulları və Nərgiz adlı bir qızları vardı. Ailənin ilki Əlirza idi, sonra atam Zeynalabdin, onun ardınca isə Qurban, Ərsuvar və Qafar dünyaya gəlmişdi».

1905-1906-cı illərdə erməni quldur dəstələri Sisian mahalının kəndlərinə basqın edib, kəndliləri qarət edib evlərini yandıranda, mal-qarasını talan edəndə nisbətən imkanlı ailələrin var-yoxu əllərindən çıxdı. Kərbəlayi Cəfərin çoxsaylı ailəsi də müflisləşdi. Erməni dəstələrinin dağıdıcı yürüşlərindən sonra əvvəlki firavan həyatı, gün-güzəranı bərpa etmək çox çətin idi. Odur ki, Əlirza gənc yaşlarından qazanc dalınca Bakıya getmək məcburiyyətində qaldı.

O illər Bakıda neftlə bağlı böyük canlanma yaranmışdı, buruqlarda işçi qüvvəsi çatışmırdı, Əlirza isə işlək və bacarıqlı adam idi. O, erkən yaşlarında Narıngül adlı həmkəndlisi ilə evlənmiş, 1907-ci ildə Həsən adlı ilki, 1911-ci ildə isə Hüseyn dünyaya gəlmişdi. Odur ki, o, artan külfətini dolandırmalı idi. 1897-ci ildə Bakı-Culfa dəmir yolu açıldı, bu da Bakı quberniyası ilə təkcə Naxçıvanın yox, Qərbi Azərbaycanın da ticari-iqtisadi və mədəni

* Kərbəlayi sözünün qısaldılmış forması. Bu və bundan sonrakı qeydlər müəllifindir.

əlaqələrinin inkişafına təkan verdi. Əsrin əvvəllərində qazanc dalınca yüzlərlə gənc sisianlı Naxçıvandan Bakıya yollanmışdı.

«Ərsuvar əmi də Əlirza kişi ilə birlikdə Bakı mədənlərində işləyirdi. Bir yay o doğma kəndlərinə gedəsi oldu, Gorusa qədər gəldi. Oradan qohumlarımızın yaşadığı Urud kəndi çox da uzaqda deyildi. Gorusda o, erməni millətçilərinin əlinə düşür, onu möhkəm döyüb, qaraciyərini zədələyirlər. Bu hadisə 1916-cı, ya da 1917-ci ildə baş vermişdi. Əmim heç ailə qurmamışdı. O, güc-bəla ilə özünü Uruda çatdırır, orada da vəfat edir. Bu, ailəmizin ilk qurbanı idi. Qurban əmim də cavan ikən hansısa xəstəlikdən dünyasını dəyişmişdi. Beləliklə, Kərbəlayi Cəfərin üç oğlu qalmışdı: Əlirza Bakıda işləyirdi, Qafarla atam isə kənddə qalıb qoyun otarırdı».

*(Süleyman Əliyevin söhbətindən).*

Rusiya imperiyasının süqutunun əsasını qoymuş 1917-ci ilin Oktyabr çevrilişlərinin əks-sədası milli ucqarlarda da şimşək kimi çaxdı. Comərdlilərin sakit və əmin-aman həyatı, bütün Zəngəzurun da cəlb edildiyi qanlı qarşıdurma nəticəsində alt-üst oldu.

## Faciələrdən keçən yeni həyat

Azərbaycanın xanlıqlar dövründə Zəngəzurun böyük bir hissəsi Qarabağ xanlığının, kiçik parçası isə Naxçıvan xanlığının tərkibində idi. 1828-ci ildə Türkmənçay müqaviləsi bağlanandan və Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Zəngəzur iki quberniya – Bakı və İrəvan arasında bölüşdürüldü. 1868-ci il fevralın 25-də Bakı, Tiflis və İrəvan quberniyalarının bir hissəsindən Yelizavetpol quberniyası yaradıldı. Bu quberniyanın ən böyük inzibati ərazi bölgüsü Zəngəzur oldu. Qafan, Gorus, Sisian, Mehri, Zəngilan, Qubadlı, Laçın onun tərkibinə daxil idi.

Musa Urud kitabında yazır: «1920-ci ildə Zəngəzurun əhalisi 2233 təsərrüfatda birləşən 224 min 197 nəfərdən ibarət idi. Əhalinin 70 faizini azərbaycanlılar təşkil edirdi. XX əsrin əvvəllərində Zəngəzurun ən böyük rayonu olan Sisianda 76 yaşayış məntəqəsi vardı, onlardan 58-də azərbaycanlılar yaşayırdı»[5].

Bir çox tarixi sənədlərin sübut etdiyi kimi, ermənilər Zəngəzura sonradan gəliblər, yerli əhalinin kökləri isə hələ 2700 il



bundan öncə Qara dəniz sahillərindən buraya köç etmiş türk tayfaları olan sakların nəslinə gedib çıxır.

Zaqafqaziya Demokratik Federativ Respublikasının qısamüddətli mövcudluğundan və üç müstəqil dövlət – Azərbaycan, Gürcüstan, Ermənistan yaranandan sonra daşnak hökuməti Zəngəzurun azərbaycanlı əhalisinin məcburi deportasiyası yolu ilə mövcud vəziyyəti dəyişdirmək qərarına gəldi. Nə Azərbaycan hökumətinin ərazi münaqişələrinin həll olunması üçün xüsusi komissiya yaratmaq təklifi, nə Azərbaycan Milli Şurasının İrəvanın Ermənistan Respublikasının paytaxtı kimi rəsmi şəkildə tanıması başları «Böyük Ermənistan» ideyası ilə dumanlanmış daşnakları yolundan döndərə bilmədi: «Ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək Naxçıvanda, Qarabağda və Zəngəzurda etnik təmizləmə siyasəti həyata keçirməyə başladılar. Nəticədə bu regionların dinc sakinləri Andranikin, Dronun və Njdenin quldur dəstələrinin məqsədyönlü genosidinə məruz qaldılar»[6].

Erməni talanlarından ziyan çəkmiş Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının müsəlman kəndlərindəki vəziyyəti təhlil edən Azərbaycanın Fövqəladə İstintaq Komissiyasının üzvü Mixaylovun məruzəsində Zəngəzurdakı həddən artıq ağır vəziyyət xüsusi qeyd olunur:

«Qəzanın müsəlman əhalisinin vəziyyətinin Azərbaycanın digər əyalətləri ilə müqayisədə daha da pisləşməsinin bir səbəbi də, burada erməni kəndlilərindən ibarət silahlı dəstələrdən əlavə, general Andranikin başçılıq etdiyi təlim görmüş erməni əsgərlərindən ibarət böyük hərbi hissələrin yerləşməsidir. Ətrafına silahlı erməni kəndlilərindən və əsgərlərdən ibarət böyük hərbi qüvvə toplayan Andranik Azərbaycan ərazisinə soxularaq, yəqin ki, Ermənistan Respublikası hökumətinin göstərişlərinə əsaslanaraq, müsəlman əhalisi qarşısında belə bir şərt qoydu: ya erməni hökumətinə tabe olmalısınız, ya da qəzanın ərazisini tərk etməlisiniz. Beləliklə də Zəngəzur qəzasını Ermənistan Respublikasının tərkibinə qatmağa cəhd göstərilirdi. Qəzanın kəndlərində dünyadan təcrid olunmuş şəkildə yaşamalarına, heç yandan müdafiə və kömək gözləmədiklərinə, yalnız bəzi kəndlərdə, həm də çox zəif silahlanmalarına baxmayaraq, müsəlman əhalisi ermənilərin tələblərinə tabe olmaqdan imtina etdilər. Azğınlaşmış ermənilər görünməmiş qəddarlıq nümayiş etdirdilər. Respublikalarının ərazisi-

ni genişləndirmək yolunda, hətta sığınacaq tapmaq üçün öz doğma yurd-yuvalarını könüllü şəkildə tərk edən müsəlmanlara da aman vermədilər, kəndləri yandırıb, əhalini vəhşicəsinə qətlə yetirir, mal-qaranı, evləri qarət edib, torpaq sahələrini viran qoyurdular»[7].

1918-ci ilin yay və payız mövsümü ərzində Zəngəzur qəzasının 115 kəndi dağıdılıb məhv edilmişdi. Onların arasında Heydər Əliyevin doğma yurdu Comərdli kəndi də vardı. Həmin kəndin erməni quldurları tərəfindən viran qoyulması barədə 1918-ci il 13 noyabr tarixli «Azərbaycan» qəzetində yazı dərc olunmuşdu.

Təəssüf ki, ADR hökumətinin yaratdığı Fövqəladə İstintaq Komissiyası öz işini başa çatdıra bilmədi, topladığı tarixi sənədlər və minlərlə şahid ifadələri uzun onilliklər boyu bolşeviklər tərəfindən məxfi saxlanıldı. Yalnız xalqın yaddaşı külə dönmüş kəndlərin faciəsi, son nəfəslərinə qədər ata ocaqlarını müdafiə edən zəngəzurluların qəhrəmanlıqları barədə həqiqətləri qayğı ilə qoruyaraq gələcək nəsillərə çatdırmışdır.

Məsələn, daşnaklar Comərdlini iki gün zəbt eləyə bilmədilər, çünki kənddə olan kişilər (əksəriyyət yaylaqlarda-dağlarda idi) var qüvvələri ilə, fədakarlıqla müqavimət göstərirdilər. Heydər Əliyevin böyük qardaşı Həsənin o vaxtlar 11 yaşı vardı və 1918-ci ilin uzaq avqust günlərinin dəhşətləri onun uşaq yaddaşında ömürlük dərin iz buraxmışdı.

Sonralar o Comərdli faciəsi barədə dostu akademik Budaq Budaqova söhbət açmışdı. O isə kitablarının birində bu xatirələri oxucularla bölüşür:

«1918-ci ilin faciələri Zəngəzura da gəlib yetişdi. Comərdliyə xəbər yayıldı ki, cənubdan erməni silahlı dəstələri kəndə doğru hərəkət edir. Comərdli camaatı bunu eşidib silahlandı və erməni dəstəsini dərədə əhatəyə alıb məhv etdi. Bundan bir müddət sonra qəzəblənmiş daşnaklar ikiqat qüvvə ilə kəndə hücum etdilər. Qoyun sürüsünü dağın döşündə otaran çobanları kimsə vaxtında xəbərdar edə bilmişdi: tez olun, sürüləri Naxçıvanın Əbrəqunis kəndinə yönəldin. Ermənilər kəndə hücum çəkir.

Daşnakların ikinci hücumu Comərdliyə saysız-hesabsız bədbəxtliklər gətirdi. O vaxt çoxları daşnaklarla vuruşaraq həlak oldu və ya itkin düşdü.



Həsənin əmilərindən biri 10 yaşlı oğlunu axtarıb tapandan sonra yəhərə oturdub atını çapdı, ancaq daşnak gülləsi uşağı ölümcül yaraladı. Həsənin o biri əmisi isə arvadı və südəmər körpəsi ilə kəndin kənarındakı mağarada, kahada gizlənibmiş (Süleyman Əliyevin dediyinə görə bu, Əlirza kişinin kiçik qardaşı Qafar imiş – ***E.A.***). Mağara uçurumun kənarında yerləşirdi. Ətraf əl içi kimi görünürdü, odur ki, Qafarın sərrastlıqla atdığı güllələr mağaraya yaxınlaşmağa cəhd edənlərə aman vermirdi. Atışma son gülləyə qədər davam etdi. Mağaraya soxulan daşnaklar Qafarı öldürdülər, cavan arvadının bədənini süngü ilə deşik-deşik elədilər, körpəninsə başını kəsdilər»[8].

Heydər Əliyevin qardaşı Aqil Əliyev isə nəslin faciəli aqibəti barədə anasının söhbətlərini belə xatırlayır: «Kəndimiz bir tərəfdən amfiteatr şəklində dağlarla əhatə olunmuşdu. Ovalığa, oradan da çaya yalnız bir çıxış vardı. Anam danışırdı ki, 1918-ci ildə Andranikin ordusu kəndi tamamilə əhatəyə aldı. Kim bacardısa, mühasirədən çıxa bildi. Nəslimizin ağsaqqalları qırıldılar. Anamın yeddi qardaşından biri də salamat qalmadı. Atamın da bir neçə qardaşından bircə o özü və Zeynalabdin əmim sağ qaldı».

«1917-ci ildə və 1918-ci ilin əvvəlində kənddə Bakıdakı hadisələrdən, ermənilərin yenə də baş qaldırdıqlarından xəbər tutdular. Bəziləri babama erməniləri yerində oturtmaq üçün silahlanmağı təklif etdi. Atam danışırdı ki, mən dağların başında qoyun otarırdım. Birdən gördüm ki, kəndin aşağılarından silahlı atlı dəstəsi çapıb keçdi. Bu, Andranikin quldur dəstəsi idi. Atam yenicə evlənibmiş, arvadı hamiləymiş, azad olmağına az qalıbmış. Onu qətlə yetirdilər. Cəfər babanı da, Gülcahan nənəni də öldürdülər».

*(Süleyman Əliyevin söhbətindən).*

Yaylaqdakılar xilas ola bildilər. Zəngəzur kəndlərinin əhalisi Naxçıvana və İrana üz tutdu. Zeynalabdin kişi Əlirzanın ailəsini – qucağında südəmər qızı olan Narıngülü və əmiuşaqları Həsənlə Hüseyni mühasirədən çıxara bildi. Onlar mal-qaranı qabaqlarına qatıb, əllərinə keçəni arabaya yığıb cığırla dağı aşıb Naxçıvana keçdilər. Yaxınlıqdakı Ərəfsə, Saltaq, Milax, Qazançı kəndləri qaçqınlarla dolu idi. Süleyman Əliyev danışırdı ki, Saltaq kəndin-

dən yuxarıda böyük Noraşen kəndi vardı. Onlar orada məskən saldılar. Dağ aşırımlarından keçən əzablı və qorxulu yollarda Əlirza ilə Narıngülün südəmər qızları öldü. Tezliklə Narıngül özü də iztirablara və doğmalarının itkisinə dözə bilmədi, şam kimi əriyərək dünyasını dəyişdi. Əlirza kişi ailə faciəsindən xəbər tutmadı, çünki bu vaxt o Bakıda neft mədənlərində işləyirdi.

«Zəngəzurda ermənilərlə münaqişələr başlandığı, camaatın öz doğma yurd-yuvasını qoyub qaçdığı barədə xəbərlər atama gedib çatmışdı. Atam yığışıb öz doğma yurduna gələnə qədər bizimkilər artıq kənddən çıxıb qaçmışdılar. Atam danışırdı ki, o, böyük çətinliklərlə, min bir əzab-əziyyətlə Naxçıvana gəlib çıxandan sonra piyada yolunu davam etdirmək istəyəndə, ona bildiriblər ki, Comərdlidə artıq bir nəfər də qalmayıb, ətraf yollarda isə Andranikin başkəsənləri vəhşiliklər, azğınlıqlar törədir. Atam yarı yoldan qayıtmalı olur. Dostunun yaşadığı erməni kəndinə çatır. Həmin erməni dostu onu gizlədir və deyir: «Yaxşı olar ki, gözə görünməyəsən, yoxsa səni öldürərlər. Sübh tezdən geri qayıdarsan». Səhər atam Naxçıvana qayıdır. Aradan bir müddət keçəndən sonra bizi axtarıb tapır».

*(Aqil Əliyevin xatirələrindən).*

Bu barədə Zeynalabdin kişinin söylədiklərini yadına salan Süleyman Əliyevin dedikləri:

«Əlirza əmi o vaxt Bakıda idi. Bakıdan Naxçıvana gələn qatarlar Tiflisdən və Yerevandan keçirdi. O eşitmişdi ki, Zəngəzurda talanlar olub, bizim yerlərdə Andranikin dəstələri vəhşiliklər törədib. Doğma yurda aparan bütün yolları erməni bandaları əhatəyə almışdı. Ona görə də öz ailəsini yalnız iki il keçəndən, sovet hakimiyyəti qurulandan, Zaqafqaziyada ehtiraslar səngiyəndən sonra tapa bildi. Əlirza əmi qatara minib Tiflisə qədər getdi, Yerevanda isə onu tutub saxladılar. Xeyli müddət yoxladılar, əzab verdilər, nəhayət, buraxdılar. Naxçıvana gəlib, uzun axtarışlardan sonra qardaşını tapdı.

Qardaşının Comərdlidəki faciələr və demək olar ki, bütün nəslin qırılıb-çatılması barədə söhbətlərini eşidəndə Əlirzanın hansı hisslər keçirdiyini və nə hala düşdüyünü təsəvvür etmək çətin deyildi. İntizarında olduğu uşaqları ilə görüşün sevinci arvadının və körpə qızının həlak olması xəbərindən qüssəyə döndü.



Dəhşətli hərc-mərclik, fəlakət dövrü onun ürəyində sağalmaz yaralar açdı. Ağır işə, hüznlü xatirələrin ağırlığına dözə bilməyən ürəyi 1943-cü ildə əbədilik susdu. Heydər Əliyevin atası nisbətən cavan yaşlarında, heç altmış yaşa çatmamış dünyadan köçdü.

...Hələliksə həyatını yaşamaq üçün özündə qüvvə tapmalı idi. Yaşamalı, işləməli, uzun ayrılıqdan sonra, demək olar ki, möcüzə ilə yenidən qovuşduğu iki yeniyetmə oğlunu böyüdüb, tərbiyə etməli idi. Kiçik qardaşı Zeynalabdin artıq Noraşendə işlərini qaydaya salmışdı. Növrəstə adlı uzaq qohumu ilə evlənmişdi, iki-üç ulaq alıb, çarvadarlıq edirdi. Eşşək müharibəyə qədər Naxçıvanda yerli əhali üçün əsas «ictimai nəqliyyat» rolunu oynayırdı, odur ki, kolxoza daxil olana qədər Zeynalabdin pis qazanmırdı. O, Əlirzanı dilə tutub Noraşendə qalıb kənd təsərrüfatı ilə məşğul olmağı məsləhət gördü. Əlirza isə qardaşına yük olmaq istəmirdi, Bakı mədənlərində işlədiyi illər ərzində torpaqdan soyumuşdu, ürəyincə olan işə can atırdı. Odur ki, gücünü-qüvvəsini toplayıb münasib bir iş tapmaq ümidiylə, uşaqları ilə birgə vilayətin mərkəzinə – Naxçıvan şəhərinə üz tutmağı qərara aldı.

İlk vaxtlar çox çətin idi. Dolanışıq üçün təsadüfi işlərdən yapışırdı. Böyük oğlu Həsən atasının çiyinlərinə düşən yükü yüngülləşdirmək məqsədilə günəmuzd işə düzəldi. Sonralar akademik Budaq Budaqov o günləri belə xatırlayırdı: «O ilk məvacibini evə gətirəndə Əlirza kişinin gözləri yaşarıb. Bu barədə mənə söhbət açan Həsən müəllim özü də kövrəldi, gözləri doldu»[9].

O illər Naxçıvan Zəngəzur qaçqınları ilə dolmuşdu. Əlirza kişi tez-tez qonşu kəndlərdə yaşayan yerliləri ilə rastlaşırdı. Bir-birindən hal-əhval tutandan sonra hərisliklə sorğu-sual edirdilər: hər kəs öz yaxınlarını, doğmalarını, qohum-qardaşını axtarır, möcüzə baş verəcəyinə ümid bəsləyirdilər. Bəlkə kimsə xilas olub, cəhənnəmdən çıxa bilib?

Bir gün bazarda həmkəndlisi, həm də uzaq qohumu olan (Comərdlidə hamı bir-birinin qohumu idi) İzzətə rast gələndə Əlirzanın gözləri sevincdən yaşardı. Qadını evlərinədək ötürməyi qərara aldı. Onlar qədim şəhərin dar, daş-kəsəkli küçələri ilə tələsmədən addımlayırdılar. Əlirza elə hey boğazına yığılan qəhəri udaraq, İzzətin üzləşdiyi məşəqqətlər, məhrumiyyətlər barədə kədərli, qəmli-qüssəli söhbətini dinləyirdi. O yanınca addımlayan iri, yaşılımtıl-boz gözləri olan bu girdəsifət, xoşsimalı göyçək gə-

linin ərini çox yaxşı tanıyırdı. Comərdlinin və Urudun ağsaqqalları Əlirza ilə Əbülfəzin dost olduqlarını, hətta bir müddət Bakıda neft mədənlərində birgə çalışdıqlarını yaxşı xatırlayırlar. Ermənilərin Zəngəzura hücumu ərəfəsində Əbülfəz doğmaları üçün darıxıb Comərdliyə gəlir. Sən demə, əcəl onu çəkib aparırmış. Qanlı qarşıdurmada İzzət, demək olar ki, bütün yaxınlarını: atasını, anasını, ərini, qardaşlarını itirmişdi. Heydər Əliyevin bacısı Şəfiqə xanım öz kitabında yazır ki, yalnız aradan 15 il keçəndən sonra anası öz qardaşı uşaqlarını – Məsməni, Səkinəni, Rzaqulunu, Humayı... axtarıb tapdı. İzzət xanım onları öz böyük ailəsinə qəbul etdi və onlar faktiki olaraq ona həyatdan erkən köçmüş bacı-qardaşlarını əvəz etdilər[10].

Əlirza həmkəndlisinə tez-tez baş çəkir, yoluxurdu. Özünün dolanışığı çətin olsa da, bacardığı qədər tənha qalmış dul qadına köməklik göstərir, qızı Suraya pay gətirir, könlünü şad edirdi. Bir ildən sonra isə Əlirza İzzətə ailə qurmağı təklif etdi. Artıq İzzət də bu azdanışan, başını qürurla dik tutan, təmkinli kişiyə möhkəm tellərlə bağlanmışdı. Onun oğulları Həsəni və Hüseyni də öz doğma balaları kimi sevmişdi. 1922-ci ilin yayında Əlirza kişi və İzzət xanım naxçıvanlı Nəcəfəli kişinin evində birotaqlı mənzil kirələyib xoşbəxt həyat sürmək ümidilə bir ailədə birləşdilər.

Bu kitabın qəhrəmanının doğulacağı ailənin faciəvi keçmişi o dövr üçün çox tipik idi. Yüzlərlə, minlərlə azərbaycanlı kişi və qadın vətəndaş müharibəsində həyat yoldaşlarını itirmişdilər. Çoxları kiçik yaşlı uşaqları, südəmər körpələri ilə dul qalmışdılar. Onları nakam taleləri, ümumi dərd-sərləri birləşdirirdi, bir-birlərinə arxa və dayaq olurdular, yetim qalmış uşaqlarını, özününkü, ya özgəninki deyə fərq qoymadan böyüdürdülər. Və bu əsrlərdən qalma mənəvi ehkamlar, yaxınının ağırlığını öz çiyinlərinə götürməyə hazır olmaq, zəifə kömək olub, onu qayğıyla isitmək tamamilə təbii hal kimi qəbul olunurdu. Hər halda balaca Suraya atalıq edən Əlirza kişinin alicənablığı və ya qadın nəvazişinin həsrətində olan oğlan uşaqlarının dərhal «ana» deyib çağırdıqları İzzətin dözümlülüyü heç kimdə təəccüb doğurmurdu. Bu, bizə – XXI əsrin adamlarına, əksər hallarda ikinci uşağı «əlavə yük» hesab edərək ondan imtina edən cavanlara Əlirza ilə İzzətin addımı



qəhrəmanlıq kimi görünə bilər. O illərdə isə çoxuşaqlı ailələr Azərbaycanda adi hal hesab olunurdu.

1923-cü il mayın 10-da Əliyevlərin ailəsində dördüncü uşaq dünyaya gəldi. Əlirza kişi uşağı İzzət xanımın xahişi ilə onun Zəngəzurda həlak olmuş sevimli qardaşının şərəfinə Heydər adlandırdı. Heydər bu yeni ailənin ilk övladı idi və bu, onun ailədəki xüsusi yerini müəyyən edirdi. Heydər Əliyevin kiçik bacısı Rəfiqə xanım bu kitab üçün xüsusi yazılmış xatirələrində qeyd edir: «Anam Heydəri çox sevirdi, onu hamıdan ayırırdı, ona xüsusi diqqət yetirirdi. Bu münasibət bizdə qısqanclıq, həsəd doğurmur, əksinə, bizə də sirayət edirdi. Biz ona pərəstiş edirdik».

Bu barədə Fatma Abdullazadə də «Doğulma anı» oçerkində yazır: «Heydər onun (İzzət xanımın – *E.A.*) ilki deyildi. Ancaq məhz bu uşağın doğulması ona nəinki sadəcə analıq sevinci, fərəhi verdi, həmçinin çətin günlərdə ona güc, qüvvə verən ali vəzifəsini anlatdı»[11].

Bu, yeni nəsillər dünyaya gətirmək kimi ali missiya idi. Bu, taleyin lənətə gəlmiş qəzavü-qədərinə meydan oxumaq idi. Bu körpə varlığın dünyaya gəlməsi sanki Əlirza ilə İzzətin yaşadıqları faciəli anların üstündən xətt çəkdi, yeni həyat, yeni sınaqlar üçün onlara güc, qüvvə verdi.

## Şərqin qədim qapısı

Müstəqil Azərbaycanın gələcək prezidentinin «kiçik Vətəni» 3500 illik tarixə malikdir. Naxçıvan barədə ilk məlumatı hələ eramızdan əvvəl II əsrdə Naxçıvanı şəhər adlandıran Klavdi Ptolomeyin «Coğrafiya» əsərində tapmaq olar. Şərqi Qərblə birləşdirən ticarət yollarının kəsişməsində yerləşən bu məmləkət daima qonşu dövlətlərin iddia obyekti olmuşdur. Naxçıvan Makedoniyalı İsgəndər ordusunun dağıdıcı hücumlarına da məruz qalıb, Bizans imperatorlarının hökmranlığına da dözüb, İranın, ərəblərin hakimiyyəti altına da düşüb. XI əsrdə Naxçıvanı Səlcuqlar talan edib, XIII-XIV əsrlərdə isə monqol-tatarlar. Məhz bu dövrdə Naxçıvanın alınmazlıq simvoluna çevrilən və hətta qüdrətli orta əsr fatehi Əmir Teymuru belə heyran qoyan Əlincə qalasının mühafizə sistemi yaradılır. Bu qala və onun qəhrəman mühafizəçiləri barədə məlumatlar bir çox ensiklopediyalarda yer alıb. Belə ki, sovet ta-

rixi ensiklopediyasının 10-cu cildində göstərilir ki, «Gürcüstanın və Azərbaycanın birləşmiş qüvvələri 14 il ərzində Əmir Teymura Əlincə qalasında müqavimət göstərmişlər»[12].

XVIII əsrin ortalarında Nadir şah imperiyasının süqutundan sonra tərkibinə Naxçıvan, Şərur, Ordubad, Mehri, Qafan və digər əyalətlərin daxil olduğu müstəqil Naxçıvan xanlığı yarandı. Rus-İran müharibəsinin sonunda – 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsinə görə Naxçıvan xanlığı Rusiyaya birləşdirildi.

1917-1920-ci illərdə bu vilayət öz tarixinin ən dramatik dövrlərindən birini yaşadı. Vətəndaş müharibəsi bütün Zaqafqaziyanı bürümüşdü, hakimiyyət əldən-ələ keçirdi, Naxçıvanın vəziyyəti daşnak Ermənistan hökumətinin təcavüzkar siyasətlərini yeritmək cəhdləri ilə daha da ağırlaşırdı.

1918-ci ilin yayında Naxçıvanın başının üstünü qara buludlar almışdı: Andranikin silahlı dəstələri Zəngəzuru alovdan və qılıncdan keçirərək vilayətin içərilərinə soxuldular. Müəlliflə söhbətində Heydər Əliyevin sevimli müəllimi, Naxçıvanın qocaman sakini Lətif Hüseynzadə həmin dövrü belə xatırlayır:

«1918-ci ilin iyulunda türklər Naxçıvana gəlməsəydilər, burada bircə nəfər də azərbaycanlı qalmayacaqdı. Andranik öz yolunda rast gəldiyi hər şeyi çalıb-çaparaq Xoy və Səlması keçərək Cənubi Azərbaycandan Culfaya gəlib çıxmışdı. Culfa körpüsünü uçurtmuşdu ki, türk ordusu gəlib ona çata bilməsin.

...Andranikin dəstələri şəhəri mühasirəyə alıb, ultimatum göndərdilər. Andranik bəyan etdi ki, Leninin və Şaumyanın göstərişi ilə o, Naxçıvanın hakimi təyin olunub və tələb etdi ki, bütün silahları gətirib təhvil versinlər. Sonra şəhərin məhəllələrini top atəşinə tutdular. Bir neçə gün də belə davam etsə idi, onlar Naxçıvanı alacaqdılar. Bu vaxt müsəlmanlar Kazım Qarabəkir paşanın yanına çapar göndərdilər. O, Ənvər paşa ilə birlikdə Şərq cəbhəsinin komandanı idi. Tezliklə onlardan cavab gəldi: möhkəm durun, ermənilərin şəhərə soxulmasına yol verməyin, köməyinizə gəlirik. İki gün yerli özünümüdafiə dəstələri Andranikin başkəsənləri ilə döyüşdülər. İki gündən sonra Andranikin ordusunun səngər qurduğu mövqeləri türk topları atəşə tutdu. Andranik vahimə içərisində qaçdı, Naxçıvan xilas oldu. Bütün millət şəhərin küçələrinə çıxaraq XI Türk Qafqaz ordu hissələrini salamlayırdı».



Birinci Dünya müharibəsindəki məğlubiyyətdən sonra Mudros sülh sazişinin şərtlərinə görə türk qoşunları Azərbaycanı, eləcə də Naxçıvan ərazisini tərk etmək məcburiyyətində qaldı. Qısa zaman kəsiyində regionda ingilislərin Naxçıvanı zəbt etməsi ilə süquta uğrayan Araz Türk Respublikası mövcud oldu.

1920-ci il aprelin 28-də Bakıda, iyulun 28-də Naxçıvanda sovet hakimiyyəti quruldu. Vilayətin ali orqanı – Naxçıvan İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi elan etdi. Lakin 1920-ci il dekabrın 1-də bolşeviklər rəsmi dekretlə Zəngəzurun qərb hissəsini – Qafan, Gorus, Sisian, Mehrini Ermənistanın tərkib hissəsi kimi tanıdılar. Beləliklə, Naxçıvan Azərbaycanın qalan hissəsindən təcrid olundu, bunun nəticəsində vilayətin muxtariyyət məsələsi xüsusi aktuallıq kəsb etdi. Xüsusilə də, Ermənistanın «fəhlə-kəndli» hökumətinin rəhbərləri daşnak sələflərinin yürütdüyü ərazi iddiaları siyasətindən əl çəkmədilər. 1921-ci ilin əvvəlində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə Naxçıvanda sorğu keçirildi. Məlum oldu ki, əhalinin 90 faizi Naxçıvan vilayətinin muxtariyyət statusu ilə Azərbaycanın tərkibində qalmasına səs vermişdi[13]. Lakin Naxçıvanın tarixi taleyində iki beynəlxalq müqavilə – Moskva (mart 1921) və Qars (oktyabr 1921) müqavilələri xüsusi əhəmiyyət daşıyır. Zaqafqaziyanın üç respublikası, eləcə də RSFSR və Türkiyənin dövlət rəhbərlərinin imzaları ilə möhkəmləndirilmiş bu müqavilələr Naxçıvanın Azərbaycanın tərkibindəki muxtariyyət statusunu rəsmən təsdiq etdilər.

*70 il sonra, 1992-ci ilin baharında blokada şəraitində yaşayan Naxçıvanı erməni təcavüzündən xilas edərkən Heydər Əliyev muxtar respublika üçün bu taleyüklü sazişləri xatırlayaraq, münaqişənin tənzimlənməsinə zamin olmaq xahişi ilə birbaşa Türkiyəyə kömək üçün müraciət edəcək. O günlərdə mən ondan o vaxtlar xüsusi müxbiri olduğum «Literaturnaya qazeta» üçün müsahibə almışdım. Söhbətimizin sonunda Əliyev «Ümid edirəm ki, münaqişə alovunu siyasi vasitələrlə söndürə biləcəyəm» – dedi. Və xahiş etdi ki, Qars müqaviləsi üzrə öhdəliklərini yerinə yetirdiyini əməli işdə nümayiş etdirən Türkiyənin rolunu hökmən xüsusi qeyd edim.*

1924-cü ilin fevralında Naxçıvan vilayəti Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrildi, 1926-cı ilin aprelində isə

Naxçıvanın ilk Konstitusiyası qəbul olundu. Buna baxmayaraq Moskvadakı güclü erməni lobbisinə arxalanan Ermənistan rəhbərliyi ərazi iddialarından əl çəkmirdi. «1929-cu ildə Zaqafqaziya MİK-nin qərarı ilə Naxçıvanın 650 kvadratkilometr ərazisi Ermənistana verilmiş, 1930-cu ildə Ermənistana verilən Azərbaycan torpaqları hesabına indiki Ermənistan Respublikasının Mehri rayonu yaradılmışdır. Bununla da Naxçıvanın quru yolu ilə Azərbaycanla əlaqəsi kəsilmişdir. Göründüyü kimi, ermənilər tərəfindən Naxçıvanın indiki blokadasının əsası hələ ötən əsrin 20-30-cu illərində qoyulmuşdur»[14].

Ancaq müəyyən müddətə bolşeviklər bütün ərazi iddialarını səngitdilər, 1922-ci il dekabrın 30-da isə vahid Sovet Sosialist Respublikaları İttifaqı yaradıldı və yeni cəmiyyətin təşəkkülü üzrə böyük tarixi eksperiment başladı. Hekayəmizin qəhrəmanı məhz belə bir tarixi dönüş dövründə, adı və tarixi cəmi beş aya sığan bir ölkədə dünyaya gəldi.

## Uşaqlığı keçən məhəllələr və küçələr

Deyirlər ki, insan xarakteri körpə, təzə-təzə özünü və ətraf aləmi dərk etməyə başladığı ilk uşaqlıq çağlarından formalaşır. Güclü və təkrarsız şəxsiyyətin təşəkkülü prosesi mürəkkəb və çoxcəhətlidir. Sovet dövrünün bioqrafları mühitin rolunu və təsirini vurğulamağa üstünlük verirdilər. O mühit ki, marksizm klassiklərinin əsərlərində deyildiyi kimi, şüuru, idrakı müəyyənləşdirir. Bu gün daha çox hər bir fərdin daxilindəki genetik koddan danışırlar. Guya əcdadlarından miras qalmış genlərin cəmi, insan xarakterinin mahiyyətinin əsasını təşkil edir.

Yəqin ki, həqiqət həmişəki kimi orta həddədir. Subyektiv amilləri də inkar etmək olmaz, çünki son məqamda şəxsiyyət özü-özünü yaradır. Ancaq ailə tərzi, məişət xüsusiyyətləri, mühitin özünəməxsusluğu və ənənələri kimi anlayışları da hesaba almaq lazımdır. Heydər Əliyevin mümkün qədər tam tərcümeyi-halını yazmağa cəhd etdiyim üçün mənə onun uşaqlıq çağlarının maddi və mənəvi reallıqlarını əks etdirən hər hansı məişət təfərrüatları, ən kiçik detallar belə əhəmiyyətli və maraqlıdır.



Heydər Əliyevin qardaşı Aqil Əliyevlə, uşaqlıq və gənclik dostu İbrahim İsmayılov və Dövlət Məmmədovla*, Heydər Əliyevin yay tətillərində getdiyi Urud kəndinin və Naxçıvanın ağsaqqallarının söylədikləri çox köməyimə çatdı. Əliyevin bacısı Şəfiqə xanım öz kitabında anası İzzət xanımın kövrək portretini yaradıb. Yeniyetmə Heydər haqqında, onun texnikumda oxuduğu illər barədə mənə onun müəllimi Lətif Hüseynzadə danışıb. Elə Prezidentin özü də ömrünün son illərində dəfələrlə «kiçik Vətən»i ziyarət edərkən «bəxtəvər çağlar»dan hər dəfə təzə-təzə təfərrüatları yada salırdı.

Mozaikanın rəngarəng parçaları kimi bütün bu söhbət və xatirələrdən kifayət qədər bütöv bir mənzərə yaranır. Həmin mənzərəni oxucuların diqqətinə çatdırırıq.

* * *

Böyük oğlanları Heydər və Aqil dünyaya gələndən sonra Əlirza kişi yenə də Bakıya yollandı. 1930-cu ilədək o, neft mədənlərində qazmaçı işləyərək, qazancını ailəsinə göndərdi. Bir qədər pul yığandan sonra ər-arvad Zaviyə məhəlləsində xudmani bir ev aldılar. Qəhrəmanımızın uşaqlıq illəri bu məhəllədə keçib. Ömrünün qürub çağında o uşaqlıq çağlarının şahidi olan küçələri belə xatırlayırdı: «Puşkin küçəsi budur. Bu küçə axıra qədər, Şahab məhəlləsinə qədər Puşkin küçəsidir. Özü də deyə bilərəm ki, Puşkin küçəsi yuxarıdan Əlixan məhəlləsindən gəlib keçir və Şahab məhəlləsinin axırında qurtarır. Mən sonralar bəzən deyirdim ki, bu küçəyə Puşkinin adı nə vaxt verilibdir. Puşkinin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Naxçıvanın mütəfəkkir adamları, gərək ki, o vaxt Sidqi, başqa bir-iki nəfər də olmuşdu, şairə öz münasibətlərini bildirmək üçün bu böyük küçəni Puşkin küçəsi adlandırmışlar. Mən də burada doğulmuşam. Puşkin küçəsi ilə gedəndə, balaca bir döngə vardı, elə idi ki, iki adam bir-birinin yanından keçəndə toqquşurdu. Belə bir dar küçə idi, adı da «Dar küçə» idi. Bu küçəyə heç fayton və araba da girmirdi. Orada atamın balaca bir həyəti var idi, mən orada doğulmuşam. Allaha şükürlər olsun ki, o yer qaldı. Düzdür, bir az dağılmışdı və mən 1990-cı ildə burada olanda atamın yurdunu abadlaşdırdım.

* İbrahim İsmayılov – Azərbaycanın əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor. Dövlət Məmmədov – respublikanın əməkdar müəllimi.

Mən buraya gələndə elə orada qalıram. Mən bunu sevirəm. Çünki orada doğulmuşam»[15].

30-cu illərdə dalanın adı «sovetləşdirildi» və o, məşhur qütb səyyahının şərəfinə Papanin küçəsi adlandırılmağa başladı. Yerli ağsaqqallar, elə gənclər də həmin dalanı əvvəlki adı ilə adlandırırlar. Bu yaxınlarda küçənin adını dəyişdirdilər. İndi küçə artıq vaxtilə Naxçıvanın məşhur aktyoru olmuş Səməd Mövləvinin adını daşıyır. Mənə bu küçədə olmaq, sakinləri ilə görüşüb söhbət etmək, yeniyetmə Heydərin sevimli marşrutu – Əlixan məhəlləsindən Şahab məhəlləsinədək geniş Puşkin küçəsindən keçmək nəsib oldu. Naxçıvanda rus şairini əvvəlki kimi sevirlər, odur ki, küçənin adını dəyişməyiblər. Ancaq ətrafdakı qalan hər şey tanınmaz dərəcədə dəyişib. Əliyevin atadan qalma köhnə evi də qalmayıb. Onun yerində, hələ Prezidentin sağlığında təzə, əzəmətli bir bina ucaldılıb.

Lakin qəhrəmanımın qohumlarının və uşaqlıq dostlarının xatirələri mənə Heydər Əliyevin ömrünün 27 ilini keçirdiyi evin ümumi görünüşünü canlandırmağa kömək etdi.

Yerdən tikilmiş birmərtəbəli ev küçəyə tərəf uzadılmışdı, ona görə də giriş qapısı birbaşa dəhlizə açılırdı. Dəhlizin sağ və sol tərəfi boyunca iki otaq yerləşirdi: sol tərəfdəki nisbətən kiçik, sağ tərəfdəki isə böyük otaq idi. Pəncərələrin altında zirzəmi yerləşirdi, burada yay vaxtı ərzaq saxlayırdılar. Dəhlizin sonundakı qapı gil və palçıqdan hörülmüş hasara alınmış kiçik həyətə açılırdı. Gildən-palçıqdan tikilmiş evin fasadı, küçə tərəfdən qırmızı kərpiclə hörülmüşdü. Aqil Əliyev danışırdı ki, Naxçıvanda hələ inqilaba qədərki vaxtlardan bişmiş qırmızı kərpic istehsal edən üç zavod fəaliyyət göstərirdi. 20-ci illərdə kərpic bu yerlərdə əsas tikinti materialı idi. Yeri gəlmişkən, onu da qeyd edək ki, XII əsr Azərbaycan memarlığının ən gözəl incilərindən olan Möminə xatun türbəsinin tikintisində də həmin kərpiclərdən istifadə olunub*.

Sonralar, qırxıncı illərin əvvəllərində Heydər Əliyev özü üçün ayrıca otaq düzəldərək, tikiliyə artırmalar etmişdi. Doğrudur, otaq

* Türbə 1186-cı ildə Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin arvadının şərəfinə ucaldılıb. Bu mavzoley bütün Yaxın Şərqdə memarlıq məktəbinin əsasını qoymuş Əbubəkr Əcəmi Naxçıvaninin yaradıcılığının zirvəsi hesab olunur.



çox balaca alınmışdı. Naxçıvanlı ağsaqqallardan biri – Fikrət Qədimov mənimlə söhbətində onun tikintisi ilə bağlı əhvalatı təbəssümlə xatırlayır: onun arvadı Müzəyyən Heydərlə qonşuluqda yaşayırmış. Müzəyyənin anası Ələviyyə isə İzzət xanımla çox yaxın rəfiqə imişlər. «Yaxşı xatirimdə deyil, ya 1942-ci, ya da 1943-cü ildə Heydər evlərinin böyründə ayrıca bir otaq tikməyi qərara aldı. O, artıq yaraşıqlı bir oğlan olmuşdu, NKVD*-də onunla birlikdə işləyən dostları yanına gəlib-gedirdi. Ancaq həyətdə tikinti üçün yer çox az idi. Həyətin o biri tərəfində qonşuluqda isə Səkinə adlı yaşlı qadın yaşayırdı. Qaynanamla arvadım da daxil olmaqla bütün qonşular həmin qadını dilə tutdular ki, öz torpaq sahəsindən bir qədər ayırıb Heydərə versin ki, otaq bir qədər böyük alınsın. O isə heç cür razılaşmırdı, çox qəlbiqara qadın idi. Heç bir metr də yer vermədi. Ancaq Heydər yenə də onun yaşına hörmətlə yanaşır, pul qazanmağa başlayanda ona hədiyyələr alırdı».

Ümumiyyətlə, Əliyevlər qonşularla çox səmimi münasibətdə olublar. Burada hamı bir-biri haqqında hər şeyi bilir, demək olar ki, böyük bir ailə kimi yaşayırdılar.

«Böyüklər də, kiçiklər də bir-biri ilə dostluq edirdilər. Qonşularımız böyük həyətdə yaşayırdılar. Həyətin sahibi restoran müdiri işləyən Həbib kişi yaşıllığı, bağ-bağatı çox sevirdi. Həyətlərində yüzdən artıq ağac vardı. Yanaşı yaşayırdıq, evlərimizin arasındakı hasarda qapısız doqqaz var idi. Qonşularımızla çox yaxın münasibətdə olduğumuzdan bir-birimizə birbaşa gəlib-getmək, küçəni hərlənməmək üçün bu keçiddən istifadə edirdik. Evimizin o biri tərəfində isə qonşumuz Mir Məhəmməd Ağa yaşayırdı. Arvadının adı Bəyimxanım idi, övladları yox idi. Onlarla da aramızda belə keçid vardı. Bəyimxanım uşaqlıqdan bizə ana kimi baxırdı. Evimizin arxasında isə Kiçikxanım adlı qadın qızı Xurşudla yaşayırdı. Onlarla da çox mehriban münasibətdə idik. O vaxtlar, ümumiyyətlə, qonşular çox sıx, yaxın münasibətdə yaşayırdılar, bir-birinə həyan olur, xeyir-şərinə yarayır, etibar edirdilər. İndiki kimi kiməsə kəf gəlmək, paxıllıq hissləri yox idi. Heç kimin qapısında kilid, qıfıl olmazdı».

*(Aqil Əliyevin xatirələrindən).*

* Xalq Daxili İşlər Komissarlığının rus dilində qısaldılmış adı.

Əliyevlərin evinin döşəməsi torpaqdan idi. Belə döşəmələrə adətən alebastr sürtüb rəngləyirdilər. Əvvəlcə həsir və palaz döşəyir, üstündən isə xalça sərirdilər. Döşəmədə xüsusi balışların – mütəkkələrin üstündə otururdular. Doğrudur, texnikuma daxil olana qədər təqribən bir ay Əliyevlərin evində qalan Dövlət Məmmədovun dediyinə görə, böyüklər, eləcə də Heydər şəhərlilərsayağı masa arxasında nahar edirdilər. Böyük otaqda çarpayı qoyulmuşdu, onun üstünə düz tavana qədər yorğan, döşək, balış yığılmışdı. Bir də ki, Əliyevlərin evində olmaq qismətinə düşən adamlar dəmir sobanı da yaxşı xatırlayırlar. Evin ortasında qoyulmuş bu soba ətrafa xoş hərarət və ləziz yeməklərin ətrini bəxş edirdi. Heydər Əliyevin yaşıdı, yaxın dostu İbrahim İsmayılov kitabın müəllifi ilə söhbətlərində xatırlayırdı ki, «bəzən biz atılıb-düşüb, doyunca oynayandan sonra onlara gəlirdik. İzzət xala bizi yedirtməmiş buraxmırdı. O, hər dəfə bizi kökəyə qonaq edirdi. Yadımdadır ki, onların evində odunla və daş kömürlə yanan dəmir soba vardı. Bu sobadan o, həm xörək bişirmək, həm də xəmirdən şirniyyat hazırlamaq üçün istifadə edirdi. Hətta o da xatirimdədir ki, İzzət xala bu sobada bizim üçün kabab da bişirirdi. Ancaq bu, biz bir qədər böyüyəndən sonra olmuşdu. Biz Heydərə odun yarmaqda və onları qış üçün zirzəmiyə səliqə ilə yığmaqda kömək edirdik».

Naxçıvanlılar ev heyvanlarından pişik saxlamağa üstünlük verirlər, çünki onlar kəsəyənlərlə, siçan-siçovullarla mübarizədə sadiq köməkçidirlər. Əliyevlərin həyətində də pişik vardı. Həyətlərdə it, demək olar ki, saxlamazdılar. İbrahim İsmayılov xatırlayır ki, uşaqlıqda onları qorxudurdular ki, itlərlə oynamaq olmaz, onların tükləri insan orqanizminə düşəndə müxtəlif xəstəliklər törədə bilər. Bundan əlavə, İbrahim müəllim deyirdi ki, beş-altı yaşında balaca Heydəri bir küçə iti qapıbmış. Odur ki, o itlərdən çəkinir, kənar gəzirdi. Bundan əlavə, İzzət xanım ev quşları saxlayırdı, toyuqlar həyətdə gəzişir, səhər tezdən evin sakinlərini xoruz banı yuxudan oyadırdı.

Əliyevlərin həyəti böyük olmasa da, səliqəli idi. İzzət xala həyətdə ləklər salıb, göyərti – göy soğan, keşniş, şüyüd, cəfəri əkmişdi. İzzət xanımın qızı Şəfiqə xatırlayır ki, «anam həyətdə divar boyu qızılgül kolları əkmişdi. Əsil qızılgül itburnu çiçəyi



kimi beş ləçəkli olur. Ondan gülab çəkmək, mürəbbə bişirmək üçün istifadə edərdik. Evimizdən həmişə qurudulmuş qızılgül ləçəklərinin və gülabın ətri gəlirdi. Anam ləçəklərdən gül mürəbbəsi bişirərdi».

*Qızılgüllərə məhəbbət Heydər Əliyevi bütün həyatı boyu müşayiət edəcək. O, respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olanda, ilk növbədə, şəhər rəhbərliyinə Bakıda çoxlu qızılgül kolları basdırmağı tapşırmışdı. Bir dəfə Bakı Şəhər İcraiyyə Komitəsinin sədri Aydın Məmmədov «birinci»nin qəbulunda şikayətlənmişdi: meydanlarda, parklarda, xiyabanlarda qızılgüllər əkirik, camaat isə kolları qırır, gülləri oğurlayır. Heydər Əliyev isə ona belə demişdi: «Eybi yoxdur, sən əkməyində ol, insanları gözəllik görməyə alışdır. Axır ki, onlar parkları viran qoymaqdan bezəcəklər».*

Həyətdə bir neçə ərik, göycə, alça, gavalı ağacı vardı. Naxçıvan göycəsi bütün Zaqafqaziyada məşhurdur, ancaq bu yerlərdə bitir. Turşməzə, sulu meyvələri mayda, göycə göy olanda yeyirlər. Heydər göycəni çox sevirdi, bir dəfə hətta göycə ağacına gavalı qələməsindən calaq da etmişdi.

«Həyətimizdə çəpərin dibində tut ağacı bitmişdi. Naxçıvanda evin qabağında tut ağacı əkmək adətdir, bu ağac daş kimi bərkimiş torpaqda bitir. Qonşularımızın hamısında tut ağacı vardı. Səhər saat yeddidə yatağımızdan qalxan kimi ağaca dırmaşıb doyunca tut yeyəndən sonra səhər yeməyinə başlayırdıq. Ağappaq tutlar iri və bal kimi şirin idi. Həyətimizdə qəribə armud ağacımız da vardı. Bu armudlardan bütün Naxçıvanda yox idi. Doğulub boya-başa çatdığımız bu evi atam əsrin əvvəllərində qonşumuz Mir Məhəmməd Ağadan almışdı. Onun iki evi vardı – birini bizə satmışdı, o birində də özü qalırdı. Belə deyirdilər ki, bu armud ağacını o ya İrandan, ya da hardansa başqa bir yerdən gətirib əkmişdi. Bu, nəhəng, qollu-budaqlı ağacın meyvələri noyabrın axırınadək ağacda qalırdı, armudların hər biri az qala bir kiloqram ağırlığında, özü də daş kimi bərk idi. Biz armudları dərib evə gətirir, cürbəcür ərzaq ehtiyatı, şoraba yığdığımız otaqda saxlayırdıq. Həmin otaq heç vaxt isidilmədiyindən çox soyuq olurdu. Anam süpürgə düzəldilən kollardan cod çubuqlar qırıb dirəklərə bağlayır, armudları saplağından həmin asılqandan asırdı, buna bizim yerlərdə «milax» deyirlər. Armudlar bir qədərdən sonra yumşalır, dondurma kimi soyuq, ətirli, şirin olurdu. Marta qədər qalırdı. O

vaxtlar iqlim indiki kimi deyildi, çox sərt keçirdi. Qışda meyvə tapmaq müşkülə dönürdü. Bir də baxırdın ki, qapımız döyüldü. Açıb görürdük ki, qarşımızda tanımadığımız bir adam dayanıb. O, anamdan xahiş edirdi:

– Bacı, evimizdə xəstəmiz var. Eşitmişik ki, sizdə armud olur.

Anam anbardan bir neçə armud gətirib xəstəyə pay göndərirdi.

Biz Bakıya köçəndən sonra armud ağacı quruyub məhv oldu». *(Aqil Əliyevin xatirələrindən).*

Yaxınlarının söhbətlərindən məlum olur ki, İzzət xanım çox qənaətcil, hər şeyin yerini bilən ev sahibəsi imiş. «Qızılgülün ləçəklərindən anam mürəbbə bişirərdi. Artıq qalan gül ləçəklərindən gülab çəkər, gülqənd edərdi. Gülün ləçəklərini qənd tozu ilə döyüb ona zəncəfil, darçın qatardı. Bu, mədə və soyuqdəymə xəstəliklərində istifadə olunan ən təsirli, əvəzi olmayan dərman hesab edilirdi.

Həyətimizdə üzüm olsa da əmim bizə üzüm göndərərdi. Anam sirkə qoyardı. İri küpələrdə qoyulmuş sirkə 40 günə gələrdi. Anam lazım olan qədər götürüb, yerdə qalanına həyətdən yığdığı meyvə-tərəvəz, şaftalı, gavalı, xiyar, göy lobya, göy pomidor tökərdi. Bütün qış boyu sadaladığım bu meyvə-tərəvəz sirkədə qalardı. Buna bizdə həftəbecər deyərdilər. Anam heç bir meyvə-tərəvəzi istifadəsiz qoymazdı. Elə buna görə də evimizin bütün ehtiyatı vardı».[16]

Nəhayət, Əlirza kişi Naxçıvanda stansiyada daimi iş tapandan sonra, ona dəmiryolçu olduğuna görə böyük torpaq sahəsi verdilər. Əliyevlər ailəsi orada yulaf əkir, yemiş, qarpız yetişdirirdi. Buğda və paxlanı qışa ehtiyat saxlayırdılar. Ümumiyyətlə qış üçün tədarük əvvəlcədən edilirdi. Bu barədə Aqil müəllim bunları söyləyir:

«Yayda, ya da payızda imkanı olanlar bir, iki, üç qoyun alır, onu kəsib ətini qovurur, gil küpələrə doldurub, üstünə quyruq yağı tökür, ağzını bağlayıb zirzəmidə saxlayırdılar. Zirzəmi soyuducudan da sərin olurdu. Qovurmanı oktyabrın sonunda hazırlayır və bütün qışı saxlayırdılar. Qışda ondan istənilən yeməyi hazırlayırdılar. Qovurma çiy ətdən ləzzətli olurdu. Xatirimdədi, anam küpədən ət çıxarıb, qovrulmuş soğan və kartof qatıb bozbaş hazırlayır, ya da ətin yumşaq yerindən götürüb bişmiş noxud qatır,



üstünə yumurta vurub səhər yeməyində bizə verirdi. Çox dadlı və tutumlu səhər yeməyi olurdu. Qış üçün 2 pud undan əriştə kəsir, onu qovurur, torbalara yığırdıq. Buğdadan isə yarma hazırlayırdıq. 50-100 kiloqram da kartof alırdıq, odur ki, qışda evimizdə hər bir ehtiyatımız olurdu».

*Heydər Əliyev Naxçıvan yeməklərini çox sevirdi. Evdəkilər danışır ki, o tez-tez Naxçıvansayağı bir yemək hazırlamağı xahiş edirdi. Moskvada işləyəndə Naxçıvan mətbəxi və meyvələri üçün çox darıxırdı. Naxçıvanın Ali Məclisinin sədri Vasif Talıbov mənimlə söhbətində prezidentin ömrünün son illərilə bağlı qəribə bir əhvalatı yada saldı. Məlumdur ki, Əliyevi müalicə edən həkimlər onu ciddi pəhrizdə saxlayırdılar. 2002-ci ildə o, bir sıra tədbirlər keçirmək üçün doğma Naxçıvana gəlir. Birinci gün ona yemək gətirəndə Vasif Talıbovun üzünə baxıb, ciddiyyətlə soruşur: «Bu nədi belə?». Vasif müəllim izah eləməyə çalışır ki, həkimlər pəhriz yeməklərindən başqa yeməyə icazə vermirlər. Prezident yeməyi kənara itələyib deyir: «Qoy cəhənnəm olsunlar! Onlar nə bilirlər. Mənə Naxçıvan yeməklərindən bir şey hazırlayın». Beləliklə, həkimlərin tövsiyələrinin əksinə olaraq, Heydər Əliyev Naxçıvansayağı yeməkləri yeyir. Həkimlər dəhşətə gəlirdilər. Bir neçə gündən sonra analizlərin nəticələrini görəndə isə gözlərinə inanmadılar: Prezidentin sağlamlıq durumu və ürək fəaliyyəti bütün göstəricilər üzrə xeyli yaxşılaşmışdı. «Bu möcüzədir, ancaq biz bu möcüzənin izahını tapa bilmirik» – deyə həkimlər heyrətlərini bildirdilər. Ancaq heç bir möcüzə baş verməmişdi – sadəcə olaraq Heydər Əliyev Vətən torpağının üstündə gəzir, saf dağ havasını udur, büllur bulaqların suyundan içir, uşaq vaxtı anasının bişirdiyi təamlardan yeyir, ona görə də özünü əla hiss edirdi.*

Naxçıvan kəskin kontinental iqlim zonasına aiddir, burada temperatur fərqləri böyük olur. Qışda termometr -30 dərəcəyə qədər enə, yayda isə 40 dərəcədən də yüksəyə qalxa bilər. Aqil Əliyev deyirdi ki, uşaqlıq dövründə Naxçıvanda qar bahar gələnə qədər yerdə qalırdı: «Səhər yuxudan oyanıb görürdün ki, az qala adam boyu qar yağıb. Hər səhər bir köynəkdə evin damına çıxır, ordan qarı kürəyir, həyətdə yolu qardan təmizləyir, yalnız bundan sonra səhər yeməyinə otururdum. Hamı da mənim kimi. Bazarda xüsusi adamlar olurdu ki, xəstələr, tək yaşayan ahıl adamlar onla-

rı bu işləri görmək üçün aparırdılar. Cüzi pulla onlar həyət-həyət gəzib, damlardan qarı təmizləyirdilər. Həyətlərin ətrafına yığılan qar topaları yalnız martda əriməyə başlayırdı».

Yay aylarında bütün məhəllə «köçünü» həyətə salardı. Həyətdə yemək hazırlayır, həyətdəki geniş taxtın üstünə palaz salıb elə açıq havada böyür-böyürə yatardılar. Həyətin içəri hissəsində, təmiz, ancaq bir qədər şor sulu dərin quyu vardı. Həddən artıq təmizkarlığı ilə fərqlənən Heydər səhərlər quyudan vedrə ilə su çəkib böyük həvəslə yuyunardı. Bəzən quyunun suyu quruyurdu, o vaxt Əlirza kişi, ya da İzzət xanım kənkan çağırır, o da qalın kəndirlə quyunun lap dibinə enirdi. Həyət uşaqları quyunun ətrafına toplaşıb nəfəs çəkmədən kənkanın hərəkətlərini izləyirdilər. Quyuda yenidən su görünəndə möcüzə kimi qəbul edilir, təmizlənəndən sonra quyudan çıxan ilk bir vedrə su uşaqların sevinci, şadyanalığıyla qarşılanırdı.

Ahıl yaşlarında naxçıvanlılarla görüş zamanı prezident onun üçün əziz olan uşaqlıq xatirələrini canlandırmış və onlara yeni-yeni ştrixlər əlavə etmişdi:

«Puşkin küçəsinin yuxarı hissəsindən yaxşı su axırdı, anam və böyük bacım vedrələrlə oradan su daşıyırdılar.

Bundan başqa, o vaxtlar Naxçıvanda suyu təmizləmək üçün xüsusi daşlardan süzürdülər. Görürəm ki, çoxunuzun bunlardan xəbəri yoxdur. Daşı ovub oyuq açırdılar. Suyu həmin oyuğa tökürdülər, altına da qab qoyurdular. Süzülən damcı-damcı su həmin qaba yığılırdı. Həmin sudan çay və yemək hazırlamaq üçün istifadə edirdilər...»[17].

Mahaldakı bütün evlər kimi, Heydər Əliyevin evinin də konkret ünvanı vardı: Papanin küçəsi, 28. Ancaq yerli camaat öz küçələrinin yeni adlarına uzun müddət alışa bilmirdilər. Öz aralarında, eləcə də gəlmələrlə söhbət zamanı öz yaşayış yerlərini bu və ya digər məhəllələrlə tanıtmağa çalışırdılar. Naxçıvan başdan-başa bu cür məhəllə-kvartallara bölünürdü. Misal üçün, Heydər Əliyevin ailəsi Zəviyə məhəlləsində yaşayırdı. Mən Heydər Əliyevin müəllimi Lətif Hüseynzadə ilə görüşənə qədər heç kim bu adın mənşəyi ilə bağlı bir söz deyə bilmirdi.

Naxçıvanın qocaman sakinlərindən olan Lətif müəllimin sözlərinə görə, əvvəllər bu məhəllədə Bəktaş təriqətinin davamçıları



olan Bəktaşilər* yaşayırmış. Onların çoxusu Türkiyədən köçüb gəlibmiş. Bəktaşilər təcrid olunmuş şəkildə yaşayır, onların baxışlarını və həyat tərzini bölüşə bilməyənlərdən kənar gəzməyə çalışırdılar. Ona görə də onları münzəvilər (zəviyə – künc-bucaq sözündən götürülüb) adlandırırdılar. Yəni «küncə, bucağa sığınanlar», insanlardan qaçanlar, kənarlaşanlar, təcrid olunanlar. Adi şiə məscidlərinə getmək istəmədiklərindən onlar özləri üçün yeni məscid tikməyi qərara aldılar. Ancaq tikinti başa çatmadı. Qırmızı kərpicdən tikilən gözəl binanı elə «Zəviyə məscidi» də adlandırdılar. Bir müddət boş qalan bina sovet hökuməti gələndən sonra uşaqlar üçün «Pionerlər evi»nə çevrildi. Sonralar ona alman kommunisti Ernst Telmanın adını verib klub kimi istifadə etməyə başladılar.

E.Telman kim olub, Naxçıvan əyalətilə onun nə əlaqəsi var, bunu heç kim dəqiq bilməsə də, kluba böyük həvəslə gedirdilər. Xüsusilə də, orada film nümayiş etdiriləndə. 30-cu illərin ortalarında tədricən səssiz filmləri səsli filmlər sıxışdırıb aradan çıxarmağa başladı. 1936-cı ildə Naxçıvanda ilk səsli filmin nümayişi oldu.

«Heydərlə mən klubda göstərilən, Duqlas Ferbenks çəkilən bütün filmlərə dəfələrlə baxmışdıq, Çarli Çaplinin filmlərini çox xoşlayırdıq. Əlbəttə ki, «Volqa-Volqa», «Şən uşaqlar» kimi klassik sovet filmlərini də. Heydərin qardaşı Aqil kinomexanikin köməkçisi olduğundan bizim üçün seanslara pulsuz getmək imkanı yaradırdı. O uşaqlıqdan çox işgüzar, əməksevər oğlan idi. Əvvəlcədən gəlib hansı filmi göstərəcəklərini bildirirdi. Biz də Heydərlə gedirdik. Bizim pulumuz yox idi. Bir seansın qiyməti isə 25 qəpikdən 50 qəpiyə qədər idi».

*(İbrahim İsmayılovun xatirələrindən).*

«Vaxtımızın çoxunu Pionerlər evində keçirirdik. Təxminən beşinci sinifdən etibarən biz məktəbdən gəlib, yeməyimizi yeyib, dərslərimizi hazırlayır, sonra isə ora gedirdik – dama, şahmat oynayır, kinoya baxırdıq. Şəhərimiz kiçik olduğundan heç bir nəqliyyat işləmirdi, odur ki, piyada gedirdik. Valideynlərimiz də bizdən arxayın idilər, bilirdilər ki, biz Pionerlər evindəyik. Orada

---

* Bəktaşi – İslamın XII-XIII əsrlərdə yaranmış, Türkiyədə və Balkanlarda geniş yayılmış sufi cərəyanının davamçıları.

meydançası olan kiçik bir bağ vardı, bu bağda bizə yemək verirdilər. Yay vaxtı biz ora səhər gedir, axşam saat altıya qədər orada qalırdıq. Səhərlər də, günorta da orada yemək yeyirdik. Axşam isə evimizə gedirdik. Bu da, yayda pionerlərin asudə vaxtlarını keçirməyin bir forması idi».

*(Aqil Əliyevin xatirələrindən).*

30-cu illərin ortalarında bu klubda həvəskar uşaq teatrı fəaliyyətə başlayacaq və burada gənc Heydərin qeyri-adi aktyorluq istedadı üzə çıxacaq. Onun bu məharətindən mən bir qədər sonra bəhs edəcəyəm. Hələliksə, keçən əsrin 20-ci illərinin sonu, 30-cu illərinin əvvəllərinə qayıtmaq, kərpic zavodunun arxa tərəfindəki boş sahədə aşıq-aşıq oynayan və ya şəhər körpüsünün altından axan Naxçıvançayın sularında üzən naxçıvanlı balalarını təsəvvürünüzə gətirmək istəyirəm. Çayın ən dərin yerinə üzüb suyun altında düz iki dəqiqə qalaraq, növbəti mərci udan kim idi? Əlbəttə ki, hər bir uşaq dəstəsinin şəriksiz lideri Heydər.

## Uşaqlıq oyunları

Mən Heydər Əliyevin qardaşlarından, uşaqlıq dostlarından xüsusi maraqla soruşurdum ki, onlar boş vaxtlarını necə keçirirdilər, hansı oyunları oynayırdılar, yay və qış tətillərində nə ilə məşğul olurdular. Bəziləri Heydərin yaşına uyğun olmayan, qeyri-adi ciddiliyini, təmkinliliyini, vaxtının çoxunu kitab oxumaqla keçirdiyini qeyd edirdilər. Ancaq onun kitablarla yanaşı, başqa məşğuliyyətləri də vardı. Axı o həm də dəcəl, cəsarətli, diribaş bir oğlan idi. O da başqa uşaqlar kimi bəzən elə vəziyyətlərlə üzləşirdi ki, bədənində qançırlar, çapıqlar qalırdı.

İbrahim İsmayılov o illəri belə xatırlayır: «Yadınızdadır, Heydər Əliyev bizim alça oğurluğumuzdan danışırdı. Bax, bu «işə» onunla mən birgə getmişdik. Fərzəlibəyov soyadlı məşhur professor vardı, uroloq idi. Atası Müslüm bəy Heydərgillə qonşuluqda yaşayırdı. Onun çoxlu üzüm tənəkləri və meyvə ağacları olan böyük bağı vardı. Həmin bağ Heydərin oxuduğu pedaqoji texnikumun yaxınlığında yerləşirdi. Hasarın dibində göycə ağacları vardı. Biz divarı aşıb meyvələri dərirdik. İki-üç dəfə Müslüm bəy bizi



tutmuşdu, bir dəfə hətta döyüb, valideynlərimizə şikayətlənmişdi də».

Naxçıvanın qocaman sakini Yunis Qasımov bu barədə mənə belə bir əhvalat danışdı. Doğma vətəninə növbəti gəlişi zamanı prezident Əliyevin yerli sakinlərlə görüşündə Müharibə Veteranları Komitəsinin sədri ona yanaşıb dedi: «Mən Müslüm bəyin nəvəsiyəm». Heydər Əliyev güldü və dedi: «Sənin çox deyingən bir baban vardı, bir salxım üzümdən ötrü bizi elə ucadan danlayırdı ki, bütün küçə eşidirdi».

O vaxtlar uşaqların oyuncaqları olmazdı, ona görə də ətrafda olan əşyalardan istifadə edib oynayırdılar. Məsələn, «qəcəmə daş» adlı bir oyun vardı. Çay qırağındakı çınqıllıqdan beş yumru çay daşı seçirdilər və əllərin çeviklik yarışı başlayırdı: daşın birini havaya atır, o yerə düşənədək ikincisini yerdən götürüb birincini tutmalı idin, üçüncünü atıb ikincini tutmalıydın və s. Və ya başqa bir oyun var idi – «çilingağac». Oyunun aləti bir böyük, iki balaca ağac parçası idi. İki balaca ağac parçasının biri o birinin üzərinə qoyulur, böyüyü ilə onları vururdular. Kim ağac parçasını daha uzaq məsafəyə ata bilsəydi, o oyunun qalibi sayılırdı. Və əlbəttə ki, qoyunun aşıq sümükləri ilə oynanılan aşıq-aşıq oyunu.

Naxçıvan uşaqları yaxşı əl qabiliyyətinə, ümumiyyətlə, ixtiraçılıq məharətinə malik idilər. Aqil Əliyev danışır ki, onlar nəinki bir ayaqla sürülən diyircəkli arabalar, xizəklər, hətta ağacdan və konserv bankalarından ikitəkərli konkilər də düzəldirdilər. «O vaxtlar qış çox sərt keçirdi, daha indiki kimi yox. Naxçıvanda Rusiyada olduğu kimi, oktyabrdan martadək qar yağırdı. Anam məni bir şey almaq üçün bazara göndərəndə xizəklə gedirdim».

Naxçıvanlı oğlanların bir məşğuliyyəti də göyərçin ovlamaq idi. İbrahim İsmayılov danışır ki, şəhərin kilometr yarımlığında Naxçıvançayın sahilində göyərçin yuvaları vardı. «Biz göyərçin dalınca ora gedirdik. Quşları cələ ilə tutub evə gətirirdik. Öz aramızda bəhsə girirdik ki, görək kim daha çox quş tutacaq. Hamımızın göyərçin damımız var idi. Yumurtaları göyərçinlərin altına yığırdıq, onlar da bala çıxarırdılar».

Yayda yeniyetmə oğlanlar vaxtlarının çoxunu Naxçıvançayın sahillərində, ya da şəhərin üç kilometrliyində yerləşən Edalağa gölünün qırağında keçirirdilər. O vaxtlar çayın da, gölün də suyu bol idi. Heydər üzməyi elə oralarda öyrənmişdi. Əlbəttə,

başıbəlalı Araz çayı onun həyatında xüsusi iz buraxıb. Hələ XIX əsrin əvvəllərində bu çay sərhədə çevrilərək Azərbaycanı Şimali və Cənubi olmaqla ikiyə bölmüşdü. Naxçıvanın İranla 163 kilometrlik, Türkiyəylə isə 11 kilometrlik sərhədi Araz çayı boyunca keçir.

Sovet hakimiyyəti qurulduqdan sonra İran və Türkiyə SSRİ-nin barışmaz ideoloji və siyasi rəqiblərinə, Araz çayı isə əsrlər boyu sahilində yaşayan insanlar üçün qadağa zonasına çevrildi. Ona görə də «Araz Heydər Əliyevin həyatına dünyanın ən müəmmalı çayı kimi daxil olub. Onun uşaq təfəkküründə bu çay bir tabuya – sanki lənətlənmiş, keçilməz sınıra – sərhədə çevrilmişdi. Hər halda, bu da çox mühüm amildir, doğulan gündən o bu çaya kənardan baxa-baxa böyüyüb formalaşmışdı, bu çayla bağlı həqiqətlərdən və rəvayətlərdən görüb-götürmüşdü»[18].

*Bütün həyatı boyu Heydər Əliyev bu tabunu, bu sınırı aşmağa, ona qalib gəlməyə çalışacaq. Respublika DTK-sının sədri, sonra isə Azərbaycanın partiya rəhbəri olandan sonra sərhədyanı yaşam tərzi, bu rayonların əhalisinin iqtisadi və sosial problemləri məsələsinə çox böyük əhəmiyyət verəcək. İranla birgə Culfada möhtəşəm hidroqurğunun, eləcə də sərhədyanı rayonların iqtisadiyyatının inkişafında mühüm rol oynamış Arpaçay və Xanbulançay dəryaçalarının – su anbarlarının tikintisi Əliyevin ən böyük xidmətlərindəndir. 90-cı illərdə Naxçıvana qayıdandan, Naxçıvan parlamentinə rəhbərlik edəndən sonra Araz üzərində «Ümid körpüsü» tikdi və sanki beləliklə, əsrlər boyu «ovsunlanmış» çayı lənətdən xilas etdi».*

1937-ci ilin yay tətillərində Heydər Əliyev Urud kəndinə – bibisi Nərgizgilə gəlir. Bu kənddə Heydərin nənəsi Güllücahan anadan olmuşdu, onun çoxsaylı qohum-əqrəbası, bacı-qardaşları, onların oğul-uşaqları da burada yaşayırdılar. Heydərə bu gözəl, sivilizasiyanın, demək olar ki, gəlib çatmadığı bu təbiət bucağı o qədər xoş təsir buraxır ki, üç ay tətili buraya gəlir və xeyli qalırdı. Onun dostluq etdiyi qonşusu və pedaqoji məktəbdə bir kursda oxuduğu Qasım Hacıyev də bu kəndə qohumlarının yanına gəlirdi. Yazıçı Musa Urud doğma kəndi haqqında kitab yazanda yay aylarını Heydər Əliyevlə birgə keçirən həmyaşıdları ilə görüşüb, onların ürək sözlərini də qələmə alıb[19].



Demək olar ki, urudluların hamısı gənc Heydərin suya, çay ünsürünə xüsusi rəğbətini, hətta hədsiz məhəbbətini xüsusi qeyd edirlər. Yeniyetmələr vaxtlarının çoxunu kəndin mərkəzindən axan iti dağ çayının – Bazarçayın sahilində keçirirdilər. Fərrux Qəhrəmanov o günləri belə xatırlayır: «O, suyun üzündə, biz quruda davrandığımız qədər sərbəst və inamlı idi. Adama elə gəlirdi ki, istəsə ayaq üstə suyun üstündə də gəzə bilər. Birdən Boz qayanın üstündən tullanıb çaya kəllə vuranda dəqiqələrlə suyun altında qalırdı». Bunları Kamran Gəncəliyev də təsdiq edir: «Heydər Əliyev çox gözəl üzgüçü idi. Günortadan sonra kənd uşaqları ilə birlikdə çaya çimməyə gedərdi. Əsasən «Nov daş»da, körpünün altında çimərdik. Heydər Əliyev üzə bilməyən uşaqlara üzmək öyrədərdi». Bu uşaqlardan biri də bibisi Nərgizin oğlu Rəfi Tahirov idi. Onun üzgüçülük dərsləri ömür boyu Rəfinin yadından çıxmayacaq: «Mənə deyərdi, əl-ayağını tərpət, qorxma, batmazsan, batsan da çıxardacam. Sonra buraxırdı suya, belə-belə üzməyi öyrəndim».

Həmin Rəfi ilə bağlı məzəli bir əhvalat baş vermişdi. Heydər kənddə yaşayan sadəlövh, təmizqəlbli qohumları ilə zarafatlaşmağı xoşlayırdı. Bu xüsusiyyəti onu bütün həyatı boyu müşayiət edirdi. Bir dəfə Urudda o bibisi oğlu ilə zarafatlaşmağı qərara alır. Onu hündür bir daşın başına dırmaşmağa məcbur edir və deyir: «İndi mən bir dua oxuyacağam, bu daş yeriyəcək». Rəfi Heydərdən üç yaş kiçik idi, həm də Əlirza kişinin oğlu onun gözlərində danılmaz nüfuz sahibi idi. Ona görə də uşaq itaətkarlıqla gözünü yumub möcüzə baş verəcəyini gözləyirdi. Heydər dodağının altında nəsə deməyə başlayır və Rəfi diqqətlə qulaq asıb, başa düşür ki, onu dolayıblar. Heydər eyni sözləri təkrar edirdi:

Yekə qulaq, qaban baş,
Heç görmüsən yeriyə daş?

Rəfi daşın üstündən düşüb, adamoynadan Heydəri qovarağa götürdü. Heydər isə qəhqəhə çəkərək qaçıb özünü yaxınlıqdakı cəngəlliyə saldı.

Rəfi Tahirov Heydərin balıq tutmaq həvəsindən də danışır. Tilovla dabanbalığı, şirbit balığı, bəxtləri gətirəndə isə çayın də-

rin yerindən qızılbalıq tutardılar. Elə orada, çayın qırağındaca bişirib yeyirdilər. Evdən pendir, göyərti, yuxa gətirirdilər, yaxınlıqdakı bostanlardan bütün mahalda məşhur olan tər xiyarlardan, uzunsov, şirin pomidorlardan dərirdilər. Tonqal qalayıb balığı qızardır və böyük iştahla yeyirdilər.

Əlbəttə, bəzən kolxoz bağlarına da basqın edir, doyunca meyvə yeyirdilər. Kolxozun gözətçisi Nəsir kişinin uzaqdan eşidilən «Ey, ağköynəklər, rədd olun bağdan» hədələri də onları yollarından döndərə bilmirdi. Kənddə tələbələri «ağköynək» adlandırırdılar.

İbrahim İsmayılov xatırlayır ki, yeniyetmə çağlarında və gəncliyində Heydər çayın qırağında, göy otun üstündə ayaqyalın gəzməyi xoşlayırdı. Təbiətlə ünsiyyət ona böyük zövq verirdi. O, bu sərt yarımsəhra məmləkətə, Naxçıvanı dövrəyə alan sıldırımlı dağ yamaclarına, dağ çaylarının şırıltısına vurğun idi. Ömrünün müdrik çağında Naxçıvana gələrkən o dəfələrlə bu diyara məhəbbətini izhar edirdi, bir dəfə isə öz «kiçik Vətən»inin dəqiq xarakteristikasını vermişdi: «Naxçıvanda kişi gözəlliyi var». Təbiətin Heydər Əliyevin özünə səxavətlə bəxş etdiyi gözəllik kimi...

* * *

Əliyevin uşaqlıq illərində Naxçıvanda patriarxal həyat tərzi qalmaqda davam edirdi. Sovet reallıqlarını, o cümlədən yeni bayram günlərini hələm-hələm qəbul etmirdilər. Yazın gəlişini – Novruz bayramını isə xüsusi təntənə və məhəbbətlə qeyd edirdilər. Heydər Əliyevin bacısı Şəfiqə xanım öz kitabında evlərində Novruzu necə qarşılamalarından danışır:

«Evlərdə döşəmə bərk torpaqdan olardı. Onun üstünə həsir, həsirin üstünə isə xalça-palaz döşənərdi. Döşəkçələr, yundan hazırlanmış yastıqlar (buna bəzi zonalarda mütəkkə deyirdilər) yerdəki xalça-palaz üzərinə düzülərdi. Döşəkçələr oturmaq, yun yastıqlar isə söykənmək, istirahət etmək üçün idi. Novruzun yaxınlaşdığı ərəfədə evimizin divarları ağardılar, qapı-pəncərəmiz yuyulub silinərdi. Yorğan-döşək hamısı sökülər, xalça-palaz, qabqaşıq həyətə yığılardı. Martda Naxçıvana qar yağardı. Yadımdadır, xalçanı bu qarın üstünə sərib, üzərinə ovuc-ovuc qar səpələrdik. Sonra süpürgələyib təmizlərdik, tərtəmiz olardı. Adətən Naxçıvan evlərində döşəmə tam döşənəkli olmalıydı, yeni bir



parça da olsun torpaq, həsir görünməməliydi. Biz təmizlənmiş xalçaları evimizə sərərdik. Evdə gözə çarpan hər şey, pal-paltar yuyulmalı idi. İnancımıza görə köhnə ilin tozu-çirki yeni ilə keçməməliydi. Bu təmizləmə işlərini ilaxır çərşənbəsinə bir həftə qalmış aparırdıq. İlaxır çərşənbəsində hamı – evin bütün üzvləri hamama gedib yuyunardı.

Anam ilaxır çərşənbəsində hamımızın əyin-başının təmizlənməsinə xüsusi fikir verirdi. İki cür aş bişirərdi: səbzəli aş və «uçar». Səbzəli aşı tərxun və kəvərlə dəmlərdi. Ətri bütün həyəti götürərdi. «Uçar»ı bütün evlərdə bişirərdilər... «Uçar» – uçan mənasını verir. Ən imkansız adam belə həyətində olan toyuqlardan birini kəsib içinə kişmiş, qaysı, gavalı (albuxara) doldurar, aş dəmlərdi. İlin axır çərşənbəsini bəzi Naxçıvan əhlinin «uçar» adlandırması da bu adətimizdən irəli gəlirdi. Novruz süfrəmiz anamın əl səliqəsi ilə bəzənərdi. Anam bişirdiyi yağlı fətirləri, bayram çöçəsini süfrəyə düzərdi. Çox dadlı bayram çöçəsi olardı anamın. Qozu döyüb əzər, soğanı narın-narın doğrayıb hazırlardı. Sonra soğanı ərinmiş yağda qızardar, döyülmüş qozu ora tökərdi. Tam bişənə yaxın ona ədviyyat – sarıkök, darçın, hil və mixək əlavə edərdi. Yağ, süd və yumurta ilə yoğurduğu xəmiri xırda kündələrə bölüb yayar, hazırladığı qiyməni xəmirin içinə büküb təndirə yapardı. Şəkərburaya bənzər, lakin ondan bir qədər böyük bayram çöçələri Novruz süfrəmizin bəzəyi olardı.

Həyətdə iri tonqal çatardıq. İlaxır çərşənbəsini hamı öz evində-ocağında keçirməli idi. Ona görə də başqasının evinə gedib bayram keçirmək adət-ənənələrimizə zidd idi. Yaşıl səməni, şamlarla bəzənmiş bayram süfrəmiz uşaqlıq illərimin yaddaş səhifəsində ən gözəl xatirələrdir»[20].

Sovet hökumətinin mövqeləri möhkəmləndikcə yeni sovet bayramları uşaqların və böyüklərin həyatında getdikcə daha geniş yer tuturdu. Prezidentin qardaşı 1 May bayramını necə keçirdiklərini belə xatırlayır: «O vaxtlar məktəb uşaqlar üçün çox iş görürdü. Bayramlarda, elə məsələn, 2 Mayda şagirdləri may gəzintilərinə aparırdılar. Şəhərin aşağı tərəfində, indi zavodlar olan hissədə böyük üzüm, ərik bağları vardı. Orada bizim üçün bayram süfrəsi açardılar, qoyun kəsib bizi qonaq edirdilər, nəfəs alətləri orkestri çalırdı. Edalağa gölünün sahilində şadyanalıq düzəldirdi-

lər, hava isti olanda uşaqlar göldə çimirdilər. Günümüz çox şən keçirdi».

İbrahim İsmayılov danışırdı ki, 30-cu illərin əvvəllərində Heydərlə tez-tez Əlirza kişinin işlədiyi dəmir yolu stansiyasına gedirdilər. Bakıya yollanan növbəti qatarı yola salıb, sonra da xeyli vaxt onun dalınca relslərin altına düzülmüş ağac tirlərin üzəri ilə addımlayırdılar. «Qatarlar, vaqonlar, relslər, dəmir yol xətləri bizə çox maraqlı görünürdü, – deyə İbrahim müəllim təbəssümlə xatırlayır, – uzaq yolların, səyahətlərin romantikası ilə qəlbimizi riqqətə gətirirdi. İndiyədək də parovoz fiti qəlbimi yerindən oynadır».

Təəssüf ki, uşaqlıq çağı, bütün gözəl günlər kimi çox tez ötüb keçdi. Uşaqlar da sürətlə böyüyüb, müstəqil oldular. Bakıda oxuyan və əmisigildə yaşayan İbrahim İsmayılov qışda şəhərə gedirdi, artıq doqquz yaşından o təkbaşına, böyüklərin müşayiəti olmadan qatarla gedib-gəlirdi. Heydər dostunu həmişə stansiyaya qədər ötürür, sonra isə uzun müddət uzaqlaşan qatarın arxasınca əl edirdi. O, İbrahimə bir az qibtə edirdi: o böyük şəhərdə, imkanlı qohumlarının himayəsində, heç nəyə ehtiyac duymadan yaşayırdı. Ancaq bu hiss ötəri idi: Heydər əmin idi ki, məktəbi əla qiymətlərlə bitirəcək, ali məktəbə daxil olacaq, bu gözəl şəhərdə oxuyacaq və onu mütləq fəth edəcəkdir.

## Məktəb illəri

Naxçıvanlılar təhsilə həmişə, xüsusilə də o illərdə çox ciddi yanaşırdılar. Hamı eyni dərəcədə kasıb yaşayırdı, irəli getmək, cəmiyyətdə görkəmli yer tutmaq üçün yeganə vasitə yaxşı oxumaq idi. Xüsusilə də inqilabdan sonrakı illərdə sovet hökumətinin ölkə əhalisinin qeyri-pravoslav hissəsinin sosial ayrı-seçkiliyini aradan qaldırdığı və keçmiş Rusiya imperiyasının ucqarlarda yaşayan xalqların siyasi və mədəni-maarifləndirmə cəhətdən inkişafı üçün şərait yaratdığı vaxtlarda.

İzzət xanımla Əlirza kişinin ailəsində böyüyən uşaqların hərəsinin bir sahədə istedadlı olması hiss olunurdu və onların hamısı da biliklərə can atırdılar. Onu demək kifayətdir ki, ailənin böyük övladı – ilk dəfə parta arxasına 17 yaşında (!) oturmuş Həsən Əliyev cəmi bir onillik ərzində fəhlə-gənclər məktəbi şagirdindən Pambıqçılıq Elmi-Tədqiqat İnstitutunun aspirantınadək yol keçmişdi. 40-cı illərdə o artıq respublikanın nüfuzlu torpaqşünas alimlərindən biri idi, Azərbaycan Elmlər Akademiyasının yaranmasında fəal iştirak etmiş və onun ilk həqiqi üzvlərindən biri seçilmişdi.

Əlirza kişinin Həsəndən sonrakı övladı Hüseyn uşaqlıqdan rəssam olmağı arzulayırdı. O, 1932-ci ildə Ə.Əzimzadə adına rəssamlıq məktəbini, 1935-ci ildə isə Leninqrad Rəssamlıq Akademiyasını (həm də azərbaycanlılar arasında birinci olaraq) bitirərək arzusuna çatdı. Ümumiyyətlə, bu ailədə hamı şəkil çəkməyi xoşlayırdı və bacarırdı. Heydər Əliyevin rəsm çəkmək qabiliyyəti barədə bir qədər sonra danışacağıq.

Ancaq Aqil Əliyevin bu ailədə qardaşların hamısının gözəl rəsm çəkmək bacarığı barədə söhbətləri şəxsən mənim üçün yenilik idi: «Heydər çox gözəl rəsmlər çəkirdi. Ancaq onun rəsmləri qalmayıb. Biz o vaxtlar buna o qədər də əhəmiyyət vermirdik. Hüseyndən sonra isə ailədə «baş rəssam» mən oldum. Hətta iki il rəssamlıq texnikumunda da oxudum. Bu texnikum Naxçıvanda müharibə başlamazdan bir az əvvəl açılmışdı, o, onillik məktəb səviyyəsində deyildi, sırf professional xarakter daşıyırdı. Səhər məktəbə, günorta texnikuma gedirdim. Orada bizə akvarellə, yağlı boya ilə şəkil çəkməyi öyrədir, kompozisiya, rəngkarlıq dərsləri keçirdilər. Mən hətta 20-yə yaxın akvarellə çəkilmiş şəkli sərgidə nümayiş etdirmişdim. Üçüncü kursda texnikumu atdım. Müharibə başladı, hər şey dağılıb getdi, şəkillər də məktəbdə itib-batdı.

Böyük qardaşım Həsən də çox gözəl rəsmlər çəkirdi. Evimizdə Həsənin yağlı boya ilə işlədiyi rəsm əsəri vardı. Biz Bakıya köçəndə o da yoxa çıxdı».

Hələ orta əsrlərdə Naxçıvan müsəlman şərqində iri mədəni-maarif mərkəzi idi. «Orta əsr mənbələrinə görə, XIII əsrin sonlarında Naxçıvanda 4 ali tipli mədrəsə, məscidlərin nəzdində mollaxana adlanan 60-a qədər ibtidai mədrəsə fəaliyyət göstərirdi. Dünyəvi fənlərin də təlim edildiyi Naxçıvan və Ordubad mədrəsələrində Yaxın Şərq ölkələrindən gəlmiş tələbələr də təhsil alırdı. Naxçıvan şəhərində ilk dünyəvi məktəb Ehsan xan Kəngərli-

nin XIX əsrin 30-cu illərinin sonlarında açdırdığı rus-tatar (Azərbaycan) qəza məktəbidir»[21].

XIX əsrin sonlarında Azərbaycanın digər regionlarında olduğu kimi Naxçıvanda da yeni tipli təhsil müəssisələri açılmağa başladı: Naxçıvanın məşhur pedaqoq-maarifçisi Məhəmməd Tağı Sidqi Ordubadda «Əxtər» adlı məktəb açdı, Naxçıvanda isə «Tərbiyə» adlı məktəbin və qızlar məktəbinin əsasını qoydu. Bu məktəblərdə Şərq dillərinin və ədəbiyyatının güclü tədrisi ilə yanaşı, rus dilinin və dəqiq elmlərin öyrədilməsinə də xüsusi önəm verilirdi.

Sidqiylə yanaşı, Naxçıvanda Azərbaycan ziyalılarının qabaqcıl nümayəndələri, eləcə də Qori və İrəvan müəllimlər seminariyalarının məzunları dərs deyirdilər. Məsələn, XX əsrin əvvəlində məmləkətin Nehrəm və digər kəndlərində görkəmli yazıçı-publisist Cəlil Məmmədquluzadə dərs deyirdi. 1920-ci ilin əvvəlində Naxçıvanda artıq 45 məktəb vardı.

Yeni tipli «Rüşdiyyə» məktəbinin məzunlarından biri də Heydər Əliyevə pedaqoji texnikumda Azərbaycan dili və ədəbiyyatından dərs demiş sevimli müəllimi Lətif Hüseynzadə idi. Demək olar ki, əsrin yaşıdı olan (o, 1903-cü ildə Naxçıvanda anadan olub) qocaman müəllim 102 yaşında da həsəd aparılası aydın təxəyyülünü, iti hafizəsini, möhkəm yaddaşını qoruyub saxlaya bilmişdi. Görüşümüz zamanı o, həmin dövrdə Naxçıvanın maarif müəssisələrində hakim olan özünəməxsus ab-hava barədə bir çox maraqlı məsələlərdən danışdı:

«Naxçıvan əhalisi, xüsusilə də yerli ziyalılar sovet hökumətini, bolşevikləri xeyli vaxt qəbul edə bilmədi. Unutmamalıyıq ki, uzun müddət idi ki, türk ordusu, türk ziyalıları burada idi, türk hökuməti bura türk dilində külli miqdarda kitab göndərmişdi və bu kitablardan böyük kitabxana yaradılmışdı.

Hətta bizim «Rüşdiyyə» məktəbində də dərsliklərin yarısı türk dilində idi. O illərdə Hüseyn Cavid* Naxçıvanda yaşayırdı. O, məktəbimizdə ədəbiyyat nəzəriyyəsindən dərs deyirdi, bizi türk klassik poeziyasından nümunələrlə tanış edirdi. Biz Tofiq Fikrətdən, Namiq Kamaldan, Əbdülhəq Hamiddən əzbər şeirlər

* Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavid (1882-1941). Stalin dövrünün sürgün düşərgələrində İrkutsk vilayətində vəfat edib. 1982-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Cavidin cənazəsi Vətənə – Naxçıvana gətirilib və doğma torpağa tapşırılıb.



deyirdik. Bütün bunlar bizdə milli özünüdərkin, vətənpərvərlik hisslərinin yüksəlməsinə səbəb olurdu.

«Rüşdiyyə» məktəbində Kazım Qarabəkir paşa da bizə dərs deyirdi. O, təkcə görkəmli sərkərdə deyildi, həm də yüksək estetik zövqə malik bir insan idi. Qarabəkir paşa şeir yazır, gözəl rəsmlər çəkirdi. Hüseyn Cavidlə yaxın dost idilər. Qarabəkir paşa onun «İblis» faciəsini Naxçıvanda tamaşaya qoymaq istəyirdi.

Qəlbimizdə türkçülük ideyaları möhkəm yer tutmuşdu. Onu da demək lazımdır ki, 1925-30-cu illərədək sovet hakimiyyətinin yerli əhalinin şüuruna və əhval-ruhiyyəsinə təsiri o qədər də güclü deyildi».

Lakin 30-cu illərin əvvəllərində SSRİ-də uğurla həyata keçirilən sovet məktəbi konsepsiyası formalaşmağa başladı. İnqilaba qədərki Rusiyada iki növ tədris müəssisəsi, təhsil ocaqları vardı: yüksək təbəqəni maarifləndirən və kütlələri savadlandıran.

«Yüksək təbəqə üçün olan ümumtəhsil məktəbləri universitet tədrisinə əsaslanırdı və fənlər üzrə geniş, hərtərəfli bilik verirdi. Kütlələr üçün olan məktəblər isə ancaq «faydalı» bilikləri tədris edirdi. Bu məktəblərin tədris metodikası və yönü kəskin şəkildə fərqlənirdi.

Sovet məktəbləri universitet tədrisinə əsaslanan və öz qarşısında ayrı-ayrı təbəqələri yox, bütün xalqı maarifləndirmək məqsədi qoyan vahid ümumtəhsil məktəbləri kimi formalaşmağa başladı. Bu, çətinliklərlə və xırda uğursuzluqlarla yanaşı, bütün SSRİ əhalisinə təqdim olunan misilsiz sosial sərvət idi»[22].

Aqil Əliyev və İbrahim İsmayılov xatırlayırlar ki, onların uşaqlıq və gənclik illərində Naxçıvanın təhsil müəssisələrində hazırlıqlı, savadlı müəllimlər dərs deyirdi. Naxçıvanlıların ənənəvi olaraq təhsilə bu cür güclü meyli, marağı, sovet dönəmində gözlənilməz bəhrələr verdi.

«O vaxtlar Naxçıvan gəncləri dəqiq elmlərlə çox maraqlanır, təhsillərini bu sahədə davam etdirməyə can atırdılar. Respublikanın digər regionlarından olan gənclər isə əsasən humanitar elmlərə meyilli idilər. Biz universitetə imtahan verəndə hüquq, tarix fakültələrinə sənəd verənlər yüksək müsabiqədən keçməli olurdular, fizika, riyaziyyat, kimya fakültələrində isə heç bir müsabiqə olmurdu. Ərizə verənlərin hamısı qəbul olunurdu. Onların da 90 faizi naxçıvanlı idi.

– **Buna səbəb nə idi: müəllimlərin səviyyəsi, yoxsa uşaqların oxumaq həvəsi?**

– Oxumağa hamıda böyük həvəs vardı, elə müəllimlər də çox savadlı idilər».

*(Aqil Əliyevlə söhbətdən).*

Bax, elə buna görə də sovet dövründə Azərbaycanda texniki fənlər üzrə görkəmli mütəxəssislərin əksəriyyəti naxçıvanlılar oldu. Sözümün qüvvəti, kimsə hesablama aparıb ki, Azərbaycandakı akademiklərin yarısı, o cümlədən Milli Elmlər Akademiyasının yeddi prezidentindən beşi naxçıvanlıdır.

Lakin bu işdə obyektiv şəraitlə bərabər, subyektiv amillərin də böyük rolu olmuşdur. Çoxları qeyd edir ki, Heydər Əliyevin atası, xüsusilə də anası ailədə elə bir atmosfer yaratmışdılar ki, yaxşı oxumamaq, sadəcə mümkün deyildi. Valideynlər uşaqlarının işləməsinə qıymırdılar, halbuki ailə ehtiyac içərisində yaşayırdı və oğullarının qazancı lap yerinə düşərdi. Ancaq Heydər Əliyevin valideynləri uşaqlarına hədsiz qayğı ilə yanaşırdılar və yeganə tələbləri onların oxuması idi.

Bu işdə ananın – İzzət xanımın rolu misilsizdir. Uşaqlar atanın üzünü, demək olar ki, görmürdülər, çünki o, xüsusilə də müharibə başlayandan sonra günlərlə səhərdən axşamadək işləyirdi, ev üzü görmürdü. Bütün ağırlıq ananın üzərinə düşmüşdü: böyük ailənin məişət qayğılarından tutmuş uşaqların tərbiyəsinədək. Şəfiqə xanım anasını belə xatırlayır:

«1941-1945-ci illərin ağır müharibə günlərində bizim dərslə məşğul olmağımız, dərs buraxmayıb təhsildən yayınmamağımız yalnız anamın ciddi xasiyyəti, nizam-intizam yaratması sayəsində mümkün olmuşdu. Beş uşağı o elə böyüdür, elə nəsihətlər verirdi ki, qonşular heyrət edirdilər. Onun bizə təlqin etdiyi göz toxluğu, aza-çoxa qane olması, səliqə-sahmana fikir verməsi, tələbkarlığı hamımıza sirayət edib. Düzdür, bizə hirslənməzdi, ağır söz deyib, cəzalandırmazdı. Ancaq bizdən öz öhdəmizə düşən vəzifələri icra etməyi tələb edərdi. Çünki hamımızı təhsilli görmək istəyirdi. Ailədə bir-birimizə səmimi yanaşmaq, ehtiram göstərmək, anamın qoyduğu qaydalardan idi»[23].

Heydər Əliyevin kiçik bacısı Rəfiqə xanım isə ailələrindəki ab-havanı belə təsvir edir: «Biz dəbdəbədən uzaq olsaq da, rahat



və mənəvi cəhətdən dolğun həyat sürürdük. Abad evimiz qəlbi ətrafdakılara qayğı və xeyirxahlıqla döyünən insanların nəfəsi ilə isinirdi. Naxçıvanda qış çox sərt olur, dolanışığımız ağır keçirdi, ancaq bununla belə, ailəmizdə həmişə nikbinlik, zəhmət, mübarizə və nəhayət məhəbbət ruhu hakim idi.

Uşaqlara qayğı göstərmək və onların tərbiyəsi ilə məşğul olmaq kimi ağır bir iş anamın çiyinlərinə düşürdü, çünki atam çox işləyirdi. Buna baxmayaraq, uşaqların tərbiyəsi valideynlərimizi möhkəm tellərlə bağlayan ən başlıca ümumi maraq idi.

...Yaşadığımız ev çox da böyük deyildi. Buna baxmayaraq dərs oxumaq üçün yer tapırdıq. Hər axşam saat 5-də isə ənənəvi çay süfrəsi arxasında canlı, maraqlı söhbət gedirdi».

Məni kimsə Heydər Əliyevin ailəsi ilə bağlı mənzərəni bir qədər ideallaşdırmaqda qınaya bilər. Ancaq, bütün bunları mənim digər həmsöhbətlərim – tamamilə müstəqil fikir söyləyən insanlar da təsdiq edirlər. Naxçıvanın ağsaqqalları qeyd edirlər ki, Əlirza kişinin ailəsi şəhərdə böyük nüfuza, hörmətə malik idi.

«Mən texnikuma sənəd verib daxil olanadək iki həftəyə yaxın Əlirza kişinin evində qaldım. Sonra yataqxanaya köçdüm. İzzət xala mənə öz anam kimi baxırdı. Axı, anam Zəhra çox erkən vəfat etdiyindən mən ana nəvazişindən məhrum olmuşdum.

Mənim müəllim kimi yetişməyimdə Əliyevlər ailəsinin böyük rolu olub. Mən onların özlərini necə aparmasını, təmkinli danışıqlarını, hər bir işdə səliqə-sahmanlı olduqlarını müşahidə edirdim. Evdə hər şey öz yerində idi, səliqəsizliyi xoşlamırdılar. Mən Heydərə oxşamağa çalışırdım».

*(Dövlət Məmmədovun söhbətindən).*

Fikrət Qədimov isə deyir ki, «İzzət xala çox səliqəli idi, onun əyin-başı tərtəmiz, ütülü olurdu. Uşaqlarını da səliqəli olmağa alışdırmışdı».

Evdə bərkdən danışmaq, gülmək, hay-küy salmaq olmazdı. Qonşular məəttəl qalırdılar ki, Əlirza kişinin ailəsi böyük olsa da, evindən heç vaxt hay-küy eşitməzsən. Bunu Heydərin müəllimi Lətif Hüseynzadə də təsdiq edir: «Onların ailəsində həmişə sadə, səmimi ab-hava hökm sürürdü. Bu ailə haqqında mən heç vaxt pis bir söz eşitməmişəm. Onların arasında heç vaxt münaqişə, dava-dalaş, anlaşılmazlıq olmazdı. Uşaqlar çox sakit və tərbiyəli idilər».

Uşaqlıq illərinin xatirələrini, xüsusilə də valideynləri ilə bağlı epizodları mənim qəhrəmanım qəlbinin ən dərin guşələrində saxlayırdı və həmin hisslər yalnız o, öz «kiçik torpağı»nı ziyarət edəndə baş qaldırır, canlanırdı. Naxçıvan vilayət partiya komitəsinin keçmiş birinci katibi Kamran Rəhimov mənə bunları danışdı:

«Rayonlara səfəri zamanı o, adətən qonaq evində qalmırdı. Onun öz vaqonu vardı, həmin vaqonda yemək də yeyirdi, yatırdı da. Çox nadir hallarda o haradasa başqa yerdə istirahət edirdi. Yalnız Naxçıvanda qonaq evində məskunlaşırdı. Orada yaraşıqlı qonaq evimiz vardı. Heydər Əliyev mənə deyirdi: «Kamran, mən bura gələndə başqa yerdə qala bilmirəm. Burada səhərlər parovoz fitini eşidib uşaqlığımı, atamı yada salıram. Xatırlayıram ki, o səhərlər necə öz dəmiryolçu libasını geyib işə gedirdi, necə işdən qayıdırdı. Uşaqlarla necə onun yanına – stansiyaya gedirdik. Tamamilə başqa əhval-ruhiyyə yaranır, ürəyim elə hisslərlə dolur ki, onu sözlə ifadə etmək mümkün deyil».

Və ya başqa bir əhvalat: Batabata gedən yolda Kolanı kəndinin yanından keçirdik. Heydər Əliyev qəflətən sürücüdən mağazanın yanında saxlamağı xahiş etdi. Gördüm ki, o fikrə getdi, qəmləndi. Hətta gözləri yaşardı. Bir qədər dayanandan sonra dedi ki, sür gedək.

– Heydər Əliyeviç, nə oldu? Niyə əhvalınız pozuldu? – deyə soruşdum.

– Kamran, – deyə cavab verdi. - Uşaq vaxtı anamla birlikdə əmim Zeynalabdinin yanına, Sisian rayonuna gedərdik. O vaxt başqa maşın yox idi, yalnız yük maşınları idi. Naxçıvanda yük maşınına mindik, bura – Kolanıya çatanda artıq qaş qaralmışdı. Sürücü gecələməyə evinə getdi, biz isə anamla kuzovda qaldıq. Heç kim də bizə evində gecələməyi təklif etmədi. Səhərə qədər anamla qucaqlaşıb bir-birimizi nəfəsimizlə isitdik. Allaha şükür ki, heç birimiz soyuqlamadıq».

* * *

Heydər məktəb yaşına çatanda valideynləri onu 1 saylı «beynəlmiləl» məktəbə qoydular. Aqil Əliyevin söylədiyinə görə, həmin məktəb şəhərin mərkəzində, qədim birmərtəbəli, kürsülü binada yerləşirdi. Bu, deyəsən, bolşeviklərin əlindən ölkəni tərk etmiş keçmiş xanların evi idi. Vaxtilə həmin məktəbdə oxuyan Fikrət Qədimov bildirdi ki, bu bina artıq yoxdur.



Beynəlmiləl məktəbin üç – Azərbaycan, rus, erməni bölməsi vardı. Heydər Əliyev Azərbaycan bölməsində oxuyurdu. Lakin rusdilli yaşıdları ilə daimi ünsiyyət və rus dilində çoxlu mütaliə nəticəsində artıq bir neçə ildən sonra o fikrini rus dilində sərbəst izah edə bilirdi. Lətif Hüseynzadə deyir ki, Heydər pedaqoji texnikuma daxil olanda o, rus dilində təmiz danışırdı. Özü rus bölməsində təhsil alan Fikrət Qədimov da bu fikri təsdiq edir: «Heydər Əliyev rus bölməsinin şagirdləri ilə yaxınlıq edir, rus dilini müstəqil öyrənməyə çalışırdı. Ona görə də texnikuma daxil olanda o artıq rus dilində səlis danışa bilirdi».

Prezidentin qardaşının fikrincə, rus dilini öyrənməkdə bədii ədəbiyyatın mütaliəsi böyük rol oynamışdı:

«Heydər çox mütaliə edirdi, o vaxtlar əldə edilə bilən bütün bədii ədəbiyyatı oxumuşdu. Evimizdəki dolab kitab ilə dolu idi. O, kitabları ya mağazadan alır, ya da kitabxanadan gətirirdi. Özü də oxuyurdu, biz də. Bu, Azərbaycan dilində olan kitablardı. Sonra isə o, rus dilində kitablar gətirməyə başladı. Bu, hələ onun orta məktəbdə oxuduğu vaxtlar idi. Yadımdadır ki, o, rus dilində Hötenin «Faust» əsərini gətirmişdi. Onun bu kitabı necə maraqla oxuduğunu görüb, mən də həvəsləndim, ancaq tezliklə bu fikrimdən vaz keçdim, çünki heç bir şey başa düşmürdüm.

Heydər ədəbiyyatı çox sevir, onu həm oxuyur, həm də yaxşı qavrayırdı. Yadımdadır ki, sovet dönəmində, elə ondan çox-çox sonralar da, Bakıya xaricdən – Orta Asiyadan, digər müttəfiq respublikalardan gələn nümayəndə heyəti ilə söhbət zamanı o, həmin ölkələrin ədəbiyyatı, yazıçıları haqda elə fikirlər söyləyirdi ki, qonaqlar mat qalırdı. Bunun əsası isə hələ Naxçıvanda yaşadığımız vaxtlarda qoyulmuşdu».

*(Aqil Əliyevin xatirələrindən).*

30-cu illərdə Naxçıvanda elektrik məsələsi çox çətin idi. Onu qrafik üzrə verir, gecə saat birdən sonra isə tamam söndürürdülər. Sonralar bunu prezident özü də xatırlayırdı: «Mən uşaq olarkən Naxçıvanda işığı tez-tez söndürərdilər. Mən pəncərə taxtasının üstündə oturub dərslərimi hazırlayardım, çünki ora küçədən işıq düşürdü». Axşam qaranlıq düşəndən sonra kerosin lampasının işığı ilə kifayətlənməli olurdular.

Naxçıvanın 1 saylı məktəbinin məzunlarından bir çoxu respublikanın adlı-sanlı alimləri, müəllimləri, incəsənət xadimləri oldular. Onların arasında Heydər Əliyevlə bir sinifdə oxuyan, hətta bir müddət eyni parta arxasında oturan Azərbaycanın xalq artisti Zəroş Həmzəyeva da vardı. O, uşaqlıq illərinin xatirələrini tanınmış jurnalist Svetlana Mirzəyevayla belə bölüşmüşdü:

«Biz o dövr üçün qeyri-adi olan beynəlmiləl məktəbdə oxuyurduq. Buraya muxtar respublikanın müxtəlif şəhər və kəndlərindən gəlmiş ən qabiliyyətli uşaqlar toplanmışdı. 30-cu illərdə əyalətdə bu cür yeni tipli məktəb açmış, o vaxtlar Naxçıvan maarifinin başında duranların uzaqgörənliyi və müdrikliyi məni bu gün də heyrətləndirir. Azərbaycanda bu cür internatlar xeyli sonra meydana çıxmağa başladı. Məktəbdə biz səylə oxuyur, çoxlu bədii ədəbiyyat mütaliə edir, Nizami Gəncəvidən tutmuş o dövrdə gənclərin sevimlisi olan Səməd Vurğun, Süleyman Rüstəm kimi cavan şairlərin əsərlərini əzbər öyrənirdik. Biz incəsənətə maraq göstərir, təbiəti sevir, öz diyarımızın, Azərbaycanın tarixini yaxşı bilirdik.

Heydər aramızda qabiliyyət cəhətdən birinci idi, o hər şeyi hamımızdan yaxşı bilir, hamımızdan yaxşı oxuyurdu. Bir gün o məktəbə atasının 30-cu illərdə dəmiryolçulara verilən şinelində gəldi. Bu şinel ona çox yaraşırdı. Uşaqlardan kimsə iftixarla «sən elə generalsan ki varsan» – dedi. Həmin gündən biz onu adı ilə yox, «General» deyə çağırırdıq. Bir parta arxasında oturduğum Heydər isə bu ləqəbi məmnunluqla qəbul etdi»[24].

Beynəlmiləl məktəbin başqa bir məzunu, Naxçıvanın məşhur həkimi Fikrət Qədimov məktəb illəri haqqında bunları danışdı: «Məktəbimizdə çox savadlı müəllimlərimiz vardı və ab-hava elə idi ki, hamı mütləq oxumalı idi. Yaxşı oxumaq, yüksək qiymətlər almaq yeniyetmələrin nüfuzunu artırırdı. İki alan şagirdlərə isə çox pis baxırdılar. Şagird müəllimdən sonra sinfə girsin – bu, qətiyyən ola bilməzdi! Tənəffüslərdə bugünkü şagirdlər kimi dəcəllik edə, qaça, dalaşa, səs sala bilməzdik. Biz dövrə vuraraq söhbətləşir, bir-birimizi sual-cavab edir, oxuduğumuz kitablar, yerli teatrda oynanılan tamaşalar barədə fikir mübadiləsi aparırdıq».

Fikrət müəllimlə Heydər Əliyevin arasında 2 yaş fərq var idi, odur ki, o, aşağı siniflərdə oxuyurdu. Ancaq Heydər Əliyevin yaşıdlarında oyatdığı təəssüratı ömür boyu yaddan çıxarmadı: «O, geyimiylə də məktəbdə hamıdan seçilirdi. Onun cəmisi bir kostyumu var idi, ancaq o, həmişə elə səliqəli, ütülü olurdu ki, Heydər həmin kostyumda bəy balasına oxşayırdı. Mən görməmişdim ki, kostyumu Heydərin əynindən tökülsün və ya köynəyi çirkli, ləkəli olsun. O məktəbə gələndə uzaqdan nəzəri cəlb edirdi. Onu heç kimlə səhv salmaq mümkün deyildi».

Aqil Əliyevsə danışır ki, «hələ məktəbdə oxuyarkən o özünü çox təmkinli aparırdı. Şəhərdə hamı onu tanıyır və çox vaxt mübahisələri həll etmək üçün hakim seçirdilər. Xatırlayıram ki, kinoteatrın qarşısında durmuşduq, filmin adını tərcümə etmək istəyirdik, mübahisə qızışdı, Heydərin yanına getdik ki, mübahisəmizi həll etsin».

30-cu illərin əvvəlində Heydər Əliyev məktəbin ən yaxşı şagirdləri ilə birgə respublikanın hər yerində yayılmış savadsızlığın ləğvi üzrə kampaniyada iştirak etmişdi. Bu vaxt Azərbaycanda yeni, latın əlifbasına keçid başlamışdı, ərəb əlifbası ilə oxuyub-yazmağı bacaran yaşlı nəslin nümayəndələri bircə anda savadsızlara çevrilmişdilər.

*10 ildən sonra, müharibə ərəfəsində Heydər Əliyev yeni, kiril əlifbasını mənimsəyir. Doğrudur, o artıq rus dilində sərbəst yazırdı, odur ki, kiril əlifbasına keçid onun üçün o qədər də çətin olmadı. XX əsrin sonlarında latın qrafikası əsasında yeni əlifbaya qayıtmaq barədə qərar qəbul olunandan sonra bütün xalqla bərabər o da yenidən oxumalı, öyrənməli olacaq. Məhz 2001-ci ildə dillə bağlı iki sərəncam imzalayan Heydər Əliyevin siyasi iradəsi bu qərarın praktiki cəhətdən həyata keçirilməsini təmin edəcək və Azərbaycan xalqının mədəni irsinin bütünlüklə latın qrafikası ilə yenidən nəşr olunması kimi mühüm prosesin əsasını qoyacaq.*

* * *

Yeddinci sinfi bitirdikdən sonra Heydər pedaqoji məktəbə daxil olmaq qərarına gəlir. Halbuki o onuncu sinfədək oxuya bilərdi. Ancaq o, nə üçünsə qərara almışdı ki, müəllim olmalıdır. Görünür, bu işdə o illərdə Naxçıvanın pedaqoji məktəbinin (onu bəzən texnikum da adlandırırlar), ümumiyyətlə, müəllimliyin böyük nüfuza malik olması da əsas rol oynamışdı. Məsələ orasındadır ki, 1930-cu ildə SSRİ-də icbari ibtidai təhsil xüsusi dekretlə qəbul olunmuşdu, bununla bağlı olaraq «müəllim kadrlarına tələ-

bat da kəskin şəkildə artmışdı. Bu tələbatı ödəmək məqsədilə pedaqoji institutların və texnikumların şəbəkəsi genişlənmiş, ibtidai sinif müəllimləri hazırlayan qısamüddətli kurslar şəbəkəsi yaradılmışdı. Oraya yeddinci sinfi bitirmiş şagirdlər qəbul olunurdu. Pedaqoji tədris müəssisələrində vaxtından əvvəl buraxılışlar təşkil edilirdi»[25].

Lətif Hüseynzadə Heydər Əliyevin texnikuma qəbul olunması tarixini bu cür xatırlayır:

«Heydərin atası Naxçıvanda nüfuzlu şəxs idi. O, mənim atamla da tanış idi. Atam Hacı Talıb başmaqçı idi, öz emalatxanası vardı. Əlirza kişi tez-tez emalatxanaya, atamın yanına gəlir və onlar uzun-uzadı söhbətlər edirdilər.

1936-cı tədris ili ərəfəsində o, oğlu ilə birlikdə bizə gəldi. Əlirza kişi dedi: «Heydər müəllim olmaq istəyir, bu elə mənim də arzumdur». Sentyabrın birindən artıq on gün keçirdi, dərslər başlamışdı. Biz o vaxtlar tələbələri müsabiqə yolu ilə qəbul edirdik, onları sorğu-sual edir, bilik səviyyələrini yoxlayırdıq. Mən ona baxdım: gözəl, görkəmli, xoşrəftar, müəllim üçün zəruri olan xarici görünüşə malik bir oğlan idi». Onu yoxlamaq qərarına gəldim. Dildən, ədəbiyyatdan suallar verməyə başladım. O, gözəl Azərbaycan dilində, bir dəfə də rus sözü işlətmədən əla cavab verdi. Bəziləri kimi rus kəlmələrini Azərbaycan sözlərinə qatıb danışmadı. Bir sözlə, Heydər mənim çox xoşuma gəldi və mən dedim: «Ondan yaxşı müəllim olar». Biz onunla birlikdə direktor Kazım Talıblının yanına getdik. O da Əlirza kişini tanıyırdı, ancaq tərəddüd edirdi: onun oğlunu qəbul edə bilərikmi, axı artıq dərslər başlayıb. Mən öz sözümün üstündə durdum: «Bu uşağı itirmək olmaz, o çox hazırlıqlıdır». Direktor təklif etdi ki, onu riyaziyyatdan yoxlayaq. Yeznəm Tofiq Bəktaşi pedaqoji texnikumda dərs deyirdi, çox tələbkar olduğundan ondan yaxşı qiymət almaq o qədər də asan məsələ deyildi. Ancaq Tofiq də onun bilik səviyyəsindən razı qaldı. Heydərin qəbul məsələsi həll olunandan sonra mən onu sinfə aparıb tələbələrə və müəllimə təqdim etdim».

Texnikum ibtidai sinif müəllimi hazırladığından burada ixtisaslaşma yox idi. Tələbələr bütün fənləri – ana dili və ədəbiyyat, fizika, riyaziyyat, tarix, eləcə də bu dərslərin tədrisi metodikasını



keçirdilər. Sonra müdavimləri hansı fənnə daha çox meyilliliyindən asılı olaraq bölüşdürürdülər.

O vaxt dərslik sarıdan korluq çəkirdilər. Sovet hökuməti köhnə dərslikləri yararsız hesab etmişdi, yeniləri isə təzə-təzə yaradılırdı. Ona görə də mühazirə sistemindən istifadə edir, müəllimlər tələbələrə öyrətmək istədiklərini diqtə edərək yazdırırdılar. Dərslər Azərbaycan dilində keçirilirdi. Rus dilini ayrıca predmet kimi keçirdilər. Həsənbəy Qazıyev adlı çox güclü müəllimin hesabına texnikumda rus dili çox gözəl tədris edilirdi. O, ən yaxşı tələbəsi olan Heydər Əliyevlə fəxr edirdi, onu başqalarına nümunə göstərirdi: «Görürsünüz, Heydər rus dilini necə gözəl bilir?!»

Böyüklərə məxsus ağlı və təmkini ilə seçilən bu boylu-buxunlu, gözəl gənci başqa müəllimlər də fərqləndirirdilər. Lətif Hüseynzadə danışır ki, müəllimlər çox vaxt öz aralarında mübahisə edirdilər: biri deyirdi ki, ondan yaxşı tarixçi olar, başqası etiraz edib, onun anadangəlmə ədəbiyyat müəllimi olduğunu söyləyir, riyaziyyat müəllimi isə Heydərin dəqiq elmlər üçün yarandığını bildirirdi. İbrahim İsmayılov isə onun gözəl xətti olduğunu deyir:

«Aramızda o, ən qabiliyyətli idi. Həqiqətən, Allah ondan heç nəyi əsirgəməmişdi: xarici görkəm də, boy-buxun da, ağıl da, dərrakə də vermişdi».

Texnikumda bir kursda oxuyan Dövlət Məmmədovsa deyir ki, «Heydər aramızda yaşca ən kiçiyi idi, buna baxmayaraq, biz onu sinif nümayəndəsi seçmişdik».

Texnikumda Heydər Əliyevlə bir yerdə oxuyan Zərqələm Hüseynova isə deyir: «O bəzi müəllimlərimizdən daha çox nüfuz sahibi idi. Heydər özündən böyüklərlə oturub-durmağı xoşlayırdı. O, müəllimlərlə öz yaşıdları kimi danışırdı».

Bu gəncin hərbçilərə məxsus duruşu, idmançı görünüşü və dözümlülüyü fiziki tərbiyə və hərbi hazırlıq müəllimlərini fərəhləndirirdi.

Texnikumda hərbi hazırlıq dərslərini sonralar general-mayor rütbəsinədək yüksələn, Böyük Vətən müharibəsi illərində Mozdok uğrunda döyüşlərdə şöhrətlənmiş Akim Abbasov deyirdi. O vaxt o, baş leytenant rütbəsində idi. Tələbələr tüfəngləri söküb-yığırdılar (o vaxt avtomat yox idi), hərbi təlim meydanında nişan alıb atırdılar. Hərbi hazırlıq müəllimi öz tələbələrini hərbi formaya taxılan nişan-petlisaya görə rütbəni – serjantdan tutmuş

yüksək rütbələrədək müəyyənləşdirməyi öyrədirdi. Heydər sərrast atırdı.

Zərqələm Hüseynova xatırlayır ki, «hərbi hazırlıq müəllimi Akim Abbasov həmişə ona deyirdi: «Sənin böyük gələcəyin var. Sən general olacaqsan». Onlar öz aralarında rusca danışardılar. Müəllimi bir yerə çağıranda, o sinfi Heydərə tapşırırdı, o da dərsi davam etdirirdi».

1937-1938-ci illərdə müharibənin qaçılmazlığı artıq hiss olunurdu. SSRİ-nin bütün məktəblərində və digər tədris müəssisələrində hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilirdi, bunun üçün gəncləri yarımhərbi ictimai təşkilat olan SSRİ-nin müdafiəsinə və aviasiya-kimyəvi tikintisinə yardım cəmiyyətinə (OSOABİAXİM) üzv yazırdılar. Naxçıvanın yaşlı nəslinin nümayəndələri mənə danışırdılar ki, bu cəmiyyətin fəalları bazar günləri yeniyetmələr üçün piyada, ya da xizəklə yürüşlər təşkil edirdilər. Bu, çox təntənə ilə keçirilirdi: məktəblərdə bufetlər işləyir, orkestr çalır, şən bayram əhval-ruhiyyəsi duyulurdu. Uşaqlar sıraya düzülüb müəllimləri ilə şəhərdən beş-altı kilometrlik məsafədə yerləşən Şıxmahmud, Əliabad kəndlərinə yollanırdılar. Sonra geri – məktəbə qayıdırdılar. Məktəbdə onları isti yemək gözləyirdi. Bu vaxt başqa bir qrup yürüşə çıxırdı. Çox vaxt Heydər Əliyev bu cür tədbirlərin təşəbbüsçüsü olurdu.

30-cu illər SSRİ-də bədən tərbiyəsi və idmanla kütləvi məşğulluq dövrüdür. İndiki dövrün antistalinizm mövqeyində duran tarixçi və politoloqları öz əsərlərində sovet cəmiyyəti həyatının bu tərəfini lağa qoymağı xoşlayırlar. Əsasən bu dövrün kommunist bayramları ilə bağlı möhtəşəm idman şənliklərini, idmançı oğlan və qızların parkları və xalqın digər əyləncə və gəzinti yerlərini bəzəyən gipsdən yapılmış heykəllərini yada salırlar. Bununla belə, keçən əsrin 30-cu illərinin gəncləri üçün sağlam həyat tərzi həqiqətən də normaya çevrilmişdi. Məsələn, Heydər Əliyev idmanla bütün ömrü boyu məşğul olmuşdu – piyada gəzir, qaçışır, üzgüçülüklə məşğul olurdu. İdmana məhəbbət texnikumda oxuduğu illərdə yaranmışdı. İdman müəllimi İbrahimxəlil Axundov idi. İdman dərslərinə tələbələr böyük həvəslə gedirdilər: uzununa və hündürlüyə tullanır, ştanq qaldırır, turnikdə fırlanır, voleybol oynayırdılar. Bütün normativləri yerinə yetirib QTO, QSO, PVXO kimi döş nişanlarına layiq görülürdülər.



Heydər Əliyev tez-tez şəhər yarışlarında texnikumun idman şərəfini qoruyurdu. Bundan əlavə, prezidentin qohumlarının, yaxınlarının dediyinə görə, o, xizək sürməyi sevirmiş və yaşıdları Əkbər Nəcəfov, Qasım Hacıyev və digərləri ilə birgə dağlara xizəklə yürüşləri təşkil edirmiş.

Gələcək siyasətçinin işgüzar təbiətini kifayət qədər aydın xarakterizə edən daha bir maraqlı fakt. Uşaqlıqdan idmanla məşğul olmağı çox sevən Heydər kiçik qardaşlarını və məhəllədəki digər oğlanları da mütəmadi fiziki təmrinlərə alışdırmağa çalışırdı. Bir dəfə onun ağlına bir fikir gəlir: özləri üçün idman meydançası düzəltmək.

«Qabaqlar şəhərin mərkəzində bolsulu Bazarçay çayı axırdı. Onun sahillərində bir başında kərpic zavodu yerləşən böyük bir meydança var idi. Bura Əkbər Nəcəfovun evinə yaxın idi.

Burada Heydər dostları ilə idman meydançası saldılar, turnik qoydular, uzununa, hündürlüyə tullanmaq üçün yer, voleybol meydançası düzəltdilər. Elə burada müxtəlif məhəllələrin komandaları arasında futbol yarışları təşkil edilirdi. Məhəlləmizin bütün uşaqları bu idman meydançasında məşğul olurdu».

*(Aqil Əliyevin xatirələrindən).*

*Azərbaycanın partiya təşkilatının başında durandan sonra 1974-cü ildə Əliyev respublika Kommunist Partiyası plenumlarından birini bütünlüklə bədən tərbiyəsi və idmanın inkişafı məsələlərinə həsr etdi və bu sahədəki işlərin vəziyyətini kəskin tənqid etdi. Maraqlı bir detal: Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin katibi Gevorkov öz çıxışında fəxrlə elan edir ki, o, 20 ildir komsomol və partiya işlərində çalışır, ancaq indiyədək bədən tərbiyəsi və idman məsələsinin respublika partiya fəallarının yığıncağı səviyyəsinə qaldırılması halını yadına sala bilmir. Bu plenumdan sonra xeyli idman qurğuları, tədris-məşq bazaları tikildi, tədris müəssisələrində bədən tərbiyəsi təliminin səviyyəsi yüksəldildi.*

*Keçən əsrin 90-cı illərində müstəqil Azərbaycanın prezidenti olandan sonra öz oğlu İlham Əliyevi Milli Olimpiya Komitəsinə rəhbər təyin etməklə Heydər Əliyev çox uğurlu bir addım atdı. Bu, çox dəqiq hesablanmış addım idi. Oğul Əliyevin idmana rəhbərliyə başlaması ilə bütün partiya funksionerləri və işgüzar adamlar bu sahəyə üz tutdular. Ölkənin demək olar ki, bütün regionlarında ən müasir idman kompleksləri ucaldıldı. Artıq bir neçə*

*ildən sonra Azərbaycan idmançıları ən nüfuzlu beynəlxalq yarışlarda mütəmadi olaraq qalib gəlməyə başlayacaqlar. Bakı müxtəlif idman növləri üzrə Avropa və dünya çempionatlarının keçirildiyi yerə çevriləcək. Ən başlıcası isə, Heydər Əliyev gəncləri idmana cəlb etmək, idmanı isə kütləviləşdirmək arzusuna nail olmuşdu. Bu, onun gənclik illərinin arzusu idi.*

İdmandan başqa, daha bir maraq, aludəçilik də onu bütün həyatı boyu müşayiət edəcəkdir. O, ağac əkməyi çox sevirdi, kəndlərin, şəhərlərin yaşıllaşdırılmasının qızğın tərəfdarı idi. Bu həvəsin də əsası böyük şüarlar və nəhəng tikintilər dövründə qoyulub.

30-cu illərin ortalarında Naxçıvan küçələrində ağac, ümumiyyətlə, yaşıllıq çox az idi. Tut, göycə, ərik ağacları əsasən həyətlərdə bitirdi. Yalnız şəhərin baş prospektində – Puşkin küçəsində salxım söyüdlər əkilmişdi. Heydər öz sinif yoldaşları ilə birgə şəhərin yaşıllaşdırılması təşəbbüsünə qoşuldu. Texnikum tələbələri ilə birlikdə vilayətin dağ rayonlarına ekspedisiyalara gedib, uzaq yerlərdən meşə ağaclarının tinglərini gətirirdi. Tələbələrin hamısı iməciliklərə çıxaraq, Naxçıvanın gələcək bağ və parklarının əsasını qoyurdular.

*50-ci illərin sonunda, qaynatası Əziz Əliyevlə birgə Zuğulbada torpaq sahəsi əldə edəndən sonra oranı yaşıl bağa çevirdi. Süleyman Əliyev əmisi oğluna həmin sahədə ərik və gavalı ağacı əkməkdə, üzüm tingləri basdırmaqda necə kömək etdiyini xatırlayır. 70-ci illərdə Abşeron yarımadasını başdan-başa belə yaşıllığa çevirmək ideyası Əliyevi rahat buraxmırdı. O, Bakının yaşıllaşdırılması üçün çoxsaylı iməciliklərdə, yeni parklar salınmasında şəxsən iştirak edəcək, praktiki olaraq bütün partiya fəalları yığıncaqlarında və plenumlarda bu məsələnin vacibliyini yorulmadan yada salacaq, Azərbaycanın meşələrində qiymətli ağac növlərinin qırılmasına yol verən rəhbər işçiləri danlayacaqdı.*

Heydər bütün gününü texnikumda keçirirdi, çünki orada çox maraqlı tədbirlər keçirilirdi. O vaxtlar sinifdənkənar dərnəklər çox inkişaf etmişdi. Məsələn, texnikumda ədəbiyyat və dram dərnəkləri, təbiətşünaslıq və təsviri-sənət dərnəkləri fəaliyyət göstərirdi. Heydər bu dərnəklərin hamısında iştirak etməyə can atırdı.



Yaşıdları xatırlayırlar ki, müəllimlər tələbələr arasında bədii qiraət üzrə yarışlar təşkil edirdilər. Heydərin gözəl nitq qabiliyyəti var idi, o, Sabirin, Süleyman Rüstəmin şeirlərini söyləyəndə zalda tam sakitlik hökm sürürdü.

Texnikumda Heydər Əliyevlə eyni kursda oxuyan Səfərəli Babayev o günləri belə xatırlayır: «...Heydər Əliyev texnikumda təşkil edilən bütün tədbirlərdə mütləq iştirak edirdi. O, səhnəyə çıxıb gur səslə, aydın tələffüzlə Süleyman Rüstəmin məşhur şeirindəki «Çapayev çapa-çapa» misralarını söyləyəndə tələbə və müəllimlərlə ağzınadək dolu olan zal sükuta qərq olurdu. Ümumnaxçıvan tədbirlərinə nümayəndə göndərmək lazım olanda qiraət ustası Heydər Əliyevi göndərirdilər, o da texnikumu layiqincə təmsil edirdi. Öz doğma dilini gözəl bilən Heydər rus dilində də əla çıxış edə bilirdi»[26].

Pedaqoji texnikumun böyük kitabxanasında vaxtilə Türkiyədən göndərilmiş çoxlu kitab var idi. Sovet hökuməti şəhərdə yaxşı ictimai kitabxanalar yaratmışdı, ona görə də gənclər həm Azərbaycan ədəbiyyatı, həm də dünya klassikası ilə tanış ola bilirdi. Lətif Hüseynzadə xatırlayır ki, Heydər Əliyevin qoltuğunda həmişə hər hansı bir kitab olurdu. Məsələn, Rəşad Nuri Güntəkinin müəllimlərin həyatından bəhs edən məşhur «Çalı quşu» romanını o, bir neçə dəfə oxumuşdu. Bu populyar türk yazıçısının digər əsərlərini də çox sevirdi. Lətif müəllim şagirdlərini türk poeziyasının ən gözəl nümunələri ilə tanış edirdi, odur ki, gənc Heydərin Namiq Kamalın, Ziya Göyalpın, Yəhya Kamalın, Tofiq Fikrətin şeirləri ilə tanışlığı təsadüfi deyildi. Heydər Əliyevin öz sözlərinə görə, Tofiq Fikrət onun ən sevimli şairlərindən biri idi.

1994-cü il noyabrın 2-də Türkiyə parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyini təntənə ilə qeyd etdilər. Parlamentin yığıncağında çıxış edən Azərbaycan prezidenti Heydər Əliyev hələ ilk gənclik çağlarında türk dilini ciddi şəkildə öyrəndiyini, türk ədəbiyyatı və poeziyası ilə maraqlandığını söyləmişdi: «İndi, bəlkə bu elə də böyük sirr hesab olunmasın, ancaq o vaxtlar mən türk dili lüğəti və dərsliyi əldə edib, türk dili öyrənməyə başladım. Bu gün bunu açıq da demək olar ki, mənim müəllimim vardı, o iki-üç il mənə türk dilini öyrətdi. Mən Türkiyənin tarixini, ədəbiyyatını öyrənirdim. Əbdülhəmid, Tofiq Fikrət və bir sıra başqaları mən orta

məktəbdə oxuduğum dövrdə ədəbiyyat dərsliklərinə salınmışdı. Həmin görkəmli yazıçı və şairlərin portretləri indiyədək mənim gözümün qarşısındadır»[27].

*(Əslində, türk ədəbiyyatı və poeziyasına gənclik marağı sonralar dövlət təhlükəsizlik orqanlarındakı iş prosesində onun çox karına gəlmişdi. Xidməti anketi doldurarkən «hansı xarici dilləri bilirsiniz?» sualına tərəddüd etmədən «türk dilini» cavabını yazmışdı).*

İbrahim İsmayılov da qeyd edir ki, «Heydər bədii ədəbiyyatı, xüsusilə poeziyanı çox sevirdi. Hüseyn Cavid, Mikayıl Müşfiq... Sonralar Səməd Vurğun, Məmməd Rahim kimi şairlərin əsərlərindən nümunələr gətirməyi çox xoşlayırdı».

Heydər Əliyevin mənəviyyatında onun iki görkəmli həmyerlisi – Cəlil Məmmədquluzadə və Hüseyn Cavid daha parlaq iz qoyub. Bütün Şərqdə məşhur olan satirik «Molla Nəsrəddin» jurnalının banisi və redaktoru, məşhur dramaturq, kiçik hekayə-novellalar kralı Cəlil Məmmədquluzadə geriliyə və cəhalətə, onların hər cür təzahürlərinə qarşı barışmaz mübarizəsi ilə gəncin qəlbində qürur hissi doğururdu. 30-cu illərin əvvəllərində «Molla Nəsrəddin»in illüstrasiyalı nömrələri, demək olar ki, hər bir naxçıvanlının evində var idi. Aqil Əliyev xatırlayır ki, böyük qardaşları Həsən və Hüseyn bu jurnalın onlarla nömrəsini alıb evdə iri qutularda saxlayırdılar. Pedaqoji texnikumda oxuyarkən Cəlil Məmmədquluzadənin Naxçıvan Dram Teatrında uğurla tamaşaya qoyulmuş «Ölülər» pyesi ilə tanış olandan sonra gənc Heydər sözün həqiqi mənasında sarsıntı keçirdi.

Mənim jurnalist arxivimdə Heydər Əliyevlə 1990-cı ilin sonunda etdiyim şəxsi söhbətlərin diktofon yazısının mətnləri qorunub saxlanır. O vaxt mənə «Literaturnaya qazeta»nın tapşırığı ilə Naxçıvana gedərək Siyasi Büronun istefada olan keçmiş üzvü ilə görüşmək nəsib olmuşdu. Başqa mövzularla yanaşı, biz ədəbiyyat məsələlərinə də toxunduq. O illərdə yaradıcılığı ilə dərindən maraqlandığım, hətta əsərlərinin təhlili ilə bağlı namizədlik dissertasiyası müdafiə etdiyim Cəlil Məmmədquluzadə haqqında da söhbət düşdü. Sən demə, Mirzə Cəlilin irsi mənim həmsöhbətim üçün də çox qiymətli imiş. O mənə dedi:

– Bu yazıçını mən gənclik çağlarımdan tanıyıram və sevirəm. Onunla ilk tanışlıq məktəb dərsliyindəki «Poçt qutusu» hekayəsi ilə başlayır, hekayələrini, «Danabaş kəndinin əhvalatları» povestini dəfələrlə oxumuşam. Ancaq məndə ən çox təəssürat oyadan «Ölülər» pyesi oldu. Yuxarı siniflərdə oxuyarkən mən teatra böyük maraq göstərir, tez-tez yerli dram teatrının tamaşalarına gedib baxırdım. O vaxtlar Naxçıvan teatrının istedadlı rejissorlardan, gözəl aktyor heyətindən ibarət güclü kollektivi vardı. Səməd Pəhləvi, İsa Musayev, Miribrahim Həmzəyev, Eyyub Haqverdiyev, Rza İsfəndiyarlı, Firuzə Əlixanova... sonralar Zəroş xanım Həmzəyeva, Mirhəsən Mirişli və başqaları da onlara qoşuldu *(Heydər müəllimin təntimədən bir-birinin ardınca onlarla ad çəkməsi məni heyrətləndirdi).*

Beləliklə, teatrımız Mirzə Cəlilin «Ölülər» pyesini tamaşaya qoydu və mən də böyük məmnuniyyətlə bu tamaşaya bir neçə dəfə baxdım. Yadımdadır ki, Kefli İsgəndər obrazını İsa Musayev, Məşədi Oruc surətini Miribrahim Həmzəyev oynayırdı. «Ölülər» pyesi dərin fəlsəfi əsərdir. Öz fəlsəfi siqlətinə görə o, Azərbaycan ədəbiyyatının dramatik əsərləri arasında ilk cərgədə durur. Eyni zamanda, onu digər əsərlərdən fərqləndirən cəhət dərin milli ruhu, xəlqiliyidir. Naxçıvan teatrının kollektivi bütün bu xüsusiyyətləri öz quruluşlarında tamamilə əks etdirə bilib. Sonralar artıq Bakıda işləyərkən Mirzə Cəlilin pyesinə Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşa etdim. Ona rəhmətlik Tofiq Kazımov quruluş vermişdi. Bu tamaşada modernizmə geniş yer verən rejissor əsəri müasirləşdirmişdi. Nəticədə pyes ilkin, yalnız özünəməxsus koloritini bir qədər itirmişdi.

Mən Cəlil Məmmədquluzadənin publisistikası ilə də tanışam, onun müstəqil Azərbaycan mətbuatının, Azərbaycanda qabaqcıl demokratik fikrin yaranmasındakı rolunu yüksək qiymətləndirirəm. Mən həmişə Mirzə Cəlili Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində böyük şəxsiyyət hesab etmişəm. Odur ki, respublikaya rəhbərlik edərkən ona Naxçıvanda heykəl ucaldılmasını özümə borc bilmişəm. Layihənin müəllifi heykəltəraş Mirqasımov idi. Yadımdadır ki, bu işlə bağlı onun qarşısına çətinliklər çıxmışdı, ona mane olurdular. O, bir neçə dəfə mənim qəbuluma gəlmişdi. Mən ona kömək eləməyə çalışdım, sonra muxtar respublikanın paytaxtında heykəl qoyulmasına dəstək verdim, məxsusi olaraq Naxçıvana gələrək heykəlin təntənəli açılışında iştirak etdim. Bir arzum da vardı – Bakıda Cəlil Məmmədquluzadənin ömrünün son illərini yaşadığı mənzildə onun ev-muzeyini yaratmaq. Bunun üçün müvafiq addımlar atıldı. Onun bu evdə yaşayan

qohumları daha münasib şəraitli mənzillərə köçürüldü. Həmin evdə təmir-bərpa işlərinə başlandı. Bu, 1980-1981-ci illər idi. 1982-ci ildə mən Moskvaya işləməyə getdim. Səkkiz ildən sonra geri-yə – Azərbaycana qayıdanda öyrəndim ki, həmin işlər yarımçıq qalıb, başa çatdırılmayıb, ev-muzey də açılmayıb. Bu mənim böyük təəssüf və heyrətimə səbəb oldu. İşə belə laqeyd münasibəti mən heç cür başa düşmürəm.

Heydər Əliyev böyük yazıçının vəfalı ömür-gün yoldaşı Həmidə xanımı da yada saldı. Dedi ki, onun Mirzə Cəlil haqqında xatirələrini də oxuyub və vaxtilə Həmidə xanımın 1912-ci ildə Qafqaz pambıqçılarının ikinci qurultayındakı məruzəsilə də tanış olubmuş.

– Belə ki, gördüyünüz kimi, mənə Həmidə xanım Məmmədquluzadənin bu fəaliyyət dairəsi də tanışdır. Ümumiyyətlə, Mirzə Cəlilin xatirəsi ilə bağlı hər bir şey mənim üçün əziz və müqəddəsdir – deyə Heydər Əliyev fikrini yekunlaşdırdı.

Gənc Heydər Mirzə Cəlildən başqa, ölməz şair və dramaturqumuz Hüseyn Cavidin yaradıcılığı ilə də çox maraqlanırdı. Onun cahanşümul əsərlərində o, gəncləri düşündürən xeyir və şərin mahiyyəti, varlığın mənası kimi məsələlərə cavab tapmağa çalışırdı. Lətif Hüseynzadə danışır ki, onun sevimli şagirdi Cavidin «İblis» və «Şeyx Sənan» pyeslərindən istənilən parçanı çaşmadan əzbərdən söyləyə bilirdi.

1937-ci ilin sentyabrında kütləvi repressiyalar maşını Hüseyn Cavidi də öz məngənəsinə saldı. O vaxtdan onun əsərləri üzərinə uzun illər qadağalar qoyuldu. Ancaq elə o dövrün özündə də bir çox naxçıvanlılar, öz taleləri, bəzən hətta həyatları ilə risq edərək, Azərbaycan ədəbiyyatının son romantik şairinin əsərlərini gizlədib saxladılar.

*50-ci illərin ortalarında Azərbaycan DTK-sının Heydər Əliyevin çalışdığı 2-ci şöbəsi, Stalin repressiyasının qurbanlarının işi üzrə minlərlə rəy hazırlayıb prokurorluğa göndərdi. O vaxtlar respublika prokurorunun xüsusi işlər üzrə müavini işləmiş İbrahim İsmayılovun dediyinə görə, Heydər Əliyev repressiyaya uğramış bu və ya digər milli mədəniyyət xadimlərimizin günahının sübut olunmaması haqqında qərarı imzalayarkən xüsusi məmnunluq hissi keçirirdi. Onların arasında Hüseyn Cavid də vardı. Lakin Heydər Əliyev onun ölümündən sonrakı taleyində son nöqtəni 1982-ci ildə Cavidin Sibirdə basdırıldığı yerin müəyyən olunması ilə bağlı, demək olar ki, detektiv əhvalat başa çatandan, cənazəsi Naxçıvana gətiriləndən sonra qoydu. Bu barədə biz kitabın sonrakı bölmələrində bəhs edəcəyik.*



## Gənclik əyləncələri

Yaşıdları arasında şübhəsiz və göz qabağında olan üstünlüyünə baxmayaraq, Heydər Əliyev heç vaxt onların qarşısında özünü öymür, burnunu dık tutmurdu. Əksinə, hamı təsdiq edir ki, o, çox həlim xasiyyətli və xeyirxah idi. Pedaqoji texnikumda ehtiyac içərisində yaşayan kasıb ailələrin uşaqları oxuyurdu. Heydərin öz ailəsinin o qədər də imkanlı olmamasına baxmayaraq, yenə də fürsət düşdükcə yoldaşlarına kömək edirdi. O, zəif cinsin nümayəndələrinə xüsusilə diqqət yetirirdi. Gənc Heydərlə bir kursda oxumuş xanımlardan biri qiymətli xatirələrini mənimlə bölüşdü:

«Mən Şahbuz rayonunun Nurs kəndində doğulmuşam. Yaxşı oxuduğuma görə şagirdlər arasında seçilirdim. Valideynlərim təhsilimi pedaqoji texnikumda davam etdirməyə qoymurdular, ona görə də mən ağlayıb-sızlayırdım. Bir gün mənim rəhmətlik dayım anamın yanına gəlib dedi: «Bacı, sovet hökuməti nəinki qızları, hətta qadınları da oxumağa məcbur edəcək. Sənin qızın ağıllıdır, oxumağa böyük həvəsi var, qoy getsin təhsil alsın». İmtahanlara da məni özü gətirdi.

Texnikumun həyətində mən Heydər adlı oğlanla tanış oldum. Dayım məni ona tapşırıb, məndən muğayat olmağı xahiş etdi. Mən birinci gün dərsə gələndə, o mənə yaxınlaşıb, yataqxanada necə yerləşməyimlə, bir şeyə ehtiyacım olub-olmaması ilə maraqlandı. Mən qorxaq idim, naxçıvanlı qızlardan kənar gəzirdim, onlar başlarını örtmür, sərbəst geyinirdilər. Görünür, Heydərin mənə yazığı gəlirdi, ona görə də himayədarlıq edirdi.

Onların həyətində tut ağacı vardı. Bir gün Heydər dedi ki, anam səni və o biri qızları evimizə dəvət edir. Tələbə yoldaşlarını da götür gəl, qoy tutdan doyunca yesinlər. Ancaq biz onların evinə getməyə utandıq.

Doğrudur, onun dəcəlliyi də vardı. Dərsi apara bilməyən müəllimləri «sanca» da bilərdi. Qızları cırnatmağı çox sevirdi. Mə-

sələn, mənim adım Zərqələm idi, o isə məni həmişə Qələmzər çağırırdı.

Uşaqlar əriyi kal-kal dərməyi xoşlayırdılar, buna bizim yerlərdə «çaqala» deyirlər. Dərsə də gətirirdilər, tənəffüsdə «təkmacüt» oynayırdıq. Heydər meyvələri ovcunda sıxıb soruşurdu: «Təkdir, ya cüt?» Çox vaxt Heydər udurdu, sonra isə həmin meyvələri uşaqlara paylayırdı.

8 Mart günündə uşaqlarla birlikdə biz qızlara kiçik də olsa hədiyyə verməyə çalışırdı. Heydər qızları pulsuz teatra aparır, onları ən yaxşı yerlərdə oturdurdu, deyirdi ki, İbrahim Həmzəyev mənim dostumdur».

*(Zərqələm Hüseynovanın xatirələrindən).*

Müəllimlər təsdiq edirlər ki, Heydər üzüyola uşaq idi, hər hansı münaqişəni də sülh yolu ilə həll etməyə çalışırdı. Dava-dalaşa, qalmaqala yol verməzdi. Tələbə yoldaşlarının da, müəllimlərinin də yadındadır ki, Heydər Əliyev ayrı-ayrı məhəllələrin uşaqları arasındakı ədavətə necə son qoyur.

Zərqələm Hüseynova xatırlayır:

«Pirqamış məscidində oğlanlar yataqxanası vardı, orada Şərurdan olan tələbələr yaşayırdı. Qurdlar məhəlləsində isə Culfa və Şahbuzdan olan uşaqlar qalırdı.

Şərurlular dalaşqan, davakar olduqlarından bizimkilər onlardan qorxurdular. Onlar culfalılarla, şahbuzlularla dalaşır, hətta onları döyürdülər. Heydər eşitmişdi ki, iki yataqxana bir-birinə düşmən kəsilib. Onların yanına gedib inandırmağa çalışdı: «Siz hamınız bir torpağın övladlarısınız. Biriniz Şərurdan gəlmisiniz, o biriniz Culfadan. Nə fərqi varmış ki?!» Beləliklə, onları barışdırdı».

Bu əhvalat Lətif Hüseynzadənin dilindən belə səslənir:

«Şəhərin ayrı-ayrı məhəllələrindən – Şahabdan, Sarvanlardan, Əlixanlıdan, Xoyludan, Zəviyədən olan cavanlar arasında münaqişə baş vermişdi. Bizdə oxuyanlar arasında da bu məhəllələrdən olan uşaqlar vardı. Texnikumun binasından çıxan kimi, öz məhəllələrindən olan uşaqlara qoşulub o biriləri ilə vuruşmağa başlayırdılar. Bir-birini söyüb təhqir edir, hətta döyüşürdülər. Yerdən daşları yığıb, bir-birinə atırdılar. Biz müəllimlər nə qədər çalışsaq da, onların öhdəsindən gələ bilmirdik. Bir gün Heydər Əliyev işə qarışmaq qərarına gəldi. O, qrup komsomol təşkilatı katibi, texnikum komsomol komitəsinin üzvü idi, qrup yoldaşlarını başına yığıb, fikrini onlara izah etdi, onlar da bölüşüb həmin məhəllələrə yollandılar. Ağsaqqallarla, valideynlərlə, uşaqların özləri ilə söhbət etdilər. Bir torpağın, bir xalqın övladları olmalarından, bu düşmənçiliyin axırının olmadığından, hətta faciəylə bitə biləcəyindən danışdılar. Bir neçə gün ərzində, tədricən onların hirsini soyudub, dalaşanları barışdırdı. Cavid əbəs yerə demirdi ki, «Kəssə hər kim ki, axan qan izini, qurtaran dahi odur yer üzünü».

Məhəllələr arasında sülh və əmin-amanlıq bərqərar oldu. Bax, onda biz əmin olduq ki, bu cavan oğlan qeyri-adi qabiliyyətə malikdir, özündən yaşca böyük olanlar da onu eşidir və iradəsinə tabe olurlar. Axı, onun o vaxtlar cəmisi 16 yaşı var idi! Bir sözlə, o həqiqətən Lider idi».

* * *

Kimsə deyib ki, əgər insan istedadlıdırsa, o hər sahədə istedadlıdır. Bizim qəhrəmanımız da belə idi: əla oxumaqla yanaşı, o, həm də texnikumda böyük ümidlər verən rəssam və aktyor idi.

Onun bu iki məşğuliyyəti üzərində daha təfsilatı ilə dayanmağa dəyər.

«Heydərin çox gözəl səsi vardı, o uşaqlıqdan oxumağı xoşlayırdı, xüsusilə də «Dəli ceyran» və «Uca dağlar başında» mahnılarını. Bundan başqa, həm də əla rəsmlər çəkirdi. O, şübhəsiz, istedada malik idi. O, rəngli qələmlə çəkirdi, mən onun rəsmlərini görmüşdüm. Hayıf ki, onlar itib-batdı».

*(İbrahim İsmayılovun xatirələrindən).*

«Heydər Əliyevin ədəbiyyata, yaradıcılığa xüsusi meyli vardı. O, bir dəfə mənə dedi: «Bilirsən, həyatımın ən xoş günü ilk dəfə nə vaxt olub? Karandaşla Tolstoyun portretini çəkdiyim gün. Bu sevinc hissi indi də mənim qəlbimdədir».

*(Yazıçı Elçinlə söhbətindən).*

«O gözəl rəssam idi. Məsələn, mən və ya tarix müəllimi tez-tez dərslərimizi təbiətin qoynunda, Naxçıvanda addımbaşı rast gəldiyimiz hansısa tarixi memarlıq abidəsinin qarşısında keçirdik. Biz abidələri şagirdlərə göstərib, onların yaranma tarixindən söhbət açırdıq. Məktəbə qayıdandan sonra isə gördükləri barədə inşa

yazı yazmağı tapşırırdıq. Hər kəs bu inşanı bir formada – kimisi hekayə, kimisi şeir, kimisi də elmi oçerk şəklində yazırdı. Heydər isə həm inşanı yazır, həm də həmin abidənin şəklini çəkirdi.

Tələbə yoldaşları və müəllimləri onun çəkdiyi Möminəxatun türbəsi, Əlincə qalası, İlanlı dağ silsilələri, günəşli kənd mənzərələri kimi rəsmləri bugünədək xatırlayırlar. Hamımız fikirləşirdik ki, o, gələcəkdə rəssam olacaq».

*(Lətif Hüseynzadənin xatirələrindən).*

«Bir gün biz Muxtarın evinin yaxınlığındakı qoz ağacının altında oturmuşduq. Heydər Əliyev də bizimlə idi. Bu vaxt qara ata minmiş Behbud kişi evə yaxınlaşdı, atdan enərək üstündəki yükü düşürməyə başladı. Heydər iki dəqiqənin içində karandaşla Behbud kişinin şəklini çəkdi. O qədər oxşatmışdı ki, sanki fotoaparatla çəkilmişdi».

*(Urud kəndinin ağsaqqalı Məmməd Quliyevin söhbətindən).*

«Bizi Heydərlə bağlayan rəsm çəkməyə məhəbbətimiz idi. Rus dili müəllimimiz Həsən bəy Qaziyevin oğlu Şamil Qaziyev rəssam idi. Əliyevin böyük qardaşı Hüseyn də rəssam oldu. Onların albomları, akvarelləri ilə tanış ola-ola rəsm çəkməyi öyrənirdik. Biz Möminəxatun türbəsinə gedib oradan vağzalı, stansiyanı, Edlağa gölünü, İlanlı dağını seyr edir, ətraf mənzərələri çəkirdik. Nədənsə stansiyaya yaxınlaşan, vaqonlarının damından tüstü qalxan qatarı təsvir etməyi daha çox xoşlayırdıq. Yusif Küseyir abidəsinin, digər abidələrin şəklini çəkirdik. Heydərlə mən təsviri sənət dərnəyində məşğul olurduq, müəllimlərimiz bizə tapşırıqlar verirdilər. Yadımdadır ki, Heydər Puşkinin Danteslə duelini, Natalya Qonçarovanın portretini çəkmişdi. Bu şəkilləri yığıb, pedaqoji texnikumda sərgi təşkil etmişdilər. Heydər həmişə birinci, mən isə ikinci, ya da üçüncü yeri tuturduq. Bizi ya kostyumla, ya da ayaqqabı ilə mükafatlandırırdılar. Bir dəfə mənə təzə kostyum bağışladılar, mən də onu geyinib sevincək evə gəldim. Gördüm, atam mənə nədənsə qaşqabaqla baxır. O, çox qənaətcil adam idi, bir qəpiyi belə boş yerə xərcləməzdi. Səhərisi biz Naxçıvana qayıtdıq. O vaxtlar nəqliyyat yox idi, biz şəhərə qədər 40 kilometrlik yolu pay-piyada getdik. Riyaziyyat müəllimimiz Tofiq Bəktaşi məni müəllimlər otağına çağırdı. Gördüm, atam orada oturub, gülümsəyir. Deyib ki, mən təəccübləndim, onda təzə



kostyum haradandır, axı mən ona bunun üçün pul verməmişəm. Müəllimlər ona başa salıblar ki, oğlun kostyumu rəsm müsabiqəsindəki uğuruna görə mükafat alıb.

Çox vaxt bizə akvarel rəng dəsti bağışlayırdılar.

Heydərlə mən həm də Telman adına klubda teatrın dekorasiyalarını hazırlamağa, afişaların, dəvətnamələrin yazılmasına köməklik edirdik.

Yadımdadır ki, mən Sabirin «Hophopnamə»si haqqında məruzə, şeirlərinə illüstrasiyalar hazırlamışdım. Biz çox çalışırdıq, işimiz başımızdan aşırdı. İstəyirdik hər yerə çataq. Heydərlə mən müəllimlik arzusunda deyildik, rəssam olmaq istəyirdik».

*(Dövlət Məmmədovun xatirələrindən).*

Çox təəssüf ki, uşaqların rəsmlə məşğul olmasına böyüklər o qədər də əhəmiyyət vermirdilər, xüsusilə də Heydərgilin ailəsində, artıq qeyd etdiyimiz kimi, demək olar ki, hamı yaxşı çəkirdi. Sonralar Heydər Əliyev dəfələrlə öz təəssüfünü bildirmişdi ki, onun gənclik illərində çəkdiyi rəsmlər və çertyojlar itib-batmışdır.

1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyi ilə bağlı şənliklərdə iştirak edərkən Heydər Əliyev Möminəxatun türbəsinə gəldi. Heydər Əliyev Naxçıvan Xalça Muzeyinin direktoru Arif Qədimovun şəxsi təşəbbüsü ilə toplayıb muzeydə yerləşdirdiyi ekspozisiyaya tamaşa etmək istəyirdi. Ekspozisiya onun elə xoşuna gəldi ki, elə oradaca onun müəllifinə Azərbaycanın əməkdar mədəniyyət işçisi adının verilməsini bəyan etdi.

Muzeyi gəzərkən prezident onu müşayiət edən şəxslərə danışırdı ki, hələ gənc yaşlarından Azərbaycan memarlığının bu möhtəşəm abidəsinə böyük maraq göstərib:

«Yadımdadır, cavan vaxtlarımda, hələ məktəbdə oxuyanda bu ətraflarda tez-tez gəzərdim. Məktəbli ikən mən çoxlu rəsmlər çəkirdim, rəssam olmağı arzulayırdım... Möminəxatun türbəsini bir neçə variantda çəkmişdim. Çox təəssüflənirəm ki, Bakıya, oradan Leninqrada, sonra isə Moskvaya gedəndə bütün kitablarım və rəsmlərim itib-batdı. Çox təəssüf. Mənim akvarellə çəkilmiş gözəl rəsmlərim vardı»[28].

Heydər Əliyevə böyük məhəbbət bəsləyən insanların – Naxçıvan ziyalılarının nümayəndəsi Arif Qədimov və onun həyat yoldaşı Lətifə İsmayılovanın səyi nəticəsində Heydər Əliyevin

gənclik çağlarında çəkdiyi şəkillərdən birini tapmaq mümkün oldu. Yeniyetmə qızın karandaşla çəkilmiş portreti yarım əsrdən də artıq bir müddətdə Ordubaddan olan rus dili müəlliməsinin ailəsində qayğı ilə mühafizə olunub, nəhayət tarixi sərvətə çevrilib. Arif və Lətifə həmin müəlliməni axtarıb tapdılar. Məlum oldu ki, portretdə təsvir olunan qız elə müəllimənin özüdür. Ondan xahiş etdilər ki, ölkənin gələcək prezidentinin onun şəklini necə və hansı şəraitdə çəkdiyi barədə danışsın.

Öz qəhrəmanımın uşaqlıq və gənclik illəri barədə material toplayarkən mən Arif Qədimovun qonağı oldum, o da Zərifə xanım Seyidova ilə söhbətinin videoyazısını mənə təqdim etdi.

Zərifə xanımın atası Mirzə Əbdülvahab Həsənzadə Naxçıvanın məşhur pedaqoqu, Naxçıvan Muxtar Respublikasının ilk xalq maarif komissarı, keçən əsrin 30-cu illərinin sonu, 40-cı illərinin əvvəllərində Azərbaycan Elmlər Akademiyası kitabxanasının direktoru vəzifələrində işləyib. Heydər Əliyevin qardaşı Həsən Əliyev kommunal mənzildə onunla qonşu olub. Onlar İçərişəhərdə, Əli Bayramov küçəsi, 25 nömrəli evdə yaşayır, axşamlar isə bir-birinə qonaq gedərmişlər. Kitabın qəhrəmanı da bura tez-tez baş çəkərmiş.

Zərifə xanım o günləri belə xatırlayır: «Atamı yazıçılardan Məmməd Səid Ordubadi, İslam Səfərli, Səməd Vurğun yaxşı tanıyırdılar. Mənzilimizdə bədii qiraət gecələri keçirərdilər. Bəzən Bakıya, qardaşıgilə qonaq gələn Heydər Əliyev də bu tədbirlərdə iştirak edərdi.

Heydər Həsən müəllimgilə qonaq gələndə, qardaşlarım onunla nərd oynayırdılar. Onu da deyim ki, Heydər uduzmağı xoşlamırdı. Nə olursa olsun, udmalı idi. Yadımdadır, hətta atam qardaşım Rahibə deyirdi: «Yaxşısı budur, sən ona güzəştə get, görmürsən o uduzanda nə günə düşür?» O hər şeydə, hətta oyunda da birinci olmalı idi.

Bir gün onlar yenə də oynayırdılar. Oyunu bitirəndən sonra Heydər mənə dedi: «Zərifə, belə otur, şəklini çəkim». Çəkdi. Portret mənim çox xoşuma gəldi. Mən onu aparıb çarpayımın üstündən asdım. Sonra biz Ordubada köçdük, portreti rayona gətirdim. Sonralar onu özümlə albomda gəzdirirdim. Biz Bakıdan Ordubada köçəndə mənə məxsus əşyalarımdan yalnız bu portreti götürdüm. Onu çantamda gizlətdim. O mənim üçün həyatda hər



şeydən qiymətli idi. Sonralar hara köçürdümsə, bu şəkli özümlə götürürdüm. Onu cehiz kimi ərimin Ordubaddakı evinə də gətirdim.

Mənim alnımda nəzəri cəlb edən bir xal var. Heydər həmişə mənə zarafatla deyərdi: «Sənin nişanə xalın var. Sən əgər itsən də, bu xalla mən səni mütləq taparam». O, çəkdiyi portretdə də xalı əks etdirmişdi».

Arif Qədimovdan, ordubadlı müəllimdən tapılmış şəkil barədə əhvalatı eşidən kimi jurnalist Svetlana Mirzəyeva təyyarə ilə Naxçıvana uçdu, şəklin surətini çıxarıb elm və mədəniyyət xadimlərinə dövlət mükafatlarının təqdimatı mərasimində müəllifin özünə bağışladı.

Bu əhvalatı Svetlana Mirzəyeva belə xatırlayır:

«Prezident mənə içərisində günəş şüaları kimi şəfəq saçan «Şöhrət» ordeni olan kiçik qutunu təqdim etdi. Mən isə rəsmi Prezidentə uzatdım. O, vərəqdəki təsvirə baxıb, öz işini, əlilə yazdığı «Zərifənin şəkli» sözlərini tanıyıb prezident iqamətgahında toplaşmış çoxsaylı auditoriyaya müraciətlə, həyəcanlı səslə: «Baxın, mənim gənc yaşlarımda çəkdiyim rəsmdir» – dedi.

Mükafatlanma mərasimi başa çatandan sonra S.Mirzəyeva rəsmin ikinci surətini incəsənət xadimlərinə göstərdi. Prezidentin köhnə dostu, Azərbaycanın xalq rəssamı Kamil Əliyev heyrətini gizlətmədi: «Professional məktəb keçməmiş bir gənc yeniyetmə qızın surətini dəqiqliklə, işıq və kölgə qanunlarını gözləməklə təsvir edə bilib. Qızın parıltılı gözləri, heyrətedici tərzdə canlı baxışı, üzünün fərəhli, eyni zamanda da utancaq ifadəsi – bütün bunlar müəllifin həssas müşahidə qabiliyyətindən, iti rəssam gözünə malik olmasından, istedadından – bir sözlə, bizim işdə ən vacib keyfiyyətlərdən xəbər verir. Düzünü deyim ki, bu rəsm – mənim üçün tapıntı, kəşf idi. Ancaq mən Heydər Əliyevlə, demək olar ki, yarım əsrə yaxın bir müddətdə tanış olan, xalça üzərində onun bir neçə portretini yaradan bir adam kimi həmişə hiss edirdim ki, o, yaradıcılığa çox yaxın adamdır, rəssamlıq onu dərindən həyəcanlandırır. Heydər Əliyevin iş prosesində mənə verdiyi məsləhətlər, onun sualları, koloritlə, kompozisiya ilə bağlı iradları rəssamlıq nöqteyi-nəzərindən çox dəqiq idi. Bu, həvəskar qeydləri deyildi, rəssam və tədqiqatçı işindən yaxşı baş çıxaran bir insanın fikirləri idi»[20].

* * *

Heydər Əliyevin daha bir marağı onu bütün həyatı boyu izləyib. Onun gənclik illərində Azərbaycan teatrı çiçəklənmə dövrünü yaşayırdı. Teatr yerli ziyalı nümayəndələrinin çoxunun həyatının ayrılmaz hissəsinə, həyat tərzinə çevrilmişdi. Müəllimlər və tələbələr, texniklər və idarə işçiləri axşamlar səhnə quruluşçusuna, rəssamlara, kostyum ustalarına, aktyora çevrilir, təkcə professional səhnədə yox, bütün məktəblərdə, texnikumlarda, mədəniyyət evlərində və saraylarında göstərilən teatr tamaşalarının səhnəyə qoyulmasında bu və ya digər dərəcədə iştirak edirdilər.

Ümumiyyətlə, Naxçıvan teatrının yaranma tarixi 1883-cü il hesab olunur. Məhz bu ildə başda Eynəlibəy Sultanov olmaqla Naxçıvan ziyalılarının nümayəndələri «Müsəlman incəsənət və dram cəmiyyəti»ni yaratdılar və müvafiq razılıq əldə edəndən sonra Naxçıvanda Mirzə Fətəli Axundovun «Hekayəti-Müsyö Jordan – həkimi nəbatat və dərviş Məstəli şah-cadukuni-məşhur» pyesini səhnəyə qoydular. Tamaşanın uğurundan ilhamlanan Eynəlibəy Sultanov 1884-cü ildə ikipərdəli «Tatarka» komediyasını yazır. Bu pyes Naxçıvanın tamaşa meydançalarında uzun illər uğurla oynanılıb.

1890-cı ildən Cəlil Məmmədquluzadə Naxçıvanın teatr sənətinin inkişafında fəal iştirak edir. Burada, məktəb səhnəsində onun ilk dram əsəri olan «Çay dəsgahı» pyesi işıq üzü görüb[30].

Keçən əsrin 20-ci illərinin ortalarında Naxçıvan «Fəhlə-kəndli teatrı»nın tərkibində parlaq yaradıcı şəxsiyyətlər olan kifayət qədər qüvvətli kollektivi vardı. Naxçıvan ağsaqqalları Səməd Mövləvi, İsa Musayev, Rza İsfəndiyarlı, Mirhəsən Mirişli, Rza Təhmasib, Məşədi Bağırov, Bayram Mərdanlı, Sadıx Həsənzadə, Ruxsara Ağayeva və digər qüdrətli aktyorların oyununu indiyədək böyük heyranlıqla xatırlayırlar. Naxçıvan truppası elə mühüm təzahür idi ki, çox vaxt Bakıdan gələn aktyorlar – Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Sidqi Ruhulla, Mərziyə Davudova da onlarla birgə çıxış edirdilər.

Heydər Əliyevin qardaşı danışır ki, Naxçıvan teatrının tamaşalarına bilet tapmaq mümkün deyildi. Heydər teatr aləmindəki əlaqələri hesabına bilet və ya kontramarka əldə edir və kiçik qardaşlarını, demək olar ki, hər axşam teatra aparırdı. 30-cu illərdə



Naxçıvanda klassik əsərlər səhnələşdirilirdi – Şekspirin «Otello» və «Hamlet», Şillerin «Qaçaqlar», Qoqolun «Müfəttiş» və s. əsərlər. Azərbaycan dramaturgiyasına gəlincə, Cəlil Məmmədquluzadənin əsərləri ilə yanaşı, gənclərin beyinlərinə və əhvali-ruhiyyələrinə istedadlı sovet dramaturqu Cəfər Cabbarlının pyeslərinin qəhrəmanları da güclü təsir göstərirdi. Onun Sevil və Almaz, Aydın və Oqtay surətləri yeni dünyanın adamları, yeni həyatın yaradıcıları idi. Gənclər onlara oxşamağa çalışır, cəmiyyətin yeniləşməsi və dəyişməsi prosesində onlar kimi inamla, fədakarlıqla iştirak etmək istəyirdilər. Gənc Heydər üçün Sevil obrazı – özünün şəxsiyyət azadlığı hüququnu axıradək müdafiə edən, ailədəki ətalətə, geriliyə qarşı qiyam qaldıran, açıqcasına qəti etiraz bildirərək yüksələn qadın surəti olduqca cazibədar idi. Heç də təsadüfi deyil ki, C.Cabbarlının pyesindəki sevimli qəhrəmanı ilə tanışlıqdan 20 il keçəndən sonra cavan, xoşbəxt ata öz ilkinin adını Sevil qoymuşdu.

...Dərsdən kənar vaxtlarda Zəviyə məhəlləsinin uşaqları şəhərdə Humay xanımın evi kimi məşhur olan ikimərtəbəli imarətin zirzəmisinə yığışardılar. Bu evdə Naxçıvanın ədliyyə naziri Əbdülmanaf Hacıyev yaşayırdı. Onun övladları Əlirza kişinin uşaqları ilə dostluq edirdilər. Heydərlə nazirin oğlu Qasımın sayəsində zirzəmi teatr klubuna çevrilmişdi. Aqil Əliyev xatırlayır ki, onlar həmin zirzəmidə səhnə düzəltmiş, ona pərdələr asmışdılar. Yeniyetmələr tamaşalardan səhnələr oynayır, şeirlər söyləyirdilər. Onların «əldəqayırma» nəfəs alətləri orkestri də vardı.

Tətillərdə dağlıq Urud kəndində istirahət zamanı Heydərlə Qasım kənd uşaqlarını ətraflarına toplayıb tamaşa göstərirdilər. Qasımın bacısı Roza Hacıyeva sonradan belə söyləyirdi: «Biz dördillik Urud məktəbində səhnə düzəldib orada teatr göstərirdik. Bu tamaşalarda mən də iştirak edirdim. Bir neçə dəfə Heydərlə tərəf-müqabil də olmuşam. Heydər özü tez-tez bu və ya digər tamaşanın quruluşçu rejissoru olurdu. Çox ciddi repertuarımız vardı: Şillerin «Qaçaqlar»ını, M.F.Axundovun «Lənkəran xanının vəziri»ni, S.Vurğunun «Vaqif»ini, M.İbrahimovun «Həyat»ını tamaşaya qoyurduq. Yadımdadır ki, Heydər Qacarı oynayırdı. Özü də yüksək hiss-həyəcanla, böyük emosionallıqla»[31].

Telman adına klubun direktoru uşaqlara və incəsənətə vurğun olan yerli ziyalı İdris Səlimov idi. O, klubda professional aktyorların və rejissorların rəhbərlik etdiyi çox gözəl dram dərnəyi təşkil etmişdi. Bir gün dərnəyin rəhbəri İbrahim Həmzəyevin diqqətini zərif üz cizgiləri olan boy-buxunlu yeniyetmə cəlb etdi. O, klubun daimi tamaşaçısı olan bu cavan oğlandan hər hansı bədii əsərdən bir parça ifa etməyi xahiş etdi. Oğlanın gur səsi və aydın tələffüzü rejissoru elə heyran etdi ki, o məşq etdikləri tamaşada əsas rolu ona tapşırdı. Beləliklə, Heydər Əliyev Həmzəyevin həvəskar truppasında əsas aktyorlardan biri, İbrahim Həmzəyev isə gənc Heydərin sevimlisi və qürur mənbəyi oldu.

«İbrahim Həmzəyev əslən gəncəli idi. Təyinatını Naxçıvana alıb, yerli teatrda işləyirdi. Ancaq Pionerlər evində uşaqlarla da məşğul olur, tamaşalar hazırlayırdı. Heydər Əliyev özü də ora gedirdi, texnikumdakı digər uşaqlar da. İbrahim çox tələbkar müəllim olsa da, bəzən təəccüblənib deyirdi: «Bu oğlan elə oynayır ki, sanki təcrübəli, professional aktyordur». Heydər professional aktyorların da səhvlərini tuturdu. Görürdün ki, teatra gəlib məşqə və ya tamaşaya baxandan sonra İbrahim Həmzəyevə deyir: «Aktyor burada səhv etdi. Bu sözləri elə yox, belə ifadə etmək lazım idi». İbrahim müəllim onun qabiliyyətinə heyrət edirdi».

*(Lətif Hüseynzadənin xatirələrindən).*

Aradan uzun illər keçəndən sonra, jurnalist Svetlana Mirzəyeva ilə söhbəti zamanı Heydər Əliyev həyatında xüsusi rol oynamış bu qeyri-adi şəxsiyyət haqqında təəssüratlarını bölüşmüşdü:

«1937-ci ildə hamının bir-birini tanıdığı Naxçıvanda təzə bir adam peyda oldu. Dərhal da diqqəti cəlb etdi: böyüklər də, kiçiklər də gözəl biçimli kostyum, qar kimi ağ köynək geymiş, səliqə ilə bağlanmış qalstuk taxmış, üstündə bir dənə toz zərrəsi olmayan qara lak çəkməli gözəl qamətli kişini diqqətlə süzürdülər. O, naxçıvanlıların əsas istirahət yerinə – şəhər bağında yerləşən teatra gedirdi. Naməlum adam yüngül yerişlə irəliləyirdi. Ona baxmağın özü elə bir tamaşa idi: yoldan keçənlər ayaq saxlayıb, bu adamın arxasınca baxırdılar. Artıq biz hamımız – Naxçıvan əhli onun artist olduğunu, bizim teatrda işləməyə gəldiyini bilirdik.

Təbii ki, İbrahim Həmzəyev mənimlə söhbət edəndə çox şad oldum. Mənə rəhbərlik etdiyi dərnəkdə məşğul olmağı təklif edəndə isə çox fikirləşmədən razılığımı verdim»[12].



Dram dərnəyində məşğələlər çox maraqlı keçirdi. İbrahim müəllim gələcək tamaşanın bu və ya digər səhnəsini yeniyetmələrlə sadəcə məşq etmirdi, onlara teatr haqqında, görkəmli aktyorlar barədə danışır, Stanislavski sistemi ilə bağlı mühazirələr oxuyur, onlara təkcə texnikanı qavramaqda yox, aktyorluq sənətinin mənəvi, əxlaqi-psixoloji əsaslarını mənimsəməkdə köməklik göstərirdi.

«Bir sözlə, bu, səhnə davranışı və danışığı elminin sürətlə qavranıldığı teatr sənəti məktəbi, bəlkə də universiteti idi. Məhz «Həmzəyev universiteti»ndə ixtisas təhsili olmayan, ancaq bu cür mahir ustadın rəhbərliyi altında milli səhnənin görkəmli ustaları, xalq artisti kimi şərəfli adlara yüksələn Zəroş Həmzəyeva, eləcə də Sofya Hüseynova, Roza Cəfərxanova professional səhnə xadimləri kimi yetişdilər. İbrahim Həmzəyevin uğurlu aktyor gələcəyinə inanaraq, açıq-aydın başqalarından fərqləndirdiyi Heydər Əliyev də, yəqin ki, xalq artisti ola bilərdi. Tale onun həyatını tamam başqa axara yönəltsə də, istər-istəməz səhnə ab-havası, pərdəarxası həyat, ilk tamaşaların sevinci, aktyorların gündəlik ağır zəhməti – bütün bunlar Heydər Əliyevin hərtərəfli şəxsiyyət kimi yetişməsində öz rolunu oynamışdır.

İbrahim Həmzəyevin oğlu, Naxçıvan Muxtar Respublikasının keçmiş mədəniyyət naziri Nizami Həmzəyev atasının öz tələbələrinə tövsiyələrini belə xatırlayır:

«İnsan, xüsusilə də artist evdən küçəyə çıxanda səhnəyə çıxdığı kimi səliqəli olmalıdır. O, yalnız üzü tərtəmiz təraş edilmiş, şux geyinmiş, ayaqqabıları parıldayan vəziyyətdə, tanış olan və olmayan adamlara xoş təbəssüm bəxş edərək insanların qarşısına çıxa bilər. Onun evdə hər hansı səbəbdən pozulmuş əhvalını nümayiş etdirməyə haqqı yoxdur. O, işdə hamı ilə sakit, rəvan ahənglə danışmalıdır. Daxili və xarici mədəniyyəti, gözəl, sirayətedici ədaları olmayandan nə artist, nə də kollektivə rəhbər çıxmaz».

Zəroş xanımın oğlunu dinləyə-dinləyə, düşünürdüm ki, İbrahim Həmzəyevin tələbəsi olan Heydər hələ lap kiçik yaşlarından müəlliminin dərslərindən, o cümlədən geyim mədəniyyəti barədə tövsiyələrindən bütün ömrü boyu ibrət götürmüşdür»[13].

*Teatr Əliyevin bir siyasətçi kimi formalaşmasında çox böyük rol oynamışdır. Onun bir çox cəhətdən improvizasiyaya əsaslanan*

*parlaq çıxışlarını, gözəl nitq qabiliyyətini, özünü aparmağı bacarmasını, «Hollivud» təbəssümünü, qüsursuz, «Həmzəyevsayağı» xarici görünüşünü sonralar hamı – hərə bir cür qeyd edəcək: dostları və xeyirxahları qürur və iftixarla, xarici mətbuat – təəccüblə, heyrətlə, islaholunmaz əyalət davranışlı baş katib Qorbaçov başda olmaqla Sovet Siyasi Bürosunun kobud, qaraqabaq üzvləri – qısqanclıqla, paxıllıqla.*

*Respublikanın partiya rəhbəri olandan sonra Əliyev incəsənət adamlarına, xüsusilə də teatr xadimlərinə himayədarlıq etməyə, onların maddi, mənzil-məişət problemlərinin həllində kömək etməyə başladı. Keçən əsrin 90-cı illərində, yenidən respublikaya rəhbərlik etməyə başlayanda onlarla görkəmli teatr və kino xadiminə Prezident təqaüdü və fəxri adları verməklə o, bir çox səhnə korifeyini yoxsulluğun cəngindən xilas etdi. Ömrünün sonunadək o, Azərbaycan teatrlarının bütün premyeralarına, eləcə də Bakıya gələn xarici kollektivlərin tamaşalarına baxırdı. Bir sözlə, teatra olan gənclik məhəbbətinə o heç vaxt xəyanət etmədi.*

Yeniyetmə Heydər Əliyevin çoxlu gözəl saatlar və günlər keçirdiyi Telman adına kluba gəlincə, respublikanın rəhbəri olandan sonra öz borcunu yerinə yetirərək, təzə, o dövr üçün çox möhtəşəm bir Pioner və Məktəblilər Sarayı tikdirdi. Naxçıvana səfərlərimin birində mən əfsanəvi İbrahim Həmzəyevin oğlu, tikinti epopeyasının əsas «günahkarı» olan Nizami Həmzəyevlə tanış oldum. Nizami müəllimin söhbəti mənə o qədər maraqlı gəldi ki, onu öz kitabımda tam şəkildə verməyi qərara aldım:

«1974-cü ildə Heydər Əliyev muxtar respublikanın 50 illik şənliklərində iştirak etmək üçün Naxçıvana gəlmişdi. O vaxt mən respublika Pionerlər evinin direktoru idim. O, köhnə binada, Telman adına klubda yerləşirdi. 30-cu illərdə atam İbrahim Həmzəyev «Bahar» adlı uşaq teatrı yaratmışdı, Heydər Əliyev də bu teatrda baş rolları ifa edirdi.

Biz bayram konsertində çıxış etmək üçün «Xalqlar dostluğu» adlı rəqs-suita hazırlamışdıq. Uşaqlar SSRİ xalqlarının milli geyimlərində çıxış edirdilər. Çıxışımız Əliyevin çox xoşuna gəldi. Bundan əlavə, bədii hissədə pionerlərin təbriki səsləndi. Həmin təbrikin sonunda uşaqlar onlar üçün yeni saray tikməyi Heydər Əliyevdən xahiş edirdilər. Təbrik bu sözlərlə bitirdi: «Onda biz, Heydər Əlirza oğlu, Sizə pioner «sağ ol»u deyərik». Mən səhnə



arxasında dayanıb, onun bunları necə qarşılayacağını həyəcanla gözləyirdim. Bütün zal və rəyasət heyəti bir anlığa donub qaldı. Heydər Əliyev isə bərkdən gülüb əl çaldı. Hamı dərindən nəfəs aldı, zalda oturanlar canlanaraq əl çalmağa başladılar.

Ertəsi gün səhər tezdən yuxudan zəng səsinə oyandım. Vilayət komitəsindən vurulmuşdu: «Hazırlaş, bu gün Heydər Əliyev pioner və məktəblilər sarayına baxmaq qərarına gəlib» – dedilər. Bizim sarayda cəmi 8 otağımız vardı. Onlardan da ikisi muzey kimi istifadə olunurdu – biri Lenin guşəsi, digəri isə Böyük Vətən müharibəsindəki epizodları əks etdirən Şöhrət muzeyi idi. Yerdə qalan 6 otaqda 1800 uşaq müxtəlif dərnəklərdə məşğul olurdu. Bu, bizim ən yaralı yerimiz idi.

Biz Heydər Əliyevi Pionerlər evinin önündə qarşıladıq. Respublikanın digər rəhbər işçiləri, eləcə də ailəsi: Zərifə xanım və uşaqları da onun yanında idilər. Yadımdadır ki, mən hətta təəccüblənmişdim ki, birinci katibin uşaqları bu cür sadə geyiniblər? Əliyev otaqlardan birinə nəzər yetirdi. Orada tar çalanlar məşq edirdilər. Tarı özündən böyük olan oğlan Əliyevi görən kimi yerindən dik qalxdı.

– Əyləş, əyləş! – deyə Əliyev ona yaxınlaşıb soruşdu, – nə çala bilirsən?

– Ürəyiniz nəyi istəyirsə.

– Canım, yəni nə istəsəm çala bilərsən? – deyə Əliyev gülümsündü. – Onda hər hansı bir muğam çal.

Uşaq çaldı. Əliyev bir qədər dinləyəndən sonra uşağı tarqarışıq qaldırıb bağrına basdı, üzündən öpdü.

Zala keçdik. Kiçik zalımız və «Bahar» teatrı uşaqlarının tamaşa göstərdiyi səhnəmiz vardı. Əliyev uşaq olarkən zalın nə cür olduğunu, giriş və çıxışın hansı tərəfdə yerləşdiyini yada saldı. Pionerlər evini gəzəndən sonra o, pedaqoji kollektivin fəaliyyətini yüksək qiymətləndirərək məndən soruşdu: «Sizə nə kömək lazımdır?». Mən cavab verdim ki, bizə bir qədər geniş binadan başqa heç bir şey lazım deyil. Çünki 1800 adam 6 otağa sığışmır.

O, fikirli-fikirli başını buladı: «Çox çətin məsələdir. Bu cür tikintini qabaqcadan plana salmaq lazımdır». «Baxarıq», «Kömək edərik» kimi sözlər demədi. Mən dilxor oldum. Deməli, təzə pionerlər evimiz olmayacaq. Pionerlər evinin qarşısında Cəlil Məmmədquluzadənin heykəli qoyulmuşdu. Əliyev ona baxmağa getdi.

Abidənin müəllifi – heykəltəraş Mirqasımov xanımı ilə birlikdə heykəlin yanında durmuşdular. Abidə Əliyevin çox xoşuna gəldi, onu yüksək qiymətləndirdi. Özü də elə professionallıqla qiymətləndirdi ki, mən heyrətləndim: görəsən o bu terminləri haradan bilir? Qəflətən Əliyev dedi: «Təkcə pyedestal bu abidə üçün çox alçaqdır». Heykəltəraş ağır eşidirdi, xanımı işarələrlə Əliyevin sözünü ona çatdırırdı. Gördüm ki, heykəltəraş başı ilə təsdiq etdi və ömür-gün yoldaşına nəsə göstərdi. O, dedi: «Siz haqlısınız, inşaatçılar postamenti layihədə nəzərdə tutulduğundan 45 santimetr alçaq düzəldiblər». Onu da deyim ki, sonralar heykəli teatrın qarşısına köçürəndə, bu iradı nəzərə almışdılar.

İki-üç aydan sonra məni Bakıya çağırdılar. Yeni pionerlər sarayının layihəsini göstərdilər, vəsait ayırıb, icrasını buradakı tikinti trestinə həvalə elədilər. Tikintini 1975-ci ildə başlayıb, 1979-cu ilin oktyabrında başa çatdırdılar.

Açılışa Heydər Əliyev özü gəlmişdi. O bu tədbiri Naxçıvanda keçirilən partiya fəalları yığıncağı ilə bir vaxta salmışdı. Yadımdadır, lenti kəsib mənim üzümə baxdı: «Həmzəyev, indi razı qaldın?»

Xolla daxil oldu, ayağının altına baxıb üz-gözünü turşutdu: «Bəs nə üçün xoll travertindəndir?» Ona izah elədilər ki, smetaya əməl olunmadı və tikintiyə nəzərdə tutulandan 200 min manat artıq pul xərclənib. Ona görə də mərmərə pul çatmayıb. O başını bulayıb, üzünü sənaye tikintisi nazirinə tutdu: «Yoldaş Pyatibrat, uşaqlar üçün smetanın heç bir əhəmiyyəti yoxdur. Yerə mərmər döşəyin». Sonra isə izah etdi: «Travertin deşik-deşikdir, plitələrin arasına uşaq ayaqqabılarının toz-torpağı dolacaq və xoll kirli, səliqəsiz görünəcək». O, bu cür kiçik detallara da diqqət yetirirdi.

Təzə Pionerlər sarayında yumşaq kresloları, bütün texniki qurğuları, professional səhnədəki kimi ştaket hasarları, tavan dekorasiyaları, sofitlər olan 350 yerlik zal tikmişdilər.

Dram dərnəyi üçün isə ayrıca səhnə və zal ayrılmışdı. İdman zalını da beynəlxalq standartlara uyğun tikmişdilər. Həyətdəki oranjereyada uşaqlar il boyu bitki yetişdirirdilər. Dərnəklər üçün 30 otaq ayrılmışdı. Qolumuz-qanadımız açıldı. Uşaqlarımız çıxışları ilə xaricə – Polşaya, Çexoslovakiyaya yollanırdılar. Bu sarayda məşğul olanlar arasında Naxçıvanın və bütün Azərbaycanın







*Heydər Əliyevin anası İzzət xanım.*



*Heydər Əliyevin atası Əlirza kişi.*



*Əlirza kişi və İzzət xanımın ailəsi. Soldan ikinci – balaca Heydər.*



*Heydər Əliyev anası, qardaşı və bacısı Rəfiqə ilə.*



*Heydər Əliyev İbrahim Həmzəyevin həvəskar truppasında əsas aktyorlardan biri idi.*



*H.Əliyev və İ.İsmayılov 1945-ci ildə.*



*Soldan sağa – H.Əliyevin dayısı oğlu R.Quliyev, İ.İsmayılov və H.Əliyev Naxçıvanda. 1946-cı il.*



*H.Əliyev və İ.Qasımov və İ.İsmayılov 1948-ci ildə Naxçıvanda.*



*Üç köhnə dost artıq Bakıdadır. 1951-ci il.*












adlı-sanlı mədəniyyət və incəsənət xadimləri – rəssamlar, aktyorlar, musiqiçilər, rəqqaslar yetişmişdir.

Atam da sarayın açılışına gəlmişdi. Əliyev onu görən kimi yanına çağırdı: «Miri müəllim, bura gəlin». Atam seyid nəslindən olduğundan onu «Miri» çağırırdılar. Əliyev vilayət komitəsinin katibindən soruşdu ki, «Bilirsən bu kimdir?» – «Əlbəttə, respublikanın xalq artistidir, teatrımızın direktoru olub», – deyə o cavab verdi. «Yox, – Əliyev başını buladı, – yadda saxla, Naxçıvanın bütün mədəniyyəti bu adamın çiyni üstündə yüksəlib», – dedi və atamın 30-cu illərdəki rollarını yada saldı, dedi ki, sizin Mirzə İbrahimovun «Həyat» pyesində Abbas rolunu necə oynamağınız mənim indi də xatirimdədir. Hətta tamaşanın quruluşçu rejissorunun soyadını da söylədi. Atam heyrətləndi, evdə Heydər Əliyevin nadir yaddaşa malik olmasından duyduğu fərəh hissini anamla bölüşdü».

* * *

1939-cu il iyunun 25-də Heydər Əliyev Naxçıvan şəhər beynəlmiləl pedaqoji məktəbini uğurla bitirməsi haqqında 2027 nömrəli attestat aldı. 30 fənnin hamısından eyni qiymət yazılmışdı: «əla». Attestat ibtidai, natamam orta və orta məktəblərin I-IV siniflərində dərs demək hüququ verirdi. Doğrudur, texnikumu bitirən vaxt qəhrəmanımızın müəllim olmaq arzusu bir qədər azalmışdı. O başqa, daha yüksək, daha şərəfli arzu və istəklərlə yaşayırdı. Ancaq bu barədə biz sonrakı fəsillərdə danışacağıq. Hələliksə, gələcək prezidentin gəncliyinə, müəllimlərinə, texnikuma «əlvida» deyək.

2002-ci il iyunun 18-də Naxçıvanda Bəhruz Kəngərli muzeyinin açılışındakı çıxışında Əliyev bu binadakı təhsil illəri haqqında belə deyirdi:

«Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Müəllimlərimin hamısı yadımdadır. Hansı binada, hansı sinif otağında dərs keçdiyimizi, hansı parta arxasında oturduğumu da yaxşı xatırlayıram.

Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumaq mənim üçün çətin olmayıb. Əksinə, burda olduğu ki-

mi, tələbələr arasında seçilmişəm. Bax, ona görə də bu divarlar mənə əzizdir...

...Mən böyük həyat yolu keçmişəm, yaşım da az deyil. Çoxlu adamlar görmüşəm, böyük şəxsiyyətlərlə üzləşmişəm. Kimsə yaddaşımda əbədilik qalıb, kimsə silinib gedib. Ancaq sizə demək istəyirəm ki, mənim üçün ən yaddaqalan, ən əziz Naxçıvandakı müəllimlərim olub. İndiyədək mən onları adbaad xatırlayıram.

...Mən Lətif müəllimin, təkcə Lətif müəllimin yox, digər müəllimlərimin də dərslərini xatırlayıram. Onların şəxsən mənə verdiyi tövsiyələr həyatda həmişə köməyim olub.

...Mənim üçün müəllimlərim, birlikdə oxuduğum məktəb yoldaşlarım, bu binanın divarları, sinif otaqları həmişə əziz olub. Bura gələndə mənə elə gəldi ki, öz doğma ocağıma gəlirəm».



---

[1] История Азербайджана. Баку, 1995. С. 257.
[2] История Азербайджана. С.263. Azərbaycan Sovet Ensiklopediyası. Bakı, 1983, c.7. S.521.
[3] Budaqov B. Çay kimi çağlayan ömür. Bakı, 2002. S.37.
[4] Azerbaijan-IRS. Баку, 2003. С.43.
[5] Urud M. Urud. Bakı, 2000. S.18.
[6] Azərbaycan tarixi 7 cilddə. Bakı, 2001, c.5. S.406.
[7] История Азербайджана по документам и публикациям. Баку, 1990. С. 205.
[8] Budaqov B. Çay kimi çağlayan ömür.. S.44.
[9] Yenə orada. S.38.
[10] Əliyeva Ş. Mənim anam. Bakı, 2002. S. 25.
[11] Azerbaijan-IRS. Баку, 2003. С.44.
[12] Советская историческая энциклопедия. М., 1967, т.10. С.14.
[13] Naxçıvan Ensiklopediyası. Bakı, 2002. S.433.
[14] Бакинский рабочий. 2004. 18 мая.
[15] Бакинский рабочий. 2002. 20 июня.
[16] Əliyeva Ş. Mənim anam. S. 55.
[17] Бакинский рабочий. 2002. 20 июня.
[18] Абдуллазаде Ф. Время рождаться. Azerbaijan-IRS. Баку, 2003. С.35.
[19] Urud M. Urud. S. 118-139.
[20] Əliyeva Ş. Mənim anam. S. 47-50.
[21] Naxçıvan Ensiklopediyası. S. 400.
[22] Валянский С., Калюжный Д. Русские горки: конец российского государства. М., 2004. С. 150.
[23] Əliyeva Ş. Mənim anam. S. 25-26.
[24] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. Баку, 2004. С. 77.
[25] Мунчаев Ш., Устинов В. История советского государства. М., 2002. С. 374.
[26] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С.67.
[27] Heydər Əliyev. Mədəni irsimizin keşiyində. Bakı, 2001, k. 1. S. 94.
[28] Heydər Əliyev. Mədəni irsimizin keşiyində. k. 2. S. 422.
[29] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 21.
[30] Hüseynzadə L. Naxçıvan teatr tarixindən. Bakı, 2003. S.12-22.
[31] Urud M. Urud. S. 129.
[32] Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 77-78.
[33] Там же. С. 79-82.

*İkinci fəsil*

# Müharibə. Seçim qarşısında

## Böyük arzulara doğru

1939-cu ilin ortalarında texnikumu başa vuranda Heydər Əliyevin cəmi 16 yaşı vardı. Bəs bu ucaboylu, enlikürək, bir qrupda oxuduğu tələbə qızların ürəyində silinməz izlər qoyan yaraşıqlı oğlan hansı arzularla yaşayırdı, nəyə can atırdı?

Əvvəla, o bu cəmiyyətin köklü şəkildə təzələnməsi və yenidən qurulması proseslərini ürəkdən dəstəkləyən, məsləkli, sovet əqidəli komsomolçu idi. Sonralar «Azadlıq» radiosuna verdiyi müsahibələrindən birində Heydər Əliyev gənclik illərini xatırlayaraq deyirdi ki, o, sovet quruluşunda böyüyüb, bir şəxsiyyət kimi marksizm-leninizm ideologiyasının təsiri altında formalaşıb və bu ideologiya həmişə ona çox cazibəli, maraqlı görünüb. Bərabərlik, sosial ədalət prinsipləri, yüksək mənəvi dəyərlər... «Ləyaqətli insanlar ləyaqətli cəmiyyətdə yaşamalıdırlar», «insan öz taleyinin sahibidir», «gənclərə ölkənin bütün yolları açıqdır» – bu təntənəli kommunist şüarları onu vəcdə gətirir, yaxşı mənada şöhrətpərəstlik hissləri və iddialarını oyadırdı. Xoşbəxtlikdən 1937-38-ci illərin dəhşətli repressiya dalğası Əliyevlər ailəsindən yan keçdi. Üstəlik Heydərin özündən böyük qardaşları artıq uğurlu mövqe tutaraq, yüksək sosial pillələrlə inamla irəliləyirdilər. Onlardan nümunə götürən Heydər daha da həvəslənirdi.

Heydərin atası Əlirza Cəfər oğlu 1939-cu ildə partiya sıralarına qəbul olundu. Heydər Əliyev Fondunda kommunist Əliyevə Naxçıvan MSSR NKVD-sinə təqdim etmək üçün verilmiş xasiyyətnamə qorunub saxlanır. Həmin sənəddə deyilir ki, «yoldaş

Əliyev Əlirza Cəfər oğlu 1933-cü ildən Beriya adına Zaqafqaziya dəmir yolunun Naxçıvan şöbəsində neft doldurma üzrə maşinisi kimi çalışır. Öz işinə çox məsuliyyətlə yanaşır, ona həvalə olunan bütün partiya tapşırıqlarını vicdanla və dəqiqliklə yerinə yetirir, öz üzərində çalışır, partiya tarixi kursunda oxuyur, işçilər arasında nüfuza malikdir, heç bir partiya cəzası yoxdur».

Bu, şüurlu seçim idi, çünki hələ inqilaba qədər Bakının neft mədənlərində çalışarkən Əlirza kişi bolşeviklərə rəğbət bəsləyirdi, hətta, qohumlarının söylədiklərinə görə bolşeviklərin təşkil etdikləri fəhlə tətillərində və nümayişlərində də iştirak edirdi. Əlbəttə ki, atanın ideyaca «mətinliyi, dəyanəti» ailənin kiçik üzvlərinin tərbiyəsinə də sirayət etməyə bilməzdi.

Heydərin yaşıdları, gənclikləri 30-cu illərə, 40-cı illərin əvvəllərinə düşənlər əsasən romantik və idealist kimi böyüyürdülər. Yarıpatriarxal, yarısovet mühitində tərbiyə alan bu cavanlar təmizqəlbli və açıqürəkli idilər, yüksək ideallarla yaşayırdılar, elmdə, incəsənətdə, hərbdə arzuladıqları zirvələrə can atırdılar, özlərini də, doğma yurdlarını da şöhrətləndirmək arzuları ilə coşurdular. Bir sözlə, şöhrətpərəstlik onlara yad deyildi.

Ancaq buna baxmayaraq, onlar sözün indiki anlamında praqmatik deyildilər. Misal üçün İbrahim İsmayılov təbəssümlə xatırlayır ki, tətillərdə Heydərlə görüşəndə onlar teatrdan, dərslərindən söhbət açar, oxuduqları kitabları müzakirə edər, gələcək üçün planlar cızardılar. Pul barədə, onu necə əldə etmək barədə heç vaxt söhbət salmazdılar: «Belə şeylər bizə yad idi. Bizim əhatəmizdə çox pulu olmaq hətta qəbahət sayılırdı, varlılara qarşı isə bizdə açıq-aşkar ikrah hissi vardı».

Heydər Əliyevi gənc yaşlarından tanıyanların hamısı onun xarakterinin bir cəhətini xüsusi olaraq vurğulayırlar – bu oğlan bütün cəhətlərilə anadangəlmə **Lider** idi. İstənilən uşaq oyunlarında, istənilən şəraitdə o həmişə birinci olmalı idi. Onun liderliyini ailəsində də, məktəbdə də, texnikumda da, daha sonralar dostları-nın əhatəsində də sözsüz qəbul edirdilər. Halbuki dostları arasında ondan yaşca da, rütbəcə də, vəzifəcə də böyük olanlar vardı. Çoxları artıq o zamanlar güman edirdilər ki, onun parlaq gələcəyi var. Cavanlıqda yay aylarını keçirdiyi Urud kəndi sakinlərinin 16 yaşlı Heydərin iddiaları haqqında çox maraqlı xatirələri var. Yazıçı Musa Uruda həmkəndlisi Kamran Gəncəliyev bunları söyləyib:



«1939-cu ilin iyunu idi. İndiki kimi yadımdadır, bir az da tutqun hava idi. Körpünün altında çimib qumda uzanmışdıq, öz uşaq dünyamızın xəyallarını, arzularımızı bir-birimizlə bölüşürdük. Heydər bir qara daşın üzərində oturmuşdu. Birdən qayıtdı ki, «Ə Qasım, adam işləyəndə də Mir Cəfər Bağırovun yerində işləyə, xırda-mırda işlərdən bir şey çıxmaz». Onun dediyi söz o vaxtdan mənim beynimə həkk olunmuşdu. Düz 30 ildən sonra 1969-cu ilin iyununda Heydər Əliyev Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndə mən Bazarçayın qırağında 1939-cu ilin iyununda eşitdiyim o sözü xatırladım və o sözün Haqq sözü, Heydər Əliyevin isə Tanrı Adamı olduğuna sidq ürəkdən inandım»[1].

* * *

Pedaqoji məktəbi bitirəndə cavan oğlan artıq qəti qərara gəlmişdi: memar olacaq! İbrahim İsmayılov xatırlayır ki, pedməktəbin sonuncu kursunda oxuyanda Heydər riyaziyyata, rəsmxətə daha çox fikir verməyə başladı, kitabxanadan memarlığa dair xüsusi ədəbiyyat götürüb oxuyurdu. Bir dəfə uşaqlıq dostu ilə arzularından danışanda Heydər ona demişdi ki, Bakıda çoxlu gözəl binalar tikəcək (professional memar olmaq Heydər Əliyevə qismət olmasa da, paytaxtda gözəl binalar tikmək vədinə o bir neçə onillikdən sonra respublikanın rəhbəri olanda əməl etdi).

Belə danışırlar ki, Əlirza kişi əvvəlcə Heydəri Bakıya buraxmaq istəmirdi. Artıq böyük oğlanları Bakıda məskunlaşmışdılar. Ailənin maddi durumu əvvəlki kimi ağır idi, Əlirza kişinin də səhhəti zəifləmişdi: tez-tez ürəyindən şikayətlənirdi. Müəllimlik sənəti də kasıb dəmiryol fəhləsi üçün ən nüfuzlu və etibarlı, sərfəli görünürdü. Atası sevimli oğluna təhsilini davam etdirməyi bir qədər sonraya saxlamağı və hətta onun Şahbuz rayonunun kənd məktəbinə təyinat almasını məsləhət gördü. Halbuki əlaçı olduğuna görə Heydərin texnikumu bitirəndən dərhal sonra ali məktəbə daxil olmaq hüququ vardı.

Yayın ortasında cavan oğlan Şahbuza «kəşfiyyata» yollandı. Ancaq buna qədər o böyük qardaşlarına məktub göndərərək təhsilini davam etdirmək, memar olmaq arzusunda olduğunu bildirmişdi. Şahbuzda o texnikumda eyni kursda oxuduğu Zərqələm

Hüseynovaya rast gəldi. Həmin görüşü Zərqələm xanım belə xatırlayır:

«Texnikumu bitirəndən sonra biz Heydərlə Şahbuzda rastlaşdıq. Təyinat üzrə mən Nursa düşmüşdüm. Onu isə Şahbuz rayonunun Qışlaq kəndinə təyin etmişdilər. O mənə deyirdi ki, müəllimlik peşəsi onun ürəyincə deyil, o evlərinə yaxın bir yerə dəyişilmək və ya Naxçıvana getmək istəyirdi. O vaxtlar Şahbuzda təhsil şöbəsinin müdiri Yesayan soyadlı bir erməni qadın idi. O, Heydərin təyinat yerindən geri çağırılmasına kömək elədi və nazirliyin sərəncamına göndərdi. Heydər Əliyev Azərbaycanın rəhbəri kimi Naxçıvanın yubileyinə gələndə Şahbuza da getmiş və həmin Yesayanı tapmağı xahiş etmişdi. Ona dedilər ki, Yesayan xəstədir. Heydər Əliyev isə gülüb demişdi: «Yox, o xəstə deyil, sadəcə olaraq gizlənib ki, məndən aldığı 30 manat rüşvəti ona xatırlatmayım».

Beləliklə, cavan oğlanın fərasəti və Əlirza kişini Heydəri Bakıya buraxmağa razı salan böyük qardaşlarıyla anasının mənəvi dayağı ona arzusunu həyata keçirmək üçün yol açdı. 90-cı illərin əvvəllərində türk jurnalisti İrfan Ülkü ilə söhbəti zamanı Heydər Əliyev xatırlayırdı ki, onu paytaxta göndərmək üçün atası dostlarından borc almalı oldu. Valideynlərindən ayrılmaq çox çətin idi. Həmişə toxtaq olan anası göz yaşlarını zorla saxlayaraq onun ardınca dodaqlarının altında dua edirdi. O ilk dəfə idi ki, sevimli övladı ilə uzun müddətə ayrılırdı. Heydər üçün isə Bakıya qarşıdakı səfəri əsil hadisə idi, çünki özünün etiraf etdiyi kimi, Urudda keçirdiyi yay tətilləri nəzərə alınmasa, o ilk dəfə idi ki, Naxçıvanın hüdudlarından kənara çıxırdı[2].

O vaxtlar Bakıya yol elə də yaxın deyildi. Mehridən keçən yolu müharibə başlananda, 1941-ci ildə açdılar. O vaxta qədər isə qatarla Bakıya gəlmək üçün İrəvanı və Tiflisi dolanmalı olurdular. Odur ki, yol üç-dörd gün çəkirdi.

Heydərlə onun kiçik qardaşı Aqil də paytaxta yollanırdı. Güman edilirdi ki, cavan oğlanlar valideynlərin yükünü bir qədər yüngüllətmək üçün, ailə xərcini azaltmaq naminə bir müddət böyük qardaşlarının himayəsində yaşayacaqlar. Sonralar Aqil Əliyev bu dövrü belə xatırlayacaq: «O vaxtlar şəhərlilər yayda harasa istirahətə gedəndə mənzillərini etibar etdikləri adama tapşırardılar ki, ev boş qalmasın. Qardaşımız Həsən 1938-ci ildən Akademiyada çalışırdı, o, bu elm məbədinin həm yaradıcılarından biri, həm də partiya komitəsinin katibi idi. Ona İçərişəhərdə Əli Bayramov küçəsində mənzil vermişdilər. Bizim yayda şəhərə gəlməyimiz onu çox sevindirdi. Ailəsini də götürüb Yesentukiyə kurorta yola düşdü. Heydər isə Azərbaycan Sənaye İnstitutuna imtahan verirdi. O, 13 imtahan verməli oldu. İmtahanların hamısından «əla» alıb instituta qəbul olundu. Mən də bir il Bakıda qalıb onillik məktəbdə oxudum».

Heydər Əliyevin Sənaye institutunda oxuduğu qısa müddət barədə çox az şey məlumdur. Güman etmək olar ki, istedadlı cavan oğlan burada da tələbə yoldaşları arasında zəhmətsevərliyi, inadkarlığı, zəngin bilik ehtiyatı və bu ehtiyatı usanmadan daha da artırmaq cəhdləri ilə seçilirdi. İxtisas fənlərinin çoxunu rus dilində tədris edirdilər. Bu da cavan oğlanın rus dilində nitqinin daha da təkmilləşməsinə imkan yaradırdı. Bu isə tezliklə onun dadına çatdı və Naxçıvan MSSR-in Daxili İşlər Xalq Komissarlığında və Xalq Komissarları Sovetində məsul xidməti vəzifələri yerinə yetirərkən, çox kömək oldu.

Heydər Əliyevin öz sözlərinə görə, o tələbəlik illərində rəssamlıqla məşğul olmaqda davam edirdi və onun rəsm əsərləri Bakının sərgi salonlarında uğurla nümayiş etdirilirdi[3].

İlk iki semestri həmişəki kimi uğurla, yüksək qiymətlərlə başa vuran qəhrəmanımız təhsilini yarımçıq qoymalı olur. Çünki o vaxtlar arzusunu gerçəkləşdirmək yolunda ona keçilməz görünən maneələrlə üzləşmişdi.

## Naxçıvana qayıdış

«Heydər institutda cəmi bir il oxudu. Bakıda yaşamaq maddi cəhətdən çox çətin olduğundan biz geriyə – Naxçıvana qayıtdıq».

*(Aqil Əliyevin xatirələrindən)*

Burada biz əsərimizin qəhrəmanının tərcümeyi-halının çox vacib bir məqamı ilə üzləşirik. Həmin fakt indiyə qədər ən müxtəlif tədqiqatlarda və monoqrafiyalarda düzgün göstərilməyib. Bu da Heydər Əliyevi gözü götürməyənlərin, düşmənlərinin müxtəlif cəfəngiyatlar uydurmalarına əsas verib.

Beləliklə, diqqət yetirək: Aqil müəllim deyir ki, qardaşı institutda cəmi bir il oxuyub, deməli, Naxçıvana müharibə başlayanda yox, 1940-cı ildə qayıdıb. Ancaq bütün bioqrafik arayışlar və tədqiqatlar göstərir ki, Heydər Əliyev Azərbaycan Sənaye İnstitutunda 1939-cu ildən 1941-ci ilədək oxuyub və müharibənin başlanması ona təhsilini başa vurmağa imkan verməyib. Oxucular məndən soruşa bilərlər ki, Heydər Əliyevin təhsilini nə vaxt və hansı səbəbdən atmasının nə fərqi var? Cavab verirəm ki, çox böyük fərqi var. Çünki Heydər Əliyev Siyasi Büro üzvlüyündən istefa verəndən sonra onun əleyhinə silsilə məqalələr sifariş edərək Moskva mətbuatında («Literaturnaya qazeta», «Moskovskiye novosti», «Pravda», «Raboçaya tribuna» və s.) dərc etdirən əleyhdarları belə iddia edirdilər ki, müharibənin başlandığını eşidən kimi Heydər Əliyev tələsik institutu atıb Naxçıvana qayıdır. Çünki orada saxta xəstəlik kağızı almaq onun üçün asan idi. Həmin arayışa görə onu orduya da çağırmayıblar.

«Sayıqlamadır. Tamamilə cəfəngiyatdır, sərsəmləmədir, – deyə İbrahim İsmayılov məsələyə aydınlıq gətirir. – Heydər həqiqətən də Naxçıvana qayıtmağa məcbur idi, ancaq tamam başqa səbəbdən. Aqil doğru deyir. Bu hadisə müharibə başlamamışdan bir il qabaq baş verib. Mən o zaman Naxçıvan prokurorluğunda şöbənin katibi işləyirdim, ancaq məhz həmin vaxtda Bakıdaydım. Ondan başqa, biz Heydərlə Naxçıvana eyni qatarda yola düşmüşük. Bu, uzun söhbətdir».

*İbrahim İsmayılovun sözləri, şübhəsiz, böyük etimad doğurur. Qüsursuz xidməti illərində respublika ali məhkəməsinin rəhbəri kimi vəzifəyə yüksəlmiş qocaman əməkdar hüquqşünas olan İbrahim müəllim sovetlər dönəmində Heydər Əliyevə ən yaxın adamlardan biri idi. Kiçik, lakin çox mühüm bir cəhət bu yaxınlığı təsdiq edir. Məhz İbrahim İsmayılov Heydər və Zərifə Əliyevlərin sadə, təmtəraqdan uzaq toy məclisində masabəyilik edib. Onların ikisini də, demək olar ki, eyni vaxtda vəzifədən kənarlaşdırmışdılar – Heydər Əliyevi Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini postundan getməyə məcbur etdilər, İbrahim İsmayılova isə Azərbaycanın Ali Məhkəməsi sədri vəzifəsindən istefa vermək barədə ərizə yazdırdılar. Ancaq 90-cı illərdə, Əliyev yenidən hakimiyyətə qayıdandan sonra onlar, demək olar ki, görüşməmişdilər. Kimsə köhnə dostların arasını vurmaq üçün dəridən-qabıqdan çıxmışdı. Bəzi «xeyirxah adamlar» kitabım üçün İ.İsmayılovdan müsahibə götürmək istədiyimi biləndə, məni fikrimdən daşındırmağa çalışdılar: «O sənin nəyinə lazımdır? Prezident ondan incimişdi, hətta bir dəfə üz-üzə gələndə heç salamlaşmamışdı da!».*

*Yaxşı ki, mən bu «məsləhətlərə» qulaq asmadım, çünki İbrahim İsmayılovun simasında müdrik, gözəl bir insanla, keçən əsrin canlı ensiklopediyası ilə müsahib oldum. Onun yaşı səksəni ötüb, sovetlər dövründə dövlətdən aldığı kiçik, sadə mənzilində tək-tənha yaşayır (ömür-gün yoldaşını bu yaxınlarda itirib). Kifayət qədər təmin olunmuş övladları var. Özü bizim ölçülərimizlə yüksək sayıla biləcək miqdarda – təqribən min dollara yaxın təqaüd alır. Həmin təqaüd Avropa Şurasının tövsiyəsi ilə keçmiş hüquq-mühafizə orqanı rəhbərlərinə verilir. Bütün bunları ona görə danışıram ki, bir daha nəzərə çarpdıram: bu adamın heç bir təmənnası, mərhum prezidentin qohumlarına xoş gəlsin deyə onlara qulluq göstərmək, yaltaqlanmaq fikri yoxdur. O, heç Heydər Əliyevin sağlığında ona mədhiyyələr oxumayıb, onda da qalsın, o, həyatdan gedəndən sonra belə bir fikrə düşsün. Onun açıq söhbətə razılıq verməsinin əsl səbəbi mənim jurnalist inadkarlığım və onun özünün Heydər Əliyev şəxsiyyətilə bağlı hadisələrin gedişinə obyektivlik vermək istəyi idi.*

İbrahim İsmayılovun Heydər Əliyevlə 1940-cı ilin avqustundakı görüşünün təfərrüatları barədə söhbəti mənə çox maraqlı göründü. Gənc Əliyevin cəbhəyə çağırılmamasının, Naxçıvanda qalıb xidmət etməsinin səbəblərinin izahı da həmçinin. 80-ci illərin ikinci yarısında başda respublikanın eks-prokuroru Qamboy Məmmədov olmaqla Heydər Əliyevin bədxahları məhz bu məsələ ətrafında mərəkə qoparmışdılar, hay-küy qaldırmışdılar. Məmmədovun göndərdiyi «siqnallar»ın araşdırılması üçün Bakıda da, Moskvada da xüsusi komissiyalar yaradıldı. Heydər Əliyevin əsəblərini tarıma çəkən, səhhətinə ciddi ziyan vuran bu qarşıdurmalar barədə biz kitabın sonrakı fəsillərində söhbət açacağıq. Hələliksə, İbrahim İsmayılovun xatirələrinə üz tutaq:

«1940-cı ilin əvvəlində mən yüz səksən manat maaşla Naxçıvan şəhər məhkəməsinə iş icraçısı vəzifəsinə düzəldim. Bir qədərdən sonra muxtar respublikanın prokuroru məni iki yüz iyirmi manat məvaciblə prokurorluqda katib işləməyə dəvət etdi. 40-cı

ilin yayında Naxçıvanın hərbi komissarlığı sərhədyanı rayonlara velosiped yürüşü təşkil etmişdi. Bu, bir növ orduda xidmətə hazırlıq idi. Biz Naxçıvanla Bakı arasında 690 kilometrlik velosiped yürüşünü qət etdik. Paytaxtda bizi saxladılar, belə ki, Bağırovun özünün qəbul etdiyi idmançıların avqust paradında iştirak etməli idik. Paradın keçirildiyi gün də hafizəmdə dəqiqliyi ilə ilişib qalıb – avqustun 12-si. Parad indiki Yazıçılar Birliyi və Türkiyənin Azərbaycandakı səfirliyi yerləşən meydandan, Xaqani küçəsindəki xiyabandan keçirdi. Yalnız müharibədən sonra paradı Hökumət Evinin qarşısındakı meydanda keçirməyə başladılar, o vaxtlar isə orada kinofabrika, çəkiliş pavilyonları yerləşirdi.

Paraddan sonra bizə tapşırdılar ki, gündüz saat 2-də vağzalda olaq. Ancaq sən demə, səhər qatarı da var imiş. Yoldaşlarım məni perronda xeyli gözləyəndən sonra, qatara minib yola düşmüşdülər. Saat 2-də vağzala gəlib heç kimi görmədim. Uşaqlar mənim sənədlərimi və ezamiyyət vərəqəmi də özlərilə aparmışdılar. Perronda gəzə-gəzə fikirləşirdim ki, mən evə necə qayıdacağam, axı Naxçıvan sərhəd zonası hesab olunurdu, oraya pasportsuz buraxmazdılar. Elə bu vaxt Heydər və kiçik qardaşı Cəlalla* rastlaşdım.

Biz qucaqlaşıb öpüşdük.

– Sən burda neyniyirsən? – deyə Heydər soruşdu. Mən başıma gələnləri ona danışdım.

– Eybi yoxdur, – dedi, – bizim iki biletimiz var, səni özümüzlə götürərik.

– Bu biletlər səndə haradandır? – deyə təəccübləndim.

– Bu çox uzun və qəmli söhbətdir, – deyə Heydər cavab verdi.

Məlum oldu ki, Heydər institutdan uzunmüddətli möhlət götürərək vətənə dönməyi qərara alıb. Axı Bakıda o, böyük qardaşı Həsən Əliyevin mənzilində yaşayırdı. Həsənin arvadı Zərqələm xanım inadcıl, öz bildiyini edən qadın idi. İlk vaxtlar o, Heydərin onlarda qalmasına dözürdü, sonralar isə tələb elədi ki, çıxıb başqa yerə getsin. O, yataqxanaya köçə bilərdi, ancaq o vaxtlar təkcə təqaüdlə dolanmaq mümkün deyildi. Qırxıncı illərin ortalarında təminat sahəsindəki çətinliklərlə bağlı ərzağın qiyməti xeyli qalxmışdı.

– Ata-anama da kömək lazımdır, kiçik bacı-qardaşımı ayağa qaldırmaq onlar üçün çətindir. Onlar məni gözləyirlər, – deyə Heydər dərdli-dərdli ürəyini mənə açdı – eybi yoxdur, bir-iki il işləyərəm, qardaşlarım məktəbi bitirərlər, instituta isə mən hər vaxt bərpa oluna bilərəm.

Biz qatara minib yola düşdük. Nəzarətçilər gələndə mən vaqondan çıxıb pilləkəndən sallanaraq, onlardan gizlənirdim. Birtəhər Naxçıvana gəlib çatdıq. Orada isə bizi tutub saxladılar. Heydər Bakıda qeydiyyata alınmışdı, mənim pasportum, Cəlalın isə heç bir sənədi yox idi. Heydərlə məni KPZ-yə saldılar, Cəlalı isə azyaşlı olduğunu nəzərə alıb buraxdılar. Cəlal atasının yanına qaçıb hər şeyi ona danışdı. O vaxtlar Əlirza kişi dəmiryol deposunda işləyirdi. O, milis rəisi Ağayevin yanına gəlib dedi:

– Bunlar bizim uşaqlardır, bu mənim oğlumdur, o biri isə qonşumdur.

Axır ki, bizi buraxdılar.

Mən prokurorluqda işləməkdə davam edirdim, Heydərsə Naxçıvan Daxili İşlər Xalq Komissarlığının arxiv şöbəsində ədəbi işçi vəzifəsinə işə düzəldi. O, qaydaya salınmalı olan arxiv materialları ilə məşğul olurdu: redaktə edir, illər üzrə, məzmununa görə ayırırdı. O, demək olar ki, arxiv rəisinin müavini idi. Mən bəzən onun iş yerinə gedirdim, görürdüm ki, onun rəyilə hesablaşırlar, ona hörmətlə yanaşırlar. Artıq o, rus dilini əməlli-başlı öyrənmişdi, sənədləri nöqsansız yazmağı və tərtib etməyi bacarırdı. Bu, çox mühüm məsələ idi, çünki bizdə, prokurorluqda olduğu kimi, NKVD-də də bütün sənədləşmə əsasən rus dilində aparılırdı. Hərbi komissarlıq da kömək üçün ona müraciət edirdi. O vaxtlar Naxçıvanda ümumiyyətlə savadlı adamlar az idi, ona görə də Heydər kimiləri göydə axtarırdılar. Müharibədən əvvəl və müharibə vaxtı pasportlaşdırma keçirilirdi, yadımdadır ki, hamıya təzə pasportlar verilirdi. Xətti gözəl olduğundan həmin pasportları çox vaxt Heydər doldururdu.

Elə o vaxtlar Heydərdən dövlət təhlükəsizliyi xətti üzrə də istifadə etməyə başladılar. O, arxivin ştatında qalsa da, artıq orqanlar üçün işləyir, arxivin məxfi hissəsi ilə bağlı xüsusi tapşırıqları yerinə yetirirdi. Axı o vaxtlar insanları əsaslı şəkildə yoxlayırdı-

* Aqil Əliyevin fikrincə, burada İbrahim müəllim bir qədər qeyri-dəqiqliyə yol verir. Həmin gün perronda Heydərin yanında o özü—Aqil olub. Cəlal isə onları Naxçıvanda qarşılayıb.

lar. Həmin orqan da onu dəyərli, perspektivli əməkdaş kimi ordu-da xidmətdən azad etdirmişdi. 1942-ci ildə mən çağırışa əsasən hərbi komissarlığa gələndə, bizim komissarlıqda məruzəçi işləyən dostumuz İsmayıl Qasımov mənə dedi ki, Heydərin NKVD-dən bronu olduğu üçün onu orduya çağırmırlar, o işində qalacaq. Ancaq o vaxtlar bütün bunlar məxfi saxlanılırdı.

Ona görə də bədxahlarının Heydərin hərbi komissarlığa vərəm xəstəsi olduğu barədə arayış təqdim etməsi ilə bağlı yaydıqları ağ yalandır. Əvvəla, ona belə arayışı kim verərdi? İkincisi isə, bu diaqnozla onu orqanlara necə qəbul edib zabit rütbəsi verə bilərdilər? Axı o, ixtisasa yararlılıqla bağlı xüsusi tibbi komissiyadan keçmişdi».

Rusiya jurnalisti Andrey Karaulova 1989-cu ilin noyabrında verdiyi müsahibədə Heydər Əliyev özü ilk xidməti addımlarını belə təsvir edirdi. «1941-ci ildən mən Naxçıvan MSSR-in NKVD-sində onun (Qamboy Məmmədovun – *E.A.*) iddia etdiyi kimi kuryer yox, arxiv şöbəsinin məxfi hissəsinin müdiri vəzifəsində işləyirdim. Sonra muxtar respublikanın Xalq Komissarları Sovetində şöbə müdiri, 1944-cü ildən isə NKVD-DTN-DTK-da əməliyyat işində işləmişəm»[4]. Qamboy Məmmədovun «Moskovskiye novosti» qəzetində irəli sürdüyü fərariliklə bağlı ittihamlarına aid suala isə Heydər Əliyev qısaca cavab vermişdi: «Bu müsahibə böhtan xarakteri daşıyır. Orduya çağırışdan yayınmamışam və vərəm xəstəsi olduğum barədə heç bir arayış təqdim etməmişəm»[5].

O həddən artıq qürurlu idi və Naxçıvana qəfil dönüşünün əsas səbəblərini heç vaxt açmırdı, axı onda ailədaxili münasibətlər kimi kifayət qədər incə bir məsələni aşkarlamalı olacaqdı. Mən isə nəhayət, bütün şübhələrə son qoymaq, qəhrəmanıma qarşı irəli sürülən ittihamların cəfəngiyat olduğunu sübut etmək üçün həmin məsələni açıqlamalı oldum.

* * *

Beləliklə, 17 yaşında ikən cavan oğlanın taleyində kəskin dönüş baş verdi. O, qayğısız tələbəlik həyatı ilə, böyük paytaxt şəhərilə, nisbətən dəbdəbəli yaşayışla vidalaşmalı, böyüklər kimi zəhmətə qatlaşmalı oldu. Əlbəttə, bu ona asan başa gəlmədi, ürəyində bəslədiyi arzusunun yerinə yetməsinin qeyri-müəyyən



müddətə qədər uzanması ona çox ağır gəlirdi. Ancaq memarlıq fakültəsi dekanının vidalaşarkən söylədikləri ona təskinlik verirdi. «Ürəyini sıxma, nə vaxt qayıtsan, yerin hazırdır». O vaxt Heydər heç ağlına da gətirməzdi ki, memar olmaq arzusu elə arzu olaraq da qalacaq, doğma fakültəyə qayıtmaq ona qismət olmayacaq.

Burada – Naxçıvanda cavan oğlanı daha bir fəlakət gözləyirdi – sevdiyi insanın faciəli ölümü.

Naxçıvanın köhnə sakini, partiya veteranı Yunis Qasımov mənimlə söhbətində bunları söylədi:

«Bir dəfə artıq respublika rəhbəri olan Heydər Əliyev Naxçıvana gəldi (o vaxt mən vilayət komitəsinin ikinci katibi idim) və bizə dedi: siz məni müşayiət etməyin, doğma yerlərdən, məhəllələrdən özüm tək keçmək istəyirəm. O, Puşkin küçəsinin başlanğıcından televiziya komitəsinədək getdi. Bir vaxtlar orada – Şahab məhəlləsində onun sevdiyi qız yaşayırdı. Biz onu Maman deyə çağırırdıq, o, tibb bacısı olmağa hazırlaşırdı. Bu iki gənci böyük hisslər birləşdirirdi. Hayıf ki, qız faciəli şəkildə həyatla vidalaşdı.

Kitab üzərində işləyərkən mən qəhrəmanımın gənc ikən vurğunu olduğu qız haqqında bir qədər ətraflı məlumat toplamaq istədim. Axtarışlar məni «Maman»ın qohumlarına gətirib çıxardı. Sən demə qızın əsl adı Sona Ağayeva imiş. O elə su sonası kimi zərif, gözəl, yaraşıqlı imiş. Heydər Əliyevin qardaşı Cəlal müəllimin xatırladığına görə, qarabuğdayı naxçıvan qızlarından fərqli olaraq Sona ağbəniz, incəbelli, qamətli, açıq şabalıdı rəngli gur saçları olan gözəgəlimli bir qız idi. Ağsaqqalların söylədiklərinə görə, Heydərlə Sona şəhərdə ən gözəl cütlük kimi görənləri heyran edirmiş. Məktəbi bitirəndən sonra qız tibb texnikumuna daxil olur. Heydər pedaqoji texnikumu bir il qabaq qurtarıb Bakıya oxumağa gedir. Qohumlarının dediyinə görə Sona Heydərdən bir neçə yaş böyük idi. Tanış olduqları vaxt Heydərin cəmi 17 yaşı vardı, ailə həyatına hələ hazır olmayan cavan bir oğlan idi. Sonanın isə çoxdan ərə getmək vaxtı çatmışdı, ancaq o bu barədə eşitmək belə istəmirdi. Sonagilin ailəsində, lap elə A.P.Çexovun pyesindəki kimi üç qız vardı. Böyüyü – Sonanın ögey bacısı Banu – hökmlü, qətiyyətli qadın idi, özü də prokurorluq orqanlarında işləyirdi. O, faktiki olaraq ailənin başçısı və dolandıranı idi. Buna görə də evin adamları onunla hesablaşır və

necə deyərlər, bir sözünü iki eləmirdilər. Banunun qızı anasının söhbətlərindən xatırlayır ki, «Sonayla Heydər xəlvəti görüşərdilər evin yaxınlığındakı salxım söyüdlərin altı ilə xeyli gəzişərdilər. Yerli camaat gənclərin gəzinti yerini «Söyüdlü xiyaban» adlandırırdı. Bir dəfə Sona evə çox gec gəldi, anam onu möhkəmcə danladı».

Bacıların arasında nə baş vermişdi, artıq bunu heç kim deyə bilməz. Bəlkə Banu qızı məzəmmət eləmişdi ki, sənin ərə getmək vaxtındı, sənsə cavan oğlanla vaxtını itirirsən. Ondan sənə ər olar? Bəlkə də o, Sonaya Heydərlə görüşməyi qadağan etmişdi, çünki qıza yaxın ki, imkanlı yerlərdən elçilər düşmüşdü. Qız isə Heydərə elə vurulmuşdu ki, başqa heç kimin haqqında düşünmək belə istəmirdi. Səhərisi gün dəhşətli bir hadisə baş verdi: üssonsuz ümidsizlik anında Sona özünə qəsd etməyi qərara alır, üstünə ağ neft töküb, kibriti alışdırır. Düz Puşkin küçəsinin ortasında.

O vaxtlar ailə zorakılığına bu cür etiraz forması Azərbaycanın rayonlarında geniş yayılmışdı. Bu dəhşətli hadisə müharibənin əvvəllərində olmuşdu. Həmin faciədən sonra Sona bir həftə yaşadı. Qohumlarının dediyinə görə bütün gecələri Heydər xəstəxanada, onun yatağı yanında keşik çəkirdi. Qız işıqlı dünyaya gözünü əbədi yumanda isə onun tabutu üstündə ovunmaq bilmədən hönkürürdü.

Ailədə hətta hansısa fotoqrafın çəkdiyi nadir bir foto illər boyu mühafizə olunub: gənc Heydər öz sevgilisinin tabutu yanında. Bu muasir dövrün Leyli və Məcnununun faciəli tarixçəsini Naxçıvanın bütün köhnə sakinləri yaxşı xatırlayırlar. Ancaq nədənsə həmin əhvalatı çəkinərək, ehtiyatla, az qala pıçıltı ilə danışırdılar. Bəziləri hətta onu yazmağı belə məsləhət görmürdü, ehtiyat edirdilər ki, bununla qəhrəmanımın nüfuzuna xələl gətirə bilərəm. Mən isə başqa fikirdəyəm. Əvvələ, cavan oğlan günahkar deyil ki, qızı əsil məhəbbətlə, sədaqətlə sevib və həyatının son dəqiqələrinədək Sonasından ayrılmayıb. İkincisi, bu kədərli-qəmli romantik əhvalat çox güman ki, onun qəlbində dərin, pozulmaz izlər qoyub. Mən də onun insan taleyinin tam təsvirini yaradan bioqraf olaraq bu faktdan yan keçə bilməzdim. Həm də işıqlı dünya ilə ən gənc və ömrünün çiçəklənən çağında vidalaşan, həyatını Heydərsiz təsəvvür etməyən Sona adlı gözəl naxçıvanlı qızın özü və böyük məhəbbəti haqqında gələcək neslin xəbərsiz olması günahdır.



Naxçıvanda olanda Banu Həsənovanın qızından məni şəhər qəbiristanlığına aparıb Sonanın qəbrini göstərməyi xahiş etdim. Qış vaxtı olduğundan sadə qəbiri qar örtüyü görünməz etmişdi. Sonadan sonra 40 ildən artıq yaşamış və 1985-ci ildə vəfat etmiş bacısı Banunun məzarı da yaxınlıqda idi. İnanmaq istəyirsən ki, göylərdə onların qəlbi bir-birilə barışaraq əbədi rahatlıq tapıb. Allah rəhmət eləsin!

Sonanın ölümündən sonra Heydər uzun müddət qızlar tərəfə baxa bilmirdi. Müharibə qurtardıqdan sonra dostları bir-birinin ardınca ailə qurdular. 1948-ci ildə Heydərlə Rzaqulu İbrahim İsmayılovun toyunda sağdış-soldış oldular, toy stolunun təşkilində ona yardım etdilər. İbrahim dəfələrlə evlənmək barədə söz salsa da, Heydər hər dəfə söhbəti yayındırırdı. Bir dəfə isə ciddiyyətlə dedi: «Mən qəti şəkildə həyat yolumu müəyyənləşdirməsəm, ali təhsil almasam, ailəmi normal dolandıra biləcəyimə əmin olmasam evlənməyəcəyəm». Subaylıq həyatına o nisbətən gec – 31 yaşında son qoydu. Ömrünün sonunda o qızı Sevilə demişdi ki, əgər onun anasına rast gəlməsəydi, bəlkə də heç vaxt evlənməyəcəkdi. Bu isə artıq başqa, nikbin söhbətin mövzusudur, bu barədə biz növbəti fəsillərdə söhbət açacağıq.

## Müharibənin ilk illəri

Müharibə xəbərini camaat həyəcanla qarşıladı. Ərzaq qıtlığı, çörək növbələri yarandı. Muxtar respublikanın iqtisadiyyatı müharibə şəraitinə uyğunlaşdırıldı, böyük sürətlə köhnə dəmiryol qovşaqlarının və stansiyalarının rekonstruksiyasına, yenilərinin inşasına başlandı. SSRİ XKS və ÜK(b)P-nin «Kənd təsərrüfatı strukturları məhsulunun yığımı haqqında» 1941-ci il 24 sentyabr tarixli qərarına əsasən əmək qabiliyyəti olan bütün əhali icbari yığım işlərinə cəlb olundu. Gənclər könüllülər sırasına yazılır, yerli hava hücumundan müdafiə hissələrinə çağrılır, səngər və sığınacaq qazmağı öyrənirdilər. İşdən sonra Heydər Əliyev dostları ilə ümumi hərbi hazırlıq kurslarına gedirdi. Onların hamısı komsomolçu idi, vətənin dar günündə ona dayaq olmağa can atırdılar.

Doğrudur, H.Əliyev müharibənin dörd ilini döyüşən orduda keçirməyəcək, lakin sözün həqiqi mənasında ön cəbhədə, SSRİ-nin cənub sərhədlərində baş verən möhtəşəm hadisələrin bilavasitə iştirakçısı olacaqdır. Müharibənin başlanması ilə sərhədin Naxçıvan-İran hissəsi bir çox ölkələrin xüsusi xidmət orqanlarının diqqətini çəkən, olduqca mühüm hərbi-strateji regiona çevriləcək, bu ərazi İrana yeridilən çoxsaylı alman agenturasının təxribat və kəşfiyyat fəaliyyətinin ən qızğın meydanı olacaqdır.

Formal olaraq öz neytrallığını bəyan edən İran, faşist Almaniyası ilə əməkdaşlığı davam etdirirdi. Bundan əlavə, ikinci dünya müharibəsində SSRİ-nin məğlub olacağına ümid bəsləyən İranın hakim dairələri, Zaqafqaziya və Orta Asiyanın bir sıra rayonlarını da öz ərazisinə qatmaq üçün planlar hazırlayırdı. 1941-ci ilin iyun-iyul aylarında Sovet İttifaqı və Böyük Britaniya bir sıra diplomatik demarşlara əl atıb İrandan ikibaşlı siyasi oyunlara son qoymağı tələb etdilər. İyulun 19-da Böyük Britaniyanın Nazirlər Kabineti İranın cənubuna qoşun yeritmək barədə qərar qəbul etdi. Dövlət Müdafiə Komitəsinin qərarı və 1921-ci il 26 fevral tarixli Sovet-İran müqaviləsinin 6-cı maddəsinə uyğun olaraq 1941-ci il avqustun 25-də SSRİ də Cənubi Azərbaycanın (İran Azərbaycanının) ərazisinə qoşun yeritdi[6].

Bu andan başlayaraq sərhədin Naxçıvan hissəsi sovet texnika və silahlarının İrana daşınması, Respublika fondundan yönəldilən ərzaq və başqa yüklərin çatdırılması üçün əsas məkan olacaqdır. Partiya, sovet və mədəniyyət işçiləri, operativ çekist dəstələri, Sovet Azərbaycanından səfərbər edilmiş, Heydər Əliyevin gələcək qayınatası – Azərbaycan KP MK katibi, Təbrizdə yerləşən 47-ci ordunun Hərbi şurasının üzvü Əziz Məmmədkərim oğlu Əliyevin başçılıq etdiyi missiyanın üzvləri Naxçıvandan keçərək Cənubi Azərbaycana yollanacaqlar. Azərbaycanın ali partiya rəhbərləri, respublikanın «xozeyini» Mir Cəfər Bağırov da daxil olmaqla Təbrizə Naxçıvandan keçərək gedəcəklər. Cənubi Azərbaycan Milli hökumətinin rəhbəri Seyid Cəfər Pişəvəri ilə onun bir neçə görüşü də burada, Naxçıvan torpağında baş tutacaqdır.

1941-ci ilin yayında Böyük Britaniya və Birləşmiş Ştatlar ABŞ-ın hərbi-iqtisadi yardımı barədə qərar qəbul edirlər, 41-ci il



noyabrın 7-də SSRİ rəsmi olaraq lend-liz* üzrə yardım alan ölkələr siyahısına salınır. Yüklərin böyük hissəsi İran körfəzi və İran ərazisi, sonra isə Azərbaycan dəmir yolu vasitəsilə gəlirdi[7]. Bununla əlaqədar bərpa edilmiş Culfa-Mincevan qolu mühüm hərbi-strateji əhəmiyyət kəsb edirdi.

Beləliklə, bu müxtəsər tarixi ekskursdan göründüyü kimi, Naxçıvan, müharibə illərində heç də cəbhədən uzaq, sakit arxa şəhəri deyildi, o vaxtın dili ilə desək «görünməyən cəbhənin» döyüşçüləri, çekistər, faşizmlə mübarizə işinə öz layiqli töhfələrini verirdilər. Əbəs yerə deyil ki, müharibə başlayan andan Hitler Almaniyası SSRİ-yə qarşı güclü ordu ilə yanaşı, təcrübəli kəşfiyyat da yönəltmişdi – arxa cəbhədə, işğal altında olan ərazilərdə yüzlərlə kəşfiyyat, təxribat və əksinqilabçı qrupları fəaliyyət göstərirdi, sayı altmışa çatan xüsusi məktəblərdə isə nasistlər gələcək casus, diversant və terrorçu hazırlayırdılar.

Dövlət Təhlükəsizliyi Xalq Komissarlığının cavan əməliyyat müvəkkili, leytenant Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz casus və diversantların üzə çıxarılması və zərərsizləşdirilməsi üçün xüsusi əməliyyatların keçirilməsi olacaqdır. Odur ki, leytenant Əliyevin sərhəddə vicdanlı işinə görə aldığı mükafat və döyüş medalları ona tamamilə haqlı olaraq verilmişdi.

* * *

1943-cü ildə Heydər Əliyev Naxçıvan Müxtar Respublikasının Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində çalışırdı. Onun xidməti yüksəlişinə şəxsi keyfiyyətlərindən savayı bir sıra obyektiv amillər də kömək etdi. O illər böyük təşkilatçılıq və siyasi təcrübəsi olan tanınmış partiya işçiləri kütləvi surətdə döyüşən orduya rəhbər vəzifələrə göndərilirdilər. Böyük Vətən müharibəsi illərində Silahlı Qüvvələrə ümumiyyətlə 14 minə yaxın rəhbər partiya işçisi səfərbər edilmişdi[8].

1937-38-ci repressiya illərinin partiya və sovet aparatına, həmçinin hüquq-mühafizə orqanlarına vurduğu ağır zərbələri də yaddan çıxarmaq olmaz. Ona görə də, müharibə ərəfəsində və

* Lend-liz—ABŞ-da qəbul edilmiş, müttəfiq ölkələrə silah, hərbi material və ərzaq verilməsi sistemini nəzərdə tutan qanun. SSRİ-yə lend-liz üzrə yardım göndərilməsi 1941-ci ilin noyabrından başlanmışdır.

eləcə də müharibə dövründə yerlərdə cavan, savadlı, ən başlıcası isə təşəbbüskar kadrlara kəskin ehtiyac duyulurdu. Odur ki, Heydər Əliyevin vəzifə pillələrini sürətlə adlamasında təəccüb doğuracı bir şey yoxdur. Məsələn, onun həmyaşıdı və ən yaxın dostu İbrahim İsmayılov həmin o illərdə katib-referent vəzifəsindən muxtar respublika prokurorunun müavini pilləsinə qədər yüksəlmişdi.

Yeri gəlmişkən, İsmayılov prokurorluğa öz xoşu ilə deyil, vilayət partiya komitəsinin qərarı ilə gəlmişdi. Bu əhvalat həmin illər üçün səciyyəvidir və fikrimcə Heydər Əliyevin gələcək talelər üçün səciyyəvidir və fikrimcə Heydər Əliyevin gələcək taleyindəki bəzi məqamlara da işıq salır, ona görə də İbrahim müəllimin söylədiklərini ixtisarsız vermək istərdim.

«1943 ilin fevralında ordudan qayıdıb Naxçıvan Xalq Komissarları Sovetində referent vəzifəsinə düzəlmişdim, sentyabrı, dərslərin başlanmasını gözləmək fikrində idim (müharibədən qabaq İbrahim müəllim Tiflis Dəmir Yolu Nəqliyyatı Mühəndisləri İnstitutunda oxuyurdu – *E.A.*). Günlərin bir günü məni vilayət partiya komitəsinin birinci katibi Hüseyn Nəcəfovun yanına çağırdılar. Hələ komsomolçu olduğumdan xeyli təəccübləndim – görəsən birinci katibin mənimlə nə işi ola bilər?

– Səni orduya haradan çağırıblar? – o məndən soruşdu. – Əsgər getməmişdən qabaq harada işləyirdin?

– Prokurorluqda.

– Elə ora da qayıtmalısan.

– Mən artıq işə düzəlmişəm, – deyə cavab verdim.

O vaxtlar Xalq Komissarlığında işləyənlərə qırmızı ərzaq kartoçkası verirdilər, onlara, demək olar, hər şey almaq olurdu. Mən belə işi əldən vermək istəmirdim.

– Partiya səni hara göndərirsə orada olmalısan!

– Axı mən prokurorluğa qayıtmaq istəmirəm.

– Baxarıq!

Vilayət komitəsindən çıxdım, Xalq Komissarlığına çatanda mənə dedilər ki, birinci katibin göstərişi ilə artıq işdən çıxarılmışam. Evə bikef qayıtdım.

– Nə olub? – atam soruşur.

Məsələni danışıram.



– Nədir, hökumətlə hökumətlik eləmək istəyirsən? Partiya ilə? Boş şeydir. Hara göndərirlərsə, ora da get.

Gəldim respublika prokurorunun yanına, o da göndərdi Bakıya, çünki məni əməliyyat işçisi götürürdülər, əmrimi də Azərbaycanın baş prokuroru imzalamalı idi.

Bakıda məni yaxşı qarşıladılar. Oradaca əmrim verildi və mən Naxçıvana qayıdıb prokurorluqda işləməyə başladım. Biz Heydərlə paralel işləyirdik, mən prokurorluq xətti ilə, o isə XDTK. 1945-ci ilin əvvəlində məni respublika prokurorunun xüsusi işlər üzrə müavini təyin etdilər. Yəni mən, əvvəlcə onun təşkilatından keçən işlərə baxırdım».

İbrahimin dəmiryolçu-mühəndis peşəsinə yiyələnmək arzusuna beləcə son qoyuldu və o, taleyini hüquq-mühafizə orqanları ilə bağlamalı oldu. Təxminən eyni vaxtda, 1943-cü ilin axırlarında, Heydər Əliyevə Dövlət Təhlükəsizliyi Xalq Komissarlığına işə keçməyi təklif edirlər. Əminəm ki, bu qərar da İbrahim İsmayılovun işində olduğu kimi qeyd-şərtsiz verilmişdi, Əliyevin istəyi ilə heç kim maraqlanmamışdı.

Məsələ burasındadır ki, müttəfiq və muxtar respublikaların xalq komissarları sovetlərinə, diyar və vilayət icraiyyə komitələrinə müharibə müddətində fəhlə və qulluqçuları onların nazirlik və idarə mənsubiyyətlərindən asılı olmayaraq başqa işə keçirmək ixtiyarı verilmişdi[9]. Bundan başqa, SSRİ sərhədinin Naxçıvan-İran hissəsinin mühüm strateji əhəmiyyəti, İran Azərbaycanında cərəyan edən hadisələr bu regionda dövlət təhlükəsizliyi aparatının maksimal gücləndirilməsini tələb edirdi. Sərhədin hər iki tərəfində yaşayan əhalinin dilini, adətini, psixoloji incəliklərini daha yaxşı bildiklərindən göstəriş var idi ki, aparatın möhkəmləndirilməsi məhz titul millətin hesabına aparılsın. Ümumiyyətlə, müharibə və ondan sonrakı illərdə, Azərbaycan tarixçisi E.İsmayılovun öz tədqiqat əsərində israr etdiyi kimi, başda M.C.Bağırov olmaqla Azərbaycanın partiya rəhbərliyi dövlət təhlükəsizliyi, həmçinin hüquq-mühafizə orqanlarının tərkibini tədricən, lakin məqsədyönlü «yerliləşdirmək» prosesinə başlamışdı[10]. Bu səbəbdən də, Heydər Əliyev kimi hərtərəfli istedad və erudisiya sahibi olan bir gəncin xüsusi xidmət orqanları rəhbərliyinin nəzərindən yayınması, sadəcə olaraq mümkünsüz idi.

Mülki işdən təhlükəsizlik orqanlarına keçmək təklifinə Əliyevin öz münasibətini tarix bizə açıqlamır. Ancaq mənə elə gəlir ki, gənc Heydər iş yerini dəyişməyə bir o qədər də can atmayıb və bunun da tutarlı səbəbləri olub. Onları təhlil etməyə çalışaq. **Birincisi**, öz dostu kimi o da tamamilə mülki peşə seçmişdi, arxitektor olmağı arzulayırdı, müharibə bitən kimi Azərbaycan Sənaye İnstitutuna bərpa olmaq niyyətində idi. Hərbi təşkilata keçid planlarının üstündən birdəfəlik xətt çəkirdi. **İkincisi**, XDTK-ya o həm maaşda, həm də ərzaq payında xeyli itirməklə sıravi əməliyyat müvəkkili vəzifəsinə keçirdi. Halbuki, 1943-cü ildə Heydərin atası Əlirza kişi kəskin ürək çatışmazlığından vəfat etmiş, böyük bir ailəni dolandırmaq cavan oğlanın çiyinlərinə düşmüşdü. Odur ki, qırmızı kartoçka və «sovnarkom» ərzaq paylarına onun böyük ehtiyacı var idi. **Üçüncüsü**, Heydər Əliyev XDİK-nın xüsusi arxivlərində işlərkən sovet gizli polisinin 30-cu illərdə geniş tətbiq etdiyi «qəribə» metodlarla bir qədər yaxından tanış olmaq imkanı əldə etmişdi və bu metodlar qətiyyən onun ürəyinə yatmırdı. Yarım əsrdən artıq bir vaxt keçdikdən sonra, Heydər Əliyev o dövrün dövlət təhlükəsizliyi orqanlarının fəaliyyətini olduqca neqativ səciyyələndirəcək:

«...Bu orqanlar və onlarda işləmiş insanlar... çox mürəkkəb yol keçiblər. 20-30-cu, 40-cı illərdə bu orqanlar Azərbaycan xalqına, onun mənəviyyatına, bütün həyatına çox böyük zərər gətirmişdir, zərbələr, yaralar vurmuşdur... 30-cu illərin siyasi repressiyaları nə qədər insanların, nə qədər ailələrin həyatını pozmuşdur. Nə qədər günahsız insanları həyatdan, azadlıqdan məhrum etmişlər. Xüsusən 37-38-ci illərin repressiyaları Azərbaycan xalqına, onun ziyalılarına, zəkalı adamlarına, intellektual potensialına çox böyük zərbələr vurmuşdur. Ancaq bu orqanlarda bu siyasət, bu istiqamət 40-cı illərdə və hətta 50-ci illərin əvvəllərində də davam etmişdir»[11].

1994-cü ildə Bakıda türk jurnalisti İrfan Ülkünün Heydər Əliyevlə söhbətləri əsasında tərtib edilmiş «Qırmızı xaçdan ayparaya qədər» adlı kitabça çapdan çıxmışdır. Dövlət təhlükəsizliyi orqanlarına qəbul olması haqda danışan Heydər Əliyev, çoxmənalı, dolayısı bizim versiyamızı təsdiq edən ifadə işlətmişdir: «Məni XDİK-ə işə götürdülər. Bu vəzifə üçün mənə heç kimin köməyi



olmadı. **Səbəbini bu gün belə bilmirəm**»[12] (seçmə mənimdir – *E.A.*).

Onu üzən tərəddüdlərə baxmayaraq, H.Əliyev orqanlara keçmək təklifini rədd edə bilməyib. Müharibə vaxtı idi, respublika və bütün nəhəng ölkə mənəvi və fiziki qüvvələrinin son həddində yaşayırdı. Belə bir şəraitdə bizim qəhrəmanımız partiya orqanlarının onun barəsindəki seçimə qarşı etiraz etməyi mümkünsüz sayıb. Təkrar edirəm – bu yalnız versiyadır. Çox ola bilsin ki, operativ işə keçmək Heydər Əliyevin öz seçimi olub. Axı o, cavan və fəal idi, risqli, bir qədər də macəralı çekist peşəsi onu özünə cəlb edə bilərdi. Bir də ki, onu dördüncü, sərhədyanı rayonların əks-kəşfiyyat təminatı ilə məşğul olan bölməyə götürürdülər. Bu isə o deməkdi ki, gənc əməliyyat müvəkkilini sərhədə səfərlər, olduqca maraqlı insanlarla, o cümlədən sovet qeyri-leqal kəşfiyyatçılarıyla təmaslar, rəqib agenturasının üzə çıxarılaraq ifşa olunması, bir sözlə canlı əməliyyat işi gözləyirdi. Zaman göstərdi ki, onu bu sahəyə tövsiyə edən yoldaşlar seçimlərində yanılmayıblar. Hətta Azərbaycanda DTK-nın sədr müavini, sonra isə sədri olduğu vaxtlarda belə Əliyev əməliyyat işindən kənara çəkilməmişdi. O, operativ kombinasiyaların keçirilməsində iştirak etməyi həddindən artıq sevirdi, əfsanə işlənməsi, agentlərin təkrar cəlbolunması ustası kimi tanınırdı*. H.Əliyevin həmkarı, DTK generalı Ziya Yusifzadənin dürüst ifadəsi ilə desək, «Heydər Əliyev – çekist doğulmuşdu».

1944-cü il yanvarın 27-də Heydər Əliyev Dövlət Təhlükəsizliyi Xalq Komissarlığına əməliyyat müvəkkili vəzifəsinə işə götürülməsi barədə ərizə yazır. 1944-cü ilin mayında isə o artıq XDTK-nın leytenant rütbəsi daşıyan əməkdaşı idi.

Bu minvalla qəhrəmanımızın həyatında növbəti kəskin dəyişiklik baş verdi.

* **Əfsanə**—xaricdə və ya öz ölkəsində operativ tapşırıq yerinə yetirən agent və ya əməkdaşların şifrlənməsi üçün xüsusi xidmət orqanlarının istifadə etdiyi uydurma bioqrafiya (çox vaxt adın dəyişdirilməsi ilə bağlı olur). Əfsanəni təmin etmək üçün saxta sənədlər hazırlanır və ya onu dəstəkləmək üçün digər şəxslər cəlb olunurlar. **Təkrar cəlbolunma**—qarşı tərəfin xüsusi xidmət agentinin könüllü olaraq əməkdaşlığa sövq edilməsi.

*Zəruri haşiyə*

«Keçmişdə DTK-nın həqiqətən özü qazandığı, layiq olduğu şöhrəti var idi, üstəlik onun böyük bir hissəsi gizlədilir və hələ uzun müddət, bəlkə də həmişəlik, gizlədiləcəkdir: xüsusi xidmət orqanlarının iş spesifikası elə ondan ibarətdir ki, nəsə etsin, lakin bununla bərabər nə «xarici», nə də «daxili» cəbhədə bir iz buraxmasın. Ancaq bu üstün cəhətin qaçılmaz neqativ tərəfi də var-dır – bu sahədə təhlil aparmaq son dərəcə çətindir. «Dərin Qazma İdarəsinin»** qapalı olması, hər şeydə tam məxfilik, «idarə şərəfi», andiçmə və qardaşlıq anlayışları orqanlarda və ya istefada olan hətta ən səmimi və nadir vətənpərvərləri belə eşitdikləri, gördükləri və bildikləri barədə susmağa məcbur edir»[13].

Sitat müəllifinin söylədikləri ilə razılaşmaya bilmirəm. Qəhrəmanımın dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyət dövrü haqqında material toplayarkən onlarla keçmiş kəşfiyyat və əks-kəşfiyyat əməkdaşı, o cümlədən respublika və ittifaq DTK rəhbərləri ilə görüşlərim olub. Ancaq bu insanların az qala əksəriyyəti marağlarını müdafiə etdikləri dövlətin dağılmasına baxmayaraq bu günə qədər son dərəcə kəskin şəkildə sədaqət, borc, təəssüb hisslərini qoruyub saxlamışlar. Bir-iki hal istisna olmaqla məxfi informasiya əldə etmək üçün onlara bel bağlamağın heç bir mənası yox idi. Bütün həmsöhbətlərim ilə sanki oyun oynayırdım: «Bunu yazsam düz olar, ya səhv?». Bəziləri bu oyuna qoşulurdu. Ancaq hər halda DTK veteranları ilə görüş və müsahibələrim əbəs olmadı: bir yerə cəm olduqda onlar ötən dövrün aydın mənzərəsini verirlər. Bir də ki, həmin xatirələrdə mənim qəhrəmanımın həyatından gətirilmiş eksklüziv məqamlar, canlı epizodlar da az deyil.

Heydər Əliyevin çekist bioqrafiyası ilə bağlı maraqlı faktların «üzə çıxarılması» MTN-nin arxivlərində də onların qapalı olması üzündən müşkül məsələ idi. Yalnız Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyinə dəfələrlə və inadkar müraciətlərimdən sonra respublika arxivinin əməkdaşları mənə bir sıra sənədləri təqdim etdilər. Bundan əlavə, siyasi ədəbiyyatın, həmçinin son illərdə sovet kəşfiyyatçılarının Rusiyada və xaricdə çap olunmuş memuarlarının öyrənilməsinin də köməyi çox oldu[14].

Bütün bunlardan Heydər Əliyevin müxtəlif dövrlərdə dövlət təhlükəsizliyi orqanlarındakı karyera yüksəlişinin mərhələlərini, fəaliyyətinin əsas prioritet istiqamətlərini əks etdirən kifayət qədər dolğun mənzərə yarandı. Təkrarən söyləyim ki, kitabda gətirilən faktların böyük əksəriyyəti eksklüzivdir, ilk dəfə açıqlanır və qəhrəmanımın şəxsiyyət miqyasını, Azərbaycanın və bütün Sovet İttifaqının dövlət təhlükəsizliyi sisteminin qurulması və möhkəmlənməsindəki rolunu bir çox hallarda yeni gözlə dəyərləndirməyə imkan yaradır.

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarındakı işi barədə mənə bir çox sensasiyalı, lakin əslində əfsanə olan əhvalatları eşitmək və oxumaq müyəssər olmuşdur. Yəqin belə də olmalıdır: bütün görkəmli şəxsiyyətlərin həyatı əfsanələrə bürünür, şayiələrlə dolur, xüsusən də bu şəxsiyyət Sovet İttifaqının ən qapalı və sirli təşkilatında general rütbəsinə qədər yüksələ bilibsə. Belə ki, Heydər Əliyevin vəfatından az sonra «Hakimiyyət» həftəlik analitik jurnalı, eks-prezidentin xüsusi xidmət orqanlarındakı keçmiş həmkarlarının xatirələri əsasında oçerk dərc edir[15]. Onlardan biri, 1956-cı ildə, məlum Macarıstan hadisələri zamanı onların qrupuna Əliyev soyadlı «DTK-dan olan qafqazlının» rəhbərlik etdiyini, həmin qrup tərəfindən Andropovun (Sov.İKP MK-nın gələcək baş katibi o illərdə SSRİ-nin Macarıstanda səfiri idi) girov götürülmüş oğlunun xilas edilməsi barədə çox maraqlı bir əhvalat danışır. Ancaq, heç şübhəsiz, məlumatlı adamlar mənə söylədilər ki, bu – mifdir. Versiyanın dəqiqliyini bir daha yoxlamaq üçün SSRİ DTK sədrinin birinci müavini Filipp Bobkov mənim yanımda 2-ci əks-kəşfiyyat idarəsinin keçmiş rəisi general Qriqorenkoya zəng vurub onun fikrini öyrənmək istədi. Cavab, hərbçilərə xas qısa və aydın idi: «Əliyev Macarıstanda olmayıb». Əlavə edək: Əliyev soyadı Qafqazda ən geniş yayılanlardan biridir. Odur ki, məlum hadisələr zamanı qəhrəmanımızla eyni soyad daşıyan bir şəxsin Macarıstanda olması tamamilə mümkündür.

Türk jurnalisti İrfan Ülkünün kitabında isə guya 50-ci illərin əvvəllərində gənc kapitan Heydər Əliyevin əlinə ordudan fərarilik etmiş və ya əsirlikdə olmuş 5 min azərbaycanlının adı olan si-

** Rus dilində KQB—Kontora Qlubokoqo Bureniya.

yahının düşməsi barədə sırf detektiv bir əhvalat danışılır. Gizli əmrdə bu adamları aşkar edib onlar barədə repressiya tədbirləri görmək tapşırılırdı. Türk bioqrafının sozlərinə görə, H.Əliyev olduqca təhlükəli bir addım atır: siyahıda olan soyadların bir qismi sadəcə olaraq silinir, beziləri isə uydurulan və ya «itkin düşənlərlə» əvəzlənir. Bu yolla o, onlarla, bəlkə də yüzlərlə insanı xilas etməyə müvəffəq olur. Bir sıra mötəbər «mənbələrin» dediklərinə görə, bu əhvalat da çox ehtimal ki, əfsanədir. Halbuki müharibədən sonra (bu haqda mən kitabımda söhbət açmışam) Heydər Əliyev həqiqətən əsirlikdə, yaxud işğal altında olan ərazilərdə olmuş bir çox naxçıvanlını sürgün həyatından və düşərgələrdən xilas etmişdir.

Əfsuslar olsun ki, 2005-ci ildə «Görkəmli insanların həyatı» kimi nüfuzlu seriyada çıxmış «Heydər Əliyev» bioqrafik kitabın müəllifləri də təəssüf doğuran yanlışlıqlardan yaxa qurtara bilməmişlər. V.Andrianov və H.Mirələmov Heydər Əliyevin xarici kəşfiyyatda qazandığı uğurları qeyd edirlər. Onların qəhrəmanı guya DTK-nın İran, Türkiyə, Pakistan və Əfqanıstandakı rezidenturalarında işləmiş, sonra bu ölkələrin birində rezident vəzifəsinə qədər yüksəlmişdir[16]. Başucalığı gətirən haldır ki, müəlliflər səslənən iradları qəbul etmiş və kitabın ikinci nəşrində qüsurlar aradan götürülmüşdür.

Azərbaycan DTK-sının sabiq sədri Ziya Yusifzadənin sözlərinə görə, H.Əliyevin rezidenturalarda işləməsi barədə gəzən bütün bu söz-söhbətlər qətiyyən həqiqətə uyğun deyil, çünki o xarici kəşfiyyatda bir gün də olsa işləməmişdi. Əgər xaricə səfər edibsə də, bu qısamüddətli xidməti ezamiyyətlər olub.

DTK veteranları mənə deyirdilər: «Heydər Əliyevin SSRİ-nin dövlət təhlükəsizlik orqanları qarşısında bir çox real xidmətləri var, ona görə də ona aid olmayan qəhrəmanlıqların onun adına yazılmasına heç bir ehtiyac yoxdur». Kitab üzərində işləyərkən dəfələrlə bu sözlərin əsl həqiqət olmasının şahidi olurdum.

## Müvəkkildən bölmə rəisinə qədər

«1920-ci ildən ta son illərə qədər bu orqanların adları vaxtilə ÇEKA, QPU idi, sonra NKQB, sonra NKVD oldu. Mən bunların



adlarını rusca deyirəm, Azərbaycan dilinə tərcümə etmək olar, amma bunlar bizim beynimizə elə bü cür giriblər...»

*(Heydər Əliyevin 1997-ci il iyunun 28-də Milli Təhlükəsizlik Nazirliyi əməkdaşları qarşısındakı çıxışından)*

1919-cu il martın 28-də Azərbaycan Demokratik Respublikasının hərbi naziri Səməd bəy Mehmandarov və baş qərargah rəisi Məmməd bəy Sulkeviç baş qərargah yanında əlahiddə kəşfiyyat və əks-kəşfiyyat bölmələrinin yaranması haqqında 157 saylı əmr imzaladılar. Məhz 1919-cu il Azərbaycanda ilk milli təhlükəsizlik strukturlarının yaranması ili sayılır. 28 mart tarixi isə respublika prezidenti Heydər Əliyevin xüsusi fərmanı ilə 1997-ci ildən Azərbaycan xüsusi xidmət əməkdaşlarının peşə bayramı kimi qeyd olunur.*

Bolşeviklərin aprel çevrilişinin ertəsi günü, 1920-ci il aprelin 29-da Azərbaycan İnqilabi Komitəsi (Azrevkom) Azərbaycan «Əksinqilab, möhtəkirlik, sabotaj və vəzifə cinayətləri ilə fövqəladə mübarizə komitəsi»nin yaranması haqqında qərar qəbul etdi.

1926-cı il avqustun 7-də AzFK (AzÇK) adı dəyişdirilərək Dövlət Siyasi idarəsi adlandırılır, qısaldılmış şəkildə DSİ (QPU). O vaxtdan dövlət təhlükəsizlik orqanlarının uzun sürən təşəkkül dövrü başlanır. Bu müddət ərzində onlar daim öz struktur və adını dəyişir, daxili işlər orqanları ilə birləşir, sonra yenidən ayrılır, ixtisar edilir və iriləşdirilirdilər.

Belə ki, 1934-cü il iyulun 10-dan 1941-ci ilə qədər SSRİ-də vahid Xalq Daxili İşlər Komissarlığı – XDİK (NKVD) mövcud idi.

1941-ci il fevralın 3-dən etibarən SSRİ XDİK iki ayrı-ayrı struktura bölündü – XDİK və XDTK (NKQB).

1941-ci il iyulun 3-də onları yenidən bir komissarlıqda birləşdirdilər.

1943-cü ilin aprelində Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı müstəqil ittifaq-respublika idarəsi qismində XDİK-dan ayrıldı.

1946-cı il martın 5-də XDTK-nın adı dəyişdirildi – Dövlət Təhlükəsizliyi Nazirliyi, DTN (MQB).

---

* Dövlət təhlükəsizliyi orqanlarının tarixi, FK-DSİ-XDİK rəhbərləri haqqında bu və bundan sonra gələn informasiya Azərbaycan MTN muzeyinin stendlərində təqdim olunmuş ekspozisiyadan götürülmüşdür.

1953-cü il martın 7-də, Stalinin ölümündən sonra, cəza orqanları üzərində tam hakimiyyəti öz əlində cəmləşdirməyə çalışan Lavrenti Beriya tələsik olaraq iki nazirliyi – XDİK və DTN-ni vahid DİN-də (MVD) birləşdirdi.

1954-cü il martın 13-də nazirliklər yenidən bir-birindən ayrılaraq müstəqil oldular. Xüsusi xidmət orqanlarına uzun illər dəyişməyəcək yeni ad verildi – SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi (DTK).

1967-ci ildə Andropov DTK-nı Nazirlər Sovetinin tabeliyindən çıxartdı və bu struktur bilavasitə Sov.İKP MK-nın tabeliyinə keçdi.

Fəaliyyətdə olduğu onilliklər ərzində SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi onlarla idarə və şöbələri, öz qoşunu və mühafizəsi (sərhəd qoşunlarının sayı 220 min nəfərə çatırdı, üstəgəl 60 min hökumət rabitəsi qoşunlarında xidmət edənlər), elmi-tədqiqat institutları və ali məktəbləri, bütün ölkəni əhatə etmiş gizli agent-mənbə ordusu, dünyanı bürüyən xarici agent və rezidentura şəbəkəsi olan qüdrətli kəşfiyyat strukturuna çevrilmişdi. Əgər DTK-nın sonuncu sədri N.Kryuçkova inansaq, 1990-cı il üçün Komitənin büdcəsi 4,9 mlrd. rubl təşkil edirdi[17].

Sovet xüsusi xidmət orqanları haqlı olaraq dünyada ən güclü və məlumatlı kəşfiyyatlardan biri sayılırdı. Hərçənd Sovet İttifaqının dağılması və xüsusi xidmət orqanları tərəfindən təhlükəsizliyi təmin olunan dövlətin məhvi, bu əfsanəyə inamı əsaslı surətdə sarsıtdı.

* * *

Qısa tarixi ekskursdan sonra yenidən qəhrəmanımızın yanına, daha doğrusu 1944-cü ilin uzaq may günlərinə, Naxçıvan Respublikasının yeni yaradılmış Dövlət Təhlükəsizliyi Komissarlığının təzə əməkdaşı – əməliyyat müvəkkili Heydər Əliyevin fəaliyyətə başladığı ilk günlərə qayıdaq. O vaxtın mühitini, leytenant Əliyevin yaxın illərdə fikrinə hakim kəsiləcək düyünlü məsələləri təsəvvürümüzdə canlandıraq.

Müharibənin sonu yaxınlaşırdı. 44-cü ilin yazında sovet qoşunları Karpat dağlarının ətəklərində və Rumıniya ərazilərində dövlət sərhədinə çatdılar. Leninqradın blokadası tamamilə götürülmüş, Krım düşməndən təmizlənmişdi. Qızıl Ordunun qələbələri ABŞ və Böyük Britaniya liderlərini ikinci cəbhənin açılması məsələsində tələsməyə məcbur edirdi. 1944-cü il iyulun 6-da müttəfiqlərin qoşunları Şimali Fransa, Normandiya torpağına ayaq basdılar[18].

Naxçıvanın partiya, sovet və hüquq-mühafizə orqanlarında çalışan əməkdaşlar üçün 1944-1946-cı illər Cənubi Azərbaycanda (İran Azərbaycanında) başlayan qızğın hadisələrlə bağlı ən gərgin və dramatik bir vaxt idi. Uzun illər bu problemi araşdıran tanınmış Azərbaycan tarixçisi Cəmil Həsənli 2003-cü ildə işıq üzü görmüş olduqca maraqlı tədqiqat əsərində zəngin faktiki və arxiv materiallarına əsaslanaraq, sensasiya doğuran bir nəticəyə gəlmişdir – soyuq müharibənin təməlini məhz böyük dövlətlərin Cənubi Azərbaycan məsələsi ilə bağlı qarşıdurması qoymuşdur[19].

Azərbaycan xüsusi xidmət orqanlarının Şimali İranda Moskvanın gizli planlarının həyata keçirilməsində olduqca fəal iştirakı olub, ona görə də həmin regionda hadisələrin necə cərəyan etdiyini yada salmaq yersiz görünməz. Professor Həsənlinin fikrincə, sovet rəhbərliyinin Cənubi Azərbaycanın taleyinə münasibəti İran və Yaxın Şərq ölkələrinin yanacaq-enerji ehtiyatları üzərində nəzarət əldə etmək üçün cızdıqları strateji planlarla müəyyən olunurdu. Bu, ABŞ-ın, xüsusilə də o vaxt Yaxın və Orta Şərqin neft ehtiyatlarına tam hakim olan Böyük Britaniyanın ciddi müqavimətinə səbəb olurdu. «Hələ 1944-cü ilin martında Stalin müvafiq orqanlara Şimali İranda neft kəşfiyyatı və konsessiya almaq barədə danışıqlara başlamaq üçün lazımi materialların hazırlanması haqqında göstəriş vermişdi. L.Beriyanın 1944-cü il avqustun 16-da Stalin və Molotov üçün hazırladığı arayışda göstərilirdi ki, ingilislər və amerikanlar Sovet İttifaqının neft konsessiyası almaq imkanlarının qabağını kəsmək məqsədi ilə gizli iş aparırlar... Hadisələrin inkişafı göstərdi ki, konsessiya almaq elə də asan iş olmayacaq. Buna görə də Sovet İttifaqının Azərbaycan məsələsinə qayıtması, məhz neft məsələsinin həllinə nail olmaq məqsədi güdürdü. 1945-ci ilin iyun-iyulunda Moskvanın qəbul etdiyi məxfi qərarlar SSRİ-nin İrandakı neft maraqlarına ərazi maraqlarını da əlavə etdi»[20].

Beləliklə, Sovetlər Cənubi Azərbaycanın əhalisindən İrana və Qərbə təzyiq vasitəsi kimi istifadə edirdilər. Lakin Kremlin maraqları iki dövlət arasında bölünmüş, ancaq birləşmək ümidlərini

itirməyən Azərbaycan xalqının ən ülvi arzularıyla üst-üstə düşdü. Bir tərəfdən də Pəhləvi rejiminin şovinist siyasəti, Azərbaycan dilinin qadağan olunması, onun özünəməxsus mədəniyyət və tarixinin inkar edilməsi yerli əhalinin qəti etirazlarına səbəb olurdu. Sovet qoşunlarının Cənubi Azərbaycanda yerləşməsi, Sovet Azərbaycanından olan siyasi işçi və ziyalıların aktiv fəaliyyəti demokratik proseslərə təkan verdi, milli-azadlıq hərəkatının vüsət almasına dəstək oldu və nəticə etibarilə başda Pişəvəri olmaqla Cənubi Azərbaycan Milli Hökumətinin yaranmasına gətirib çıxartdı. Təbii ki, bütün bu proseslər Moskvanın nəzarəti altında, Mir Cəfər Bağırov başda olmaqla hadisələrə böyük maraq göstərən Azərbaycan rəhbərliyinin iştirakı ilə cərəyan edirdi. Müasir Azərbaycan tədqiqatçıları yekdilliklə bu qənaətə gəlirlər ki, «o vaxt, Cənubi Azərbaycanla birləşmək üçün yeganə tarixi şans yaranandа, respublikanın rəhbərləri özlərini ən müsbət tərəfdən göstərdilər, o cümlədən də M.C.Bağırov»[21].

SSRİ hökumətinin 1944-cü il martın 6-da keçirilən iclasında «Cənubi Azərbaycan əhalisinə mədəni və iqtisadi yardımın gücləndirilməsi üzrə tədbirlər haqqında» məsələ müzakirə edildi və bunun nəticəsində yazda və yayda Sovet Azərbaycanından Cənubi Azərbaycana 620 nəfərdən çox müxtəlif mütəxəssis göndərildi. 1944-cü il sentyabrın 14-də Bağırov sovet siyasətinin Cənubi Azərbaycanda həyata keçirilməsi üzrə konkret tədbirlər haqqında Kremlə geniş hesabat göndərdi. Hesabatda sovet maraqlarına toxunan «düşmən təxribatçı ünsürlərini» və İran hakimiyyətinin müxtəlif aksiyalarını neytrallaşdırmaq məqsədi ilə agentura-kəşfiyyat işinin genişləndirilməsi başlıca məsələlərdən biri sayılırdı.

1945-ci ilin iyulundan başlayaraq «neft uğrunda mübarizə SSRİ siyasətində həlledici oldu... İyulun əvvəlində Azərbaycan KP(b) MK katibi M.C.Bağırov Moskvaya çağrıldı. İyulun 6-da ÜK(b)P Siyasi Bürosu məsələni əsaslı surətdə öyrəndikdən sonra «Cənubi Azərbaycan və Şimali İranın digər əyalətlərində separatçılıq hərəkatının təşkili üzrə tədbirlər haqqında» gizli qərar qəbul etdi. Qərarda İran dövlətinin tərkibində geniş hüquqlara malik Azərbaycan milli-muxtar vilayətinin qurulması istiqamətində hazırlıq işlərinə başlamaq məqsədəuyğun sayılırdı»[22]. Stalin hərbi qüvvələrin iştirakı ilə Cənubi Azərbaycanın sovetləşdirilməsini təmin etmək, son nəticədə isə SSRİ İranın hesabına sərhədlərini



genişləndirmək ümidində idi. Strateji məqsəd isə İran körfəzinə çıxmaq və yeni zəngin neft rayonlarına sahib olmaq idi.

Moskvanın «Napoleon» planlarında Azərbaycan xüsusi xidmət orqanlarının rolunu danmaq qeyri-mümkündür. Azərbaycan əhalisinin etiraz mitinq və yürüşlərinin təşkili, İran kənd və şəhər sakinləri arasından agentlərin cəlb olunması, Stalin və Molotovun masası üstünə qoyulan kəşfiyyat məlumatlarının toplanmasında fəallıq, İranda sovet xüsusi əməliyyatlarının əks-kəşfiyyat mühafizəsinin təmin olunması – bütün bunlar bilavasitə Azərbaycan dövlət təhlükəsizlik orqanlarının fəaliyyət dairəsinə daxil idi.

Görüşdüyümüz zaman professor Cəmil Həsənlinin söylədiklərindən: «Azərbaycanın xüsusi xidmət orqanları İranla yaxından məşğul olurdular, bu onların Moskva tərəfindən ayrılmış iş sahəsi idi. Məsələn, Türkiyəyə qarşı təxribat işləri aparmaq ixtiyarı Gürcüstan və Ermənistana verilmişdi. Yeri gəlmişkən, Ermənistan Azərbaycanla birlikdə İran istiqaməti ilə məşğul olmağa cəhd göstərirdi, Moskvanın buna icazə verməsinə çalışırdı. Lakin Azərbaycan rəhbərliyi, Bağırov, buna qarşı çıxdı, Moskvaya sübut olundu ki, bu iş vahid mərkəzdən aparılmalıdır və bir halda ki, söhbət Cənubi Azərbaycandan gedir, burada yalnız Azərbaycan xüsusi xidmət orqanları işləməlidir».

Naxçıvan XDTK-də İran istiqamətinə kuratorluq edən Heydər Əliyev bu və ya digər şəkildə Cənubi Azərbaycanda sovet xüsusi əməliyyatlarının əks-kəşfiyyat mühafizəsində iştirak edirdi. Bu barədə mənə İbrahim İsmayılov danışıb:

«O daim İrandakı vəziyyəti izləyir, sərhəddə agenturanı qəbul edirdi. Onların içində bizim kəşfiyyat tərəfindən cəlb olunmuş İran vətəndaşları da var idi. Dəhlizlər təşkil edir, onlarla görüşlər keçirirdi». Belə görünür ki, leytenant Əliyev sovet və xarici hökumət nümayəndə heyətlərinin İrana və geriyə hərəkəti zamanı mühafizə tədbirlərində iştirak edirmiş (1944-cü ilin noyabrında general de Qoll yolüstü Bakıda olarkən onun mühafizəsinin təmin olunmasında gənc Əliyevin iştirakı barədə şəhadətlər vardır).

Mən İbrahim müəllimdən, həmçinin İran istiqamətində Heydər Əliyevlə işləmiş əks-kəşfiyyatçılardan soruşurdum: H.Əliyev o illərdə İrana qeyri-leqal işə göndərilən çekistlərin sırasında ola bilərdimi? İbrahim İsmayılov bu sualı mənfi cavablandırdı:

«Heydərin özü İrana getməyib, nə İranda, nə də ki, Türkiyədə rezident olmayıb. Mən bunu dəqiq bilirəm, çünki bizim qohumlardan bir nəfər Türkiyədə kəşfiyyat işi görürdü. Heydər orada olmayıb. O, DTK-nın leqal kadr işçisi idi, qeyri-leqalın işini axı necə görə bilərdi?»

Cəmil Həsənli də sualıma şəkk-şübhə ilə yanaşdı: «Xüsusi orqanlardan, eləcə də sovet və partiya xətti ilə Cənubi Azərbaycana işə göndərilən adamların siyahılarında – mən onları dövlət arxivində görmüşəm, Heydər Əliyevin adı yoxdur. Ancaq bilavasitə Cənubi Azərbaycanda işləyənlərlə yanaşı, sərhədin bu tayında da hadisələrdə fəal iştirak edən adamlar az deyildi. Agentlərin axtarıb tapılması, informasiyanın əldə edilməsi və təhlili, bir çox digər problemlərin həlli – bütün bunlarla Əliyev məşğul olurdu. Mən arxivdə qalaq-qalaq materiallar arayıb-axtarıb bu qənaətə gəlmişəm ki, təhlükəsizlik orqanları o vaxt saat kimi işləyib. Bir də hiss etdim ki, xüsusi xidmətin azərbaycanlı əməkdaşlarının Cənubi Azərbaycan probleminə münasibəti başqa millətlərin nümayəndələrindən tamamilə fərqli olub. Azərbaycanlıların ürəyində sanki illərdən bəri yuva salmış bir nisgil, o vaxt ümidə çevrilir, onlar da bu ümidi gerçəkliyə döndərmək üçün əllərindən gələni əsirgəməyiblər.

O zaman respublika rəhbərliyinin Cənubi Azərbaycandakı hərəkat liderləri ilə hər növ əlaqələri Naxçıvan vasitəsilə həyata keçirilirdi. Orada, çox güman ki, xüsusi hökumət rabitəsi (VÇ) olub. Pişəvəri nə barədəsə Bağırovla, yaxud Azərbaycan hökumətindən kiminləsə məsləhətləşmək istəyəndə Naxçıvana gəlirdi. Naxçıvan Pişəvərinin Azərbaycan rəhbərliyi ilə şəxsi görüşlərinin əsas yeri idi. Məncə o, bu görüşlərin mühafizə və təhlükəsizlik məsələləri ilə məşğul olan Əliyevi tanımamış olmazdı».

1946-cı il aprelin 7-də Mir Cəfər Bağırov Pişəvəri ilə görüşmək üçün Culfaya gəlir, iyun və oktyabr aylarında isə görüşlər Naxçıvanda baş tutur. Elə onda da Heydər Əliyevə Azərbaycanın mütləq «xozeyini» ilə şəxsən tanış olmaq müyəssər olur.

*«Cənubi Azərbaycan: soyuq müharibənin başlanğıcı» kitabı çapdan çıxandan təxminən bir il sonra Heydər Əliyev professor Həsənliyə zəng vurur. Kitabı yüksək dəyərləndirir, bu tarixi tədqiqatın işıq üzü görməsinə şad olduğunu bildirir: «Mən dəfələrlə*



*demişəm, tarixçilər sovet dövrünə gərək obyektiv yanaşsınlar. Bu obyektivliyi mən sizin kitabınızda gördüm. Çox gözəl yazılıb, faktlara, tarixi sənədlərə əsaslanır, eyni zamanda rahat, birnəfəsə oxunur. Mən sanki o illərə qayıtdım, özümü yenidən hadisələrin mərkəzində hiss etdim».*

*Tarixçi alimlə söhbətdə Əliyev o vaxt Azərbaycan xalqının birləşməsi üçün olduqca əlverişli şəraitin yarandığını təsdiq etdi, lakin Moskva, əfsuslar olsun ki, işi axıra çatdırmadı. Böyük Britaniya və ABŞ-ın təzyiqləri altında Stalin geri çəkilməyə məcbur oldu. Naxçıvanda Bağırovla Azərbaycan Milli Hökumət rəhbərlərinin görüşlərini xatırlayan Heydər Əliyev, bu görüşlərin təhlükəsizlik təminatında iştirak etdiyini qeyd edir. Prezident xatırlayırdı: «Hər şey ciddi məxfilik şəraitində keçirdi, ancaq biz görürdük ki, respublika rəhbərliyi Cənubi Azərbaycan probleminin həll olunmasına ürəkdən çalışır və bunun üçün çox işlər görür».*

*Həsənli ilə söhbət zamanı Heydər Əliyev S.C.Pişəvərini yüksək dəyərləndirmiş, onu əsl vətənpərvər, XX əsrin ən zəkalı azərbaycanlılarından biri adlandırmışdır. Bu hadisələrdə Moskvanın roluna gəldikdə isə H.Əliyev onu olduqca neqativ qiymətləndirmişdir.*

1946-cı ilin yanvar və mart aylarında «Azərbaycan məsələsinə» BMT-nin Təhlükəsizlik Şurasında iki dəfə baxılır. Beynəlxalq birliyin və ilk növbədə fövqəladə fəallıq nümayiş etdirən ABŞ-ın təzyiqləri altında SSRİ öz qoşunlarını Cənubi Azərbaycandan çıxarmağa məcbur olur. 1946-cı il aprelin 4-də Tehranda imzalanan Sovet-İran sazişində isə Cənubi Azərbaycan məsələsi İranın daxili işi hesab edildi[23]. Saziş Tehranın əl-qolunu açır. Dekabrın 4-də İran qoşunlarının Cənubi Azərbaycana hücumu başlayır. Milli Hökumət və Mir Cəfər Bağırovun dönə-dönə silahla kömək etmək xahişlərinə baxmayaraq, Moskva cavab verir ki, mənəvi dəstəkdən başqa heç bir yardım edə bilməyəcək.

Nəticədə demokratik hərəkat qan içində boğuldu. Şah qoşunları Təbrizi mühasirəyə aldı, şəhərdə qarət və talan başladı. Minlərlə demokrat fəalı güllələndi və həbsxanalara atıldı. Azərbaycan Demokrat Partiyasının liderləri S.C.Pişəvəri, S.Padəgan, Q.Yəhya, Q.İlhami Sovet İttifaqına mühacirət etdilər. Deyirlər ki, Azərbaycan KP MK katibi Mir Cəfər Bağırov onların yanında Stalinə zəng edir. Cənubi Azərbaycanda törədilən azğınlıq və iğtişaşlardan danışır və xahiş edir ki, milli hökumətin fəaliyyətini

bərpa etməyə kömək etsinlər. Stalinin cavabı belə olur: «Beş milyon azərbaycanlıya görə mən üçüncü dünya müharibəsinə başlaya bilmərəm». Telefon söhbətindən sonra Bağırov, şahidlərin dediyinə görə hönkür-hönkür ağlayıb[24].

Dekabrın 12-də Bağırovun inadkarlığı sayəsində Moskva, terrordan qaçan demokrat və onların ailələrinə sığınacaq vermək üçün Culfa, Xudafərin, Biləsuvar və Astarada sərhəd məntəqələrinin açılmasına icazə verdi. Heydər Əliyev, Naxçıvan XDTK-nın digər əməkdaşları gecə-gündüz sərhəddən çəkilmirdilər, qaçqınların qəbul edilməsini, filtrasiyasını, yerləşdirilməsini təşkil edirdilər. O, ağır günlərdə Heydər Əliyev mühacirlərin işlərini yoluna qoymağa kömək etmək üçün Naxçıvanda yubanan Pişəvəri və demokratik hərəkatın digər liderləri ilə bilavasitə ünsiyyətdə işləyirdi.

1947-ci il yanvarın 5-i üçün SSRİ tərəfə keçənlərin sayı 6 min 318 nəfərə çatmışdı. Buraxılış məntəqələrinin sonradan bağlanmasına baxmayaraq, İrandan gələn qaçqın axınının ardı kəsilmirdi. 1954-cü il üçün Cənubi Azərbaycandan olan mühacirlərin sayı artıq 9 min 22 nəfər idi[25]. Sərhədi pozanların, eləcə də leqal mühacirlərin arasından İran kəşfiyyatı agentlərinin aşkar edilməsi Naxçıvanda, sonralar Bakıda Heydər Əliyevin fəaliyyətində prioritet istiqamətlərdən biri olacaqdır. «Soyuq müharibə»nin başlanması ilə İranın, ABŞ-ın, Böyük Britaniyanın kəşfiyyat orqanları agenturalarını SSRİ-də yerləşdirmək üçün bu kanaldan aktiv surətdə istifadə etməyə başladılar. Əliyevin ilk xidməti irəliləyişi və birinci təltifləri də məhz Sovet-İran sərhədinin Naxçıvan-İran hissəsində casusların tutulması və ifşa edilməsinə görə olmuşdu.

1947-ci ildə baş leytenant Əliyev Naxçıvan respublikası DTN-in 5-ci şöbəsinin rəisi təyin olunur. Milli Təhlükəsizlik Nazirliyinin Arxiv İdarəsinin rəisi Xaqani Bağırovun sözlərinə görə bu, Naxçıvan təhlükəsizlik orqanlarının ən əsas bölmələrindən biri idi, İran və türk xüsusi xidmətlərinə qarşı əks-kəşfiyyat işləri aparırdı.

*1944-1946-cı illərin Cənubi Azərbaycan hadisələri haqqında söhbəti tamamlayarkən bir məsələ də qeyd olunmalıdır: həmin hadisələr qəhrəmanımın ürəyində silinməz izlər buraxdı. Kitabın növbəti fəsillərində biz H.Əliyevin respublikada partiya rəhbəri olan zaman Azərbaycan Demokrat Partiyasının Bakıda məskən*



*salmış üzvlərini himayə etməsindən, bir çox problemlərin həllində onlara göstərdiyi köməkdən, Moskvanın təzyiqinə, bu partiyanı bağlamaq cəhdlərinə baxmayaraq, L.Brejnevi ADP-nin və onun mənzil-qərargahının Azərbaycanda saxlanmasına inandıra bilməsindən söhbət açacağıq. Əlbəttə, bir azərbaycanlı kimi o da hər zaman öz xalqını bölünməz, vahid görmək həsrəti ilə yaşayırdı. Lakin o dövrün reallıqları və yüksək partiya mənsəbi ona bu problem barəsində açıq danışmağa imkan vermirdi. Düzdür, bir dəfə, 1982-ci ilin noyabrında, xarici diplomatlarla söhbət zamanı o, 10-15 milyon azərbaycanlının İranda dözülməz vəziyyətdə yaşadıqlarını, Cənubi və Şimali Azərbaycanın əvvəl-axır birləşəcəyini bəyan edərək bu qadağanı pozmuşdu. Azərbaycanın partiya liderini bu dərəcədə sensasiyalı bəyanatla çıxış etməyə vadar edən səbəblər haqqında kitabın o biri fəsillərində danışacağıq.*

## Odla su arasında

Müharibədən sonra xaricdən SSRİ-yə repatriantlar – mühacirətdən və əsirlikdən Vətənə qayıdan insan seli axışıb gəldi. Leninqrada oxumağa gedənəcən bu kateqoriyadan olan insanların saf-çürük edilməsi, süzgəcdən keçirilməsi Heydər Əliyevə «baş ağrısı» oldu.

Məşhur britaniyalı tarixçi Cefri Xoskinq yazırdı: «Yəqin ki, sovet vətəndaşlarından ən bədbəxtləri almanlara əsir düşənlər idi. Almanlar onları «yarımadamlar» hesab edir, həbs düşərgələrinə salır, orada aclıqdan və xəstəlikdən ölməyə məhkum edir, bütün bunlarla bərabər fiziki işdən də azad etmirdilər. Həmin adamlara sovet hökumətinin münasibəti də eyni dərəcədə qəddar idi: əsirləri vətən xainlərinə bərabər tutur, hərbi əsirlər haqqında Cenevrə Konvensiyasını imzalamaqdan imtina edirdilər»[26].

Naxçıvana qayıdan repatriantların bəzisi müharibə illərində əsir düşən və ya könüllü şəkildə almanlara təslim olanlardan ibarət idi. Digərləri isə nasistlərin yaratdığı hərbi birləşmələrdə – legionlarda xidmət edərək Qızıl Orduya və antihitler koalisiyası üzrə müttəfiqlərin qoşunlarına qarşı vuruşanlar idi. Müxtəlif hesablamalara görə, Almaniya tərəfindən SSRİ xalqlarından 1,2-dən 1,6 milyonadək adam döyüşürdü[27]. Müharibə vaxtı nasistlər min-

lərlə sovet vətəndaşını müxtəlif müəssisələrdə və aqrar sahədə işləmək üçün Almaniyaya sürgün etmişdilər. İndi onlar geri, Sovet İttifaqına göndərilirdi. 1946-cı ilin iyulunda Azərbaycan SSR-də 14 minə qədər repatriant vardı. Onlardan çoxusu – 3 min 566 nəfəri ruslardan ibarət idi. Ukraynalılar 2 min 704 nəfər, moldavanlar 2 min, ermənilər 650 nəfər idi. Azərbaycanlılar isə 3 min 262 nəfər təşkil edirdi[28].

Respublikanın başqa regionlarında olduğu kimi, Naxçıvanda da yoxlama-araşdırma komissiyası yaradılmışdı. Həmin illərdə Naxçıvan prokurorluğunda işləyən İbrahim İsmayılovun söylədiyinə görə, bu komissiyaya Heydər Əliyevlə birgə o da daxil edilibmiş.

«O dövrdə biz repatriantların – əsirliyə düşərək faşist ordusunun hərbi birləşmələrinə – milli legionlara daxil olanların işi ilə məşğul olurduq. Həmin adamları diqqətlə, əsaslı şəkildə yoxlayırdıq. Əgər onlar legionun tərkibində bizim qoşunlarımıza qarşı vuruşmuşdularsa, bu, artıq cinayət hesab olunurdu. Təsərrüfat hissələrində və s. işləyənləri isə azad etməyə çalışırdıq. Əsir düşərgələrində olanlarla işimiz yox idi. Yalnız alman birləşmələrində xidmət edənlərin işlərini araşdırmaqla məşğul olurduq».

Müharibə zamanı və müharibədən sonrakı illərdə siyasi repressiyalarla bağlı gərginlik xeyli səngidi. ÜK(b)P MK-nın 1938-ci il 17 noyabrda qəbul etdiyi NKVD və prokurorluq orqanlarının fəaliyyətində «sosialist qanunçuluğunun pozulması» barədəki məşhur qərarı xüsusi rol oynadı. N.Yejov* məhkum edildikdən və «yejovşina» qətiyyətlə pislənildikdən sonra xalq komissarlığına başçılıq edən Lavrenti Beriya cəza orqanlarına kütləvi həbslər və sürgünlər keçirməyi qadağan etdi. Hər hansı həbs yalnız prokurorun sanksiyası ilə həyata keçirilməli, cəzanı isə məhkəmənin qərarı müəyyənləşdirməli idi. «Üçlüklər» ləğv edildi. İstintaq altında olanların işi məhkəmə orqanlarına və DTN yanında xüsusi Şuraya verildi[29].

* Nikolay Yejov—1936-cı ilin sentyabrından 1938-ci ilin noyabrınadək daxili işlər xalq komissarı işləyib. Xüsusi qəddarlıqda, amansızlıqda, sadizmdə ad çıxarıb. Yejovun xüsusi göstərişi ilə məhkumların dindirilməsi zamanı işgəncələr tətbiq edilməsində məhdudiyyətlər aradan qaldırılmışdı. 1940-cı il fevralın 4-də məhkum edilərək güllələnmişdir.



1945-1953-cü illərin çoxsaylı arxiv materiallarını araşdıran tarixçi Eldar İsmayılov belə bir qənaətə gəlib ki, Azərbaycan müharibədən sonrakı illərdə «Leninqrad işi», «Minqrel işi», «Yəhudilərin Antifaşist Komitəsinin işi» və b. kimi böyük hay-küyə səbəb olmuş repressiya kampaniyalarını yaşamasa da, respublikada insanların siyasi motivlərlə həbslərinin ardı-arası kəsilmirdi. «Dövlət təhlükəsizlik orqanları sanki bu hərəkətlərlə öz labüdlüyünə haqq qazandırmaq üçün antisovet təbliğatı kimi qələmə verilən ehtiyatsız deyilmiş fikirlərə görə hər il müəyyən sayda insanı mühakimə etməyi özlərinə borc bilirdilər. Belə fikirlər az deyilmirdi. Bununla bağlı donoslar, xəbərçiliklər də kifayət qədər daxil olurdu. Onların heç də hamısına xüsusi diqqət yetirilməsə də, bütün bunlar praktiki olaraq hər bir vətəndaş üçün açılmış dosyedə öz əksini tapırdı»[30].

Sonralar Heydər Əliyev özü də bu barədə xatirələr söyləmişdi. 1997-ci ildə Azərbaycan çekistləri qarşısında çıxış edərkən və yarıməsrlik tarixə malik hadisələri yada salarkən o, 40-cı illərin dövlət təhlükəsizlik orqanlarının repressiya siyasəti barədə kəskin tənqidi fikirlər söyləmişdi:

«O vaxtlar gənc bir işçi kimi arxiv materialları ilə, xüsusən 37-38-ci illərin, ondan sonrakı dövrün materialları ilə tanış olarkən daim özüm-özümə sual vermişəm: bu antisovet qruplar, millətçi qruplar, sovet hakimiyyətini devirmək istəyən qruplar, filanlar – kimlərdir, hansılardır? Onların bir qismi həbs edilib ya öldürülmüş, ya da uzaq Sibirdə həlak olmuşdu. Amma bir qismi də həbs olunmamışdı, qalmışdı. Arxiv materiallarında isə onların adları siyahılarda idi ki, bunlar antisovet, millətçi qrupların, dəstələrin, təşkilatların üzvləri olmuşdur. Mən gənc idim, fikirləşirdim, – əgər bunlar millətçi, yaxud antisovet, əksinqilabçı təşkilatların üzvləri olublarsa, bəs niyə gəzirlər, yaxud da ki, üzvü deyillərsə, adları niyə buraya düşübdür? O qədər belə quraşdırma, ədalətsiz işlər görülmüş, o qədər saxtakarlıq, əsası olmayan materiallar yaradılmışdı ki, bunlardan baş açmaq çətin idi.

Təəssüflər olsun ki, bu istiqamət, siyasət davam edirdi və əgər insanlar siyasi cəhətdən öz fikrini bildirmək, demək istəyirdisə, yaxud başqa fikir söyləmək istəyirdisə, dərhal nəzarət altına alınır, haqqında ölçülər götürülür və bəzilərini də cəzalan-

dırmağa çalışırdılar. Mən bunları görmüşəm, 40-cı illərin sonunda, 50-ci illərin əvvəllərində şahidi olmuşam»[31].

Naxçıvanın Dövlət Təhlükəsizliyi strukturlarının rəhbərləri də tabeçiliklərində olanları «xalq düşmənləri»nə, «antisovet mövqedə duranlara», «əksinqilabçılara» qarşı sayıqlıq, kommunist prinsipiallığı nümayiş etdirməyə çağırırdılar. Və bu çağırışlar çox vaxt baş əməliyyat müvəkkili Heydər Əliyevdə qəti etiraz doğururdu.

İbrahim İsmayılov xatırlayır ki, çox vaxt antisovet təbliğatı ilə bağlı işlərə məhkəməyə çatdırmadan, elə təhqiqat mərhələsində cə xitam verməyə çalışırdıq.

«Heydər bu cür işlərə çox incəliklə yanaşırdı. Tutaq ki, kimsə mövcud qanunları tənqid edirdi və ya ölkə rəhbərliyinin ünvanına ləyaqətsiz bir söz deməyə cəsarət edirdi. O, belə vəziyyətlərdə tərəddüd edirdi: buna görə cinayət işi açmağa dəyərmi? Bəzən belə şeylərin üstündə onunla rəhbərlik arasında fikir ayrılığı, ixtilaflar baş verirdi. Bəzən onu bu və ya digər cinayət işini açmağa məcbur etdikləri, bu işlərin isə onun ürəyincə olmadığı barədə mənə şikayət edirdi».

Hərdən insanların başı üzərindəki təhlükəni sovuşdurmaq, onları həbsxanadan və ya sürgündən xilas etmək mümkün olurdu. Naxçıvanın ağsaqqalları gənc Heydər Əliyevlə bilavasitə əlaqədar olan bir neçə belə əhvalatı xatırladılar. Bu əhvalatlardan biri Naxçıvanda kənd təsərrüfatı sahəsində tanınmış mütəxəssis olan Süleyman Məmmədovla bağlıdır. Müharibə illərində o kənd təsərrüfatı ziyanvericilərinə qarşı mübarizə ilə məşğul idi. Bir dəfə necə oldusa, camaat arasında hökumətin bu sahədəki siyasətini tənqid edərək ziyanvericilərlə mübarizənin, xüsusilə də pambıqçılıqda düzgün aparılmadığını söyləməyə cəsarət etdi. O deyirdi ki, ümumiyyətlə, nazirdən başlayaraq idarəetmə strukturunu dəyişmək, iş üsullarını və metodlarını yenidən qurmaq lazımdır. Bu cür tamamilə haqlı, ədalətli tənqidi çıxışlarına görə ona iş açdılar, hətta məsuliyyətə cəlb etməyə çalışdılar. Heydər Əliyev Məmmədovun işi ilə bilavasitə məşğul olurdu, Naxçıvan dövlət təhlükəsizliyi naziri Həsən Fərəcovun rəğbətindən istifadə edərək onu inandıra bildi ki, tənqidi fikir söylədiyinə görə bu cür yüksək səviyyəli mütəxəssisi həbs etməyə dəyməz. Nəticədə Süleyman Məmmədovu azad etdilər.



1947-ci ildə KP MK-da 30-cu illərdə cəzalarını çəkmiş şəxslərin ölkənin ucqar rayonlarına sürgün edilməsi haqqında qərar qəbul olunur. «Düşmən ünsürlər»in aşkara çıxarılması və təcrid edilməsi işini dövlət təhlükəsizliyi orqanları yerinə yetirməli idi. Əlbəttə, çox vaxt heç də hamını xilas etmək mümkün olmurdu, partiyanın göstərişlərini yalnız xüsusi hallarda pozmaq olardı. Belə ki, İbrahim müəllimin söylədiklərinə görə, o vaxt Heydər Əliyev aqrar sahə üzrə görkəmli mütəxəssis olan Hüseyn Əsədovu qoruya, müdafiə edə bildi. H.Əsədov kütləvi repressiyalar dövründə siyasi motivlərlə mühakimə olunmuş, cəzasını çəkib qurtardıqdan sonra Naxçıvana qayıtmışdı.

Fərəcov tabeliyində olan əməkdaşın liberal hərəkətlərinə barmaqarası baxmağa məcbur idi, çünki onun xidmətlərindən tez-tez istifadə edirdi: Heydər Əliyev onun adından mərkəz üçün Naxçıvan xüsusi xidmət orqanlarındakı işlərin vəziyyəti, muxtar respublika əhalisinin əhvali-ruhiyyəsi və s. haqqında arayış və hesabatları hazırlayır, hər cür sənədləri ustalıqla, məharətlə tərtib edirdi. Nazir hərtərəfli, geniş bilik sahibi olan bölmə müdirini yüksək qiymətləndirir və açıq-aşkar onu digər əməkdaşlarından ayırırdı. O illər Heydər Əliyevlə sıx ünsiyyətdə olan yaşıdlarının dediyinə görə o, ümumiyyətlə Naxçıvanda böyük nüfuz sahibi idi.

1948-ci ildə Moskvadan Naxçıvana gələn və vilayət komsomol komitəsinin birinci katibi vəzifəsinə təyin olunan İsa Məmmədov Heydər Əliyevlə tanışlığını belə xatırlayır:

«Heydərlə məni İbrahim İsmayılov tanış etdi. İbrahim müəllim o vaxt Naxçıvanda muxtar respublika prokurorunun müavini vəzifəsində işləyirdi. Çalışdığımız binalar eyni küçədə idi – küçənin bir başında vilayət komsomol komitəsi, o biri başında isə prokurorluq yerləşirdi. Bir dəfə İbrahim məni evlərinə dəvət etdi. Bir neçə cavan oğlanla bərabər Heydər Əliyev də onlarda idi. Məni çox maraqla süzürdülər, çünki Moskvadan gəlmişdim. O vaxtlar Moskva hamıya uzaq, əlçatmaz yer kimi görünürdü.

Heydər boy-buxunu, yaraşığı ilə hamıdan seçilirdi, qəribə gözləri vardı. O, mənə çox şən və mehriban insan təsiri bağışladı. Zarafat etməyi, dostlarına «sataşmağ»ı çox sevirdi. Bəzən ayırd etmək olmurdu ki, o ciddi danışır, ya səni dolayır.

O məlumatlı, savadlı adam idi, hər şeylə maraqlanırdı. Mən bir çox məsələləri ondan öyrənirdim. Bəzən fikirləşirdim: mən Moskvada oxusam da, o məndən çox bilir. Rus dilində təhsil alsam da, o rus ədəbiyyatını məndən yaxşı bilir. Görəsən bu niyə belədir? Heydər öz üzərində çox işləyirdi: mətbuatı izləyir, ən müxtəlif elm sahələri üzrə kitablar oxuyurdu. Ətrafımızdakı yaşca, vəzifəcə yüksək olan adamlar da onunla hesablaşır, ondan məsləhət alırdılar. Bu məni indiyə qədər də heyrətləndirir. Elə bil ki, bu insanın genlərində lap əvvəldən liderliyin təməli qoyulmuşdu».

«Əliyev öz yerlilərini çox sevirdi və cüzi xətaları ucbatından orqanların zavalına gəlmiş insanlara kömək etməyə çalışırdı. Heydər qəddar adam deyildi, odur ki, Naxçıvanda böyük nüfuz sahibi idi. Adətən DTN əməkdaşlarını sevmirlər. Ona isə hörmətlə yanaşırdılar. Məsələn, mənim atam, elə digər yaşlı adamlar da onun yanına məsləhətləşməyə gedirdilər. Elə insanlar var ki, işıq saçırlar. Xalq belə insanların cazibəsinə can atır. Heydər də belə nurlu simalardan idi. O, çox kasıb ailədən çıxmışdı, həyatın bütün zillətini, əziyyətini, ağırlığını öz üzərində sınaqdan çıxarmışdı, ehtiyac nə olduğunu yaxşı bilirdi. Odur ki, başqasının dərdini yaxşı duyurdu».

*(İbrahim İsmayılovun xatirələrindən).*

Heydər Əliyevin əmisi oğlu Süleyman Əliyev mənə 1947-ci ildə baş vermiş qəribə bir əhvalatı danışdı. Mənə elə gəlir ki, bu əhvalat qəhrəmanımı çox dəqiq xarakterizə edir. Odur ki, oxucuların icazəsiylə onu bütöv şəkildə təqdim edirəm:

«Kəndimizdə Müzəffər adlı bir nəfər yaşayırdı. Dəhşətli demaqoq idi. Məsələ orasında idi ki, Noraşendə Ermənistandan, Ordubaddan, digər regionlardan bizim kimi çoxlu köçkünlər məskunlaşmışdı. Müzəffər onların əleyhinə təbliğat aparırdı: kolxoz yığıncaqlarında ayağa qalxıb ağzına gələni danışırdı, bir bunlara baxın, hər dərədən biri gəlib, torpaqlarımıza sahib çıxıb və s. O, mənim atama da sataşırdı. Günlərin birində atam Heydərə şikayətləndi: «Lənətə gəlmiş Müzəffər bizə göz verib, işıq vermir. Onun əlindən gün-güzəranımız yoxdur».

Noraşenin girəcəyində ən birinci bizim evimiz idi. Xırmanda uşaqlarla oynayırdım, birdən M-1 avtomobilinin kəndimizə yaxınlaşdığını gördüm. O vaxtlar bu avtomobili «Villis» adlandırırdılar. Maşından hərbi geyimli iki nəfər düşdü. Onlardan biri yaxınlaşıb məni qucaqladı. Gördüm ki, bu, əmioğlu Heydərdir. O birisi isə DTK-nın Əbrakunis rayon şöbəsinin sədri Yusifov idi.

Heydər məndən soruşdu:

– Sən bilirsən Müzəffər kişi harada yaşayır?

– Bilirəm. Ancaq o, indi evdə yoxdur.

– Bəs o haradadır?

– Tikintidə. Kəndimizdə təzə məktəb tikirlər, orada işləyir.

– Yerini göstərə bilərsən?

– Əlbəttə.

Məni maşına oturtdular, sevincim yerə-göyə sığmırdı. Yeni tikilən məktəbə yollandıq. Gördük ki, Müzəffər kişi palçıq qarışdırır. Mənimlə gələnlər ona yaxınlaşıb söhbətləşməyə başladılar. Maşında oturduğumdan nə danışdıqlarını eşitmirdim. Ancaq gördüm ki, Müzəffərin sifəti dəyişdi. Sonralar atam danışırdı ki, Heydər onun dərsini verib. Ona deyib ki, sovet hökuməti insanların qəlbinə dəyməyə yol verməyəcək. Sən də demaqoqluğuna son qoy: az «gəlmələr», «özgələr», «yadlar» de! Biz hamımız eyni xalqın nümayəndəsiyik. Əgər hərəkətlərinə son qoymasan, səninlə başqa yerdə danışmalı olacağıq.

Sonra onlar məni evimizə gətirdilər. Bir qədər bağımızda üzüm çardağının altında oturdular. Nahardan imtina etdilər. Axşam atam yorğun-arğın, üz-gözünü tük basmış halda evə qayıtdı. O bütün günü eşşəyin üstündə xırmana buğda daşıyırdı. Müzəffər kişiyə rast gəlir. O, atama nəzər salıb deyir: «Üz-gözünü tük basıb ki, Zeynalabdin. Gəl sənin üzünü qırxım». Atam təəccüblənib cavab verir: «Bircə bu qalmışdı. Üzümü sənə etibar eləyə bilmərəm, sən mənim başımı kəsərsən». Atam evə gəlib təəccübünü gizlətmədən anama dedi: «Heç başa düşmədim, Gülər, Müzəffər bu gün niyə belə mülayimləşib, üzümü qırxmaq istəyirdi». Anam gülüb dedi: «Bu gün Heydər gəlmişdi. Yəqin aşının suyunu verib». Onu da deyim ki, həmin Müzəffər almanlara əsir düşübmüş. Onu hərtərəfli yoxlayıb, azadlıqda saxlayıblar. Halbuki Sibirə sürgün də edə bilərdilər.

Heydər o vaxt əsirlikdən qayıdan həmyerlilərindən çoxuna kömək etməyə çalışmışdı. Uruda birgə getdikləri dostu Qasım da əsirlikdə olmuşdu. Heydər onu türmədən xilas etmişdi».

Gənc çəkist dəfələrlə çətin vəziyyətə düşmüş, necə deyərlər, odla su arasında qalmışdı. Bilmirdi necə etsin ki, özünə də zərbə dəyməsin, günahsız insanı da repressiya maşınının məngənəsindən xilas edə bilsin. Bir dəfə az qala onun ürək dostu İbrahim də həmin məngənəyə düşəcəkdi. Bax, onda Heydər özünün diplomatik məharətini və həmyerliləri arasında qazandığı nüfuzu işə salmalı oldu. O vaxtlar belə şeylərlə zarafat etmək olmazdı. İbrahim İsmayılov Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibinin yolunun üstündə maneəyə çevrilmişdi.

1947-ci ildə Naxçıvan Vilayət Partiya Komitəsinə Yusif Yusifovu birinci katib təyin etdilər. Muxtar respublikanın prokuroru həmin vaxt Moskvada doqquz aylıq kursda olduğundan onu İbrahim İsmayılov əvəz edirdi.

Naxçıvanın Yusifovdan əvvəlki partiya rəhbəri Hüseyn Nəcəfov çox təmkinli, alicənab adam idi, hüquq-mühafizə orqanlarının işinə qarışmamağı üstün tuturdu. Yusifov isə vəzifə başına çıxan kimi hökmranlıq etməyə başladı. Prokurorluğa zəng vurub soruşurdu:

– Filankəsi nəyə görə tutubsunuz?

– Cinayət törətdiyinə görə həbs etmişik.

– Onun işinə yenidən baxmaq lazımdır.

Həmin vaxt Naxçıvan prokurorluğunda duz mədənlərində mənimsəmə faktı ilə bağlı cinayət işi araşdırılırdı. Mədənlərdən çıxarılan duz strateji xammal hesab olunduğundan onun çox dəqiq qeydiyyatı aparılırdı. Müharibə vaxtı Ukraynanın duz mədənləri zəbt olunmuş ərazidə qaldığından, Naxçıvan SSRİ-nin hərbi sənayesinin ehtiyaclarını təmin edirdi (barıtın tərkibi 30-40 faiz daşduzdan ibarətdir).

Yeyinti Sənayesi Nazirliyindən gələn müfəttişlər duz mədənlərində yoxlama apararkən aşkara çıxardılar ki, oranın direktoru Məmmədov duzu kənara sənədsiz satırmış. Ermənistanda avtomobil şini istehsal edən zavod fəaliyyət göstərir. Sintetik rezin istehsalında isə külli miqdarda duz işlənir. Məlum oldu ki, mədən direktoru sənədsiz-filansız ermənilərə 29 min ton duz satıb, pulları da mənimsəyib.

Yoxlama faktları əsasında başda direktor olmaqla böyük bir qrupa cinayət işi açıldı.



Günlərin birində İbrahim İsmayılovun kabinetinə vilayət komitəsindən telefon zəngi gəldi. Birinci katib mədən direktoru Məmmədovun azadlığa buraxılmasını tələb edirdi.

– Məmmədov külli miqdarda oğurluğa yol verib. Onu azad etməyə ixtiyarım yoxdur. Əks halda onun yerinə mən özüm müttəhimlər kürsüsündə oturmalıyam, – deyə İbrahim cavab verir.

– Mən heç bir şey bilmirəm! Günü sabah o azadlıqda olmalıdır!

Əlacsız qalan İbrahim Heydər Əliyevə zəng vurub, onunla çox vacib bir məsələ barədə məsləhətləşmək istədiyini söylədi.

Dostlar şəhərdə görüşdülər, İbrahim ona vilayət komitəsindən olan telefon zəngi barədə danışdı.

– Gəl Fərəcovun yanına gedək, – deyə Heydər təklif elədi. – O insaflı, ədalətli adamdır, səni müdafiə edər.

DTN rəhbəri İsmayılovu dinləyəndən sonra:

– Möhkəm ol, təslim olma, – dedi.

– Axı Yusifov məni partiyadan xaric etməklə hədələyir.

– O heç bir şey eləyə bilməz, – Fərəcov cavab verdi.

İsmayılovun onun tələbini yerinə yetirmədiyini görən Yusifov ipə-sapa yatmayan prokuror müavininin dərsini vermək qərarına gəldi və ayrıca bu məsələ ilə bağlı partiya fəallarını topladı. Muxtar vilayətin dövlət təhlükəsizliyi naziri ilə Heydər Əliyev də zalda idilər.

«Yığıncaqda mənim məsələmi qoymuşdular, – deyə İbrahim müəllim xatırlayır, – Heydər mənim arxamda oturmuşdu və qulağıma astadan pıçıldayırdı:

– Möhkəm dur, narahat olma.

İlkin olaraq şəhər sovetinin sədri söz aldı:

– Yoldaş Yusifov, siz bizə partiya tapşırıqları verirsiniz, biz onları yerinə yetirməyə borcluyuq. Bəzi yoldaşlar isə bizə mane olurlar. Söhbət məhz İsmayılovdan gedir. Biz vergi ödəmədiyinə görə karamel istehsalı sexini möhürləmişdik. O isə oranın möhürünü qopardı. Oranın suyunu kəsdik. O işə qarışaraq bizi suyu açmağa məcbur etdi. Belə adamlardan azad olmalıyıq.

Açıq-aşkar görünürdü ki, bu, qabaqcadan hazırlanmış çıxışdır. Heydər elə hey arxadan pencəyimin ətəyindən dartıb «otur, dillənmə» deyirdi. Bu çıxışdan sonra Yusifov özü ayağa qalxdı.

– Bu İsmayılov kimdir? Haradan gəlib çıxıb? Biz onu partiya sıralarından xaric edərik. Mən onun mandatını əlindən alıb partiya aktivindən qovaram.

Məsələ aydın idi: o, Məmmədovdan rüşvət almışdı, mən isə onun yolunu kəsmişdim. Tabeçilikdə olan üzüyola olmalı, müdiriyyətin əmrlərini yerinə yetirməlidir. Mənsə müqavimət göstərib inad edirəm. Vəssalam, düşündüm, mənim kitabım bağlanıb.

Bu vaxt gözlənilməz hadisə baş verdi: Yusifovun çıxışı etiraz dalğasına səbəb oldu. Zalda hay-küy qalxdı. Qarabağlar kəndinin kolxoz sədri, məşhur Əli kişi Mədətov ayağa qalxdı.

– Yoldaş Yusifov, – dedi, – biz İsmayılovu yaxşı tanıyırıq, o cəbhəçidir, namuslu, təmiz adamdır, heç vaxt öz vicdanı əleyhinə getməz. Nəyə görə ona hücum edirsiniz?

– Əyləşin, bizə mane olmayın, – deyə Yusifov çığırdı.

Bu vaxt Maxta kəndinin kolxoz sədri Məmməd Salah ayağa qalxdı. O da mənim xeyrimə çıxış etdi.

Partiya fəalları dağılışmağa başladılar. Yusifovun hərəkətindən qəzəblənənlər iclası tərk edirdilər. Mən başa düşdüm ki, Heydər qabaqcadan fəallar arasında müəyyən iş aparıb. Fərəcov da vilayət partiya komitəsinin büro üzvü kimi bizim tərəfimizdə idi.

Sabahısı gün səhər Heydər mənə zəng vurub bildirdi:

– Yusifov Bakıya, «xozeyin»in yanına yola düşdü, sənin məsələni qoyacaq. Möhkəm ol, indi ki, işi başlamışıq, onu axıra çatdırmalıyıq».

Bakıda Yusifov Bağırovun qəbuluna düşə bildi və İbrahim İsmayılovdan şikayətlənməyə başladı:

– Cavan oğlandır, ancaq ədəbsizlik edir. Partiyanı saymır, partiya intizamını pozur.

Bağırov dövlət təhlükəsizliyi naziri Yemelyanova zəng vurdu:

– Stepan Fyodoroviç, məsələni aydınlaşdırın. İsmayılov soyadlı bir cavan oğlanı bu yaxınlarda Naxçıvan prokurorunun müavini təyin etmişik. Deyirlər o, işə mane olur. Araşdırın, görün orada nə baş verir.

Yemelyanov da öz növbəsində Fərəcova zəng vurdu. O isə Heydər Əliyevə baş vermiş hadisə barədə arayış, dövlət təhlükəsizliyi nazirinin adına məlumat hazırlamağı tapşırdı.



Heydər Əliyev işin bütün təfərrüatını ətraflı və obyektiv şəkildə təsvir etdi. Naxçıvandan gələn informasiya «xozeyin»in stolunun üstünə qoyuldu.

Ertəsi gün Bağırov Yusifovu yanına çağırdı:

– Sən məni niyə aldadırsan? Belə məlum olur ki, elə sən özün dələduzsan! İndi mən yoldaş Stalinə nə cavab verəcəyəm? Səni cəmi üç aydır ki, Naxçıvana birinci katib göndərmişik, sən isə artıq rüşvət almağa başlamısan. Biz İsmayılovu yox, səni işdən qovmalıyıq. Onun isə, əksinə, heç bir günahı yoxdur, ona tapşırılan işi vicdanla yerinə yetirir.

İki gündən sonra İbrahim belə bir teleqram aldı: «İşləri təhvil verib Bakıya gəlin». İbrahim narahatlıqla dostuna zəng vurdu:

– Heydər, nə baş verib?

– Məndə olan məlumata görə səni irəli çəkirlər. Hələlik heç kimə bir söz demə, səni məsul vəzifəyə təyin etmək istəyirlər, – deyə Heydər cavab verdi.

İbrahim Bakıya gəldi, respublika prokurorunun yanında oldu, «hücum ən gözəl müdafiə üsuludur» deyiminə əməl edərək dedi:

– Bu nədir, dələduzları müdafiə edirsiniz, namuslu adamları isə geri çağırırsınız?

– Sən bir səbr elə, – deyə prokuror gülümsündü. – Yoldaş Bağırov sənə respublika prokurorluğunda ən məsul vəzifəni həvalə etmək barədə sərəncam verib. Sən yüksək prinsipiallıq nümunəsi göstərmisən. O isə prinsipial əməkdaşları sevir. Odur ki, onun göstərişi ilə səni istintaq şöbəsinə müdir təyin etmişik.

«O vaxtlar idarələr yox, şöbələr vardı, – deyə İsmayılov xatırlayır. – O şöbədə də qırx nəfər işləyirdi. Mənimsə o vaxt iyirmi altı yaşım vardı. Mənim yaşım üçün bu çox böyük yüksəliş idi».

Dostunu paytaxta işləməyə yola salan Heydər Əliyev zarafatla dedi:

– Sənin arxanda durub, öz başımıza iş açdıq. Sən adam oldun, biz isə qaldıq. Hələ məlum deyil ki, sənin yerinə elə bu cür prinsipial adamı təyin edəcəklər, ya yox.

– Bəsdir təvazökarlıq elədin, – deyə İbrahim ona cavab verdi. – Sən də burada çox qalmayacaqsan. Sözlərimi yadında saxla: qarşıda səni böyük işlər gözləyir!

İbrahim müəllim sanki fala baxmışdı: bir ildən sonra Heydər Əliyevi Leninqrada – SSRİ DTN-nin rəhbər operativ heyətinin

yenidən hazırlanma, təkmilləşmə məktəbinə oxumağa göndərdilər. Kursu başa vurandan sonra isə nazirliyin mərkəzi aparatına işə götürdülər.

İbrahim İsmayılovla bağlı əhvalat, zənnimcə, əsərimizin qəhrəmanı barədə oxucuda aydın təsəvvür yaradır: o sübut edir ki, partiya və sovet orqanlarında rüşvətxorluq və korrupsiya ilə mübarizəyə Heydər Əliyev 1969-cu ildən yox, çox-çox əvvəllər başlayıb. Gördüyümüz kimi, bu mübarizədə o heç bir nüfuz və vəzifə sahibi qarşısında belə geri çəkilməyib. Ola bilərdi ki, Bağırov özünün irəli çəkdiyi vilayət partiya komitəsinin birinci katibi Yusifova inansın. Onda «xozeyin»in qəzəbi təkcə İbrahimin yox, bu hadisə zamanı onun arxasında duranların da başında çatlaya bilərdi.

Bir neçə il sonra, artıq Bakıda işlədiyi zaman gənc çekist öz prinsipiallığının qurbanı oldu. Ancaq bu dəyanət, iradə, möhkəmlik sınağından da o cəsarətlə çıxdı.

## Biz necə də gənc idik...

Müharibə və müharibədən sonrakı illərin bütün çətinliklərinə, ağırlığına baxmayaraq, həyat davam edirdi. Və bu həyat təkcə işdən, xidmətdən ibarət deyildi. Mən istəmərəm ki, qəhrəmanım oxucuların qarşısında adi insani sevinclərdən, əyləncələrdən kənar olan, fanatik iş adamı kimi canlansın. Heydər və onun yaşıdları enerjili, nikbin gənclər idi və gələcəyə böyük inam bəsləyirdilər. Onlar hərdən məclislər qurmağa, qızlarla görüşməyə, hətta dava-dalaşa da vaxt tapırdılar. Amma hər söhbətin öz məqamı var.

Müharibə illərində özündən kiçik bacı-qardaşlarını dolandırmaq, onları himayə etmək gənc dövlət təhlükəsizliyi zabitinin çiyninə düşmüşdü. Doğrudur, qardaşları da evə qazanc gətirməyə çalışırdılar: Aqil kinomexanik işləyirdi, Cəlal isə Bənənyar kəndində dərs deyirdi. Texnikumda Heydər Əliyevlə bir kursda oxuyan Dövlət Məmmədov o ağır illəri belə xatırlayır:

«Cəbhədən qayıdandan sonra mən «Keşikdə» qəzetində rəssam işləyirdim, elə orada da partiya sıralarına qəbul olundum. Heydərlə birlikdə 1945-ci ildə partiyanın üzvü olduq. Sonra mən Bənənyar kəndində yeddiillik məktəbin direktoru oldum. Cəlal Əliyev də ikiillik Müəllimlər İnstitutunun biologiya-coğrafiya fakültəsini bitirəndən sonra mənim yanımda müəllim işləməyə başladı. Bir gün evdə oturmuşdum. Heydərlə Cəlal bizə gəldilər. Heydər artıq DTN-də işləyirdi. O Cəlala işarə ilə dedi: «Naxçıvanda yaşamaq çətindir, aclıqdır, bəlkə o burada – sənin yanında qalıb işləsin». Mən Cəlalı işə götürdüm. Məktəbin qarşısındakı balaca otaqda yaşayırdıq. Çətin idi. Yadımdadır ki, çaydanı qaynadıb, içinə əlimizə düşən otlardan atıb içirdik. Adambaşına yarım kiloqram çörək verirdilər. Yeməyə, demək olar ki, başqa heç bir şey olmurdu. Acından şagirdlərin bənizi solğun, avazımış olurdu. Yazın sonlarında və payızda axırıncı dərslərdə uşaqları ekskursiyaya aparırdıq ki, giləmeyvə, yabanı meyvə yığa bilsinlər».

Əlirza kişinin Noraşen kəndində yaşayan qardaşı Zeynalabdin qardaşı uşaqlarına çox kömək edirdi, onlara olduqca bağlı idi. Bəlkə də bu ondan irəli gəlirdi ki, özünün övladları nisbətən gec dünyaya gəlmişdi. «Atam kolxozda işləyirdi, – deyə Süleyman Əliyev xatırlayır – O vaxtlar nizam-intizam məsələsinə çox ciddi yanaşırdılar, hünərin var, işə çıxma. O, evə qaranlıq düşəndə qayıdırdı, eşşəyi hər cür kənd azuqəsi ilə, sobanı qalamaq üçün təzəklə yükləyib, otuz kilometr aralıda yerləşən Naxçıvana – qardaşının yanına gedirdi».

Heydər Əliyevin anası İzzət xanım həddindən artıq rəhmdil, əliaçıq qadın idi. Naxçıvan sakinlərinin söylədiklərinə görə ona gətirilən azca payı – nöyüt, duz, kibrit və s. qonşuları ilə paylaşırdı.

«O yemək hazırlayanda bir payı mütləq kənara qoyur, ona əl vurmurdu, – deyə Fikrət Qədimov mənə danışırdı. – Səbəbini soruşanda o cavab verirmiş ki, birdən qəfil qonağım gələr, bəs onda mən onun qarşısına nə qoyaram? Qonağı mütləq yedirdib-içirtməli idi».

Əliyevlərin qonşuları əmin-amanlıq illərində kasıb yaşayırdılar, müharibə başlayandan, kişilər cəbhəyə yollanandan sonra isə bəzi ailələrin vəziyyəti çox acınacaqlı oldu. İzzət xanımın qızı Şəfiqə xanım ömrünün sonunadək yaddaşında

qalacaq belə bir epizodu xatırlayır. Əliyevlərin qonşuluğunda Xurşud adlı cavan gəlin yaşayırdı. Onun 5 uşağı vardı, əri isə cəbhədə vuruşurdu. İsti yay gecələrinin birində Xurşudgilin evindən uşaq ağlamasının səsi gəldi. Uşaq ovunmaq bilmirdi. İzzət xanım dözə bilmədi, həyətə çıxıb, yavaşca qonşusunu çağırdı: nə olub, uşaqlar niyə ağlayırlar? Biçarə qadın cavab verdi: «Mən nə edə bilərəm. Onlar acından yata bilmirlər».

İzzət xanım evə döndü, lavaşın arasına xeyli pendir qoyub qonşuya apardı. Şəfiqə gördü ki, anası çarpayının qırağına oturdu, iki əli ilə başını tutub fikrə daldı. Xurşudun uşaqlarının səsi kəsildi, ancaq İzzət xanım səhərədək yata bilmədi. Şəfiqə səhər gözünü açanda anasını elə kədərli vəziyyətdə oturmuş gördü. O gündən öz ailəsinin qayğısının üstünə biri də gəldi – Xurşudun uşaqlarını dolandırmaq[32].

1943-cü ildə atası vəfat edəndən sonra Heydər ailənin başçısı oldu. O, demək olar ki, özünə xərcləmədən, bütün maaşını anasına verirdi. Naxçıvan sakinlərinin çoxusu yaxşı xatırlayır ki, bu cavan oğlan yaşıdlarından ciddiliyi və təmkini ilə seçilirdi, odur ki, onunla zarafat eləmək hər kəsin hünəri deyildi.

«O vaxtlar qapıya zəng yox, sürgü, taqqılbab vurardılar, – deyə Aqil Əliyev xatırlayır. – O qapını döyən kimi, hamı bilirdi ki, Heydər gəlib. O dəqiqə, sanki qurbağa gölünə daş atılırdı, həyətdəki uşaqlar hərə bir tərəfə çəkilib sakitləşirdilər. Qonşumuz Həbib kişi deyirdi:

– Heydər qapını döyəndə uşaqlar qorxudan girməyə siçan deşiyi axtarırlar.

O, NKVD-də işləyəndə özünü elə aparırdı ki, hətta milis işçiləri də ondan çəkinirdilər. Heydəri görəndə özlərini yığışdırırdılar».

Doğrudur, o, ailə üzvləri arasında, yaxın dostların əhatəsində mülayimləşir, özünü səmimi və mehriban aparırdı. «Belə anlarda o ən arzuolunan, ağıllı, zarafatcıl, şən, ürəkdən gülməyi bacaran müsahib olurdu, – deyə Heydər Əliyevin bacısı Rəfiqə xanım xatırlayır. – Onun mavi gözləri sevinclə parıldayırdı... Qardaşımla aramızda böyük yaş fərqi vardı. Adətən belə yaş fərqi insanlar arasında uçurum yaradır. Ancaq biz çox mehriban idik. Tez-tez ədəbiyyatdan söhbətlər edirdik. Bununla yanaşı, o, mənim üçün



həmişə böyük olaraq qalırdı. Qardaşım gözəl qəlbli, ağıllı və savadlı idi. O, bizim qarşımızda yeni üfüqlər açaraq, inkişafımıza güclü təsir göstərmişdir. O nədən danışırsa danışsın, bizə çox maraqlı və cəlbedici görünürdü».

«Heydər Əliyev gənc olmasına baxmayaraq, təmkinli idi. Söhbət edəndə həmişə mənalı danışardı, boşboğazlığı xoşlamırdı. Hələ o vaxtlar onda müsahibini axıradək dinləmək mədəniyyəti var idi. Heç vaxt ucadan gülməzdi. Həmişə ədəb-ərkanı gözləyərdi. Özündən böyüklərlə münasibət saxlayanda xalqımıza xas olan adət-ənənələrdən kənara çıxmazdı. Heydər Əliyev çox qürurlu insan idi. Lakin ədalı deyildi»[33].

*(İsa Məmmədovun xatirələrindən).*

İbrahim İsmayılov xatırlayır ki, işi başından aşmasına baxmayaraq Heydər Əliyev əvvəlki kimi çox mütaliə edirdi: həm bədii ədəbiyyatı, həm də ixtisası ilə bağlı kitabları. Dövlət Təhlükəsizliyi Komissarlığının kitabxanasında kəşfiyyat və əks-kəşfiyyat məsələlərilə bağlı «Tamamilə məxfi» qrifi altında xidməti istifadə üçün kitablar saxlanılırdı. Əməkdaşlara bu kitablar bir şərtlə verilirdi ki, onları komissarlığın binasından kənara çıxarmasınlar. Ona görə də Heydər Əliyevin kabinetində gecədən xeyli keçənədək işıq yanırdı.

İ.İsmayılov danışır ki, «onunla görüşəndə əsasən işlə bağlı söhbətlər edirdik, o vaxtlar mən Moskva Dövlət Universitetinin Bakı filialının hüquq fakültəsində qiyabi oxuyurdum, öyrəndiklərimi, xüsusilə də mülki və cinayət hüququ üzrə, sübutlar nəzəriyyəsi üzrə biliklərimi onunla bölüşürdüm. Biz həm də idarələrimizdən – NKVD və prokurorluqdan keçən işləri müzakirə edirdik. Heydər daima öz dünyagörüşünü genişləndirməyə çalışırdı. Məsələn, o tez-tez məni sorğu-suala tuturdu ki, tutulub-saxlanılan adamın istintaqına necə yanaşmalı, cinayət işi üzrə sənədlər necə tərtib olunmalıdır. Mənim təcrübəm ondan çox idi. Əlbəttə ki, o da mənə öz işindən-gücündən danışırdı. Ümumiyyətlə, bizim aramızda belə bir özünəməxsus bilik mübadiləsi mövcud idi. Ona görə də bir-birimiz üçün maraq kəsb edirdik. Hər gün görüşsək də, görüşlərimiz darıxdırıcı, cansıxıcı olmurdu».

Naxçıvanda işlədiyi illərdə Heydər Əliyevin iki yaxın dostu vardı: İbrahim İsmayılov və onun gələcək yeznəsi İsmayıl Qası-

mov. O həm də orqanlarda çalışan anasının qardaşı oğlu Rzaqulu
Quliyevlə çox yaxın idi. Bütün asudə vaxtlarını və bayram günlə-
rini onlar bir yerdə keçirirdilər. Bir qayda olaraq 7 noyabr və ya
1 May bayramlarında, eləcə də Yeni il bayramında Heydərgilin
evində toplaşırdılar. İbrahimgildə yığışmaq olmazdı, çünki dindar
valideynləri spirtli içkilərdən istifadə etməyə icazə vermirdilər.
Əliyevlər ailəsində isə başçı Heydər idi, ona görə də heç kim
onun sözündən çıxmırdı.

«İzzət xala kabab, dolma bişirirdi, tavada ət qızardırdı. Əsasən
tut arağı, ya da şərab içirdik. O vaxtlar Naxçıvanda yaxşı şərab
və konyak hazırlayırdılar, özümüzün konyak kombinatımız vardı.
Moskva arağı sonralar meydana gəldi. Tut arağı isə həmişə vardı
və onu çox sevirdilər. Əlbəttə, qədərində içirdik, heç birimiz
spirtli içkilərə aludəçilik göstərmirdik.

O zaman evlərdə radioqəbuledicilər yox idi, əvəzində səsucal-
dan cihazlar vardı. Müharibənin sonuna yaxın elektrik meydana
gəldi. O vaxta qədər isə işıq yalnız müəssisələrə verilirdi. Əhali
isə məişətdə neft lampasından istifadə edirdi. Buna baxmayaraq,
hamımızın əhval-ruhiyyəsi yüksək idi: sağlıqlar deyir, zarafatlaşır,
gülüşürdük. Mahnı da oxuyurduq».

*(İbrahim İsmayılovun xatirələrindən).*

1947-ci ildə kütləvi tələbat mallarının pərakəndə qiymətləri
ilk dəfə aşağı salındı. Bundan sonrakı 7 il ərzində, adətən martın
1-nə bu, hər il təkrar olunurdu. 1946-cı ildən 1950-ci ilədək çö-
rək üç dəfə, ət isə 2,5 dəfə ucuzlaşmışdı, «Məhz elə bu vaxt
dövlət ideologiyasında möhkəmlənmiş və dövləti də möhkəmlən-
dirən sovet kütləvi təfəkkürünün spesifik stereotipləri meydana
çıxdı: sabaha inam, həyatın daha da yaxşılaşacağına əminlik»[34].
Dolanışıq, gün-güzəran, həqiqətən də yaxşılaşırdı. 1947-ci ilin
dekabrında ərzaq kartoçkaları ləğv edildi, pərakəndə ticarət bərpa
edildi, iqtisadiyyatın və kənd təsərrüfatının dirçəlmə dövrü başla-
dı. Bütün bunlar insanların, o cümlədən bəzən yaxın dostlarının
əhatəsində bir qədər «asudə nəfəs almağı» özünə rəva bilən qəh-
rəmanımızın da əhval-ruhiyyəsində öz əksini tapırdı.

Yay ərzində dostlar bir neçə dəfə təbiətin qoynuna çıxırdılar.
Əsasən Badamlının yaxınlığındakı Arınc kəndinə gedirdilər.
Arıncda valehedici içki – çəhrayı şərab hazırlayırdılar. Çox zəif
olduğundan onu limonad kimi içərdilər.



Bəzən Heydərin tanışları yaşayan Arzabürd kəndinə gedib qır-
qovul, kəklik ovlayırdılar. Bir dəfə Yeni il bayramı ərəfəsində
dostları Heydərə ceyran əti göndərmişdilər. «İzzət xala həmin ət-
dən kabab bişirdi. Onun dadı hələ də damağımdadır», – deyə İb-
rahim müəllim xatırlayır.

Bir qədər sonra 40-cı illərin sonunda onların kampaniyasına
Naxçıvan Vilayət Komsomol Komitəsinin birinci katibi İsa Məm-
mədov da qoşuldu. 70-ci illərin əvvəlində Heydər Əliyev İsa
Məmmədovu Lənkəran şəhər partiya komitəsinin birinci katibi
təyin edəcək, rayon bütün Sovet İttifaqında astronomik həcmdə
tərəvəz məhsulu istehsalı ilə şöhrətlənəcəkdir.

Sonralar o, Heydər Əliyevlə birlikdə MK-da işləyərək, res-
publikanın kənd təsərrüfatına nəzarət edirdi.

– O vaxtlar Heydəri mən yox, vilayət komitəsində avtomo-
billərin mövcudluğu daha çox maraqlandırırdı, – deyə İsa müəl-
lim gülür. – Onun xidməti maşını yox idi, vilayət komitəsinin qa-
rajındasa iki maşın saxlanılırdı: Amerika istehsalı olan «Villis» və
«Pobeda» maşını. O bəzən iş dalınca uzaq rayonlara getmək la-
zım olanda məndən maşın xahiş edirdi. Müharibə illərində çe-
kistlər nəqliyyat kimi daha çox atdan istifadə edirdilər.

Heydər Əliyev həqiqətən yaxşı at çapırdı, çıxışlarının birində
o bunu özü də etiraf etmişdi.

«Bir vaxtlar mən DTK-da işləyəndə, avtomobilimiz yox idi, iş
dalınca çox vaxt at belində getməli olurduq. Mən zabit idim.
Yaxşı atlarımız vardı. Atı minib bir kənddən o birinə gedirdik,
öhdəmizə düşən işi yerinə yetirməliydik. Ona görə də mən at
çapmağı yaxşı öyrənmişdim»[35].

O illərdə Naxçıvanda ad günlərini qeyd etmək adət deyildi.
Ancaq bu məsələyə Heydər Əliyevin öz münasibəti vardı. O,
dostlarına deyirdi ki, hər bir adamın həyatında bu, əlamətdar ha-
disədir, odur ki, ad günlərini qeyd etmək lazımdır.

«Bir dəfə biz Heydərin ad gününü bizim evimizdə, Şərur ra-
yonunun Aralıq kəndində keçirirdik, – deyə İsa Məmmədov bizə
söhbət açır. – Mən, anam, atam və o. Sonra isə yadigar qalsın
deyə şəkil çəkdirdik. Şəklin altında Heydər rus dilində bu sözləri
yazdı: «Əziz dostum və qardaşım İsaya Heydərdən». O elə o

vaxtdan rus dilini bizdən yaxşı bilirdi. Rus dilində təkcə danışmır, həm də yazırdı».

– Bəs qızlarla arası necə idi? – deyə mən İbrahim İsmayılovdan və İsa Məmmədovdan soruşdum.

– Çox yaxşı, – deyə müsahiblərim təbəssümlə cavab verdilər. – Heydər qamətli, yaraşıqlı, gözəl oğlan idi, qızların ürəyinə od salırdı. Ancaq o, evlənmək barədə düşünmürdü.

Gənclik illərinin dostları xatırlayırlar ki, Heydər dalaşmağı, söyüşməyi xoşlamırdı, ondan kobud söz eşidən olmayıb. Onun bircə «zəif cəhəti» vardı: cavan oğlan gözəl geyinməyi xoşlayırdı. «Yaxşı yadımdadır, biz ona diaqonal parçadan tünd göy-qara rəngli kostyum sifariş vermişdik. – Gənclik illərinin xatirələrindən İbrahim müəllimin üzünə təbəssüm qonur. – O vaxtlar diaqonal kostyumlar dəbdə idi. Kostyumu bütün Naxçıvanda məşhur olan dərzi Həsən kişi tikmişdi. Onun oğlu Xudaverdi Hənifəyev sonralar Nazirlər Kabinetində və Mərkəzi Komitədə işləyirdi. Biz bir ay kostyumun «primerka»sına gedib-gəldik. Hər dəfə Heydər bir nöqsan tapıb, onu yenidən düzəltməyə məcbur edirdi. Nəticədə misilsiz bir kostyum alındı».

Qardaşının geyinməyi xoşlamasından Aqil Əliyev də söhbət açırdı:

«Qardaşım gözəl geyinməyi sevirdi. Onun Naxçıvanda da, Bakıda da xüsusi dərziləri vardı. Çox vaxt evdə işləyən rus dərziyə kostyumlar tikdirirdi. O, Malakan bağının arxa tərəfindəki həyətdə yaşayırdı. Mən də çox vaxt kostyumlarımı ona tikdirirdim. Həmin dərzi Heydərin bütün paltarlarını – həm hərbi, həm də mülki paltarlarını tikirdi. O digər dərzilərdən onunla fərqlənirdi ki, özü biçirdi, özü də tikib, axıra çatdırırdı. Heydər fabrikdə tikilən hazır kostyumları bəyənmirdi.

Hazır geyim – palto, xarici kostyumlar 1951-ci ildən meydana gəlməyə başladı. Ancaq hamı əsasən sifariş verib tikdirirdi. Yadımdadır ki, 1951-52-ci illərdə Bakıda aşağıya doğru enlənən İtaliya istehsalı olan paltolar geyməyə başladılar. 30-cu illərdə isə aşağısı gen biçilmiş şalvarlar dəbə düşmüşdü. Heydər də balağı 35 santimetr olan belə şalvarlardan tikdirmişdi».

Uşaqlıqdan və gənclik illərindən onu tanıyanların hamısı qeyd edirlər ki, Heydər mülayim, üzüyola xarakteri ilə seçilirmiş, de-



mək olar ki, heç vaxt dalaşmazmış. Ancaq mən İbrahim İsmayılovdan söz çəkə bildim: bir dəfə onlar da tutaşıbmışlar. Özü də bu o vaxt baş verib ki, onlar ikisi də işləyirdi.

– Bu hadisə 1946-cı ildə baş verib. Müharibə qurtarsa da, Naxçıvanda çoxlu miqdarda hərbi hissələr qalmaqda idi. Əsgər və zabitlərin çoxusu məzuniyyət vaxtı özlərini açıq-saçıq, ədəbsiz aparır, şəraiti, xalqımızın mentalitetini nəzərə almırdılar. Bir dəfə biz kinoteatrın qarşısında şahidi olduq ki, hərbi qulluqçular yerli qızlara sataşırlar. Təbii ki, biz qızları müdafiəyə girişdik. Mən idim, Heydər idi, bir də dostlarımızdan bir-ikisi. Axırı əsl dalaşmayla bitdi.

Başqa bir əhvalat: Heydərlə Rzaqulu məni Bakıya ezamiyyətə yola salırdılar. Bilet almaq lazım idi, biletsə yox idi. Onlar məni irəli itələyirdilər ki, kassaya yaxınlaşım. Kassanın qarşısında isə böyük növbə vardı. Mənim qarşımda rus kapitan dayanmışdı. O, kobudcasına üstümə çəmkirdi: «Hara soxulursan, yeldaşi?» Onun yoldaş sözünü bu cür ikrahla təhrif etməsi məni lap hövsələdən çıxardı. Onu vurdum. O mənim cavabımı vermək istədisə də Heydərlə Rzaqulu onu tutub saxladılar və milli hisslərimizi təhqir etdiyinə görə milis məntəqəsinə apardılar.

Qızıl Ordunun əsgər və zabitlərinin Azərbaycanda törətdikləri azğınlıq barədə Azərbaycanın tanınmış tarixçisi E.İsmayılov müharibədən sonrakı illərə dair tədqiqatlarında yazır:

«O illərin arxiv sənədlərinin tədqiqi zamanı belə təsəvvür yaranır ki, müharibədən sonrakı ilk illərdə hərbçilər özlərini vahid ölkənin bir parçasındakı kimi yox, zəbt olunmuş ərazidəki kimi aparırdılar. Bu mənada M.C.Bağırovun 1947-ci ilin iyununda Zaqafqaziya hərbi dairəsinin komandanı, marşal Tolbuxinə müraciəti səciyyəvidir. Həmin müraciətdə deyilir: «Qarət və soyğunçuluğun arası kəsilmir... Rayon təşkilatlarından kütləvi şikayətlər daxil olur. Bu gün Azərbaycan KP Samux Rayon Komitəsi katibindən aşağıdakı məzmunda şifrovka almışıq: «Kirovabad qarnizonunun hərbi hissələrinin ayrı-ayrı döyüşçüləri avtomobillərlə, hətta tanklarla belə Kirov və Mikoyan adına kolxozların bostanlarına, bağlarına hücum edir, kolxozların meyvə-tərəvəzlərini talan və məhv edir, rəhbər işçiləri və kolxozçuları döyürlər». Azərbaycan SSR-in daxili işlər naziri Yaqubovun tərtib etdiyi arayışda isə

Azərbaycan ərazisində hərbi qulluqçuların yalnız 1946-cı ilin may-iyun aylarında törətdikləri 36 cinayət hadisəsi sadalanır»[30].

Beləliklə, hərbçilərin öz azğınlıqları ilə təbdən çıxardıqları Heydərin və onun dostlarının savaşması onları müsbət cəhətdən xarakterizə edir. Hər iki halda onlar kişi kimi hərəkət edərək «silahlı adam»ın qarşısından qaçmamışlar.

* * *

1949-cu ilin mayında Heydər Əliyevin 26 yaşı tamam olduğu ərəfədə Bakıdan onun gələcək xidməti karyerası üçün vacib, əhəmiyyətli olan bir xəbər gəldi. Baş leytenant Əliyevi Leninqrada SSRİ DTN operativ rəhbər heyətin yenidən hazırlanması məktəbində oxumağa göndərirdilər. Gənc zabit bu xəbərdən həm sevindi, həm də həyəcanlandı. Gəl bir həyəcanlanmasın, haqqında yalnız kitablardan məlumat aldığı, dünyada muzeyləri və parkları ilə məşhur olan bu şəhərdə bir ildən də artıq qalacaqdı. Bundan başqa, Heydər hələ uşaqlıqdan biliklərə qeyri-adi hərisliklə, acgözlüklə yanaşması ilə yaşıdlarından fərqlənirdi. Və bu «hərislik» müharibədən sonra daha da gücləndi: o, yarımçıq qalmış təhsilini davam etdirmək, ali məktəbə daxil olub ikinci, mülki ixtisasa sahib olmaq arzusundaydı. Ancaq bütün dünyada ictimai-siyasi şəraitin dəyişməsi və «soyuq müharibə»nin başlanması orqanlarda işləyənlərdən xüsusilə ciddi biliklər tələb edirdi, odur ki, qarşıdakı təhsilə Heydər Əliyev məsul partiya tapşırığı kimi baxırdı.

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında işlədiyi ilk illər, onun həyatının Naxçıvan dövrü haqqında hekayətimi başa çatdırarkən qeyd etməliyəm ki, bu səkkiz il ona həm mütəxəssis kimi, həm də bir insan kimi çox şeylər verdi. Ağır sınaq illərində o xalqı ilə birlikdə, xalqın içərisində oldu. O, həmvətənlərinə, ən əvvəl isə özünə sübut etdi ki, hətta NKVD və DTK kimi ciddi və hərdən qəddar, amansız olan cəza orqanlarında çalışmaqla da əsl insan olaraq qalmaq, insanların gözünün içinə çəkinmədən, utanmadan, dik baxmaq olar. Çünki onlarla insan sərt rəsmi qadağalara baxmayaraq, məhz onun müdaxiləsi və köməyilə ölüm düşərgələrindən, sürgünlərdən xilas olmuş, doğma torpaqlarında rahat həyata qaytarılmışdı. Bu isə, siz də mənimlə razılaşarsınız ki, asan məsələ deyildi.



1 Urud M. Urud. Bakı, 2000. S.135.
2 İrfan Ülkü. Qırmızı ulduzdan ayparayadək. Bakı, 1994. S.15.
3 Yenə orada. S.16.
4 Караулов А. Вокруг Кремля. М., 1993. С.214.
5 Yenə orada.
6 Azərbaycan tarixi, 7 cilddə, cild 7. Bakı, 2003. S.91.
7 Yenə orada. S.26-27.
8 Мунчаев Ш., Устинов В. История советского государства. М., 2002. С.451.
9 Yenə orada.
10 Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. Баку, 2003. С.153-155.
11 Xalqa, vətənə, dövlətə sədaqət. Bakı, 1997. S.19-20.
12 İrfan Ülkü. Qırmızı ulduzdan ayparayadək. Bakı, 1994. S.15.
13 Шевякин А. Загадка гибели СССР. М., 2003. С.45.
14 Красильников Р. КГБ против МИ-6. М., 2000; Бобков Ф. КГБ и власть. М., 2003; Дерябин П. Стражи Кремля. От «охранки» до 9 управления КГБ. М., 2000; Шебаршин Л. Рука Москвы. М., 2002; Крючков В. Личное дело. М., 2003; Бакатин В. Избавление от КГБ. М., 1992; Кеворков В. Тайный канал. М., 1997; Дроздов Ю. Вымысел исключен. М., 1997; Медведев В. Человек за спиной. М., 1994; Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999; Семанов С. Андропов.М., 2003; Леонов Н. Лихолетье. М., 1997; Волкогонов Д. Семь вождей, в 2-х кн. М., 1995-1996; Судоплатов П. Спецоперации. Лубянка и Кремль. 1930-1950 годы. М., 1997; Чекисты Азербайджана. Баку, 1981; Гусейнбейли А. Интервью с генералом разведки. Баку, 1997 и др.
15 Власть. 2003. № 50. С.44-45.
16 Андриянов В., Мираламов Г. Гейдар Алиев. М., 2005. С.38-39.
17 Крючков В. Личное дело. М., 2003. С.364-379.
18 Мунчаев Ш., Устинов В. История советского государства. С.470-472.
19 Həsənli C. Cənubi Azərbaycan: soyuq müharibənin başlanması. Bakı, 2003.
20 Yenə orada. S.420-421.
21 Шариф А. Отсчеты жизни Азиза Алиева. Зеркало. 2004. 17 апреля. С.27.
22 Həsənli C. Cənubi Azərbaycan: soyuq müharibənin başlanması. S.78.
23 Azərbaycan tarixi, 7 cilddə. cild 7. S.99.
24 Мамедов А. Час «икс» переворота М.Дж.Багирова и Л.П.Берии. Баку, 2005. С.189.
25 Həsənli C. Cənubi Azərbaycan: soyuq müharibənin başlanması. S.417.
26 Хоскинг Дж. История Советского Союза. Смоленск, 2001. С.275.
27 Валянский С., Калюжный Д. Русские горки: конец российского государства. М., 2004. С.246.
28 Исмайлов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. С.165.
29 Мамедов А. Час «икс» переворота М.Дж.Багирова и Л.П.Берии. С.80.

[30] Исмайлов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. C.171-172.
[31] Xalqa, vətənə, dövlətə sədaqət. Bakı, 1997. s.20.
[32] Əliyeva Ş. Mənim anam, Bakı, 2002. S.53.
[33] Məmmədov İ. Heydər Əliyev mənim həyatımda. Azərbaycan. 2003. 13 may.
[34] Валянский С., Калюжный Д. Русские горки: конец российского государства. C.243.
[35] Respublika, 2002. 17 avqust.
[36] Исмайлов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. C.261-262.



*Üçüncü fəsil*

# Dövlət təhlükəsizliyi orqanlarında keçdiyi həyat məktəbi

## «Xidməti vəzifədə irəli çəkilməyə layiqdir»

*(Baş leytenant H.Ə.Əliyevin xidməti xasiyyətnaməsindən)*

Müharibə qurtaran kimi – 1945-ci il iyunun 20-dən iyulun 10-na qədər – Heydər Əliyev operativ işçilərin çekist hazırlığının artırılması üzrə Azərbaycan XDTK yanında qısamüddətli kurslarda təlim keçmişdir. Kursları bitirmək haqqındakı sənəddə aşağıdakı qiymətlər göstərilmişdir:

«Kapitalist ölkələri kəşfiyyatları haqqında ümumi məlumat» – əla; «XDTK orqanlarının xarici kəşfiyyatların təxribatçılıq fəaliyyətinə qarşı mübarizəsi» – əla; «XDTK orqanlarının agentura-əməliyyat işi» – əla; «XDTK orqanlarının istintaq işi» – əla.

Leninqrad məktəbini qurtaranda da H.Əliyev bu cür yüksək qiymətlər və əla xasiyyətnamə alacaq. Heydər Əliyevin DTK üzrə keçmiş həmkarı, Rusiya Federasiyasının prezidenti Vladimir Putin, 2001-ci ildə Bakıda rəsmi səfərdə olarkən Azərbaycan dövlətinin başçısına orijinal hədiyyə təqdim edəcək – baş leytenant Əliyevin SSRİ DTN məktəbini bitirməsi barədə sənədin surətini. O bütün altı imtahanın hamısından yalnız «əla» qiymətlər almışdır. SSRİ DTN Leninqrad məktəbinin rəisi, polkovnik Pinçukun imzaladığı xasiyyətnamədə deyilir ki, baş leytenant H.Ə.Əliyev məktəbdə oxuduğu müddətdə «özünü yalnız müsbət tərəfdən göstərmişdir. Dərslərə ciddi yanaşmışdır. Tədris materialının öyrənilməsinə ciddi yanaşmış, inadla işləmişdir... Oxuduğu

müddət ərzində dərs əlaçısı olmuş, məktəbin rəisi tərəfindən ona təşəkkür elan edilmiş, adı əlaçıların şərəf lövhəsinə yazılmışdır».

Professional hazırlığa qaldıqda isə xasiyyətnamədə göstərildiyi kimi «yoldaş Əliyev... operativ məsələlərin həllində əsas mahiyyəti bacarıqla üzə çıxardır, əməliyyat şəraitində sərbəst və düzgün hərəkət edir, doğru qərarlar qəbul edir, əməliyyat sənədlərini dolğun və əsaslandırılmış şəkildə tərtib edir».

Bu xasiyyətnamədən həm də bəlli olur ki, Heydər Əliyev məktəbdə ictimai işlə məşğul olub. Belə ki, o, SSRİ Ali Sovetinə seçkilər zamanı Leninqrad seçki məntəqəsində təşviqatçı işləmişdir. Gənc kursantın istirahət günlərini bu gözəl şəhərin teatr və muzeylərində, saatlarla davam edən gəzintilərdə keçirdiyinə şübhəm qalmır. Uzun illərin ayrılığından sonra o yenidən gənclik çağlarının şəhəri ilə görüşəndə ona olan məhəbbətini gizlətməyəcək: «Sankt-Peterburq mənə doğma və əzizdir. Bu gün mən bu şəhərdə təhsil aldığım illəri, sonrakı həyatımda və siyasi fəaliyyətimdə böyük rol oynamış həmin dövrü dərin minnətdarlıq hissi ilə xatırlayıram»[1].

*2002-ci ilin iyununda Azərbaycan prezidenti Sankt-Peterburqda Kamenoostrovsk prospektində dahi Nizaminin abidəsinin açılış mərasimində Vladimir Putinlə birlikdə iştirak etmək üçün bu şəhərə gəlir. Aeroportdan prezident korteji «Astoriya» mehmanxanasına istiqamət götürür. Maşından düşən Heydər Əliyev mehmanxananın qarşısındakı meydana göz gəzdirir və onu müşayiət edənlərin gözləmədiyi halda, küçə ilə «Astoriya»dan əks istiqamətdə addımlamağa başlayır. Hamı çaşqınlıqla bir-birinə baxıb onun arxasınca gedir, o cümlədən də biz, jurnalist briqadasının üzvləri. Məlum olur ki, Leninqradda uzun illərdən bəri olmamasına baxmayaraq, Heydər Əliyev dərhal yadına salır ki, həmin meydanın yaxınlığında 1950-ci ildə SSRİ DTN-in məktəbi olub. Təbii ki, heç kəsin, hətta yüksək qonağı qarşılayan peterburqluların belə məktəbin harada yerləşdiyindən xəbərləri yox idi – yarım əsrdən çox vaxt ötmüşdü! Ancaq Heydər Əliyev Qoroxovo küçəsini də, ömrün yaddaşdan silinməyən bir ilini keçirdiyi 6 nömrəli evi də asanlıqla tapdı. Əlbəttə, məktəb çoxdan başqa yerə köçmüşdü, binada hansısa dövlət müəssisəsi yerləşirdi. Buna baxmayaraq, Heydər Əliyev içəri daxil oldu. Bir neçə dəqiqədən sonra bayıra çıxanda xəfif, bir qədər də qəmli təbəssümlə bizə söylədi: «Düz əlli il bundan qabaq mən bu binada oxumuşam. Amma indi burada hər şey tamam başqa cürdür».*



*Artıq Azərbaycan DTK sədrinin müavini olduğu vaxtda polkovnik Əliyev yenidən rəhbər operativ heyətin ixtisasartırma kurslarına gedəcək, ancaq bu dəfə Moskvaya, F.Dzerjinski adına ali DTK məktəbinə. Qırx üç yaşında o, parta arxasında əyləşəcək, məqbul və imtahanlar verəcək və yenə də məktəbi qurtarmaq haqqında aldığı şəhadətnamədə yalnız əla qiymətlər olacaqdır. Hətta respublika təhlükəsizlik orqanlarının başında durduğu vaxtlar, general-mayor rütbəsində olan Əliyev SSRİ DTK-sının ali məktəbləri ilə əlaqəni qırmayacaq, ancaq bu dəfə mühazirəçi qismində, gənc çekistlərlə zəngin, qiymətsiz təcrübəsini bölüşmək, onun rəhbərliyi altında Azərbaycanda keçirilən ən uğurlu əməliyyatlar haqqında danışmaq üçün. 1968-ci ildə Kiyevdə DTK-nın Ali Məktəbini bitirmiş Arif Zeynalovun söylədiyinə görə, Heydər Əliyevin qoşa saatlarına az qala bütün institut yığılarmış.*

Heydər Əliyevə Leninqrad məktəbi tərəfindən verilmiş 1950-ci il 21 iyun tarixli xasiyyətnamə bu sözlərlə bitir: «Xidməti vəzifədə irəli çəkilməyə layiqdir».

* * *

Heydər Əliyev Leninqraddan qayıdanda bütün ailə üzvləri üçün hədiyyələr gətirmişdi. Qonşuları da unutmamışdı. Ana sevimli oğlunun qayıtmasından fərəhini gizlədə bilmirdi. Heydər İzzət xanım üçün tünd göy rəngdə qəşəng markizet parça alınışdı. Qızının xatırladığına görə o, bu parçadan özünə milli üslubda kostyum tikdirəcək – büzməli uzun yubka və kofta. Bu yaraşıqlı paltar ömrünün sonuna kimi onun ən çox sevdiyi geyimi olacaqdır.

Axşam o, evdəkilərə uzaq şimal şəhərində gördüyü qəribə şeylərdən, rastlaşdığı insanlardan, müəllim və kursantlardan xeyli danışdı. Ana məhəbbət dolu baxışlarını bərkimiş, kişiləşmiş, «hökumət» yeməyindən bir az da sınıxmış oğlundan ayırmır, onu narahat edən sualı dilinə gətirməyə ürək etmirdi: «Çox qalacaqsan, yoxsa yenə gedəcəksən?». Ancaq oğlu sanki bu sualı anasının baxışlarından oxumuşdu: «Hələlik məni əvvəlki vəzifəmə təyin ediblər. Sonra da görək nə olur, – o anasının çiyinlərini ehmalca qucaqlayıb əlavə etdi: – Ana, sən narahat olma, biz daha heç vaxt ayrılmayacağıq».

O sözünün üstündə durdu. Bir aydan sonra Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizliyi Nazirliyinin mərkəzi aparatına keçirilir, 2-ci əks-kəşfiyyat şöbəsinin 6-cı bölməsinə rəis müavini təyin edilir. O, Bakıda ev tutur, sonra gəlib anasını və kiçik bacısını özü ilə aparır.

«O, Bakıya köçəndə hamını öz yanına apardı. Təkcə Şəfiqə o vaxt artıq ailə qurmuşdu, Cəlal, Aqil, Rəfiqə isə Heydərin yanında idilər. – Süleyman Əliyev xatırlayır. – İzzət nənə Naxçıvandan ötrü çox darıxırdı, tez-tez evlərinə gəlirdi. Bizim yanımıza, Nora-şenə də baş çəkirdi, o vaxt avtobus artıq Abrakunisə qədər işləyirdi. 1954-cü ildə mən də Bakıya gəldim. İzzət nənə mənə təzə ayaqqabı, pal-paltar alıb evimizə yola saldı».

Təxminən iki il sonra Heydər Əliyevə həyatında birinci dəfə mənzil verilir, köhnə Yerevan döngəsində, indiki 6 saylı məktəbin yanında. Bütün ailə bu kiçik ikiotaqlı mənzilə yığışır: anası, qardaşları Aqil, Cəlal, bacısı Rəfiqə xanım. Heydər evlənəndən sonra qardaşlar mənzil kirayə eləyib köçürlər, anası və Rəfiqə xanım isə cavan ailə ilə bir yerdə qalırlar.

Əfsuslar ki, anaya doyunca nəvə əzizləmək, sevimli oğlunün vəzifə yüksəlişinə ürək dolusu fərəhlənmək qismət olmadı. Bakıya köçəndən bir neçə il sonra o ağır xəstələnir və 1957-ci ilin oktyabrında 62 yaşında ürək çatışmazlığından vəfat edir. Müharibənin əziyyətlərindən, ağır həyatdan, uşaqların qayğısını çəkməkdən üzülmüş ürək davam gətirə bilmir.

*Dostlarının və yaxınlarının söylədiklərinə görə Heydər Əliyev anasına qarşı çox mehriban və qayğıkeş idi, bir sözünü iki eləməzdi, onun dünyagörüşü və həyat tərzindəki xüsusiyyətlərə hörmətlə yanaşırdı. Məlumdur ki, İzzət xala olduqca dindar qadın idi, məscidə gedirdi, oruc tutub namaz qılırdı. Şəfiqə xanım xatırlayır ki, anası heç vaxt oğlanlarının qarşısına başıaçıq çıxmazdı: «Hətta xatirimdədir, bir dəfə mən evdə anamın başını darayırdım. Qəflətən qapı döyüldü. Anam Heydər qardaşımın gəldiyini duyub tez kəlağayısını başına örtdü»[2].*

*Naxçıvanda İzzət xanım Ələviyyə adlı qonşusu ilə çox yaxın idi. Ələviyyə seyid qızı idi, ruhani təhsili almışdı. İzzət xanım onu tez-tez evlərinə söhbətə dəvət edirdi. Nəsə ləzzətli bir şey hazırlayar, samovara od salıb rəfiqəsini çağırardı. O da gələndə özü ilə Quran gətirərdi, çay süfrəsindən sonra avazla müqəddəs surələri oxuyardı. İzzət xanım iri ala gözlərini saralmış vərəqlər üzərindəki ərəb yazılarının müəmmalı naxışlarına dikib diqqətlə qulaq asardı. Ramazan günlərində İzzətlə Ələviyyə hərdən səhərə kimi Quran oxuyar, ibadət edərdilər.*

*Bakıda oğlunun yanında yaşayanda da İzzət xanım adətini pozmurdu: əvvəlki kimi oruc tuturdu, namaz qılırdı. O vaxt H.Əliyev Dövlət Təhlükəsizliyi Komitəsinin məsul əməkdaşı idi. Komitənin fəaliyyət istiqamətlərindən birini dini mövhumata qarşı mübarizə təşkil etsə də o, anasının dindarlığına hörmət və ehtiramla yanaşırdı.*

*1956-cı ilin mayında İzzət xanımı, o vaxt indiki Uroloji Klinikanın binasında yerləşən «Leçkomissiya»nın 1 saylı xəstəxanasına qoydular. DTK veteranı Əkrəm Səlimzadə Heydər Əliyevin həyatının bu ağır günlərini belə yada salır:*

*«Adətən, o, axşam saat 9-a, hətta 10-a qədər Komitədə olurdu, sədrin getməsini gözləyirdi, ya onunla bir yerdə, ya da ondan sonra gedirdi. İndi isə saat altıda, yeddiyə işləmiş maşına oturub xəstəxanaya yollanırdı. Deyilənə görə, o, hər gün gecədən xeyli keçənə qədər orada olurdu. İzzət xanım onun qolları üstündə keçinib. O, anasını axır mənzilə ləyaqətlə, müsəlman adətilə yola saldı».*

## Şərq istiqamətində

Baş leytenant Heydər Əliyevin təyin olunduğu Azərbaycan DTN 2-ci şöbəsinin altıncı bölməsi «şərq istiqamətinə» baxırdı, yəni Türkiyə və İrana qarşı əks-kəşfiyyat əməliyyatlarının aparılması ilə məşğul olurdu. 40-cı illərin əvvəlləri – 50-ci illərin axırlarında Türkiyə və İran «soyuq müharibə» başlanandan bəri Stalin tərəfindən Sovet İttifaqının «1 nömrəli düşməni» elan edilmiş Qərbin, xüsusən də ABŞ-ın tam təsiri altına keçmişdi.

SSRİ-nin antihitler koalisiyasındakı müttəfiqləri ilə hərbi-siyasi qarşıdurmaya ilk dəfə olaraq kimin tərəfindən təhrik edildiyi və «soyuq müharibə» arxitektorunun kim olduğu barədə sovet və qərb politoloqları uzun illər mübahisə aparmışlar. Sovet tarixçiləri bu eranın başlanğıcını İngiltərənin baş naziri Uinston Çörçillin 1946-cı il martın 5-də Fulton (ABŞ) şəhərinin Vestminster kollecində söylədiyi məşhur nitqindən hesablayır. Çörçill Qərbin atom silahı üzərindəki monopoliyasını var qüvvə ilə qorumağı və

hər şeydən əvvəl hərbi sahədə «ingilisdilli xalqların qardaşlıq ittifaqını» kommunist ekspansiyasına qarşı qoymağı təklif etdi. «Dəmir pərdə» ifadəsi də ilk dəfə olaraq bu nitqdə işlənmişdir. Çörçill Mərkəzi və Şərqi Avropanın bütün qədim paytaxtlarının pərdənin o tərifində qalmasından və «nəinki sovet təsirinə, Moskvanın güclü və get-gedə artan nəzarətinə tabe olmalarından» narahatlığını bildirmişdir.

«Pravda» qəzetinə verdiyi müsahibədə İosif Stalin bu çıxışı «SSRİ-yə qarşı müharibəyə çağırış» kimi qiymətləndirmiş və bəyan etmişdi ki, əgər «cənab Çörçill və onun dostları» Şərqi Avropaya yeni hərbi yürüş təşkil edə bilsələr, «onlar keçmişdə, 26 il bundan qabaq necə əzilmişdilərsə, yenə də əziləcəklər»[3].

Lakin qərb analitikləri iddia edirdilər ki, yaxın keçmişdəki müttəfiqləri ilə qarşıdurmanı Sovetlər qəsdən törətmişlər. Əvvəlcə qoşunlarını İrandan çıxarmağa etiraz edərək «Azərbaycan kartını» işə salmış, sonra isə Türkiyəyə qarşı işğalçı planlarını açıq bəyan etmişlər. Həmin vaxt Təbrizdə ABŞ-ın konsulu olmuş Robert Rossou on ildən sonra «Middle East» («Orta Şərq») jurnalında dərc etdirdiyi «Azərbaycan uğrunda mübarizə – 1946» adlı məqaləni bu sözlərlə başlayır: «Tam yəqinliklə demək olar ki, soyuq müharibə 1946-cı il martın 4-də başlayıb. Həmin gün 15 sovet zirehli briqadası İranın şimal-qərbində Azərbaycan əyalətinə daxil olaraq İran-Türkiyə sərhədindən mərkəzə doğru irəliləməyə başladı. Eyni say və tərkibdə başqa bir ordu Bolqarıstandan Türkiyənin Avropa sərhədlərinə tərəf istiqamət götürdü. Ağır zirehli texnikanın hərəkəti, Ankara və Tehrana edilən təzyiqlər, Yunanıstanda, Azərbaycanda, İran Kürdüstanında baş verən iğtişaşlarla müşayiət olunurdu»[4].

Müharibə qurtarandan dərhal sonra Stalin həqiqətən Ermənistan və Gürcüstan mətbuatında, eləcə də xaricdəki erməni diasporunda Türkiyənin qərb rayonlarının Ermənistan və Gürcüstana verilməsi tələblərini irəli sürən səs-küylü kampaniyanın başlanmasına təkan vermişdi. 1946-cı ildə Moskvada böyük dövlətlərin xarici işlər nazirlərinin müşavirəsi zamanı Böyük Britaniyanın xarici işlər naziri Bevinlə söhbətində Stalin Moskvanın Bosfor və Dardanel boğazlarına nəzarət, həmçinin Türkiyənin guya tarixən Ermənistan və Gürcüstana məxsus olan bir sıra vilayətlərinə iddia planlarını açıq-aşkar bəyan etmişdi[5].



Alen Dallesin beynəlxalq münasibətlər üzrə Şurada məşhur çıxışından sonra Stalin Amerikanı əsas düşmən elan etmişdi. 1952-ci ilin dekabrında Sov.İKP MK-nın «SSRİ DTN baş kəşfiyyat idarəsi haqqında» qərar layihəsinin müzakirəsi zamanı kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin yenidən qurulması üzrə Komissiyanın iclasında Stalin qarşıda duran vəzifələri belə ifadə etmişdi: «Kəşfiyyatda heç vaxt iş elə qurulmamalıdır ki, hücum birbaşa aparılsın. Kəşfiyyat dolayısı yolla hərəkət etməlidir. Xarici vətəndaşı heç vaxt onun vətəninə qarşı, həm də vətənpərvərlik hisslərinə toxunmaqla cəlb etmək lazım deyil. Əgər agent vətənpərvərlik hisslərinə toxunulmaqla cəlb olunubsa, bu agent etibarlı agent ola bilməz. *Kəşfiyyatda trafaretin kökünü birdəfəlik kəsmək, daim taktikanı, metodları dəyişmək, dünya şəraitinə uyğunlaşmaq lazımdır* (seçmə bizimdir – ***E.A.***). Dünyada yaranmış şəraitdən istifadə etmək, manevrlə, düşüncəli hücum aparmaq...

*Bizim əsas düşmənimiz – Amerikadır* (seçmə bizimdir – ***E.A.***). Ancaq əsas diqqəti Amerikanın özünə yönəltmək lazım deyil. Qeyri-leqal rezidenturalar ən əvvəl sərhədyanı dövlətlərdə qurulmalıdır»[6].

Beləliklə, SSRİ sərhədlərində «dəmir pərdə» endirildi, ölkənin cənub hüdudlarında bu pərdə xüsusilə qalın və keçilməz idi. İdeoloji təxribat, güclü təbliğat aksiyaları ilə müşayiət olunan, dissident hərəkatını və Sovet İttifaqında daxili müxalifəti dəstəkləyən uzun müddətli üzücü psixoloji müharibə start götürdü. Bundan əlavə, qarşı tərəfin hərbi-texniki və iqtisadi potensialını müəyyənləşdirmək üçün Amerika və digər xüsusi xidmət orqanlarının kəşfiyyat fəaliyyəti gücləndi. Azərbaycan bu baxımdan Qərb üçün böyük maraq kəsb edirdi. Əvvələn, özünün geostrateji vəziyyətinə görə, ikincisi, çoxlu sayda hərbi hissə, hərbi texnika, hərbi aerodrom və s. yerləşən neft və qazla zəngin olan bir ərazi kimi. Belə şəraitdə SSRİ və Azərbaycan xüsusi xidmət orqanları cavab tədbirləri görür, qarşı tərəfi öyrənmək, agentləri cəlb etmək, onları Stalinin göstərişlərinə uyğun şəkildə qonşu dövlətlərin xüsusi xidmət orqanlarına yeritmək üçün analoji kəşfiyyat fəaliyyəti aparırdılar.

* * *

Azərbaycan üçün «əsas zərbə» istiqaməti İran və Türkiyə idi. SSRİ İrandan çıxmışdı, əvəzində ABŞ öz yerini bu ölkədə çox ciddi və uzun müddətə bərkitmişdi. «İranın şah rejimi ABŞ-ın ən yaxın müttəfiqlərindən idi, – uzun illər DTK-nın 2-ci şöbəsinin «İran» bölməsində işləmiş DTK veteranı Kamal Əliyev söyləyir. – Azərbaycan-İran sərhədi boyu qoşun, Amerika hərbi texnikası dayanmışdı. Sərhədin hər iki tərəfində eyni xalqın, azərbaycanlıların yaşaması vəziyyəti daha da mürəkkəbləşdirirdi. O tərəfdən qaçıb gələnlər az deyildi, onları ciddi surətdə yoxlamaq lazım gəlirdi, çünki aralarında SAVAK* agentləri ola bilərdi. Biz ildə 300-ə yaxın belə adam qəbul edirdik. Azərbaycanda onsuz da böyük olan İran diasporu daim artırdı. Bu kontingent arasında həm də agentura fəaliyyəti aparmaq lazım idi. Bütün bunlar İran istiqamətində kəşfiyyat işinin vacibliyindən xəbər verirdi».

Türkiyəyə gəldikdə isə, SSRİ tərəfindən ərazi bütövlüyünə iddialara, təhdidlərə cavab olaraq o, Qərblə daha sıx yaxınlaşmağa üstünlük verdi və son nəticədə NATO hərbi-siyasi qurumlarına daxil oldu. Bundan başqa, bu ölkədə Sovet İttifaqının türkdilli respublikalarından olan mühacirlərin təşkil etdiyi bir çox antisovet və antikommunist təşkilatları fəaliyyət göstərirdi. Bütün bunlar Rusiya-Türkiyə münasibətlərinin neqativ tarixi təcrübəsi də nəzərə alınmaqla gətirib o yerə çatdırdı ki, Türkiyə Moskvanın gözündə ən qorxulu və düşmən dövlətlərdən biri kimi dəyərlənməyə başladı.

Şübhəsiz, «soyuq müharibə» dövrünün əvvəllərinə aid bütün bu ideoloji stereotiplər sovet çekistlərinin düşüncəsinə dərindən yeridilmişdi, o cümlədən Azərbaycan əks-kəşfiyyatının gənc zabiti Heydər Əliyevin. Artıq iki-üç ildən sonra o İran və Türkiyə istiqamətində bir sıra uğurlu xüsusi əməliyyatların hazırlanması və keçirilməsinə görə Mərkəzin ən yüksək qiymətinə layiq görüləcəkdir.

DTK veteranı, 1945-ci ildən mərkəzi aparatda işləmiş Adil Bağırov xatırlayır:

«Moskvada təhsil alandan sonra Əliyev dərhal Türkiyə və İran istiqamətində işləyən «şərq» bölməsinin rəisi oldu. O öz üzərində çox çalışırdı, onun üçün heç bir işdə «qaranlıq» nöqtələr qalmamalı idi. Heydər Əliyev bilmədiyini soruşmağa utanmırdı,

* SAVAK – İran kəşfiyyatı xidmətinin adı.



olduqca diqqətli idi, hər şeyi göydə tuturdu. Ona görə də xidməti vəzifədə tez irəli getməyə başladı».

Gənc çekist Əliyevin Azərbaycan DTK-sının 2-ci şöbəsinin rəisi Eyvaz Məmmədovun rəhbərliyi altında iştirak etdiyi ilk tədbirlərdən biri «Alagöz» adı ilə keçirilən əməliyyat «oyunu» idi.

## «Alagöz»

1947-ci ildən başlayaraq Amerikanın Baş Kəşfiyyat idarəsi (SRU) SSRİ-yə qarşı mübarizədə Türkiyə və İranın xüsusi xidmət orqanlarından istifadə edirdi. Çox vaxt keçmiş Sovet vətəndaşları bu mübarizədə alət rolunu oynayırdılar. Məsələn, Astarada anadan olan, müharibə vaxtı gəlib İrana çıxan, oradan Türkiyəyə qaçan və türk xüsusi xidmət orqanlarının nəzər dairəsinə düşən «Alagöz» ləqəbli agent kimi. O, kəşfiyyat işinə cəlb olunmuş, müvafiq hazırlıq keçdikdən sonra Azərbaycana göndərilmişdi. Bakıda Azərbaycan çekistləri onu öz tərəflərinə cəlb etmişdilər. Əsaslı yoxlama və hazırlıq keçdikdən sonra o SSRİ DTK-sının ikinci baş idarəsi ilə razılaşmaya əsasən Türkiyə ərazisinə göndərilmişdi. Bu ölkədə o yenidən uzun yoxlama keçir və bir daha Azərbaycana göndərilir. Bu əməliyyat oyunu 1950-ci ildən 1956-cı ilə qədər davam etmiş, onun sayəsində Azərbaycan xüsusi xidmət orqanları türk agenturasının əlaqə kanallarını, SSRİ-yə göndərilmə yollarını, agentlərin şəxsiyyətini, qarşı tərəfin plan və niyyətlərini öyrənə bilmişdir. DTK veteranı Cabbar Bəylərovun sözlərinə görə, «o vaxt türk kəşfiyyatı çox güclü idi və bizim agentin türk xüsusi xidmət orqanlarına yerləşdirilməsi faktı bütün SSRİ üçün böyük, sensasiya doğuran hadisə idi».

Bədbəxtçilikdən sərhədi növbəti dəfə keçən zaman «Alagöz» Araz çayının sularında boğuldu.

Heydər Əliyev «Duel» adlı əməliyyat oyununu işləyib hazırlayandan sonra əks-kəşfiyyatçılar arasında daha da məşhurlaşdı.

## «Duel»

«Duel» əməliyyatının həyata keçirilməsində başlıca məqsəd Türkiyə və Amerika xüsusi xidmət orqanlarının Azərbaycanla bağlı niyyətlərini öyrənmək idi. Bunun üçün bir neçə agent seçil-

mişdi, onların arasında «Radist» ləqəbli agenti xüsusi qeyd etmək lazımdır. 1942-ci ildə «Radist» almanlara əsir düşür, abverin* «Tseppelin» məktəbini bitirir, Sovet İttifaqına göndərilmək üçün nəzərdə tutulur. Lakin Hitler Almaniyasının müharibədə məğlub olması bu planın həyata keçməsinə mane olur. Sonra bir çox hərbi əsirlər kimi o, yeri dəyişilmiş şəxslər üçün nəzərdə tutulan düşərgəyə, amerikanların əlinə düşür, onlar da öz növbəsində bu adamları Almaniyadakı Sovet hakimiyyət orqanlarına verirlər.

«Radist»i bir azərbaycanlı kimi vətənə yola salırlar. Filtrasiyadan keçəndə o səmimi olaraq öz keçmişini boynuna alır, «Tseppelin» kəşfiyyat məktəbində onunla bir yerdə oxumuş sovet vətəndaşları haqqında məlumat verir. Bu agent öz göstəricilərinə görə «ələ verilmək» üçün əlverişli namizəd idi. Həmin məqsədlə Heydər Əliyev xüsusi əfsanə hazırlayır.

Azərbaycan xüsusi xidmət orqanlarının veteranı, general-leytenant Ziya Yusifzadənin söhbətindən:

«Heydər Əliyev əfsanə fikirləşməyin əsl ustası idi. Onun qurduğu əfsanələr həmişə yüz faiz tutarlı olurdu. Bu agenti «yaşıl sərhədlə»** Türkiyəyə keçirtdik. O, jandarmeriyaya düşdü, oradan türk xüsusi xidmət orqanlarına göndərildi, sonradan bu işə hərbi kəşfiyyatçılar, həmçinin MKİ-nin əməkdaşları da qoşuldular. «Radist»i uzun müddət çək-çevir etdilər, «əfsanəsini» yoxladılar. Bir ildən artıq idi ki, ondan məlumat alırdıq. Kordonun o tərəfindəki imkanlarımızdan istifadə edərək öyrəndik ki, o həqiqətən türk xüsusi xidmət orqanlarının əlinə keçib, onu yoxlayırlar, hazırlayırlar. Təxminən bir ildən sonra «Radist»i yenidən, bizim güman etdiyimiz kimi, «Duel» əməliyyatı ilə bağlı Azərbaycana göndərdilər. Heydər Əliyevlə görüşən zaman o Azərbaycanda yerləşən hərbi obyektləri, rejim obyektlərini aşkar etmək üçün aldığı tapşırıqlar barədə məlumat vermişdir. Türk xüsusi xidmət orqanları tərəfindən cəlb olunandan sonra «Radist» bir neçə dəfə Azərbaycana göndərilmişdi, hər dəfə də onunla Heydər Əliyeviç görüşürdü. Diqqətlə dinləyirdi, Türkiyə hərbi kəşfiyyat nümayəndələri ilə təmasları zamanı özünü necə aparmalı olduğu barədə tövsiyələr verirdi. «Radist»in köməyi ilə onlarla türk agenti ifşa olundu»*.

* Abver – 1921-1944-cü illərdə Almaniyada hərbi kəşfiyyat xidməti. Müharibədən əvvəl və müharibə illərində fəaliyyət miqyası və effektivliyi ilə seçilirdi. Abverə qarşı fəaliyyət aparmaq üçün SSRİ-də SMERŞ (rus dilində «Смерть шпионам») xüsusi hərbi əks-kəşfiyyat orqanı yaradılmışdı. 1944-cü ilin fevralında Hitlerin sərəncamı ilə Abver SS-ə birləşdirilərək Himmlerin tabeliyinə keçmişdir.

** «Yaşıl sərhəd» – dövlət sərhədinin dövlət təhlükəsizliyi orqanları tərəfindən nəzarət edilən, qabaqcadan postlar yığışdırılan hissəsi.



Mənim əlimə Azərbaycan SSR DTN-nin 2-ci şöbə 6-cı bölməsinin rəisi baş leytenant Heydər Əliyevin öz əli ilə yazdığı bir sənəd düşdü. 10 səhifəlik yazıda Heydər Əliyev «Duel» kombinasiyasında iştirak etmiş sovet agentlərinin şəxsiyyətini və onlar üçün düşünülən «əfsanələri» müfəssəl təsvir edir. Bu arayışın operativ qiyməti çoxdan itdiyindən, lakin «soyuq müharibə» dövrünün bariz nümunəsi kimi heç şübhəsiz qiymətli olduğundan, həmin sənəddən bir parçanı diqqətinizə çatdırmaq istərdim:

«Agent «Radist»ə verilən əfsanəyə uyğun olaraq, Türkiyəyə keçəndən sonra o istintaq zamanı SSRİ ərazisində olan tanışları sırasında ona sərhədi qeyri-leqal keçməyə kömək etmiş bizim agentlər «Yupiter»in, «Sabahlı»nın, uzaq qohumu kimi «Səid»in, Bakıdakı tanışı kimi «Mirzə»nin, almanların yanında bir yerdə xidmət etdiyi adamlar kimi «Ağa», «Aqronom», «Balabəy» və «Əhəd»in adlarını çəkməli idi.

«Duel» əməliyyatı üzrə tədbirlər hazırlanarkən, bu agentura bizim tərəfimizdən əsasən o niyyətlə seçilmişdi ki, onlar öz keçmişinə, xaricdə və SSRİ-də olan əlaqələrinə görə türk kəşfiyyatını maraqlandıra bilər və bu səbəbdən də biz gələcəkdə onları türk kəşfiyyatına «təhvil» verə bilərik.

Bu məqsədlə «Radist» bizim tapşırığımızla göstərilən agentlər barədə türklərə aşağıdakı məlumatları söyləmişdir:

1. Agent «Yupiter»lə o birinci dəfə 1942-ci ildə bir qrup hərbi əsir sırasında almanların Auşvits kəşfiyyat məktəbinə gəldikdə rastlaşıb. Üç aydan sonra «Yupiter» Auşvitsdən getmiş və «Radist» onu almanların yanında bir daha görməyib. İkinci dəfə «Radist» «Yupiter»lə 1948-ci ildə Bakıda rastlaşıb, «Yupiter» ona

* Ziya Yusifzadənin dedikləri V.Mustafayevin «Professional» filmindən götürülmüşdür.

Auşvitsdən getdikdən sonra 3-4 ay tərcüməçi kurslarında oxuduğunu və legionda tərcüməçi qismində xidmət etdiyini danışıb. Almanlar geri çəkildikləri zaman o, Ukraynada, hansısa bir kənddə imiş və sovet qoşunları yetişəndə yerli sakin kimi ikinci dəfə Sovet Ordusuna səfərbər edilib. Cəbhədə olub, müharibə qurtarandan sonra tərxis olunaraq evə qayıdıb və bu yolla da alman əsirliyində olduğunu gizlədib. Bakıda «Yupiter» heykəltəraşlıq emalatxanasında işə düzəlib, hal-hazırda orada işləyir. Bu görüşdən sonra «Radist» hərdənbir «Yupiter»in mənzilinə gəlib-gedirmiş. Bir dəfə, «Yupiter»gildə olanda, onun arvadı tərəfdən olan qohumu – agent «Sabahlı» ilə tanış olur... Agent «Yupiter» həqiqətən alman əsirliyində olmuş və legionda tərcüməçi qismində xidmət etmişdir. Ancaq «Radist» onu almanların yanında görməyib və tanımayıb. «Yupiter»i «Radist»ə küçədə göstərmişdilər, fotoşəkillər və bioqrafik məlumatlarla tanış etmişdilər.

2. Agent «Sabahlı» əfsanəyə göro «Yupiter»in arvadı tərəfdən olan qohumu kimi gedir. «Radist» onunla guya sonuncunun mənzilində tanış olub. Biləndə ki, «Sabahlı» Ermənistandan olan köçkündür və Türkiyə ilə həmsərhəd rayonlarda yaşayıb, «Radist» «Yupiter»dən xahiş edib ki, onunla danışsın, bəlkə müəyyən mükafat müqabilində Türkiyəyə qeyri-leqal keçmək məsələsində ona gömək edə bilər?.. Sonra «Radist» «Yupiter»lə birlikdə «Sabahlı» ilə görüşür və sonuncu 3000 manata onu sərhəddən Türkiyəyə keçirtməyi təşkil etməyə söz verir. Bir müddət sonra «Radist» «Sabahlı» ilə birgə Ermənistanın Vedi rayonuna gəlirlər və sonuncu bir yerli sakinin köməyi ilə onu Türkiyəyə keçirdir. «Radist»lə söhbət zamanı «Sabahlı» guya ona söyləmişdir ki, qabaqlar o uzun müddət Ermənistanın Türkiyə ilə həmsərhəd olan rayonlarında yaşamış və çox adamı sərhəddən qeyri-leqal keçirtmişdir.

Agent «Sabahlı» həqiqətən Ermənistan SSR-dən olan köçkündür, əvvəllər Türkiyə ilə həmsərhəd rayonlarda yaşamışdır və öz keçmişinə görə Türkiyənin sərhəd kəndlərinin bir çox sakininə tanış olmalıdır.

3. Agent «Səid» əfsanəyə görə «Radist»in Bakıda yaşayan, ata tərəfdən olan qohumu kimi gedir. «Radist»lə söhbətlərində «Səid» guya danışıb ki, o Pedinstitutun şərqşünaslıq fakültəsini bitirib, 1921-1923 illərdə Bakıdakı Türkiyə konsulluğunun işçiləri və Bakı məktəblərinin bir sıra türk müəllimləri ilə yaxın tanışlığı



olub. Türklər Bakıdan gedəndə onlarla birlikdə Türkiyəyə getməyi «Səid»ə təklif ediblər, lakin o razı olmayıb və indi bundan çox peşmandır. «Səid» tez-tez türkləri, türk yazıçılarını və ümumiyyətlə Türkiyəni tərifləyirdi və bütün bunların məhz Türkiyəyə qaçmağı qərara alan «Radist»ə müəyyən təsiri olmuşdur.

Əslində «Səid» 1921-1923 illərdə Türkiyənin Bakıdakı keçmiş hərbi attaşesi Şərafəddin bəy tərəfindən kəşfiyyata cəlb olunmuş və onunla əməkdaşlıq edirmiş. Sonuncu Bakını tərk etdikdən sonra «Səid»in türk kəşfiyyatı ilə əlaqəsi kəsilir. 1927-ci ildə o həbs olunaraq musavatçı fəaliyyətinə görə üç il müddətinə azadlıqdan məhrum edilir, cəzasını çəkdikdən sonra Bakıya qayıdır ...

4. «Radist» türklərə Bakıdan tanıdığı dostu qismində «Mirzə»nin adını çəkmiş, onunla 1950-ci ildə Dağüstü Mədəniyyət və İstirahət parkının komendantı Cabbarov Yəhya vasitəsilə tanış olduğunu söyləmişdir. «Radist»lə sonrakı görüşlərində «Mirzə» guya ona danışıb ki, müharibədən qabaq oğurluq üstündə tutulub və məhkum olunub, düşərgədən cəbhəyə göndərilib, müharibə qurtarandan sonra Bakıya qayıdıb, evlənib, Rüstəm adında oğlu var, Baş Apteklər İdarəsində komendant işləyir.

«Mirzə» barəsində danışarkən «Radist» qeyd etmişdir ki, Berlində almanların yanında xidmətdə olduğu zaman o, Türkiyədən gəlmiş bir mühaciri – Fuad bəyi görmüşdür. «Mirzə» ilə soyadları eyni olduğundan ola bilsin ki, onlar qardaşdırlar.

Əslində «Radist» agent «Mirzə» ilə tanış deyildi, kordonun o tərəfinə göndərilmək ərəfəsində bizim tapşırığımızla onunla tanış olmuş və bir dəfə onun mənzilində olmuşdur.

Mirzənin atası – Əbdüləli bəy, anası – Səltənət, qardaşı – Fuad bəy, digər qardaş və bacıları müxtəlif vaxtlarda Türkiyəyə mühacirət etmişlər və İstanbul şəhərində yaşayırlar. Əbdüləli bəy və Səltənət millətçi müsavat mərkəzinə daxildirlər, SSRİ-yə qarşı fəal mübarizə aparırlar. «Mirzə»nin atasının, anasının, qardaş və bacılarının Türkiyədə olmaları barədə «Radist»ə məlumat verilməyib və o bunu bilməyib.

5. Agentlər «Ağa», «Aqronom», «Balabəy» və «Əhəd» əfsanəyə görə almanların yanında «Radist»lə bir yerdə xidmət edən adamlar kimi hallanırlar.

«Radist» agent «Əhəd»dən başqa o biriləri ilə tanış deyil və onları tanımır. «Radist»lə bir yerdə almanların yanında xidmət

edən şəxslər, əsasən, həbs olunduqlarından, ona göstəriş verilmişdi ki, türklərə onunla bir yerdə almanların yanında xidmət edənlər qismində yuxarıda göstərilənlərin adlarını çəksin. Agent «Əhəd»lə «Radist» alman kəşfiyyat məktəbində bir yerdə olmuş və onu şəxsən tanıyır.

Adı çəkilən agentlərdən savayı bizim tapşırığımıza əsasən «Radist» türklərin apardığı istintaq zamanı tanışları sırasında Kürdəmir rayonunda yaşayan Məmmədov Əbdülrəhimin adını çəkmişdir, onun qardaşı, fəal müsavatçı Məmmədzadə Əbdülvahab, 1930-cu ildə İrana mühacirət etmiş və əldə olan məlumatlara əsasən hazırda Türkiyədədir. Türkiyəyə ketməmişdən əvvəl «Radist» bizim tapşırığımızla Kürdəmir rayonunda Məmmədov Əbdülrəhimlə tanış olmuşdu. Bundan əlavə, «Radist» qardaşı Əbdülvahab haqqında qısa məlumatlarla təchiz edilmişdi.

Məmmədov Əbdülrəhim bizim tərəfimizdən nəzarətdədir, onun cəlb olunma imkanları öyrənilir...

DTN-in 2-ci şöbəsinin 6-cı
bölməsinin rəisi b. leytenant (Əliyev)
«  » iyun 1952 il»

Sitat gətirdiyimiz sənəd bir neçə cəhətdən səciyyəvidir. İlk növbədə agent əfsanələrinin nə qədər mükəmməl hazırlanması, türk «cəbhəsində» uğur qazanmaq üçün necə hərtərəfli və düşünülmüş şəkildə işlənməsi diqqəti cəlb edir. Bu adamlar bu və ya digər səbəbdən sovet hakimiyyəti ilə dedikcə mürəkkəb münasibətlərdə olduqlarından, həqiqətən türk xususi xidmət orqanlarını maraqlandıra bilərdilər.

Bundan əlavə, sənəd sovet xüsusi xidmət orqanlarının öz vətəndaşları sırasından agentura seçmək və onları kəşfiyyat işinə cəlb etmək prinsiplərini başa düşməyə imkan verir. «Yupiter», «Səid», «Mirzə» və başqa agentlər keçmişi qaranlıq olan adamlardır: biri oğurluq üstə həbsxanada yatıb, o biri əsirlikdə olub, hətta alman legionlarında xidmət edib. Digərlərinin isə tərcümeyi-halı «düşmən» ərazisində yaşayan müsavatçı qohumlardan ibarət kompromatla «zəngindir». Dövlət təhlükəsizliyi orqanları bu cür insan materialını ələkdən keçirərək, onların arasından bir o qədər əziyyət çəkmədən ştatlı və ştatdankənar agentlər seçirdi. Bir-iki hal istisna olmaqla, heç kim əməkdaşlıqdan imtina etmək fikrinə düşmürdü, çünki keçmişləri ağır yük kimi onları əzirdi.



Əslinə qalsa, bu insanların seçim imkanı yox idi – ya orqanlarla əməkdaşlıq, ya da uzaq soyuq düşərgələr.

Keçən əsrin 30-50-ci illərində qohumlar arasında «xalq düşmənlərinin», yad sosial elementlərin, «İran» və ya «türk» izinin olması ləkə gətirən ciddi kompromat sayılırdı, xüsusilə də nomenklatura işçiləri üçün. Tarixçi Eldar İsmayılovun «Hakimiyyət və xalq» kitabında Bağırov və onun komandasının ürəklərinə yatmayan insanlara dövlət təhlükəsizliyi orqanları tərəfindən toplanan bu cür operativ-agentura informasiyası əsasında necə divan tutduqları çoxsaylı faktlarla göstərilmişdir. Taleyin acı təsadüfünə görə Heydər Əliyevin gələcək qayınatası Əziz Əliyev barədə sonuncunun yüksək dövlət vəzifələrindən çıxarılması üçün formal əsas kimi götürülən Yemelyanovun imzaladığı müfəssəl arayışlar MK-ya məhz bu təşkilatdan gedirdi. Məsələn, «Ə.Əliyevin bacısının İranda yaşaması», onun özünün 1920-ci ildə «İran ərazisində olması», həmçinin İranda qohumları olan adamlarla dostluq münasibətlərinin olması da ləkə gətirən faktlar sırasına salınmışdı[7].

Bütün bunlar Stalin dövrünün reallıqları idi, baş leytenant Əliyev də o dövrün qaydalarına uyğun hərəkət edirdi və siyasi kompromatdan sərt ideoloji sanksiya və əhali üzərində total nəzarət vasitəsi kimi istifadə etməyin mümkün və hətta zəruri olduğunu şübhə altına almırdı.

Hər iki əməliyyat – «Alagöz» və «Duel» Mərkəz tərəfindən yüksək qiymətləndirildi. Mənim əlimdə SSRİ DTK-sının 2-ci Baş idarəsinin rəis müavini, general-mayor Lyalin tərəfindən Azərbaycan DTK-sının sədri polkovnik Kopılova göndərilən məktub vardır. Məktubun mətni:

«9 XI – 1957 il. № 25 – 753. Tamamilə məxfidir.

Azərbaycan SSR DTK-sının 2-ci şöbəsi tərəfindən «Alagöz» kombinasiyasının hazırlanması və həyata keçirilməsi üzrə ciddi iş aparılmışdır. 2-ci şöbənin rəisi yol. E.Məmmədovun və onun müavini H.Əliyevin şəxsən böyük müsbət işlər gördüklərini nəzərə alaraq, göstərilən işçilərin mükafatlandırılmasını xahiş edirik».

Məktubun yuxarı hissəsində respublika DTK sədrinin iri hərflərlə yazdığı dərkənar vardır: «Yol. Səmədova. DTK üzrə əmrlə

yol.E.Məmmədov və yol.H.Əliyevə təşəkkür elan edilsin, hər biri yarımaylıq maaşla mükafatlandırılsın. F.Kopılov».

Hadisələri qabaqlayaraq söyləyim ki, Moskva Heydər Əliyevin əks-kəşfiyyat fəaliyyətində qazandığı nailiyyətləri tez-tez qeyd edirdi. DTK arxivindən tapdığım daha bir sənəddən sitat gətirmək istəyirəm. Bu, 1961-ci il 9 sentyabr tarixli, 0258 nömrəli əmrdir:

«**SSRİ NS yanında DTK-nın 2-ci Baş idarəsinin və Azərbaycan SSR NS yanında DTK əməkdaşlarının mükafatlandırılması haqqında.**

Xüsusi tapşırığı uğurla yerinə yetirdiklərinə və bu işdə təşəbbüs və inadkarlıq göstərdiklərinə görə –

**Ə m r e d i r ə m**

Qiymətli hədiyyə ilə mükafatlandırılsın:
podpolkovnik Əliyev Heydər Əlirza oğlu.
Təşəkkür elan edilsin:
general-mayor Kardaşev Aleksandr Vasilyeviçə,
polkovnik Leonov Mixail Aleksandroviçə,
kapitan Yeliseyev Nikolay Mixayloviçə.
Dövlət Təhlükəsizlik Komitəsinin sədri
**A.Şelepin**».

H.Əliyev bundan sonra da dəfələrlə qiymətli hədiyyə və fəxri fərmanlar alacaq. 1962-ci il aprelin 15-də onu «Dövlət təhlükəsizliyi orqanının fəxri əməkdaşı» nişanı, 1962-ci ilin mayında – Qırmızı Ulduz ordeni, 1964-cü ildə isə 1-ci dərəcəli «Qüsursuz xidmətə görə» medalı ilə təltif edəcəklər*.

Ehtimal ki, uğurlu xüsusi əməliyyatlara görə Heydər Əliyev növbədənkənar hərbi rütbəyə də təqdim olunmuşdur. Müxtəlif sənəd və arayışlarda olan imzalara əsasən, 1956-ci ilin iyununda o hələ kapitandır, 1958-ci ildə mayor, 1960-cı ildə isə – podpolkovnikdir. Ancaq, DTK əməkdaşlarının mənə dediyinə görə, o illərdə növbəti rütbəyə orqanlarda 3-4, hətta 5 il xidmət etdikdən

*Heydər Əliyevin xidməti siyahısından olan bu və digər məlumatlar, eləcə də sitat gətirilmiş sənədləri kitab müəllifinə Azərbaycan MTN arxiv idarəsinin əməkdaşları təqdim etmişlər.



sonra təqdim edirdilər. Sovet İttifaqının cənub hüdudlarının qorunmasının təmin edilməsində müstəsna xidmətləri olan Heydər Əliyev kapitandan general-mayora qədər olan yolu cəmi 10 ilə (!) keçmişdir – bu, Azərbaycan xüsusi xidmət orqanlarında görünməmiş hadisədər.

O ki qaldı «Duel» əməliyyatına, Azərbaycan DTK əməkdaşlarının mənə söylədiklərinə görə, bu əməliyyat sovet xüsusi məktəblərinin dərsliklərinə salınmış, SSRİ DTK-sının xüsusi təlimatı kimi çap olunaraq, bütün çekist tədris müəssisələrinə göndərilmişdir. Heydər Əliyev mühazirələrlə Rusiyada, Ukraynada SSRİ DTK-sının ali məktəblərində çıxış edir, agentlərin seçilməsi, onlarla iş aparmaq, əfsanələr hazırlamaq sahəsində öz metodikasından danışır və misal kimi «Duel» əməliyyatını nümunə göstərirdi.

Heydər Əliyev gənc çekistlərlə öz zəngin təcrübəsini bölüşməkdən zövq alırdı. Bakıda işlədiyi ilk illərdən onların qarşısında mühazirələrlə çıxış edirdi. DTK veteranı, ehtiyatda olan podpolkovnik Cabbar Bəylərov xatırlayır ki, ilk dəfə Heydər Əliyevi 1952-ci ildə, oxumağa göndərildiyi Dövlət Təhlükəsizliyi Nazirliyinin Diyarlararası məktəbində görüb.

«DTN orqanlarının bütün respublikalardan olan 300 nəfərdən yuxarı təmsilçisi bu məktəbin dinləyiciləri idi. Yadımdadır, Əliyev bizə xüsusi fənndən mühazirə oxuyurdu. Biz bundan əvvəl də eşitmişdik ki, Əliyev adlı savadlı, ağıllı çekist var, ancaq onu şəxsən görməmişdik. O, tribunaya qalxanda, qarşımızda şax qamətli, Leninqraddan təzəcə gəlmiş kapitanı gördük. O bizə iki saat ərzində gözəl rus dilində, aksentsiz, heç bir kağızdan istifadə etməyərək mühazirə oxudu. Mühazirə hamıya güclü təsir bağışladı. Dinləyicilər arasında xeyli rus vardı, hətta onlar da azərbaycanlının belə təmiz rus dilində danışmasına təəccüb qalmışdılar.

Birinci dəfə Heydər Əliyevi belə gördüm. Onun erudisiyası, intellektual səviyyəsi, danışıq tərzi bizim hamımıza çox güclü təsir bağışlamışdı».

Çox keçmədi ki, «şərq» istiqamətində bir neçə uğurlu əməliyyatdan sonra Heydər Əliyevi DTN-in 2-ci şöbəsinin Bakı vilayəti üzrə rəis müavini, 1953-cü ilin axırlarında isə rəisi təyin etdilər.

Bu çox sürətli və Əliyevin özünün də etiraf etdiyi kimi gözlənilməz yüksəliş idi.

## Stalinin ölümü və Bağırovun siyasi karyerasının sonu

DTK veteranlarının memuarlarında 1951-1953-cü illər sovet xüsusi xidmət orqanları tarixində mərkəzi aparatda səngiməK bilməyən kadr dəyişiklikləri, müxtəlif hakimiyyət qruplaşmaları arasında orqanlar üzərində nəzarət əldə etmək üçün gedən mübarizə ilə səciyyələnən olduqca gərgin və dramatik bir dövr kimi təsvir olunur. Stalin son günlərinə qədər silahdaşlarını oyun kartları kimi qarışdırır, mütləq hakimiyyətini sarsıda biləcək ittifaq və koalisiya imkanlarını beşikdə boğmaq üçün bəzilərini uzaqlaşdırır, digərlərini yaxına çəkirdi. DTN-ə yeni-yeni Stalin emissarları göndərilir, onların da hər biri kadr yerdəyişmələri və struktur dəyişikliklərinə əl atırdı.

1951-ci ilin yayında DTN naziri Abakumov vəzifədən götürülərək həbs olundu. O, sayıqlığı itirməkdə və guya Stalinə qarşı hazırlanan sui-qəsd haqqında məlumatı gizlətməkdə ittiham olunurdu. Dövlət təhlükəsizliyi naziri vəzifəsinə MK-dan S.İqnatyev gəldi. Müavinləri Qoqlidze, Yepişev və Ryumin ilə birlikdə onlar çox sürətlə, təbii ki, Stalinin birbaşa göstərişi əsasında, yeni siyasi repressiyalar kampaniyasına başladılar[8].

Azərbaycan DTN-ində vəziyyət daha sabit idi, çünki sükan arxasında 1939-cu ildən bəri dəyişməz olaraq Stepan Yemelyanov dayanmışdı. Amma DTN-in mərkəzi aparatında rəhbərliyə təzə adam gələndə, respublika səviyyəli orqanlar da gərginlik keçirirdi. Üstəlik də Moskvadan yeni-yeni «vreditel» və «terrorçu»ların ifşa olunması barədə həyəcanlı xəbərlər gəlirdi. Göründüyü kimi, respublikanın DTN rəhbərliyi də zamanın nəbzini tutaraq geri qalmamağa çalışır, Moskva və leninqradlı həmkarlarından nümunə götürərək Azərbaycanda gizli əksinqilabçı şəbəkə ifşa etmək üçün əlindən gələni əsirgəmirdi. Belə ki, 1953-cü ilin mart-aprel aylarında Yemelyanov Azərbaycan KP MK-ya Lənkəran rayonunun Şahlasar kəndində əksinqilabçı qrupun, Qazax rayonunda fəaliyyət göstərən «menşevik yönümlü» antisovet təşkilatının ifşa edilməsi barədə məruzə edir, «Türkiyə və İranda pantürkistlərin



fəaliyyəti və Azərbaycan SSR-də ayrı-ayrı millətçi, pantürkist və panislamist təzahürlər haqqında» müfəssəl arayış hazırlayır[9].

Yeni siyasi repressiyalar dalğasını 1953-cü il martın 5-də Stalinin ölümü saxladı. Artıq həmin günün axşamı L.Beriya birləşmiş Daxili İşlər Nazirliyinin başında durdu. İndi bu nazirlik həm milisi, həm də təhlükəsizlik orqanları aparatını özündə cəmləmişdi. Stalinin ölümündən sonra L.Beriyanın qısamüddətli fəaliyyətinə (mart-iyun 1953-cü il) qiymət verən bir çox müasir tədqiqatçılar belə fikrə gəlirlər ki, Stalindən sonrakı islahatların təşəbbüskarı və kütləvi reabilitasiya prosesinə təkan verən məhz o olmuşdur. Pavel Sudoplatov, sovet dövlət təhlükəsizliyi orqanlarının kəşfiyyat-təxribat xidmətinin qocaman rəhbərlərindən biri, o dövrdə Beriyaya yaxın olan adam, memuarlarında öz şefinin «inqilabi» təşəbbüsləri haqqında yazır:

«1953-cü ilin aprel-iyununda Beriya təşəbbüslərinin səbəblərinə qiymət verməyi kənara qoysaq, etiraf etməliyik ki, onun QULAQı (Qlavnoe Upravlenie Laqerey) ləğv etmək, siyasi məhbusları azadlığa buraxmaq, Yuqoslaviya ilə münasibətləri normallaşdırmaq təkliflərinin tərkibində Xruşşovun «mülayimləşmə» dövründə həyata keçirdiyi «şəxsiyyətə pərəstişin nəticələrinin ləğvi» prosesinin bütün əsas tədbirləri yer almışdı.

Biz Stalinin ölümündən sonra xaricdə və ölkə daxilində fəaliyyətimizin əsas vəzifələrinə yenidən baxmağa başladıq. Beriya təşəbbüsü ələ aldı. Mən Beriyanın tapşırığı ilə təhlükəsizlik orqanları və partiya təşkilatları tərəfindən Litva və Ukraynada gizli fəaliyyət göstərən millətçilərlə mübarizədə buraxılmış səhvlərin müfəssəl siyahısı və təhlilini təqdimatlar şəklində hazırlayanların sırasında idim. Beriya hesab edirdi ki, yerli kadrları rəhbər vəzifələrə irəli çəkmək, müavin vəzifələrinə isə slavyan millətlərindən olan kadrları təyin etmək lazımdır. Bizim təqdimatlarımızda antisovet fəaliyyəti ilə məşğul olmayan etnik qruplara qarşı heç cür haqq qazandırmaq mümkün olmayan deportasiya və repressiya hadisələri göstərilmişdi. Beriya mədəniyyət və dil sahəsində milli ənənələrin inkişaf etdirilməsini hər vəchlə təkid edirdi. Məsələn, onu sosialist ideyalarına həqiqətən yaxın olan yeni milli ziyalı nəslinin yetişməsi problemi narahat edirdi. Yadımdadır, Beriya təklif edirdi ki, respublikaların öz orden və mükafatları təsis edilsin – onun fikrincə, bu, milli qüruru yüksəldərdi»[10].

Beriyanın həddən ziyadə fəallığı, əlində olduqca böyük hakimiyyətin cəmləşməsi keçmiş silahdaşlarını qorxuya saldı. İyunun 26-sında, axşam, Sov. İKP MK Rəyasət Heyətinin iclasında Beriya həbs olundu, «dövlət və partiya əleyhinə fəaliyyətdə» günahlandırıldı və qapalı məhkəmədən sonra güllələndi. «Beləliklə, sırf Stalin metodlarından onun ən təhlükəli varislərindən birini məhv etmək üçün istifadə olundu». Bu sözləri Britaniya tarixçisi Cefri Xoskinq yazır[11].

Beriyanın həbsindən sonra Mir Cəfər Bağırovun da başının üstünü qara buludlar aldı. İyunun 2-də o, Sov. İKP MK Rəyasət Heyətinin qapalı iclasına dəvət edilir və ona MK-nın qarşıdan gələn plenumunda Beriyanı ADR dövründə müsavat hökuməti ilə əməkdaşlıqda ittiham etmək təklif olunur. Məsələ burasındadır ki, Beriyaya qarşı irəli sürülən əsas ittihamlardan biri ondan ibarət idi ki, 1919-cu ildə, vətəndaş müharibəsi zamanı, o, müsavat kəşfiyyatının agenti olub, guya Bakıda Britaniya xüsusi xidmət orqanı ilə gizli əlaqələr yaradıb, britaniyalılar da onu bolşevik təşkilatına yeridiblər. Ancaq Beriyanın özü, bir sıra tədqiqatçıların yazdığına görə, bioqrafiyasında olan bu faktı gizlətmirdi, müsavat əks-kəşfiyyatında bolşeviklərin tapşırığı ilə işlədiyini iddia edirdi. Hər halda bu fakt hamıya məlum idi – Dzerjinskidən tutmuş Stalinə qədər.

Bağırovun peşmançılıq dolu çıxışına və «səhvlərini» boynuna almasına baxmayaraq, bir vaxtlar Azərbaycanın ağzından alov püskürən «xozeyininin» məsələsi artıq həll olunmuşdu. Dəfələrlə Bağırovun sözünü kəsən Xruşşovun, Suslovun, Malenkovun kobud replikaları şübhə yeri qoymurdu: Beriya ilə olan uzunillik yaxınlıq və dostluğu ona bağışlamayacaqlar. 1953-cü il iyulun 12-13-də Bakıda Azərbaycan KP MK və BK-nın 6-cı birləşmiş plenumu Beriya ilə bağlı Bağırovun «kommunistə yaraşmayan» hərəkətlərini pislədi. Bağırov Azərbaycan Nazirlər Sovetinin sədri vəzifəsindən və MK Bürosunun tərkibindən çıxarıldı. Maraqlıdır ki, Bağırovu əsas «ifşa» edən şəxslərdən biri 15 il «xozeyinlə» can deyib can eşidən DİN naziri Yemelyanov oldu. Bəzi Azərbaycan tədqiqatçıları güman edirlər ki, məhz Yemelyanov DİN arxivlərinin dərin qatlarından Beriyanın müsavat hökumətindəki fəaliyyətinə dair dosyeni çıxartmış və Bağırovla məsləhətləşmədən, hələ Beriyanın həbsindən qabaq Moskvaya göndərmişdir. Bu məsələdə Kreml rəhbərlərinə qulluq göstərən və yaxın keç-



mişdə ona havadarlıq edən şəxsi satan Yemelyanov guya elə bu səbəbdən ölüm cəzasından yayına bilmiş, güllələnmə əvəzinə 25 il almışdır[12].

Düzdür, Bağırov, Yemelyanov və onların daha dörd «silahdaşı» üzərində məhkəmə işi hələ az qala iki il sonra olacaqdır. Müəyyən müddət onlar azadlıqda gəzəcək, Bağırov hətta Kuybışev şəhərində neft idarəsində kadrlar üzrə rəis müavini işləməyə də macal tapacaqdır. Yemelyanovun əvəzinə isə Moskva yeni yaradılmış Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə öz təzə emissarını – Anatoli Quskovu təyin edəcək. Bu da Beriyanın təhlükəsizlik orqanları rəhbərlərini yerli kadrlarla əvəz etmək fikrinə Kreml başbilənlərinin bir o qədər də maraq göstərmədiyinə dəlalət edirdi. Lakin onlar Beriyanın son dövrdə başladığı DTK-nın «milliləşməsi» prosesini artıq saxlamaq iqtidarında deyildilər.

Bütün bu məsələlər barədə ona görə bu qədər müfəssəl yazıram ki, oxucular, xüsusən gənc nəsl, qəhrəmanımızın xidməti karyerasının hakimiyyət uğrunda sərt, abır-həyadan uzaq mübarizə, böyük nüfuz sahiblərinin iflası, orqanların təmizlənməsi sahəsində ağrılı prosesin başlanması ilə səciyyələnən necə mürəkkəb bir zamanda başlanmasını və zirvəyə aparan yolda nə qədər sualtı rif və aysberqlərdən keçməli olduğunu təsəvvürlərinə gətirə bilsinlər.

* * *

1953-cü ilin axırında Heydər Əliyev əks-kəşfiyyat şöbəsinin rəisi təyin olundu. Sonralar Heydər Əliyev özü etiraf edəcək ki, bu onun üçün gözlənilməz idi. Ancaq təyinat zamanın tələblərinə uyğun idi – Xruşşov orqanların yenidən qurulmasının əsas məqsədini DTK aparatını etibarı itirmiş əməkdaşlardan təmizləməkdə görürdü. Filipp Bobkov bunu belə xatırlayır:

«Orqanların yenidən qurulması XX qurultaydan qabaq başlandı. 1954-cü ilin martında SSRİ NS yanında Dövlət Təhlükəsizliyi Komitəsi yaradıldı. Sədr vəzifəsinə bundan əvvəl daxili işlər nazirinin müavini işləmiş İ.A.Serov təyin edildi.

Çox keçməmiş, 1954-cü ilin yayında N.S.Xruşşov DTK orqanları və qoşunlarının rəhbər heyətinin iclasında iştirak etdi və proqram xarakterli nitq söylədi... Xruşşovun çıxışı iki saata yaxın çəkdi, o, dövlət təhlükəsizliyi orqanlarının işini necə təsəvvür etdiyini açıqlayırdı. Çox emosional və obrazlı danışırdı. Xüsusi ola-

raq qeyd edirdi ki, əsas məqsəd sosialist qanunçuluğunu möhkəmlətmək, naqis rəhbərlik metodlarının kökünü kəsməkdir... Kadrların yerləşdirilməsinə yenidən baxıldı: dövlət təhlükəsizliyi sistemi qanunsuzluqlarda iştirak edən, saxtalaşdırma ilə məşğul olan və istintaq prosesində qeyri-qanuni metodlar tədbiq edən şəxslərdən azad olmağa başladı. İnsanları anlamaq, saf-çürük etmək asan məsələ deyildi»[13].

SSRİ DİN 2-ci Baş idarəsinin sabiq rəisi Yevgeni Pitovranov «Vlast» jurnalının şərhçisi ilə söhbətində gənc çekistin irəli çəkilməsi ilə bağlı maraqlı məqamlara toxunur:

«Eytinqon mənə deyir: gənc əməliyyatçı Əliyevə diqqət yetir – iranlılara qarşı ağılla, bacarıqla işləyir». Məxsusi olaraq Əliyevin nədə fərqləndiyi bilinmədi. Ancaq Meksikada Lev Trotskinin ləğv edilməsini təşkil edən, uzun illər dövlət təhlükəsizliyi orqanlarında ləğvetmə və diversiya xidmətinin rəis müavini işləyən general Eytinqonun sözlərinin nüfuzu böyük idi. Tezliklə Heydər Əliyevə «baxmaq» üçün əlverişli şərait də yarandı. «Kadrlar idarəsindən mənim yanıma altı, ya yeddi nəfər göndərmişdilər. Rəy verməyimi xahiş edirdilər – bu adamlar vəzifədə irəli çəkilməyə yarayırlar, ya yox. Demək olar, hamısı müsəlman respublikalarından olan milli kadrlar idi, Heydər Əliyev də onların sırasında. O, mənim gözümə hazırlıqlı, maraqlı göründü. Onunla bəlkə bir saata yaxın söhbət etdim. Ağlına söz ola bilməz, qətiyyətinə də. Hiss olunurdu ki, biclik bilən, sözün yaxşı, çekist mənasında çoxbilmiş adamdır.

Kadr işçisi zəng vurur:

– Necədir?

– Təəssüratım, – deyirəm, – onun xeyrinədir. Savadlıdır, oxumuş adamdır, başı yaxşı işləyir, tutduğunu buraxan deyil, inadkardır. Bizim işimizdən başı yaxşı çıxır. Öz respublikasında da şəraitə yaxşı bələddir. Azərbaycanda onu çəkinmədən əks-kəşfiyyat şöbəsinə müdir qoymaq olar. Məncə işləri yaxşı gedəcək. Ona bel bağlamaq olar»[14].

1953-cü ildə, Beriyanı kənarlaşdırandan sonra, DİN Məhkəmə şöbəsi və qanunsuz repressiyalar zamanı istifadə olunan xüsusi şuralar (OSO) ləğv edildi. İndi hökm çıxarmaq yalnız məhkəmə orqanlarının səlahiyyətinə verilirdi. Xüsusi şuraların fəaliyyət göstərdiyi müddətdə, 1934-1954-ci illərdə, onlar tərəfindən ölüm



cəzasına 10 min 101 nəfər məhkum edilmişdi. DİN ştatları 12 % azaldıldı və böyük təmizləmə işləri aparıldı. 1342 nəfər keçmiş orqan əməkdaşı məhkəməyə verilib müxtəlif cəza tədbirlərinə məhkum edildi. 2370 nəfər inzibati qaydada cəzalandırıldı[15].

DİN və DTK-da əhəmiyyətli dəyişikliklər baş verdi. Hər iki təşkilat bundan belə yalnız istintaq apara bilərdi: DİN – cinayət işləri üzrə, DTK – dövlət təhlükəsizliyi işləri üzrə. DİN-DTK-nın daxili prokurorluq institutu ləğv edildi. Stalin bir vaxtlar prokurorluğun əhəmiyyətini azaltmış, faktiki olaraq onu NKVD-yə tabe etmişdi. İndi isə əksinə, SSRİ Prokurorluğu çərçivəsində DİN və DTK-ya nəzarət edən şöbə yaradılmışdı[16].

Təbii ki, təmizləmə prosesi Azərbaycan DTK-sından da yan keçmədi və Heydər Əliyev onun fəal iştirakçıları sırasında idi. 1953-cü ilin sonlarından prokurorluq Stalin dövründə məhkum olunmuş insanların reabilitasiyası üzrə geniş miqyaslı aksiyaya başladı, bu məsələdə hüquq-mühafizə orqanları siyasi repressiya qurbanlarının işlərinə baxmaq üçün cəlb olunmuş DTK əməkdaşları ilə sıx təmasda işləyirdi. Odur ki, Azərbaycanın on minlərlə oğul və qızının həyatına son qoymuş 1937-38-ci il repressiyalarının miqyası Heydər Əliyevə XX qurultaydan və M.C.Bağırovun məhkəməsindən xeyli qabaq məlum olmuşdu. Respublika MTN arxiv idarəsində mənə dedilər ki, təkcə 1955-ci ildə Azərbaycan DTK-sında icraatda olan 5 min 800 işə baxılmış, onlardan 5 mininə əsassız açıldığı üçün xitam verilmiş, materiallar məhv edilmişdi. İşlərin çoxu saxtalaşdırılmış, şişirdilmiş, anonim siqnallar əsasında açılmışdı. O illər respublika prokurorunun xüsusi işlər üzrə müavini işləmiş İbrahim İsmayılov reabilitasiya prosedurunu belə xatırlayır:

«O vaxt əsl konveyer işləyirdi. Əvvəlcə DTK əməkdaşları işlərə təzədən baxır, əldə olan məlumatları yoxlayır və rəy hazırlayırdılar ki, bu şəxsin günahını sübuta yetirən dəlillər kifayət qədər deyil. Bu məsələ ilə əsasən Heydər Əliyevin xidmət etdiyi şöbə məşğul olurdu. Prokurorluq onların rəyi əsasında Ali Məhkəməyə protest hazırlayırdı. Ali Məhkəmə çıxarılmış hökmləri ləğv edərək insanları reabilitasiya edirdi.

Mən yalnız reabilitasiya məsələlərinə baxırdım. Prokurorluqda işlədiyim 1954-1958-ci illər ərzində, mənim əlimdən təxminən 35 min belə iş keçmişdi. Ayda 15-20 işə baxırdıq. Mən hesablamışam ki, Azərbaycanda təqribən əlli minə yaxın tanınmış

adam repressiya olunub. Bir çox incəsənət xadimi zindanlara atılıb – yazıçılar, dramaturqlar, artistlər, praktik olaraq tam tərkibdə Elmlər Akademiyasının aparatı repressiyaya məruz qalıblar. Rayonlarda kolxoz sədrləri, icrakom sədrləri, raykom katibləri tutulub. Uctantutma hamını həbs edirdilər. Ümumiyyətlə, Azərbaycanda repressiya olunanların sayı yüz mindən aşağı olmaz.

Həmin dövrdə repressiya olunanların reabilitasiyasında dövlət təhlükəsizliyi komitəsi əməkdaşlarının çox böyük rolu oldu. Sonradan Xruşşov repressiyaya görə bütün günahları haqsız olaraq dövlət təhlükəsizliyi orqanlarının üstünə yıxdı. Ancaq əsas repressiya orqanı MK idi, DTK yalnız icraçı funksiyasını yerinə yetirirdi. Xatirimdədir, biz onda Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Əhməd Cavadın, Yusif Vəzir Çəmənzəminlinin, Seyid Hüseynin işlərini qaldırdıq. Ədəbiyyatı çox sevən bir insan kimi Heydər Əliyev çalışırdı ilk növbədə bu işlərə baxılsın, bu adamları mümkün qədər tez reabilitasiya etsinlər».

Dövlət təhlükəsizliyi orqanlarının veteranı, polkovnik-leytenant Bəxtiyar Süleymanlı repressiya qurbanlarının işlərinə təzədən baxılmasını belə xatırlayır:

«1952-ci ilin sentyabrında mən DTN-in Horadiz stansiyasında yerləşən operativ məntəqəsinə göndərildim, 1953-cü il yanvarın 1-dən isə DTN-in Culfa stansiyasındakı operativ məntəqəsinə baş əməliyyat müvəkkili təyin edildim. 1954-cü ilin mayında operativ məntəqə DTK-nın xətti bölməsi oldu.

1954-cü ilin martında DTN-in adı dəyişdirilərək DTK oldu, sədr vəzifəsinə ordu generalı Serovu təyin etdilər. Serovun «tamamilə məxfi» əmri ilə repressiya olunmuşların arxiv işlərinə yenidən baxmağa başladıq. Bu əmrə əsasən dövlət təhlükəsizlik orqanlarının ən başlıca vəzifəsi 1937-1938-ci illərdəki repressiya qurbanlarının təmiz adını bərpa etmək oldu».

B.Süleymanlı Culfa şöbəsinin rəisi A.Məmmədovla birlikdə Tbilisidən 400 arxiv sənədi gətirdiklərini xatırlayır. O işlər əsasən 20-30-cu illərdə dəmir yolunun Culfa-Şərur hissəsində çalışanlara aid idi. «Nəzərə alsaq ki, xüsusi xidmət orqanlarının strukturundan asılı olaraq dəmir yolunun bu hissəsində təhlükəsizlik tədbirlərinə Yerevan və Leninakanda yerləşən VÇK-OQPU-NKVD orqanları baxırdı və icraçılar da əsasən ermənilər idi, o zaman istintaqda yol verilmiş dəhşətli ədalətsizliklərdən danışmaq artıqdır. Əgər xuliqanlıq, fırıldaqçılıq, oğurluq kimi adi



cinayət işini məhkəməyə göndərmək üçün bir neçə yüz səhifəlik istintaq materialı toplamaq lazım gəlirdisə, bizim gətirdiyimiz 400 işin əsas hissəsi 15-20 səhifəlik saxtalaşdırılmış istintaq materialından ibarət idi. Halbuki bu insanlar «ziyankarlıq», «terrorizm», «vətənə xəyanət» kimi ağır cinayətlərdə ittiham edilib uzunmüddətli həbs cəzasına, hətta güllələnməyə məhkum olunmuşdular. Özü də saxtalaşdırma o dərəcədə açıq-aydın və primitiv idi ki, həmin insanları reabilitasiya etmək üçün bizə bir o qədər də vaxt tələb olunmadı»[17].

Əvvəlki kimi yenə də hərbi əsirlərin işləri ilə məşğul olmaq lazım gəlirdi. Onların bir çoxu müharibədən sonra repressiya olunmuşdular. Əsirlər arasında faşistlərin təbliğatına uyub xarici legionlarda və Almaniya tərəfində üsyançı ordularda vuruşanlar az deyildi. Lakin sözün həqiqi mənasında qəhrəman talelərə də rast gəlmək olurdu. V.Andrianov və H.Mirələmovun «Heydər Əliyev» kitabında üç Bakı çekisti – A.Məmmədov, H.Əliyev və V.Bantserevin yuqoslav partizanları tərəfində şücaətlə vuruşmuş baş leytenant Mehdi Hüseynzadə haqqında sensasiya doğuran məlumatlar axtarıb tapdıqlarından danışılır. O bir çox cəsarətli əməliyyatlar həyata keçirmişdir. «Mixaylo»nun (döyüş yoldaşları onu bu adla çağırırdılar) başına hitlerçilər 300 min marka qiymət kəsmişdilər. Mehdi döyüşlərin birində həlak olmuş və Sloveniyada, Çepovane kəndi yaxınlığında torpağa tapşırılmışdır.

Ancaq respublika və ittifaq partiya rəhbərliyini «Mixaylo»nun adını əbədiləşdirməyin vacibliyinə inandırmaq üçün illər tələb olundu:

«1957-ci ilin yanvarında Azərbaycan Respublikası Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi respublika KP MK-ya M.Hüseynzadənin qəhrəmanlıqları haqqında müfəssəl arayış təqdim etdi. MK da öz növbəsində sənədləri Moskvaya göndərdi. 1957-ci il aprelin 11-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti Hüseynzadə Mehdi Hənifə oğluna Sovet İttifaqı Qəhrəmanı adı verdi (ölümündən sonra). Bu, rəşadətli partizanın döyüş dostları, qohumları və yaxınları, bütün Azərbaycan üçün böyük bayram idi. Bu bayramı doğma respublikaya, xalqa bəxş edənlər isə çekistlər idi – Məmmədov, Əliyev, Bantserev – Hüseynzadənin qəhrəmanlıq fəaliyyəti haqqındakı arayışda bu adlar belə ardıcıllıqla sadalanmışdır»[18].

Repressiya olunanların işləri ilə tanış olarkən, Heydər Əliyev istintaq altında olanlara işgəncə və əzab verməkdə, bu başdan saxta iş və ittihamnamələrin hazırlanmasında xüsusi «fədakarlıq» göstərən eyni XDİK zabitlərinin soyadlarına rast gəlirdi. Halbuki onlardan bir çoxu orqanlarda işləməkdə davam edirdi, o cümlədən onun şöbəsində. Çox sonralar o, DTK əməkdaşlarına tərcümeyi-halının bu çətin dövrü barəsində danışırdı: «Orqanlarda təmizləmə işləri aparanda, ora gənc kadrları cəlb edib, 30-cü illərdə Azərbaycana xəyanət etmiş adamları kənarlaşdırarkən böyük çətinliklərlə qarşılaşmalı olurduq. Onların çox hissəsi azərbaycanlı deyildi, hərçənd bu nalayiq insanların içində azərbaycanlılar da var idi. Bəli, bu çox çətin idi. O dərəcədə çətin ki, mənə qarşı provokasiya hazırladılar»[19].

Əliyevin xatırladığına görə, o öz şöbəsində işləyən bir neçə zabitin işdən azad edilməsinə və hətta həbs olunmasına nail olmuşdu. 2-ci şöbənin cavan rəisinin belə fəallığı DTK rəhbərliyində bəzilərini təşvişə saldı. Bununla bağlı Heydər Əliyev maraqlı bir hadisə danışmışdı: 1954-cü ilin əvvəlində o nazir müavini Ağasəlim Atakişiyevin yanına gəlir. Uzun müddət Bağırovla işləmiş general Atakişiyev «xozeyin» kənarlaşdırılandan sonra bir müddət öz vəzifəsində qalmışdı. Onu orqanlardan bir az sonra götürəcəklər, 1956-cı ildə isə Bağırovla bir yerdə mühakimə edib 25 il azadlıqdan məhrum edəcəklər.

Heydər Əliyev onun yanına bir neçə DTK əməkdaşı barəsində yığılmış ittiham materiallarını gətirir və deyir ki, onları nəinki orqanlardan xaric etmək, həbs etmək lazımdır. Atakişiyev qorxuya düşür, onu bu fikirdən daşındırmağa çalışır: cavan oğlansan, nəyinə gərəkdir, camaatla işin olmasın, sənsiz də keçinərlər, belə şeylər etmək olmaz. Ancaq Əliyev dediyindən dönmür: onların taqsırları, cinayət əməllərinin sübuta yetirildiyi şübhə doğurmur.

«Bir dəfə, iki dəfə, üç dəfə bu addımları atdım və sonra, 1955-ci ildə də bunların, həmin o cəsarətli addımlarımın qurbanı oldum»[20].

Ağasəlim Atakişiyev və orqanlarda olan digər yüksək rütbə sahibləri başa düşürdülər ki, bu ifşa kampaniyası qaçılmaz olaraq onların özlərinə, 1937-38-ci il repressiya siyasətini bilavasitə həyata keçirənlərə toxunacaqdır. Ona görə də özünü hədsiz müstəqil aparan 2-ci şöbə rəisini «yerində oturtmaq» qərarına gəldi-



lər. Özü də bu işi ən nalayiq, əfsuslar olsun ki, o dövrdə orqanlarda geniş tətbiq olunan kompromat üsulu ilə həyata keçirdilər.

İçəridən «ustalıqla şişirdilən» və istiqamətləndirilən məsələ respublika rəhbərliyinə və ittifaq DTK-sına çatır. Heydər Əliyevi orqanlardan xaric edə bilərdilər. Lakin son anda partiya xətti ilə töhmət və baş əməliyyat müvəkkili vəzifəsinə qədər kiçiltməklə kifayətlənmək qərarına gəldilər. Sonradan DTK əməkdaşları arasında belə bir versiya yayıldı ki, guya Heydər Əliyevi onun böyük qardaşı Həsən Əliyevlə dostluq edən Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi İmam Mustafayev qurtarıb. Amma Əliyevin kiçik qardaşı Cəlal müəllimin mənimlə bölüşdüyü mülahizə başqa cürdür: «Heydər birinci katib olanda bu hadisə ilə bağlı DTK-nın Azərbaycan KP MK-ya təqdim etdiyi arayışı qaldırır. Arayışın üstündə İmam Mustafayev öz əli ilə dərkənar qoymuşdu: «Orqanlardan çıxarılsın!» Yəni ki, onu Mustafayev yox, Moskva müdafiə etmişdi. Bu barədə mənə qardaşım özü danışıb». Bir müddət sonra, SSRİ DTK-sının yüksək rütbəli əməkdaşları ilə olan söhbətlərimdə mən bu versiyanın əsassız olmadığına inandım. Ehtimal ki, H.Əliyevin mərkəzi aparatdakı kuratorları hesab ediblər ki, bü cür qiymətli kadrların itirilməsinə yol vermək olmaz.

1955-ci ilin ortalarında Heydər Əliyev DTK-nın uçot-arxiv şöbəsinə baş əməliyyat müvəkkili göndərildi. Doğrudur, o burada çox ləngimədi. Düz yarım ildən sonra H.Əliyev 2-ci şöbənin bölmələrindən birində rəis müavini, sonra rəis vəzifəsində, yeni yenidən əməliyyat işində idi. Daha yarım il sonra növbəti vəzifə artımı: o 2-ci şöbəyə rəis müavini təyin olunur. 1958-ci ildə, 35 yaşında isə Heydər Əliyev artıq bütün Azərbaycan əks-kəşfiyyatına başçılıq edirdi.

General-leytenant Ziya Yusifzadə 50-ci illərin sonlarında Heydər Əliyevin bu cür sürətlə reabilitasiya olunmasını belə izah edir:

«Özlərini gözdən salmış DTK əməkdaşlarının işdən çıxarılması ilə bağlı onun 1953-1954-cü illərdə qaldırdığı məsələnin, 1956-cı ildə, Mir Cəfər Bağırovun məhkəməsindən sonra aktuallıq tapması öz sözünü dedi. Yəni, Əliyevin doğru olduğunu zaman sübuta yetirdi, baxmayaraq ki, Atakişiyev öz vaxtında ona demişdi ki, guya bu sənin səlahiyyətinə daxil deyil. Ən başlıcası isə Əliyev 2-ci şöbənin rəisi olan vaxt bu şöbənin əks-kəşfiyyat

uğurları əhəmiyyətli dərəcədə yüksək idi. O, əməkdaşlar sırasından kəskin surətdə seçilirdi. Baxmayaraq ki, orqanlara istedadlı, geniş dünyagörüşünə malik, xalqa, partiyaya sədaqətli adamları götürürdülər. Özü də ciddi, iki il, üç il yoxlayırdılar. Hətta bu fonda belə Əliyev öz təşkilatçılıq və analitik qabiliyyətinə görə nəzərəçarpan dərəcədə fərqlənirdi. Buna görə də qısa müddətdən sonra onu yenidən irəli çəkdilər».

SSRİ DTK rəhbərlərindən biri, F.Bobkov mənimlə olan söhbətində H.Əliyevin təkrarən 2-ci şöbənin rəisi vəzifəsinə irəli çəkilməsinə belə şərh verdi:

«Bu, məhz onun təmiz insan və güclü professional olmasına dəlalət edir. Burada onun iş keyfiyyətləri rol oynayıb».

Beləliklə, Heydər Əliyev olduqca mürəkkəb düyündən, çətin, dolaşıq vəziyyətdən sınmadan çıxa bildi. 1954-1955-ci illərdə onun təhlükəsizlik orqanlarında keçdiyi on illik yolun üstündən xətt çəkməyə cəhd göstərildi. Əliyevin bədxahları onun karyerasına birdəfəlik son qoyduqlarına, çox güman ki, yüz faiz arxayın idilər. Onlardan heç birinin ağlına belə gəlməzdi ki, bir neçə il keçəcək və bizim qəhrəmanımız vəzifə iyerarxiyasının ən yüksək pillələrinə qalxacaqdır – əvvəlcə DTK-da, sonra isə partiya orqanlarında.

Deyirlər ki, insanın taleyi elektron çipində olduğu kimi, onun adında proqramlaşdırılıb. Heydər adı «İrəlidə şığıyan atlı» mənasını verir. Mənim qəhrəmanım həqiqətən də bəxti gətirən süvari idi. Tarixin ən kəskin döngələrində belə özünü yəhərdə saxlayıb finişə çatmağı bacarırdı...

## Bütlərin devrilməsi

Repressiyaların əsl miqyası XX qurultayda Xruşşovun «məxfi» məruzəsi ilə tanış olduqdan sonra dərk olundu. Xruşşovun 1956-cı il fevralın 25-də Stalinin şəxsiyyətinə pərəstişi ifşa edən məruzəsi bomba kimi partladı. İnsanların düşüncə və ürəyində əsl inqilabi çevrilişə səbəb oldu, sovet dövlətinin totalitar bünövrəsini sarsıtdı, beynəlxalq kommunizm hərəkatında ciddi böhrana gətirib çıxartdı.



Sonralar Xruşşov özü sensasiya yaradan məruzəni hansı şəraitdə oxuduğunu xatırlayırdı: «Nümayəndələr nəfəs dərmədən qulaq asırdılar. Böyük zalda elə sakitlik hökm sürürdü ki, milçək uçsaydı eşidilərdi. İnsanların partiya üzvlərinə qarşı törədilən vəhşiliklərdən xəbər tutanda nə dərəcədə heyrətə gəldiklərini təsəvvürə gətirmək çətindir»[21].

Sonralar məruzənin mətni «çap üçün deyil» qrifi ilə kitabça şəklində ölkənin partiya komitələrinə göndərildi və onların keçirdiyi iclaslarda da eyni ab-hava hökm sürürdü. Mən Azərbaycanın DTK veteranlarını Stalin şəxsiyyətinə pərəstişə və ümumiyyətlə Xruşşovun nitqinə necə münasibət bəslədikləri haqqında sorğu-suala tuturdum. Cavablar müxtəlif idi, ancaq hamı həmin gün eyni hissi keçirdiyini dilə gətirirdi: şok. Axı bir çoxları Stalinə səcdəgah kimi baxırdı. Ona inanırdılar, ona sitayiş edirdilər. O cümlədən də bizim qəhrəmanımız. Sonralar o, müsahibələrinin birində xatırlayırdı:

«Stalin dövründə sistem elə idi ki, hətta repressiya olunanlar da onu Allah sayırdı. İnsanlar qəti əmin idilər ki, bu ölkə, onların hamısı Stalinsiz yaşaya bilməz. Ona görə də Stalinin ölümü hamını sarsıtdı, o cümlədən məni də, Zərifə xanımın ailəsini də. İndi ölkənin başına nə gələcək?»*.

SSRİ DTK-sının sabiq sədri V.Kryuçkov da kitabında bu barədə danışır:

«O dövrdə yaşayan insanlar üçün Stalin hər şey idi. Əhalinin böyük əksəriyyəti ona tam müsbət yanaşırdı, sitayiş edirdi, hər bir sözü ilə razılaşırdı və hər bir göstərişinə əməl etməyi özünə borc bilirdi. Əksər hallarda İ.V.Stalinin bu və ya digər mühakiməsində nə dərəcədə doğru olduğu barədə heç sual da doğmurdu. Hər şey dəlil-sübutsuz qəbul olunur və sözsüz yerinə yetirilirdi... Stalinlə bağlı nə vardısa, gerçəklik kimi qavranılırdı, onun bütün ideyaları nəyin bahasına olursa olsun həyata keçməli idi»[22].

Ziya Yusifzadə yada salır ki, qapalı partiya iclasında məruzə oxunduqdan sonra «hamı cansıxıcı əhval-ruhiyyədə, çaşqınlıq, heyrət içində idi. DTK əməkdaşları xüsusilə pis vəziyyətə düşmüşdülər – guya dövlət təhlükəsizliyi orqanlarıdırlar, amma özləri qanunsuz əməllərlə məşğul olublar». Amma eləri də vardı ki, bütün bunlara inanmırdılar, deyirdilər ki, Xruşşov çox davam gə-

* V. Mustafayevin «Bir məhəbbətin tarixi» filmindən.

tirməyəcək. Kuluarlarda şəxsi ambisiyalarına görə Stalinə hücum çəkən «boşboğaz» haqqında «qorxulu» söhbətlər gedirdi. Doğrudan da, tale «gülümsünüb» elə səhnə qurmuşdu ki, Stalin cinayətlərini açıb tökən adamın özü güllələnmə siyahılarına şəxsən sanksiya verən, iclaslarda «xalq düşmənlərini» hamıdan qızğın ifşa edənlərdən biri idi.

İbrahim İsmayılov xatırlayırdı ki, «əvvəlcə biz şokda idik, özümüzü itirmişdik. Sonra yavaş-yavaş məsələ aydınlaşdı. XX qurultay gedən vaxtı mən Moskvada idim. Vilayət prokuroru vəzifəsinə təsdiq etmək üçün adamları ora yığmışdılar. SSRİ baş prokurorluğunda bizi qurultay materialları ilə tanış etdilər, dedilər ki, bütün bu zir-zibildən təmizlənmək üçün qabaqda xeyli iş var.

Heydərlə biz bunu ruh yüksəkliyi ilə qarşıladıq. Axı Azərbaycanda elə ailə tapmaq çətindir ki, orada repressiyaya məruz qalan olmasın. Bu adamların taleyi bizi ağrıdırdı».

Təxminən eyni vaxtda Azərbaycan çekistləri, elə bütün respublika əhalisi, bəlkə də əvvəlkindən də güclü olan yeni bir sarsıntı yaşadı – Bakıda Azərbaycanın keçmiş partiya lideri Mir Cəfər Bağırovun açıq məhkəmə prosesi başlandı. Müttəhimlər kürsüsündə Bağırovla bir yerdə onun silahdaşları əyləşmişdi – güc nazirliklərinin rəhbərləri A.Atakişiyev və S.Yemelyanov, eləcə də onların müavinləri T.Borşşov, X.Qriqoryan, R.Markaryan. Ən qanlı narkom – Yuvelian Sumbatov-Topuridze barəsində cinayət işinə xəstə olması ilə əlaqədar xitam verilmişdi. Tarixçi E.İsmayılovun sərrast ifadəsinə görə, bu prosesin təşəbbüskarı olan Moskva «onu beynəlmiləlləşdirmişdi (2 azərbaycanlı, 2 rus, 2 erməni). Bununla da Azərbaycandakı kütləvi repressiyalara görə məsuliyyət müttəhimlər kürsüsündə Yemelyanov və Borşşovla təmsil olunan Mərkəz, Markaryan və Qriqoryanla təmsil olunan ermənilər, Bağırov və Atakişiyevlə təmsil olunan yerli hakimiyyət arasında bölüşdürülürdü»[23].

Bağırov repressiyalarda iştirak etməkdən əlavə, tərcümeyi-halında bəzi qaranlıq faktları gizlətməkdə, Müvəqqəti hökumətin qəza komissarı Əlibəy Zizikski ilə əməkdaşlıqda və daşnak qulduru Amazaspın dəstəsində rüsvayçı iştirakına görə ittiham edilirdi. Bağırovun ünvanına səslənən ən əsas ittihamlardan biri ondan ibarət idi ki, o, Beriyanın müsavat əks-kəşfiyyatında işləməsindən xəbərdar olduğu halda bu faktı gizlətmiş, hətta Beriyanı bu və ya digər şəkildə ifşa edən bütün sənədləri arxivlərdən götürüb ona vermiş, bunun müqabilində Beriya bütün karyerası boyu Bağırovu dəstəkləyərək yüksək vəzifələrə irəli çəkmişdir.



İttihamnamədə yüzlərlə, minlərlə siyasi repressiya qurbanlarının işlərinin saxtalaşdırıldığı, həmçinin istintaq altında olanlara işgəncə verilməsində, döyülməsində Bağırovun şəxsən iştirak etdiyi göstərilirdi. Bağırov tərəfindən ədalətsiz olaraq əksinqilabçı fəaliyyətdə ittiham olunan və sonradan güllələnənlər sırasında mərkəzi komitə katibləri Ruhulla Axundov və Əliheydər Qarayev, ZSFSR Xalq Komissarları Şurasının sədri Qəzənfər Musabəyov və onun müavini Mirzə Davud Hüseynov, Azərbaycan hökumətinin keçmiş rəhbərləri və üzvləri Sultan Məcid Əfəndiyev, Hüseyn Rəhmanov, Heydər Vəzirov, Dadaş Bünyadzadə və bir çox başqalarının adları çəkilmişdir. Eyni zamanda məhkəmə zamanı başqa səpgidən olan faktlar, məsələn Bağırovun keçmiş müsavatçıları, bəy və mülkədar ailələrinin üzvlərini və digər «antisovet» ünsürləri təqib və güllələnməkdən yayındırması da göstərilmişdir.

Azərbaycan öz müstəqilliyini qazandıqdan və ADR-in müsavat hökumətinin siyasi reabilitasiyasından sonra Bağırovun ünvanına söylənən bir çox ittihamlar nəinki öz aktuallığını itirmişdir, hətta daha çox onun xeyrinə səslənir. O ki qaldı onun 1937-ci ilin dəhşətli repressiyalarına görə daşıdığı məsuliyyətə, sözsüz ki, o çox böyük günahlar içindədir. 1993-cü ildə çapdan çıxmış «Bağırovun məhkəməsi» kitabında müttəhimin istintaq zamanı və məhkəmənin gedişində söylədiyi bəzi mülahizələri misal gətirilir. Onlardan biri:

«Mənim əsas səhvim odur ki, Beriyaya və onun düşmən mövqeyini müdafiə edən, orqanlarda birgə iş üzrə onunla uzun illər boyu əlaqədə olan Sumbatov, Borşşov, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİK orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça eləmək lazımdır»[24].

Ancaq hər halda, Bağırovun təqsirini yüngülləşdirən səbəblər var idi: bu qanlı hadisələrin təşkilatçısı o deyildi. O, bu dəhşətlərin itaətkar icraçısı, bəlkə də qurbanı idi. Kremlin göstərişi ilə o illərdə bu cür repressiyaları Ukraynada Xruşşov, Ermənis-

tanda Arutyunov, Rusiyada Kaqanoviç, Mikoyan, Voroşilov həyata keçirirdilər. Xruşşovun xatırladığı kimi, XX qurultay ərəfəsində bu adamların hər vechlə onu bu «düşüncəsiz» addımdan çəkindirməyə çalışmaları təsadüfi deyil. Çünki anlayırdılar: Stalin cinayətlərinin bütün ağırlığı onların da üstünə düşür. Məruzənin layihəsi Rəyasət Heyətində müzakirə edilən zaman Xruşşovun opponentləri öz vaxtında onların «açıq və tərk-silah olmamış xalq düşmənlərinə» qarşı fiziki təsir metodlarından istifadə edilməsi haqqında MK-nın 1937-ci ildə qəbul etdiyi qərarı qeyd-şərtsiz dəstəklədiklərini, Siyasi Büroda dəhşətli kütləvi güllələnmələr barədə sərəncamlara dinməz-söyləməz səs verdiklərini, Yejov və Beriya ilə birlikdə «əsl talan və təmizləmə» işləri həyata keçirdiklərini Xruşşovun yadına salırdılar. «Bəs özün haqqında nə deyəcəksən, Nikita? Axı hamımızın bu işlərdə əli var...»[23].

Məhkəmə prosesində dövlət ittihamçısı, SSRİ baş prokuroru R.Rudenko tanış olmaq üçün Bağırova Stalin tərəfindən imzalanan, məhv edilməli adamların adı göstərilmiş bir sənəd təqdim etdi. Həmin «güllələnmə» siyahılarını o illər respublika prokurorluğunda reabilitasiya məsələlərinə baxan İbrahim İsmayılov görmüşdür. O xatırlayır:

«İşləri qaldırmağa başlayanda, həbs olunmalı və məhv edilməli adamların Siyasi Büroda təsdiq olunmuş siyahılarını Moskvadan alanda, bunun əsl qırğın olduğunu anladım. Üç belə siyahı var idi. Moskvada təsdiq olunduqdan sonra onların əsasında yerlərdə həbslər aparılırdı. Bağırov məhkəmədə deyəndə ki, repressiyalarda günahı yoxdur, yalnız göstərişləri yerinə yetirib, o məhz bu siyahıları nəzərdə tuturdu. O siyahıları burada, Azərbaycanda hazırlayırdılar, ancaq bizim aparat əməkdaşları yox, Moskvadan gəlmiş adamlar. Onlar yerlərdə material yığır, siyahılar tərtib edir, sonra Moskvaya göndərirdilər, orada bu siyahıları təsdiq edib geri qaytarırdılar. Burada isə alınan göstərişlər əsasında həbslər aparıb güllələyirdilər.

Birinci siyahıda yalnız rəhbər işçilərin adları idi. İkincidə - idarə, şöbə rəisləri, yəni orta qurumların rəhbərləri. Üçüncü siyahıda isə guya antisovet terrorçu təşkilatların üzvləri. Orada ədəbiyyatçı da var idi, kolxozçu da. Məsələn, Əli Bayramlıda, Şamaxıda bəzi kəndləri ucdantutma həbs edirdilər, camaat guya Sovet hakimiyyətini devirməyə hazırlaşırmış».



Məhkəmə prosesində olmuş DTK veteranı Bəxtiyar Süleymanlı mənə o vaxtkı təəssüratları haqqında danışmışdır:

«1956-cı ildə mən Culfada baş əməliyyat müvəkkili işləyirdim. Bundan əlavə Culfa stansiyasındakı DTK şöbəsinin partiya təşkilatının katibi idim.

Mart ayından Bakıda, Dzerjinski adına klubda Mir Cəfər Bağırovun məhkəməsi gedirdi. Böyük zala dəvətnamə ilə buraxırdılar, iki-üç günlük dəvətnamələri şəhər, rayon partiya və sovet rəhbərlərinə, orta və aşağı qurum rəhbərlərinə verirdilər. Prosesə maraq böyük idi, az qala bütün Azərbaycan ora düşmək istəyirdi. Kiçik zal da ağzına qədər dolu idi, orada reproduktor qoymuşdular. Məni və şöbə rəisi Əhməd Məmmədovu Bakıya çağırdılar və prosesə getmək üçün dəvətnamə verdilər.

Yadımdadır, bizim arxamızda Ruhulla Axundovun həyat yoldaşı əyləşmişdi, hey gözlərinin yaşını yaylıqla silirdi. Elə biz özümüz də hərdən göz yaşlarını saxlaya bilmirdik, xüsusən də repressiya qurbanları və ya onların ailə üzvlərinin çıxışları zamanı. Onlardan bəziləri ifadə verərkən huşunu itirirdi, həkim çağırmalı olurdular.

Eşitdiklərimizdən tükümüz ürpəşirdi. Prosesi baş prokuror Rudenko aparırdı, o ittihamçı qismində çıxış edirdi. Azərbaycanın keçmiş DTN rəhbərləri Markaryanı, Qriqoryanı, Borşşovu, nazirlər Yemelyanovu, Atakişiyevi və başqalarını az qala qolundan tuta-tuta gətirirdilər, o qədər ki, miskin vəziyyətdə idilər. Bağırov onlardan sonra içəri gəlirdi: sakit, təkəbbürlü. Bir dəfə Ağasəlim Atakişiyevdən soruşdular: «Sən öz kabinetində filankəsi döymüsən. Bu necə olub, məhbusları döymək, zor gücünə onlardan ifadə almaq tapşırığını sənə kim vermişdi?» Onun əlqolu əsir, əməlli bir söz söyləyə bilmirdi. Onda Bağırov əlini qaldırdı: «Siz bu qorxaqdan nə soruşursunuz? Onun o vaxt da öz sifəti yox idi, indi də. Kim idi ki, o? O mənim göstərişlərimi icra edib». Məhkəmədə hamı Bağırovun cəsarətinə, özünü aparmağına heyran qalmışdı.

Qərəz, iki gün bir göz qırpımı kimi gəlib keçdi. Biz bir qədər də prosesdə iştirak etmək istəyirdik. Və Əhməd bu xahişlə Heydər Əliyevə ağız açdı. O, dəvətnaməni iki gün də uzatmağa kömək etdi».

H.Əliyev demək olar ki, Dzerjinski adına klubu tərk etmirdi (o, prosesin mühafizə təminatı ilə məşğul olurdu). Şübhə yoxdur ki, Bağırovun məhkəməsi ona güclü təsir etmişdi. Sonralar MTN əməkdaşları qarşısında çıxış edərkən o, «bu məhkəmə iclasları bu gün də mənim yaddaşımdadır» söyləmişdir. Azərbaycanı 20 il təkbaşına idarə etmiş bir insanın şəxsiyyətinə gənc dövlət təhlükəsizliyi zabitinin münasibəti necə idi? Heydər Əliyevin özü çoxsaylı çıxışlarında, müsahibələrində bu mövzuya demək olar ki, heç vaxt toxunmurdu, təkcə 1997-ci ildə, Azərbaycan dövlət təhlükəsizliyi orqanına rəhbərlik etmiş adamları sadalayarkən ötəri qeyd etmişdir: «1920-ci ildən sonra bir dəfə Mircəfər Bağırov bu orqanın başında olub, – onun da tərcümeyi-halı və Azərbaycan xalqı qarşısında etdiyi cinayətlər sizə məlumdur»[26].

Ancaq, mənə elə gəlir ki, gənc H.Əliyevin Bağırova münasibəti heç də birmənalı olmayıb. Bir tərəfdən, o, Stalin dövründə böyüyüb və şəxsiyyət kimi formalaşıb. Stalin və Bağırovun adı ilə, onların bəyan etdikləri dəyərlərə olan sonsuz inam hissi ilə yaşayıb və işləyib. Bütün bunları bir anın içində hesabdan silmək, üstündən xətt çəkmək çətin idi. Digər tərəfdən, onun amansız repressiya və qanunsuzluqlardan xəbəri vardı, başa düşürdü ki, partiya hüquq-mühafizə orqanlarında qayda-qanunun bərpasına sözdə yox əməldə başlayıb və bütün bunlar «stalinizm sindromunu» daxilən əzab çəkmədən dəf etməyə imkan yaradırdı. Bir də ki, o sevdiyi qızla yalnız Stalinin ölümündən və Bağırovun həbsindən sonra qovuşa bildi*.

Hər necə olsa da, dövlət təhlükəsizliyi orqanlarındakı iş metodlarına, həyat duyumu və baş verən hadisələrə münasibətinə görə Heydər Əliyevi tam əsasla Xruşşov «mülayimliyi» dövrünün adamı hesab etmək olar. İbrahim İsmayılov da bu fikirdədir: «Bu axı olduqca mürəkkəb keçid mərhələsi idi – stalinizmdən Xruşşov dövrünə, sonra isə Brejnev idarə üsuluna. Bu dövrdə əsas məsələ işə olan münasibətini dəyişmək idi. Heydər Əliyev bunun öhdəsindən gəldi. O yeni məqsədlərə nail olmaq üçün özündə qüvvə tapa bildi».

* Heydər Əliyevin həyat yoldaşı Zərifə xanıma olan böyük hisslərindən kitabın gələn fəsillərində söhbət açılır.



* * *

1957-ci ildə Heydər Əliyev Kirov adına Azərbaycan Dövlət Universitetinin diplomunu aldı. Anket göstəricilərində olan boşluğu doldurmaq üçün o, beş il işdən ayrılmadan, artıq ailə qayğısı çəkə-çəkə mühazirə və seminarlarda iştirak etdi, məqbul və imtahan verdi. Ali savadlı mütəxəssis olmaq istəyində bizim qəhrəmanımız tək deyildi: müharibə bir çox nomenklatura işçisinə ali təhsil almağa mane olmuşdu. Müharibədən sonra partiya, sovet, hüquq-mühafizə orqanlarında çalışan praktiklərin böyük hissəsi ali məktəblərin qiyabi şöbələrinə üz tutdu. Axı, diplomun olmaması gələcək vəzifə artımı üçün maneə ola bilərdi.

Maraqlıdır ki, həmin o il ADU-ya Heydər Əliyevlə pedaqoji texnikumda eyni kursda oxumuş Dövlət Məmmədov da daxil olur. O bu barədə belə danışır:

«1951-ci ildə mən universitetin tarix fakültəsinə daxil olmaq qərarına gəldim. Və Heydər Əliyevlə bir qrupa düşdük. Yadımdadır, rus dili imtahanında imla yazırdıq. O qabaqda oturmuşdu. Yazıb qurtaranda mənə tərəf döndü: «Ver baxım!». Sonra göstərməyə başladı: «Burada artıq «myaqkiy znak» qoymusan, burada isə buraxmısan». Onun sayəsində mən bu fəndən «dörd» aldım, o birilərindən isə «beş».

Mən institutda da özümü ona oxşatmağa çalışırdım: məğrur, şax hərbçi yerişinə, kostyum geyinməyinə, qalstuk taxmağına. Onun danışıq tərzinə, natiqlik məharətinə».

Qırx ildən sonra, 1998-ci il may ayının 14-də Azərbaycan prezidenti universitetdə bir kursda oxuduğu tələbələrlə görüş təşkil edəcək. Dövlət Məmmədov və Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarındakı həmkarı Nadir Əhədov da onların arasında olacaq. Kitab üçün material toplayarkən, mən çox istədim ki, Nadir Əhədovla görüşüm, çünki bu şəxs 1945-ci ildən Naxçıvan XDTK-da Heydər Əliyevin rəhbərliyi altında işləyib. Əfsuslar ki, qismət olmadı: bir neçə il bundan qabaq Nadir müəllim dünyasını dəyişdi. Maraqlıdır ki, Əhədov Heydər Əliyevlə eyni gün, eyni ay və eyni ildə doğulmuşdur. Universitetə də 1951-ci ildə bir yerdə daxil olmuşdular. Prezidentlə görüşdə Əhədov, erkən gənclik çağlarında H.Əliyevin necə tələbkar rəis olduğundan, DTK-da işin hədsiz çox olmasına baxmayaraq, universitetdə dərslərə nə qədər məsuliyyətlə yanaşmasından danışırdı. Onunla bir

kursda oxuyan həmkarlarını da dinc buraxmırdı: «Sessiya vaxtı biz gərək bütün mühazirə və seminarlarda iştirak edək ki, başqaları bizdən nümunə götürsün». H.Əliyevin bu sözləri Nadir Əhədovun yadından çıxmayıb. Yeri gəlmişkən, Heydər Əliyevin çekist həmkarı, Azərbaycanın gələcək daxili işlər naziri Arif Heydərov da universitetə onunla bir yerdə daxil olmuşdu. Mənim qəhrəmanımı bu bənzərsiz insanla yalnız 1978-ci ildə Heydərovun faciəli ölümü ilə qırılan uzun illərin dostluq telləri bağlayırdı*.

S.M.Kirov adına ADU-nu bitirəndən bir il sonra Heydər Əliyev öz «həyat məktəbini» Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin 2-ci şöbəsinin rəisi vəzifəsində davam etdirəcəkdir.

## Əks-kəşfiyyat rəisi vəzifəsində
### (1958-1964-cü illər)

XX əsrin 50-ci illərinin axırı – 60-cı illərinin əvvəllində SSRİ-də siyasi və mədəni-ictimai həyatın bütün sahələrində «Xruşşov mülayimliyi» adı altında qızğın islahatlar həyata keçirilirdi. «Dəmir pərdə» müəyyən qədər zəifləmiş, bir çox yazıçı, artist, alim xaricə gedib-gəlmək imkanı əldə etmiş, qərb teatr və konsert qrupları SSRİ-yə qastrollara gəlməyə başlamışdı. Ədəbiyyatın ictimai həyata təsiri gündən-günə güclənirdi. Moskvada «Yunost», «Moskva», «Naş sovremennik» və başqa jurnallar nəşr olunmağa başlamışdı. Y.Yevtuşenko, R.Rojdestvenski, A.Voznesenski, B.Axmadulina, B.Okudjava kimi şairlər sovet gənclərinin düşüncəsinə hakim kəsilmişdilər.

Azərbaycanda da milli şüurun dirçəlişi, xalqın tarixinə, dilinə, folkloruna marağın oyanması prosesləri baş qaldırırdı. İctimai abhavanın mülayimləşməsi şəraitində Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri, görkəmli yazıçı Mirzə İbrahimovun təşəbbüsü ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunması barədə diskussiya başlandı, məsələnin mətbuat səhifələrində açıq müzakirəsi keçirildi. Nəticədə 1956-cı ildə Azərbaycan SSR

* H.Əliyev və A.Heydərovun münasibətlərindən və sonuncunun faciəli ölümündən romanın ikinci hissəsində söhbət açılacaqdır.



Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə böyük tarixi əhəmiyyət daşıyan maddə əlavə etdi[27].

Hüseyn Cavid, Mikayıl Müşviq, Yusif Vəzir Çəmənzəminli kimi reabilitasiya olunmuş yazıçı və şairlərin əsərləri tədricən öz oxucularına qaytarıldı. Bəxtiyar Vahabzadənin «Gülüstan», Rəsul Rzanın «İmtahan günləri» poemaları dildən-dilə gəzirdi. Azərbaycanı iki parçaya bölən rus çar üsul-idarəsi və İran monarxiyasına qarşı ilk dəfə səslənən açıq, qəzəbli ittihamlar «Gülüstan» poemasını «altmışıncılar» poeziyasının nümayəndələri üçün bayrağa çevirdi. Əsəri əldən-ələ ötürürdülər, üzünü köçürürdülər, gizli yayırdılar, əzbərləyirdilər. Bir qrup Azərbaycan tarixçisi uzun illərdən bəri ilk dəfə olaraq Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanovun fəaliyyətinə layiqli qiymət verən «Azərbaycan Kommunist partiyasının tarixi» adlı fundamental toplu çap etdi*. «Azərbaycan incəsənəti» almanaxının**, Azərbaycan və rus dillərində «Bakı» axşam qəzetinin, uşaqlar üçün «Göyərçin» jurnalının nəşrləri də bu dövrə təsadüf edir. 1956-cı ildə ilk dəfə olaraq paytaxt sakinlərinin mənzillərində «mavi işıq» yandı – Bakı telestudiyası fəaliyyətə başladı[28].

Sovet İttifaqının xarici siyasəti fəallaşırdı. Nikita Xruşşov Qərblə əlaqələri tənzimləmək istiqamətində müəyyən qədər uğurlu addımlar atırdı. 1959-cu ilin sentyabrında Xruşşovun ABŞ-a ilk səfəri «nəinki əlamətdar, hətta tarixi hadisə idi, çünki bu, Sovet dövləti və Sov.İKP rəhbərinin Amerika Birləşmiş Ştatlarına ilk səfəri idi. Xruşşovun Amerika səfərinin nəticəsi SSRİ ilə qərb ölkələri arasındakı əlaqələrdə baş verən ümumi yumşalma oldu»[29].

1960-cı illərin əvvəllərindən başlayaraq Xruşşovun təkidi ilə Hərbi-Dəniz donanmasının qüdrətli döyüş gəmiləri doğranmağa və əridilməyə göndərildi, ağır təyyarələr azaldılmalı ya da məhv edilməli idi. Bir sıra digər silah növlərini də həmin aqibət gözləyirdi, onları strateji təyinatlı raketlər əvəz edirdi. Bu qadağa hətta

* Sonradan Xruşşovun göstərişi ilə bu toplu «Kommunist» jurnalında «milli məhdudiyyətə» və «keçmişi ideallaşdırmasına» görə tənqid hədəfi oldu.
** Ananın təşəbbüsü ilə almanaxın adı sonradan dəyişdirilərək «Qobustan» qoyuldu.

yeni növ atıcı silahların yaradılmasına da aid edilmişdi. Bir sıra müdafiə yönlü elmi-tədqiqat institutları bağlandı.

1960-cı il yanvar ayının ortalarında SSRİ Ali Sovetinin xüsusi sessiyası Xruşşovun məruzəsi əsasında «SSRİ Silahlı Qüvvələrində yeni böyük ixtisar haqqında» qanun qəbul etdi. İxtisar və yenidənqurma dövlət təhlükəsizliyi orqanlarına da sirayət etdi. Sonralar Heydər Əliyev bunu belə xatırlayırdı: «1960-cı ildə bu orqanlarda geniş ixtisar aparıldı. Ola bilər, xatirinizdədir, Sovetlər İttifaqının ordusunda təxminən 1 milyon 200 min adam ixtisar edildi, o cümlədən təhlükəsizlik orqanlarında da ixtisar aparıldı. O vaxt beş şöbəni birləşdirdilər. Mən onlardan birinin rəisi idim. Belə oldu ki, beş şöbəni birləşdirərkən birləşmiş şöbəyə rəis məni təyin etdilər»[10]. H.Əliyevin genişləndirilmiş 2-ci şöbəyə rəis təyin olunması haqqında əmr 1960-cı il fevralın 5-də imzalanmışdı.

Dövlət təhlükəsizliyi orqanlarının rayon şöbələrində də böyük ixtisarlar oldu. Məsələn, ehtiyatda olan podpolkovnik Cabbar Bəylərov yada salır ki, «DTK-nın beş rayon – Lənkəran, Salyan, Masallı, Yardımlı və Astara şöbələrinin bazası əsasında Lənkəran şöbəsi yaradıldı. O biri dörd şöbənin rəislərini ixtisara saldılar, kimi təqaüdə çıxdı, kimi başqa işə keçdi. Mən onların içində ən cavanı idim, bəlkə elə buna görə məni saxladılar».

Ziya Yusifzadənin sözlərinə görə, şöbə, təşkilati dəyişiklikdən sonra əməkdaşlarının sayına (yüz nəfədən artıq!) və çoxşaxəli stukturuna görə bir növ komitənin içində komitə oldu. Onun tərkibində sənaye, nəqliyyat, ideoloji və s. məsələlərlə məşğul olan qurumlar birləşmişdi. Bu şöbənin rəhbəri öz spesifik xüsusiyyəti və miqyasına görə ən müxtəlif problemləri həll etməli olurdu – casus və diversantların aşkar edilməsindən tutmuş, mənzil və sanatoriya yollayışlarının bölüşdürülməsinə qədər.

* * *

Dövlət təhlükəsizliyi orqanları bu yeniliklərdən kənarda qala bilməzdi, xüsusən də 1958-ci ildə İ.Serovun yerinə (onun boynunda çox günahlar var idi, müxtəlif qeyri-qanuni aksiyalardan tutmuş repressiyalarda iştiraka qədər) SSRİ DTK-sının başçısı postuna ÜİLKGİ MK-nın birinci katibi, 38 yaşlı Aleksandr Şelepin təyin olunandan sonra. O bütün DTK idarələrini əsaslı sürətdə təmizləməyə başladı, «bu idarənin bir çox üzvü təqaüdə



göndərildi, digərləri müxtəlif müəssisələrin kadrlar şöbəsinə, xırda təsərrüfat təşkilatlarında müxtəlif növ hərbiləşdirilmiş mühafizə rəisləri təyin edildilər. DTK-nın yeni kadrları əsasən nisbətən cavan komsomol işçilərindən seçilirdi»[11].

Üç ildən sonra «dəmir Şuriki» DTK sədri vəzifəsində əvəz etmiş V.Semiçastnı, sonralar bu praktikanı müsbət dəyərləndirərək DTK-da Şelepinin işini davam etdirdiyini fəxrlə qeyd edirdi: «Partiya işində təcrübəm var idi, biz adamları DTK-ya partiya çağırışları əsasında seçirdik, o vaxt Komitəyə çoxlu istedadlı işçi gəldi... DTK-nın ştatı tamamilə dəyişildi. Köhnə vaxtlardan təktük işçi qaldı»[12].

Düzdür, köhnə kadrlar təzə gələnləri ehtiyatla qarşılayırdılar, bəzən tamamilə haqlı olaraq onların peşəkarlığına şübhə ilə yanaşırdılar. DTK veteranları mənə söyləyirdilər ki, o vaxt partiya və komsomol yollayışları ilə orqanlara təsadüfi adamlar da gəlib düşmüşdü və bir çox hallarda bu, operativ işin keyfiyyətində özünü göstərirdi. Qeyri-professionallığın bariz nümunələrindən biri 1956-cı ildə Azərbaycan DTK-sının sədri vəzifəsində peşəkar çekist Quskovu əvəz etmiş Fyodor Kopılov idi. Bu rəhbər işçinin adı ilə bir çox məzəli hadisə və 50-ci illərin sonunda respublika dövlət təhlükəsizliyi orqanlarında baş vermiş ciddi konflikt bağlıdır.

«Bundan əvvəl Kopılov Kursk vilayət partiya komitəsinin katibi işləmişdi. Dedikcə düz, təmiz adam idi. Ancaq bizim işimizdən başı çıxmırdı. Özü də Azərbaycanı tanımadığından, yerli adət-ənənələri bilmədiyindən bəzən məsələ absurd dərəcəsinə çatırdı. Bir misal gətirim: rayonların birində kolxoz sədrinin oğlunu öldürürlər. Güman edilən canini tutub bizim istintaq təcridxanasına salırlar. O da öz kamera yoldaşına danışır ki, bəs, mənim, doğrudan da, öldürülən adamla aram yox idi, ancaq «bir Həzrət Abbas bilir ki, onu mən öldürməmişəm». Bu söhbəti Kopılova çatdıranda, o qəzəblənir: «Bəs deyirsiniz heç kim bilmir. Bu Həzrət Abbası tapın və dindirin». Bizdə 4-cü şöbənin rəisi ləzgi idi – Şıx İsmayılov. O, generalı «başa salır»: «Fyodor İvanoviç, Xazrat Abbas – eto svyatoy çelovek, proruk»*. Nə deyəsən, həm gülməlidir, həm ağlamalı.

---

* Rus dilində təhrif edilmiş «prorok» - peyğəmbər.

Kopılovla bağlı daha bir epizod. 1958-ci ilin sonlarında Azərbaycan DTK-sının bir neçə şöbə müdiri İmam Mustafayevə müraciət edərək onun qəbuluna düşmək istədiklərini bildirirlər. Görüş zamanı onlar DTK sədrinin işdən götürülməsini xahiş edirlər. Böyük səs-küy qopur, narazılığın səbəblərini araşdırmaqdan ötrü Şelepin Moskvadan katibliyin rəis müavini general Qomozovu göndərir.

Gəlib yoxlama aparırlar, nəticələrini Mustafayevə məruzə edirlər. Kopılovun mütəxəssis, peşəkar olmaması faktları əsasən təsdiqlənir. Amma Mustafayevin qərarı başqa cür olur: "O məni qane edir". Elə həmin ilin sonunda respublika DTK-sında keçirilən partiya konfransında dövlət təhlükəsizliyi orqanları tarixində ilk dəfə olaraq DTK sədri səsverməni uduzur – DTK partiya komitəsinin tərkibinə düşə bilmir. Bu "ÇP"-dən bir neçə ay sonra Mərkəz Kopılovu vəzifədən azad etmək məcburiyyətində qalır".

*(Respublika DTK-sının sabiq sədri Ziya Yusifzadənin söhbətindən)*

DTK veteranlarından biri, istefada olan polkovnik Əkrəm Səlimzadə xatırlayır ki, Kopılovun çıxarılmasından qabaq, 1959-cu ildə, Azərbaycan KP MK-nın yeni seçilmiş birinci katibi Vəli Axundovun iştirakı ilə daha bir partiya iclası olub. Səlimzadənin dediyinə görə iclasda F.Kopılovun səhlənkarlığı ucbatından Komitədə yaranmış qeyri-sağlam şərait müzakirəyə çıxarılıb.

"Söhbət ondaydı ki, DTK-da rəqabət aparan iki qrup yaranmışdı. DTK sədri o vaxt polkovnik Kopılov idi. O özü də qruplardan birinə qoşulmuşdu. Bu qrupa əsas etibarilə 1937-38-ci illərdə orqanlarda işləməklə özlərinə ləkə gətirmiş adamlar daxil idi. Onların birbaşa iştirakı ilə qeyri-qanuni həbslər aparılmış, güllələnmələr həyata keçirilmişdi.

Qruplardan birinə Q.Məmmədov, M. Ələsgərov, o birisinə isə Ş.İsmayılov, R.Məmmədov, N.Axundov daxil idilər. Qruplardan biri digərini qeyri-qanuni həbslərdə əli olmaqda, sosialist qanunçuluğunu pozmaqda günahlandırırdı.

Bu adamlar DTK-da qeyri-sağlam gərginlik yaratmışdılar, sakit işləmək mümkün deyildi. Kopılovun özü Şıx İsmayılov və Rəfi Məmmədovun qrupunun tərəfini saxlayırdı. Yadımdadır, Rəfi Məmmədov özünü etikadan kənar apardı. O, kəşfiyyat rəisi idi, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycanın daxili işlər naziri olan qardaşının nüfuzundan da istifadə edirdi. Öz çıxışında o belə bir ifadə işlətdi:

– Bu adamlar bir-birinin iyinə yığışıb qrup düzəldiblər. – O, Q.Məmmədovu, M.Ələsgərovu və başqalarını nəzərdə tuturdu. – Onları iş maraqlandırmır, kabinetlərdə dedi-qodu ilə məşğuldurlar.

Vəli Axundov onun sözünü kəsdi:

– Xahiş edirəm danışığınıza fikir verəsiniz, bir-birinin iyinə it yığışar, adam yox.

Bax, belə şəraitdə keçirdi həmin o iclas. Mən o vaxt komsomol katibinin müavini idim, iclasda çıxış etdim. Mayor Kolyagin barəsində danışdım. 30-cu illərdə o Qusar rayonunda XDİK RŞ-nın rəisi idi. Biz onun işlərini qaldıranda, məlum oldu ki, 75-80 yaşlı adamlara güllələnmə veriblər. Mənim müstəntiq kimi yenidən baxılmaq üçün aldığım 11 iş üzrə bütün yaşlı adamlar antisovet təbliğatına görə güllələnmişdi. Dəhşətə gəldim. Rayonlara gedirdim, yaşlı adamları sorğu-suala tuturdum. Hamı da güllələnənlərin sadə, kasıb, zəhmətkeş insan olduqlarını deyirdilər. Mən də çıxışımda bu qanunsuzluqlar haqqında danışdım.

Heydər Əliyeviç qruplaşmalardan heç birinə daxil deyildi, ona görə də gözlənilmədən söz istəyəndə Vəli Yusif oğlu Axundov onu diqqətlə süzdü.

– Mən bütün əməkdaşlara hörmətlə yanaşıram, – Heydər Əliyev sözünə belə başladı. – Düşmənçilik aparan qrupların üzvləri mənim yanıma gəliblər, onlara dəstək olmağımı xahiş ediblər. Mən imtina etmişəm. Hesab edirəm ki, dövlət işləri ilə məşğul olmağın vaxtı çatıb, daxili çəkişmələrə səmimi olaraq son qoyulmalıdır, bunun axırı yaxşı qurtarmaz. Komitə rəhbərliyini gücləndirmək məsələsini həll etmək lazımdır.

Bu o deməkdi ki, gənc əməkdaş faktiki olaraq Kopılovun əvəz edilməsi məsələsini qaldırırdı, ona etimadsızlıq ifadə edirdi. Zalda alqış səsləri qopdu.

Hamı Heydər Əliyevin təklifini dəstəklədi. Çox keçmədi ki, Kopılovu Moskvaya çağırıb işdən azad etdilər".

Respublikanın yeni DTK sədri bundan əvvəl Ukraynada DTK sədrinin müavini işləmiş Kardaşev təyin olundu. Ziya Yusifzadənin fikrincə o, "son dərəcə bacarıqlı, çalışqan, professional çekist idi. Azərbaycanı sevirdi, yerli kadrların qədrini bilir, onların fikrini qulaqardına vurmurdu. Tələsik qərarlar çıxarmırdı. Biz onun-

la çox yaxşı işləyirdik. Özü haqqında olduqca xoş təəssürat qoyub getdi. Dörd ildən sonra Kardaşev irəli çəkildi – SSRİ DTK 2-ci Baş İdarəsinin rəis müavini təyin olundu".

* * *

Yeniləşmə prosesinin çatışmayan cəhətlərinə baxmayaraq, orqanlarda iti sürətlə liberallaşma gedirdi. «Onun nə dərəcədə düşünülmüş aparıldığını söyləmək çətindir, – DTK veteranı, general F.Bobkov xatırlayır, – ancaq DTK-nın özünü qanunçuluğa, insan hüquqlarının gözlənilməsinə çevirməsi şübhə doğurmurdu. Güman edilirdi ki, ölkə daxilində əks-kəşfiyyatın fəaliyyət dairəsi əhəmiyyətli dərəcədə qısaldılacaq və SSRİ ərazisində xarici ölkə xüsusi xidmət agentlərinin üzə çıxarılması, xarici vətəndaşların ölkəyə gəlib-getməsi rejiminə nəzarətlə məhdudlaşacaqdır. O ki, qaldı sovet adamlarına, burada ön plana profilaktika – ayrı-ayrı vətəndaşların qanuna zidd hərəkətlərinin qarşısını almalı olan xəbərdarlıq tədbirləri çəkilirdi»[33].

Aleksandr Şelepinin ittifaq DTK-sına rəhbərlik etdiyi qısa müddət ərzində onun ən əhəmiyyətli xidmətlərindən biri kimi, imzaladığı 00420 nömrəli əmri göstərmək olar. Bu əmrə əsasən SSRİ DTK-sının şəxsi heyəti qarşısında yeni vəzifələr qoyulurdu: əhalinin müəyyən təbəqələri arasında **cəza** yox, **profilaktika** tədbirləri həyata keçirmək. DTK veteranları xatırlayırlar ki, bu qərar dövlət təhlükəsizliyi orqanlarında əsl inqilab oldu. Azərbaycan əks-kəşfiyyatının rəisi, podpolkovnik H.Əliyev yeni cərəyanları ürəkdən bəyənirdi, sözügedən əmrin həyata keçirilməsində fəal iştirak edirdi. Gənc əks-kəşfiyyat rəisinin natiqlik məharəti, əhalinin müxtəlif təbəqələri ilə ünsiyyət yaratmaq bacarığından xəbərdar olan Komitə rəhbərliyi, DTK-nın sıravi əməkdaşlarına yeni siyasətin mahiyyətini başa salmaq üçün zona müşavirələrində çıxış etməyi tez-tez ona həvalə edirdi.

Belə müşavirə iştirakçılarından biri, Bəxtiyar Süleymanlının mənə danışdıqlarından:

«1960-cı ilin martında bizdə böyük ixtisarlar getdi. Zəngilan və Cəbrayıl şöbələri Füzuli şöbəsinə qatıldı.

Heydər Əliyeviç DTK Kollegiyasının üzvü kimi Füzuliyə zona müşavirəsinə gəldi. İmişli, Jdanov, Cəbrayıl, Zəngilan rayon şöbələrinin əməkdaşları onun çıxışını dinləməyə yığışdılar.



Şelepin sənədinin mahiyyətini o bizə maddə-maddə, hərfbəhərf başa salırdı, əsas diqqəti də ona yönəldirdi ki, işimizdə əyintilərə yol verməyək, insanpərvərliyi unutmayaq. O vaxt bu, orqanlarda inqilab idi. Tutalım ki, biz kiminsə haqqında siqnal aldıq: guya X və ya U sovet hakimiyyətinin əleyhinə danışıb, millətçi fikirlər söyləyib, xaricdəki həyat tərzini tərifləyir və s. Əgər əvvəllər buna görə onu dəmir barmaqlıqlar arxasına sala bilərdilərsə, indi hər şeyin diqqətlə yoxlanması tələb olunurdu. Əmrdə deyilirdi ki, agenturanın içində də şəxsi və ya qərəzli məqsədlərdən ötrü sovet adamlarına qara yaxanlar tapıla bilər. Heydər Əliyeviç söyləyirdi ki, biz gərək işimizdə qanunlara arxalanaq, əyintilərə və 37-ci ilin faciələrinə yol verməyək».

60-cı illərin əvvəlində Heydər Əliyev tez-tez rayonlarda olurdu, ən müxtəlif auditoriyalar qarşısında çıxışlar edirdi. Kabinet işinə üstünlük verən, geniş auditoriya ilə açıq təmasdan çəkinən bir çox DTK əməkdaşından fərqli olaraq, Heydər Əliyev insanlarla canlı ünsiyyəti sevirdi. Çox keçmədən yaraşıqlı, alagözlü podpolkovnikin populyarlığı Komitə hüdudlarını aşdı. Azərbaycanın müxtəlif guşələrində partiya, sovet və təsərrüfat rəhbərləri artıq onu yaxşı tanıyırdılar. «DTK-dan olan podpolkovnikin» mühazirələrini dinləmək istəyənlərin sayı isə həmişə zaldakı yerlərdən çox olurdu.

«1962-ci ildə, DTK Lənkəran şöbəsi rəisinin səlahiyyətlərini icra edən zaman, Heydər Əliyeviç mənə zəng vurub xəbərdar etdi ki, mühazirə oxumaq üçün Lənkərana gəlir. Tapşırdı ki, mühazirə üçün münasib yer seçim.

Səhəri gün, təxminən saat on birdə o, qəhvəyi rəngli «Pobeda» maşınında gəldi. Heydər Əliyeviç əla sürücü idi, mən bunun şahidi olmuşam.

– Mühazirə üçün yer seçdinizmi? – soruşdu.

– Bəli. Fəhlə qəsəbəsində, Sara adasındakı Nərimanov adına balıq kombinatında. Sonra isə Masallı rayonunun aktivi və çay fabrikinin işçiləri qarşısında. Heydər Əliyeviç, istəyirsiniz, öz maşınınızı burada qoyun, bizim maşınla gedək.

– Yox, özüm gedəcəyəm. Otur yanımda.

Gəldik balıq kombinatına. Heydər Əliyeviç mühazirəni rus dilində oxudu, çünki fəhlələr arasında ruslar çox idi.

Sonra Masallıya getdik. Orada zal dolu idi, bütün aktiv yığılmışdı. Onu DTK əməkdaşı kimi təqdim etdilər. Ancaq buna eti-

yac yox idi, çünki Heydər Əliyev artıq kifayət qədər tanınmış idi, özü də təkcə çekistlər arasında yox. Partiya işçiləri üçün o gizli adam deyildi. Mən işlədiyim bütün rayonlarda şahid olmuşam ki, Heydər Əliyeviçi çox yaxşı tanıyırlar, ona böyük hörmətlə yanaşırlar...

Mühazirə məni heyrətə gətirdi: bu vaxta qədər Heydər Əliyevin yalnız rus dilində danışdığını eşitmişdim. Masallı ziyalılarının qarşısında isə o, Azərbaycan dilində çıxış etdi. Və hər iki dildə təmiz danışırdı. Ən əsası isə maraqlı. Mühazirə bir saata yaxın çəkdi, Heydər Əliyeviç beynəlxalq durumdan, SSRİ-dəki, Azərbaycandakı vəziyyətdən, sayıq olmağın vacibliyindən, xarici kəşfiyyat orqanlarının düşmənçilik fəaliyyətindən danışırdı. Cinayətlərin qarşısını almağın, profilaktikasının vacibliyini qeyd edirdi, qabaqcadan tədbirlər görülməsini vurğulayırdı. . .

Masallıdan sonra yolüstü çay sovxozuna gəldik. Mən əvvəlcədən direktora tapşırmışdım ki, fəhlələri hazırlasın. Gəldik sovxoza, Heydər Əliyeviç mühazirəni oxudu. Mühazirədən sonra sovxoz direktoru dilləndi:

– Artıq hava qaralıb, şam vaxtıdır. Bizdə hər şey hazırdır.

– Heydər Əliyeviç, – dedim, – bütün günü dilinizə heç nə dəyməyib, axı bir az yemək lazımdır.

– Əgər deyirsənsə lazımdır, qoy elə olsun.

Şam yeməyindən sonra təzədən Lənkərana yola düzəldik. Yolda onun kefi çox yaxşı idi, o vaxt dəbdə olan sovet filmi «Oxuyan ürək»dən bir mahnı oxumağa başladı, yaxşı oxuyurdu, çox yaxşı. Və beləcə mahnı sədaları altında Lənkərana çatdıq».

*(DTK veteranı Cabbar Bəylərovun xatirələrindən)*

Bir dəfə Heydər Əliyev Azərbaycan yazıçıları ilə şəxsi ünsiyyət yaratmaq fikrinə düşdü. Yaradıcı ziyalılarla cəza orqanları arasındakı gərgin münasibətləri nəzərə alsaq, o vaxt üçün bu görünməyən addım idi. Hadisənin şahidi olmuş şəxs bunu belə yada salır:

«1950-ci illərin sonu – 60-cı illərin əvvəlində mən bölmə rəisi işləyirdim və yaradıcı ziyalılarla iş üzrə kurator idim. Yazıçılar İttifaqı ilə DTK-nın arası bir o qədər də yaxşı deyildi. Məsələ ondadır ki, Yazıçılar İttifaqının sədri Mehdi Hüseyn bir dəfə DTK əməkdaşlarını kəskin tənbeh etmişdi. Onlar DTK sədrinin tapşırığı ilə Yazıçılar İttifaqının xətti ilə keçirilən hansısa



böyük tədbirə dəvətnamələr almaq üçün Mehdi Hüseynin yanına gələndə İttifaqın sədri təxminən belə bir ifadə işlədir: «İndi 37-ci il deyil. Lazım gəlsə biz özümüz, sizdən soruşmadan DTK üçün bilet ayırarıq». Yəni başa salır ki, onların əlində oyuncaq olmayacaq, öz işini özü görəcək. Bundan sonra üç ilə yaxın Yazıçılar İttifaqı ilə Komitə arasında demək olar ki, heç bir əlaqə yox idi. Günlərin bir günü Heydər Əliyev məni yanına çağırıb Yazıçılar İttifaqının rəhbərliyi ilə əlaqə yaratmağı, münasibət qurmağı tapşırdı. Açığını deyim ki, bu çox çətin məsələ idi. İki ay ərzində mən tanınmış yaradıcı ziyalılarla olan köhnə əlaqələrim, şəxsi münasibətlərimdən istifadə edərək Azərbaycan ədəbiyyatçıları ilə münasibətləri yavaş-yavaş bərpa edirdim. Gördüyüm işlər barədə şöbə müdirinə vaxtaşırı məruzə edirdim. Bir dəfə Heydər Əliyev sözün həqiqi mənasında məni mat qoydu: «Mehdi müəllimlə danış, yazıçıların qarşısında mühazirə ilə çıxış etmək istəyirəm». Mən karıxdım. O nəsə demək istədiyimi başa düşüb soruşdu: «Bir şübhən var?» – «Heydər Əliyeviç, orada Azərbaycan dilində çıxış etmək lazım gələcək». O gülümsədi: «Bu barədə narahat olma». Mən Mehdi Hüseynin yanına getdim və Heydər Əliyevin ideyası barədə danışdım. O bu təklifi maraqla qarşıladı və sanballı bir auditoriya təşkil etdi. Biz sədrin kabinetinə daxil olanda orada iynə atsaydın yerə düşməzdi, çoxları ayaq üstə durmuşdu. Əliyev çıxışına Azərbaycan dilində başladı. Dedi ki, Azərbaycan dilində danışa bilər, ancaq elə mövzu və məsələlər var ki, onlar barədə rus dilində danışsan yaxşıdır. Və düz iki saat danışdı, özü də elə maraqlı ki, bizim hər şeyi bəyənməyən ziyalılarımız böyük diqqətlə qulaq asdılar. Onu hörmətlə yola saldılar və bir neçə gündən sonra yazıçıların qəzetində görüş barədə hesabat çıxdı. Yazıçıların Heydər Əliyevlə tanışlığı belə baş verdi».

*(DTK veteranı, polkovnik-leytenant Məmmədəli Saracovun xatirələrindən)*

İş elə gətirdi ki, çox keçmədən dövlət təhlükəsizliyi orqanları profilaktika prinsipini Xruşşovun ölkəni ərzaq böhranına gətirib çıxarmış ölçü-biçi bilməyən siyasəti və volyuntarizminə öz etirazlarını bildirən şəxslərə qarşı tədbiq etmək məcburiyyətində qaldı. «Adambaşına düşən ət, yağ, süd istehsalına görə Amerika Birləşmiş Ştatlarına çatmaq və onu geridə qoymaq» şüarını ortaya atan

Xruşşov, bu məqsədə fərdi heyvandarlığı kəskin surətdə azaltmaq və ictimai təsərrüfatı genişləndirmək hesabına nail olmaq istəyirdi. RSFSR və digər müttəfiq respublikalarda vətəndaşlara şəxsi təsərrüfatda mal-qara saxlamağı qadağan edən qərarlar qəbul edilmişdi.

«Bu anlaşılmaz, tamamilə absurd bir qərarın yerinə yetirilməsinin nəticələri ağır oldu. Əhalinin heyvandarlıq məhsulları ilə təchizatı kəskin surətdə pisləşdi, vətəndaşların narazılığı artmağa başladı. Vəziyyəti bir təhər yoluna qoymaq üçün Sov.İKP MK, Nazirlər Soveti ilə birgə 1962-ci ilin mayında ət, ət məhsulları və yağın qiymətinin bahalaşması haqqında qərar qəbul etdi»[34]. Lakin ətin pərakəndə qiymətinin 30 faiz, yağın isə 25 faiz qaldırılmasına baxmayaraq, bu məhsullar defisit mala çevrildi. Bundan əlavə, 1959-cu ildə Xruşşov Amerika səfərindən qatı «qarğıdalıpərəst» kimi qayıtdı, hər yerdə həm dən, həm də silos üçün yaşıl kütlə verən «çöllər şahzadəsi» əkməklə səpin sahələrinin strukturunu kökündən dəyişmək qərarına gəldi. Ancaq qarğıdalı epopeyası uğursuzluğa düçar oldu. Qarğıdalı kampaniyasının ən qızğın çağında, 1962-ci ildə, bu bitki 37 milyon hektarlıq sahədə əkilmişdi, halbuki yalnız 7 milyon hektarda yetişə bilərdi. Eyni zamanda ot istehsalı kəskin sürətdə aşağı düşmüşdü, ənənəvi növbəti əkin prinsipi pozulmuş, bir çox biçənəklər baxımsız hala düşmüşdü. Hələ üstəlik 1963-cü ildə quraqlıq və qarğıdalı kampaniyasının dağıdıcı təsirindən dənli bitkilərin istehsalı cəmi 107 milyon ton olmuşdu[35]. Nəticədə ət və yağdan savayı çörək də tapılmayan məhsullar cərgəsinə düşdü. Orta və yaşlı nəslin nümayəndələri bakılıların, eləcə də ölkənin digər şəhərlərində yaşayanların çörək dükanlarının qabağında ucu-bucağı görünməyən gecə növbələrində necə dayandıqlarını çətin ki, nə vaxtsa unutsunlar. Saatlarla növbələrdə, cansıxıcı basa-basda durmaqdan heydən düşmüş, yuxusuzluqdan bənizi solmuş anamın bir «buxanka» qara çörəklə evə qayıtdığı yadımdan çıxmayıb. Moskvada aspiranturada oxuyan böyük bacımın Yeni ilə iki dənə ağ çörək gətirməyinə qardaşımla birlikdə necə sevinməyimiz də yadımdadır. Bu iki ağ çörək o ağır 1963-cü ildə yeni il süfrəsinin əsl yaraşığına çevrilmişdi.

Əlbəttə, bütün bu hadisələr əhali arasında Xruşşova heç də başucalığı gətirib nüfuzunu, populyarlığını artırmırdı. Yalnız 30 il keçəndən sonra SSRİ-də Novoçerkasskda baş verən faciədən,



fəhlələrin kortəbii narazılıq və nümayişlərinin qan içində boğulmasından xəbər tutdular. İnsanların gizli və açıq narazılıqları ölkənin hər yerində özünü göstərirdi, bəzən bu etirazlar ən gözlənilməz şəkil alırdı. Orqanların keçmiş əməkdaşı Cabbar Bəylərov mənə Bakının Caparidze adına zavodunda baş vermiş belə bir hadisə barədə danışdı:

«O vaxt Azərbaycanda neft emalı zavodları çox idi: Qarayev, Caparidze, XXII qurultay adına zavodlar, Budyonnı adına zavod, kükürd turşusu zavodu.

Bir dəfə Heydər Əliyeviç məni yanına çağırıb soruşdu:

– Bilirsiniz sahənizdə nə baş verib?

– Xeyr, Heydər Əliyeviç, bilmirəm.

– Necə yəni bilmirsiniz nə baş verir sahənizdə?

Yeni şöbədə işləməyim cəmi bir həftə idi, öz obyektlərimi əməlli-başalı öyrənməyə macal tapmamışdım, bu zavodda da hələ olmamışdım.

– Caparidze adına zavodda Xruşşovun portretini korlayıblar. – Söhbət may bayramı ərəfəsində baş verirdi. – Portretin üstünə rəng töküblər, gözlərini ovublar. Bir həftə vaxt verirəm. Get ora və bu əməli törədənləri tap.

Düz bir həftə mən həmin qurğuda oldum. Xruşşovun şəklini qurğunun qırmızı guşəsində korlamışdılar. Adamlarla söhbət edirdim, o vaxt kimin orada olduğunu, bu işin kimin əlindən çıxdığını aydınlaşdırmağa çalışırdım, istintaq tədbirləri keçirirdim və hər gün yığılan məlumatlar barədə Heydər Əliyeviçə məruzə edirdim. Səkkizinci gün mən bu əməli törədəni müəyyən etdim. Bu adam qurğunun operatoru, milliyyətcə erməni olan Manqasarov idi.

Cinayətkarı tapdığımız barədə Heydər Əliyevə məruzə etdim. Hərəkətinin səbəblərini izah edə bilmir, deyir ki, sərxoş olmuşam.

O vaxtlar əsas diqqət profilaktikaya yönəldiyindən, qərara alındı ki, onunla söhbət aparaq və atdığı addımı kollektivin müzakirəsinə verək. Kollektiv onun hərəkətlərini pislədi, cavan olmasını, ailə vəziyyətini nəzərə alaraq qərara gəldi ki, vəzifəsi aşağı salınsın, mükafatdan məhrum edilsin və belə hal təkrarlanarsa, ciddi məsuliyyətə cəlb olunacağı barədə xəbərdarlıq edilsin. Bu o vaxt idi ki, Xruşşovun reytinqi sürətlə aşağı düşürdü, ərzaq, çörək qıtlığı başlayırdı. Xalq öz narazılığını belə ifadə edirdi».

Hökumətin daxili siyasətinə qarşı daha güclü nümayiş Sumqayıt şəhərində oldu. Sumqayıt hadisələrinin əks-sədası Moskvaya qədər gedib çatdı. Bu hadisənin üstündən qırx il keçəndən sonra, SSRİ DTK-sının sabiq sədr müavini Filip Bobkov mənimlə olan söhbətində hadisələrin səbəbləri barədə bunları xatırladı:

«Artıq o vaxt yalnız milli münasibətlərlə bağlı olmayan bəzi məsələlərlə rastlaşırdıq. İctimai-siyasi vəziyyətin stabilliyini pozmağa yönələn məsələlər də qarşıya çıxırdı. Yadıma gəlir, Sumqayıtda 60-cı illərin ortalarında sosial narazılıq zəminində ciddi vəziyyət yaranmışdı. O zaman şəhər sürətlə tikilirdi, özü də qəşəng tikilirdi, ancaq problemlər də çox idi, Sumqayıtın kənarında yerləşən xırda daxmalar öz sözünü dedi. İxtişaşlara səbəb respublika rəhbərliyinin əhalinin ehtiyac və tələbatına laqeyd münasibəti idi. Bu məsələ Əliyevi çox narahat edirdi, sonradan, rəhbərlikdə olanda bu işlə xeyli məşğul olmuşdu. O vaxt da, 60-cı illərdə də, Sumqayıt iğtişaşlarının neqativ nəticələrinin qabağını almaq üçün o çox iş gördü».

O günlər Sumqayıtda nələr baş verdiyi barədə mənə həmin dövrdə Sumqayıt Şəhər Partiya komitəsinin ikinci katibi işləmiş Ramiz Məmmədzadə danışdı:

«1963-cü ildə Sumqayıtda «ÇP» baş verdi. 7 noyabr bayram nümayişi zamanı nümayişçilər dəstəsi gözlənilmədən tribunanın qarşısında dayandı. Narahat olduq, xüsusən də mən, çünki ideoloji işə cavabdehlik daşıyırdım. Məsələni araşdırmaq üçün tribunadan düşdüm. Məlum oldu ki, 1 saylı Sumqayıt tikinti trestinin işçiləri olan bir qrup gənc, Stalinin portretini qaldırıblar, eyni zamanda Xruşşovun kimyaçıların mədəniyyət evinin fasadından asılmış portretini qoparıblar.

Mən birinci katib Balakişiyev Nadir Ağa oğlunun yanına qayıtdım, təklif etdim ki, nümayişi qurtaraq. Onsuz da tribunanın önündən keçməyə cəmi üç-dörd kollektiv qalmışdı. Elə də etdik, sonra tribunadan enib adamlarla söhbət etməyə başladıq.

– Yaxşı, Stalinin portretini qaldırırsınız, qoy olsun, – deyirdim onlara, – bəs Xruşşovun portretini niyə qopardırsınız?

Bu vaxt gördük ki, bir dəstə xuliqan şəhərin hərbi komissarını döyür, polkovnik Krolu. Kim isə onu qadın ayaqqabısı ilə vurdu, o yıxıldı. Haradasa başqa bir yerdə şəhər milis rəisinin müavinini vurdular. Əgər təbliğat və təşviqat şöbəsinin müdiri İnqilab Abbasov özünü vaxtında yetirməsəydi, birinci katibi də bıçaqla vura bilərdilər.

Adamları bir qədər sakitləşdirə bildik, onlarla danışdıq, bizə şəhər ağsaqqalları da qoşuldular, əsasən şəhər komitəsinin büro üzvləri. Sumqayıt şəhər komitəsində çox nüfuzlu büro tərkibi var idi, məsələn, Sosialist Əməyi Qəhrəmanı, 1 saylı trestin müdiri Məzahir Ağa oğlu Abdullayev: o zala daxil olanda, fərqi yoxdur hansı səviyyəli müşavirə gedir, hamı ayağa qalxırdı.

Adamları sakitləşdirəndən sonra, şəhər komitəsinə yığışıb məsləhətləşməyə başladıq. Vəli Yusif oğlu Axundova zəng vurduq, hadisə barədə ona məlumat verdik, sonra Azərbaycan DTK-sının sədri Semyon Sviquna zəng çaldıq.

Onlar dedilər ki, bizə köməyə gəlirlər. Biz güman edirdik ki, şəhərdə vəziyyət normallaşıb. Ancaq bu vaxt xəbər gəldi ki, şəhərin köhnə məhəlləsində şəhər milis idarəsinə hücum olub. Balakişiyev təklif etdi ki, hamımız ora gedib məsələni araşdıraq.

– Nadir Ağayeviç, – dedim, – sən burada qal, çünki bilmirik orada nə baş verir. Bəlkə hansısa bir təşkilat fəaliyyət göstərir, hamımız getsək, onlar şəhər komitəsini ələ keçirə bilərlər.

O, şəhər komitəsində qaldı, biz isə, büro üzvləri – Kamal Axundov (Vəli Yusifoviçin qardaşı, şəhər icraiyyə komitəsinin sədri), bir qədər sonra Bakının Şaumyan rayonunun birinci katibi olmuş Evgeniya İvanovna Yusova, Məzahir Abdullayev – bir sözlə, hamımız yığışıb ora yollandıq.

Orada artıq 5-6 minlik izdiham var idi. Bizə məlumat verdilər ki, bir qrup xuliqan milisə soxularaq növbətçini döyüb, milis motosikllərini yandırıb, xalq arasında «çornıy voron» çağrılan maşınları çevirmişdir. Camaat isə küçədə dayanıb baş verənlərə tamaşa edir.

Biz adamlara yaxınlaşdıq, məsələni başa saldıq, camaatı bacardığımız qədər sakitləşdirdik. Sonra mən təklif etdim ki, «KPZ»-də olanlara baş çəkək, görək xuliqanlar onları azad ediblər, ya yox. Bir də ki, milisdə silah saxlanılırdı, silahın «qiyamçıların» əlinə keçib-keçmədiyini də bilməliydik.

Xoşbəxtlikdən, məlum oldu ki, saxlanılanların hamısı yerindədir, silah da salamatdır. Bir qədər sakit olduq... Şəhər komitəsinə qayıtdıq. Saat dörd radələrində Semyon Kuzmiç Sviqun və Heydər Əliyeviç Əliyev gəlib çıxdılar. O vaxta qədər mən

Heydər Əliyeviç haqqında eşitmişdim, amma şəxsən tanış deyildim. Biz gələnləri hadisə barədə və gördüyümüz işlər haqqında məlumatlandırdıq.

Vəziyyəti araşdırmağa başladıq. Öyrəndik ik, iğtişaşın əsas səbəbi ərzaqla təminatın pis vəziyyətdə olmasıdır. Sumqayıt axı fəhlə şəhəridir, özü də insanlar ağır əməklə məşğul olurlar. Şəhərdə əsas ərzaq məhsulları olan çörək, ət, katrof qıtlığı yaranmışdı. Yadıma gəlir, mən az qala bir həftə çörək zavodunda növbə çəkdim ki, hücum olmasın. Belə bir hadisə Razin qəsəbəsində baş vermişdi, orada Lenin rayon partiya komitəsinin birinci katibini döymüşdülər – o, çörək zavodunun talan olunmasının qarşısını almaq istəmişdi. Bu hadisədən sonra o ürək xəstəliyinə tutulub tezliklə dünyasını dəyişdi.

Çörək qıtlığı 1963-cü ilin yanvarından başlandı. Yadımdadır, evə gəlirsən, xörək var, çörək isə yoxdur. Bizdə şəhər komitəsində yeməkxana vardı, bir dəfə üçüncü katib Yevgeniya İvanovna bir parça çörək gətirib hamımıza bərabər böldü.

Sözün qısası, bu kortəbii qiyam olsa da, aranı qızışdıranlar xuliqanlar idi. DTK-ya başucalığı gətirən haldır ki, onlar, necə deyərlər, «ifritə ovuna» çıxmadılar, camaat arasından günahkarlar axtarmağa başlamadılar, kütləvi həbslərə əl atmadılar və s. İğtişaşın qarşısının alınmasında, təhqiqatın obyektiv aparılmasında Heydər Əliyevin böyük rolu oldu. Ara qızışdıranlar əlbəttə ki, həbs olundular. Düzdür, onlara qısamüddətli həbs cəzası kəsdilər, səhv etmirəmsə, hərəsinə üç il.

Vəziyyət MK-nın Bürosunda Mərkəzin nümayəndələrinin iştirakı ilə müzakirə olunandan sonra şəhər partiya rəhbərliyinə xəbərdarlıq edilməklə Sumqayıtın ərzaq məhsulları ilə təchizatını yaxşılaşdırmaq qərara alındı.

O illərdə bu cür «arzuolunmaz» hadisələr gizlədilirdi. SSRİ-də baş verən hadisələr barədə bu ölkənin vətəndaşları, əsasən xarici radiosəslər vasitəsilə xəbər tuturdular. Yadımdadır, atam gecədən xeyli keçmiş böyük taxta radioqəbuledicinin qabağında oturub «düşmən» səslərdən birini tutmağa çalışırdı, aparıcıların səsini səsboğanların xırıltısından eşitmək mümkün olmadığı üçün hövsələdən çıxıb deyinirdi. Axı, Xruşşovun dövründə Çelyabinsk yaxınlığında böyük radiasiya qəzası, Sevastopolda 603 dənizçinin həlakı ilə nəticələnən «Novorossiysk» xətt gəmisinin faciəsi,



Baykonurda qəza baş vermişdi[30]. Bu hadisələr sanki sovet sisteminin möhkəmliyini imtahana çəkir, tədricən içindən yeyib dağıdırdı.

* * *

Əlbəttə, Heydər Əliyev və onun həmkarlarının işi təkcə profilaktikadan və ya vətəndaşlar arasından «antisovet elementlərinin» üzə çıxarılmasından ibarət deyildi. Heydər Əliyevin rəhbərlik etdiyi əks-kəşfiyyat şöbəsinin əsas prioritetləri bir qədər başqa idi: hər şeydən əvvəl ABŞ, Böyük Britaniya və digər qərb kapitalist ölkələrinin xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən şəxslərin aşkar edilməsi, onlarla iş aparılması, xarici şəxslərin gəlmə və getmə kanallarında əks-kəşfiyyat işinin təşkili, qarşı tərəfin xüsusi xidmət agentlərinin kəşfiyyat-təxribat fəaliyyətinin qarşısının alınması və s.

Bu istiqamətdə H.Əliyev və onun şöbəsinin əməkdaşları bir çox ciddi uğurlar qazanmışdılar. Belə uğurlardan biri, 1958-ci ilin sonlarında «Duqlas» adı altında keçirilən çekist hərbi əməliyyatı nəticəsində Azərbaycan səmasında «Duqlas S-16» Amerika təyyarəsi vurulub salınmışdı.

Tanınmış rus tarixçisi Roy Medvedevin sözlərinə görə, sovet əraziləri üzərində fotoçəkiliş aparan Amerika kəşfiyyat təyyarələrinin uçuşları hələ Stalin vaxtından başlanmışdı. «Bu təyyarələr hətta Leninqrad və Moskva üzərində, bəzən ən təntənəli sovet bayramları günlərində uçurdular. Sovet mətbuatı SSRİ-ni alçaldan, onun hava məkanını pozan bu uçuşlar haqqında heç bir məlumat vermirdi, çünki o vaxt ölkəmizin bü cür hərəkətlərə mane olmaq imkanı yox idi»[31]. Yalnız 1960-cı ildə sovet HHM (PVO) qoşunları kifayət qədər dəqiq, başlıcası isə yüksəkdən vura bilən zenit raketləri ilə təmin olundu və ilk dəfə belə raketlə Pauersin idarə etdiyi Amerika təyyarəsi 1960-ci il may ayının 1-də Ural üzərində vurulub salındı. Bu hadisə böyük beynəlxalq qalmaqala və ABŞ-la münasibətlərdə ciddi gərginliyə səbəb oldu.

Lakin bu hadisədən iki il qabaq amerikan pilotlarının idarə etdiyi təyyarə Azərbaycan ərazisi üzərində vurulmuşdu. Ekipajın axtarılıb tapılması və hadisənin araşdırılması ilə DTK-nın 2-ci şöbəsinin rəisi Heydər Əliyevin başçılıq etdiyi əməliyyat qrupu məşğul olurdu. Vaqif Mustafayevin «Professional» filmində DTK veteranı Ziya Yusifzadə bu işin nəticələri barədə danışır:

«1958-ci ilin iyununda dördmotorlu «Duqlas S-16» Amerika təyyarəsi tərəfindən Sovet İttifaqının sərhədinin pozulması qeydə alınmışdı. Təyyarə Azərbaycan ərazisinin içərilərinə 170 kilometr keçmişdi. SSRİ Müdafiə Nazirliyi ilə razılaşmaya əsasən havaya qalxan iki «MİQ-17» təyyarəsi qabaqlayıcı atəşlə təyyarəni enməyə məcbur etməyə cəhd göstərdilər. Lakin ekipaj atəşlərə reaksiya vermirdi. Belə olduqda, təyyarəni zədələmək və bu yolla enməyə məcbur etmək qərarı verildi. Həqiqətən, təyyarənin qanadını zədələyən birinci atəşdən sonra o enməyə başladı. Təyyarə enən zaman Ağcabədi rayonunun Hindarx kəndinin sakinləri təyyarədən paraşütlə bir neçə adamın tullandığını görürlər. Bəziləri deyirdi ki, onlar beş nəfərdir, bəziləri – altı. Bu məlumatı alan kimi Heydər Əliyev başda olmaqla ştab yaradıldı. Bir neçə saat ərzində Heydər Əliyev Bakı HHM dairəsinin xüsusi şöbəsinin və digər hərbi hissələrin, o cümlədən sərhədçilərin və yerli əhalinin nümayəndələrini cəlb etməklə əməliyyat işçilərinin böyük bir qrupunu yaratdı. Təxminən 500-ə yaxın adam bir neçə gün ərzində yüz kilometrlərlə ərazini addım-addım axtardı.

Axtarış tədbirləri nəticəsində sonradan amerikalı olduqları məlum olan 9 nəfər saxlanıldı. Hamısı Bakıya, DTK-ya gətirildi və hər bir ekipaj üzvü ilə əsaslı surətdə iş aparılmağa başlandı. Amerikalı təyyarəçilərin dindirilməsi ilə şəxsən Heydər Əliyev məşğul olurdu. Mən dindirmədə tərcüməçi qismində iştirak edirdim. Heydər Əliyeviçin ustalığına heyran olurdum. O, istintaqı elə aparırdı, istintaq olunanları almaq istədiyi cavaba elə yaxınlaşdırırdı ki, onlar özləri də hiss etmədən faktiki olaraq Cənub-Şərqi Asiya, Türkiyə, Pakistan, Avropa ərazilərində onlara məlum olan bütün Amerika hərbi aerodromlarının yerini açıb söyləyirdilər».

Mən MTN-də Amerika pilotlarının sonrakı taleyi ilə maraqlandım. MTN arxiv idarəsinin rəisi Xəqani Bağırov mənə danışdı ki, sonradan Amerika təyyarəçiləri guya İran ərazisinə aparılmış, Amerikanın bu ölkədəki səfirliyinin nümayəndəsinə verilmişlər. Yeri gəlmişkən, oradaca ciddi tibbi müayinə aparılmış, pilotların səhhətinin qənaətbəxş səviyyədə olduğu, onlara qarşı yol verilməyən fiziki və ya psixoloji təsir metodlarından istifadə olunmadığı aşkarlanmışdır.



Ancaq Heydər Əliyevin şəxsi arxivində işləyən zaman, 1969-cu ildən 1984-ci ilədək xarici radiosəslərin verilişlərinin mətnləri saxlanan qovluğu nəzərdən keçirərkən, «Amerikanın səsi» radiostansiyasının 1982-ci il mayın 5-də efirə verdiyi maraqlı informasiyaya rast gəldim. Onun sözbəsöz məzmunu belədir:

**«Amerikanın səsi» 1982-ci il dekabrın 5-də** xəbər yaymışdır ki, 22 il bundan əvvəl Sovet İttifaqı qüvvələri tərəfindən "U-2" kəşfiyyat təyyarəsindən başqa, Amerikaya məxsus daha bir kəşfiyyatçı-təyyarə vurulub salınmışdır. Pauersin idarə etdiyi təyyarənin məhv edilməsi ABŞ ilə SSRİ arasında münasibətlərin pisləşməsinə səbəb oldu. Bu hadisə ilə əlaqədar hətta yüksək səviyyədə görüş təxirə salınmışdı.

MKİ-nin keçmiş şefi Alen Dallesin Amerika senatındakı çıxışı əsasında elan olunmuşdur ki, SSRİ ərazisi üzərində "U-2"-dən savayı daha bir Amerika kəşfiyyat təyyarəsi vurulub salınmışdır. Qeyd edilirdi ki, bu Qafqaz rayonu üzərində baş verib. Təyyarənin ekipajı 9 nəfərdən ibarət olub. Dallesin sözlərinə görə, Amerika tərəfi ekipaj heyətinin ABŞ-a qaytarılması tələbi ilə dəfələrlə müraciət etmişdir. Lakin Moskva bu məsələnin üstündən sükutla keçirdi. **Bu vaxta qədər ekipaj heyətinin taleyi barədə heç nə məlum deyil»** (seçmə mənimdir – *E.A.*).

Bu, yumşaq desək, maraqlı informasiya belə bir fərziyyə yürütməyə imkan verir ki, ya təyyarəçilər həqiqətən də Amerika tərəfinə verilməyib, ya da ki, onlar məxfi informasiyanı qarşı tərəfə açdıqlarına görə cinayət məsuliyyətinə cəlb olunacaqlarından ehtiyat edərək, hər hansı üçüncü ölkədə qalmağı üstün tutublar. Lakin bu «incəliklərdən» asılı olmayaraq, «Duqlas» əməliyyatı Mərkəz tərəfindən yüksək qiymətləndirildi, əsas iştirakçılar isə dövlət mükafatlarına təqdim olundular.

«Professional» filmində Azərbaycanın əks-kəşfiyyat rəhbərinin başçılığı ilə keçirilən daha bir uğurlu əməliyyatdan söhbət açılır – kapitalist ölkələrindən birinin hərbi kəşfiyyatçısının bizim tərəfimizə cəlb olunmasından. Özü də agent «Axito» şəxsən Heydər Əliyev tərəfindən cəlb olunmuşdur.

«Mərkəzdən «Axito»nun dəfələrlə Sovet İttifaqında olması barədə məlumat daxil oldu. O, SSRİ-nin şəhərlərini gəzir, artıq Leninqrad, Kiyev, Moskva, Tbilisidə olub, kəşfiyyat məlumatları

toplamağa cəhd göstərib. «Axito» Bakıya gələndə, bütün gün ərzində onun hərəkətləri müşahidə altına alındı.

Müəyyən olundu ki, «Axito» konspirasiya tədbirləri görərək rejim obyektlərinə yol tapıb kəşfiyyat işləri aparır, «Minaks» fotoaparatı ilə çəkiliş aparır, sxemlər cızır, gördüklərini qeyd edir. Materiallar Heydər Əliyeviçə məruzə edildi, o, «Axito»nu cinayət başında yaxalamağı təklif etdi. «Axito» Köhnə «İnturist» mehmanxanasında yaşayırdı, bizim müşahidələrimizdən bəlli oldu ki, o, hərbi-dəniz limanına girmək istəyir. Bir dəfə o mehmanxananın arxa qapısından çıxıb, doğrudan da, Xəzər flotiliyasının hərbi-dəniz limanına tərəf istiqamətləndi.

Bu vaxt biz onu izləyirdik, ancaq onun bu rayona maneəsiz keçə bilməsi üçün müşahidə rejimi zəiflədilmişdi. Və «Axito» orada çəkiliş aparan zaman yaxalandı. Heydər Əliyeviç tamamilə gözlənilməyən bir qərar qəbul etdi: təklif etdi ki, «Axito» cəlb olunsun, çünki hərbi kəşfiyyatçı olduğundan həm öz ölkəsi, həm də olduğu başqa ölkələr haqqında geniş məlumatı var. Bu təklif SSRİ DTK-sının ikinci Baş idarəsinə məruzə edildi və «Axito»nun cəlb olunmasına razılıq alındı. Cəlbetməni həyata keçirmək Heydər Əliyeviçə tapşırıldı. Çünki, dediklərinə görə o «böyük» adam idi və əgər cəlbetməyə Heydər Əliyev gedərsə, onlar işin uğur qazanacağına əmindirlər.

Heydər Əliyevə üç cəhd kifayət etdi ki, «Axito»nu inandırsın: uzun müddətə həbsxanaya düşməkdənsə, dövlət təhlükəsizliyi orqanları ilə əməkdaşlıq etmək onun öz xeyrinədir.

Cəlbetmə uğurlu oldu və artıq bir neçə aydan sonra Heydər Əliyev kapitalist ölkələrinin birində onunla konspirativ görüş keçirdi. Bu, Heydər Əliyev tərəfindən həyata keçirilən ən yaxşı cəlbetmələrdən biri idi, Mərkəz tərəfindən olduqca yüksək dəyərləndirilmişdi. Moskvanın nəzarəti altına keçən «Axito» uzun müddət SSRİ dövlət təhlükəsizlik orqanları ilə əməkdaşlıq edib bizi maraqlı informasiyalarla təmin etdi»*.

Əks-kəşfiyyatçılarla olan söhbətlərimdə mən Heydər Əliyevin agentləri cəlbetmə zamanı hansı metodlardan istifadə etdiyini soruşurdum. Məsələn, Azərbaycanın qocaman çekisti Adil Bağırov mənə belə cavab verdi:

* «Professional» filmindən Ziya Yusifzadənin danışdıqları.



– Heydər Əliyev o saat insanın rəğbətini qazanırdı. Sən istəristəməz onun qarşısında ürəyini açırdın. O həmsöhbətilə özünü elə təbii aparırdı ki, adam tamamilə ona etibar edirdi. Onda nadir tapılan inandırmaq, cəzb etmək istedadı var idi. «Obyektlə» danışmazdan əvvəl Əliyev onun haqqında olan məlumatı hərtərəfli öyrənirdi, «incə» simləri tapırdı, sonra söhbət vaxtı sezdirmədən onlara toxunub söhbəti bizə lazım olan məcraya yönəldirdi.

Azərbaycan DTK-sının sabiq sədri Ziya Yusifzadə ilə olan söhbətimdə Heydər Əliyevin əks-kəşfiyyatçı fəaliyyəti ilə bağlı indiyə qədər məlum olmayan bəzi məqamlar açıqlandığından, həmin parçanı da təqdim etmək istəyirəm:

« – **Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyətinin əməliyyat tərəfi əvvəlki kimi ən qapalı olan mövzulardandır. Sualım da bununla bağlıdır: o yalnız əks-kəşfiyyat işi ilə məşğul idi, yoxsa respublika hüdudlarından kənarda aparılan əməliyyatlarda da iştirak edirdi?**

– O əks-kəşfiyyat rəisi olanda, əsasən, respublikanın daxilində iş aparırdı. Ancaq, deyək ki, bu və ya digər agent cəlb edildikdən və başqa ölkəyə göndərildikdən sonra, qayda belədir ki, kim cəlb edibsə bir müddət bu agentlə özü məşğul olur, onu özü «aparır», artıq sonra onu yaşadığı ölkənin rezidenturasına ötürür. O, agentlə xaricdə bir ya iki görüş keçirir, agentura münasibətlərini bərkidir, sonra başa salır ki, guya bundan o yana görüşlərimizin baş tutması çətinləşəcək. Mən Azərbaycandayam, siz – «pərdənin» bu tərəfində. Mənim üçün hər dəfə SSRİ-dən kənara çıxmaq çətindir. Burada mənim çox etibarlı bir yoldaşım var, o da dövlət təhlükəsizliyi orqanlarının əməkdaşıdır, o sizinlə işləyəcək və sair, və ilaxır. Və həmin agenti rezidenturanın əlaqəsinə qoşurlar.

Heydər Əliyev xaricə müxtəlif yollarla gedirdi. O vaxt SSRİ-də Sovet Dostluq Cəmiyyətləri İttifaqı (SSOD) yaradılmışdı. O, xaricə bu ittifaqın xətti ilə nümayəndə heyətinin tərkibində gedə bilərdi. Xüsusi şəxs qismində gedə bilərdi. Məsələn, Berlinə, agent «Axito» ilə görüşmək üçün o başqa ad altında, xüsusi şəxs kimi getmişdi. Bu barədə ADR DTN-indəki SSRİ DTK nümayəndəliyi məlumat almışdı. Berlində bizim böyük nümayəndəliyimiz var idi, oranın müvafiq əməkdaşları agentlə konspirativ görüş keçirmək üçün zəruri olan hər bir şərait yaratmışdılar.

Yaxud başqa misal. Bir dəfə «pərdənin» o tərəfində olan çox qiymətli mənbə ilə görüşmək zərurəti yarandı. Heydər Əliyeviç o vaxt artıq Azərbaycan DTK sədrinin birinci müavini idi. Xaricə səfərin həqiqi məqsədini gizlətmək üçün o, həyat yoldaşı ilə birlikdə «Rossiya» teploxodunda Avropa ətrafında kruizə çıxan böyük turist qrupu heyətinə daxil edildi. Gəmi Marsel (Fransa) limanına yan alandan sonra «açıq qapılar» saatı elan ediləndə, Heydər Əliyev yaranmış əlverişli əməliyyat şəraitindən istifadə edib agent ilə əvvəlcə danışılmış yerdə görüş keçirir.

**– Axı o vaxt üçün o artıq böyük vəzifə sahibi, sədr müavini, DTK-nın əməliyyat fəaliyyətini təşkil edən adam idi, bununla belə bilavasitə xüsusi tədbirlər həyata keçirirdi. Bu nə ilə izah olunur?**

– Heydər Əliyev çekist doğulmuşdu, xüsusi tədbirləri çox vaxt özü işləyib hazırlayırdı və həyata keçirirdi. İşi həddən çox olduğundan o, bu işlə məşğul olmaya da bilərdi. Ancaq DTK-da belə bir göstəriş var idi: rəhbər işçinin tabeliyində olan əməkdaşlara nümunə olması üçün, arabir o özü xüsusi əməliyyat aparmalı idi. Heydər Əliyev qarşı tərəflə çoxgedişli əməliyyat oyunlarını xoşlayırdı, dəyərli mənbələri şəxsən özü əldə edirdi, onları xarici dövlətlərin xüsusi xidmət orqanlarının agentura şəbəkəsinə yeridirdi. Bir sözlə, o öz əməliyyat fəaliyyətini canlı iş olmadan təsəvvür etmirdi»*.

DTK veteranı, istefada olan polkovnik Kamal Əliyev də mənə Heydər Əliyevin əks-kəşfiyyatçı kimi professional keyfiyyətləri haqqında maraqlı xatirələr danışdı. Yeri gəlmişkən, 1985-ci ildə Bakıda 106 nömrəli marşrutla hərəkət edən avtobusu partlatmış cinayətkar məhz Kamal Səttar oğlunun «hesablamaları» sayəsində yaxalanmışdı. Məlum olduğu kimi, bu aktı törədən, Zori Balayanın faşist üsullarını təbliğ edən publisistik kitablarına aludə olmuş erməni terrorçusu idi.

Kamal Əliyev orqanlarda 1944-cü ildən işləyib, ancaq Heydər Əliyevin şöbəsinə yalnız 50-ci illərin ikinci yarısında düşüb, çünki uzun müddət 1-ci şöbədə (xarici kəşfiyyat) işləyib və hətta İranda qeyri-leqal işə də hazırlaşıb.

* Müxtəlif dövrlərdə Heydər Əliyevlə bir yerdə işləmiş DTK veteranları və digər şəxslərlə olan müsahibələrin tam mətnini «Heydər Əliyev və onun əhatəsi» ikicildliyində oxumaq olar.





*Dövlət təhlükəsizliyi orqanlarında keçdiyi həyat məktəbi. Leytenantdan...*












***...DTK general-mayoruna qədər.***



*Leninqradda SSRİ DTN məktəbi. 1950-ci il.*



*Süleyman Dəmirəlin xanımı ilə Bakıya gəlməsi.*
*Sağdan sonuncu - Azərbaycan DTK əks-kəşfiyyat şöbəsinin rəisi H.Əliyev*



***Sov.İKP MK katibi N.Podqornının Bakıya səfəri. Sağda H.Əliyev. 1964-cü il.***



***Heydər Əliyev Azərbaycan DTK-sının rəhbər heyəti ilə. 20 dekabr 1967-ci il.***



*Gənc ailə. Zərifə və Heydər Əliyevlər.*



*1955-ci ildə H.Əliyev xoşbəxt ata oldu.*



*Nadir istirahət dəqiqələri. Qızı Sevillə.*



*Zərifə və Heydər Əliyevlər uşaqları ilə.*



*Uşaqlar necə də tez böyüdü...*

«İkinci şöbəyə keçəndə, – Kamal Əliyev xatırlayır, – dərhal şöbə rəisi Eyvaz Əbdürrəhman oğlu Məmmədovdan xahiş etdim: mənə elə istiqamət verin ki, xarici kəşfiyyata bənzəsin, maraqlı iş olsun. O əsəbiləşdi: bu nə deməkdir, hara təyin etsək orada işləyəcəksən. Bir ay keçdi, şöbə rəisi Heydər Əliyev oldu. Mən eyni xahişlə ona müraciət etdim. Məni İran istiqamətində işləyən bölməyə təyin etdi və kəşfiyyat xətti ilə olduqca maraqlı materiallar göndərməyə başladı. Özü də İran agenturasını cəlb etməkdən ötrü Moskvadan valyuta alınmasına nail oldu.

Heydər Əliyeviç işə münasibəti, marağı ilə məni ruhlandırırdı. Əgər şöbəyə öz agentura xətti ilə nə isə maraqlı bir şey daxil olurdusa o, bölmə və hətta şöbə müdirindən əvvəl (sədr müavini olan vaxt) dərhal məni bu informasiya ilə tanış edirdi. Mən həmin informasiyanı yoxlayırdım, tamamlayırdım, sonra onun yanında birlikdə tədbirlər planı hazırlayırdıq. Mən məsləhət almaq üçün, yaxud hər hansı bir təkliflə onun kabinetinə çəkinmədən girə bilərdim, o ya dəstəkləyəcək, ya da rədd edəcəkdi. Amma bu işin nə səbəbdən məqsədəuyğun olmadığını mütləq əsaslandıracaqdı. «Darıxma, indi vəziyyət belədir ki, bunu etmək olmaz». O hər şeyi bir göz qırpımında tuturdu, hadisələri qabaqcadan görməyi bacarırdı. Həm dünyagörüşü, həm də mövqeyinə görə bizdən, sıravi əməkdaşlardan çox bilirdi. Ona görə də bizə düzgün istiqamət göstərirdi.

Yəni ki, o vəzifə və rütbəyə yox, peşəkarlığa qiymət verirdi. Əməliyyat tədbirlərini daha çox vaxt sərf edərək, deyək ki, şöbə rəisi ilə yox, bilavasitə mənimlə, yaxud başqa bir sıravi əməliyyat müvəkkili ilə müzakirə edə bilərdi. Tapşırığı da şöbə rəisləri vasitəsilə deyil, «korlanmış telefon» effekti olmasın deyə, birbaşa verməyi xoşlayırdı».

Kamal Əliyev xatırlayır ki, 2-ci şöbədə Heydər Əliyev tərəfindən «aktiv tədbirlər», yəni xarici ölkə vətəndaşlarının SSRİ maraqları çərçivəsində öyrənilməsi və istifadə olunması üzrə qrup yaradılmışdı. Kamal Əliyev birinci bölməyə (İran bölməsinə) keçəndən sonra belə, əks-kəşfiyyat rəisi aktiv tədbirlər üzrə materialları ona göndərməkdə davam edirdi, çünki kəşfiyyat işində təcrübəsi olduğunu bilirdi. Bir dəfə Kamal müəllim Ukraynadakı həmkarlarından məlumat alır ki, Avropa ölkələrinin birində

Nazirlər Kabinetinin mətbuat xidmətində çalışan xarici vətəndaş şəxsi işləri ilə əlaqədar Bakıya gələcək.

«Həmin adam əvvəlcə Odessaya gəldi, sonra isə Bakıda yaşayan xalasına Odessadan filan tarixdə çıxacağı barədə teleqram vurdu. Mən bu informasiya ilə maraqlandım, onunla əlaqə yaratmaq üçün ingilis dilini bilən əməkdaşımızı Odessaya göndərməyi qərara aldım. Həmin vaxt Heydər Əliyev məzuniyyətdə idi, DTK-nın şəhər kənarında, Bilgəh qəsəbəsindəki pansionatında istirahət edirdi. Mən Əliyevin müavininə müraciət edib bildirdim ki, bizim əməkdaş Mixaylovu əlaqə yaratmaq üçün Odessaya göndərmək lazımdır. O başını tutdu: «Yox, lazım deyil, bu qədər pul xərclənəcək, hələ ortaya nə çıxacağı bilinmir!». Maşına oturub DTK-nın istirahət evinə getdim. Mənə dedilər ki, Heydər Əliyeviç çimərlikdədir. Məni görüb təəccübləndi: «Xeyir ola?». Dedim ki, ciddi, təxirəsalınmaz məsələ var. «Yaxşı, sabah səhər saat 9-da yanıma gəl. İşdə olacağam». Səhər onun kabinetində idim. Məsələnin mahiyyətini qısaca açan kimi dərhal dilləndi: «Get, nə lazımdırsa elə». Bilirsiniz, Heydər Əliyevin iş üslubunu fərqləndirən də elə bu idi. Əgər başqa rəhbər işçilərə məsələnin məğzini uzun-uzadı başa salmaq lazım gəlirdisə, Heydər Əliyevə qısaca məruzə kifayət idi, həmsöhbətinin fikrini bir-iki kəlmədən tuturdu.

Bir sözlə, elə həmin gün odessalı DTK həmkarlarımdan xahiş etdim ki, həmin reysə, bizi maraqlandıran «obyektlə» qonşu olan yerə bilet düzəltsinlər. Bizim əməkdaşla «obyekt» yolda tanış olub dostlaşdılar, bir-birinin ünvan və telefon nömrələrini götürdülər. Məlum oldu ki, "obyekt" vətəndaş müharibəsindən sonra Avropada qalan rus ordusu polkovnikinin oğludur. Bizim adamımız onu bir həftə Komitə tərəfindən ayrılmış maşında gəzdirdi, qonaqlıq verdi və s. Bir müddət sonra turist yollayışı ilə həmin Avropa ölkəsinə bizim digər əməkdaşımız – Adil Bağırov getdi. Mixaylovdan məktub çatdırdı, eyni zamanda onunla tanış oldu. Bu cavan oğlanla bizim əlaqələrimiz belə başlandı. Cəlbetməyə hələ çox var idi, onunla işləməli idik.

Çox keçmədi ki, Moskva bu işlə maraqlandı və sənədləri bizdən tələb etdi. Sonralar moskvalı həmkarlarımız qeyri-rəsmi söhbətdə həmin adamın SSRİ təhlükəsizlik orqanları ilə əməkdaşlıq etməyə başladığını təsdiqlədilər. Özü də çox uğurla. Bu işin bünövrəsi isə Heydər Əliyevin təşəbbüsü sayəsində bizim bölməmiz tərəfindən qoyulmuşdu.



Bu cür hadisələri çox yada salmaq olar».

Məncə bu maraqlı söhbətlərin şərhə ehtiyacı yoxdur. H.Əliyev və onun başçılıq etdiyi şöbə buna bənzər xüsusi əməliyyatların keçirilməsində tez-tez fərqləniblər. Onların hər birinin arxasında peşəkar çekistlərin gərgin əməyi, böyük səbri, bəzən də zərgər dəqiqliyi tələb edən zəhmət durur.

Bu mövzunun yekununda başda Heydər Əliyev olmaqla Azərbaycan əks-kəşfiyyatının fərqləndiyi, «İzuver» adı altında keçirilən daha bir xüsusi əməliyyat haqqında danışacağam.

1964-cü ildə İran xüsusi xidmət orqanlarının (SAVAK) muzdlu agenti «İzuver» qeyri-leqal olaraq Azərbaycan ərazisinə göndərilmişdi. İranlıların işləyib hazırladıqları «əfsanəyə» görə, o, «Tudə»* partiyasının üzvü idi və guya Bakıda olan İran mühacirləri ilə İrandakı gizli «Tudə» mərkəzi arasında nizamlanmış əlaqə kanallarını yoxlamaq məqsədi ilə gəlmişdi. Əslində isə o «Tudə» partiyasının mərkəzi komitəsinin yerləşdiyi ADR-ə getmək fikrində idi. SAVAK bu əlaqə kanalını ələ keçirmək və İXP-nin fəaliyyəti barədə aktual informasiya almaq imkanını təmin etməyə çalışırdı.

«İzuver» Azərbaycana şah rejiminin təqiblərindən xilas olmağa can atan şəxs kimi «pənah gətirmişdi». «Biz onunla profilaktik iş aparmağa başladıq və xaricdə olan agenturamız xəbər verdi ki, bu tələdir. Bundan əlavə, məlum oldu ki, İrandakı gizli kommunist hərəkatı fəallarının həbsi də bu agentlə bağlıdır. «İzuver» tərəfindən İran cəza orqanlarına «təhvil» verilən «Tudə» partiyasının iki böyük xadimini isə ölüm cəzası gözləyirdi. Bu məlumat bizə çatdırılanda Heydər Əliyev onların həyatının qorunmasına kömək göstərmək xahişi ilə Azərbaycan Respublikasının Ali Sovetinə müraciət etdi. Ali Sovet bu məsələni SSRİ Ali Soveti qarşısında qaldırdı, o da öz növbəsində İran şahına müraciət etdi. Nəticədə ölüm cəzası uzunmüddətli həbs ilə əvəz olundu".

*(Kamal Əliyevin danışdıqlarından)*

---

* İran xalq partiyası (İXP «Tudə») 1941-ci ildə yaradılmışdır, şah rejimi vaxtı amansız repressiyalara məruz qalaraq mühacirətdə gizli fəaliyyət göstərmişdir. Cənubi Azərbaycanda və Şimali Azərbaycan (Sovet Azərbaycanı) ərazisində fəaliyyətini uzun illər İran kəşfiyyatının ciddi diqqət obyekti olan Azərbaycan Demokrat Firqəsinin çərçivəsində həyata keçirirdi.

Kitab üçün material toplayarkən Moskvada mənə təhlükəsizlik orqanlarının rəhbərlərindən biri, SSRİ DTK sədrinin sabiq birinci müavini, bir neçə il Heydər Əliyevin bilavasitə kuratoru olmuş Filipp Denisoviç Bobkovla görüşmək müyəssər oldu. Bobkov H.Əliyevin əks-kəşfiyyatçı fəaliyyətini belə xatırladı:

«Heydər Əliyevlə mən 50-ci illərin axırlarında tanış oldum. O vaxt o, Azərbaycanda DTK-nın 2-ci əks-kəşfiyyat şöbəsinin rəisi işləyirdi, Moskvaya gəlib-gedirdi. Yadımdadır ki, ilk görüşümüz 2-ci Baş idarənin 1-ci şöbəsinin rəis müavini Mixail Georgiyeviç Matveyevin kabinetində olmuşdu, biz onunla nəyisə müzakirə edirdik, bu vaxt Heydər Əliyev otağa daxil oldu. Biz ilk dəfə orada tanış olduq və bundan sonra münasibətlərimiz dərinləşdi.

1960-cı ildə əks-kəşfiyyatda dəyişikliklər aparıldı və o vahid strukturda cəmləşdi – bütün ixtisaslaşdırılmış əks-kəşfiyyatlar və sonralar 5-ci şöbənin məşğul olacağı sahə (ideoloji), hamısı böyük bir şöbədə birləşdirildi. Faktiki olaraq DTK aparatı o vaxt cəmi iki xidmət sahəsindən ibarət idi: kəşfiyyat və əks-kəşfiyyat. Heydər Əliyev həmin şöbənin rəisi oldu və o vaxtdan bizim əlaqə və ünsiyyətimiz xeyli möhkəmləndi. Mən o zaman 2-ci Baş idarə rəisinin müavini işləyirdim və təbii ki, əlaqələrimiz sıx idi.

O, sözünün sahibi idi, heç vaxt heç kimi pis vəziyyətdə qoymazdı, onunla istənilən problemi müzakirə etmək olardı və elə bu səbəblərdən də insanları özünə cəlb edirdi. O, səninlə razılaşmaya bilərdi, bir çox məsələlərə öz baxışı vardı, hər hansı bir qərarın qəbul edilməsinə kifayət qədər ciddi yanaşırdı. Yəni o, öz mövqelərində dayanan, gördüyü işə məsuliyyətlə yanaşan prinsipial insan idi.

Kəşfiyyatçı kimi Əliyev artıq o vaxtlar kifayət qədər nüfuza malik idi, mərkəzi aparatda ona hörmətlə yanaşırdılar, fikirləri ilə hesablaşırdılar və prinsip etibarilə respublika əks-kəşfiyyatında işlər qaydasında idi. 50-ci illərin axırı – 60-cı illərin əvvəllərində Azərbaycan ərazisində İran kəşfiyyatına qarşı aparılan fəaliyyətlə bağlı maraqlı işlər görülürdü. Türk əks-kəşfiyyatının fəaliyyətinə də xeyli diqqət yetirilirdi, amma İran daha çox maraq doğururdu, çünki iranlılar daha fəal işləyirdi, xüsusilə də xeyli iranlı mühacirin məskunlaşdığı Azərbaycanda. Burada «Tudə» partiyası fəaliyyətdə idi, iranlılar buna böyük maraq göstərirdilər. Azərbaycan isə Sovet İttifaqının maraqlarından çıxış edərək İran kəşfiyyatına qarşı işləyirdi. Bu baxımdan Heydər Əliyev həmin problemlə məşğul olan aparıcı əks-kəşfiyyatçılardan biri idi».

Əks-kəşfiyyat rəisi postunda Heydər Əliyev dəfələrlə Azərbaycana gələn yüksək qonaqların mühafizə və təhlükəsizliyini təmin etməli olub – Türkiyənin Baş naziri Süleyman Dəmirəldən başlamış Sov.İKP-nin birinci katibi Nikita Xruşşova qədər. Heydər Əliyevlə bir yerdə işlədikləri illər haqqında xüsusi olaraq bizim kitab üçün unikal xatirələr yazmış Sabir Hüseynov 1964-cü ildə podpolkovnik Əliyevin məsuliyyətli bir tədbirin mühafizəsini təşkil etmək üçün Kirovabada gəlməsini yada salır. Onun danışdıqlarından:

«Bizə, yəni şəhərin güc orqanlarında işləyənlərə o, üstüörtülü söylədi: bəs, yaxın günlərdə bizim şəhərimizdə üç respublikanın birinci katiblərinin iştirakı ilə ittifaq səviyyəsində məsuliyyətli bir tədbir keçiriləcək, ola bilsin ki, tədbirə Moskavadan böyük dövlət adamı da gələcək. Bir də dedi ki, forum iştirakçılarının mühafizəsi və təhlükəsizliyi şəxsən ona həvalə edilib.

– Xahiş edirəm, – o xəbərdarlıq etdi, – mənim məlumatımı tam gizli saxlayasınız və bu işə olduqca ciddi yanaşasınız. Hər birinizdən xahiş edirəm ki, sabah səhərdən gec olmayaraq mənə azadlıqda gəzən şübhəli kriminal elementlər, o cümlədən ruhi cəhətdən sağlam olmayanlar haqqında dolğun məlumat verəsiniz. Odlu, yaxud soyuq silah işlətməklə baş verən son hadisələr barədə də məlumatınızı gözləyirəm.

Ətraflı və hərtərəfli təlimat xeyli çəkdi.

Söhbətin yekununda o soruşdu:

– Sualı olan var?

– Hələlik yoxdur, – hamının yerinə milis rəisi dilləndi.

– Bəlkə kiminsə təklifi, ya bir fikri var?

– Hələlik yoxdur, – yenə hamının əvəzinə milis rəisi cavab verdi.

...Biz təklikdə qalanda o, ərklə əlini çiynimə qoyub dedi:

– Bir dəfə Bakıda olanda, sizin milislərin böyüyü mənə maraqlı bir fakt barədə danışdı. Dedi ki, prokurorluğunuzun kriminal elementlərlə yaxşı agentura əlaqəsi var, Kirovabaddan Qazaxa qədər...

– Elədir ki, var, Heydər Əliyeviç. Lazım olan məlumatı almaq üçün mən özüm də bəzi «avtoritetlərlə» əlaqə yaratmalı oluram. Yoxsa üstümüzdə bir bölük açılmayan iş qalardı. Mən burada ziyanlı bir şey görmürəm.

– Mən ki sizi qınamıram, – o, əlini çiynimə vurdu. – Əksinə. İstəyirəm ki, onlarla görüşməyimə gömək edəsiniz... Necə deyərlər, təbliğat-təşviqat işi aparmaq fikrim var. Gömək edərsən?

– Söhbəti yoxdur, Heydər Əliyeviç, təşkil edərik.

– Sabir Mamedoviç, sənin agentura şəbəkənin üstünün açılmasını təhlükə altına qoymazdım, ancaq... Məsələ ondadır ki, – o pıçıltıya keçdi, – bir-iki günlüyə bizim tərəfə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Nikolay Viktoroviç Podqornının özü gələcək. Biz hər şeyi ölçüb biçməli, qonağı yüksək səviyyədə qarşılamalıyıq.

Mümkün qədər sadə geyinib həmin gecə və ertəsi günün yarısını cinayət aləminin bəzi «nüfuz» sahibləri ilə konspirativ görüşlərdə keçirdik. Açığını deyim ki, mən ondan ötrü bir az qorxurdum, ancaq o özünü inamlı aparırdı, qarşı tərəf də bunu hiss edirdi. Həmsöhbətlərimiz elə adamlar idi ki, onlardan istənilən qeyri-adekvat addımlar gözləmək olardı, ancaq buna baxmayaraq ona inandılar. İnandılar və söz verdilər ki, Kirovabadda böyük adamların olduğu vaxt heç bir «haqq-hesab» aparmayacaqlar.

İki gündən sonra, yüksək qonaqların gəlməsi ərəfəsində səhər biz onunla Göygölə getdik. Azərbaycan KP MK birinci katibi Vəli Axundov Nikolay Viktoroviç Podqornı, həmçinin Gürcüstan və Ermənistandan olan həmkarlarının şərəfinə naharı burada verəcəkdi. Göl qırağındakı meşəlikdə keçəcək hökumət qonaqlığının təşkili ilə məşğul olan qrupun rəhbəri Heydər Əliyevə yüzfaizlik hazırlıq barədə məruzə etdi. Hər şeyi diqqətlə nəzərdən keçirdikdən sonra Heydər Əliyeviç dedi:

– Deyəsən yaxşıdı...Təhlükəsizlik...Yeməklər... Heç nə yaddan çıxmayıb... Bəs protokol cəhətdən necə? Xarici İşlər Nazirliyinin protokol şöbəsinin nümayəndəsi gözümə dəymir?

– Mən buradayam, yoldaş podpolkovnik, – bir qədər aralıda, gətirilmiş servizləri bircə-bircə nəzərdən keçirən kişi dilləndi.

Heydər Əliyev maraqlandı:

– Hazırlıq protokola uyğundurmu?

– Hələlik hər şey ideal qaydadadır.



– Gərək sabah da hər şey bu səviyyədə olsun.

– Olacaq, yoldaş podpolkovnik.

Biz oradan axşamdan xeyli keçmiş qayıtdıq, razılaşdıq ki, sabah tezdən, səhər saat yeddidə görüşək.

Nikolay Viktoroviç Podqornı ilə görüş ən yüksək səviyyədə keçdi. Hər şey çox yaxşı təşkil olunmuşdu. Podqornını yola salandan sonra MK-nın birinci katibi Vəli Axundov bu mühüm qəbulun təminatında iştirak edənlərin hamısına təşəkkür etdi. Bu işlərin əsas səbəbkarı isə sakitcə bir kənarda, V.Axundovun başına yığışanların arxasında dayanmışdı. Ona baxanda heç kimin ağlına belə gəlməzdi ki, bu adam dalbadal iki gecə gözünü də qırpmayıb. Həmişəki kimi, səliqəli və gümrah idi».

* * *

Xruşşov «mülayimliyi» milyonlarla sovet vətəndaşının iliyinə işləyən qorxu və səksəkənin soyuq nəfəsini bir qədər yumşaltdı. İnsanlar fikirlərini sərbəst söyləməyə, bəzən də ölkə rəhbərliyinin daxili və xarici siyasəti ilə razı olmadıqlarını nümayiş etdirərək açıq şəkildə etiraz etməkdən çəkinmirdilər. «Millətçi təşkilatların» üzvləri və «antisovet elementləri» ilə mübarizə 2-ci şöbənin fəaliyyət sahəsinə aid olduğundan, Heydər Əliyev bu qəbildən olan insanlarla işləməli olurdu. Müasirlərinin xatırladığına görə o, xəbərdarlıq tədbirləri ilə kifayətlənməyə çalışırdı ki, bu və ya digər «qiyamçı» barədə məsələ profilaktika mərhələsində bağlansın.

Bununla bağlı professor Yaqub Mahmudlu 60-cı illərin əvvəlinə aid maraqlı epizod yada salır: «Mən Bakı universitetində tarix fakultəsinin komsomol təşkilatının katibi idim. Nikita Xruşşovun hakimiyyətə gəlişi ilə Çinə qarşı düşmənçilik kampaniyası başlanmışdı. İkinci kursda oxuyan çox istedadlı bir tələbə buna etirazını bildirmiş, hətta vərəqələr yaymışdı. DTK həmin tələbənin işi üzrə təhqiqata başlamışdı. Hamımız narahat idik. Nəhayət mənə tapşırıldı ki, qapalı komsomol yığıncağı keçirim. Yığıncağa o zaman hələ DTK-da yüksək vəzifədə olmayan Heydər Əliyev gəlmişdi. O gənclər qarşısında çox əhatəli, həm də öyüd-nəsihətlə dolu bir çıxış etdi. Sonra qızğın müzakirələr, komsomol «tənqidləri» başlandı. İclas sona çatır, qərar qəbul etmək məqamı yaxınlaşırdı. Çox çətin vəziyyət qarşısında qalmışdıq. Elə bu anda

çıxış yolunu Heydər Əliyev özü göstərdi: komsomolçulara məsləhət gördü ki, yoldaşlarının tərbiyəsini öz üzərlərinə götürsünlər. Dərindən nəfəs aldıq. Hamımızın canı xətadan qurtardı. Və ağır şəraitdə, mürəkkəb əhatədə. Mərkəzin nəzarəti altında işləyən Vətən oğlunun cəsarətinə hamımız heyran qaldıq!»[38]

Bəzən insanların sosial narazılığı kəskin, ekstremist şəkil alırdı və belə olanda məsələyə «orqanlar» qoşulurdu. Uzun zaman DTK-nın istintaq şöbəsində çalışmış ehtiyatda olan polkovnik Əkrəm Səlimzadə dövlət təhlükəsizliyi orqanları rəhbərliyində böyük təlaş yaratmış bir imzasız məktubu yada salır. Çünki anonim məktubda söhbət Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundova hazırlanan sui-qəsddən gedirdi.

*Əkrəm Səlimzadə başqalarından seçilən, parlaq danışıq qabiliyyəti olan insandır. Kitab üçün ondan aldığım müsahibə bir neçə gün çəkdi, çünki vaxtı ilə istintaqı DTK-da onun iştirakı ilə aparılan maraqlı işlər barədə yetərincə «səhnə» onun iti çəkisi yaddaşından silinməmişdi. Bu işlərdən bir çoxuna Heydər Əliyev kuratorluq etdiyindən, biz bu xatirələrə təkrar-təkrar qayıdacağıq. İndi isə Əkrəm müəllimin qəribə anonim yazı barədə söhbətini dinləyək:*

«Bu hadisə 1966 ya da 1967-ci ildə olmuşdu. O vaxt Sviqun DTK-nın sədri, Heydər Əliyeviç isə onun müavini idi.

Aprelin 30-da, işin axırına yaxın, yüksək ixtisaslı axtarışçı-xətşünaslardan biri olan mayor Poluektov İlya İqnatoviç mənim kabinetimə gəldi. İçərisində sənədlər olan xudmani qovluğu uzadıb dedi:

– Komitənin rəhbərliyi bu materialları sənə verməyi tapşırıb. Şöbə müdirin məsələdən xəbərdardır. Sabah saat 10-da Sumqayıtdan istintaq təcridxanasına bir nəfər gətirəcəklər. Onunla ciddi bir anonim sənəd ətrafında işləmək lazımdır. İşdə sənədi icra edənin məhz bu adam olduğu barədə xətşünas-ekspertin qərarı vardır.

Poluektov çıxandan dərhal sonra mən Biliçenkoya (istintaq şöbəsinin rəisinə) zəng vurub bütün bunlar barədə məruzə etdim.

– Əkrəm, özüm sənə zəng vurmağa hazırlaşırdım, – dedi. – Anonim gecə-gündüz müşahidə altındadır. Sabah onu gətirəcəklər. Deyəsən onu saxlamalı olacağıq. Materiallarla tanış ol.



Qovluğu açdım. Lap üstə MK katibi Vəli Axundova ünvanlanmış zərf var idi. Zərfə üstündə dərkənar qoyulmuş kiçik ağ kağız (Azərbaycan KP MK blankına oxşar) sancılmışdı: «Məxfi. DTK-ya yol. S.K.Sviquna göndərin. Axundov V.».

Sviqun da öz növbəsində sənədə dərkənar ataraq Heydər Əliyevə ünvanlayır: «Anonimi bayrama qədər müəyyən edib saxlamaq üçün bütün operativ tədbirlər görülsün».

Anonim məktubu oxuyuram. Azərbaycan dilində yazılmışdı. Anonim şikayətlənirdi ki, xalq ağır vəziyyətdədir, Axundov birinci katib vəzifəsində çox «ləngiyib», qardaşları kef içində yaşayır, onlardan biri Sumqayıtı yeyib dağıdır və s. Məktub hədə ilə bitirdi: müəllif xəbərdarlıq edirdi ki, mayın 1-də nümayiş vaxtı camaat arasından Axundova güllə atacaq.

Məktub dəyişdirilmiş xətlə yazılmışdı. Ekspertlərin rəyinə görə – sol əllə. Qovluqda olan digər materiallar informativ xarakter daşıyırdı. Bu, anonimin evdə, işdə, bundan qabaq yaşadığı kənd yerində öyrənilməsi ilə bağlı materiallar idi. O, sadə, əməksevər adam kimi xarakterizə olunurdu, Sumqayıt boru-prokat zavodunda fəhlə işləyirdi, iki azyaşlı uşağı var idi, arvadı evdar qadındı.

Xətşünaslıq ekspertizası iki çox təcrübəli əməkdaş: axtarışçı Poluektov və ekspert Vasili Pavloviç Surikov tərəfindən imzalanmışdı. Onlar qəti surətdə təsdiqləyirdilər ki, anonim sənədin müəllifi İmran Fərəcovdur (soyad uydurulmuşdur – *E.A.*). İkinci fikir ola bilməzdi.

Ertəsi gün, mayın 1-də, işə tezdən gəldim. Kabinetimdə materiallara bir də baxdım. İstintaq təcridxanasına zəng vurdum. Anonimi hələ Sumqayıtdan gətirməmişdilər.

Birdən hökumət tribunasından zəng vurdular. Heydər Əliyeviç idi.

– Bayramın mübarək! Nə oldu, baxdın kağızlara?

– Bəli, Heydər Əliyeviç.

– Fikrin nədir?

– Açığı, bir balaca şübhələnmişəm.

– Bizimkilər birmənalı deyir ki, bu məhz odur. Bir şey olsa ştaba məruzə et. Ştabla birbaşa əlaqəm var.

– Baş üstə.

Bir müddət sonra istintaq təcridxanasının rəisi Lebedev xəbər verdi ki, Sumqayıtdan olan adamı gətiriblər. Mən təcridxanaya

düşüb Fərəcovu qəbul etdim. Bu vaxt ağlıma fikir gəldi ki, onu kabinetimə təcridxana ilə birləşən həbsxana koridorundan keçirməklə aparım. Buna icazə vardı, bir də ki, onun saxlanma məsələsi faktiki olaraq həll olunmuşdu.

Bir sözlə, təxminən qırx dəqiqə Fərəcov davam gətirdi, heç nəyi boynuna almadı, sonra dözə bilməyib ağladı və etiraf etdi ki, məktubu o yazıb. Düşünürəm ki, burada həbsxana dəhlizləri ilə «gəzinti» öz sözünü demişdi.

Mən ona açıq söylədim: əgər gördüyü kameralardan birinə düşmək istəmirsə, həqiqəti səmimi, olduğu kimi danışmalıdır. O söylədi ki, anonim məktubu içkili vəziyyətdə yazıb, həyat onu tamam bezdirib: uşaqlarının daim yarıac-yarıtox olmasına dözə bilmir, ağır sosial-məişət şəraiti üzündən arvadı ilə olan davadalaşdan yorulub və s. Onun heç vaxt heç bir silahı olmayıb, heç kimə güllə atmaq fikri də yoxdur. Etirafın sonunda o V.Y.Axundovdan üzr istədi, xahiş etdi ki, onu bağışlasınlar və məsuliyyətə cəlb etməsinlər.

O biri otaqdan telefonla ştaba, Poluektova zəng etdim, dedim ki, quşu gözündən vurmusan. İlya İqnatoviç sevincək oldu:

– Qonaqlıq mənim boynuma.

Mən də qürrələnirdim ki, komitəmizdə belə gözəl mütəxəssislər işləyir.

Gözlənilmədən telefon zəng çaldı.

– Fərəcov sənin yanındadır?

– Bəli, Heydər Əliyeviç.

– Onu da götürüb materiallarla bir yerdə gəlin yanıma, öz yerimdəyəm.

Təəccüb qaldım. Bayram nümayişi hələ qurtarmayıb, Heydər Əliyeviç hökumət xarakterli təhlükəsizlik tədbirlərinə cavabdehlik daşıyır. Və birdən eşidirəm ki, kabinetindədir. Məsələ aydın oldu: terror xarakterli siqnala ciddi əhəmiyyət verilir.

Fərəcovu Heydər Əliyeviçin yanına apardım. Salamlaşdıq. Heydər Əliyeviç saxlanılan şəxsin öz əli ilə yazdığı etirafı oxumağa başladı, sonra bir saata yaxın onunla söhbət etdi. O daha nələr barədə soruşmurdu, cavabları sözünü kəsmədən, səbirlə, axıra kimi dinləyirdi. Söhbətdən sonra biz Fərəcovu istintaq təcridxanasına göndərdik və onun sonrakı taleyi barədə fikirlərimizi bölüşdük.



– Yaxşı, fikrin nədir? – deyə, Heydər Əliyeviç məndən soruşdu. – Onunla nə edəcəyik?

– Heydər Əliyeviç, özünüz görürsünüz ki, sözün həqiqi mənasında bu yazıq, ümidini itirmiş adamdır. O, cinayət törətməyə hazırlaşmayıb. Mənzilində silah tapılmayıb. Sui-qəsd barədə real fikri olmayıb. Onu həbs etmək ailəsini aclığa və səfalətə düçar etməkdir. Hesab edirəm ki, profilaktika ilə kifayətlənib buraxmaq lazımdır.

– Fikirlərimiz üst-üstə düşür, – Heydər Əliyeviç söylədi. – Eşidəndə ki, anonim hər şeyi boynuna alıb, Semyon Kuzmiç məndən xahiş etdi təcili işə gəlim və onunla şəxsən söhbət edim. O, bir azdan gəlməlidir, yəqin bizi bir yerdə qəbul edəcək.

Doğrudan da nümayiş qurtarandan çox keçməmiş Sviqun gəldi və bizi öz yanına dəvət etdi. Əvvəlcə onun xahişi ilə mən məruzə etdim. Anonimi həbsxana dəhlizindən keçirərək otağıma aparmağım xoşuna gəldi:

– Bu psixoloji faktorun çox güman ki, mühüm əhəmiyyəti olub. Anonim başa düşüb ki, canını qurtarmaq üçün çox da nalamıxa vurmamalıdır. Bəlkə onu üçgünlük saxlayaq, onunla işləyək, əlaqələrini müəyyən edək?

Heydər Əliyeviç bu tədbirin məqsədəuyğun olmadığını diqqətə çatdıranda mən də onun tərəfində oldum. Semyon Kuzmiç dəstəyi götürüb məsələnin mahiyyətini Vəli Yusifoviç Axundova danışdı. O, Sviqunu dinlədikdən sonra dedi:

– Anonimi həbs etmək lazım deyil, buraxın onu, yaxşı bir işə düzəlməyə köməklik göstərin.

Sviqun, bizim də həmin fikirdə olduğumuzu söylədi.

Üçümüz də bir-birimizi bayram münasibətilə təbrik edib, yaxşı əhval-ruhiyyə ilə dağılışdıq».

2-ci şöbənin əməkdaşları söhbət aparmaq üçün bu cür «antisovet ünsürlərini» tez-tez DTK-ya dəvət etməli olurdular. Xüsusi xidmət orqanlarının ixtiyarında həmişə kifayət qədər olan daxili agentlər öz məlumatlarında onları belə adlandırırdılar. Stalin dövründə bu cür «siqnallar» əsasında on minlərlə adam həbs edilib məhkum olunmuşdu. İndi isə hər bir siqnal diqqətlə yoxlanılır və orqanlar əksər hallarda profilaktika ilə kifayətlənməyə üstünlük verirdi. Belə hadisə, məsələn, jurnalist V.Qriqoryevin «İnsanı qaytarmaq» oçerkində söhbət açdığı Məmmədov soyadlı bir nəfərin başına gəlmişdi:

«Bütün zahiri əlamətlərinə görə o qatı antisovetçi təəssüratı yaradırdı, ekstremist ruhda köklənmişdi, istənilən addıma hazır olduğunu gizlətmirdi. Məsələni araşdıranda məlum oldu ki, Məmmədov haqsızlıqlarla möhkəm incidilmiş bir adamdır. Hər şey, bəzən olduğu kimi, mənzil məsələsindən başlamışdı. Onun mənzili qəza vəziyyətində idi. Belə şəraitdə yaşamaqdan uşaqları revmatizm xəstəliyinə tutulmuşdu. Bütün qanunlara görə Məmmədova mənzil düşürdü, ancaq onun yolunun üstünə şikayətin mahiyyətinə varmaq istəməyən bürokratlar çıxır...

Məmmədov DTK-ya dəvət olundu. Bürokratları, rüşvətxorları, sosializmin başqa antipodlarını haqlı olaraq ifşa edən fəhlə ilə söhbət çox uzun çəkdi... Məsələ təkcə söhbətlə bitmədi. DTK orqanları onun həyati problemlərinə biganə qalmadı, aidiyyatı instansiyaları da bu işə qoşdu. Nəticədə Məmmədov yeni rahat mənzilə köçdü, onun «işi» isə necə öz-özünə yaranmışdısa da, elə də yoxa çıxdı. Onu tamamilə yaddan çıxarmaq olardı, necə ki, başqa işlər unudulub. Ancaq Məmmədov onu daim yadında saxlayacaq. Buna əyani sübut – onun respublika Dövlət Təhlükəsizliyi Komitəsinin sədrinə göndərdiyi təşəkkür məktubudur»[39].

60-cı illərin əvvəllərində Azərbaycan əks-kəşfiyyatı əməkdaşları üçün «başağrısı» olan yeni mənbə Bakıda yaranan gizli gənclər təşkilatları və tələbə qrupları oldu. DTK rəhbərliyini belə gənclərin talelərini sındırmamağa və profilaktik tədbirlərlə kifayətlənməyə inandırmaq üçün Heydər Əliyev bəzən bütün natiqlik məharətini işə salmalı olurdu. Kitab üzərində çalışarkən belə «gizli liderlərdən» biri – Tofiq Abdinlə görüşdüm.

Tofiq Abdin – respublika Yazıçılar Birliyinin üzvü, «Qobustan» jurnalının məsul katibi olub, 90-cı illərdə Türkiyədə Azərbaycan kütləvi informasiya vasitələrini təmsil edib. O uzaq 1962-ci ildə isə Tofiq, İncəsənət institutunun teatrşünaslıq fakültəsinin birinci kurs tələbəsi, keçmiş üçüncü Sverdlovsk küçəsində, «Şəfəq» kinoteatrının yaxınlığında kirayə mənzildə yaşayırdı. «Altmışıncıları» təmsil edən tanınmış Azərbaycan yazıçıları bu darısqal otağa gəlib-getmişdilər: Əkrəm Əylisli, Ələkbər Salahzadə, Mövlud Süleymanlı, Tanrıqulu Əliyev. Tofiq kamvol kombinatında parça istehsalı üzrə usta göməkçisi işləyirdi,



institutda qiyabi oxuyurdu. Bu otaq ona İsa İsmayılzadə və Abbas Abdulladan* «miras» qalmışdı.

«Haradasa bir ya iki ildən sonra bu otaqda təxminən on nəfərlik bir qrup yarandı, – Tofiq Abdin xatırlayır. – Gələcək elmlər doktoru Bəhlul Abdullayev, Mövlud Süleymanlı, Tanrıqulu Əliyev, sonralar nazirlər soveti sədrinin müavini olmuş Məmməd Əsgərov da bizimlə idi. O vaxt onların hamısı tələbə idi, hərə bir institutda oxuyurdu. Biz 9 yanvar bağındakı çayxanada yığışırdıq, ədəbi söhbətlər aparırdıq. Bundan əlavə, kitabxanalardakı ədəbi dərnəklərin yığıncaqlarında görüşürdük. Bu minvalla ruhən bir-birinə yaxın olan adamların dostluğu yarandı. Əvvəlcə bizi yaxınlaşdıran ədəbiyyata olan sevgimiz oldu. Sonra kiminsə ağlına gəldi ki, əsas məqsədi Şimali və Cənubi Azərbaycanın birləşməsi ideyasının təbliğatı olan qrup yaradaq. Bu uzun sürməyən «Xruşşov mülayimliyi» deyilən elə bir dövr idi ki, qadağa qoyulmuş mövzularda danışmaq olardı, Xəlil Rza məşhur «İki sahil» poemasını yazmışdı, Abbas Zamanov bizimlə «təhlükəli» söhbətlər aparırdı, Rəsul Rza poeziyası isə bu çağa qədər görünməmiş yeni forma və cəsarətilə ürəkləri riqqətə gətirirdi.

Yadıma gəlir, mən Mirzə İbrahimovun «Gələcək gün» romanına cavab olaraq "Bəs nə vaxt gələcək o gün?" misrası nəqarət kimi səslənən bir şeir yazmışdım. Mənzilimdə aparılan axtarışdan sonra o şeir itdi, ancaq sonra, DTK-da istintaq zamanı onu mənə göstərib qərəzlə soruşurdular: «Sən bununla nə demək istəyirdin? Nəyə eyham vururdun?».

Sonra öyrəndik ki, bizi güdüblər, qrupumuzun içinə öz adamlarını salıblar. Biz sən deyən elə bir iş də görməyə macal tapmadıq. Əvvəlcə uzun-uzadı söhbətlər gedirdi, sonra bülleten, bildiriş çıxartmaq, qrupumuza yeni adamlar cəlb etmək qərarına gəldik. Mən makinada bəzi şeylər çap etməyə başladım. Mənim almanların istehsalı olan latın hərfli makinam var idi. Axtarışdan sonra onu apardılar, o gedən getdi.

Bizi ələ verən adam ortalığa belə bir ideya atdı ki, Xarici Dillər institutunda iclas keçirək, tələbələrlə görüşək, qrup yaratdığımız haqqında danışaq. Heç birimizin ağlına belə gəlməzdi ki, bunun üstündə həbs edə bilərlər, institutdan xaric edərlər və s. Axı hamımız kənd uşaqları idik, nə yaşımız vardı ki? Bizə yol

* Tanınmış Azərbaycan şairləri.

göstərən, qrupa başçılıq etməyi bacaran düşüncəli liderimiz yox idi. Bu iclasdan sonra bizi bir-bir DTK-ya aparmağa başladılar.

Elə ən maraqlısı, bü günə qədər mənimçün müəmmalı qalanlar da məhz bundan sonra başlayır. Qrupumuzdan heç kim cəzalandırılmadı, heç kimi həbs etmədilər, heç kimi institutdan da qovmadılar. Mən bunu ilk növbədə Heydər Əliyevlə bağlayıram, o vaxt o DTK-da rəhbər vəzifədə idi. Düzdür, Şıxəli Qurbanovun da adı çəkilirdi. Ancaq düşünürəm ki, necə olsa «məclisi» idarə edən DTK idi. Hər şey onun hökmündən asılı idi. «Literaturnaya qazeta»da bir şərqşünas var, İqor Belyayev. Yadımdadır, məqalələrinin birində o yazmışdı ki, Heydər Əliyev 19 yaşında Şimali və Cənubi Azərbaycanı birləşdirmək haqqında düşünüb. Bəlkə də bizdən xəbər tutanda öz gənclik çağları yadına düşüb*. İndi budur, 20 ildən sonra həmin ideya bu şəkildə təzədən meydana çıxıb. Yeri gəlmişkən, bizim qrup yaman böyük səs-küyə səbəb olmuşdu. ÜLKGİ MK-nın birinci katibi Pavlov qurultaydakı nitqində bizi yada salıb demişdi ki, bəs, Azərbaycan universitetinin tələbələri cəmiyyət təşkil edib gənclər arasında millətçilik toxumları səpirlər və s.

Hamımızı bir-bir aparırdılar, hər şey barəsində sorğu-suala tuturdular, sonra axşama yaxın buraxırdılar. Növbə mənə də çatdı. Komvol kombinatına səhər saat 9-da qara «Volqa» gəldi, içindən iki nəfər çıxıb məni maşına oturtdu. DTK-ya gətirib səhər saat 9-dan axşam 6-ya qədər dindirdilər. Soruşdular bu nə təşkilatdır, niyə yaradılıb, məqsədi nədir, təşkilatın üzvləri kimdir, niyə mən rus qızı ilə gəzirəm (bundan da xəbərləri vardı), niyə öz şairlərimizi qoyub Nazim Hikməti oxuyuram (otağımda onun kitabını tapmışdılar). Saat 6 radələrində məni harasa apardılar. Pəncərələri bulvara baxan bir kabinetə gətirdilər. Qapının yanında dayandıq, qapı açıq idi. Gördüm ki, içəridə yaraşıqlı, boy-buxunlu kişi oturub. Otağa keçdik. Mən əlbəttə ki, həyəcanlıyam, çəkinirəm – arıq, cansız, əynində nimdaş paltar, adi bir əyalət uşağıyam. Yəqin ki, onun gözlərində südəmər körpəydim. Həmin adam (çox sonralar bildim ki, bu Heydər Əliyev imiş) nəzərlərini bir xeyli məndən ayırmadı, sonra ayağa qalxıb soruşdu: «İstədiyiniz nədir?» Mən elə qorxmuşdum ki, ancaq mızıldaya bildim: «Vallah, heç nə istəmirik!» «Yox, istəyirsiniz, ancaq nə, söylə!» Mən yenə burnumun altında deyirəm: «Biz heç nə istəmirik». Və bu yerdə o bir ifadə işlətdi ki, ömürlük yaddaşıma həkk olub: «İndi 37-ci il olsaydı hamınızı tutub basardılar, heç valideynlərinizin də sizdən xəbəri olmazdı. Aparın onu!» Mənim istintaq protokolumu onun stolunun üstünə qoydular, məni isə koridorla çıxışa tərəf apardılar, kiməsə məruzə edib buraxdılar.

Bütün bunlar indinin özündə də mənə qəribə gəlir: hamımız ali məktəbi bitirdik, yaxşı işə düzəldik, turist kimi xaricə səfərlər etdik. 1969-cu ildə mən «Qobustan» jurnalında işləyirdim, sonra SSRİ Yazıçılar İttifaqına üzv oldum, bir yazıçı, jurnalist kimi öz yerimi tapdım. İnanıram ki, bizim xilas olmağımız Heydər Əliyevin sayəsində olub. O, Əkrəm Əylislinin, Mövlud Süleymanlının, Ələkbər Salahzadənin, İsa İsmayılzadənin, Abbas Abdullanın taleyində məşum rol oynaya bilərdi. Bizim bütün işlərimizdən DTK-nın xəbəri vardı, çayxanada, bir-birimizlə dostcasına söhbətlərdə nə demişdiksə hamısını bilirdilər. Ona görə də ömrümün axırına qədər mən ona minnətdar olacağam».

Bu mövzuya aid daha bir hekayət. Tanınmış Azərbaycan yazıçısı Mövlud Süleymanlı görüşlərimizin birində "qiyamçı" tələbəlik illərini yada saldı:

«Bu gün Azərbaycanda 60-cı illər sərbəstliyindən, milli oyanışdan, azadlıq duyğularının artmasından söz açanlar var. Haqlıdırlar... Altmışıncı illər o biri onilliklərə bənzəməz. Dərindən izləyib araşdırsaq, demək olar ki, əksər sahələrdə özünə qayıdış, özünü anlamağın, ədəbi proseslərdəki sətiraltı mənaların, yeni ab-havanın yarandığını görərik. Bakı küçələrində çox vaxt zəif halda eşidilən Azərbaycan dilinə yeni münasibətin, yeni, nisbətən canlı səslənmənin şahidi olarıq.

Artıq DTK qorxusunu unudub auditoriyalarda milli mənliyimizdən, azadlıq duyğularından danışan müəllimlərimiz yaranmışdı. Tələbələrin, ümumiyyətlə, ziyalılarımızın birliyini, görüşlərini təmin edən çayxanalar aşıb-daşmaqdaydı... Ordan-burdan etiraz səsləri eşidilməyə başlamışdı, hətta.

Doğrudur, bu ab-hava bütün SSRİ miqyasında hiss olunmaqdaydı. Amma heç kəsə sirr deyil ki, Azərbaycana bu tərkibdə, yəni, o biri respublikalardan seçilən xüsusi baxış və nəzarət var-

* Kitabımızın ikinci fəslində biz H.Əliyevin nəinki bu ideya haqqında düşündüyündən, praktik olaraq onu həyata keçirmək üzərində işlədiyindən danışmışıq.

dı. Adətən DTK-ya Azərbaycan xalqına yad münasibətilə seçilən insanları götürürdülər.

60-cı illərdə bu münasibət və tənasüb nisbətən dəyişmişdi...

Mən bunun səbəbini çox sonralar anlaya bildim...

DTK divarları arasından yayılan qadağalar, yasaqlar, qanlar-qadalar xofu-qorxusu səngimişdi... Elə bil kimsə qapını, pəncərələri aralamışdı, cəmiyyətin düşüncəsinə təmiz hava sızmağa başlamışdı.

Bu hava 60-cı illərin tələbə mühitinə öz təsirini daha tez göstərdi...

Cənubi Azərbaycan mövzusu qəzet səhifələrində görünürdü artıq, **Azadlıq, İstiqlaliyyət** sətiraltı mənalarla xatırlanırdı...

Əsas, düşüncələrə işığın düşməsi idi. Əsas o idi ki, toxum atılsın, atıldısa cücərməli idi. Belə də oldu...

1963-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin II kurs tələbəsiydim. Əksəriyyətimiz rayon və kəndlərdən gəlmişdik.

Yadımda deyil, necə seçildik, bir-birimizi necə anladıq. Günlərin birində ADU-nun 4 nömrəli yataqxanasının bir gizli guşəsinə yığışdıq... Hələlik, adsız bir təşkilatın bünövrəsi qoyuldu.

İlk növbədə güney Azərbaycan məsələsi idi. Çıxış yolları araşdırıldı, daha doğrusu ümidsizliyi qırmaq, **Azad olmaq** ruhunda böyümək, bir-bir, iki-iki olsa da artıb çoxalmaq üçün addım atmaq, təməl daşı qoymaq. Bir olmağın, birləşməyin əhəmiyyətini və Azadlığın nə olduğunu anlayıb, anlatmaq.

Yəni, bu taydan o taya gözləri yaşara-yaşara şeir yazmaq, ağlayıb sızlamaq bəsdir, iş görmək lazımdır.

İkinci məsələ, çox sadəlövh görünsə də, Sovet İttifaqının tərkibindən çıxmaqdan ibarət idi...

Günün müəyyən vaxtlarında, müəyyən yerlərdə yığışmağa başladıq, təxminən bir-iki aydan sonra hərə öz proqramını hazırladı. Nə isə, hələlik planlar tökülür, müzakirələr, mübahisələr aparılırdı.

Bir il təşkilatlandıqdan sonra o zaman müəllimimiz olan Bəxtiyar Vahabzadənin yanına getdik.

Universitetin uzun dəhlizində Bəxtiyar müəllimin başına yığışmışdıq. Çox həyəcanlanmışdı.



– Bura gəlin, – Bəxtiyar müəllim belə deyib, bizi boş auditoriyaya apardı. O vaxt onun hər sözü, hər addımı göz qabağındaydı, daha doğrusu göz qabağında olmalıydı.

Bir neçə dəqiqə heç kəs dinmədi. Bəxtiyar müəllim başını aşağı salıb susmuşdu.

Elə bildik ağlayır...

Başını qaldırdı, doğrudan da gözləri nəmli idi.

– Zindanlarda çürüyərsiniz, – dedi. – Məsləhət görmürəm. Neynəmək olar. Şərait yetişsin gərək...

Bəxtiyar müəllimi bir daha narahat etmədik.

Bir il də keçdi. 1964-cü ilin sentyabr ayında DTK gizlin fəaliyyətimizdən xəbər tutdu.

1964-cü ilin payızı idi. Universitetin Yasamalda yerləşən yataqxanasında səhər tezdən qapımız döyüldü, tanımadığımız adamlar içəri girdilər.

– Balakişiyev kimdir?

– Mənəm, – dedim.

– Gəl!

Məni araya aldılar, pilləkəni endik... Jurnalistika fakültəsinin tələbəsi Hüseyni də mənim kimi araya alıb aparırdılar. İki qara maşın dayanmışdı, hərəmizi bir maşına qoyub apardılar.

Hara getdiyimizi bilirdim. Keçən həftə yoldaşlarımızdan bir neçəsini aparmışdılar. Gedib qayıdanlar artıq bizə yaxınlaşmırdılar. Münasibətlər qapanıb, ətrafa anlaşılmaz dərin vahimə çökmüşdü.

Səhər tezdənnən, qaranlıq düşənəcən məni müxtəlif otaqlarda dindirdilər.

Qaranlıq çökmüşdü, saat 9-10 radələriydi. Uzun, alaqaranlıq dəhliz boyu dolana-dolana xeyli getdik (bəlkə də mənə belə gəlirdi), bir otağın qapısı ağzında dayandıq. Qapını ehtiyatla və ehmalca açıb məni içəri saldılar. Qapının ağzında dayanıb otağa göz gəzdirdim, fikrimdə-düşüncəmdə heç nə yox idi.

Çox güclü, şaqraq gülüş səsinə özümə gəldim. Otaq çox böyükdü, yuxarı başda saçlarını arxaya daramış, enlikürəklı bir adam oturmuşdu.

– Yaxın gəl..!

Bir neçə addım atıb yenə dayandım.

– Yaxın gəl..!

Stolun üstündə iri vazada alma qoyulmuşdu. Yaxınlaşdım.
– Alma ye!
– Yemirəm, – dedim, dodağımın altında.
– Otur görüm! – Səs dəyişmişdi. Elə zəhmli idi ki, elə bil məni divara çırpdılar.
Qorxulu-qorxulu başımı qaldırıb baxdım. Elin-obanın "komissar" dediyi əmimi xatırladım, kövrəldim... Burdan çıxıb qurtaracağıma inanmırdım, ümidim üzülmüşdü artıq.
– Neynəmisiz?
Susmuşdum...
– Düzünü de, görüm, neynəyibsiz!
– Heç nə, – dedim. – Yığışıb Cənubi Azərbaycan haqda danışmışıq.
– Cənubi Azərbaycanın nəyindən danışmısız? Tanıyırsız Cənubi Azərbaycanı?!
Dinmədim.
– Sonra neynəmisiz?
– Heç nə...
– Onsuz da məlumdur hər şey... Keçini keçi ayağınnan, qoyunu qoyun ayağınnan asacayıq.
Sözə başımı qaldırdım, çoxdandır bu məsəli eşitmirdim.
– Hardansan, danışığınnan bir şey ayırd edəmmədim.
Hardan olduğumu dedim...
Bir az ara verdi, bu səssizliyi anlamaq üçün başımı qaldırdım... Mənə baxırdı... O vaxtdan qırx il keçib, mən o baxışları bütün dərinliyiylə indi də xatırlayıram. Bayaq sərtliyinə, zəhminə tab gətirmək mümkün olmayan göyümsov, daha çox yaşıla çalan gözlərində doğmalıq hiss olunurdu.
– Kimin var sənin?
– Atam davadan qayıtmayıb, anam var.
– Harda işləyir anan?
– Kolxozda...
– Sizə zəhmət çəkənlərin əməyini itirməyin, təhsil alın, biliyinizi artırın. Ağıllı, bilikli gəncliyə xalqın indi daha böyük ehtiyacı var. Sən bilirsənmi, başqa vaxt olsaydı, sizin başınıza nə oyun açardılar? Güllələyərdilər...hamınızı!
Mən artıq özümə gəlmişdim, olanları, olacaqları anlayırdım. Başladığımız işin belə uşaqcasına qırıldığının göynərtisi yenidən oyansa da, bu doğma adamın hissləri, duyğuları qarşısında baxa-baxa qalmışdım.
– Mənim bu sözümü unutmayın, bunu mən sizin hamınıza demişəm. Ağlınızı başınıza yığın, bu xalqa, bu millətə xeyir verin, elmini ucaldın, tarixini yazın. Rus dilini öyrənin, başqa dillərə yiyələnin. Nə elədiyinizdən xəbərimiz var. Bilmirsiz ki, bu işin ziyandan başqa bir xeyri olmayacaq?! İndi Moskva nəticəsini soruşacaq bizdən! Hamısını eşidiblər, bilirlər. Amma mən sizi Moskvaya verməyəcəyəm. Bunun nə demək olduğunu anlayırsızmı?!
O vaxtdan qırx il keçib. Mən o görüşü həmişə xatırlamışam. Bərkə-boşa düşdükcə, yaxını-uzağı dərk etdikcə bunun «nə demək olduğunu» anlamışam...»
Bu hadisənin üstündən üç il keçəndən sonra, artıq respublika DTK-sının sədr müavini olan Heydər Əliyev, beyinlərində Şimali və Cənubi Azərbaycanı birləşdirmək ideyasını gəzdirən bir qrup sumqayıtlı gəncin də azadlığa buraxılması barədə göstəriş vermişdi. Bu hadisəni Ramiz Məmmədzadə xatırlayır:
«1965-ci ildə gənc fəhlələri təmsil edən bir qrup ədəbiyyatçını yaradıcılığında millətçi tendensiyalar olduğuna görə həbs etmişdilər. Gənclərin əsərlərində elə də aşkar millətçi motivlərin səsləndiyini deyə bilmərəm, o şeirlərdə vətənpərvərlik ruhu güclü idi – Azərbaycan xalqının, onun qəhrəmanlıq tarixinin vəsf edilməsi, Şimali və Cənubi Azərbaycanın birləşməsi ideyası. Məsələdən xəbər tutanda DTK-nın Sumqayıt şöbəsinin rəhbəri Zeynalova zəng vurub xahiş etdim:
– Buraxın o adamları, imkan verin məsələni özümüz araşdıraq.
– Ramiz Hüseynoviç, bu mənlik deyil, məsələ mərkəzi aparatın səlahiyyətindədir.
Onda mən Heydər Əliyeviçə zəng etdim, sədr müavini kimi belə məsələlər onun nəzarətindəydi.
– Heydər Əliyeviç, Ramiz Məmmədzadə sizi narahat edir.
O, zəngimə şad oldu, məni dostcasına salamladı. Dedim ki, məni üç gəncin taleyi narahat edir:
– Bildiyimə görə onların fəaliyyətində və yaradıcılığında həyəcana səbəb olan heç bir motiv yoxdur. Ona görə, xahiş edirəm onları azad edəsiniz. Şəhər komitəsi həmin gəncləri himayəyə götürər.

Bir saatdan sonra Zeynalov mənə telefonda deyir:

– Heydər Əliyeviç o adamların buraxılmasına icazə verdi. Ancaq sizdən xahiş edirəm, onlarla ciddi məşğul olun.

Mən uşaqları çağırtdırdım, söhbət etdim, şeirlərini oxudum. O vaxt Yazıçılar İttifaqının sədri olan Mirzə İbrahimovla razılaşdıq ki, Sumqayıtda İttifaqın şöbəsi açılsın, bu gənclər də nəzarətdən kənarda qalmasın. Həmin oğlanlardan biri, Xıdır Alovlu, doxsanıncı illərdə Yeni Azərbaycan Partiyasının Sumqayıt şöbəsinin rəhbəri oldu».

Millətçi qruplar barədə oprativ tədbirlər çox nadir, demək olar ki, tək-tək hallarda cinayət işinə çevrilib məhkəmələrə düşürdü. 1963-cü ilin axırında Azərbaycan DTK-sının sədri postunda Kardaşevi əvəz etmiş Sviqun, artıq Ukrayna, Moldaviya, Tacikistanın xüsusi xidmət orqanlarında əlini bərkitmişdi və banderovçular, OUN-çular* və s. kimi ekstremist və antisovet təşkilatlarının üzvlərini üzə çıxarıb ifşa etməkdə təcrübə qazanmışdı. Bu səbəbdən də o çox vaxt sığortalanır, bu və ya digər məsələyə geniş miqyas və siyasi rəng verməyə meyl göstərirdi. Yalnız Heydər Əliyev, o da böyük çətinliklər bahasına, onu fikrindən dönməyə və həddən ziyadə sərt tədbirlərdən çəkindirməyə müyəssər olurdu.

Bu baxımdan 1965-ci ildə Allahverdi Qurbanov və Paşa Əbdülrəhimov barəsində Azərbaycan SSR CM 67-ci maddəsi ilə açılmış cinayət işi səciyyəvi xarakter daşıyır. DTK arxivlərində işləyərkən mən bu cinayət işinin materiallarını vərəqləmişəm. Bundan əlavə, istintaqı aparan Əkrəm Səlimzadə də məni maraqlı xırdalıqlardan agah edib.

İttihamnamə materiallarından bəlli olur ki, 1965-ci ilin mayında Qurbanov və Əbdülrəhimov «Azərbaycan milli dilinin müdafiə komitəsi»ni yaratmaq qərarına gəliblər. Onların dosyelərindən çıxış etsək, bu adamlar savadlı və yetərincə fəal gənclər idi. Qurbanov – Sov.İKP-nin üzvü idi, leyt.Şmidt adına zavodda tornaçı işləyirdi, eyni zamanda Bakı neft texnikumunun axşam şöbəsində 3-cü kursda oxuyurdu. Paşa Əbdülrəhimov – ÜİLKGİ-nin üzvü, Bakı limanının sürücüsü, Azərbaycan Teatr İnstitutunun 2-ci kurs

* Banderovçular –1943-1947-ci illərdə Qərbi Ukraynada qiyamçı ordu hissələrinin iştirakçıları. S.Banderanın adı ilə çağırılırlar; OUN – Ukrayna millətçiləri təşkilatı (Организация Украинских Националистов). 1929-1950-ci illərin əvvəlində Qərbi Ukraynada birləşmə.



tələbəsi. Hər ikisi fəhlə yataqxanasında qalırdı və istintaq zamanı boyunlarına alırdılar ki, narazılıqların ilk cücərtiləri məhz orada yaranmışdır: bu yataqxanalarda yaşayanların 90 faizi respublikanın kənd rayonlarından gələnlər idi, rus dilini pis bilirdilər ya da heç bilmirdilər. Halbuki, komendant bütün elanları rus dilində yazmağa üstünlük verirdi, bütün iclaslar da rus dilində keçirdi.

Bir sözlə, özləri kimi düşünən həmfikirlərini başlarına yığan Paşa və Allahverdi Bakının müxtəlif yerlərində gizli məclislər, dəqiq desək, ittihamnamədə göstərildiyi kimi «qeyri-leqal yığıncaqlar» keçirməyə başlayırlar. Mayın 16-dan avqustun 1-nə qədər onlar cəmi 12 «yığıncaq» keçirməyə və geniş «cəlbetmə və təbliğat fəaliyyəti» göstərməyə müvəffəq olurlar.

**İttihamnamədən çıxarış:**

İclaslarda deyilirdi ki, «ruslar və ermənilər guya respublikada azərbaycanlılardan daha çox imtiyazlara malikdir, sonuncular isə məhdudiyyət və sıxışdırmalara məruz qalırlar, ruslar azərbaycanlılar üzərində hökmranlıq edir, Azərbaycan məktəbləri rus məktəbləri ilə əvəz olunur. Bundan əlavə, çıxışlarında və oxuduğu neft texnikumunun tələbələri ilə söhbətlərində Qurbanov guya Azərbaycan xalqının ruslar tərəfindən istismar edildiyini, onun dilinin, mədəniyyətinin, adətlərinin sıxışdırıldığını, var-dövlətinin respublikadan daşındığını, Sov.İKP-nin guya Azərbaycan xalqının ruslaşdırılması siyasəti apardığını və bu məqsədlə azərbaycanlılara ərə gedib milli dili sıxışdırmağa imkan yaratmaq üçün Bakı, Sumqayıt, Mingəçevir və digər şəhərlərə çoxlu sayda rus qızları göndərdiyi barədə böhtanlar söyləmişdir»[40].

Çox keçmədi ki, komitənin üzvləri söhbətlərlə kifayətlənməyərək aktiv fəaliyyətə keçməyi qərarlaşdırdılar.

«1965-ci ilin iyununda yataqxana otağında müzakirə zamanı müttəhim Qurbanov zəhmətkeşlərin 7 noyabr nümayişindən istifadə etmək və radiostansiyanı zəbt etmək fikrini irəli sürür. Müttəhim Qurbanov müttəhim Əbdülrəhimovla birlikdə Azərbaycanın Sovet İttifaqının tərkibindən çıxması fikrini söyləmişlər"[41].

Gördüyümüz kimi, cavan oğlanların iclaslarda irəli sürdüyü, o vaxt üçün olduqca təhlükəli sayılan ideyalar, respublikada yaranmış real vəziyyətə söykənirdi. 60-cı illərdə Bakı kosmopolit və beynəlmiləl şəhər idi, azərbaycanlılar rus dilində təhsil almağa

üstünlük verirdilər, Sovetlər İttifaqının titul millətinin dilini bilməyənlərə isə az qala nifrətlə baxırdılar. Respublikada bütün kargüzarlıq işləri rus dilində aparılırdı, Konstitusiyada Azərbaycan dilinin dövlət dili olmasını təsbit edən maddəni isə yada salmamağa çalışırdılar. Yeri gəlmişkən, məhkəmə iclasının gedişində Allahverdi Qurbanov əqidə yoldaşları ilə birlikdə Azərbaycan dilinə dövlət statusunun qaytarılması və onun dövlət idarələrində işlənməsi tələbi ilə ölkə və respublika rəhbərliyinə müraciət etmək istədikləri haqqında danışmışdır.

İstintaqın gedişi haqqında Əkrəm Səlimzadə danışır:

«Materialları mənə gətirdilər. Mən işlə, Heydər Əliyeviçin qoyduğu dərkənarlarla tanış oldum. Heydər Əliyeviçə müraciət etdim:

– Bu böyük işdər, mənə istintaq briqadası lazımdır, tək gücüm çatmayacaq.

– İş üçün sənə nə lazımdır? – soruşdu.

– 7-8 nəfər müstəntiq.

– Bu qədər müstəntiqi haradan tapacağıq?

– Çox böyük qrupdur. Bu qədər adamı təkcə dindirmək yox, onlarla profilaktik söhbətlər aparmaq lazımdır, xəbərdarlıq etmək ki, fəaliyyətlərinə davam etsələr onlara rəhbərlik edən adamlar kimi, həbs oluna bilərlər.

– Düz deyir, – Bileçenko mənim tərəfimi saxladı, – həm də iş axı gərək Azərbaycan dilində aparılsın. Mən Azərbaycan dilində dalbadal heç iki kəlmə də deyə bilmirəm.

Heydər Əliyeviç razılaşdı.

Bu işə rayon orqanlarından əməkdaşları cəlb etdik. Bizim şöbəmizdə cəmi iki azərbaycanlı var idi, beş nəfər də kömək üçün verdilər. Mənimlə bir yerdə 8 nəfərdən ibarət qrup yarandı. İşi icraata mən qəbul etdim, qrupun rəhbəri də mən idim. İttihamnaməni daha sonra mənimlə birlikdə şöbə müdiri Bileçenko və DTK sədrinin müavini Heydər Əliyev imzaladılar.

Təxminən 80-90 nəfər adam dindirdik. Bir çoxlarını ünvan bürosu vasitəsilə axtarırdıq. İçərilərində tələbələr də var idi. Dindirilənlərin hamısı bu qrupa daxil olduqlarını, müəyyən niyyətləri olduğunu boynuna aldılar.

Nəticədə biz dörd nəfər əsas səbəbkarı həbs etdik. Onlardan birinin, Mahmudov Əlişin atası müharibə veteranı, bir çox hökumət təltifləri olan ləyaqətli insan yalvarırdı ki, oğlunu buraxaq. Bileçenkoya məruzə etdilər, o da – Heydər Əliyevə.

– Nahardan sonra onları qəbul edərəm, – Heydər Əliyev dedi. Mən komanda verdim. Nəzarətçilər istintaq altında olanı gətirdilər. Atası oğlunu görəndə ona bir sillə çəkdi:

– Mən Sovet hökumətinin yolunda qanımı tökmüşəm, sən ona əl qaldırırsan! – Kişi dözməyib ağladı.

Heydər Əliyevin əhvalı pozuldu.

– Onları bayıra çıxardın, özünüz isə yanıma gəlin.

Biz Beleçenkoyla geri dönəndə o soruşdu:

– Əkrəm, nə edəcəyik? İşi bağlamaq üçün əlində əsas varmı?

– Qrupun ideoloqu sayılsa da, oğlanın cəmi 19 yaşı var, politexnik institutunda oxuyur, birinci kursda. İnstitutda onun haqqında çox yaxşı danışırlar. İndi isə kamerada oturub ağlayır.

– Yaxşı, qəti həbs-imkan tədbirini əvəz etmək barədə qərar hazırla, fikirlərini dəyişməsi və səhvlərini boynuna alması kifayət edər.

Mən dərhal həmin oğlanın həbsdən azad olması barədə qərar hazırladım.

Sviqun Moldaviya və Ukraynada işləyəndən sonra gözünə hər yerdə təhlükə görünürdü. Heydər Əliyeviç həmişə onu inandırmağa çalışırdı ki, bunlar düşmən deyil, ekstremist deyil, sadəcə olaraq başlarında millətçi havası olan cavan səfeh uşaqlardır və quruluş üçün heç bir təhlükə yaratmırlar. Ancaq Sviqunu fikrindən döndərmək asan məsələ deyildi. Ən qorxulusu da o idi ki, Semyon Kuzmiç tələb edirdi:

– Belə işdə gərək həbslərin sayı çox olsun, siz isə cəmi dörd nəfəri tutmusunuz, onun da birini buraxdınız. – Ancaq vəziyyəti ona başa salanda, yumşaldı. – Qoy olsun, cavanlar dursun bir yana, orada axı yaşı belə az olmayan başçılır da var. Niyə bu boyda nəhəng iş üzrə belə az adam həbs olunub?

Axtarış vaxtı bu cavanlarda bir neçə şrift də tapılmışdı. Ekspertlər rəy verdilər ki, aşkar olunan qədər şriftlə vərəqə hazırlamaq praktik olaraq mümkün deyil. Ancaq Sviqun bizdən tələb edirdi:

– Yazın ki, mətbəə üçün şrift aşkar edilib.

Adlar, siyahılar tapılmışdı.

– Yazın ki, üzvlük haqqı ödəmək üçün cədvəllər aşkar edilib. Bir sözlə, o bu işi böyük bir təşkilatın yaradılması həddinə çatdırmaq istəyirdi. Sviqun tələb edirdi ki, biz daha çox adamı həbs edək, çünki Mərkəzə öz işinin miqyasını nümayiş etdirmək istəyirdi.

Ancaq özlüyündə axı heç bir təşkilat yox idi. Bu yerdə Heydər Əliyev güclü məntiq, inandırmaq məharəti göstərdi. Sviqun öz birinci müavininin fikrinə diqqətlə yanaşırdı. Bunun hesabına biz daha bir səbəbkarı – talış balası Əliməmməd Ağayevi azad edə bildik.

Moskvanın təzyiqinə və DTK sədrinin Mərkəz qarşısında özünü göstərmək yanğısına baxmayaraq, başda Heydər Əliyev olmaqla Azərbaycan çekistləri kütləvi həbslərə qarşı çıxdılar. Yüz nəfərə yaxın adamla profilaktika aparıldı, onlar məhkəməyə yalnız şahid qismində cəlb olundular. Ancaq iki nəfərə, Allahverdi Qurbanov və Paşa Əbdülrəhimova iş kəsildi. Onlar da qısa müddətə, hər ikisi cəzanı ümumi rejimli düşərgədə çəkməklə bir il azadlıqdan məhrum edildilər.

Yeri gəlmişkən, cavanların əziyyəti hədər getmədi. Bu məsələ respublikada geniş rezonansa səbəb oldu, istintaq başa çatdıqdan sonra DTK Azərbaycan KP MK və Moskvaya geniş arayışlar göndərdi və bunlara əsaslanaraq partiya rəhbərliyi bəzi nəticələr çıxardı:

«Milli dəyərlərə diqqət artırıldı. Bu məsələdə 1966-1967-ci illərdə Azərbaycan KP MK katibi işləmiş Şıxəli Qurbanov və onun məsləkdaşlarının böyük xidmətləri var. 1966-cı ildə İranda yaşayan böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın "Heydər babaya salam" poeması Bakıda nəşr olundu. Proqressiv düşüncəli gənclər üçün 1967-ci ildə "Ulduz" jurnalı nəşr olunmağa başladı. Novruz bayramı rəsmi şəkildə "Bahar bayramı" kimi qeyd olundu. Ədəbiyyatda milli motivlər gücləndi, tənqidi ruhda yazılmış əsərlər meydana gəldi"[42].

Bu illərdə Heydər Əliyev və onun əməkdaşları yaradıcı ziyalı nümayəndələrini söhbətlər aparmaq üçün dəfələrlə DTK-ya çağırır, ayrı-ayrı yazıçı, şair və alimlərə operativ yoxlama işi açmalı olurdular. Çekist Əliyevin incəsənət xadimləri ilə münasibətləri haqqında kitabın növbəti fəslində söhbət açacağıq.



Bu fəslin yekununda isə az səslənən mövzuya toxunmaq istərdik, məsələn: əks-kəşfiyyat rəisi, sonra DTK rəhbəri olan vaxtlarda Heydər Əliyev necə və hansı rejimdə işləyirdi, Əliyevin rəhbərlik üslubunun özəl xüsusiyyətləri özünü nədə büruzə verirdi?

* * *

Azərbaycan prezidenti Heydər Əliyevin 80 illiyi ərəfəsində respublika Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının kursantları qarşısında mühazirə ilə çıxış edən general-leytenant Ziya Yusifzadə əks-kəşfiyyatçı Əliyevin iş üslubu və metodları ilə bağlı bir sıra maraqlı məqamlara toxundu.

«Heydər Əliyev DTK-da səhər saat 9-dan axşam 9-a qədər işləyirdi.

Hər axşam o ertəsi gün üçün iş planı tərtib edir, səhər gələndə o plana uyğun işləyirdi. Tələb edirdi ki, şöbənin əməkdaşları da həftəlik, aylıq planlar tərtib etsinlər. O deyirdi ki, plansız işləyən adam qarşısına qoyduğu məqsədə nail ola bilməz.

Heydər Əliyev peşəsinin fanatı idi. Hər bir əməliyyatı incəliklərinə qədər bilirdi. Respublikadakı operativ şəraitin dərinliklərinə varırdı, o dərəcəyə qədər ki, onun Kollegiyada və ya hər hansı bir müşavirədə çıxışları zamanı şəhər, rayon şöbələrinin rəisləri təəccüblənirdilər: Əliyev mənim rayonumdakı operativ şəraiti mənim özümdən yaxşı bilir.

Onun unikal, fitri yaddaşı var idi. Heç vaxt kağıza baxa-baxa çıxış etmirdi, hətta DTK-da işləyəndə belə. Auditoriya ilə ünsiyyət yaratmağa çalışırdı. Kollegiyalarda biz onun çıxışını həmişə səbirsizliklə gözləyirdik. Kollegiya qurtarandan sonra əməkdaşlar, xüsusilə də orta strukturlarda çalışanlar, 2-ci şöbənin rəisinin iclasda nə dediyini, çıxışını nəyə həsr etdiyini bir-birindən öyrənməyə çalışırdılar. Məhz onun çıxışları böyük maraq doğururdu.

Çıxış hazırlamaq üçün hansı şöbənin işi və ya əməliyyatı barədə hesabat verəcəkdisə, həmin qurumla sıx ünsiyyətdə işləyirdi.

Çıxışın əsas hissəsini öz üzərinə götürürdü. Ona qaralama gətirirdilər, o isə oturub düzəlişlər edirdi, özü üçün yox (o çoxdan bilirdi ki, nə haqda və necə danışacaq), arayışı hazırlayan adam üçün. Qoy indidən bilsin ki, hansı səhvləri buraxmaq ol-

maz, əsas diqqəti nəyə yönəltmək lazımdır və s. Onun rəsmi sənədlərlə yüksək işləmə mədəniyyəti vardı, onları heç kimin bacarmadığı tərzdə – məntiqlə, dəlillə, sözçülüyə yol vermədən hazırlayırdı.

Unikal hafizəsinə baxmayaraq, onun başqa nəzarət üsulları da var idi. Məsələn, şöbələrdə, bölmələrdə, xüsusilə də DTK-nın mərkəzi aparatında hazırlıq mərhələsində olan operativ işlər barədə qeydlər apardığı ayrıca bloknot. Əməkdaşlar öz aralarında zarafatla deyirdilər: «Heydər Əliyeviçin «Talmudu» var, ora düşdün – qanın getdi». O ən vacib operativ tədbirləri həmişə yazılı nəzarətdə saxlayırdı.

Hələ 2-ci şöbənin rəisi olanda o, respublika üzrə bütün DTK şöbələrinə kuratorluq edirdi və hər şeyə xırdalıqlarına qədər diqqət yetirirdi, işin içində olmağa çalışırdı. Hər gün iki-üç rayon şöbəsinin rəisi ilə əlaqə saxlayıb vəziyyətlə, görülən işlərlə, nəticələrlə maraqlanırdı. Bu barədə digər şöbələrin rəisləri də xəbərdar olduqlarından, hər an gözlənilən sorğu-suala hazır vəziyyətdə idilər.

Həftə ərzində o, bir ya iki əməliyyat işçisini "ortaya" çağırırdı, sıravi əməliyyatçını da çağırıb bu saat nə işlə məşğul olduğu barədə sorğu-suala tuta bilərdi. Bir neçə sual verirdi: əməliyyatın əsas məqsədləri, işi hansı plana uyğun aparmaq fikrindəsən, hansı nəticələri gözləyirsən? Əməliyyatçı cavab verə bilməyəndə pis vəziyyətdə qalırdı. Ona görə də hamı, tutduğu vəzifədən asılı olmayaraq, belə "yoxlamalara" hazır olmağa çalışırdı. Bu, idarəçilik sənətində tələbkarlıq atmosferi yaradan ən effektiv medotlardan biridir. Əgər rəis sənin işlərinlə, uğurlarınla, problemlərinlə maraqlanmırsa, bu təqdirdə istər-istəməz səndə işə olan maraq sönəcək. Heydər Əliyev bütün işçilərini şəxsən, üzdən tanıyırdı, onların güclü və zəif cəhətlərini bilirdi və Azərbaycan DTK-sının şəxsi heyətinin potensialından maksimal dərəcədə səmərəli istifadə etməyə çalışırdı.

İdarədə işin icrasına çox ciddi nəzarət qurulmuşdu. Əgər o, şöbə və ya bölmə rəisinə sərəncam göndərirdisə, sənədin üstündə icra müddətini göstərirdi: deyək ki, iki gündən, üç gündən, iki saatdan sonra icrası barədə məruzə edilsin. İcra müddətini qeyd etmək üçün xüsusi kartoçkaları var idi. Vaxtın bitməsinə bir-iki gün qalmış o, tapşırığın gedişatı ilə maraqlanırdı. Allah göstərməsin, kimsə işi vaxtında görüb qurtarmayaydı. Düzdür,



belə hallar olurdu, ancaq yalnız ekstremal vəziyyətlərdə. Ona görə də hamı işi göstərilən vaxtda başa çatdırmağa çalışırdı, lazım olanda istirahət günləri də işə çıxıb axşamacan (hərdən səhərəcən) çalışırdı.

O tez-tez özü operativ tədbirlərin hazırlanması və həyata keçirilməsində iştirak edirdi. Hesab edirdi ki, əgər rəhbər işçi operativ tədbirlərdə iştirak etmirsə və bu mənada öz əməkdaşlarına nümunə göstərmirsə, tabeliyində olan əməkdaşlardan nəsə tələb etməyə onun mənəvi ixtiyarı yoxdur.

...Gənc əməliyyatçılarla görüşlərdən, onlarla məşğul olmaqdan zövq alırdı: seminarlar keçirirdi, arxivə göndərilmiş əməliyyat "oyunlarından" danışırdı, işdə professional olmaq istəyirlərsə necə işləmək, əsas fikri nəyə yönəltmək və bir çox bu kimi məsələlər barədə məsləhətlər verirdi. Xüsusilə vurğulayırdı ki, onların irəli çəkilməsi, xidmət göstərdikləri sahədə hər hansı uğurları yalnız özlərindən, bilik səviyyələrindən, öz üzərində işləmək bacarığından asılıdır.

Hamıya eyni gözlə baxırdı, yalnız işdə yaxşı nəticə göstərənləri özünə yaxınlaşdırırdı. Əgər hər hansı əməkdaş öz işində yüksək professionaldısa, Əliyev onun bəzi çatışmayan şəxsi cəhətlərinə göz yummağı da bacarırdı.

Bir əməkdaşımız vardı, Məmməd Avdiyev. Leninqradda DTK məktəbini bitirmişdi, savadlıydı, geniş erudisiyaya malik idi, di gəl, çox ağır xasiyyəti var idi: qaşqabaqlı, üzügülməz, əməkdaşlarla münasibətdə kobud. Onun tabeliyində 12-14 adam işləyirdi. 1962-ci ildə bütün işçiləri Aleksandr Vasilyeviç Kardaşevin adına raport yazdılar: onunla işləyə bilmirik. Bu azmış kimi, həmin ərəfədə onun bölməsinin əməkdaşı, baş əməliyyat müvəkkili, öz kabinetində intihar etdi. Düzdür, sonradan məlum oldu ki, Avdiyevin bu işdə günahı yoxdur, ancaq hər halda bu hadisə bölmə rəisi kimi onun üstünə kölgə saldı.

Bir sözlə, DTK sədri Avdiyevin təhlükəsizlik orqanlarından çıxarılması məsələsini qoydu. Heydər Əliyev əks-kəşfiyyat rəisi idi, onun analitik qabiliyyətindən, geniş dünyagörüşündən, professional xüsusiyyətlərindən xəbərdar idi. Heydər Əliyev Kardaşevlə danışdı, bildirdi ki, belə kadrı itirmək olmaz. Onu elə sahəyə göndərmək lazımdır ki, tabeliyində heç kim olmasın, ancaq analitik qabiliyyəti və biliyi işə yarasın. Kardaşev Əliyevin təklifi ilə razılaşdı, ümumiyyətlə bütün DTK rəhbərləri onunla hesabla-

şırdılar. Nəticədə Avdiyev üçün inspeksiyada vəzifə tapıldı. Ancaq Məmməd inspeksiyada da yola gedə bilmədi. Mən sədr olanda, onu özümə köməkçi götürdüm, çünki o, Mərkəzə, Moskvaya göndərilən analitik arayışlar, hesabatlar hazırlamaqda usta idi. Və o işin öhdəsindən çox gözəl gəlirdi. Yəni ki, bu adam məhz hər bir əməkdaşının qədrini və qiymətini bilən H.Əliyevin sayəsində orqanlarda qaldı».

Heydər Əliyevin, necə deyərlər, vuran əlini dadmış çekistlərin də xatirələri maraq doğurur. Onların hamısı bu insanın nizam-intizam, işə professional münasibətlə bağlı çox ciddi, bəzən də sərt tələblərindən danışırlar, eyni zamanda şöbədə hökm sürən yoldaşlıq və səmimiyyəti, H.Əliyevin sıravi əməkdaşlara qarşı mehriban insani münasibətini önə çəkirlər. O əməkdaşlarını narahat edən hər bir məsələ ilə maraqlanırdı, hətta məişət və ailə problemləri belə gözündən yayınmırdı, qayğı göstərməyə çalışırdı.

«Heydər Əliyeviç o qədər savadlı adam idi ki, mən onun yanına hər hansı sənədlə gələndə, oxuyurdu, əgər bir vergül belə yaddan çıxmışdısa, mütləq düzəldəcəkdi. Sonralar onun tez bir zamanda rus dilindən Azərbaycan dilinə keçməsi bir çoxlarına olduqca təəccüblü göründü. Onun çox böyük istedadı var idi. Biz tez-tez deyərdik ki, o şahmatçı kimi hər şeyi hesablaya bilir.

Məsələn, o müəyyən bir tədbirlə əlaqədar bizi yığıb müşavirə keçirəndə əvvəlcə hamını dinləyir, sonra deyirdi: «Bəs, əgər belə olsa? Yaxud da bü cür eləsək?..» Yəni, bütün fikirləri, «hə» və «yoxları» dinlədikdən sonra optimal variant irəli sürürdü. O yüksək hazırlıqlı, professional çekist, fitri istedad sahibi idi.

Və o daim öz üzərində işləyirdi».

*(DTK veteranı Zaur Əfəndiyevin xatirələrindən)*

«İş prosesində mən bir daha şahid oldum ki, Heydər Əliyeviç təkcə rəhbərlik edib, göstərişlər vermirdi. O, məsələnin mahiyyətinə varırdı. Tapşırıq verməzdən əvvəl, özü onun üstündə düşünürdü, variantları nəzərdən keçirirdi, bu işi necə yerinə yetirmək olar, ümumiyyətlə onun öhdəsindən gəlmək olarmı? Heydər Əliyeviç işin nəticəsini əvvəlcədən görmək məharətinə malik idi. Və məhz bu nəticəni də əməkdaşlarından tələb edirdi».

*(Ramiz Məmmədzadə ilə söhbətimizdən)*



«Heydər Əliyeviç fitrən unikal yaddaşa malik idi, üstəlik hər zaman öz üzərində çalışırdı. Heydər Əliyevlə hələ gənclik illərində bir yerdə işləmiş Adil Zülfuqar oğlu Bağırov mənə danışıb ki, H.Əliyev çap olunmuş bütöv səhifəni bir dəfə oxumaqla həmən dəqiqə bir səhvə belə yol vermədən sözbəsöz təkrar edə bilərdi. Çıxışlara və ya müxtəlif sahənin mütəxəssisləri ilə görüşlərə hazırlaşanda, onu maraqlandıran məsələyə dair qalaq-qalaq ədəbiyyatla tanış olurdu, qeydlər aparırdı və istənilən mütəxəssislə onun öz dilində danışmağı bacarırdı.

Mən bu qədər dərin, ideal yaddaşı olan ikinci belə adam tanımıram. O az qala bütün DTK əməkdaşlarını üzdən tanıyırdı, xidmət etdiyi yerdən asılı olmayaraq adları, soyadları yadında idi – istər mərkəzi aparatda olsun, istər uzaq rayonda. O, Komitədə hər bir adamın kim olduğunu bütün xırdalıqlarına qədər bilirdi».

*(Albert Salamovun xatirələrindən)*

«Heydər Əliyev söhbət etdiyi adamı çox diqqətlə dinləməyi bacarırdı, sözünü kəsmirdi, yalnız bundan sonra, məsləhət edirmiş kimi, həmsöhbətinin mənliyinə toxunmadan öz fikrini söyləyirdi. Əgər əməkdaşın köməyə ehtiyacı vardısa, Heydər Əliyeviç bunu yubatmadan edirdi, problemin operativ həllinə çalışırdı. Heydər Əliyeviç əməkdaşlarına qarşı olduqca diqqətli idi. Ona görə onun bütün tapşırıqları yerinə yetirilirdi, hamı bilirdi ki, onun gözəl yaddaşı var, nəzarət güclü olacaq, nəticə isə – müsbət.

Heydər Əliyeviç təkcə əməkdaşlarına qarşı deyil, özünə qarşı da son dərəcə tələbkar idı. O iş vaxtının hər dəqiqəsinin qədrini bilirdi, tapşırıqlarının səthi yerinə yetirilməsini, yaxud yubadılmasını sevmirdi. Fenomenal yaddaş sahibi olduğundan, kimə nə tapşırıq verdiyi, icra müddəti daim yadında idi. Bir dəfə o, qurum rəhbərlərindən kiməsə müəyyən gün, saat 14-ə qədər bir sənəd hazırlamağı tapşırır. Əməkdaş sənədi hazırlayır, ancaq rəisin kabinetinə göstərilən vaxtdan 10 dəqiqə gec gəlir. Heydər Əliyev bir söz demədən sənədlə tanış olur, razı qaldığını bildirir, sənədi imzalayaraq təyinatı üzrə göndərilməsini tapşırır. Əməkdaş kabineti tərk etməyə hazırlaşanda, Heydər Əliyev onu saxlayıb soruşur ki, sənəd nə vaxt təqdim olunmalı idi. Məlum olur ki, əməkdaş Heydər Əliyevin nahardan sonra yubanacağını zənn edərək onun yanına vaxtından gec gəlib. Heydər Əliyev ona «lazımi» sözləri deyəndən sonra anladır ki, çox diqqətli olmaq, iş vaxtının

qədrini bilmək və başqasının da vaxtına hörmətlə yanaşmaq lazımdır».

*(Adil Bağırovun xatirələrindən)*

«1965-ci il yanvar ayının 15-də Gəncədə Qum-gil kombinatının tikintisində faciəli hadisə baş verdi. Həmin obyekt yeddiilliyin böyük tikintiləri sırasına daxil olduğundan SSRİ Nazirlər Sovetinin sədri Kosıginin nəzarətində idi.

Qaynaq işləri zamanı qığılcım qaz balonuna düşmüş, partlayış olmuş, nəticədə bir nəfər həlak olmuşdu. Bu, terror aktı deyildi. Ancaq o vaxt hələ bunu bilmirdik. Azərbaycan Nazirlər Sovetinin sədr müavininin başçılığı ilə komissiya təşkil edildi. Heydər Əliyev məni də bu komissiyaya saldı. O vaxt üçün bu, böyük, fövqəladə hadisə idi.

Təxminən bir həftə Gəncədə olduq. Mən gəncəli həmkarlarımla söhbət apardım, mütəxəssislərlə danışdım, çertyojları, sxemləri öyrəndim və belə qərara gəldik ki, partlayış ehtiyatsızlıq üzündən baş verib.

Bakıya qayıdıb bütün məlumatları Heydər Əliyeviçə məruzə elədim. Çertyojları stolun üstünə düzüb, hər şeyi təfsilatıyla izah etməyə başladım. Birdən hiss etdim ki, Heydər Əliyevin nəzərləri harasa kənara yönəlib. «Yəqin heç mənə qulaq asmır», – düşündüm. Ancaq yanılırdım.

– Sən bütün bunları haradan belə yaxşı bilirsən? – mən sözümü qurtarandan sonra soruşdu.

– Heydər Əliyeviç, siz ki bilirsiniz, mənim mühəndislik təhsilim var, AZİ-ni qurtarmışam, siz də nə vaxtsa orada oxumusunuz.

– Hə, elədir, elədir! – gülümsəyirdi. – Çox sağ olun. Yaxşı işləmisiniz.

Hiss olunurdu ki, o, professional səviyyədə görülmüş işdən zövq alır. O hər bir şeydə peşəkarlığı yüksək dəyərləndirirdi».

*(Cabbar Bəylərovun danışdıqlarından)*

«1963-cü ildə DTK əməkdaşları üçün yeni yaşayış binası tikdilər. Mənzilləri bölməyə başladılar. Bundan bir qədər əvvəl şöbə partiya təşkilatının katibi kimi mən, şöbə rəisinin müavini Xalıqov və bir nəfər də partbüronun üzvü ev növbəsində duran əməkdaşlarımızdan birinin mənzilində olduq. Gördüklərimiz bizi dəhşətə gətirdi: özü, həyat yoldaşı, üç uşağı, hamısı da bir



otaqda... Hələ yoldaşı da xərçəngdən əziyyət çəkirdi. Bir sözlə, bölüşdürmə başlayanda, mən həmin əməkdaşın xeyrinə öz mənzilimdən imtina elədim. Sədr müavini Eyvaz Məmmədov, yadıma gəlir, narazılığını da bildirdi: bu nə hərəkətdir, sənə mənzil verirlər, hələ imtina da edirsən. Heydər Əliyeviç də orada idi. İclasdan sonra məni yanına çağırıb dedi: «Çox düzgün hərəkət eləmisən, ürəyini sıxma. Sən o adama kömək etdin, sənə də mütləq kömək edərlər». O vaxt Azərbaycan Sərhəd Qoşunları İdarəsi ləğv olunmuşdu, ona görə sərhədçi ailələrinin bir çoxu respublikadan gedirdi. 2-ci şöbənin rəis müavini Vladimir Bantserev boşalan mənzillərdən birinə göçdü. Onun Neftçilər prospektindəki mənzilini isə Baksovetin qərarı ilə mənə verdilər. Mən bilirəm, bu şəxsən Heydər Əliyevin təşəbbüsü idi».

*(Kamal Əliyevin xatirələrindən)*

Yeri gəlmişkən, çekistlərlə olan söhbətlərimdə Heydər Əliyevin mənzil məsələsində onlara göstərdiyi köməklik haqqında yetərincə buna bənzər hadisə eşitmişəm. Demək olar ki, «qocaların» hamısı öz geniş, yaraşıqlı mənzillərini mənə qürur hissi ilə göstərərək deyirdilər: «Bu mənzili mənə Heydər Əliyevin özü verib». Respublikada mənzil məsələsi həmişə gərgin olduğundan bir çox adlı-sanlı çekist darısqal, bəzən yarımzirzəmilərdə kommunal mənzillərdə yaşayıblar. H.Əliyev DTK sədri olanda öz əməkdaşları üçün altı binanın tikilməsinə Nazirlər Sovetindən icazə ala bildi. O illər bir çox DTK işçilərinin ailələri geniş, hər şəraiti olan mənzillərə köçdü. Onlar bunu indi də unutmurlar.

DTK-nın sədr müavini mənzil şəraitini yaxşılaşdırmaq məsələsində bəzən digər güc strukturlarından olan həmkarlarına da kömək edirdi. Belə bir hadisəni Sabir Hüseynov xatırlayır:

«...Mən daxili işlər orqanlarına prokurorluqdan dəyişilmişdim. MK bürosu məni yeni yaradılmış İstintaq idarəsinin rəisi və Azərbaycan DİN Kollegiyasının üzvü təsdiq etmişdi. Bundan bir az əvvəl isə MK-nın bürosunda Heydər Əliyevi respublika DTK sədrinin müavini təsdiq etmişdilər. Və mənim təzə kabinetimdə hökumət telefonuna gələn ilk zəng də ondan idi.

– Sabir Mamedoviç, indi mən sizi yeni vəzifə ilə təbrik edirəm.

– Minnətdaram, Heydər Əliyeviç.

– Yeri gəlmişkən, harada yaşayırsınız?

– Özüm mehmanxanada qalıram, ailəm isə ev alıncaya qədər Kirovabadda olacaq.

– Nə vaxt ev almaq fikrindəsiniz?.

– Nazirliyimiz böyükdür, nüfuzludur. Düşünürəm ki, yaxın vaxtlarda verərlər.

– Bu qədər sadəlövhlük! – O güldü. – Sizin nazirliyiniz həqiqətən də böyük və nüfuzludur. Ancaq, mən biləni indinin özündə sizdə ev yoxdur, yaxın gələcəkdə də gözlənilmir...

Mənim sevincimə səbəb olmayan bu sözlərlə də söhbətimiz bitdi. Mən bilmirdim ki, Heydər Əliyeviç DTK-da mənzil-məişət komissiyasının sədridir, bu yaxınlarda Respublika stadionunun həndəvərində tikilən binanın onlara təhvil veriləcəyindən də xəbərim yox idi. Onu da bilmirəm ki, Heydər Əliyeviç öz rəhbərliyini mənim adımın bəxti gətirənlərin siyahısına salınmasına necə inandıra bilmişdi. Söhbətimizin üstündən bir neçə gün keçəndən sonra, o yenidən mənimlə əlaqə saxlayıb təcili DTK-ya gəlməyimi xahiş etdi. Rəhbərliyi xəbərdar edib dəniz qırağındakı binaya tələsdim. Moskvada onların binasına Lubyankadakı ev deyirlər, bizdə isə DTK şəhərin dağlıq hissəsinə köçənə qədər DTK binasına «Dəniz qırağındakı ev» deyirdilər.

Onun kabinetində altı-yeddi nəfər oturmuşdu. Sonradan bildim ki, hamısı mənzil-məişət komissiyasının üzvləridir.

– Bu da yoldaş Hüseynov, – o ayağa qalxdı. – Xahiş edirəm tanış olasınız: kollegiyanın üzvü, DİN İstintaq idarəsinin rəisi və bizim təzə ev alanlardan biri – Sabir Mamedoviç Hüseynov.

«Təzə ev alan» məsələsi əvvəlcə mənə çatmadı. Hamının bir-bir mənim əlimi sıxmasını gözləyən Heydər Əliyeviç təntənəli surətdə sözünə davam etdi:

– Sabir Mamedoviç, icazə verin Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbərliyi və mənzil-məişət komissiyasının üzvləri adından dördotaqlı mənzilin order və açarlarını sizə təqdim edim».

* * *

1964-cü ilin 23 dekabrında SSRİ Nazirlər Soveti yanında DTK-nın kadrlar İdarəsinə Heydər Əlirza oğlu Əliyevin Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini təsdiq edilməsi xahişi ilə təqdimat göndərildi. 1965-ci ilin yanvar ayında təqdimat təsdiq edildi. 2-ci şöbənin rəisi podpolkovnik Heydər



Əlirza oğlu Əliyevin SSRİ DTK-sına göndərilən xidməti xasiyyətnaməsində deyilirdi:

«... SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi ilə kapitalist ölkələrindən olan xaricilərlə bağlı, birgə keçirilən bir sıra ciddi çekist əməliyyatında şəxsən iştirak etmişdir. Onun bilavasitə iştirakı ilə respublika DTK-sında İran kəşfiyyat orqanlarına qarşı bir neçə tədbir həyata keçirilmişdir. Agentura ilə şəxsən işləyir ...

1963-cü ildə yol. Əliyev kordonun o tərəfinə keçmək fikri olan dövləti cinayətkarın axtarışı və saxlanması işini düzgün təşkil etmişdir. 1962-1964-cü illərdə onun rəhbərliyi altında şöbənin operativ heyəti tərəfindən həyata keçirilən xeyli sayda profilaktik tədbirlər nəticəsində bir çox arzuedilməz halların qarşısını almaq və yanlış fikirdə olan sovet vətəndaşlarını doğru yola gətirmək mümkün olmuşdur».

Azərbaycan dövlət təhlükəsizliyi orqanlarının başında isə Sov.İKP MK Baş katibinin irəli çəkdiyi, Brejnevlə bir yerdə Moldaviyada işləmiş Semyon Kuzmiç Sviqun durdu.

Bu adamla Heydər Əliyevi uzun illərin səmimi dostluğu birləşdirəcək. Və fikrimcə, H.Əliyevin 1969-cu ilin iyulunda Azərbaycan KP MK-nın birinci katibi seçilməsində onun rolu az olmayacaqdır.

1965-ci il martın 31-də Heydər Əliyevə polkovnik rütbəsi verilir. 60-cı illərin ikinci yarısı onun üçün respublika dövlət təhlükəsizliyi orqanlarının möhkəmləndirilməsi, ciddi xüsusi əməliyyatların aparılması, DTK-nın kadr heyətinin yeniləşdirilməsi istiqamətində aparılan olduqca gərgin fəaliyyət illəri olacaqdır. Gənc sədr müavininin işdən ciddi yapışması Mərkəzin diqqətindən kənarda qalmayacaq: S.Sviqunu Moskvaya, yüksək vəzifəyə aparıb DTK sədrinin müavini qismində Y.Andropova «təhkim edəndən» sonra, onun yerinə uzun onilliklərdən bəri ilk dəfə olaraq azərbaycanlı tövsiyə ediləcək – Heydər Əliyev.

1. Xalq qəzeti. 2002. 11 iyun.
2. Əliyeva Ş. Mənim anam. Bakı, 2002. S.28.
3. Источник. Документы русской истории. Приложение к журналу «Родина». 1998. Ч. 1. С.93-102.
4. Sitat Cəmil Həsənlinin «Cənubi Azərbaycan: soyuq müharibənin başlanması» (Bakı, 2003. s. 249) kitabından gətirilir.
5. Həsənli C. Cənubi Azərbaycanda Sovet-Amerika-İran qarşıdurması. Bakı, 2001. S. 240.
6. Источник. 2001. № 5.
7. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. Баку, 2003. С. 206.
8. DTN tarixindəki bu dövr P.Sudoplatovun «Xüsusi əməliyyatlar. Lubyanka və Kreml. 1930-1950-ci illər» (M., 1997) kitabında təfərrüatı ilə təsvir olunmuşdur.
9. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. С. 321-322.
10. Sitat P.Sudoplatovun «Xüsusi əməliyyatlar. Lubyanka və Kreml. 1930-1950-ci illər» kitabının elektron variantından gətirilmişdir.
11. Хоскинг Дж. История Советского Союза. Смоленск, 2001. С. 303.
12. Мамедов А. Час «икс» переворота М.Дж.Багирова и Л.Берии. Баку, 2005 С. 292-293.
13. Бобков Ф. КГБ и власть. М., 2003. С. 143-144.
14. Власть. 2003. № 50. С. 43.
15. Валянский С., Калюжный Д. Русские горки: конец российского государства. М., 2004. С. 247.
16. Медведев Р. Н.С.Хрущев. Дружба народов. 1989. № 7. С. 145-146.
17. Süleymanlı B. Nəcib iş. Sərhəd. 2001. 18 iyul.
18. Андриянов В., Миралимов Г. Гейдар Алиев. М., 2006. С. 80-81.
19. Xalqa, vətənə, dövlətə sədaqət. Bakı, 1977. S. 22.
20. Yenə orada.
21. Хрущев вспоминает. М., 2004. С. 334.
22. Крючков В. Личноть и власть. М., 2004. С. 49.
23. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане С. 113.
24. Bağırovun məhkəməsi. Bakı, 1993. S.115.
25. Волкогонов Д. Семь вождей. Кн. 1. М., 1995. С. 372-375.
26. Xalqa, vətənə, dövlətə sədaqət. 1977. S. 23.
27. Azərbaycan tarixi. Yeddi cilddə. cild 7. Bakı, 2003, S. 153.
28. Yenə orada. S. 154-155.
29. Медведев Р. Н.С.Хрущев. Дружба народов. 1989. № 8. С. 180.
30. Xalqa, vətənə, dövlətə sədaqət. 1977. S. 22.
31. Медведев Р. Н.С.Хрущев. Дружба народов. 1989. № 8. С. 172.



32. Караулов А. Вокруг Кремля. С. 27.
33. Бобков Ф. КГБ и власть. Т. 1. с. 252.
34. Волкогонов Д. Семь вождей. Кн. 1. С. 386-387.
35. Хоскинг Дж. История Советского Союза. С. 346-347.
36. Bu hadisələr haqqında bax: Волкогонов Д. Семь вождей. Кн. 1. М., 1995. С. 389-390.
37. Медведев Р. Н.С.Хрущев. Дружба народов. 1989. № 8. С. 181.
38. История и ее проблемы. Баку, 1998. №2. С. 7.
39. Чекисты Азербайджана. Баку, 1981. С. 259-260.
40. Cinayət işi №13. T. 10. S. 188-190.
41. Yenə orada.
42. Azərbaycan tarixi. 7 cilddə. cild 7. Bakı, 2003, S. 159.

*Dördüncü fəsil*

# Azərbaycan DTK-sının rəhbərliyində
## *(1965-1969-cu illər)*

### Sədr təyin olunsun

MTN-in arxiv idarəsində mənə H.Əliyevin sələfləri – müxtəlif illərdə Azərbaycan dövlət təhlükəsizliyi orqanlarına rəhbərlik etmiş şəxslərin siyahısını təqdim etdilər. Bu şəxslər haqqında daha dolğun məlumatı mən Azərbaycan MTN muzeyinin ekspozisiyasında, həmçinin jurnalist Əlirza Balayevin «Heydər Əliyev. Hakimiyyətə gəlməyin anatomiyası» oçerkində tapdım[1].

Beləliklə, Azərbaycanın FK-BSİ-XDİK-XDTK-DTN və nəhayət DTK orqanlarının başında duran kimlər idi?

«Əksinqilabla mübarizə təşkilatının» ilk rəisi 1919-cu il noyabrın 11-də ADR parlamentinin üzvü **Məmmədbağır Saleh oğlu Şeyxzamanov** oldu. Təxminən iki aydan bir qədər çox bu vəzifədə işlədikdən sonra o, parlamentə qayıtmağı üstün tutaraq istefa ərizəsi yazdı. 1919-cu il avqustun 15-də həmin vəzifəyə onun kiçik qardaşı **Nağı Şeyxzamanov** təyin edildi. Hər ikisi Müsavat partiyasının üzvü idi, müavinləri isə Hümmət partiyasını təmsil edirdilər. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bu qurumun rəhbərləri repressiyaya məruz qaldılar: Məmmədbağır Şeyxzamanov güllələndi, onun qardaşı Nağı isə Türkiyəyə mühacirət etdi. İlk milli təhlükəsizlik orqanlarının bir çox əməkdaşı güllələndi və ya həbsxanalara atıldı. Bolşeviklər 1920-ci ildə görkəmli Azərbaycan generallarına, general-mayor Şahzadə Əmir Kazım Mirzə Qacara, general-mayor İbrahim ağa Usubova, general-mayor Əbdül Həmid bəy Qaytabaşıya, polkovnik

Rüstəm bəy Şıxlinskiyə, polkovnik Məmmədbəy Sulkeviçə divan tutdular. Yalnız Səmədbəy Mehmandarov və Əliağa Şıxlinski xilas ola bildilər: onların sağ qalması üçün Nəriman Nərimanov Leninə yazılı müraciət etmişdi.

1937-ci ildə Cəmşid Naxçıvanski güllələndi.

1920-ci il mayın 18-də AzFK XI Qızıl Ordunun Xüsusi şöbəsinin tərkibindən çıxıb müstəqil orqan oldu. Qısa müddət ərzində (1920-1921-ci illər) sədr vəzifəsini üç nəfər tutub: **Semyon Andreyeviç Pankratov, Baba Əliyoldaş oğlu Əliyev və Əyyub Şirin oğlu Xanbudaqov**. B.Əliyevlə Ə.Xanbudaqovun taleyi faciə ilə bitib: 1938-ci ildə onlar xalq düşməni elan edilərək güllələndilər.

Təhlükəsizlik orqanlarının növbəti rəhbəri respublikanın gələcək lideri **Mir Cəfər Abbas oğlu Bağırov** oldu. Özü də o, AzFK-BSİ orqanlarına iki dəfə rəhbərlik etmişdir: 1921-1927 və 1929-1930-cu illərdə.

İki il (1927-1929-cu illərdə) Azərbaycanın Baş Siyasi İdarəsinə **Novruz Kərim oğlu Rizayev** rəhbərlik etmişdir. Onu da siyasi repressiyalar dövründə güllələdilər. Sonralar Heydər Əliyev xatırlayırdı: «...Mənim xatirimdədir – 1956-cı ildə Mircəfər Bağırovun qrupunun məhkəməsi zamanı Novruz Rizayevin istintaq işinin içindən onun Stalinə göndərdiyi bir məktubu çıxmışdı. Bu, çox məşhur məktubdur – o, çox cəsarətli, çox əqidəli bir insan kimi o məktubda 1937-1938-ci illərdəki repressiyalara qarşı etirazını, hiddətini açıq-aydın bildiribdir. Çox məşhur məktub idi, o vaxtlar bizim mətbuatda da ondan istifadə etdilər. Ona görə də, xatirımdədir, mən Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən biz Novruz Rizayevin adını əbədiləşdirdik. Mən onun fəaliyyəti, tərcümeyi-halı ilə tanış oldum. Çox dəyərli bir insan olmuşdur və xalqına çox cəsarətlə xidmət etmişdir. Ondan sonra bir nəfər də azərbaycanlıya bu orqana rəhbərlik etmək etibar edilməmişdi. Hər millətdən - erməni də, rus da, yəhudi də, gürcü də olmuşdu, amma azərbaycanlı olmamışdı»[2].

1930-cu ildən 1933-cü ilə qədər Azərbaycanda BSİ-nin başında **Mixail Petroviç Frinovski durmuşdu.** Əlirza Balayev yazır ki, sonralar Frinovski SSRİ hərbi-dəniz donanması naziri vəzifəsinə qədər yüksəlmiş, lakin 1938-ci ildə Daxili İşlər Nazirliyində «qanlı nazir» Yejovun müavini olarkən gənc xanımı və məktəb yaşlı oğlu ilə birlikdə güllələnmişdir[3].



Bundan sonra, Heydər Əliyevə qədər Azərbaycan dövlət təhlükəsizliyi orqanlarına rəhbərlik edəndərin siyahısı belədir:

**Aleksey Sergeyeviç Aqrba** (1933-1934-cü illər);

**Yuvelian Davidoviç Sumbatov (Topuridze)** (1934-1938-ci illər);

**Mixail Qriqoryeviç Rayev-Kamenski** (1938-ci il);

**Stepan Fyodoroviç Yemelyanov** (1939-1953-cü illər);

**Anatoli Mixayloviç Quskov** (1953-1956-cı illər);

**Fyodor İvanoviç Kopılov** (1956-1959-cu illər);

**Aleksandr Vasilyeviç Kardaşev** (1959-1963-cü illər);

**Semyon Kuzmiç Sviqun** (1963-1967-ci illər).

Sədrin müavinləri də adətən yerli millətin nümayəndələrindən olmurdu: Kavtaradze, Borşşov, Qriqoryan, Markaryan, Purnis, Qulbis.

Bu adamlardan bir çoxunun həyatı faciə ilə bitdi: Markaryan, Qriqoryan, Borşşov güllələndilər, Robert Qulbis və Semyon Sviqun intihar etdilər, Yemelyanov və Atakişiyev 25 il azadlıqdan məhrum olundular. Akademik İ.İbrahimov mənə danışırdı ki, Yemelyanov yatıb çıxandan sonra Bakıya qayıtmış (əslən Tatarıstandan olmasına baxmayaraq) və yardım üçün MK-nın birinci katibinə, keçmiş işçisi Heydər Əliyevə müraciət edib. H.Əliyev Yemelyanova kömək göstərmək barədə göstəriş verib: onu mənzil və təqaüdlə təmin ediblər, deyəsən hələ işə də düzəldiblər.

...Bu qısa tarixi ekskursdan müxtəlif illərdə Azərbaycanda «inqilabi qanunların keşiyində» duran insanların talelərinin nə qədər ziddiyyətli və faciəli olduğu aydın görünür. Yəqin ki, Danton hələ XVIII əsrdə məhz beləlıri haqqında demişdi: «İnqilab öz övladlarını udur».

* * *

DTK sədri vəzifəsinə azərbaycanlının təyin edilməsi, heç şübhəsiz, tarixi hadisə idi. Ancaq H.Əliyevin özünün dediyinə görə, onun namizədliyinin üstünə o saat gəlmədilər. 1997-ci ildə MTN-in şəxsi heyətinin qarşısında çıxış edərkən o, otuz il əvvəlki hadisələri belə xatırlayırdı: «Bizim Azərbaycandan, mənim yanımda işləyən adamlardan bəziləri öz şəxsi məqsədlərinə, şəxsi mənafelərinə görə həmin o Sviqunla birləşib yenə də buraya azərbaycanlı olmayan adamı – Moskvadan, yaxud burada olan bir rusu

təyin etməyə cəhd göstərirdilər. Tarixi həqiqət naminə demək lazımdır ki, – mən bunu özümə görə demirəm, ancaq xalqın tarixi naminə deyirəm, – o vaxt, 1967-ci ildə məhz Andropovun bu işə şəxsi münasibəti və həqiqət naminə demək lazımdır ki, o vaxt Azərbaycanda Mərkəzi Komitənin birinci katibi olan Vəli Axundovun bu barədə düzgün mövqeyi nəticəsində – amma başqaları düzgün mövqedə deyildilər, – ilk dəfə olaraq azərbaycanlı bu orqanın rəhbərliyinə təyin olundu»[1].

Əlbəttə, Heydər Əliyev öz təyinatı haqqında bizdən daha ətraflı məlumata malik idi. Ancaq ədalət naminə demək lazımdır ki, onunla DTK sədri Semyon Kuzmiç arasındakı münasibətlər yaxşı olub, qarşılıqlı hörmət əsasında qurulmuşdu. Mənim görüşə bildiyim bütün DTK veteranları qeyd edirdilər ki, Semyon Kuzmiç H.Əliyevi, onun təşkilatçılıq bacarığını yüksək qiymətləndirir, fikirlərinə hər zaman diqqətlə yanaşırdı. Məsələn, Əkrəm Səlimzadə hesab edir ki, «Sviqunun heç vaxt belə müavini olmamışdı. O, Heydər Əliyevdən yalnız hörmət və etibar görmüşdü. DTK sədrinin müavini olan zaman Heydər Əliyev nadir hallarda sədrin, general Sviqunun olduğu yerdə çıxış edərdi. İş ondadır ki, Sviqundan fərqli olaraq, onun qeyri-adi natiqlik istedadı var idi, çıxışları həmişə parlaq olurdu. Bu səbəbdən də DTK sədrinin heysiyyətinə toxunmamaq üçün Heydər Əliyeviç çalışırdı ki, Sviqun iştirak edən tədbirlərdə çıxış etməsin. Sviqun ona «Çıxış etmək istəyirsinizmi?» sualı ilə müraciət edəndə isə Əliyev nəzakət xatirinə həmişə söyləyirdi: «Sizin dediklərinizə əlavəm yoxdur». Xatirimdədir ki, Heydər Əliyeviç Siyasi Büro üzvlüyünə namizəd olanda, Sviqun Ali Sovetə seçkilərlə əlaqədar Azərbaycana gəlmişdi və onlar küçədə addımlayarkən Heydər Əliyev statusunun daha yüksək olmasına baxmayaraq, hörmət əlaməti olaraq onu özündən qabağa buraxırdı».

«Sviqunun tapşırığı ilə respublika DTK-sından Mərkəzə gedən bütün ən vacib sənədləri Heydər Əliyeviç hazırlayırdı, – Ziya Yusifzadə xatırlayır. – Sviqun, Əliyevin çekistlik istedadını çox yüksək dəyərləndirirdi. Moskvaya ciddi əməliyyatlar, əks-səda doğurmuş işlər barəsində hesabatlar gedirdi, bizi tərifləyirdilər, işimizə qiymət verirdilər. Moskvaya gedəndən sonra Sviqun bunu unutmadı. Ancaq Heydər Əliyev hər şeydən əvvəl, əlbəttə ki, Andropovun irəliyə çəkdiyi adam, onun sadiq silahdaşı idi. Və Andropovsuz, onun rəyi olmadan bu cür yüksək təyinat



mümkün deyildi. Amma əsas amil – Əliyevin qeyri-adi şəxsiyyəti idi».

«Semyon Kuzmiç Moskvaya gedəndə öz yerinə Heydər Əliyeviçi tövsiyə etmişdi, – Albert Salamov danışır, – və etməsəydi qəribə olardı. Onun Moskvada hörməti böyük idi, ona inanırdılar, məsələn, elə Brejnevin özü. Əlbəttə, o özündən sonra yerinə elə adam qoymalı idi ki, ondan arxayın olsun. Hesab edirəm ki, Heydər Əliyeviç məhz Sviqunun məsləhəti və Vəli Axundovun fəal dəstəyi ilə təyin olunmuşdu. Ancaq Moskvanın Azərbaycan DTK rəhbəri qismində rus millətinin nümayəndəsini görmək istəyi də istisna olunmur».

Respublikanın DTK rəhbəri vəzifəsinə həqiqətən başqa iddialı namizədlər də var idi.

«Sviqunu SSRİ DTK sədrinin birinci müavini təyin edəndən sonra Azərbaycan dövlət təhlükəsizliyi orqanlarını kimə etibar etmək məsələsi ortaya çıxdı. Bu vaxt həm Gürcüstan, həm də Ermənistanda DTK-nın başında yerli kadrlar dururdu. Məsələn, Gürcüstanda 30 il idi ki, DTK sədri vəzifəsində Aleksey İnauri işləyirdi – general-polkovnik, müharibə iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, yeri gəlmişkən, Qorbaçovla yaxın idi. İnauri Cənubi Qafqazdan SSRİ DTK Kollegiyasının yeganə üzvü idi. Azərbaycana isə münasibət o vaxtlar soyuq idi, fikirləşirdilər ki, buranın əhalisi müsəlmandır, İran və Türkiyə isə bir addımlıqdadır. Buna görə hesab edirdilər ki, DTK-nın başında rus çekistinin dayanması daha məqsədəuyğundur.

Söz yox, desəm ki, Əliyevin namizədliyi hamını qane edirdi, bu qeyri-səmimi olardı. Bakı HHM dairəsində Xüsusi şöbənin rəisi vəzifəsində general Solovyov işləyirdi. O, Azərbaycan DTK Kollegiyasının üzvü idi. 4-cü ordunun Xüsusi şöbə rəisi Kozlov da Kollegiya üzvü idi. Biz də Kollegiyamızda gələcək DTK rəhbərinin namizədliyini müzakirə edib təqdim etməli idik. Onlar bu işin əleyhinə idilər, deyirdilər ki, DTK sədri Mərkəzdən göndərilmiş adam olmalıdır. Üstüörtülü şəkildə azərbaycanlıya etimadsızlıq ifadə edirdilər. Əslinə qalsa, Solovyovun özü bu yeri tutmaq arzusunda idi. Solovyovu razı salmaq üçün sonradan onu Moskva HHM dairəsinin Xüsusi şöbəsinə rəis təyin etdilər».

*(Ziya Yusifzadənin söhbətindən)*

Respublika DTK sədri vəzifəsinə Solovyovun namizədliyinin tövsiyə edilməsini general-mayor İlhüseyn Hüseynov da xatırlayır[5]. Heç şübhəsiz, olduqca məlumatlı şəxs olan Filipp Bobkov mənimlə söhbətdə H.Əliyevin irəli çəkilməsi haqqında maraqlı versiya söylədi:

«Heydər Əliyevi seçən, ona ümid bağlayan ilk növbədə Aleksandr Kardaşev oldu. Çünki Kardaşev Azərbaycanda Əliyevlə çox fəal və ciddi işləmişdi. Bakıdan gedəndən sonra Kardaşev 2-ci Baş idarənin rəis müavini oldu. Biz onunla yanaşı işləyirdik. Gedəndə o, Sviquna Heydər Əliyevi sədr müavini təyin etməyi məsləhət görür. Kardaşevin məsləhətlərinə qulaq asırdılar.

Əliyevin sədr seçilməsi isə artıq heç kimdə sual doğurmurdu, çünki biz hamımız Heydər Əliyeviçi yetərincə püxtələşmiş, ciddi şəxsiyyət kimi tanıyırdıq, hesab edirdik ki, respublikada bu cür hazırlıqlı kadr ola-ola ora təzə adam gətirməyin mənası yoxdur.

Bir sözlə, Heydər Əliyev DTK sədri kürsüsünü onu kimin dəstəkləyib-dəstəkləməməsindən asılı olmayaraq tutdu. Heç kim şübhə etmirdi, hamı başa düşürdü ki, işin bu istiqamətində məhz belə şəxsiyyət lazımdır.

1967-ci il iyunun 22-də Heydər Əliyev rəsmi olaraq Azərbaycanın «baş çekisti» vəzifəsində işə başladı.

* * *

Bu hadisədən bir ay qabaq, 1967-ci il mayın 19-da, SSRİ DTK-sının ali rəhbərliyində kadr dəyişiklikləri baş verdi.

Uzun illər sonra, Vladimir Semiçastnının SSRİ DTK sədri vəzifəsindən uzaqlaşdırılıb, onun yerinə Sov.İKP MK katibi Yuri Andropovun təyin edilməsi səbəblərini şərh edən Rusiya yazıçı və tarixçilərinin qənaətinə görə, əsas məsələ Brejnevin ətrafında gedən hakimiyyət mübarizəsində idi.

1964-cü il sentyabrın 14-də Sov.İKP MK-nın növbədənkənar plenumunda N.Xruşşov «səhhəti ilə əlaqədar» standart səbəblə Sov.İKP MK-nın birinci katibi və SSRİ Nazirlər Soveti sədri vəzifələrindən kənarlaşdırıldı. Partiya təşkilatının rəhbəri L.Brejnev, SSRİ Nazirlər Sovetinin sədri isə A.Kosıgin oldu.

1965-1967-ci illərdə Brejnev «partiya və dövlətin mütləq lideri deyildi, bir çoxları onu müvəqqəti, aralıq fiqur sayırdı. Yalnız təsərrüfat-iqtisadi problemlərin deyil, bir çox xarici siyasət



problemlərinin də həllində aparıcı rola iddia edən Nazirlər Sovetinin sədri Aleksey Kosıginin nüfuzu çox böyük idi[6]». SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Nikolay Podqornı da ön sıralara çıxmışdı. Ukrayna KP MK-nın keçmiş birinci katibi Pyotr Şelest xatırlayırdı ki, «Brejnev heç bir kadr, təşkilati, siyasi, ideoloji, təsərrüfat məsələsini Podqornı ilə məsləhətsiz həll etmirdi. Onlar hər işdə əlbir idilər... Siyasi Büronun az qala bütün üzvləri hər hansı məsələni həll etməkdə və ya təxirə salmaqda kömək üçün Podqornıya müraciət edirdi...»[7].

Ancaq Brejnev hakimiyyət uğrunda mübarizədə o illərdə doğrudan da böyük populyarlıq qazanmış Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini 49 yaşlı Aleksandr Şelepini özünün ən əsas rəqibi sayırdı. Semiçastnını SSRİ DTK sədri vəzifəsinə məhz Şelepin gətirmişdi, Brejnev də doğru olaraq hesab edirdi ki, rəqibi bu güclü təşkilatı öz nəzarətində saxlamaqda davam edir. Ona görə də opponentlərinin neytrallaşdırılmasına Leonid İliç məhz Semiçastnıdan başladı.

1967-ci ilin mayında keçirilən Siyasi Büro iclaslarının birində Brejnev Semiçastnını tutduğu vəzifəsindən azad edərək onun yerinə MK katibi Andropovu təyin etməyi təklif etdi. Xatirələrində bu epizodu şərh edən Pyotr Şelest iddia edir ki, həmin qərarı Brejnev təkbaşına, heç kimlə məsləhətləşmədən qəbul edib, bir çox Siyasi Büro üzvləri və MK katibləri məsələdən xəbərsiz olub. Şelestin özü bu məsələnin lehinə səs versə də, xatirələrində bu cür «alçaq, məkrli və qorxaq üsullardan kadr yerdəyişmələrində istifadə olunmasını» pisləyir[8]. Lakin 1990-cı ildə «Soverşenno sekretno» jurnalında nəşr olunmuş məqaləsində Pyotr Şelest boynuna alır ki, Semiçastnı həqiqətən Brejnevin «altını qazırdı», Komitə işçilərini onun əleyhinə qaldırırdı. Hətta, Şelestin xatirələrində yazdıqlarına inansaq, Semiçastnıdan qisas almağa Brejnevi o özü «ayıltmışdı». Şelestin «ifasında» bu məsələ belə səslənir:

«1967-ci ilin yazında, Ternopolda ezamiyyətdə olan vaxt, gecədən xeyli keçmiş DTK vilayət idarəsinin rəisi qəbuluma yazıldı. Onu qəbul etdim və o mənə danışdı: «DTK mərkəzi aparatından vilayətdə dövlət təhlükəsizliyi orqanlarının işini yoxlayan komissiya işləyib. Komissiyanın, demək olar ki, bütün üzvləri Brejnev haqqında açıq-aşkar və olduqca neqativ fikirlər söyləyirdilər. Deyirdilər ki, o, hakimiyyətdə, partiya rəhbər-

liyində təsadüfi adamdır. Və bu yüksək rolu yerinə yetirməyə tamamilə hazır deyil... Onun nə partiyada, nə də xalq arasında heç bir hörməti yoxdur, yaxşı boşboğazlığı var, hakimiyyətə intriqa yolu ilə gəlib və deyəsən bu gün-sabahlıqdır». Şelest daha sonra qeyd edir ki, bu söhbətin məzmunu barədə Brejnevə yazılı məlumat verib[9]. Əgər belə «donos»lardan sonra baş katib Semiçastnını vəzifədə saxlasaydı, qəribə olardı.

O ki, qaldı onun davamçısına, Roy Medvedevin yazdığı kimi, «Yuri Andropovun DTK-ya keçməsi onun üçün təkcə kənara yox, həm də yuxarıya doğru hərəkət oldu. DTK sədri 60-cı illərin sonunda SSRİ-də sıravi MK katiblərindən daha nüfuzlu fiqur idi. Bir də ki, Andropov MK katibliyini tərk edib MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi. Bu, partiya iyerarxiyasında xeyli qabağa çəkilmək idi. DTK və onun sədrinin əlavə səlahiyyətlər aldığına dəlalət edirdi»[10].

Düzdür, başqa Rusiya politoloqları bu nöqteyi-nəzərlə razı deyillər. Məsələn, Y.Andropovun komandasında bir neçə il məsləhətçi işləmiş Q.Şahnazarov özünün «Rəhbərlərlə və rəhbərlərsiz» («S vojdyami i bez nix») kitabında yazırdı:

«Əlbəttə ki, sovet siyasətinin yeni parlayan ulduzu – Andropov haqqında, yaxın vaxtlarda onun lider ola biləcəyi ehtimalları barədə xarici jurnallarda dərc olunmuş məqalələri Brejnevə oxumağa verirdilər. Bu, hiyləgər və məkrli baş katibi şübhəyə salmaya bilməzdi və ona xas olan intriqan tərzdə o nəinki özünü rəqibindən sığortalamaq, hətta bundan maksimum yararlanmaq üçün orijinal gediş tapdı – Andropovu Dövlət Təhlükəsizliyi Komitəsinə göndərdi. Onun alicənablığına şübhə etməyən Leonid İliç sakit yata bilərdi: ən məsuliyyətli sahə ağıllı adama tapşırılmışdı, eyni zamanda isə onu, yumşaq desək, kənara çəkmişdilər»[11].

*Y.V.Andropovun şəxsiyyətinə Heydər Əliyev ömrünün sonuna kimi böyük hörmətlə yanışırdı. Bugünkü faktlara istinad edərək, hətta demək olar ki, Andropov sonrakı 17 il ərzində onun ən sadiq həmfikiri olacaqdır: 1984-cü ilin fevralında Yuri Vladimiroviçin vəfatına qədər.*

*O, Heydər Əliyevi korrupsiyaya qarşı amansız mübarizədə dəstəkləyəcək (Brejnevin əhatəsində olan digərləri bu mübarizəni görməməyə üstünlük verəcəklər), onu Siyasi Büroya seçəcək, sovet*



*hökumətinin rəhbərlərindən biri edəcək və ən dar, «yaxın» dairəyə* daxil edəcəkdir. Heç şübhə etmirəm: Andropovun xəstəliyi və vəfatı olmasaydı, Heydər Əliyev mütləq SSRİ Nazirlər Sovetinin başında duracaqdı. Təəssüf ki, tarix ehtimalları qəbul etmir, necə deyərlər, felin lazım formasını yaxına buraxmır.*

*Keçmiş Siyasi Büro üzvləri 90-cı illərdə çap olunmuş çoxsaylı xatiratlarında fəxrlə Andropovla yaxın olmaları barədə yazırlar. Heydər Əliyev heç nə yazmadı, Andropovla olan münasibətlərinin sirrini özüylə aparmağı üstün tutdu. Ancaq həyatının son illərində Andropov ölkədə aparılacaq islahatlar barədə ürəyində gəzdirdiyi ideya və planları məhz onunla, H.Əliyevlə bölüşürdü, baş katib olanda məhz Əliyev idarəçiliyi üslubu, korrupsiyaya qarşı mübarizədə Əliyev metodları ilə silahlanmışdı. «Yuxarıda» oturanların çoxları yaxşı bilirdilər kimdir Yuri Andropovun əsas məsləhətçisi, amma bunun özü də vəzifə və partbiletlərindən ehtiyat edən partiya bürokratlarının Heydər Əliyevə olan sevgisini artırmırdı.*

## Dissidentlər. 5-ci idarənin yaradılması

Y.Andropovun ilk yeniliyi həm mərkəzdə, həm də ittifaq respublikalarında DTK-nın «ölkə ərazisində ideoloji təxribat aksiyalarına» qarşı mübarizə üzrə idarə və şöbələrinin yaradılması oldu. Bu, funksiyaları başqa cür düşünənlər üzərində nəzarət və «kommunist ideologiyası və sosializm quruluşunu sarsıtmağa» yönəlmiş fəaliyyətlə mübarizə aparmalı olan 5-ci Baş idarə idi. İdeoloji «cəbhədə» işin səmərəliliyini artırmaq üçün həmin 1967-ci ildə DTK-da analitik qruplar yaradıldı. Bu qruplarda dövlət təhlükəsizliyi orqanları tərəfindən müxtəlif mənbələrdən alınan və operativ maraq doğuran məlumatlar toplanır və «emal edilirdi».

Bu gün Rusiyada və başqa ölkələrdə SSRİ-nin «soyuq» müharibədə Qərbə niyə və necə uduzduğunu hərtərəfli təhlil edən bir çox politoloji tədqiqatlar çap olunmuşdur. Şübhə yoxdur ki, qələbənin tərkib hissələrindən birini Sovet İttifaqının adı və obrazı ətrafında neqativ psixoloji gərginlik yaradılması təşkil edirdi.

* «Yaxın» dairə – Sov.İKP MK Siyasi Büro üzvlərindən bir neçəsinin daxil olduğu, ən mühüm partiya və dövlət məsələlərini həll edən qeyri-rəsmi qrup.

SSRİ DTK Baş Siyasi İdarəsinin keçmiş yüksəkrütbəli əməkdaşı Nikolay Leonov özünün «Lixoletye»* kitabında yazır ki, «bizim siyasi düşmənlərimiz təbliğat üçün vəsaitə qənaət etmədən ilbəil Sovet İttifaqını nüfuzdan salmaq kampaniyasını gücləndirirdilər. Etiraf olunmalıdır ki, bizim gerçəklik bu iş üçün istənilən qədər material təqdim edirdi. Bir dəfə əlimizə ABŞ prezidenti R.Niksonun bir ifadəsi keçdi: təbliğata bir dollar yatırmaq, yeni növ silah yaradılmasına 10 dollar qoymaqdan daha sərfəlidir. O öz təklifini belə əsaslandırırdı – silah heç vaxt tətbiq olunmayacaq, təbliğat isə hər saat, hər gün işləyir»[12].

1968-ci ilin Çexoslovakiya hadisələri, SSRİ-nin ayrı-ayrı regionlarında 60-cı illərin sonu – 70-ci illərin əvvəllərində milli zəmində baş verən ixtişaş və çaxnaşmalar, qərbdəki ideoloji və təbliğat mərkəzlərinin fəallaşması ölkənin siyasi rəhbərlərinin ciddi narahatlığına səbəb oldu, onlar tərəddüd etmədən dövlət sistemində DTK-nın rolu və təsirinin güclənməsinə razı oldular. Moskva şəhər partiya komitəsinin sabiq birinci katibi V.Qrişinin «Xruşşovdan Qorbaçovadək» kitabında deyilir ki, Y.Andropov «dövlət təhlükəsizliyi idarələrinin bütün şəhər və rayonlarda bərpasına, elmi-tədqiqat institutlarına, müdafiə və ya hər hansı başqa mühüm əhəmiyyət daşıyan müəssisə və təşkilatlara dövlət təhlükəsizliyi işçilərinin təyin olunmasına nail ola bildi. Dəmir yolu, dəniz və hava nəqliyyatında, eləcə də ordu və hərbi-dəniz donanmasında dövlət təhlükəsizliyi orqanları bərpa olundu. Yenidən adamların, müxtəlif təşkilatların məktubları oxunmağa başlandı. Müəssisə və idarə kollektivlərində, yaşayış yerlərində «aktivistlər», «informatorlar», sadə dillə desək, «donos» yazanlar sistemi bərpa olundu. Həm yerli, həm də beynəlxalq telefon danışıqları yenidən dinlənilməyə başlandı.Təkcə telofon dinlənilmirdi. Texnikanın köməyi ilə partiya və dövlət rəhbərlərinin mənzil və bağ evlərində nə danışılırdısa, DTK-nın bundan xəbəri vardı... Y.V.Andropov L.İ.Brejnev vasitəsilə DTK-nın SSRİ Nazirlər Soveti yanında komitədən SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə, yəni heç kimə tabe olmayan, tam müstəqil, yalnız Sov.İKP MK Baş katibinin sərəncamında olan bir təşkilata çevrilməsinə nail oldu»[13].

* Lixoletye – fəlakət və hərc-mərclik dövrü kimi tərcümə olunur.



Rusiya hüquq müdafiəçiləri, həmçinin partiya və hökumətin siyasətini müxtəlif mövqelərdən, lakin açıq şəkildə tənqid edən, müxalif fikrə köklənmiş, sıralarında, heç şübhəsiz, «nüfuz agentləri»* də olan elmi və yaradıcı ziyalı nümayəndələri 5-ci Baş idarənin diqqət mərkəzində idi.

Uzun müddət özü xüsusi xidmət orqanlarının «qalpağı» altında olan tarixçi və publisist Roy Medvedev, sonralar Andropov haqqında yazdığı kitabda göstərirdi ki, «dissidentlərin DTK rəhbərliyinin dəyişməsinə bağladığı ümidlər özünü doğrultmadı, hərçənd Andropov açıq çıxışlarında, heç şübhəsiz, daha ehtiyatlı və soyuqqanlı idi. Bir çox səbəbdən, o cümlədən Çexoslovakiyada baş verən hadisələrin təsiri altında, müxalif qrupların fəaliyyəti 1967-1968-ci ilərdə xeyli genişləndi. Ancaq eyni zamanda repressiyaların miqyası da böyüdü»[14].

R.Medvedev kitabda 60-cı illərdə SSRİ-də antisovet təşviqatı və təbliğatına görə məhkum edilmiş şəxslərin sayı barədə statistik məlumat gətirir. 5 il ərzində – 1956-cı ildən 1960-cı ilədək siyasi motivlərə görə 4676 nəfər məhkum edilmişdi. 1961-1965-ci illərdə həmin səbəblərə görə 1072 nəfər məhkum olunmuşdu. Bununla yanaşı, 1965-ci ildə cəmi 20 nəfər, 1966-cı ildə isə 48 nəfər məhkum edilmişdi. 1967-ci ildə məhkum edilənlərin sayı 103, 1968-ci ildə isə 129 nəfər təşkil etmişdi. 1969-cu ildə 195, 1970-ci ildə isə 204 SSRİ vətəndaşı məhkum edilmişdi. R.Medvedev yazır ki, bu məlumatlar dolğun deyil, çünki bir çox dissident Cinayət Məcəlləsinin adi maddələri ilə məsuliyyətə cəlb edilirdi. Psixiatrik repressiyalar və ölkədən qovulma halları heç də həmişə sənədləşdirilmirdi[15].

1969-cu ildən 1983-cü ilədək 5-ci Baş idarəyə təcrübəli əks-kəşfiyyatçı Filipp Bobkov rəhbərlik edib, təbii ki, onun dünyaya və baş verən hadisələrə öz baxışı vardır. Onun sözlərinə görə, 5-ci Baş idarənin təcrübəsində repressiv ölçülər nadir hallarda, o da yalnız «ciddi qanunazidd hərəkətlər zamanı» tətbiq olunurdu[16].

* Nüfuz agenti (aqent vliyaniya) – xarici kəşfiyyat tərəfindən bu və ya digər dövlətin xarici və daxili siyasətinə təsir göstərmək üçün istifadə olunan şəxs. Adətən belə agent müvafiq ölkənin siyasi və iqtisadi dairələri ilə, onun kütləvi informasiya vasitələri və ya ictimai təşkilatları ilə bağlı olur (sitat R.Krasilnikovun «DTK Mİ-6-ya qarşı» – «Kəşfiyyat və əks-kəşfiyyatın əlifbası» kitabına əlavədən gətirilir).

Bobkovla görüşdüyüm vaxt, təbii ki, mən dissidentlik mövzusundan yan keçə bilməzdim və Filipp Denisoviçdən sovet dissidentlərinə qarşı kifayət qədər sərt mübarizə üsullarının özünü nə dərəcədə doğrultduğunu soruşdum.

– Dissidentlikdən danışmazdan əvvəl, dissidentlərin kim olduğunu dəqiqləşdirmək gərəkdir. Çünki 5-ci idarənin leksikonunda belə anlayış yox idi. «Dissident» anlayışı Qərbdən gəlmişdir. Təbii ki, biz iş aparırdıq, konstitusiya quruluşu ilə mubarizə aparanları aşkar edirdik. Onların üstünü örtmək, onlara olan rəğbəti və Qərbin göstərdiyi köməyi doğrultmaq üçün «dissidentlik» anlayışı icad edilmişdi. Bu, guya başqa cür düşünən deməkdir. Qərbin «dissident» adlandırdığı adamlar cinayətkar idilər, yaxud qanunu pozmaq yolunu tutmuşdular. Onlar təxribatçılıq işi aparırdılar, buna görə də biz onlara qarşı cinayət qanunları tətbiq edirdik. Çox ehtiyatla.

Vəfatından bir az əvvəl mənim Vladimir Maksimovla görüşüm oldu*. Moskvaya gəlmişdi, onu yaxşı, təmtəraqla qarşılamışdılar. «Pravda» qəzetində, digər nəşrlərdə onun buradan getməsi, sonrakı həyatı və SSRİ-nin dağılmasından necə heyfsilənməsi barədə məqalələr çıxmışdı. O mənimlə görüşmək istəyirdi, lakin üzbəüz gəlməyimiz təsadüfən oldu.

Maksimov başladı məni qınamağa ki, bəs, bu cür ölkənin dağılmasına necə imkan verdiniz? Mən dedim: «Siz axı bundan ötrü çalışırdınız. Siz bu məqsədə işləyirdiniz». – «Bəli, ancaq biz bilmirdik ki, belə alınacaq». İndi çoxları deyir ki, biz ölkə ilə yox, kommunizmlə mübarizə aparırdıq».

1954-cü ilə qədər DTK-nın strukturunda ideoloji qurumlar var idi. Xruşşovun vaxtında bu istiqamət xarici ideoloji mərkəzlərə qarşı yönəldildi, ölkə daxilində isə mübarizə bu növ təxribatlarla uzlaşdırılaraq aparılırdı. Şöbələr ləğv olundu. İndi isə Andropovun təşəbbüsü ilə ideoloji təxribatlara sipər çəkmək üçün yenidən bərpa olundular. Özü də, hər şeydən göründüyü kimi, «ideoloji təxribat» anlayışı bəzən olduqca geniş yozulurdu – gizli nəşriyyat yaratmaq və antisovet vərəqələri yaymaqdan tutmuş,

* V.Y.Maksimov – rus yazıçısı, publisisti. 1974-cü ildən mühacirətdə, Parisdə yaşamışdır. Orada «Kontinent» jurnalını təsis etmişdir.



burjua mədəniyyətinin gənclərə və ziyalılara «zərərli» təsirinə qədər.

Təbii ki, Azərbaycan DTK-sında da 5-ci şöbə yaradıldı. Şöbənin ilk rəisi orqanlara partiya işindən gəlmiş Ramiz Məmmədzadə oldu. Mənimlə söhbətində o bu işə «qoşulmağını» belə xatırladı:

«Mən hələ Sviqunun vaxtında DTK-da işləməyə namizədlər sırasında idim. Əslində mən orqanlarda işləmək istəmirdim. Elə o vaxt da ilk dəfə olaraq Heydər Əliyevin diqqətini, insanlara olan mədəni münasibətini öz üzərimdə hiss etdim. O məni DTK-ya çağırmadı, MK-ya, inzibati orqanlar şöbəsinə dəvət etdi. Yadımdadır, biz keçmiş şöbə müdiri Rəşid Məcidovun kabinetində söhbət edirdik. İş ondadır ki, o təzəcə rəhmətə getmişdi, kabinet də hələlik boş qalmışdı. Mən iki dəfə DTK-da işləməkdən boyun qaçırmışdım. Üçüncü söhbətimiz çox uzun çəkdi və bu da onunla nəticələndi ki, axırda Heydər Əliyev mənə dedi:

– Bura bax, azərbaycanlısan? Xalqını sevirsən?

– Əlbəttə,– deyə cavab verdim, – xalqımın yolunda hara desələr getməyə hazıram.

– Birinci dəfədir ki, Azərbaycan DTK-sının rəhbəri azərbaycanlı olub. Yəni səndə milli hiss, bu adama kömək etmək, onu dəstəkləmək istəyi yoxdur?

Bu sözlər məni tutdu.

– Xeyir verə biləcəyim hər yerdə işləməyə hazıram.

Heydər Əliyeviç o saat daxili telefonun dəstəyini götürdü və Vəli Yusifoviçə zəng vurdu.

– Vəli Yusifoviç, biz Ramiz Hüseynoviçlə Məcidovun kabinetindəyik, o bizim təklifimizi qəbul etdi. Yanınıza gəlmək olar?

– Gəlin,– Axundov dərhal razılıq verdi.

Biz Axundovun yanına getdik.

– Bəyənirəm, – o, bunu mənə gülə-gülə dedi, – siz böyük bir işdən yapışırsınız. Heydər Əliyeviç, Məmmədzadəyə hansı rütbə verəcəksiniz?

– Ən yüksəyini verərik, Vəli Yusifoviç, əgər buna razılıq versəniz.

– Yenə də olsa?

– Düşünürəm ki, podpolkovnik rütbəsi. Biz bunu həll edərik, ancaq sizin köməyiniz lazımdır.

– Hesab edin ki, razılığımı almısınız. Lazım gəlsə, xəbər verin, Andropova zəng vurum.

Məni Moskvaya, müsahibəyə – söhbətdən keçmək üçün göndərdilər. Bir çox kabinetlərdən keçəndən sonra, nəhayət ki, Andropovun yanına düşdüm. Onunla çox maraqlı görüşümüz oldu, heç vaxt yadımdan çıxmaz. O məni stol arxasında qəbul etmədi, divanda oturmuşduq, jurnal masasının arxasında. Çox sorğu-suala tutandan sonra dedi:

– Orqanlar haqqında təsəvvürünüz necədir? Nə bilirsiniz?

Mən kinolarda gördüklərim və kitablarda oxuduqlarımdan savayı nə deyə bilərdim? Səmimi olaraq bunu dilimə gətirdim və əlavə etdim:

– Mənim atam böyük həyat təcrübəsi olan yaşlı bir adam idi. tez-tez deyərdi: «Əlinlə toxunmadığın bir şey haqqında fikir yürütmə». Bu sözlər həmişə mənim yadımdadır. Əgər siz məni işə götürsəniz, iki-üç aydan sonra sizin sualınıza cavab verə bilərəm.

O gülümsündü. Bizim söhbətimizdə başqa bir general da iştirak edirdi, kadrlar idarəsinin rəisi (adını unutmuşam). Andropov soruşdu:

– Məmmədzadəni hansı rütbəyə təqdim edirsiniz?

– Heydər Əliyev və Vəli Axundov xahiş edirlər ki, podpolkovnik rütbəsi verək.

– Nə olar, belə adamı dəstəkləmək lazımdır.

Vəssalam. Axşamüstü, təxminən saat səkkizdə, həyat yoldaşımla «Pekin» mehmanxanasında istirahət edəndə, Semyon Kuzmiç zəng etdi:

– Məmmədzadə, təbrik edirəm səni. Təyin olunmağın barədə əmrə qol çəkildi.

Bu minvalla, 1967-ci ilin oktyabr ayında mən 5-ci şöbənin rəisi oldum».

5-ci şöbənin keçmiş əməkdaşları ilə ünsiyyətdə olarkən, mən Azərbaycanda 1967-1969-cu illərdə Cinayət Məcəlləsinin 188-ci-1 maddəsi ilə («bilə-bilə Sovet dövlət və ictimai quruluşunu ləkələyən uydurmalar yayma») neçə cinayət işi açıldığını aydınlaşdırmağa çalışdım. Məlum oldu ki, bu maddə ilə cinayət işi qaldırılmayıb. 1969-cu ildən sonra da bu maddə praktik olaraq tətbiq olunmurdu*.



Eyni zamanda onu da qeyd etmək lazımdır ki, ədəbiyyat və ictimai elmlərə qarşı nəzarət daha sərt idi. «Xoşbəxtlikdən» yaradıcı ziyalılar arasında agentura bütün dövrlərdə istənilən qədər idi.

Azərbaycanın keçmiş DTK sədrlərindən birinin sözlərinə görə, «agentura – təhlükəsizlik orqanlarının əlində olan ən əsas silahdır. Cəmiyyətin hansı vəziyyətdə olması, orada gedən gizli proseslər barədə dəqiq informasiyaya malik olmaq üçün agentura lazımdır. Dövlət, cəmiyyət durduqca təhlükəsizlik orqanları öz əsas silahı olan agenturadan imtina edə bilməz».

Yuri Andropov DTK-ya gələndən sonra «komitəçilər» gizli tapşırıq aldı ki, agent və ya «mənbə»lər sırf vətənpərvərlik əsasında seçilsin. Yalnız kriminal mühitdən bu işə cəlb olunanlar istisna təşkil edirdi: valyutaçılar, narkotik maddə alverçiləri və s. Bunları gizli əməkdaşlığa maddi mükafat hesabına sövq etməyə icazə verilirdi. Qalanlar isə müxtəlif yollarla mükafatlandırılırdı: birinə xarici ölkəyə turist səfərinə getməyə və ya işə düzəlməyə kömək edirdilər, digərinə müalicə olunmaq üçün yardım göstərirdilər, bir başqasının isə vəzifəsini artırırdılar. Bəzi xüsusilə qiymətli agentlərə hətta orden və ya «veteran» təqaüdü verə bilərdilər. Həmin o həmsöhbətim mənə danışdı ki, hər müəssisədə, hər idarədə orqanların 12-14 nəfərdən az olmayaraq gizli əməkdaşı var idi. Belə vəziyyət praktik olaraq kiçik respublikanın bütün əhalisini nəzarətdə saxlamağa imkan verirdi.

Azərbaycanın yaradıcı ziyalı təbəqəsi xüsusilə sıx nəzarətdə idi, düzdür, Rusiyadan fərqli olaraq bu nəzarət daha nəzakətli çərçivədə aparılırdı. Həm də bir şeyi nəzərə almaq lazımdır: yazıçı mühitində 37-ci il ənənələri üzərində tərbiyə almış adamların sayı olduqca çox idi. Bu qəbildən olanlar öz həmkarları barədə «donosları» tamamilə könüllü, necə deyərlər, vicdanın hökmü ilə yazırdılar. Və çox vaxt «Papanın özündən də müqəddəs» görünməyə çalışır, ziyanlı fikirləri əsər-əlaməti görünməyən yerlərdə də axtarıb taparaq ifşa edirdilər.

Paradoksal olsa da faktdır: Heydər Əliyev və onun təhlükəsizlik orqanlarında çalışan gənc əməkdaşları bəzən bu və ya digər

* Həmin maddə 1989 il aprelin 12-də ləğv olunub.

yazıçıya münasibətdə, «dönük» çıxmış adamın ciddi cəzalanmasını tələb edən həmkarlarından daha liberal və mərhəmətli idilər. Çox sonralar, Azərbaycan yazıçılarının X qurultayında çıxış edən Heydər Əliyev açıq deyirdi ki, həm DTK-da, həm MK-da onun iş masası yaradıcı ziyalıların bir-birindən yazdıqları «donoslarla» dolu olurdu:

«Mənim yanıma şikayətə nə qədər adam gəlirdi, o cümlədən sizin içinizdən. Biri gəlib deyirdi filankəs pantürkistdir, o biri deyirdi flankəs irançıdır, üçüncüsü deyirdi ki, filankəs türk casusudur, filankəs isə İran, dördüncü sübüt edirdi ki, filankəs sovet hakimiyyətinin əleyhinədər, o birisinin isə babası da sovet hökumətinin əleyhinə olub, özü də antisovetçidir. Belələri nə qədər gəlirdi, «siqnal» verirdi, bu və digər əsərin qabağını kəsməyə can atırdı»[17].

Aslan Kənanın tanınmış Azərbaycan musiqi tədqiqatçısı Firudin Şuşinskiyə həsr etdiyi oçerkində «Şuşa» kitabının işıq üzü görməsi ilə bağlı maraqlı epizod vardır. Bu kitab ermənilərin qəzəbinə səbəb olmuşdu, çünki F.Şuşinski guya orada Andronikin şəxsiyyətini və ləyaqətini alçaltmış, bununla da xalqlar dostluğuna zərbə vurmuşdu. Ermənilər musiqişünası olmazın təqiblərə məruz qoymuşdular, erməni qəzetlərinin səhifələrində ona qarşı böhtan və söyüş yağdırır, bəzi simasını itirmişlər isə hətta kitab müəllifinə qarşı sui-qəsd hazırlamağa cəhd göstərmişdilər.

Aslan Kənan yazır ki, «Moskvanın təkidi ilə bu məsələ Azərbaycan KP MK-nın bürosuna çıxarıldı. Büronun altı saatdan çox davam edən iclasında çıxış edənlər ifadələrinə hədd qoymadan gənc tədqiqatçıya «burjua millətçisi», «xalqlar dostluğunun düşməni» və s. damğalar vurmağa cəhd edirdilər. Ancaq əsəri yüksək dəyərləndirərək gənc tədqiqatçıya dəstək verənlər də tapıldı. Bəzi dövlət xadimləri də onların tərəfini saxladı...»[18]. Onlardan biri Azərbaycan DTK-sının sədri Heydər Əliyev oldu. 1967-ci il aprelin 17-də keçirilən MK Bürosunun iclasından sonra kitaba olan hücumlar səngimədi. Ancaq məhz H.Əliyevin təmsil olunduğu idarə kitab müəllifinə divan tutulmasının qarşısını aldı. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra F.Şuşinskinin təqib olunmasına son qoyuldu. Ancaq bir an belə «sayıqlığı» itirməyən çekist nəzərləri söz yox ki, ipə-sapa yatmayan musiqiçini izlədi, 5-ci şöbənin rəhbərləri onu bir neçə dəfə profilaktik «səmimi» söhbətlər aparmaq üçün idarəyə çağırdılar.



Beləliklə, «xeyirxahlar» tərəfindən bu və ya digər potensial dissident haqqında kifayət qədər «siqnal» daxil olurdu. Vəzifə borcuna görə informasiyaya reaksiya vermək, bəzi faktlar barəsində isə operativ yoxlama işləri aparmaq lazım gəlirdi. Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşları ilə olan söhbətlərdən öyrəndim ki, şübhəli bilinən şəxslər barədə OYİ (delo operativnoy proverki) və OİI (delo operativnoy razrabotki) açılırdı. OYİ – şəxs və təşkilatlar barədə komitəyə daxil olmuş ilkin materiallar əsasında ibtidai operativ yoxlama işidir. OYİ üçün adətən bir neçə ay vaxt ayrılırdı. Həmin müddət ərzində daxil olan siqnalların həqiqətə nə dərəcədə uyğun olması yoxlanılırdı.

Əgər komitə işçilərinin qənaətinə görə informasiya ciddi maraq doğurardusa, bu halda OYİ böyüyüb OİI – operativ işləmə olurdu. Bu artıq «obyektin» agentura, daxili və xarici müşahidə, operativ texnikadan istifadə etməklə öyrənilməsinin daha aktiv növüdür. Operativ işləmələr bəzən iki-üç ay davam edirdi və nadir hallarda cinayət işi səviyyəsinə gəlib çatırdı.

Hələ 2-ci şöbədə işləyərkən Heydər Əliyev çalışırdı ki, məsələ gəlib aktiv işləməyə çatmasın. Sonradan bu təcrübədən «ideoloji» şöbənin əməkdaşları da istifadə edirdilər: «obyektlər» DTK-ya dəvət olunur, onlarla profilaktik söhbətlər aparılır və SSRİ Ali Sovetinin qərarına əsasən dövlətin adından rəsmi xəbərdarlıq elan edilirdi. DTK qorxusu sovet adamının iliyinə elə dərin işləmiş, qanına elə möhkəm hopmuşdu ki, bəzən «üsyankarı» qanuna itaət edən vətəndaşa çevirmək üçün bu müdhiş idarəyə bir dəfə çağırmaq kifayət edirdi.

5-ci şöbənin ilk rəisi Ramiz Məmmədzadə Azərbaycan yazıçıları ilə aparılan işi belə xatırlayır:

«Əslinə qalsa, biz onları cəzalandırmaqdan daha çox xilas edirdik.

Bir neçə səciyyəvi hadisə yadımda qalıb.

Birinci hadisə Bəxtiyar Vahazadə ilə bağlıdır. Onun poeziyasında, o vaxtın dili lə desək, millətçilik motivləri açıq-aydın səslənirdi.

Heydər Əliyeviç mənim yazıçılarla, rəssamlarla yaxın tanışlığım olduğunu bilirdi.

– Bəxtiyarla məsələni araşdır.

Mən onun məlumatlarda göstərilən şeirlərini oxudum, təhlil etdim və Heydər Əliyeviçə dedim:

– Heydər Əliyeviç gəlin sizinlə bir yerdə bu şeirləri oxuyaq. Hanı burada millətçilik? Məgər biz də belə düşünmürükmü?

Biz şairi dəvət edib onunla iki saat söhbət etdik. Söhbətin yekunları əsasında mən Heydər Əliyeviçin adına hesabat yazdım, göstərdim ki, söhbət müsbət nəticələr verib, bundan əlavə, biz xaricdə keçirilən tədbirlər zamanı Bəxtiyar Vahabzadənin imkanlarından istifadə edə bilərik. Bu vaxta qədər o bir müddət xaricə buraxılmırdı. Bəxtiyar Almaniyada yaşayan tanınmış türk alim və şair Əhməd Şmideni Bakıya dəvət etmək istəyirdi. Buna uzun müddət icazə vermirdilər. Bizim söhbətimiz zamanı o Şmidenin dəvət olunmasından söz salanda, mən soruşdum:

– Bəs Azərbaycana bundan xeyir olacaq?

– Şübhəsiz, – deyə, şair cavab verdi.

Razılıq verdik. Sonralar Şmide Bəxtiyarın dəvəti ilə dəfələrlə Azərbaycana gəldi, bizim tariximizlə tanış oldu, Almaniyada Azərbaycanı təbliğ etdi. Biz həmişə hesab edirdik ki, şəxsi ünsiyyət – respublikanın nüfuzudur.

Ya da Xəlil Rzanı götürək. Bəxtiyar Vahabzadədən fərqli olaraq Xəlil Rzaya gizli iş açılmışdı, yenə də millətçilikdə şübhəli bilindiyinə görə.

Şairi DTK-ya çağırdım. Onunla söhbətimiz uzun oldu. Nəticədə qarşılıqlı razılığa gəldik ki, o ifadələrində bir qədər ehtiyatlı olacaqdır. Mən ona açıq dedim:

– Siz nahaq düşünürsünüz ki, sovet hökuməti, Azərbaycan hökuməti, kommunist partiyası Azərbaycanın birləşməsinin əleyhinədir, Türkiyənin əleyhinədir. Məsələ bunda deyil. Sadəcə olaraq hələ vaxtı gəlməyib, bu proses tarixi baxımdan yetişməlidir.

Bir sözlə, onunla dost kimi ayrıldıq. Həmişə olduğu kimi mən Heydər Əliyeviçin adına təqdimat yazdım, göstərdim ki, burada cinayət əməli görmürəm. O üstündən dərkənar qoydu – «V delo». Yəni, işə əlavə olunsun, belə dərkənardan sonra iş bağlanmış hesab olunurdu.

Heydər Əliyeviç deyirdi ki, köhnə çekistər minbir bəhanə ilə həbs etməyə, tutmağa hazır idilər, indi başqa zamandır, işə başqa yanaşma tələb olunur. DTK-nın başında Stalin «məktəbi» keçmiş adam dursaydı, ziyalılarla vəziyyət tam başqa cür olacaqdı. Yeni nəsl partiya-sovet işçiləri problemin köklərini düzgün başa düşürdü. Bəli, nəzəri cəhətdən, ideoloji baxımdan onlar əsl sovet adamları idilər. Onlar sovet hakimiyyətini möhkəmlətmək, onun nüfuzunu qaldırmaq üçün əllərindən gələni əsirgəmirdilər. Ona görə də profilaktik tədbirlər görməyə üstünlük verirdilər, başa düşürdülər ki, cəza metodları əhalinin müəyyən hissəsini hakimiyyətdən uzaqlaşdıracaqdır».

Yazıçılar, şairlər, rəssamlar – dəymədüşər, tez «özündən çıxan», hədsiz ambisiyalı adamlardır. Bunu öz təcrübəmdən bilirəm, hər halda on ilə yaxın Yazıçılar İttafaqında işləmişəm. Birinə mükafat verilməyib, o birisinin yubileyi istədiyi səviyyədə alınmayıb, bir başqası mənzil şəraitindən narazıdır və bir də gördün bu sosial narazılıq onun yaradıcılığında, yaxud dostları və həmkarları arasında söylədiyi nümayişkaranə-müxalif fikirlərdə özünü göstərdi. Və təbii ki, həmən saat lazım olan təşkilatlara məlum oldu.

5-ci şöbənin bölmələrindən birinin keçmiş rəisi, general-mayor Bahadur Hüseynov bununla bağlı Xəlil Rzanın başına gəlmiş maraqlı bir hadisəni yada salır. 90-cı illərin əvvəllərində vüsət almış milli-demokratik hərəkat onu öz bayrağına və alovlu tribununa çevirəcəkdir. O vaxt isə Xəlil müəllim Ədəbiyyat institutunun sıravi elmi işçisi və olduqca istedadlı şair-tərcüməçi idi. Düzdür, dedikcə emosional və qızğın təbiətli şair tez-tez Moskvanın yürütdüyü siyasətin ünvanına «nalayiq» sözlər işlədirdi, deyirdi ki, Azərbaycanda milli kadrların qədrini bilən yoxdur, onları sıxışdırırlar və s.

«Biz onu Komitəyə dəvət etdik.

– Bu fikirləri söyləməyə sizi nə vadar etdi? – mən soruşuram.

O cavabında:

– Yoldaş Hüseynov, mən şairəm, xalqım, vətənim üçün yazıram, respublikanın nailiyyətlərini tərənnüm edirəm. Mənim ailəm dörd nəfərdən ibarətdir, amma darısqallıq içində yaşayırıq. Bütün təşkilatlara mənə yeni mənzil verilməsi barədə nə qədər müraciət etmişəmsə, cavab yoxdur.

O vaxt Heydər Əliyeviç artıq MK-da işləyirdi. Biz onun adına təqdimat yazdıq, göstərdik ki, Xəlil Rza millətçi ifadələrə yol verir, partiya və hökumətin siyasətinə narazılığını bildirir və bunu öz ağır mənzil şəraiti ilə izah edir. Biz Heydər Əliyeviçdən xahiş etdik ki, Xəlil Rzanın tanınmış şair olduğunu nəzərə alaraq ona

mənzil verilməsi haqqında göstəriş versin. Nəticədə Xəlil Rza üç, ya dördotaqlı mənzil aldı. Bundan sonra bir qədər sakitləşdi.

Ümumiyyətlə yazıçılar tez-tez bir-birilərindən «siqnallar» göndərirdilər. Biz də bu «siqnallara» reaksiya verməli idik. Donosda deyilənlərin həqiqətə nə dərəcədə uyğun olmasını müəyyən etmək üçün agenturanı qoşurduq. Əksər hallarda «anonimka»da göstərilən faktlar öz təsdiqini tapmırdı».

Keçmiş DTK əməkdaşları xatırlayırlar ki, «siqnalların» yoxlanılmasında lüzumsuz yazılı rəsmiyyət həddən artıq idi. Əvvəlcə OYİ açılması barədə qərar çıxarılırdı. Sonra daxil olmuş informasiyanı yoxlamaq üçün tədbirlər planı tərtib edilirdi. Yoxlama bitdikdən sonra yuxarıya profilaktik tədbirlərin keçirilməsinin məqsədəuyğun olması barədə raport gedirdi. Məsələn: «N-in dediklərinin qeyri-qənaətbəxş sosial-məişət, yaşayış şəraiti ilə bağlı olduğunu və N-in dediklərini həyata keçirmək üçün heç bir praktik addım atmadığını nəzərə alaraq, onun profilaktika üçün DTK-ya çağırılmasını məqsədəuyğun hesab edirik».

Profilaktik söhbətdən sonra ətraflı arayış hazırlanırdı. Bu arayış sədrə məruzə edilirdi. O öz dərkənarını qoyurdu. Əgər işi bağlamaq haqqında qərar verilirdisə, yazılı qətnamə çıxarılırdı, onu şöbə rəisi imzalayırdı.

Əbəs yerə deyil ki, sovet kəşfiyyatı veteranlarından biri Leonid Şebarşin, DTK-nın mərkəzi aparatında işlədiyi vaxtları yada salaraq yazırdı ki, bu işin səciyyəvi cəhətlərindən biri «aramsız kağız axını idi, özü də onun böyük hissəsi, mənim zənnimcə, lazımsızdır, yalnız adamları işdən ayırır, fikirləşməyə mane olur. Kargüzarlıq bizdə həmişə və indi də primitiv, lakin məxfilik nöqteyi-nəzərindən etibarlı səviyyədədir. Bütün sənədlər icraçılar tərəfindən əllə yazılır, qeydiyyata salınır, şəxsən makinaçılara təhvil verilir (makinaçıların yanında növbə olur, onlar azdır, biz çox). Sonra kağızlar təyinatı üzrə göndərilir, surətləri işə tikilir, təzədən qeydiyyata salınır və s. İki ali təhsili olan zabit elə bir cansıxıcı mexaniki işi icra edirdi ki, onun öhdəsindən yaşlı bir qadın asan və daha səliqəli gələrdi. Qısası, dəftərxana sənətində biz hər hansı sovet müəssisəsinin durduğu pillədə idik, lakin bizdə hər şey məxfi olduğundan vəziyyət daha da qəlizləşirdi. Yoxa çıxmış kağız axtarışında məyus-məyus kabinetləri gəzən adama tez-tez rast gəlmək olar. Kağız yazılıb, çap olunub, qeydiyyata salınıb və bu yazıq tərəfindən kiməsə verilib, lakin



kimə – bunu unudub və indi axtarış aparır. Mərkəzin işçilərindən hamı ara-sıra belə vəziyyətə düşməli olurdu»[19].

Bürokratik süründürməçilik Sovet İttifaqının bütün dövlət müəssisələri üçün xarakterik iş üsulu idi. Bu bəladan Təhlükəsizlik Komitəsi kimi qapalı müəssisələr də yan keçməmişdi. Düzdür, bəzən «kağız fəaliyyətilə» komitə işçiləri hansısa potensial dissidenti daha sərt cəzadan səmimi olaraq xilas etmək istəklərini ört-basdır edirdilər. Bəxtiyar Hüseynov, məsələn, 70-ci illərdə Sovet İttifaqında dini şövinizm və ekstremizmə qarşı olduqca fəal mübarizə aparıldığını xatırlayır.

«Digər müsəlman respublikalarında – Türkmənistanda, Özbəkistanda, Tacikistanda dini təbliğat üstündə çoxlu din xadimi tutulmuşdu. Bizdə belə şeylər yox idi. Bizdə bəzi «üsyançı» fikirləri dilə gətirənlər olurdusa da, iş profilaktika və xəbərdarlıqla bitirdi. Mən altı il Naxçıvan DTK-sının sədri işləmişəm. Bu altı ildə biz bir nəfəri də olsa həbs etmədik. Profilaktik tədbirlərsə aparılırdı. Şəxs yalnız söyləyir, heç bir əməli addım atmır. Əlbəttə, lazım gəlsə «danışmağına» görə də onu həbs etmək olar. Lakin bizim əlimizdə Heydər Əliyevin göstərişi var idi: «Vəziyyəti sağlamlaşdırmağa çalışın». O tez-tez təkrar edirdi: «Əməliyyat işçisinə yalnız o halda yüksək qiymət verilə bilər ki, o, antisovet ünsürlərin fəaliyyətinin qarşısını profilaktika yolu ilə alıb və onların həbs edilərək cəmiyyətdən təcrid olunmasını qabaqlayıb».

*Heydər Əliyev istər DTK sədri, istərsə də yüksək partiya vəzifələrini tutan vaxt mollalara, axundlara, qazilərə, ümumiyyətlə, dindarlara münasibətdə dözümlü idi. Bəlkə də dindarların hisslərinə olan bu hörmət uşaqlıq illərindən, ailədən qaynaqlanırdı. Biz onun anası İzzət xanımın dindarlığından danışmışdıq. Ögey bacısı Sura və onun həyat yoldaşı Qulu da dindar idilər. Ağsaqqalların xatirələrinə görə Qulu «Şərq qapısı» qəzetində təsərrüfat müdiri, sonra duz mədənlərində qapançı işləyib. Rəhmdil və təmiz adam olan Qulu, 30-cu illərdə, Əlirza kişi Bakı neft mədənlərində bir qədər pul qazanmaq üçün aylarla Naxçıvanı tərk edəndə, həyat yoldaşının ailəsinə çoxköməklik edib.*

*Müharibədən sonra Qulu dinə üz tutdu: Quran oxumağa, yas məclisləri aparmağa başladı, hətta onun adını «molla Qulu» qoydular. Sura xanım da oruc tutub namaz qılırdı.*

*Keçmiş partiya işçisi, hazırda Milli Məclisin deputatı olan Fəttah Heydərov xatırlayır:*

*«Qulu əmi çox diribaş, yaxşı natiqlik qabiliyyəti olan adam idi, Quranı bilirdi, dini söhbətlər aparmağı bacarırdı, ona görə onu məclis aparmağa çağırırdılar.*

*Bununla bağlı maraqlı bir epizod yadıma gəlir. Heydər Əliyevi DTK sədrinin müavini təyin edəndən sonra, bir məclisdə təsadüfən Qulu ilə rastlaşdıq və mən ona zarafatla dedim:*

*– Qulu əmi, indi sən daha molla ola bilməyəcəksən.*

*DTK axı həmişə dini təzahürlərlə mübarizə aparırdı.*

*– Ürəyini sıxma, – dedi, – Bakıya gedib icazəmi almışam. Mən ondan soruşdum: «Heydər, indi neynəyim? Sən desən, mən daha məclislərə gedib Quran oxumaram». O gülümsədi, məni qucaqladı: «Fikir vermə heç kimə! Əvvəlki kimi camaatı düz yola çağır, mən də çalışaram bu işi burada, Bakıda görüm».*

*Bu söhbətdən mən anladım ki, Heydər Əliyev dinin əleyhinə deyil, xalq adət və ənənələrini, o cümlədən dinə aid olanları qoruyacaqdır».*

*Həyatının son dövründə, müstəqil Azərbaycanın prezidenti olandan sonra, H.Əliyev hər bir mömin müsəlmanın ürəyində olan arzuya çatacaq – müqəddəs Məkkə və Mədinə şəhərlərində olacaq, kiçik həcc ziyarətini yerinə yetirəcək, ona ən ali şərəf qisməti olacaq – Kəbə qapıları üzünə açılacaqdır. İnanıram: həmin dəqiqələrdə onun vücuduna hakim kəsilən, genetik olaraq qan yaddaşına hopmuş, əcdadlarının, ilk növbədə sevimli anası İzzət xanımın sarsılmaz dini inamı idi. Qəhrəmanımı keşməkeşli yollardan keçərək bolşevik Qırmızı ulduzundan islam Ayparasına çatdıran tarixin çevrəsi beləcə qapandı.*

Onu da qeyd etmək lazımdır ki, 60-cı illərin ikinci yarısında Kommunist Partiyası MK-nın ideologiya üzrə katibləri tanınmış ədəbiyyatşünas və dramaturq Şıxəli Qurbanov, həmçinin teatr tarixçisi və tənqidçisi Cəfər Cəfərov kimi geniş biliyə malik və sənət aləmində xeyli nüfuzları olan adamlar idi. Onlar qələm sahibləri ilə münasibətdə «sərtləşdirmə» siyasətinə qarşı çıxırdılar, MK-nın birinci katibi V.Axundovu ziyalılarla münaqişəli vəziyyətlərdən çəkinməyə, Azərbaycan yazıçı və alimlərinə istiqamətlənən açıq «ideoloji tənqiddən» yan keçməyə inandırırdılar.



Nadir hallarda məsələni yoluna qoymaq olmurdu, xüsusilə siqnallar gedib Mərkəzə çatanda, Moskva dərs olmaq üçün «araqarışdıranların» cəzalanmasını tələb edirdi. 1997-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyəti qarşısında çıxış edərkən, Heydər Əliyev Sovet İttifaqı Qəhrəmanı, gələcək akademik Ziya Bünyadovun da daxil olduğu bir qrup Azərbaycan tarixçisi ilə bağlı səs-küyə səbəb olmuş bir hadisəni yada salır. 1964-cü ilin yazında Azərbaycanın «könüllü» olaraq Rusiya ilə birləşməsi ilə əlaqədar səsli-küylü şənliklər keçirildi. Bu hadisə ilə bağlı Azərbaycanı Lenin ordeni ilə təltif etdilər. Yaradıcı ziyalıların bir çox nümayəndələri doğma tariximizin bu cür «sərbəst» şərh olunması ilə razı deyildilər, amma bu fikri sətiraltı, Ezop dili ilə ifadə etməyə üstünlük verirdilər. Z.Bünyadov, M.İsmayılov və S.Əliyarov açıq demarşa ürək etdilər. Bu alimlərin 1969-cu ilin martında Azərbaycan Dövlət Universiteti tarix fakültəsinin elmi şurasındakı çıxışlarında elmi əsaslara söykənən tarixi faktlarla sübut edilirdi ki, Azərbaycanın Rusiyaya könüllü birləşməsindən heç bir söhbət gedə bilməz, çar generalları bu əraziləri silah gücünə, qan bahasına ələ keçiriblər[20]. Heydər Əliyev yada salır ki, «bunların, xüsusilə Ziya Bünyadovun başına nə işlər gətirmək istəyirdilər! Mən bunların hamısının qarşısını almışam... Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyim zaman, bu orqanın başçısı olduğum zaman və ondan sonra Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir tədbir görülməmişdir. Biz heç bir dissident həbs etməmişdik, heç bir zaman heç bir adamı antisovet təbliğat, yaxud millətçi təbliğat üstündə həbs etməmişdik. Amma nə qədər belə təkliflər, belə təzyiqlər var idi»[21].

Rüstəm İbrahimbəyov və Eldar Quliyevin «Bir cənub şəhərində» filmi ilə bağlı başqa bir əhvalatı da Heydər Əliyev dəfələrlə xatırlayırdı. Film senzuranı keçməmişdi, «rəfdə» qalıb tozlanmaq qorxusu var idi. Gənc Azərbaycan kinematoqrafçılarının cəmiyyətdə olan neqativ halları damğalayan cəsarətli film çəkdiklərindən xəbər tutan DTK sədri filmə baxmaq arzusunda olduğunu bildirir. H.Əliyev deyirdi ki, baxışdan sonra «Mərkəzi Komitəyə də, Moskvaya da nəinki xəbər verdim, təklif verdim, hətta tələb etdim ki, bu filmin nümayiş etdirilməsinə icazə verilsin. Bu film

o vaxtdan həyat vəsiqəsi aldı və çox böyük də hörmət qazandı»[22].

Bu cür «liberallıq» Azərbaycan «komitəçilərinin» Mərkəzdə olan kuratorlarının heç də həmişə ürəyincə olmurdu. Bahadur Hüseynov mənə respublika DTK-sının 5-ci şöbə əməkdaşlarının antisovet və millətçi ünsürlərin profilaktikası ilə bağlı apardığı işlərə Moskvanın münasibətini göstərən iki misal gətirdi.

«Biz uzun müddət idi ki, SSRİ-də milli siyasətə, rusların diktatına, rus dilinin təzyiqinə və s. qarşı etiraz notları səslənən anonim sənəd yayan adamı axtarırdıq. Bir səhifədən ibarət kiçik vərəqə idi.

Həmin adamı Əli-Bayramlıdan tapdıq. Vərəqənin müəllifi təxminən qırx yaşlarında, peşəsi fotoqraf olan Kərimov adlı bir nəfər idi. Onu Komitəyə dəvət etdik, mən onunla profilaktik söhbət apardım. Hərəkətlərinin yolverilməzliyini, onun həbsi ilə nəticələnə biləcəyini başa saldığımıza görə bizə təşəkkürünü bildirdi, səmimi etiraf ərizəsi yazdı və biz onu buraxdıq. Biz həmişə profilaktika etdiyimiz adamdan yazılı izahat və bundan sonra belə hərəkətlərə yol verməyəcəyi barədə vəd alırdıq.

Bu barədə məlumat Moskvaya getdi. Dərhal SSRİ DTK-sından zəng gəldi:

– Niyə Kərimovu həbs etməmisiniz?

– Bu adamın vur-tut orta savadı var, – cavab verdim, – güzəranı da çətindir. Hesab edirəm ki, səmimi etiraf hər hansı gələcək fəaliyyətinin qarşısını almaq üçün kifayətdir.

– Onu həbs etmək daha məqsədəuyğun olardı, – kurator israr elədi.

– Biz qərara gəldik ki, yanlış fikirlərində o çox da dərinə getməyib, mövqeyi o qədər də ciddi deyildir. Hər hansı təşkilat yaratmağa cəhd göstərməyib, sadəcə yolunu azmış adamdır, buna görə biz onu profilaktika edib buraxmaq qərarına gəldik.

Və yaxud: 1968-ci ildə Azərbaycana bizim Komitənin işini yoxlamaq üçün Moskvadan komissiya gəldi. Komissiyanın rəhbəri general-mayor Vartanov idi. Bizim 5-ci şöbənin işi ilə bağlı arayışda yazılmışdı: «Bütün görülmüş işlərlə yanaşı, hesab edirik ki, millətçiliyə qarşı mübarizə lazımınca aparılmır». Mən bu ifadəyə qarşı çıxdım. Çünki Vartanov haqsız idi, bu da mənə yer



eləyirdi. Məcbur oldum «VÇ» ilə SSRİ DTK 5-ci Baş idarəsinin rəisi Filipp Denisoviç Bobkova zəng vuram.

– Ümumiyyətlə komissiyanın gəldiyi nəticələrlə razıyam, – dedim, – ancaq hesab edirəm ki, «millətçiliyə qarşı mübarizə lazımınca aparılmır» ifadəsi həqiqətə uyğun deyil, yoldaş Vartanov vəziyyəti qəlizləşdirir, xahiş edirəm bu məsələni gündəlikdən siləsiniz. Biz hər il gördüyümüz işlər barədə sizin qarşınızda hesabat veririk və millətçilik əqidəsinə görə neçə nəfərin profilaktika olunduğunu orada göstəririk. Bu iş respublikada fəal aparılır, sadəcə olaraq biz işləri məhkəmə həddinə çatdırmırıq.

– Narahat olmayın, işinizlə məşğul olun, mən burada yoldaşlarla danışaram».

Daha bir DTK əməkdaşı – Arif Zeynalovun şəhadətini gətirmək istəyirəm. 5-ci şöbədə o yaradıcı ziyalılarla məşğul olurdu, düzdür, xeyli sonralar – 1980-1986-cı illərdə, buna baxmayaraq Arif müəllimin dissidentlik mövzusunda mülahizələri onun yaşlı həmkarlarının fikirləri ilə səsləşir:

«Mən deməzdim ki, Azərbaycanda Rusiyada müşahidə etdiyimiz şəkildə dissident hərəkatı mövcud idi. Bu miqyasda dissident hərəkatı bizdə olmamışdı. Adətən DTK orqanlarının nəzər dairəsinə öz ətrafında bizim quruluşu, dövləti və s. pisləyən, arzuolunmaz danışıqlara yol verən şəxslər düşürdü. Bizi həmişə tələsməməyə çağırırdılar. Hətta Krasilnikov* deyirdi (əlbəttə ki, bunu Heydər Əliyeviçdən öyrənmişdi): «Ziyalıların üstünə yarlıq asmağa tələsməyin. Yarlıq bağlamaq asandır. Siz əvvəl məsələni araşdırın». Bizi zərgər dəqiqliyi ilə, incə işləməyə çağırırdılar. Bu asan başa gəlmirdi.

Belə bir musiqişünas var idi – Firudin Şuşinski, bir də skripkaçı Sərvər Qəniyev. Yadımdadır, işlədiyim dövrdə biz DTK-ya yalnız bu iki nəfəri dəvət etmişdik. Şuşinski ilə iki saat söhbət elədik, ancaq öz fikrində qaldı. O, «millətçi ruhda ifadələr»inə görə suçlanırdı. Söhbətin yekununda dedi: mən öz əqidəmdən dönən deyiləm. Dönmədi də. Onun barəsində heç bir repressiya tədbiri görmədik. İndi mən başa düşürəm ki, onunla bağlı bizim

* Vitali Krasilnikov 1969-cu ildə Azərbaycan DTK-sının sədri təyin olunmuş və Heydər Əliyevlə bir yerdə 1980-ci ilə qədər işləmişdir.

həmkarlardan kim isə sığortalanmaq istəyibmiş, əslində orada heç bir kriminal yox idi.

Daha sərt üsullara öyrəşmiş bəzi köhnə əməkdaşlar, hərdən biz cavanlara deyirdilər ki, guya ifrat liberallığa, üzüyumşaqlığa yol veririk. Ancaq biz hesab edirdik ki, insanı hər şeydən ötrü sındırmaq olmaz. Məsələn, hər hansı yazıçı və ya şair öz ətrafında antirus xarakterli ifadələrə yol verir, Kremlin siyasətini tənqid edir və s. Bizdə Heydər Əliyevin göstərişi vardı: bizim binaya çağırmağa tələsməyin. 1937-ci ildən bəri DTK qorxusu insanların canına hopmuşdur. Yaxşısı budur onun oturub-durduğu adamları müəyyən edin. Bu ədəbiyyatçı kimə daha çox etibar edir, kimdir onunçün avtoritet. Kimin sözündən çıxmaz. Məsələn, professor D, yaxud yazıçı N. Sonra biz həmin bu hörmətli adamla əlaqə yaradırdıq, müəyyən bir yerdə görüşürdük və Azərbaycan DTK-sının rəhbərliyi adından xahişimizi söyləyirdik: «Bizim filankəsə qarşı iddiamız var, mümkünsə onunla dostcasına söhbət edin. Qoy o, davranış tərzini dəyişsin, belə söhbətlər aparmasın. Bilirik ki, sizin sözünüzdən çıxmaz».

Üç-dörd gündən sonra kabinetimdə zəng çalınırdı: «Sizin tapşırığınızı yerinə yetirdik. Reaksiyası normal idi, arxayın ola bilərsiniz ki, onun tərəfindən bir daha belə xoşagəlməz hallar olmayacaq». Rəhbərliyə məruzə edirik. Bizə deyirlər: yaxşı, daha bir-iki ay onu müşahidədə saxlayın. İki aydan sonra arayış yazırıq ki, «obyekt» profilaktika olunub və bundan sonra onun «tədqiqi» məqsədəuyğun deyil. Heydər Əliyeviç belə tədbirləri rəğbətlə qarşılayırdı: təqib etmək, iş yerində sıxışdırmaq olmaz, insan öz qeyri-ordinar fikirlərinə görə zərər çəkməməlidir.

Bir də o bizdən xahiş edirdi ki, yaradıcı ziyalıların problemlərini, çətinliklərini məişət səviyyəsinə qədər öyrənək və imkanımız daxilində onlara kömək göstərək. Yəni narazılığın əsl səbəblərini aşkar edək.

*(Arif Zeynalovla söhbətdən)*

Ciddi nəzarətdə olan yalnız republikanın yaradıcı ziyalıları deyildi: çoxsaylı agentlər gənclərin əhatəsinə, ilk növbədə tələbə kollektivlərinə yeridilirdi. Və bəzi hallarda oradan gələn siqnallar, doğrudan da, narahatlıq doğururdu. Belə ki, Bakı tələbələri, onların arasında sosialist və inkişafda olan ölkələrin nümayəndələri də az deyildi, 1968-ci ilin avqustunda sovet qoşunlarının



Çexoslovakiyaya girməsini birmənalı qarşılamadılar. DTK-ya gələn məlumatlarda qeyd olunurdu ki, binaların divarlarında, habelə Politexnik institutunun auditoriyasında antisovet xarakterli yazılar meydana gəlmişdi, ayrı-ayrı tələbə qrupları isə sovetlərin Praqaya soxulmasına qarşı açıq etirazlarını bildirirdilər.

1967-1968-ci illərdə respublikanın tələbə gəncləri yeni-yeni qruplar yaradaraq «gizli təşkilat» oyununu davam etdirirdi. Bəziləri qarşılarına Şimali və Cənubi Azərbaycanı birləşdirmək məqsədi qoyur, digərləri isə hətta korrupsiyaya qarşı mübarizəyə «qalxırdılar». Ramiz Məmmədzadə 1968-ci ildə yeddi ya səkkiz nəfər tələbənin gizli təşkilat yaradaraq qarşılarına iki Azərbaycanı birləşdirmək məqsədi qoyduqları barədə Neft və Kimya institutunun rektoru İ.İbrahimov tərəfindən məlumat gəldiyini xatırlayır. Heydər Əliyevin razılığı ilə 5-ci şöbənin rəisi partiya və komsomol aktivi ilə görüşdü. «Geniş iclas keçirtdik, bu məsələ ilə bağlı partiyanın göstərişlərini başa saldıq. Bununla da hamı sakitləşdi. Heç kimi həbs etmədik, məsuliyyətə cəlb etmədik. Nə qədər bu cür işlərə xitam vermişik!».

Tanınmış jurnalist Əlirza Balayev «Mən və KQB» oçerkində 1967-ci ilin payızında ona antisovet təşkilatına üzv olmaq barədə edilən təklifdən söhbət açır. Bakı kafelərinin birində keçirilən «təsis» yığıncağında Balayev yoldaşlarını təşkilatın «profilini» dəyişərək əsas qüvvəni sovet quruluşu ilə yox, o vaxt üçün artıq cəmiyyətin iliyinə işləmiş korrupsiyaya qarşı mübarzəyə yönəltməyə inandıra bilir. Düzdür, iştirak edənlərdən bəziləri daha radikal, antisovet «təmayüllü» təşkilat yaratmaqda israr edirdilər. «İndi düşünürəm ki, antisovet təşkilatı yaradılmasında israr edənlər çox güman ki, «osvedomitel» imişlər və antisovet təşkilatının üstünü açmaq kimi ciddi işləri müqabilində daha artıq pay (vəzifə, ali məktəbə daxil olmaq və sair) almağı nəzərdə tutmuşlar. Belə də ehtimal etmək olar ki, «osvedomitel» özü sonradan üstünü açmaqla qazanc əldə etmək üçün təşkilatın yaranması təşəbbüskarı olmuşdu».

Gizli təşkilat üzvləri korrupsiya faktlarını ifşa edən vərəqələr hazırlamaq üçün yazı makinası əldə edirlər. Vərəqələri gecə vaxtı Bakının küçələrində divarlara yapışdırmaq qərarına gəlirlər. Lakin təşkilatın fəaliyyəti «beşikdəcə» boğulur. Bir neçə gündən sonra Əlirza Balayevi və təşkilatın digər üzvü, onun qohumu İsmayıl Babazadəni əməliyyatçılar evdən götürüb DTK-ya aparır-

lar. Milliyyətcə rus olan bir polkovnik onlarla profilaktik söhbət aparır, yazılı izahat alır. Jurnalistin sözlərinə görə DTK-da onlarla olduqca mədəni, nəzakət çərçivəsində rəftar ediblər. Polkovnik onları əmin edib ki, bu hadisənin onların işinə və həyatına heç bir təsiri olmayacaqdır. «İndi düşünürəm ki, 1967-ci ildə, Xruşşov devriləndən 3 il sonra, rayon və şəhərlərin hamısında yenidən KQB şöbələrinin yaradıldığı bir zamanda KQB-də o cür nəzakət şəraiti yaradılması həm təəccüb, həm də minnətdarlıq doğurur və bunu KQB-nin o zamankı rəhbərliyinə şərəf gətirən bir hal kimi xatırlayıram...»[21].

SSRİ DTK 5-ci Baş idarəsinin sabiq rəisi F.Bobkovun fikrinə görə Azərbaycanda əhali arasında profilaktika işi olduqca yüksək səviyyədə təşkil olunmuşdu:

«Əgər Azərbaycanda başqa cür düşünənlərə qarşı repressiyalar haqqında danışsaq, Elçibəyin həbs olunması hadisəsi, deyəsən, sizin respublikada yeganə presedent idi. Bu o demək deyildir ki, orada etiraz meylləri özünü göstərmirdi. Sadəcə olaraq onların qarşısını almağı bacarırdılar. Ən əsas məsələ profilaktikada, qarşısını almağı bacarmaqda idi. Əbülfəz Əliyevin misalında qarşısını almaq mümkün olmayanda, onu həbs etdilər. Ancaq bu yeganə hadisə idi. Bu onu göstərir ki, problemlərin öhdəsindən gəlirdilər və onları siyasi yolla həll edirdiər, güc tətbiq etməklə yox. Həbs cəzasına biz son tədbir kimi baxırdıq, bu onu göstərirdi ki, biz ideoloji təxribatın qarşısını ala bilməmişik. Əsas məsələ prosesləri görmək, onların səbəbini anlamaq və tədbirləri insanlara qarşı yox, səbəblərə qarşı yönəltməkdir. Yeri gəlmişkən, Azərbaycanda bunu bacarırdılar».

Əlbəttə, təkcə ideoloji təxribatlara qarşı mübarizə ilə məsələ bitmirdi. Heydər Əliyev respublikanın milli maraqlarının xeyrinə olan hər hansı təşəbbüsü qəbul edir və dəstəkləyirdi. Məsələn, 5-ci şöbənin əməkdaşlarında xaricdəki Azərbaycan diasporu ilə bağlı maraqlı işlər var idi. Onlardan bəziləri haqqında mənə 5-ci şöbənin keçmiş rəisi Ramiz Məmmədzadə danışmışdır.

«Xaricdən bizə kəşfiyyat məlumatı daxil oldu ki, Fransada yaşayan qoca bir azərbaycanlıda tariximizi öyrənmək üçün böyük dəyəri olan qədim Azərbaycan əlyazmaları vardır. Tapşırıq aldıq ki, əlyazmaları almaq lazımdır. Amma bu işin çətin tərəfi ondan ibarət idi ki, həmin adamın Sovet İttifaqını, kommunistləri görməyə gözü yox idi, ona görə də rəsmi kanallarla müraciət etməyin xeyri olmayacaqdı.

Heydər Əliyeviç bizim şöbəyə müvafiq tədbirlər hazırlamağı tapşırdı. 5-ci şöbənin 2-ci bölməsinin rəisi Maqsud Məmmədov idi – cavan, lakin Moskvada kəşfiyyat məktəbi bitirmiş ikinci nəsildən təcrübəli çekist idi. Biz onunla birlikdə lazımi tədbirləri hazırladıq və mən Heydər Əliyevə təqdim etdim.

O soruşdu:

– Bəs bu işi kimin vasitəsi ilə yerinə yetirək?

– Bu işə universitetdə mənim müəllimim olmuş professor Abbas Zamanovu cəlb etmək istəyirəm.

– Abbas Zamanov axı partiyadan xaric edilib. Razı olarmı?

– İcazə versəniz onunla danışardım.

Tanınmış müəllim, alim Abbas Zamanov 60-cı illərin əvvəlində millətçilik üstündə partiyadan xaric edilmiş və etibardan düşmüşdü. Ona görə əhvalı bir o qədər «sovetsevər» deyildi. DTK-ya münasibəti də o cümlədən. Elə bu səbəbdən Heydər Əliyeviç professorun təklifimizi qəbul edəcəyinə şübhə ilə yanaşdı.

Heydər Əliyev dedi:

– Onu mənim yanıma dəvət elə. – Mən kabinetdən çıxmağa hazırlaşanda isə əlavə etdi: – Ancaq o vaxta qədər mənim üçün «Azərbaycan ədəbiyyatı tarixi»ni tap gətir.

Abbas Zamanovla görüşü ertəsi gün saat ikiyə yaxın təyin etdik. Bundan bir gün əvvəl isə mən Heydər Əliyeviç üçün evdən köhnə, hələ latın əlifbası ilə çap edilmiş Azərbaycan ədəbiyyatı tarixinə dair kitabı gətirdim.

Ertəsi gün biz Abbas Zamanovla sədrin otağına gəldik. Söhbət zamanı mən əsasən susurdum. Heydər Əliyevlə Abbas Zamanov danışırdılar. Söhbət iki saata yaxın çəkdi.

Kabinetdən çıxandan sonra Abbas müəllim məndən soruşdu:

– Ramiz, – mənə dərs demiş müəllim kimi adımla müraciət edirdi, – Heydər Əliyevin ixtisası nədir?

– Bilirəm ki, tarixçidir, ancaq ixtisası üzrə işləməyib.

– Bəs o, filoloq deyil?

– Xeyr, Abbas müəllim, dəqiq filoloq deyil.

Bu epizod əyani olaraq Heydər Əliyevin hər bir işə necə ciddi hazırlaşdığını, hər hansı bir məsələnin həllinə necə diqqətlə yanaşdığını, müvəffəqiyyət qazanmaq üçün əldə olan bütün vasitələrdən istifadə etdiyini göstərir.

Bu söhbətdən sonra biz Zamanovu və əməkdaşımız Məmmədovu Fransaya ezam etdik. Abbas müəllim qoca mühaciri inandıra bildi ki, qədim əlyazmaları öz tarixi vətəninə bağışlasın. Hazırda Nizami dövrünə aid məxəzlərdən ibarət əlyazmalar Respublika Əlyazmalar İnstitutunda saxlanılır. Bu işdə Zamanovun namizədliyinin seçilməsi özünü doğrultdu, çünki həmin adam kommunistlə danışmaq istəməzdi, Abbas Zamanov isə bitərəf idi, millətçilik baxışları olan tanınmış alim idi. Əlbəttə ki, belə adamla söhbət baş tuta bilərdi. Bu hadisə 1968-ci ildə baş vermişdir».

60-cı illərin ortasından turizm kanalları və fərdi vizalarla Bakıya ayaq açmış xarici icma nümayəndələrinin məxfi əməkdaşlığa cəlb edilmələri aktiv surətdə aparılırdı. Azərbaycan xarici kəşfiyyatının keçmiş rəhbəri İlhüseyn Hüseynovun öz kitabında yazdığı kimi, «xaricdəki azərbaycanlı soydaşlarımız öz əqidələrinə görə Sovet İttifaqına qarşı loyal münasibətdə olanlara, neytral mövqedə duranlara, nəhayət, düşmənçilik hissləri saxlayanlara bölünürdülər. Ona görə də biz öz agentlərimiz qarşısında loyal olan adamları tapıb hər vasitə ilə dəstəkləmək, neytral olanları öz tərəfimizə çəkmək və imkan daxilində düşmən mövqeyində olanları məhdudlaşdırmaq vəzifəsi qoyurduq. Soydaşlarımızın öz tarixi vətənlərinə olan vətənpərvərlik hisslərinin gücləndirilməsinə xüsusi diqqət yetirirdik»[24].

Ramiz Məmmədzadə mənə ABŞ-da fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzlərinin rəhbərlərindən birini əməkdaşlığa necə sövq edə bildiyi barədə danışmışdır. Vətənpərvərlik hisslərinə «güc verərək» onu Azərbaycan mənşəli Amerika vətəndaşları arasında ilk növbədə tarixi vətənlə yaxınlaşmağa yönəlmiş söhbətlər aparmaq üçün yola gətirdilər. Müvafiq dəməklər üçün Xarici Ölkələrlə Mədəni Əlaqələr və Dostluq cəmiyyəti adından ona Azərbaycan musiqi alətləri – tar, kamança bağışladılar, lazımi ədəbiyyatla təmin etdilər. Ramiz Məmmədzadənin xatırladığına görə, sonra «Amerika jurnalı» ABŞ-da fəaliyyət göstərən Azərbaycan cəmiyyətinin işindən və bu işə Sovet Azərbaycanının göstərdiyi köməkdən bəhs edən məqalə dərc etdi».

Məhz Azərbaycan kəşfiyyatçıları Azərbaycan və SSRİ-nin dövlət və partiya strukturları qarşısında respublikada xarici ölkələrdə yaşayan soydaşlarımızla iş aparan ictimai təşkilat yaradılması barədə təşəbbüslə çıxış etdilər. İlhüseyn Hüseynov xatırlayır ki, Heydər Əliyev bu ideyanı hər zaman dəstəkləyib – DTK sədri olanda da, MK-nın birinci katibi işləyəndə də. Bü cür cəmiyyətlər bütün respublikalarda var idi. Ermənistandan bu barədə danışmaq artıqdır, çünki onlarda xarici ermənilərlə iş üzrə bütöv bir Komitə fəaliyyət göstərirdi. Lakin Moskva qəti surətdə etiraz edirdi, «xüsusilə də xarici işlər naziri Andrey Qromıko. SSRİ XİN ona görə etiraz edirdi ki, çünki qorxurdu – «Vətən» cəmiyyəti yaranarsa o İranda yaşayan azərbaycanlılarla da iş aparmağa başlayacaq, bu isə İran hökumətinin xoşuna gəlməyə bilər və dövlətlər arasındakı münasibətlərə mənfi təsir göstərər»[25].

Yalnız 80-ci illərin ortalarında, Heydər Əliyev Siyasi Büronun üzvü, sovet dövlətinin rəhbərlərindən biri olandan sonra, nəhayət ki, bu ideyanı həyata keçirmək mümkün oldu. Altmışıncıları təmsil edən tanınmış Azərbaycan yazıçısı Elçin «Vətən» cəmiyyətinin sədri oldu. Onun rəhbərlik etdiyi cəmiyyət xaricdəki soydaşlarımızın öz tarixi vətəni ilə əlaqələrinin möhkəmlənməsi işində mühüm rol oynadı.

## DTK sədri və yaradıcı ziyalılar

Heydər Əliyevin özünün etiraf etdiyinə görə o, ədəbiyyatı, kitabı oxuyub-yazmağı öyrəndiyi gündən sevmişdir.

«Deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam. Bəlkə də bu əsərlərin bəzilərini ondan sonra oxumamışam, ancaq o illərdə – o uşaqlıq, gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışım. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam»[26].

Kitabın ilk fəsillərində biz gənc Heydər Əliyevin necə gözəl deklamator olduğundan danışmışıq. Ən çox sevdiyi şairlərdən biri Səməd Vurğun idi, onun vətənpərvərlik lirikasından tez-tez sitatlar gətirərdi. İş yoldaşlarının dediyinə görə o, DTK arxivində pərəstiş etdiyi şairə açılmış işlə bağlı qovluğu tapanda şok vəziyyətinə düşmüşdü. Əkrəm Səlimzadə bununla bağlı maraqlı hadisəni yada salır:

«Bir dəfə Bantserev mənim otağıma gəlib iki cilddən ibarət iş göstərdi.

– Bilirsən bu nədir?

– Yox.

– Səməd Vurğuna açılmış «əməliyyat» işidir. Heydər Əliyeviçin göstərişi ilə mən işə xitam verilməsi haqqında qərar çıxarmışam. Bu materiallar yandırılacaq.

Səməd Vurqun barədə nə qədər «donos» yazmışdılar! Onun bütün əhatəsi bizim agenturamız idi. Şairi əsasən millətçilikdə ittiham edirdilər».

Yeri gəlmişkən, xarakter və temperamentləri nə qədər fərqli də olsa, incəsənətə, ədəbiyyata olan məhəbbətləri Yuri Andropov və Heydər Əliyevi doğmalaşdırırdı. Hər ikisi mütaliəni, musiqini çox sevirdi. Y.Andropov şeir yazırdı, yaxınlarının dediyinə görə yaxşı da yazırdı, caz müsiqisi ilə maraqlanırdı. H.Əliyev gənc yaşlarında rəsm çəkirdi və hətta memar olmağa hazırlaşırdı. Hər ikisinin yaxşı bariton səsi var idi və yaxın dostlarının əhatəsində həvəslə oxuyurdular. H.Əliyevin bioqrfiyasının tədqiqatı ilə məşğul olan Nikolay Zenkoviç haqlı olaraq yazır: «Heç vaxt – nə əvvəl, nə onlardan sonra – Moskvada Lubyankanın və Bakıda «dəniz qırağındakı evin» sahibləri sovet vaxtı bu qədər yüksək erudisiyalı və hərtərəfli hazırlıqlı rəhbərlər olmayıbdır. Andropovun vaxtında SSRİ DTK-sı və Əliyevin vaxtında Azərbaycan SSR DTK-sı nəzərəçarpan dərəcədə mədəniləşdi, bunu hətta bir çox dissidentlər də qeyd edirdi»[27].

Tamamilə mümkündür ki, əvvəl-axır hər ikisini dövlət hakimiyyətinin ən yüksək zirvəsinə gətirib çıxarmış xidməti karyeranın uğurlu inkişafına baxmayaraq, H.Əliyev, eyni dərəcədə Y.Andropov, hərdənbir gənclik dövrünün reaallaşmayan ambisiyalarının xiffətini çəkirdilər. Mənə elə gəlir ki, Heydər Əliyev əkskəşfiyyatçı peşəsini də bəzi məqamlarda yaradıcılıqla oxşar olması səbəbindən seçmişdir. Hər halda bu ya digər xarici agentin cəlbolunma prosesində (belə işlərdə, şahidlərin dediyinə görə, onun tayı-bərabəri yox idi) «komitəçi» gözəl aktyorluq qabiliyyəti, xarici görkəmdən məharətlə istifadə etmək bacarığı nümayiş etdirməlidir. Bu elə həmin o aktyorluq deməkdir, çünki burada da əsas şərt odur ki, sənə inansınlar.



Lubyankanın qüdrətli şefinin həmkarlarının söylədiklərinə görə Yuri Vladimiroviç qaradinməz adam idi, qapalı həyat sürürdü, işdən kənar, demək olar, heç vaxt Siyasi Büro üzvləri və DTK-dakı iş yoldaşları ilə görüşməzdi. Buna baxmayaraq yaradıcı ziyalılarla təmaslardan çəkinmirdi: Andropovun bioqrafları Yevtuşenko, Voznesenski ilə olan söhbətlərdən, yazıçı Yulian Semyonovla dostluqdan («Baharın on yeddi anı» filminin süjetini yazıçıya məhz o «bağışlamışdı»), müğənni Müslüm Maqomayevə himayədarlıqdan və s. yazırlar.

Heydər Əliyev isə artıq Azərbaycan DTK-sının rəhbəri olan müddətdə yazıçı, bəstəkar, rəssamlar arasından xeyli dost qazanmışdı. Onlardan bəziləri ilə münasibətlər uzun illik dostluğa çevrilmişdi. Bu insanlarla təmasda olmaq ona könül xoşluğu gətirirdi, eyni zamanda elm və sənət aləmində hökm sürən ab-hava haqqında məlumatları «birinci əldən» almaq və bunu nəzərə alaraq öz idarəsinin siyasətini tənzimləmək imkanı verirdi.

Böyük Rəşid Behbudov da Heydər Əliyevlə ilk tanış olanlar sırasında idi. Müğənni Heydər Əliyevin həyat yoldaşı Zərifə xanımın ailəsini yaxşı tanıyırdı, çünki onun atası Əziz Əliyev Dağıstanın rəhbəri olan dövrdə bu respublikada konsertlərlə çox olmuşdu.

Jurnalist Svetlana Mirzəyeva H.Əliyevin müğənnidə oyatdığı ilkin təəssüratı belə xatırlayır:

«Zərifə Heydər Əliyevlə tanış olandan sonra (Zərifəgilin ailəsi artıq Bakıda yaşayırdı) hündür boyu, atletik bədən quruluşu, qədd-qamətinə görə Rəşid ürəyində onu «Qladiator», «Spartak» çağırırdı. Sən demə «Spartak» incəsənəti dərindən duyan insan imiş...

Onun musiqi duyumu Rəşid Behbudovu valeh edirdi.

– Bilirsən o necə oxuyur? Əsl professional məktəb görmüş müğənnidir,– Rəşid Behbudov mənə danışırdı. – Özü isə, – bu yerdə o səsini alçaldırdı, – orqanlarda işləyir. Dünən axşam onlarda idim. Bir yerdə konsertdən çıxmışdıq, Dzerjinski adına klubdan, onlar da məni evlərinə dəvət etdilər. Bilirsən, Heydər bütün repertuarımı oxudu, Zərifə də onu pianoda müşayiət edirdi – xalis filarmoniyadır»[28].

Elə həmin gün, küsən dostları barışdırmaq sahəsində fitri istedada malik olan H.Əliyev böyük müğənnini və böyük bəstəkar Rauf Hacıyevi barışdırdı.

O Rəşiddən soruşur ki, niyə daha «Azərbaycan» mahnısını oxumur.

«Başa düşürdüm ki, düzünü deməyə məcbur olacağam, – Rəşid Behbudov xatırlayır, – ona görə boynuma aldım ki, mahnının müəllifi ilə aramız dəyib, küsülüyük.

– Bu dəqiqə barışmalısan! Sizin ambisiyalarınıza görə camaat o cür gözəl, vətənpərvər əsərə qulaq asa bilmir. Vaxtı itirmə, elə bu saniyə Rauf Hacıyevə zəng vur!

Gecədən xeyli keçməsinə baxmayaraq, «dostluq əlaqələrini» bərpa etməli oldum:

– Rauf, gəl görüşək, «Azərbaycan»ı yada salaq...

Bəstəkar sanki elə bunu gözləyirmiş:

– Böyük məmnuniyyətlə, Rəşid!

– Üstəlik mən də bunu səbirsizliklə gözləyirəm, – Heydər Əliyev dəstəyi götürən kimi Rauf Hacıyev onu tanıdı.

Bir neçə həftədən sonra Vətənin şərəfinə yazılmış bu möhtəşəm himn Rəşid Behbudovun ifasında konsert salonlarında, sonra isə radioda böyük uğurla səslənirdi»[29].

Heydər Əliyevin tanınmış rəssam Tahir Salahovla tanışlığı 1962-ci ilə təsadüf edir. Onlar «Kuba sovet rəssamlarının gözü ilə» sərgisinin açılışına həsr olunmuş ziyafətdə tanış olmuşdular. Gənc DTK zabiti ilk baxışdan Tahir Salahovun rəğbətini qazanmışdı: «Mənim gözüm onu o saat tutdu, qanışirin adam idi, rus dilində təmiz danışırdı, əla tostlar deyirdi».

Çox keçmədən rəssam təzə tanışında bundan daha dəyərli keyfiyyətlər aşkar etdi: sadiqlik, etibarlılıq, köməyə tələsmək bacarığı. «Heydər Əliyeviç olmasaydı, qalan ömrümü bir ayağım üstə keçirəcəkdim». Məsələ belə olmuşdu:

«1964-cü ildə, dekabrın 18-dən 19-na keçən gecə mən dostumu qarşılamaq üçün maşınla aeroporta gedəndə, qəzaya düşdüm. Yol buz bağlamışdı, qarşıdan gələn yük maşını ilə toqquşmamaq üçün, maşını sağa qaçırtdım, o səkinin üstünə çıxıb ağaca çırpıldı. Sükan sifətimin yanından keçib damı deşdi. Ayaqlarım isə tormozun əyləcinin üstündə sındı.

Gecə saat ikidə mənim üzərimdə Sabunçu xəstəxanasında cərrahiyyə əməliyyatı apardılar, ayağımı kəsmək istəyirdilər. Mənə yerli narkoz etdiklərindən, bir neçə saniyəlik özümə gəldim. Hiss elədim ki, ayağımı kəsməyə hazırlaşırlar.



Həkimi çağırdım. Onlar təəccübləndilər, çünki artıq pərdə asılmışdı, amputasiyaya hazırlaşırdılar. Həkim yaxınlaşanda, soruşdum:

– Doktor, nə etmək istəyirsiniz?

– İndi mən yalnız həyatınızı xilas etmək barədə düşünürəm.

Mən Heydər Əliyevin telefon nömrəsini ona söyləyib dedim:

– Siz zəng edin. Mən huşumu itirirəm, siz zəng edin və öyrənin görək daha nə etmək olar.

Həkim zəng etməyə getdi. Məlum oldu ki, o Heydər Əliyevlə tanışdır və bu nömrəni bilir.

Heydər Əliyeviç həmən saat xəstəxanaya gəldi. Mənimlə bərabər respublikanın baş cərrahı, Qara Qarayevin qardaşı Mürsəl Qarayev və rəssam Kamil Əliyev də həmin maşında idilər. Onlar da xəsarət almışdılar, amma bir qədər yüngül.

Heydər Əliyeviç olmasaydı birayaqlı qalacaqdım. Faktik olaraq o mənim həyatımı xilas etmişdi. Səhərə yaxın çoxlu qan itirdiyimdən halım kritik həddə çatdı. O bütün gecəni xəstəxanada qaldı, konsilium keçirilməsinə nail oldu. Sonra məni müalicə edən həkim Heydər Əliyevin ona «elə et ki, Tahir sağ qalsın» söylədiyini danışdı. Sən demə həkim naxçıvanlı imiş və Heydər Əliyevi yaxşı tanıyırmış.

Mən bu hadisədən sonra altı ay özümə gələ bilmədim. Ayağım isə indiyədək ağrıyır.

Heydər Əliyeviç sonradan bu hadisəni zarafatla yada salırdı:

– Girirəm içəri, görürəm ki, bunların hamısı uzanıblar...

Bu, doğrudan da, həm ağlamalı idi, həm də gülməli. Üçümüz də bir palatada yatırdıq, o da bizə dəyməyə gəlirdi».

Tahir Salahov mənə məşhur Azərbaycan impressionist rəssamı Səttar Bəhlulzadənin başına gələn, gülməli olduğu qədər də kədərli hadisədən söhbət açdı:

«Heydər Əliyeviçin yaradıcı ziyalılarla tanışlıq dairəsi geniş idi, o hamı ilə yaxşı münasibətdə idi. Ona ən incə məsələlər barədə müraciət etmək olardı, kömək əlini əsirgəməzdi.

Məsələn, Səttarın başına gələn iş. Bir dəfə o, restoranda olanda üstündə qədim Azərbaycan ornamenti olan çaydan xoşuna gəlir. O pulunu ödəyib çaydanı almaq istəyəndə, başlayırlar sual verməyə ki, bəs, bu qədər pul onda haradandır, çünki xarici görkəmi o qədər də gözoxşayan deyilmiş. Səttar, axı, üst-başına o

qədər fikir verməzdi. Onlar da anlamayıblar qabaqlarındakı kimdir, milis çağırıblar. Mənə onunla bir yerdə olan adam zəng vurub dedi ki, Səttarı ayılma məntəqəsinə apardılar, halbuki, sərxoş deyildi.

Mən Heydər Əliyeviçə müraciət etdim, o, doğrudan da, kömək etdi: hara lazımdırsa zəng vurdu, Səttarı buraxmağı və bu işdə günahkar olanları cəzalandırmağı əmr etdi. Elə o vaxt da rəssamın özü ilə tanış oldu. Səttar ondan çox razı idi. Səttarın sözləri yadımdadır: «Niyə Azərbaycanın xalq rəssamının başına belə oyun açırlar? Nə pis iş görmüşəm axı?»

Heydər Əliyeviç Səttar Bəhlulzadənin 90 illik yübileyində çıxış edəndə mən bu hadisəni onun yadına saldım.

O dedi:

- Bilirsən, bu hadisəni mən tamam unutmuşdum.

Heydər Əliyev incəsənət adamları ilə dostluğuyla fəxr edirdi, onlara yaxın olmağa çalışırdı, rəsmi işində çatışmayan hiss və emosiyaları belə təmaslar sayəsində zənginləşdirməyə çalışırdı. H.Əliyev heç vəchlə istəmirdi ki, incəsənət adamları onu yalnız çəkinməli olduqları «DTK generalı» qismində qəbul etsinlər.

Maraqlıdır: o casusların ifşa olunmasında, tutulmasında, agentlərin istintaqında və cəlb olunmasında şəxsən iştirak etməyi çox sevirdi, yəni sıravi əks-kəşfiyyat əməkdaşının görməli olduğu işi böyük həvəslə yerinə yetirirdi. Bu DTK rəhbərinə aid olan iş deyildi (ən yaxşı halda o aparılmış xüsusi tədbir barəsində yuxarı instansiyalar qarşısında yazılı ya şifahi hesabat verməli idi). Ancaq ölkənin ən görkəmli mədəniyyət nümayəndələri ilə profilaktik söhbətləri o, bir qayda olaraq, həmkarlarına tapşırırdı, çünki onların qarşısına yüksək rütbəli də olsa, orqan əməkdaşı qismində çıxmaq istəmirdi.

Mənə elə gəlir ki, ziyalılarla onların hərəkətlərini saf-çürük etmək onun üçün cansıxıcı, bəzən hətta xəcalətli idi, o bizim sənət adamlarının daxili aləmini çox gözəl anlayırdı, duyurdu. İşçiləri ona X və ya Z üçün açılmış növbəti işi gətirəndə, o səhifələri güclə vərəqləyirdi, çünki hamıdan yaxşı bilirdi: onların heç biri dissident deyil, təfriqəçi deyil. Bundan əlavə: onların işlətdiyi bir çox «millətçi» ifadələr onun öz fikirləri ilə üst-üstə düşürdü. Lakin o bunu heç kimə etiraf edə bilmirdi – zəmanə başqa idi. Vəzifə də münasib deyildi.



Ona görə də köks ötürüb növbəti «başqa cür» düşünənin qovluğunu kənara çəkib müavinlərindən və ya 5-ci şöbənin rəisindən xahiş edirdi ki, yoldaşla söhbət aparsınlar, təsir göstərsinlər. Özü də yumşaq tərzdə, hürkütməmək, incik salmamaq şərtilə. Ziya Yusifzadə xatırlayır ki, o həmişə təkrar edərdi: «Ziyalılar millətin sərvətidir, onlara qarşı xüsusi münasibət olmalıdır».

70-ci illərdə Rusiyadan Qərbə xeyli sayda dissident adlandırılan adamlar getdi. Özü də bəzilərini, xüsusilə qızğın və barışmaz mövqedə olanları istəklərinin əksinə ölkədən çıxartdılar. Bir sıra tarixçi və politoloqların fikrincə bu, siyasi cəhətdən səhv addım idi.

«... Andropov tərəfindən sosializm quruluşunu müdafiə etmək üçün qəbul edilən bəzi mühüm qərarlar, professional cəhətdən tutarsız oldu, çünki təcrübədə düşünülənə əks olan nəticələrə gətirib çıxarırdı. Məsələn, Andropovun vaxtında dissident adlandırılan şəxslərin ölkədən çıxarılması dəbə düşmüşdü... Lakin xaricə çatan kimi, onlar bir anın içində antisovet mərkəzləri tərəfindən səfərbər edilir və canidildən SSRİ-yə qarşı – artıq yeni işəgötürənlərin bütün texniki qüdrətindən istifadə etməklə – işə başlayırdılar. Məgər bu professional yanaşmadır?»[10].

Həmin o dövrdə Azərbaycan yaradıcı ziyalılarından bir nəfər də olsun siyasi motivlərə görə respublikanı tərk etmədi. Heç şübhəsiz burada H.Əliyevin böyük xidməti vardır, o sadəcə olaraq Azərbaycanda dissidentlərin əmələ gəlməsinə imkan vermirdi. 5-ci şöbənin keçmiş əməkdaşlarından bəziləri mənə sübut etməyə çalışırdılar ki, Azərbaycanda Rusiyadakılara bənzər dissidentlər yox idi. DTK-nın diqqət dairəsinə düşənləri isə «başqa cür düşünən» adlandırmaq olmaz, çünki onlar quruluşun qüsurlarına və quruluşun özünə qarşı etirazlarını bildirmirdilər, ayrı-ayrı çatışmayan cəhətlərə, məsələn, Azərbaycan dilinin hüquqlarının boğulmasına, vahid xalqın bölünməsinə və s. qarşı çıxış edirdilər. Mən bu fikirlərlə razılaşmıram. O vaxt üçün dövlət qurumlarında rus dilinin «ağalıq» etməsi və ya bölünmüş xalqın faciəsindən yazmaq əslində başqa cür düşünmək idi, çünki sovet dövlətinin rəsmi siyasətinə zidd idi. Respublikanın DTK əməkdaşları tərəfindən bütün bunların «yuxarı» necə təqdim olunması isə başqa məsələdir. Heydər Əliyev qəlbən inanırdı ki, hər hansı yazıçı və ya alimə qarşı güc tətbiq etmək, yaxud inzibati təzyiq göstərmək xeyir gətirə bilməz, yalnız onu qeyzləndirər, düşmənə çevirər.

90-cı illərin əvvəlində Rusiya mətbuatında A.Saxarovun inzibati sürgündən azad edilməsi barədə DTK rəhbərinə müraciət etmiş böyük sovet fiziki Pyotr Leonidoviç Kapitsa ilə Y.Andropovun özünəməxsus «yazışması» çap edilmişdi. Həmin məktubda alimin başqa cür düşünməyə ixtiyarı olması barədə maraqlı fikirlər vardır, o cümlədən ölkənin ictimai-siyasi həyatında da. Kapitsanın məktubundan bir parçanı misal gətirmək istəyirəm, məncə o, Heydər Əliyevin həmkarları ilə söhbətlərdə dəfələrlə açıqladığı fikirlərlə səsləşir:

«Həyat göstərir ki, böyük istedadlar çox deyil, ona görə də onları qorumaq, qədrlərini bilmək lazımdır. Böyük yaradıcılıq, böyük temperament tələb edir, bu da kəskin şəkildə ifadə olunmuş narazılıqlara gətirib çıxarır, ona görə də istedadlı adamlar çox vaxt «ağırxasiyyət» olurlar... Həyatda yaradıcı fəaliyyət adətən pis qarşılanır, çünki insanların əksəriyyəti mühafizəkardır, sakit yaşamağa çalışırlar. Nəticədə bəşər mədəniyyətinin inkişaf dialektikası mühafizəkarlıqla başqa cür düşünmənin ziddiyyəti məngənəsində yerləşir, bu hal bütün dövrlərdə və bəşər mədəniyyətinin bütün sahələrində baş verir.

...Cıdırda qalib gəlmək üçün yortma qaçan at lazımdır. Qalib gəlməyi bacaran atlar isə çox deyil, özü də tərs olurlar, hələ üstəlik onlara yaxşı qulluq, mahir at sürənlər lazımdır. Adi atları minmək asandır, rahatdır, ancaq cıdırda qalib gəlmək olmaz»[31].

Romanımızın ikinci kitabında Heydər Əliyevin artıq respublikanın partiya təşkilatına rəhbərlik edərkən mədəniyyətimizin qalib gəlməyi bacaran «atlarını» hiddətlənmiş «çoxluğun» divanından dəfələrlə necə xilas etdiyi barədə təfsilatı ilə danışacağıq. Azərbaycan yazıçıları ilə görüşlərin birində o, zarafatla söyləmişdi: «Ancaq sizin içinizdə ən böyük dissident elə mən idim». Məlumdur ki, hər zarafatda həqiqət gizlənir.

## DTK general-mayoru

H.Əliyev Azərbaycan DTK-sının sədri təyin olunandan dörd ay sonra SSRİ Nazirlər Soveti yanında DTK-nın 1967-ci il 30 oktyabr tarixli 136 №-li əmri ilə ona general-mayor rütbəsi verildi. Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarında general-mayor rütbəsi almış ilk azərbaycanlı oldu. Maraqlıdır ki, general rütbəsi verilməsi haqqında xəbər ona doğma Naxçıvanda, Muxtar Respublikanın 40 illiyi şərəfinə keçirilən şənliklərdə olarkən çatdı.

Məndə qəhrəmanımın həyatında baş vermiş bu əlamətdar hadisəni gözləri ilə görmüş iki nəfərin şəhadəti vardır. Onlardan biri – rəssam Tahir Salahov, o biri isə Azərbaycan DTK-sının keçmiş əməkdaşı Albert Salamovdur.

«1967-ci ilin oktyabrında Naxçıvana Lenin ordeni verildi, səhv etmirəmsə, 40 illik yubileyi ilə əlaqədar. Heydər Əliyev qatarla Naxçıvana yola düşdü, bir-iki nəfər bizi də özüylə götürdü. Yadımdadır ki, Faiq Abasov da bizimlə idi – sovet dövründə Azərbaycan əks-kəşfiyyatının sonuncu rəisi. Gəlib Naxçıvana çatanda Heydər Əliyeviçə Moskvadan «VÇ» ilə Sviqun zəng etdi və onu general rütbəsi alması münasibətilə təbrik edən birinci adam oldu. Bu söhbət Naxçıvanda xüsusi olaraq «VÇ» ilə danışmaq üçün qurulmuş otaqda baş tutmuşdu.

Mən Heydər Əliyeviçə yaxın dayanmışdım və hər şeyi eşidirdim.

Sədrimizin general rütbəsi almasına hamımız sevinirdik. Yadımdadır, 4-cü ordunun siyasi məsələlər üzrə rəis müavini Peskov Əliyevin yanında dayanmışdı. Heydər Əliyev Sviqunla söhbəti qurtarıb dəstəyi yerinə qoymaq istəyəndə Peskov dəstəyi az qala onun əlindən alıb qışqırdı:

– Semyon Kuzmiç, bəs mənə general-leytenant verməyiblər?!

Şok vəziyyətinə düşmüşdüm – general rütbə almaq üçün yalvarır... Sonra o bizim yanımızda uzun-uzadı ah-uf etdi ki, onun rütbəsini artırmayıblar.

Heydər Əliyeviç onun bu ədəbsiz hərəkətinə fikir vermədi, sadəcə kənara çəkildi. Onun Naxçıvanda necə böyük məhəbbət və hörmətlə qarşılandığı yadımdadır».

*(Albert Salamovun söhbətindən)*

«Biz onunla 1967-ci ildə Naxçıvanın 40 illiyinə getmişdik. Mən Naxçıvandan SSRİ Ali Sovetinin deputatı idim. İliç rayonunda (indiki Şərur) hətta SSRİ Rəssamlar İttifaqının filialını da yaratmışdıq. Yubiley gününə həsr olunmuş təntənəli iclas Mədə-

niyyət sarayında keçirilirdi. Məruzə ilə Naxçıvanın birinci katibi çıxış etdi, sonra Vəli Axundov, daha sonra təbriklər başladı.

Biz Rəyasət Heyətində əyləşmişdik. Mən çıxdım foyeyə siqaret çəkməyə. Birdən küncdə qoyulmuş telefon zəng çaldı. Növbətçilərdən heç kim yox idi. Telefona yaxınlaşdım.

– Heydər Əliyeviçi olarmı? Yuri Vladimiroviç Andropovun qəbul otağındandır.

Mən Heydər Əliyevə baxıb, ona işarə etdim. O, telefona yaxınlaşdı. Birdən eşidirəm:

– Yuri Vladimiroviç, Sovet İttifaqına xidmət edirəm! Çox sağ olun!

Ona general rütbəsi verilməsi haqqında o öz doğma torpağında eşitdi.

Fasilə zamanı Vəli Axundov, Nazirlər Sovetinin sədri Ənvər Əlixanov və Ali Sovetin Rəyasət Heyətinin sədri Məmməd İsgəndərov Rəyasət Heyətinin foyesinə çıxdılar. Vəli Yusifoviç dedi:

– Tahir, xoş gəlmisən. Yaxşı ki bayrama gəldin. Nə var, nə yox?

– Mənim işlərim qaydasındadır. Sevinməli odur ki, Heydər Əliyeviçə general rütbəsi veriblər.

– Bəli, – Heydər Əliyev deyir, – indicə Yuri Vladimiroviç zəng vurmuşdu, təbrik edirdi.

Axşam ziyafətdə bu barədə elan etdilər, zalda olan bütün naxçıvanlılar onu ayaq üstə alqışladılar.

... Bakıya hamımız birlikdə qatarla gəlirdik. Biz onunla bir kupedə idik. Qonşu vaqonlardan Firəngiz Əhmədova, Çingiz Sadıqov, Lütfiyar İmanov gəldilər. Bizdə artıq süfrə açılmışdı. Kupemizdə bayram başladı. Yadımdadır hamı oxuyurdu, sevinirdi, onu təbrik edirdi. Bakıya çatanda, vağzalda Heydər Əliyeviç məni evlərinə dəvət etdi. Evdə onu artıq qonaqlar gözləyirdi. Zərifə xanım süfrə açdı. General Matrosov, başqa hərbçilər də orada idi, sağlıqlar deyilirdi.

Bax beləcə, demək olar ki, iki gün biz onun hərbi rütbəsini yuduq».

*(Tahir Salahovun söhbətindən)*



Heydər Əliyeviçin həyat yoldaşının rəfiqələrindən və həmkarlarından biri Zəhra Quliyeva Zərifə xanımın bir səhər işə gəlib ona: «Təbrik edə bilərsən, Zara, general xanımı oldum» deməsini təbəssümlə yada salır.

Z.Quliyeva deyir: «Bizim heç xəbərimiz də yox idi ki, Zərifənin həyat yoldaşı DTK-da böyük vəzifə sahibidir. O heç vaxt bununla lovğalanmazdı».

Heydər Əliyevə general rütbəsi verilməsi ilə bağlı daha bir maraqlı epizod. Onu mənə Azərbaycanın sabiq xarici işlər naziri Həsən Həsənov danışıb.

«1967-ci ildə mən MK aparatına işləməyə irəli çəkildim. Bizim şöbəmizdə Eldar Nuriyev adlı təlimatçı işləyirdi. Bir dəfə Sov. İKP MK-dan məsul işçi gəlmişdi, Eldar onu Naxçıvana səfərində müşayiət etməli idi. Qayıdandan sonra o fikirlərini mənimlə bölüşdü. Orada, deyir, muxtar respublikanın yubileyi ilə əlaqədar şəhər stadionunda bayram keçirilirdi və bizi də Moskvadan gələn yoldaşla bu tədbirə dəvət etmişdilər. Bayramın gedişində stadionda elan etdilər ki, o vaxt artıq Azərbaycan DTK-sının sədri olan Heydər Əliyevə general rütbəsi verilib. Bu xəbər səslənəndə bütün stadion bir nəfər kimi ayağa qalxıb əl çalmağa başladı. Məsələdən bixəbər olan Sov.İKP işçisi də ayağa qalxıb alqışlara qoşulur. Əyləşəndən sonra o Eldardan soruşur ki, alqışların səbəbi nədir. O da başa salır ki, Azərbaycanın DTK sədrinə general-mayor rütbəsi verilibdir. Eşitdiklərindən heyrətini gizlətməyən Sov.İKP təlimatçısı deyir: «Heç vaxt ağlıma gəlməzdi ki, minlərlə insan ayaq üstə DTK generalını belə sevinclə alqışlaya bilər. Yəqin o, qeyri-adi adamdır!»

## Xüsusi əməliyyat və xüsusi tədbirlər

Əlbəttə, ideoloji təxribatlarla mübarizə, başqa cür düşünənlər üzərində nəzarət ittifaq və respublika DTK-larının işində əsas məsələ deyildi. Azərbaycan çekistlərinin əsas qüvvə və vasitələri başqa istiqamətlərə, hər şeydən əvvəl kəşfiyyat və əks-kəşfiyyata yönəlmişdi. Heydər Əliyev Azərbaycan DTK-sının sədri təyin olunandan sonra hansı istiqamətlərin onun diqqət mərkəzində olması sualı ilə mən Respublika MTN arxiv idarəsinin rəisi Xə-

qani Bağırova müraciət etdim. Cavab hərbçilərə xas, aydın və lakonik oldu.

1. Erməni millətçiliyinə və Dağlıq Qarabağın qoparılmasına qarşı müqavimət.

2. Dövlət sərhədinin qorunma vəziyyəti və bu istiqamətdə işlərin gücləndirilməsi (sərhədlə bağlı məsələlərin ittifaq rəhbərliyinin səlahiyyətinə aid olmasına baxmayaraq, H.Əliyev bu sahəyə həmişə xüsusi diqqət yetirirdi – *E.A.*). Belə ki, 1968-ci il mayın 7-də H.Əliyev sərhəd qurumları və xüsusi şöbələrin iştirakı ilə DTK Kollegiyasının geniş iclasını keçirmişdi.

3. 1969-cu il martın 30-da «Xarici xüsusi xidmət orqanlarına müqavimət göstərilməsi və bu istiqamətdə əks-kəşfiyyat işlərinin gücləndirilməsi» mövzusunda Kollegiya iclası keçirilmişdi.

4. Həmin o ildə keçirilən müşavirədə respublika ərazisində cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, əks-təsir tədbirləri sisteminin yaradılması və bu işdə təhlükəsizlik orqanlarının və DİN-in rolu müzakirə edilmişdir. Müşavirədən sonra məsələ dərindən təhlil edilmiş, DİN və təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti və koordinasiyası planı tərtib edilmiş və hazırlanmış tədbirlərin həyata keçirilməsinə başlanmışdır.

Beləliklə, Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarına rəhbərlik etdiyi iki il ərzində sərhədlərin qorunması, qarşı tərəfin xüsusi xidmət orqanlarına qarşı əks-tədbirlərin görülməsi və mütəşəkkil cinayətkarlıqla mübarizənin ən kəskin və prinsipial məsələləri üzrə tədbirlər sistemi işlənib hazırlanmışdı. Yəni o məsələlər ki, respublikanın geostrateji mövqeyi, onun daxili siyasi durumu nəzərə alınmaqla, Azərbaycan üçün böyük aktuallıq kəsb edirdi.

* * *

Azərbaycan və onun döyünən ürəyi Bakı daim düşmən xüsusi xidmət orqanlarının diqqət mərkəzində idi. Leqal və qeyri-leqal agentura Xəzər flotiliyasının hərbi-dəniz bazası, aerodromlar, radar qurğuları, zenit-raket mövqeləri, ümumilikdə HHM sistemi və vasitələri, hərbi hissələrin tutduğu mövqe və qoşunların döyüş hazırlığı barədə infomasiya yığılması ilə məşğul olurdu.

Xarici kəşfiyyatlar öz agenturasını dövlət sərhədindən gizli keçirməklə yanaşı, həmçinin diplomatik kanallar, turizm, elmi-



texniki mübadilə, beynəlxalq nəqliyyatdan da istifadə edirdilər. Diplomatlar Azərbaycanın iqtisadi potensialı, mühüm xalq təsərrüfatı və müdafiə əhəmiyyəti olan iri sənaye müəssisələrinin yerləşdiyi sahələr, xüsusi konstruktor büroları haqqında məlumat yığırdılar. Heydər Əliyev bu fəaliyyətin qarşısının alınması və məhdudlaşdırılmasına ciddi əhəmiyyət verirdi. 60-cı illərin ikinci yarısında onun bilavasitə rəhbərliyi ilə kəşfiyyatçı-diplomatlarla əlaqədar onların ləkələnməsi və hətta ölkədən qovulması ilə nəticələnən bir çox fəal tədbirlər həyata keçirilmişdir.

1967-ci ilin dekabrında, ölkədə dövlət təhlükəsizliyi orqanlarının 50 illiyi qeyd olunanda, Heydər Əliyev ilk dəfə olaraq televiziya ilə çıxış etdi, həmçinin «Bakinski raboçi» qəzetində məqalə dərc etdirdi. Cavan, yaraşıqlı generalın təmiz rus dilində, kağızsız-dəftərsiz çıxışı ictimaiyyətin nəzərindən yayınmadı. Məqalədə isə H.Əliyev heç bir şey gizlətmədən cibində diplomatik pasport gəzdirən qərb kəşfiyyatçılarının zərərsizləşdirilməsi ilə nəticələnmiş bir sıra əks-səda doğuran xüsusi əməliyyatdan söhbət açırdı.

«Son illərdə dövlət təhlükəsizliyi orqanları SSRİ sərhədini keçməyə can atan bir çox kəşfiyyatçı-diplomatın, turistin, müxtəlif nümayəndə heyətləri üzvlərinin casusluq fəaliyyətini ifşa edib qarşısını almışdır. Bu sıraya İngiltərə və Amerika səfirliklərinin sabiq hərbi attaşeləri, generallar Xilton və Qrou, ABŞ-ın hərbi attaşesi polkovnik Obri, İngiltərənin hərbi-dəniz attaşesinin köməkçisi Lavil və başqaları daxildirlər.

...1965-ci ilin əvvəlində Bakıda bir qrup Amerika hərbi kəşfiyyatçısı peyda olur, üç dəfə bir hərbi obyektin yerləşdiyi rayona soxulmağa cəhd göstərir, lakın buna nail ola bilməyəndə, 5 gündən sonra eyni məqsədlə Bakıya ikinci qrup göndərilir, bu qrup daha ehtiyatla davranır, cürbəcür hiylələrə əl atır, ancaq o da uğursuzluğa düçar olur»[32].

60-cı illərin ortalarında ABŞ səfirliyinin hərbi attaşeləri R.Layf, R.Uotters, R.Fulton, M.Lemmon, Böyük Britaniya səfirliyinin hərbi-dəniz attaşesi Teylor, onun köməkçisi Miller, İtaliya səfirliyinin hərbi attaşesi Rambaldi, Kanadanın hərbi-dəniz attaşesi Manore və başqaları barədə fəal xüsusi tədbirlər həyata keçirilmişdi. Azərbaycan çekistləri hərbi kəşfiyyatçıların Bakı – Pəhləvi – Bakı dəniz marşrutuna xüsusi maraq göstərdiklərini qeydə alırlar. Belə ki, yuxarıda adları çəkilən attaşelərin hamısı 1968 ilin mayından noyabrına qədər «Quryev» teploxodunda bu

marşrutla hərəkət etmişdilər. Sözsüz ki, «bizim» adamlar onları müşayiət edirdi. Onların məlumatlarında deyilirdi ki, xaricilər yol boyu hərbi obyektlərin vizual müşahidəsini aparır, fotoşəkil çəkməyə cəhd göstərirdilər.

Bəzi hallarda xüsusi tədbirlər ölkədən çıxarılmaqla nəticələnirdi, məsələn, Azərbaycana turist qismində gələn Amerika vətəndaşı Kristner bu yolla «cəzalandırılmışdı».

Qeyd etmək lazımdır ki, respublika Dövlət Təhlükəsizliyi komitələrinin rəhbərləri hər ilin axırında öz fəaliyyətləri haqqında yazılı hesabat hazırlayırdılar. Həmin hesabatlar SSRİ DTK-sına göndərilirdi, ancaq respublikanın birinci katibi bu sənədlə tanış olurdu. Azərbaycan DTK-sının sədri olan zaman Heydər Əliyev iki dəfə mərkəzə göndərilən belə müfəssəl hesabatları imzalamalı olub (ancaq bundan da qabaq, S.Sviqunun komitəyə rəhbərlik etdiyi illərdə də, yekun sənədin əsas tərtibçisi H.Əliyev olub). Azərbaycan xüsusi xidmət orqanlarının «soyuq müharibə» dövründə əsas iş istiqamətləri haqqında aydın təsəvvür yaradan bu çox maraqlı sənədlərlə tanış ola bildim. Bu olduqca qiymətli məlumatlara yol tapmaq üçün mənə şərait yaratmış adamlara minnətdaram, hesab edirəm ki, bü cür materiallar tarixçilərin, politoloqların, jurnalistlərin, bir sözlə ölkəmizin tarixində olan «ağ ləkələrin» araşdırılması və tədqiqi ilə peşəkar səviyyədə məşğul olan hər bir kəsin ixtiyarında olmalıdır.

1967-1969-cu illərdə Azərbaycan DTK-sının əməliyyat heyətinin əsas gücü əvvəlki kimi İran xüsusi xidmət orqanlarına, həmçinin bu ölkənin ərazisində yerləşən Amerika idarələrinə agentura yeridilməsinə yönəldilmişdi. Bu məqsədlə Təbrizdə, Pəhləvidə olan rezidenturalardan, turizm, şəxsi gedib-gəlmə kanallarından fəal surətdə istifadə olunurdu. Araz çayı üzərində tikilən hidroqurğu ilə əlaqədar Azərbaycan və İran kəşfiyyatının yeni imkanları açılmışdı. Hər iki tərəf bundan bəhrələnməyə çalışırdı. 1967-ci il üçün olan hesabatda qeyd olunurdu ki, iranlılar sovet xüsusi xidmət orqanlarının hidroqurğuda apardıqları kəşfiyyat və əks-kəşfiyyat işlərindən narahatçılıq keçirərək, həmin ilin mayında 60 nəfərdən ibarət xüsusi «Hafezat» xidməti yaratmış və tikinti zonasında polis-mühafizə funksiyalarını ona həvalə etmişdilər.



Həmin hesabatdan göründüyü kimi, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi (təşəbbüsün DTK-dan gəldiyi şübhə doğurmur) Sov.İKP MK qarşısında sovet təsirini gücləndirmək məqsədi ilə İran Azərbaycanı ilə mədəni, siyasi və iqtisadi əlaqələrin genişləndirilməsi barədə vəsatət qaldırır. Məsələn, İrandakı sovet səfirliyində İran Azərbaycanı ilə işləmək üçün əlavə əməkdaş ştatının açılması, Təbrizdə konsulluğun yaradılması (Heydər Əliyevin çoxdankı arzusu!) və xəstəxana şöbəsinin açılması, aylıq «Azərbaycan SSR» jurnalının nəşri barədə təkliflər verilmişdi. Bununla yanaşı, Heydər Əliyev DTK rəhbərliyi qarşısında «məxsusi olaraq Azərbaycan mühacirəti, Qərbi Berlin və AFR ali məktəblərində oxuyan Azərbaycan millətindən olan İranlı tələbələrlə iş üzrə» Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşının ADR-də SSRİ DTK Müvəkkilinin aparatına göndərilməsi barədə məsələ qoydu. «Bu bizə əsas düşmənə yol tapmaqla İranla bağlı agentura mövqelərimizi genişləndirməyə imkan verər»*.

1967-ci ilin sonunda Xoy şəhərində keçirilən SAVAK-ın əyalət orqanlarının müşavirəsindən sonra hidroqurğunun tikintisində İran xüsusi xidmət orqanlarının təxribatçılıq fəaliyyəti nəzərəçarpan dərəcədə artdı. Azərbaycan DTK sədrinin 1968-ci il üçün məruzəsində deyilirdi ki, «SAVAK orqanları tikintiyə yeridilmiş xeyli sayda rəsmi əməkdaş və agenturanın köməyi ilə, kəşfiyyat vəzifələrini yerinə yetirməklə yanaşı, zonada çalışan bizim ayrı-ayrı mütəxəssislərə də antisovet ruhda təsir göstərməyə, onları Vətənə xəyanətə sövq etməyə, millətçilik hisslərini qızışdırmağa çalışırlar».

Müxtəlif yollarla İrandan SSRİ-yə qaçıb gələnlər və repatriantlar arasında əks-kəşfiyyat işinin təşkilinə də ciddi fikir verilirdi. 1967-ci il üçün olan hesabatda göstərilirdi ki, son vaxtlar dövlət sərhədinin pozulması hallarının sayı xeyli azalıb. Belə ki, əgər 1965-ci ildə 127 keçid qeydə alınmışdısa, 1966-cı ildə – 55, 1967-ci ildə isə bu rəqəm 24-ə enmişdi. Belə hal «məşhur İran «sərhəd keçirdənləri» Məşədi Əli, İbrahimi və Tağızadənin gözdən salınması sayəsində, həmçinin qaçıb gələnlərin qəbul olun-

---

* Burada və sonra sitatlar AzSSR NS yanında DTK-nın 1967-ci il üçün hesabatından (№ P-238) və AzSSR NS yanında DTK sədrinin 1968-ci ilin yekunları barədə məruzəsindən (P-263) gətirilir.

masına fərdi yanaşmaya dair Komitənin həyata keçirdiyi tədbirlərlə» izah olunurdu.

1968-ci ilin hesabatında «Xəzərin İrana aid olan sahillərində üzmə məsafəsi 150-200 km olan kiçik qabaritli sualtı hərəkət vasitələrinin meydana çıxması və bunun nəticəsində düşmənin öz agenturasını SSRİ-yə dəniz vasitəsilə yeritməsinə real imkanlar yaratmasından» narahatlıq ifadə edilirdi. Buradaca konkret vəzifə qoyulurdu: «düşmən agenturasının bu yolla mümkün ola biləcək yeridilmə cəhdlərinin qarşısını almaq üçün dəniz sahili boyu agentura-əməliyyat işini gücləndirmək və dəniz sərhədinin operativ-hərbi qorunmasına yönəlmiş təkliflər işləyib hazırlamaq».

Heydər Əliyevin hesabatında Azərbaycan əks-kəşfiyyatçıları tərəfindən uğurla cəlb olunmuş və ABŞ müşavirləri ilə iş aparmaq üçün İrana göndərilmiş «Məhəmməd» adlı agentin adı çəkilir. Bu agentlə iş barədə mənə istefada olan DTK polkovniki Kamal Əliyev danışmışdır.

«Mən «Tudə» partiyasından xaric edilmiş, milliyyətcə azərbaycanlı olan İran ordusunun keçmiş zabitini cəlb etmişdim. O, bir neçə il bizi qiymətli informasiya ilə təchiz edərək sərhədi keçirdi. Həmin agent hərbi texnikanın təmiri üzrə yaxşı mütəxəssis idi, Amerika texnikası olan obyektləri gəzirdi və bizə olduqca maraqlı informasiyalar ötürürdü – təmir emalatxanalarından, İran ordusunun rabitə sistemi və texniki vasitələrindən, bizim sərhəd boyu hərbi hissələrin dislokasiyasından, orada hansı texnikanın və hansı sayda yerləşdiyindən və s. O, Amerika müşavirlərinin ad və soyadlarını bilirdi, hərbi hissə komandirlərinin kabinetlərində olurdu, hərbi xəritələrin şəklini çəkirdi. Hər dəfə onun məlumatı mərkəzə məruzə edilirdi və biz müsbət qiymət alırdıq.

SSRİ hərbi kəşfiyyatı bu materiallarla maraqlandı. Bir dəfə məni SSRİ DTK 2-ci Baş idarəsinə çağırıb təklif etdilər ki, Tehrandakı sovet rezidenturasının vasitəsilə bu agenti yoxlayım. Bundan ötrü onu rezidentin əlaqəsinə vermək lazım idi. Mən yoxlamanın əleyhinə idim, deyirdim ki, ona inanmamağa əsasım yoxdur. Bu agent «yaşıl sərhədi» keçirdi, bizim tərəfdə bir-iki gün şəxsi evdə yaşayırdı, heç yana çıxmırdı, heç kimlə görüşmürdü, ona görə də bizim ərazidə o heç bir kəşfiyyat informasiyası ala bilməzdi. Mən təklif edirdim: gəlin onu özümüz yoxlayaq. Ancaq onlar onu Tehrana, bizim rezidentimizə «vermək» istəyirdilər. Növbəti görüşümüzdə mən ona İrandakı rezidentura ilə əlaqə yaratmaq barədə Mərkəzin təklifini çatdırdım. O razı olmadı, dedi ki, ruslarla təmasda işləməyəcək. O çox ehtiyatlı idi, ifşa olunacağından qorxurdu. Ona görə də biz onunla əlaqələrimizi qırmalı olduq. Mən onun üstündə 13-cü şöbənin rəis müavini ilə möhkəm sözləşdim.

Məsələ ondadır ki, agentlərə ödəmək üçün Mərkəz bizə İran realı göndərirdi. Onlar isə yerli komitələrə valyuta ayırmaqda xəsislik edirdilər. Bizə pulu verənlərin özləri heç vaxt sərhəddə olmamışdı, bu işi dərindən bilmirdilər, spesifik xüsusiyyətləri ilə tanış deyildilər. Ona görə də belə dolaşıq işlər yaranırdı. Bizə çox vaxt Heydər Əliyev kömək göstərirdi, operativ iş aparmaq üçün lazım olan valyutanı Moskvadan «qopartmaq» məhz onun əlindən gəlirdi».

60-cı illərin axırında Azərbaycan DTK-sında elmi-texniki kəşfiyyat xətti ilə aparılan işlər fəallaşdı. Belə ki, H.Əliyevin 1968-ci il üçün olan məruzəsində qeyd olunurdu ki, «ETK (elmi-texniki kəşfiyyat – *E.A.*) qrupu tərəfindən italyan elmi mərkəzlərinin mikromolekulyar kimya sahəsində fəaliyyəti barədə; radioelektron texnika barədə; amerikanların neft quyularının qazılması sahəsindəki perspektivli işləri barədə; neft kimyası sahəsində «Ron-Pulen» fransız şirkətinin əsas tədqiqatları və s. barədə maraqlı informasiya əldə edilmişdir».

Azərbaycan DTK-sının xarici kəşfiyyat xidmətinin sabiq rəisi İ.Hüseynov yazır ki, Azərbaycan çekistlərinin ETK xətti ilə əldə etdikləri informasiya bəzən ölkəyə yüz milyonlarla manat xeyir gətirirdi. «Kəşfiyyat generalı ilə müsahibə» kitabında belə bir misal gətirilir:

«Respublikanın elmi-texniki kəşfiyyat üzrə informasiya toplayan bölməsi qarşısında məqsəd qoyulmuşdu: müntəzəm olaraq «neft, neft kimyası və neft sənayesi» mövzusunda informasiya, texnologiya və sənədlər əldə etmək. Bir dəfə bizim işçilər Qərb ölkələrinin birindən neft qazmaçılığında bir quyu ilə neft layının iki-üç horizontunda istismar aparılması haqqında bütün sənədləri əldə etməyə müvəffəq oldular. Onlar sənədləri təhlil edib məlumat verdilər ki, əldə etdiyimiz üsulu tətbiq etməklə yalnız bir beşillik ərzində bir neçə yüz milyon manata qənaət etmək mümkündür. O vaxt üçün bu çox böyük pul idi... Biz kəşfiyyat yolu ilə əldə olunmuş bütün texnologiyanı neftçilərə verdik və son-

radan Bakıda və SSRİ-nin digər respublikalarında bu texnologiya tətbiq olundu»[31].

60-cı illərin sonunda elmi-texniki kəşfiyyat bölməsinə elmi-tədqiqat institutlarından xeyli cavan, o cümlədən elmi dərəcələri olan kadrlar gəldi. Bütün kadrlar SSRİ DTK ali məktəblərində hazırlıq keçirdi, bundan əlavə, H.Əliyevin təşəbbüsü ilə onlardan bəziləri kapitalist ölkələrinə təcrübə keçməyə göndərilirdi, məsələn, SSRİ təhsil nazirliyinin xətti ilə.

Azərbaycan əks-kəşfiyyatçıları sənaye və nəqliyyat obyektlərində xeyli fəal idilər, baş verə biləcək təxribatların qarşısını alırdılar, qəzaya, yanğına gətirə biləcək səbəbləri üzə çıxarıb aradan qaldırırdılar. 1967-ci il üçün hesabatda, məsələn, belə bir fakt gətirilirdi: «Sumqayıt kimya zavodunun tikintisində əməliyyat yolu ilə ingilis şirkəti «Saymon Karvz» tərəfindən keyfiyyətsiz yüksək təzyiqli borular göndərilməsi faktı aşkar edilmişdir, istismar zamanı bu borular sıradan çıxaraq ağır nəticələrə səbəb ola bilərdi. Görülən tədbirlər sayəsində şirkət SSRİ-yə göndərdiyi bütün boruları dəyişmək məcburiyyətində qalmış və onlara zəmanət pasportları vermişdir».

Ən müxtəlif xalq təsərrüfatı obyektlərində mövcud olan vəziyyətdən geniş məlumat alan Heydər Əliyev, bu və ya digər müəssisə ya nazirlikdə yaranmış qeyri-qənaətbəxş vəziyyət barədə vaxtaşırı Azərbaycan KP MK-ya məktub və arayışlar göndərirdi. Özü də DTK rəhbəri təkcə məlumat göndərməklə kifayətlənmirdi, neqativ hadisələrin səbəblərini təhlil etməyə çalışır, vəziyyəti düzəltmək üçün məsləhət və tövsiyələr verirdi. Məsələn, Vladimir İliç adına Yeni Bakı Neftayırma Zavodunda baş verən yanğınla əlaqədar aparılmış yoxlamalar barədə hesabat verərkən, Heydər Əliyev MK-nın birinci katibi Vəli Axundovun adına göndərdiyi 1967-ci il 23 avqust tarixli məktubda yanğınla bağlı təkcə texniki səbəbləri deyil, o illərdə Azərbaycanın neftayırma sənayesinin bütün obyektləri üçün səciyyəvi olan bir sıra yarıtmaz faktları da qeyd edirdi: böyük kadr dəyişkənliyi, bir çox zavodlarda ixtisaslı fəhlə ştatlarının boş qalması, əsas və köməkçi xidmət personalının kifayət qədər təlim keçməməsi, avadanlığın vaxtlı-vaxtında əsaslı təmir olunmaması, bəzi qurğu və binaların qəza vəziyyətində olması, boru kəmərlərinin və cihazların köhnəlməsi və s.



Vəli Axundova ünvanlanmış 1969-cu il 20 yanvar tarixli məktubunda isə Azərbaycan DTK-sının sədri Bakı neft emalı zavodlarından Bakı və Zabrat aviamüəssisələrinə göndərilən yanacağın keyfiyyətinin aşağı olması və onun fikrincə belə vəziyyətin «ağır qəzalara gətirib çıxara biləcəyi» barədə həyəcanla bildirirdi. Buna görə də, DTK-nın məsləhəti ilə Azərbaycanın mülki aviasiya idarəsi SSRİ mülki aviasiya nazirliyinin icazəsi ilə müvəqqəti olaraq Bakı neft emalı zavodlarının yanacağından imtina edərək Qroznıdan gələn təyyarə yanacağına keçməli oldu.

Azərbaycan DTK-sından partiya orqanlarına göndərilən müxtəlif hesabat, məruzə və arayışlarda Heydər Əliyev dəfələrlə diqqəti daxildə baş verən neqativ hallara yönəldirdi. Məsələn, əhali arasında ideoloji işin zəif aparılması, ticarət, məişət, nəqliyyat sahələrində, inzibati orqanların işində olan nöqsanlar və s. Bütün bunlar vətəndaşların haqlı narazılığına səbəb olur, müxtəlif «millətçi və cəmiyyətə zidd təzahürlərin» yaranmasını qidalandırırdı. 1969-cu il mayın 22-də respublika DTK və DİN-in birgə kollegiyasında çıxış edən Heydər Əliyev respublikanın ərzaqla pis təchiz olunmasından həyəcanla danışırdı: «Son bir neçə gün Bakıda ət və digər məhsulların kəskin qıtlığı yaranmışdır, artıq böyüyərək siyasi xarakter alan narazılıqlar qeydə alınır. Bütün bunlar bizi ağır vəziyyətdə qoya biləcək kütləvi iğtişaşlara gətirib çıxara bilər».

Xalq təsərrüfatının müxtəlif sahələrində həqiqi vəziyyətə bələd olması, ölkə iqtisadiyyatının «zəif» yerlərini yaxşı bilməsi, bir qədər sonra, MK-nın birinci katibi postunda Heydər Əliyevin karına gələcəkdir. Onu qələbə raportları ilə aldatmaq çətin olacaq, çünki «doğma» təşkilatı respublikanın başında durduğu 14 il ərzində öz keçmiş rəhbərini Azərbaycanın bütün iri sənaye və kənd təsərrüfatı müəssisələrində obyektiv vəziyyətlə bağlı informasiya ilə müntəzəm təchiz edəcəkdir.

* * *

Heydər Əliyev dövlət sərhədinin qorunması məsələsinə, İran və Türkiyədən agentlərin bizim tərəfə qeyri-leqal keçməsi üçün əlverişli olan sahələrin aşkar edilməsinə xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü ilə 1968-ci ildə Azərbaycan çekistləri Zaqafqaziya sərhəd dairəsinin hərbi hissələri ilə birlikdə şərti sərhəd pozanları müxtəlif marşrutlarla göndərməklə təlim keçirdilər: Bakı

– Puşkin – Cəlilabad; Bakı – Fizuli – Lənkəran və s. 1968-ci ildə görülən işlər barədə hesabatda deyilirdi: «Bu təlimlər dövlət sərhədinin qorunmasının təşkilində mövqelərimizin həddən ziyadə zəif olduğunu göstərdi. Təkcə bunu demək kifayətdir ki, bütün şərti sərhədpozanlar sərhəd xəttinə maneəsiz çata bildilər, respublikanın içərilərinə doğru, bəzi hallarda hətta yerli camaatın köməyi ilə, irəlilədilər». Məruzədə daha sonra göstərilirdi ki, bütün bu nöqsanlar ümumiləşdirilmiş, təhlil edilmiş, bu işdə dönüş yaratmaq üçün tövsiyələr işlənib hazırlanmış və respublika DTK-sının sərhəd orqanlarına, eləcə də bütün sərhəd dəstələrinə əldə rəhbər tutmaq üçün göndərilmişdir.

Ancaq eyni zamanda Heydər Əliyev sərhədyanı ərazilərdə yaşayan əhaliyə qarşı əsassız repressiya tədbirlərinin əleyhinə idi. Bununla bağlı general Bahadur Hüseynov əlamətdar bir epizodu yada salır:

«1958-ci ildə mən Heydər Əliyeviçin iştirak etdiyi müşavirədə çıxış etdim:

– Hər il biz, dəstədə xidmət edənlər, minlərlə sərhədpozan saxladığımız barədə hesabat veririk. Ancaq bu sərhədpozanlar, sərhəd rayonlarından olan Bakıda yaşayıb işləyən adamlar, tətil vaxtı sərhəd zonasına gələn Bakıda oxuyan tələbələrdir. Biz bu yolla süni surətdə sərhədpozanların sayını artırmış oluruq.

Məsələ ondadır ki, DTK və sərhəd qoşunlarının keçmiş rəhbərliyi sərhəd rejiminə riayət etmə qaydalarını işləyib hazırlamışdı. Həmin qaydalara görə sərhəd zonasına gələn şəxslər buraxılış vərəqəsi almalıdırlar. Bunun əsasında müvəqqəti olaraq Bakıda oxuyan və ya məzuniyyətdə olan adamlar evlərinə getmək üçün buraxılış vərəqəsi almalı olurdular.

Heydər Əliyev dərhal reaksiya verdi.

– Belə eləmək olmaz. Sərhədçilər o adamları saxlamalıdırlar ki, onların sərhəd zonasına heç bir aidiyyəti yoxdur, sərhəd rayonlarında nə yaxınları, nə də qohumları vardır.

Heydər Əliyeviç işə qarışandan sonra bu məhdudiyyət tamamilə aradan götürüldü. Əliyevin təşəbbüsü ilə Azərbaycan DTK-sı SSRİ DTK-sı qarşısında «Azərbaycan Respublikasında sərhədyanı rejim haqqında əsasnamə»yə dəyişiklik edilməsi barədə məsələ qaldırdı. Nəticədə sərhədyanı rayonların sakinləri bu zonaya pasport təqdim etməklə, yəni xüsusi icazə almadan getmək imkanı qazandı. Tezliklə sərhəd rejimini pozanların sayı minimum həddə çatdı – ildə 10-15 nəfərə. Buraxılış vərəqələrini biz, əsasən, başqa respublikalardan gələnlərdən tələb edirdik».



Əgər Heydər Əliyev nail olduğuna qane olub rəhbərlik etdiyi kollektivi yeni məqsədlərə, kəşfiyyat və əks-kəşfiyyat işinin səviyyəsini artırmağa yönəltməsəydi, Heydər Əliyev olmazdı. Ona görə həm 1967-ci il üçün hesabatında, həm də 1968-ci ildə Azərbaycan DTK-sının işinin nəticələri barədə məruzədə tənqidə daha çox yer verilirdi.

Belə ki, H.Əliyevin 1968-ci ildə Azərbaycan DTK-sında görülmüş işlərin nəticələri barədə məruzəsinin az qala yarısı nöqsanların təhlilinə həsr olunmuşdu. O SAVAK və MEX* orqanlarına, həmçinin İran və Türkiyə ərazisində yerləşən Amerika müəssisələrinə agenturanın zəif yeridilməsinə görə; xaricilər sırasından ETK və əsas düşmən** xətti ilə agenturanın olmamasına görə; xaricilərlə iş üzrə istifadə etmək üçün sovet vətəndaşları sırasından olan agenturanın ixtisas səviyyəsinin aşağı olmasına görə 1-ci şöbəni kəskin tənqid edirdi. O bəyan edirdi ki, «respublikada əks-kəşfiyyat işinin səviyyəsi bugünki əməliyyat şəraitinə cavab vermir»: əməliyyat heyətinin işində əsl yaradıcı münasibət, kəskinlik və fərasət azdır, əvəzində bürokratik rəsmiyyət, canlı işin çoxsaylı planlar, arayışlar və sorğular tərtib etməklə əvəzlənməsi halları istənilən qədərdir, tədbirlər isə «qabaqcadan hazırlanmış trafaret, işlənilən obyektin xarakterindəki zəif və güclü tərəfləri, subyektiv xüsusiyyətləri, onun əsas maraq və məqsədlərini öyrənmədən aparılır».

Heydər Əliyev 2-ci şöbənin və yerli orqanların rəhbərliyinə məsləhət görür ki, «ciddi işlər və siqnallarla bağlı agentura-əməliyyat tədbirlərində şəxsən daha çox iştirak etsinlər, həmin planların baxılması və təsdiq olunması ilə məhdudlaşmasınlar, gənc əməkdaşlara çekist sənətinin sirlərini inadla öyrətsinlər, təcrübələrini bölüşsünlər. Daha mühüm və perspektivli işlərin yerinə yetirilməsində rəhbər heyətin şəxsi iştirakı ilə bağlı məsələdə, nəhayət, sözdən əmələ keçsinlər».

*MEX – Türkiyənin milli təhlükəsizlik xidməti.

** Sovet xüsusi xidmət orqanlarının dilində ABŞ və onun kəşfiyyat orqanları «əsas düşmən» adlandırılırdı.

Bütün işlərində olduqca məsuliyyətli və nizam-intizamlı olan Heydər Əliyev, öz kollektivində intizamsızlıq, işə vicdansız yanaşma hallarına dözə bilmirdi. Bunun üstündə o ciddi, orqanlardan xaric edilməyə qədər cəzalandırırdı. 1968-ci il üçün olan hesabat məruzəsində də Heydər Əliyev nizam-intizamı gücləndirmək məsələsinə xüsusi diqqət yetirmişdi:

«İş günü hər bir əməkdaş üçün maksimal dərəcədə yüklənməlidir. Bunun üçün öz işini planlaşdırmaq, hər bir saatın səmərəli keçməsi üçün iş gününü dəqiq təşkil etmək lazımdır. Tabeliyində olan işçilərə qarşı yüksək tələbkarlıqla bərabər onlara diqqət və qayğı göstərmək, işlərinə nəzarət etmək, baş verə biləcək səhvlərin qarşısını almaq lazımdır. Rəhbər işçi əmr və göstərişlərin dəqiq icrasını tələb etməklə yanaşı, həm də nizam-intizam və tapşırılan işə vicdanlı münasibətdə şəxsi nümunə göstərməlidir. Rəhbər heyətin iş üslubundan, tapşırılan işlə bağlı məsuliyyət hissinin nə dərəcədə inkişaf etdiyindən, tələbkarlıq səviyyələrindən çox şey asılıdır... »

Heydər Əliyevin bunları deməyə, tabeliyində olan əməkdaşlardan tələb etməyə haqqı var idi, çünki özü hər zaman onlar üçün xidməti vəzifə borcunu qüsursuz yerinə yetirməkdə nümunə idi. Məsələn, hətta Azərbaycan xüsusi xidmət orqanlarının rəhbəri olanda belə o heç vaxt əməliyyat işindən boyun qaçırmırdı. Keçən fasildə biz Heydər Əliyevin 2-ci şöbənin rəisi, daha sonra Azərbaycan DTK-sının sədr müavini olandan sonra da xüsusi əməliyyatların hazırlanması və yerinə yetirilməsində olduqca fəal iştirakı, agentləri şəxsən cəlb etməsi və hətta onlarla kordonun o tərəfində görüşləri barədə söhbət açmışıq. H.Əliyevin 60-cı illərin ortalarına aid olan daha bir uğurlu cəlbetmə əməliyyatı barədə danışaq.

## «Naturalist»

«Naturalist» Azərbaycana 1964-cü ildə turist vizası ilə gəlmişdi. SSRİ DTK-sının təlimatlarından müəyyən olurdu ki, «Naturalist» 1942-1945-ci illərdə Hitler vermaxtının qərargahında işləmiş, Almaniyanın satelliti olan ölkələrin hərbi-texniki və hərbi-iqtisadi potensialını öyrənmək üçün tez-tez Qərb və Şərq ölkələrinə getmiş, alman agenturasının müxtəlif mənbələrindən qərargaha daxil olan kəşfiyyat məlumatlarının təhlili və ümumiləşdirilməsi ilə məşğuldu. Bir neçə dəfə Sovet İttifaqında olmuşdu...

O vaxt artıq Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini olan H.Əliyev, bu məlumatları alıb ən hazırlıqlı əməliyyat işçilərindən ibarət qrup yaradıb, onların qarşısında «Naturalist» Bakıda olduğu vaxt onun ətrafında xüsusi əməliyyat tədbirləri planının işlənib hazırlanması vəzifəsini qoyur. Alınan məlumatlardan ilk növbədə bəlli oldu ki, onun haqqında olan informasiya həqiqətə uyğundur, bundan əlavə, aydınlaşdırıldı ki, o da, atası da Hitlerə, onun irqçi siyasətinə düşmən münasibət bəsləmiş, ona görə də müharibə bitəndən sonra «Naturalist» istefaya çıxaraq əvvəlcə müəllimlik etmiş, sonra jurnalistika ilə məşğul olmuşdur.

Materiallar H.Əliyevə məruzə ediləndən sonra o deyir: «Onunla Azərbaycan dövlət təhlükəsizliyi orqanları ilə əməkdaşlığa cəlb olunmaq məqsədi daşıyan söhbət aparmaq üçün şərait yaradın». Şərait yaradıldı*.

O vaxt «Naturalist»in işlənməsi və saxlanılması ilə məşğul olan bölmənin rəisi Zaur Əfəndiyev idi. Bundan əlavə Z.Əfəndiyev H.Əliyevlə birlikdə «Naturalist»in məxfi əməkdaşlığa cəlb olunması ilə nəticələnən söhbətdə iştirak etmişdi. Yeri gəlmişkən, bu əməliyyatın uğurla həyata keçirilməsinə görə Əfəndiyev «Döyüş xidmətlərinə görə» medalı ilə təltif edilmişdi.

Mən Əfəndiyevlə görüşüb həmin xüsusi əməliyyatın bəzi təfərrüatları barədə danışmasını xahiş etdim. Zaur müəllim məmnuniyyətlə razı oldu, hətta əməliyyatçılar tərəfindən Heydər Əliyevin «Naturalist»lə görüşü zamanı çəkilmiş nadir fotoşəkli də mənə göstərdi.

Azərbaycan xüsusi xidmət orqanlarının veteranı ilə söhbətimdən bir parça:

«– Təlimatda olan məlumatların təsdiqini tapması üçün biz «Naturalist»lə çox sıx işləməyə başladıq və təxminən üç gündən sonra onu saxladıq.

**– Xarici vətəndaşı saxlamaq üçün əlinizdə hansı əsaslar var idi?**

---

* V.Mustafayevin «Professional» filmindən Ziya Yusifzadənin söhbəti.

– Bizim üçün əsas bu oldu ki, «Naturalist»i axşamdan xeyli keçmiş parkda, «İnturist»dən bir qədər aralı, bir qadınla görmüşdülər. Biz də komanda verdik ki, onu tutsunlar. Bundan sonra isə həmin adamın işlənməsi başlandı. Milis səlahiyyətli orqanlara zəng vurdu və s. Gecə saat üçdə mən milis şöbəsinə gəldim, həmin adamdan Heydər Əliyevin adına yazılmış ərizə götürdüm. Bundan qabaq Heydər Əliyev ərizədə nə yazmaq lazım olduğu barədə məni təlimatlandırmışdı. Həmin adam da yazdı ki, mən, filan ölkənin vətəndaşı, buraya filan məqsədlə gəlmişəm, milis tərəfindən saxlanılmışam. Ərizə bu sözlərlə bitirdi: «Xahiş edirəm məni qəbul edəsiniz».

Ertəsi gün mən hər şey barədə Heydər Əliyeviçə məruzə etdim, ərizəni göstərdim.

O, vaxt təyin etdi, biz onun göstərişi ilə mehmanxanada nömrə hazırladıq və «Naturalist»lə görüşdük. Söhbət zamanı məsələni açdıq, dedik ki, onunla əməkdaşlıq etmək istəyərdik. Düzdür, bunun üçün mən onu bir az sıxışdırdım, vəziyyəti təsvir etdim:

– Bizə milisdən müraciət olub, biz də öz növbəmizdə Xarici İşlər Nazirliyinə müraciət edə bilərik. Onda vəziyyət qəlizləşəcək.

O, əlbəttə, istəmirdi ki, biz XİN-ə müraciət edək.

Biz özümüzü ona adımızı və vəzifəmizi söyləmədən, sadəcə kapitanlar kimi təqdim etdik. Söhbət uzun çəkdi, ancaq təfsilatını sizə aça bilməyəcəyəm.

«Naturalist» Almaniya Federativ Respublikasından olan alman idi. Deyirdi ki, jurnalistdir, ruslara qarşı heç vaxt silah işlətməyib, xüsusi xidmət orqanları ilə heç bir əlaqəsi olmayıb, SSRİ-yə, Azərbaycana rəğbət bəsləyir. Heydər Əliyev əsl professional idi, söhbəti lap əvvəldən elə apardı ki, məsələ gəlib əməkdaşlığa çıxsın. «Naturalist» rus dilini yaxşı bilirdi, onunla rusca danışırdıq.

**– Razılığa gəlməsinin nə dərəcədə səmimi olduğuna inanmaq üçün ondan kəşfiyyat məlumatları alındımı?**

– Bəli, elə Bakıda. O dedi ki, Avropa ölkələrində geniş əlaqələrə malikdir, onunla bir yerdə Hitler vermaxtının qərargahında xidmət etmiş adamlar indi NATO strukturlarında işləyirlər və s. Biz ona bir sıra suallar verdik, o cümlədən Amerika bazaları haqqında. Bəzi şeyləri o bizə dedi. Həmin məlumatları yoxladıq, bundan sonra ona lazım olan tapşırıqlar verildi, lakin onlar da yoxlama xarakteri daşıyırdı. Yəni o artıq bizə məlum olanlar barədə məlumat verməli idi.



**– Eşitmişəm ki, Heydər Əliyev «Naturalist»lə gizli görüşlər keçirmək üçün Berlində olub? Rəsmi, yoxsa turist qismində?**

– O, DTK xətti ilə gedirdi. Heydər Əliyeviç Berlinə rəsmi olaraq, guya hansısa bir iş üçün getmişdi. Biz «Naturalist»dən məktub almışdıq, görüşün vaxtını və yerini göstərirdi. Əgər AFR vətəndaşı ADR-ə gəlirdisə, onu sərhəddə yoxlamırdılar. Məsələn, mən də Almaniyada olmuşdum. ADR-dən AFR-ə keçənə qədər Frankfurt-Maynda dörd sərhəd nəzarətinin «öhdəsindən gəlməli» oldum. «Naturalist» isə Şərqi Berlinə tam sərbəst gələ bilirdi. Jurnalist olduğu üçün heç bir konspirasiyaya ehtiyacı yox idi. Əsas məsələ onda idi ki, SSRİ kəşfiyyatı ilə təması olan agent kimi öz xüsusi xidmət orqanlarının gözünə dəyməsin.

Heydər Əliyeviç Almaniyaya iki dəfə getmişdi. Birinci dəfə alınan məlumatları yoxlamaq, ikinci dəfə isə agenti sovet rezidenturasına «ötürmək» üçün.

Heydər Əliyeviç öz əməkdaşlarını lazımi səviyyədə təşəbbüskarlıq göstərmədiklərinə, bu və ya digər işdə əks-kəşfiyyat yönümlü perspektivi bir baxışdan seçə bilmədiklərinə, faktları ələkdən keçirib ikinci dərəcəliləri bir kənara qoyub, bütün qüvvələrini qiymətli operativ məlumatların yoxlanmasına səfərbər etməkdə çətinlik çəkdiklərinə görə tez-tez tənqid edirdi. H.Əliyevin sədr olduğu dövrdə DTK-nın istintaq şöbəsinin uğurla başa çatdırdığı cinayət işlərindən biri də, Bakıdan olan üç valyutaçı qızın işi oldu. Həmin valyutaçıların əlaqələrinin araşdırılması SSRİ-də akkreditasiya olunmuş xarici səfirliklərdə qiymətli informasiya mənbələrinin aşkar olunması ilə nəticələndi. Bu məsələnin maraqlı tərəfi həm də ondan ibarətdir ki, Respublika DTK-sının istintaq şöbəsinin rəisi və onun müavini bu işi aparmaq üçün DTK-nın əlində əsas olmadığını israr edərək, istintaq işi açmaqdan imtina etmişdilər. Və yalnız sədrin təkidi (bəlkə də inadkarlığı) tamamilə gözlənilməz nəticələrə gətirib çıxardı.

Bu işin istintaqını Əkrəm Səlimzadə aparmışdı. İşin təfərrüatını da mənə elə o özü danışdı.

## Laura üçün nişanlı

"Moskvanın təlimatı əsasında Binə hava limanında üç qız saxlanıldı – Derluqyan Laura, Petrosova Aida və Qazıyeva Leyla. Axtarış zamanı onlarda valyuta və SSRİ-dəki xarici səfirliklərdə işləyən xarici vətəndaşlara, biznesmenlərə və s. məxsus 60 ədəd vizit vərəqəsi aşkar olundu.

Saxlanılanların hər üçü bakılı, yüngül əxlaqlı qızlar idi. Əyinlərinə bahalı «şuba» geymişdilər, ingilis dilində gözəl danışırdılar. Heydər Əliyev iş açılması və onların cinayət məsuliyyətinə cəlb olunmaları barədə məsələ qaldırdı. Mən mühüm işlər üzrə baş müstəntiq işləyirdim, istintaq şöbəsinin rəis müavini isə o vaxt Höcət Vəliyev idi.

İş üzrə bütün materiallar mənə verilmişdi. Ertəsi gün Vəliyev dedi ki, bizim bu işi aparmaq üçün əsasımız yoxdur, çünki bu prokurorluq orqanlarının səlahiyyətindədir. Məsələnin bu cür qoyuluşu Heydər Əliyevin xoşuna gəlmədi.

– Mən, DTK sədri, göstəriş verirəm, onlar isə deyir ki, cinayət işi qaldırmaq üçün əsas yoxdur! İstintaq şöbəsinin rəisi cinayət işi qaldırmaqdan imtina edir. Höcət Vəliyev də onunla razıdır!

Məsələ burasındadır ki, DTK-nın səlahiyyətinə casusluq, Vətənə xəyanət, qaçaqmalçılıq və s. daxil idi. Bu qızlar isə iddia edirdilər ki, valyutaçı deyillər, pul və qızıl sikkələri də onlara bağışlayıblar. Aydın məsələdir ki, istintaq şöbəsi artıq "başağrısı" istəmirdi.

Ancaq Heydər Əliyeviç anadan çekist doğulmuşdu. Saxlanılan qızlardan götürülmüş xarici səfirlik əməkdaşlarının çoxsaylı vizit vərəqələrində o, əks-kəşfiyyat fəaliyyəti üçün perspektivlər, cəlb etmə, diplomatlarla iş aparmaq və s. imkanlar görmüşdü.

Heydər Əliyeviç bizim üçümüzü çağırdı və mən onda ilk dəfə onu əsəbi vəziyyətdə gördüm.

– Cinayət işi qaldırmaq lazımdır! Siz axı çekistsiniz, yəni həqiqətən perspektivi görmürsünüz?

Vəliyev və Bileçenko dodaqaltı bunun qeyri-qanuni olduğunu, Moskvanın bizi bunun üstündə cəzalandıracağını təkrar-təkrar söyləyirdilər.



– Dmitri Andreyeviç, – deyə Heydər Əliyev soruşdu, – cinayət işi qaldıracağıq?

– Yox.

– Höcət, iş qaldıracağıq?

– Yox.

Onda mən ilk dəfə Heydər Əliyevin söyüş işlətdiyinin şahidi oldum. Deyəsən bu onun özü üçün də nadir hal idi, çünki həmin dəqiqə özünü ələ aldı və artıq sakit tərzdə mənə müraciət etdi:

– Əkrəm, bəs sən nə fikirləşirsən, cinayət işi qaldıra bilərik?

Mənim vəziyyətimi təsəvvür edin. Şöbə rəisi və onun müavini cinayət işi qaldırmaqdan imtina edirlər, o isə məndən soruşur.

– Bəli, bilərik.

Gözünə sanki işıq gəldi.

– Cinayət-prosessual məcəlləsinə uyğun olaraq, – mən fikrimə davam etdim, – Azərbaycanda qaldırılan bütün cinayət işləri respublika prokurorunun tabeliyindədir. Təhqiqatı istədiyi orqana tapşıra bilər.

Bu fikir Heydər Əliyeviçin xoşuna gəldi. Respublikanın baş prokuroru o vaxt Qamboy Məmmədov idi.

– Qamboy iş qaldırıb onu bizə tapşıra bilər?

– Bəli, – dedim.

Heydər Əliyev o dəqiqə telefonun dəstəyini götürdü:

– Qamboy, bizdə belə bir vəziyyət yaranıb... – Və məsələnin mahiyyətini ona danışmağa başladı. – Biz, xarici vətəndaşlara çıxmaq perspektivi olan bir işin təhqiqatına başlamaq istəyirik. Necə bilirsən?

Xəttin o biri başında deyəsən dedilər ki, iş qaldırıb bizə vermək üçün heç bir problem yoxdur.

– Çox sağ ol! Əkrəmi göndərirəm sənin yanına, – Heydər Əliyeviç dəstəyi asdı. – Bax, belə, hamınız azadsınız!

Biz dəhlizlə addımlayanda nə Bileçenko, nə də onun arxasınca gedən Höcət mənə heç nə demədi. Bileçenko maşın verdi ki, Qamboy Məmmədovun yanına gedim, bütün materialları da özümlə götürməyi əmr etdi. Prokurorluqdan qayıdan kimi Heydər Əliyeviç məni yanına çağırdı.

– Hə, necə oldu?

– İş artıq qaldırılıb, icraata qəbul edirəm.

– Əkrəm, əsas diqqəti vizit vərəqələrinə yönəldirsən, hər şey barədə ətraflı, nöqtəbənöqtə dindirirsən, bütün protokolları da – o saat mənim yanıma! Stenoqrafist lazımdırsa, mən verərəm.
– Stenoqrafist lazım deyil, ancaq qrupa bir müstəntiq də qoşsam pis olmaz, necə olsa, həbs olunanlar üç nəfərdir.
– Etiraz etmirəm, necə lazım bilirsənsə elə də et.
Mən bu işlə məşğul oldum, ərəb və digər xarici səfirliklərin əməkdaşları haqqında olduqca geniş məlumat topladım. Bu materiallar Moskvaya, SSRİ DTK 2-ci Baş əks-kəşfiyyat idarəsinə lazım idi, möhkəm yapışmışdılar. Vərəqələrin surətini təcili Moskvaya göndərməyi tələb etdilər.
Saxlanılanlar ingilis və fransız dillərində sərbəst danışırdılar. Özlərini müxtəlif sovet təşkilatlarının əməkdaşları kimi qələmə verib diplomatlarla tanışlıq yaradaraq səfirliklərə yol tapır, ziyafətlərdə olurdular, onların evlərinə gedib-gəlirdilər. Gözəl bakılı qızlara valeh olan diplomatlar onlara öz telefon nömrələrini, vizit vərəqələrini verir, qızlarla əlaqələrini kəsməyib, xarici ticarət bankının çekləri ilə təmin edirdilər. Qızlar saxlanılıb, Komitəyə gətiriləndə, onlarda çemodan-çemodan çətin tapılan pal-paltar, «şuba», qızıl pullar var idi.
Bir sözlə, istintaqın gedişində əldə etdiyimiz faktlar, əks-kəşfiyyat işi üçün böyük əhəmiyyətə malik idi. Elə buna görə də, Moskva bu materiallarla maraqlanmışdı, bizə dərin təşəkkürlərini bildirirdilər. Hər iki-üç gündən bir Heydər Əliyeviç məni kabinetinə dəvət edərək, istintaqın gedişatı ilə maraqlanırdı, axı bu işin təşəbbüskarı o idi.
İş başa çatandan sonra Heydər Əliyeviç dedi:
– Əkrəm, ittihamnaməni yaz və təsdiq etmək üçün şəxsən mənə ver.
Müstəntiq qərar çıxarır, DTK rəhbərliyi isə onu təsdiq edirdi. Vitali Sergeyeviç Krasilnikov o vaxt Heydər Əliyevin müavini idi və istintaq şöbəsinə baxırdı. Mən onun başının üstündən hərəkət edə bilməzdim. Üstəlik də, tapşırmışdı ki, bütün materialları ona göstərim.
Sədr müavininə zəng vurdum:
– Vitali Sergeyeviç, ittihamnamə hazırdır.
– Gəl, gəl, – deyə o, məsələni yubatmadı.



İttihamnamə 24-25 makina səhifəsində yazılmışdı. O hamısını, sonuncu səhifəsinə qədər oxudu, təsdiq etmək üçün əlini qələmə uzatmaq istəyəndə, onu saxladım:
– Vitali Sergeyeviç, ittihamnaməni Heydər Əliyeviç özü təsdiq etmək istəyirdi.
O, sədrə zəng etdi.
– Heydər Əliyeviç, Səlimzadə Derluqyanın işi ilə bağlı ittihamnaməni gətirib, mənim yanımdadır, icazə verin təsdiq edim.
– Yox, Səlimzadə qoy yanıma gəlsin.
Tələsik ittihamnaməni götürüb onun kabinetinə qaçdım.
– Qurtarmısan? Bəs niyə Krasilnikovun yanına gedirsən? Axı həmişə mənə məruzə edirdin...
– Heydər Əliyeviç, nə edə bilərəm, Vitali Sergeyeviç inciyir axı.
Əliyev sənədi təxminən 20-25 dəqiqə oxudu. Bu vaxt ərzində mənə bir sual belə vermədi, telefon zənglərini cavabsız qoydu. Sonra gülümsəyərək, söylədi:
– Halal olsun, Əkrəm! Görürsən, amma sənin rəhbərlərin iş qaldırmaqdan boyun qaçırırdılar!
O, ittihamnaməni oxuyan zaman mən kabinetə göz gəzdirib heç nə anlaya bilmirdim: kitablar topa-topa yığılıb, şkaflar bom-boş. Sən demə o artıq bizdən gedirmiş. Mənim xəbərim yox idi, elə bildim, otaqda «əsaslı» yır-yığış işlərinə hazırlaşırlar. Yəni heç vaxt ağlıma gəlməzdi ki, Heydər Əliyeviç DTK-dan gedə bilər. Komitə onun doğma evi idi, ürəyi onunla döyünürdü, DTK-nın maraqları ilə yaşayırdı, bu işin fədaisi idi.
O, ittihamnaməni oxudu və birdən söylədi:
– Əkrəm, sən başa düşürsən ki, bu elə belə iş deyil? Bunun çox böyük siyasi və tərbiyəvi əhəmiyyəti var. Bilirsən bu nə deməkdir? Biz bu barədə qəzetlərdə yazmalıyıq.
– «Bakinski raboçi» qəzetində məqalə vermək olar.
O, dəstəyi götürüb, «Bakraboçi»nın redaktoruna zəng vurdu:
– Biz böyük məhkəmə prosesi hazırlayırıq, müxbir göndərə bilərsən?
– Əlbəttə.
Sonra Heydər Əliyeviç eyni xahişlə «Kommunist» qəzetinin redaktoru Rzayevə zəng vurdu.

«Bakinski raboçi»də material hazırlamağı Vladimir Sinitsinə tapşırdılar. O «Laura üçün nişanlı» başlığı altında böyük məqalə hazırladı, çünki bu üç qızdan ən əsası Laura Derluqyan idi. Məqalə «Bakinski raboçi» və «Kommunist»in bir neçə nömrəsində dərc edildi.

Redaksiyalardan başqa o, respublika Ali Məhkəməsinin sədri Sənan Musayevə də zəng etdi. Musayev olduqca savadlı, mədəni adam idi, hüquqşünasların arasında mən belələrinə çox az rast gəlmişdim. Musayev Azərbaycanın ən güclü üç hüquqşünasından biri idi.

– Sənan, biz maraqlı bir işi başa çatdırmışıq, istəyirəm ki, onu təcrübəli bir adama tapşırasan. Bu nümunəvi proses olacaq, biz ora dəvətnamələrlə buraxacağıq.

– Mən özüm bu işə baxaram, – Sənanın cavabı belə oldu.

Heydər Əliyeviç hökumət telefonu ilə Moskvaya zəng vurdu:

– Biz bu işi qurtardıq, prosesi yüksək səviyyədə qurmaq istəyirik.

İşin həqiqətən böyük tərbiyəvi əhəmiyyəti var idi, xüsusən də gənclər üçün. Çünki o vaxt SSRİ-yə çoxlu turist gəlməyə başlamışdı, hər yerdə «Beryozka» mağazaları açılmışdı. Ona görə də xəbərdarlıq etmək lazım idi ki, qızlar defisit mallara şirniklənib, xaricilərə baş qoşmasınlar, çünki onlara qulluq göstərən, nazları ilə oynayan xaricilər həm də qızlar vasitəsilə informasiya əldə edən əks-kəşfiyyatçılar, rezidentlər idi. Onu hər şeydən əvvəl məsələnin bu tərəfi, məqalələrin tərbiyəvi-profilaktik əhəmiyyəti düşündürürdü.

Heydər Əliyeviç ittihamnaməni oxuyub qurtardı, ayağa qalxdı, mən də yerimdən sıçradım, kabinetin ortasına keçdik. O mənim çiyinlərimdən tutub dedi:

– Əhsən sənə! Nəticəni görürsən, ancaq həmkarların işin əleyhinə idi.

– Heydər Əliyeviç, açığını desək, bu cür işlər bizim səlahiyyətimizdə deyil. Ancaq siz məsələnin siyasi tərəfini görə bildiniz, bunu hər adam bacarmaz.

O, məni mehribanlıqla, dostcasına şöbəmizdəki işlər, şəxsi problemlər barədə sorğu-suala tutdu. Mən yenə də bir şey anlaya bilmirdim, sual verməyə də ürək etmirdim.

Sonra məni qucaqladı, sağollaşdı və mən çıxıb getdim.



İki-üç gündən sonra plenum oldu və biz bildik ki, Heydər Əliyeviç MK-nın birinci katibi vəzifəsinə keçir.

## Xarici tələbələr və Abdelhaninin işi

«5-ci şöbənin rəhbərliyi üçün zəruridir:

– bütün qüvvə və vasitələri respublikamıza qarşı aparılan ideoloji düşmənçilik aksiyalarının qarşısının alınmasına səfərbər etmək. Qarşı tərəfin ideoloji mərkəzlərinin öyrənilməsi və işlənilməsi məsələlərini fəallaşdırmaq.

– Bakı şəhərində təhsil alan kapitalist və inkişafda olan ölkələrdən gəlmiş ali məktəb tələbələri ilə əks-kəşfiyyat işinin səviyyəsini qaldırmaq».

*(Azərbaycan SSR NS yanında DTK-nın sədri, general-mayor Heydər Əliyevin 1968-ci ildə görülmüş işlərin yekunu barədə məruzəsindən)*

Xruşşov "mülayimliyi"nin başlaması ilə SSRİ-yə təhsil almaq üçün inkişaf etməkdə olan, eləcə də Şərqi Avropa ölkələrindən tələbələr gəlməyə başladı. Yeri gəlmişkən, artıq 25 ildən çox Anqola prezidenti olan Eduardu duş Santuş müəyyən mənada bakılı sayıla bilər. Anqolanın gələcək lideri Azərbaycan Neft və Kimya İnstitutunda 5 il oxumuşdur.

AZNKİ-nin sabiq rektoru, akademik İsmayıl İbrahimovun mənə danışdığına görə Yəməndən olan ilk xarici tələbələr Bakıya 1963-cü ildə məhz Neft və Kimya İnstitutuna gəlmişdilər: «Tələbələri yerləşdirmək üçün heç yataqxanamız da yox idi. Onları zirzəmilərdə və şəxsi mənzillərdə yerləşdirirdik. Düzdür, sonradan 5 ya 6 yataqxana binası tikdik.

Xarici tələbələr bizdə oxumağa gələndə, xüsusi xidmət orqanlarının institutumuza marağı kəskin dərəcədə artdı. İldə hazırlıq fakültəsində təxminən 300-400 tələbə oxuyurdu, bir o qədər də əsas fakültələrdə. SSRİ-də cəmi üç hazırlıq fakültəsi var idi: Patris Lumumba adına Xalqlar Dostluğu Universitetində, Kiyev Dövlət Universitetində, bir də Azərbaycan Neft və Kimya İnstitutunda. Bu cavanlar bir çox problemləri, ən müxtəlif arzu və istəkləri olan rəngarəng kontingent təşkil edirdi. Onlara daim göz

qoymaq, yarana biləcək qanun pozuntularına qarşı qabaqlayıcı tədbirlər görmək, onları vaxtında yatırtmaq lazım idi. Bu işdə orqanlar və onların nəzarəti olmadan keçinmək mümkün deyildi».

İsmayıl İbrahimov Azərbaycan əks-kəşfiyyatçıları, o cümlədən 2-ci şöbənin rəisi podpolkovnik Heydər Əliyevlə yaxın təmasda işləməli olduğunu gizlətmir.

Akademik İbrahimov söyləyir: «Xatirimdədir, bir dəfə biz bütün tələbə və müəllimlərin iştirakı ilə geniş müşavirə çağırdıq. Mühazirə ilə çıxış etmək üçün Heydər Əliyevi dəvət etdim, bu 1963 ya da 1964-cü ilə təsadüf edirdi. Əliyev olduqca istiqanlı, qaynayıb-qarışan insan idi, istənilən auditoriya ilə ünsiyyət yarada bilirdi».

Azərbaycanda olan xarici tələbə kontingentini Moskva da ciddi nəzarətdə saxlayırdı. SSRİ DTK 5-ci şöbəsinin keçmiş rəisi Filipp Bobkov xatırlayır:

«O vaxt yeni səhifə açılırdı: SSRİ-yə oxumaq üçün xarici tələbələr gəlməyə başladı. Bu sahəyə mən baxırdım. Amerikanlar öz agenturasını oxumağa gələn tələbələr arasında olduqca fəal yerləşdirməyə başladılar, xüsusən də Afrika ölkələrindən olan tələbələr arasında. Yadımdadır, Bakı ali məktəblərinə Qanadan, Qvineyadan çoxsaylı tələbə qrupları gəlmişdi. Və Amerika agenturasının həmin kanal vasitəsilə ölkəyə ayaq açmasının qarşısını almaq üçün ilk hazırlıq işlərini biz dəfələrlə Heydər Əliyevlə müzakirə edirdik. Bu istiqamətdə işlərimiz pis getmirdi».

Xarici tələbələr üzərində daha ciddi nəzarət yaratmaq üçün ölkə ali məktəblərinə prorektor, dekan, dekan müavinləri adı altında təcrübəli əks-kəşfiyyat işçiləri göndərilirdi.

«Altmışıncı illərin əvvəlində bizə DTK əməkdaşı Rəfi Məmmədovu prorektor təyin etdilər, – İbrahimov xatırlayır. – Bundan başqa bizim iki dekanatımız da var idi – biri hazırlıq fakültəsinin tələbələri üçün, ikincisi – xarici tələbələrlə iş üzrə. O, xaricilərin oxuduğu bütün fakültələrlə iş aparır, onların məsələlərini həll edirdi. Bu dekanlıqlardakı dekan müavinləri də dövlət təhlükəsizliyi orqanlarının əməkdaşları idi».

Azərbaycan DTK sədrinin 1967-ci il üçün hesabatında qeyd olunurdu ki, «xarici tələbələrlə iş üzrə əlaqədar Londonda sosialist ölkələrində təhsil alan Asiya və Afrika tələbələrinin cəlb olunması üzrə «Mərkəz» yaradılması barədə ilkin materiallar alınmışdır». Bununla bağlı Heydər Əliyev sovet xüsusi xidmət



orqanlarının maraqları istiqamətində xarici tələbələrdən istifadə etmək üçün daha aktiv tədbirlərin həyata keçirilməsini Moskvaya təklif edir.

1965-ci ildə Bakıda fövqəladə hadisə baş verdi – respublika stadionunun yaxınlığında Qanalı tələbə Darko Corcun meyidi aşkar olundu. O vaxtlar üçün belə hadisə həqiqətən fövqəladə idi. Rusiyada skinhedlərin afrikalı tələbələri qətlə yetirməsi bizim vaxtımızda az qala adi hala çevrilib. Ancaq o zaman afrikalının ölümü böyük qalmaqala səbəb oldu: xarici radiosəslər bu hadisəni ağızdolusu şərh edirdilər. Bakının ali məktəblərində təhsil alan xarici tələbələr dərslərə girməkdən imtina edir, mitinqlər keçirib günahkarın tapılmasını və cəzalandırılmasını tələb edirdilər. Qana səfirliyinin nümayəndələri və mərhumun qohumları Bakıya gəldilər. İttifaq prokurorluğundan SSRİ baş prokurorunun köməkçisi, baş ədliyyə müşaviri Vladimir Vodolajskini göndərdilər. Bir sözlə, bu qətlin təhqiqatı Azərbaycan hüquq-mühafizə orqanlarının əməkdaşları üçün şərəf işi, respublikanın nüfuzu məsələsinə çevrilmişdi.

Bakı şəhərinin prokuroru Ata Əliyevin rəhbərliyi altında istintaq qrupu yaradılmışdı. İşlərə ümumi rəhbərliyi DTK sədri Semyon Sviqun və onun müavini Heydər Əliyev həyata keçirirdilər. Bütün briqada Dövlət Təhlükəsizliyi Komitəsində işləyirdi. İstintaqın gedişində müəyyən oldu ki, Darko Corc xarici tələbələr üçün nəzərdə tutulmuş yataqxanada, keçmiş İraq kommunisti, qaçqın, 60-cı illərdə Azərbaycan hökumətinin siyasi sığınacaq verdiyi Əhməd Abdelhani ilə bir otaqda yaşayırmış. Abdelhani üç il Lvovda oxumuş, sonra təhsilini Bakıda Tibb institutunda davam etdirmişdi.

Şahidlərin ifadələrinə görə, Darko Corcla Abdelhaninin araları yaxşı imiş. İstirahət günləri tələbələrə yataqxanada gecələməməyə icazə verirdilər, onlar da gəzməyə çıxır, qızlarla görüşürdülər. Onu axtarmağa başlayırlar, üstəlik otaqlarına baxış zamanı xidmətçi qızdan məlumat daxil olur ki, Abdelhaninin balışının üstündə qan izləri var. Bu hal ciddi şübhələrə səbəb olur. Abdelhani saxlanılan zaman məlum oldu ki, bir barmağının falanqası kəsilib. O heç kimlə danışmaq istəmirdi, ümumiyyətlə danışmaqdan qəti imtana etdi.

Bu vaxt Heydər Əliyev təklif etdi ki, sərhədin Naxçıvan hissəsində Abdelhaninin saxlanıldığı zaman onunla işləyən DTK əməkdaşı istintaqa qoşulsun. Və bu çox dəqiq addım oldu.

– Məndə olan məlumata görə, – Heydər Əliyev fikrini izah etməyə başladı, – Abdelhani o vaxt dövlət təhlükəsizliyi orqanları tərəfindən həbs olunub. Hesab edirəm ki, o vaxt onunla sıx psixoloji təmasda olmuş müstəntiqi tapmaq lazımdır.

Müəyyən olundu ki, Abdelhani ilə təmasda bizim köhnə tanışımız Əkrəm Səlimzadə olubmuş.

– Səlimzadə hazırlıqlı müstəntiqdir, – Heydər Əliyeviç sözünə belə başladı, – Cavan olsa da təcrübəlidir. Təklif edirəm Səlimzadəni bu işə qoşaq. O, Abdelhanidən etiraf ifadələri ala bilər, əlbəttə, əgər qatil odursa.

**Əkrəm Səlimzadənin söhbətindən:**

«Məni Sviqunun yanına çağırdılar. Sviqun soruşdu:

– Abdelhanini tanıyırsınız?

– Tanıyıram.

– Kimdir o, necə adamdır?

– Semyon Kuzmiç, – deyirəm, – o sərhədi Naxçıvan tərəfdən keçib. Bu olduqca nadir hadisədir: Naxçıvanda çox az adam sərhədi keçib. Orada keçid üçün şərait çətindir, hər adamın işi deyil. Astara, Prişib istiqamətində asan olardı, Araz ya Bolqarçayı dayaz yerindən keçmək kifayətdir.

Bir sözlə, şübhəli şəxsin portretini onlar üçün təsvir etdim. SSRİ baş prokurorunun nümayəndəsi Vodolajski də sədrin kabinetində idi. Müzakirələri də elə o yekunlaşdırdı:

– Bir halda ki, müstəntiqin istintaq altında olanla normal psixoloji kontaktı olub, onunla elə o işləyəcəkdir. Heydər Əliyeviçin ideyası bəyənilir və tam dəstəklənir. Heç bir başqa adam bu işlə məşğul olmamalıdır. İşin gedişi barədə bizə Səlimzadə məruzə edəcək.

Abdelhanini DTK-ya gətirdilər. O məni o dəqiqə tanıdı. Azərbaycan dilində danışırdıq, ancaq bu ərəb balası rus dilini də gözəl bilirdi. Tibb institutunda rus bölməsində oxuyurdu.

– Nə olub? Düzünü de. Yoxsa işlərin pis olacaq.

– Məni güllələmək istəyirsiniz? – o soruşdu.

– Abdelhani, mən sənə çox yaxşılıqlar etmişəm, yadından çıxmayıb ki? Sənə siyasi sığınacaq verdik, instituta düzəltdik.

O inadından əl çəkmirdi:



– Mən öldürməmişəm, kim öldürüb onu da bilmirəm.

– Barmağına bəs nə olub?

– Avtobusda kəsilib.

– Hansı marşrutda?

İstintaq eksperimenti apardıq. O deyirdi ki, avtobusdan düşəndə barmağı təsadüfən qapının arasında qalıb. Biz yoxlayıb müəyyən etdik ki, bu mümkün deyil. Onunla bir yerdə avtobus parkına getdik, bütün qapıları göstərdik. Orada qapının layları arasında məsafə elə idi ki, əl keçirdi.

İstintaq müddətində mən Abdelhaninin Tibb institutuna daxil olana qədər üç il oxuduğu Lvov şəhərinə uçdum. Onun dediyi hər sözü yoxlayırdıq, hər xırda şeyə fikir verirdik. O vaxt mənim elə böyük təcrübəm yox idi. Sviqun və Heydər Əliyeviç mənə köməklik göstərirdilər.

Qərəz, o gördü ki, davam gətirə bilmir, məsələ qəlizləşir:

– Siz məni güllələmək istəyirsiniz! Hiss edirəm bunu.

– Sən kimsən axı? Sən ki, bizim vətəndaşı öldürməmisən, ölən afrikalıdır. Özün də bizim vətəndaş deyilsən. Əgər sən bizim adamı öldürsəydin, onda səninlə başqa cür danışardıq.

Elə bu tələyə də o düşdü.

– Söz verirsiniz ki, məni güllələməyəcəksiniz?

Mən sədrin yanına gedib məlumat verdim ki, Abdelhani zəmanət istəyir. Sviqun Moskvaya zəng vurdu. Moskvadan cavab gəldi: əgər o hər şeyi səmimi boynuna alsa, biz ictimaiyyətə, bütün dünyaya bildirərik ki, cani tapılıb və cəzalandırılıb, elə bu kifayətdir.

Sədrin cavabını Abdelhaniyə çatdıranda o soruşdu:

– Deməli məni güllələməyəcəklər? Oğlunun canına and iç.

O bilirdi ki, mənim azyaşlı oğlum var. And içməli oldum.

– Mən öldürmüşəm. O söz vermişdi ki, məni qızla tanış edəcək, hər dəfə də aldadırdı, mən də hirsimdən onu döydüm. Tutuşduğumuz vaxt o mənim barmağımı dişləyib qopardı, dəhşətli ağrı idi, özü də buraxmaq bilmirdi. Mən onu yerə yıxdım, başından daşla vurub öldürdüm. Tulladım orada, kolların arasında, çıxdım gəldim yataqxanaya, onun fotoaparatını, bir iki başqa şeyləri götürüb getdim yatmağa dostumgilə. Oğurladığım şeyləri də elə onlarda qoydum.

– Dostun harada yaşayır?

O, ünvanı bilmirdi, ancaq dostunun yaşadığı yeri göstərdi. Ora yollandıq. Axtarış zamanı paket, onun içindən isə Darko Corcun fotoaparatı tapıldı, aparatın qayışının üstündə kimyəvi karandaşla Darkonun adı yazılmışdı. Qana bulaşmış əşyalar da orada gizlədilmişdi.

DTK rəhbərliyi əşyayi-dəlillərin tapılmasına sevindi, Moskvaya məruzə etdi. Semyon Kuzmiç məni qızıl saatla mükafatlandırmaq istəyirdi. Kollegiyanın iclasında belə də dedi:

– Mənə qalsa Səlimzadəni qızıl saatla mükafatlandırardım, nə edək ki, pul yoxdur. «Spidola» və fəxri fərmanla kifayətlənməli olacağıq.

Cinayət işinin məhkəməsi Respublika Ali Məhkəməsinin başçısı Sənan Musayevin sədrliyi ilə Dəmiryolçular klubunda keçirildi. Dövlət ittihamçısı respublika prokuroru Qamboy Məmmədov idi. Məhkəməyə bir çox xarici səfirliklərin nümayəndələri, jurnalistlər yığışmışdı.

Abdelhaniyə səkkiz il iş kəsildi, canını qurtarmağına yaman sevinirdi. Sonralar onu SSRİ hüdudlarından kənara çıxartdılar. İşin gedişində istintaq tədbirlərinə yardım göstərən, dəyərli məsləhətlər, tövsiyələr verən Heydər Əliyeviçin bizə böyük köməyi oldu».

Xoşbəxtlikdən bu, Heydər Əliyevin DTK-ya rəhbərliyi dövründə xarici tələbələrlə bağlı yeganə fövqəladə hadisə oldu. Əvəzində əks-kəşfiyyatçıların bu kontingentlə işinin səmərəsi sözsüz idi: xaricilərin bir çoxu Bakıda təhsillərini başa vurandan sonra vətənlərinə, öz ölkələrinin xarici və daxili siyasətinə SSRİ-nin maraqlarına uyğun təsir göstərməyə hazır olan əsl sovet «nüfuz agentləri» kimi qayıdırdı.

## DTK və erməni ekstremizmi

Tarixi sənədlər və Azərbaycan alimlərinin ən son tədqiqatları ilə tanışlıq belə bir qənaətə gəlməyə əsas verir ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin zorla qopardılaraq Ermənistana birləşdirmək cəhdələrinə DQMV-nin yarandığı vaxtdan bəri həmişə təşəbbüs göstərilmişdir. Birinci və ən ciddi təşəbbüs 2-ci dünya müharibəsi başa çatandan dərhal sonra olmuşdur. Tarixçi E.İsmayılovun kitabında o vaxt Azərbaycan KP MK katibi olmuş Mirhəsən Seyidovun xatirələrindən bir parça gətirilir. 1945-ci ilin



payız günlərinin birində M.C.Bağırov Stalinin qəbul otağında ÜK(b)P MK Siyasi Bürosunun iki üzvü – erməni Anastas Mikoyan və gürcü Lavrenti Beriya ilə qarşılaşır. İkisi də bəyan edirlər ki, Cənubi Azərbaycan məsələsi artıq həll olunub və yaxın vaxtda Azərbaycanın ərazisi xeyli genişlənəcəkdir. Bağırov da səxavət göstərərək Dağlıq Qarabağın Ermənistana, respublikanın şimal-qərb rayonlarından bir neçəsini isə (Balakən, Zaqatala və b.) Gürcürstana verilməsinə etiraz etməyəcəkdir. Bağırov cavab verir ki, bu haqda danışmağın vaxtı hələ çatmayıb[34].

Çox keçmədən Ermənistanın rəhbəri Q.Arutyunov, heç şübhəsiz, Stalinin razılığı ilə, DQMV-nin Azərbaycan Respublikasının tərkibindən çıxarılaraq Ermənistan SSR-in tərkibinə verilməsi barədə təklifi ÜK(b)P MK-nın müzakirəsinə çıxarır. Həmin kağız Bağırova öz fikrini bildirmək xahişi ilə göndərilir. Dövlət arxivlərində Arutyunovun gətirdiyi səbəbləri layiqincə və əsaslandırılmış şəkildə rədd edən Bağırovun cavab məktubu saxlanılır. Düzdür, o yazır ki, Azərbaycan tərəfi DQMV-nin (Şuşa rayonu istisna olmaqla) Ermənistana verilməsinə razı ola bilər, ancaq o şərtlə ki, onlar öz növbəsində Ermənistanın azərbaycanlılar məskunlaşan üç rayonunu Azərbaycana versinlər[35]. Düşünürəm ki, müvəqqəti olaraq ərazi ekspansiyası təhlükəsini dəf etməyə yalnız Mir Cəfər Bağırovun bu məsələdə göstərdiyi qətiyyət, üstəgəl Cənubi Azərbaycanda Stalin siyasətinin uğursuzluğu imkan verdi.

1947-ci ilin dekabrında SSRİ Nazirlər Sovetinin qərarına uyğun olaraq Ermənistan SSR-in bəzi rayonlarından azərbaycanlı əhalisinin Azərbaycanın Kür-Araz ovalığına «könüllü-icbari» deportasiyası başladı. Bu, sovet dövründə azərbaycanlıların doğma yurdlarından köçüb getməsinin ilk faciəli səhifəsi idi. Tarixçi E.İsmayılovun yazdığı kimi, «hətta köçürülmə kampaniyası öz gərginliyini itirəndə belə, Ermənistanda özlərinin ikinci dərəcəli insan olduqlarını tam mənada hiss edən azərbaycanlıların tədricən, yavaş-yavaş köçüb-getməsi qaçılmaz oldu. Ermənistan SSR-in azərbaycanlı əhalisinin köçürülməsi ətrafındakı hay-küyün başlıca nəticəsi 50, 60, 70 və 80-ci illərdə bu əhalinin Azərbaycana daimi meyil şəklini alan sürətli miqrasiyası oldu»[36].

Xruşşov «mülayimliyinin» başlanması ilə ictimai mühitin bir qədər yumşaldığını hiss edən erməni millətçiləri yenidən «Qarabağ məsələsini» ortaya atdılar. Üstəlik Nikita Xruşşov tərəfindən

Krımın Ukraynaya verilməsi ilə bağlı RSFSR-in inzibati-ərazi sərhədlərindəki volyuntarist dəyişmələr başqa respublikalarda da separatçı meyillərin baş qaldırmasına səbəb olmuşdu.

1960-cı ilin əvvəlində Azərbaycan KP MK-ya Bostonda (ABŞ) çıxan «Baykar» («Mübarizə») qəzetində dərc olunmuş «Sovet Azərbaycanının Prezidentinə» adlı müraciət daxil oldu. Sözçülük və demaqogiyadan ibarət olan giriş və «qardaş Azərbaycanın» şərəfinə söylənən «sağlıqlardan» sonra Amerikadakı erməni lobbisinin nümayəndələri Sovet Ermənistanının 40 illik yubileyi ilə əlaqədar Naxçıvan və Qarabağın ona verilməsini təklif edirdilər (?!). Özü də ərazi iddiaları utanmadan erməni millətinin demoqrafiya problemləri ilə pərdələnirdi. Müraciətdə qeyd olunurdu ki, Azərbaycanın iki muxtar vilayətinin Ermənistana verilməsinin «böyük əhəmiyyəti olacaqdır, məsələn, xaricdə yaşayan bir milyon ermənilər üçün, çünki bu gözəl hədiyyə bir neçə yüz min mühacirət etmiş ermənilərin bilavasitə vətənə qayıtmaq imkanlarını genişləndirəcəkdir... repatriantlar Yerevan əvəzinə Bakı ilə əlaqələri ancaq inzibati tərəfdən olan erməni muxtar rayonları Naxçıvan və Qarabağda sərbəst yerləşə biləcəklər»*.

Vəli Axundov MK-nın ideologiya üzrə katibi Nazim Hacıyevə təcili olaraq respublikanın maraqlarını və ərazi bütövlüyünü müdafiə edən geniş cavab hazırlamağı tapşırdı. Aydın Hacıyev öz kitabında yazır: «Atam tarixçi, hüquqşünas, kartoqraf, Azərbaycan KP MK və Nazirlər Soveti işçilərindən ibarət xüsusi qrup yaratmışdı. Qızğın iş gedirdi. O vaxt Azərbaycan EA tarix institutunun direktoru, indi dünyasını dəyişmiş professor Əlövsət Quliyev yaxından kömək göstərirdi... Arayış üzərində iş qısa müddətə başa çatdırıldı. Bütün lazım olan əlavələrlə birlikdə (arxiv arayışları, xəritələr və s.) arayış Sov.İKP MK-ya göndərildi»[37]. Tezliklə ideologiya üzrə katibin kabinetində hökumət telefonu səsləndi. Zəng vuran baş sovet ideoloqu Mixail Suslov idi. O, Nazim Hacıyevə bildirdi ki, məsələyə MK-nın Rəyasət Heyətində baxılacaq və sənədin müəllifi kimi o təcili olaraq Moskaya uçmalıdır.

---

* Müraciətdən sitat A.Hacıyevin «Hər şeyi anlamaq, lakin hər şeyi bağışlamamaq» kitabında yer almış, atası, keçmiş Azərbaycan KP MK katibi Nazim Hacıyevin şəxsi arxivinin materialları əsasında gətirilmişdir.



Moskvada N.Hacıyev böyük hazırlıq işləri apara bildi, DTK şefi Aleksandr Şelepinin, Sov.İKP MK katibi Leonid İliçovun, digər partiya funksionerlərinin dəstəyini qazana bildi. O vaxt Azərbaycan KP MK-nın ikinci katibi işləyən V.Semiçastnının şəxsi əlaqələri və nüfuzunun da xeyli köməyi oldu. Ümumi səylərlə onlar erməni millətçilərinin (ən böyükləri – Anastas Mikoyan, MK-nın Rəyasət Heyətinin üzvü, ölkə rəhbərinə yaxın olan şəxs idi) hücumlarını dəf etməyə müvəffəq oldular.

Bu müzakirədən bir az sonra Nazim Hacıyev «bəd xassəli şiş» diaqnozu ilə SSRİ Səhiyyə Nazirliyinin 4-cü Baş idarəsinin xəstəxanasına düşdü. Onun üzərində cərrahiyyə əməliyyatını Kreml «başbiləni», professor Abramyan apardı. Nazim Hacıyevin dostu, əməliyyatda iştirak etmək üçün xüsusi olaraq Bakıdan gəlmiş professor Topçubaşovun dediyinə görə, əməliyyat düzgün aparılmamışdı. Bu «müalicədən» sonra Axundov dövrünün ən cavan və parlaq MK katiblərindən biri (cəmi 38 yaşı var idi!) heç ikicə il də yaşamadı. N.Hacıyevin oğlu Aydın Hacıyevin atasının erkən ölümünün təsadüfi olmadığı, Moskvadakı güclü erməni lobbisinin intriqalarının qurbanı olduğu barədə fərziyyə yürütməyə tam əsası vardır.

60-cı illərin ikinci yarısında yeni hücuma təşəbbüs göstərildi. Bu barədə çox sonralar, bir qrup Azərbaycan yazıçısı ilə söhbəti zamanı Heydər Əliyev xatırlayırdı:

«Yadımdadır, 1966 ya 67-ci ildə Moskvadan qərar gəldi. Axundov məni yanına çağırdı. Bu, Sov. İKP-nin qərarı idi, orada Azərbaycan KP MK katibi Axundova və Ermənistan KP MK katibi Koçinyana tapşırılırdı ki, bu məsələni müzakirə edib məruzə etsinlər (Azərbaycanın muxtar vilayətlərinin Ermənistana verilməsi barədə – ***E.A.***). Bu nə demək idi? Bu o demək idi ki, Azərbaycanın səlahiyyətinə aid olan məsələnin həllini Ermənistana təklif edirdilər...

Oturub fikirləşdik. Mən ona (Vəli Axundova – ***E.A.***) dedim, bilirsiniz, siz gərək Moskvaya gedib Brejnevlə görüşəsiniz. O getdi və Brejnevi qərarı ləğv etməyə inandıra bildi»[38].

60-cı illərin ortalarında Azərbaycan xüsusi xidmət orqanları gizli fəaliyyət göstərən bir neçə millətçi qrup aşkar etmişdi. Belə ki, gizli «Erməni gəncləri ittifaqı»nın yerevanlı emissarları muxtar vilayətin ərazisində öz təşkilati strukturlarını yaratmaq niyyətində idilər. Stepanakert (indiki Xankəndi şəhəri) məktəblə-

rinin yuxarı sinif şagirdlərindən ibarət başqa bir gənclər qrupu bütün «erməni» ərazilərinin, o cümlədən Dağlıq Qarabağ və Naxçıvanın, birləşməsinə çağıran vərəqələr yayırdı. Xarici kəşfiyyat rəisi general İ.Hüseynov xatırlayır ki, 1965-ci ilin iyununda «DQMV-də Azərbaycan Yazıçılar İttifaqı filialının məsul katibi olan B.Ulubabyan adlı bir nəfər Sov.İKP MK-ya DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi tələbi ilə ərizə göndərmişdi. Ərizəni vilayətin erməni millətindən olan bir sıra məsul partiya və sovet işçiləri, o cümlədən vilayət partiya komitəsinin üzvləri - Stepanakert şəhər sovetinin sədri S.Şakaryan, «Sovet Qarabağı» vilayət qəzetinin redaktoru L.Qasparyan, vilayət mədəniyyət idarəsinin rəisi A.Manuçarov və başqaları imzalamışdılar. Bu hadisə ilə də bağlı respublika DTK orqanları bütün proseslər haqqında respublika rəhbərliyini məlumatlandırmışdı. Təxribatçıların fəaliyyətinin qarşısını almaq üçün təcili ehtiyat tədbirləri görülmüşdü»[39].

Qeyd etmək lazımdır ki, 60-cı illərdə DQMV-də bu cür separatçı təzahürlər və sosial narazılıq partlayışları tez-tez baş verirdi. SSRİ DTK-sının keçmiş sədri, 60-cı illərdə Azərbaycan KP MK ikinci katibi işləmiş Vladimir Semiçastnı rusiyalı jurnalist A.Karaulovla olan söhbətində bu haqda xatırlayır:

«...İndi Dağlıq Qarabağda baş verənlər (müsahibə 1989-cu ilin martında aparılmışdır - ***E.A.***), o vaxt da var idi, Qarabağ ətrafında söz-söhbətlər, dedi-qodular, bir sözlə, qeyri-sağlam çəkişmələr gedirdi, ancaq məsələlər bir təhər yoluna qoyulurdu, indi gördüyümüz kəskin həddə çatmırdı...Mən vilayət partiya konfransında çıxış etmişdim, saysız-hesabsız məsələlər qaldırırdılar – bu da düz deyil, o da düz deyil...»[40].

Azərbaycan DTK-sının 1967-ci il üçün olan hesabatında, DQMV-də olan vəziyyətin müfəssəl təhlilini verən Heydər Əliyev qeyd edirdi ki, «bir çox hallarda vilayətdə siyasi cəhətdən ziyanlı və cəmiyyətə zidd olan hərəkətlər Ermənistan SSR-dən olan millətçiliyə köklənmiş ayrı-ayrı elementlərin təsiri və bilavasitə iştirakı ilə həyata keçirilirdi. Buna son beş ilin bir sıra faktları dəlalət edir:

Ermənistandan bəzi şəxslər Stepanakertə gəlir və DQMV-nin Ermənistana birləşdirilməsinin gözlənildiyi barədə şayiələr yayırdılar; bu məsələ ilə bağlı xüsusi olaraq hazırlanmış müraciətə imza toplayırdılar; kütləvi sayda millətçi «Qarabağ ermənilərinə müraciət» və təxribat xarakterli başqa çap materialları gətirirdilər və yayırdılar...».



SSRİ DTK 5-ci Baş idarəsinin keçmiş rəisi F.Bobkov «DTK və hakimiyyət» kitabında Qarabağ münaqişəsinin köklərini təhlil edərkən haqlı olaraq əsas səbəblərdən birini daşnaksütun ideoloqlarının qatı millətçi təbliğatında görür. Ermənistanın partiya rəhbərliyi əslində bu cür fəaliyyət üçün yaşıl işıq yandırmışdı. Aşağıda SSRİ DTK-sında 15 il məhz ideologiya məsələləri ilə məşğul olmuş və bu səbəbdən də fikirlərini diqqətəlayiq hesab etdiyim bir şəxsin xatirələrindən fraqment gətirilir:

"Erməni millətinin müstəsnalığı nəzəriyyəsi respublika əhalisinə uşaq yaşlarından təlqin edilirdi. Məsələn, orta məktəbin 7-8-ci sinifləri üçün nəzərdə tutulan dərslikdə sual qoyulurdu: hansı dövlətlərin paytaxtında erməni məktəbləri var və o saat da məlum olurdu ki, SSRİ-nin paytaxtında belə məktəb yoxdur, ancaq bəzi xarici ölkələrdə var. Müharibə illərində hitlerçilərlə mübarizə aparan "Gənc qvardiya" təşkilatının üzvləri arasında yalnız Jora Arutyunyantsın adı çəkilirdi. Başqa adlar, hətta təşkilatın rəhbərləri belə verilmirdi. Söhbət, deyək ki, görkəmli sovet musiqiçilərindən, rəssamlarından, mədəniyyət və elm xadimlərindən gedirdisə, adətən yalnız ermənilərin adları çəkilirdi. Təbii ki, daşnak təbliğatı münbit torpağa düşürdü.

Ermənistanda olarkən mən bu barədə Dəmirçyanla danışmışdım. Bizim uzun və çətin söhbətimiz bir nəticə vermədi, Ermənistan Kommunist partiyasının rəhbəri inadla təkrar edirdi: «Bizdə qorxulu heç nə baş vermir!» Getməmişdən əvvəl mən bir də onunla görüşdüm və daşnakların fəal surətdə respublika ərazisinə keçdiyi barədə yeni faktlar gətirdim. Dəmirçyan bir qədər başqa cür reaksiya verdi. Ermənistan KP MK-nın növbəti plenumunda kommunistləri daşnak təsiri ilə mübarizəyə çağırdı. lakin çətinliklə işıq üzü görən bir neçə məqaləni saymasaq, iş bu formal aksiyadan o tərəfə getmədi. Dağlıq Qarabağda yaşayanlar üçün belə fəaliyyətsizlik fəlakətlə nəticələndi»[41].

Azərbaycan xüsusi xidmət orqanları fəaliyyətsizlik göstərmirdilər: onlar mütəmadi olaraq yuxarı instansiyalara DQMV-də gedən neqativ proseslər barədə məlumat verirdilər. Respublika MTN-in arxivində H.Əliyev və digər DTK rəhbərlərinin imzası ilə müxtəlif illərdə Azərbaycan KP MK-ya, ittifaq orqanlarına göndərilmiş, milli ədavəti qızışdıran, düşmənçilik toxumu yayan

şəxslər və qruplar haqqında çoxsaylı siqnallardan ibarət məktub və arayışlar az deyildir.

Məsələn, Azərbaycan KP MK-nın birinci katibi V.Y.Axundovun adına göndərilmiş 1967-ci il 6 iyun tarixli, 10480 nömrəli təqdimat. Dörd səhifədən ibarət bu sənəddə müxtəlif millətçi təşkilatların yaradıcıları və iştirakçıları, onlardan vərəqələrin müsadirə edilməsi, «Arsax vətənpərvərləri ittifaqı» qrupunun aşkar edilməsi və fəaliyyətinin qarşısının alınması, qrup üzvləri ilə profilaktika aparılması barədə müfəssəl məlumat verilmişdir.

Birinci katibin adına başqa bir sənəddə ( 10579, 26 iyun 1967 il) Azərbaycan DTK-sının sədri məlumat verir ki, Stepanakertdə «Dağlıq Qarabağın birləşdirilməsi tələbləri və millətçi xarakterli uydurmalardan ibarət» fotokağızda çap edilmiş 300 vərəqə yayılmışdır. Daha sonra deyilir ki, vərəqələri hazırlayanları və yayanları aşkar etmək üçün Stepanakertə operativ qrup göndərilmişdir.

Əfsuslar olsun ki, DTK-nın bu və digər siqnalları Azərbaycanın, xüsusilə də Ermənistanın partiya rəhbərliyində olduqca süst reaksiya doğurmuşdu. Filip Bobkovun haqlı iradına görə, həm Sov.İKP MK, həm də yerlərdə hesab edirdilər ki, millətçilik təzahürləri, təxribat və terrorla mübarizə DTK-nın sahəsidir, «onlar ona görə çekistdirlər ki, belə aksiyaları qabaqlasınlar, imkan verməsinlər, yox, əgər bu hal baş veribsə, qoy özləri də məsələni həll etsinlər. Heç kim məsələnin mahiyyətinə varıb anlamaq istəmirdi – fəlakətin qarşısını yalnız daşnak təbliğatına qarşı yönəlmiş izahat işi ala bilərdi»[42].

Heydər Əliyev respublika DTK-sının sədri vəzifəsinə qədəm qoyduğu az qala ilk gündən bu ciddi problemlə üzləşməli oldu. 1967-ci il iyulun 3-də Stepanakertdə qan qisası və məhkəmədən narazılığa görə kütləvi iğtişaşlar baş verdi. Üç nəfər azərbaycanlını DQMV-nin Martuni rayonunun kolxoz sədrlərindən birinin 8 yaşlı oğlu Nelson Movsesyanı qətlə yetirməkdə ittiham edirdilər. Dinləmələr Stepanakertdə aparılırdı. Məhkəmə tərəfindən sübuta yetirilmişdi ki, bilavasitə ölüm hadisəsinə iki nəfərin aidiyyatı var. Nəticədə onlardan birini ölüm cəzasına, o birini isə 15 il azadlıqdan məhrum olunmağa məhkum etmişdilər. Üçüncü müttəhim bəraət almışdı. Məhkəmə prosesi Əzizbəyov adına parkda yerləşən Stepanakert yay kinoteatrında keçirilirdi. Artıq proses vaxtı ölən uşağın qohumları hakimlərin ələ alındıqları barədə



şayiələr yayaraq, hər vechlə aranı qızışdırmağa, hər üçünə ölüm cəzası tələb etməyə başlamışdılar. Müttəhimlər konvoyla gətirilən zaman onlara daş, yumurta atırdılar, bir dəfə dustaqxana maşınının üstünə dəryaz tiyəsi sancmışdılar.

Hökm oxunan gün parkda, yay kinoteatrının ətrafında böyük izdiham – səkkiz minə yaxın adam toplanmışdı. Məhkəmə kollegiyasının qərarının «yumşaq» olmasından narazı qalan zərərçəkənlərin qohumları, kütləni ağır nəticələrə gətirib çıxarmış iğtişaşa təhrik edə bildilər. Əvvəlcə kimsə məhbusları apara bilməməsi üçün milisin dustaq maşınını sıradan çıxardı. Sonra hiddətlənmiş kütlə milis işçiləri ilə davaya girişərək kinoteatrın qapılarını sındırıb zala soxuldu və dustaqların keşiyini çəkən əsgərlərdən onların verilməsini tələb etdi. Mühafizə xidmətinin əsgərləri hücum edənləri geri oturtmağa çalışdılar, bir neçə xəbərdarlıq atəşi açdılar, ancaq cavabında onlar daşa basıldı. Bundan sonra azğınlaşmış kütlə elə buradaca, kinoteatrın zalında iki məhbusa divan tutdu, başlarını əzdi, çoxlu sayda bıçaq yarası endirdi. Sonra parça-parça olmuş cəsədləri küçəyə sürüdülər və meyitləri təhqir etməyə başladılar.

Məhkəmə tərəfindən bəraət almış Zöhrab Məmmədovu daha dəhşətli aqibət gözləyirdi. O dustaq maşınında gizlənməyə macal tapmışdı, ancaq kütləvi iğtişaş iştirakçıları bundan xəbər tutub, maşına hücum etdilər, çevirdilər və odladılar. Z.Məmmədov diri-diri yandı. Yanmış meyiti maşından çıxarıb o biri meyitlərin yanına gətirdilər, əvvəlcədən hazırladıqları taxtaların üstünə atıb benzin tökdülər və yandırdılar.

Azərbaycan MTN Arxiv idarəsində mənim gözdən keçirdiyim istintaq işinin materiallarında yandırılmış meyitlərin təhqir olunması barədə tükürpərdici təfərrüatlar vardır, onları orta əsrlərə məxsus vəhşiliklə DQMV paytaxtının azərbaycanlı əhalisini vahiməyə salmaq üçün küçəbəküçə sürümüşdülər. On nəfərdən çox milis işçisi və mühafizə əsgəri ciddi bədən xəsarəti almışdı.

Respublika DTK-sı prokurorluqla bir yerdə cinayət işi qaldırdı. Heydər Əliyev polkovnik Firudin Bağırovun rəhbərliyi ilə təcrübəli briqada yaratdı və bu işi öz nəzarətinə götürdü. Bundan əlavə, özü Stepanakertə getdi, 15 gün orada qaldı. İş üzrə istintaq bir ilə yaxın çəkdi, nəticədə 20 nəfər ermənidən ibarət böyük bir qrup cinayət məsuliyyətinə cəlb olundu.

İğtişaş təşkilatçılarının məhkəmə prosesi ərəfəsində Stepanakertdə vəziyyət yenidən kəskinləşdi. Azərbaycan DTK-sına müttəhimlərin qohumlarının məhkəmənin qərarına təsir göstərmək niyyəti ilə yeni etiraz aksiyalarına hazırlaşdığı haqqında məlumat daxil oldu. Komitənin sədri baş verə biləcək təxribatların səbəbkarlarını üzə çıxarmaq və fəaliyyətlərini neytrallaşdırmaq üçün DQMV-yə əməliyyatçılar briqadası göndərməyi qərara aldı.

Arif Zeynalov xatırlayır ki, onu həmin operativ briqadaya daxil edəndə o, Kiyevdən, DTK məktəbindən təzəcə qayıtmışdı. Heydər Əliyev hesab etdi ki, gənc əməkdaş öz nəzəri biliklərini təcrübədə yoxlasa və çətin işdən başlasa yaxşı olar.

«Getməzdən əvvəl o bizi yanına çağırıb dedi: «Vicdanla işləyin, bütün provokatorları üzə çıxarın. Bir də: Stepanakertdə gecələməyin. İşi qurtardınızmı, o saat – Ağdama. Onlardan hər şey gözləmək olar. Mən Ağdam raykomunun birinci katibinə göstəriş vermişəm, yaşayış və yeməyinizlə problem olmayacaq. Gündüzlər isə özünüz bir təhər dolanarsınız».

Orada bir neçə həftə işlədik. İş barədə hər gün Heydər Əliyeviçə məruzə edirdik».

Bu arada Bakıda Stepanakert hadisələrinin təşkilatçıları və fəal iştirakçılarının məhkəməsi başlandı. 14 nəfər müxtəlif müddətlərə azadlıqdan məhrum edildi, beş nəfərə ölüm cəzası kəsildi. Onlardan üçünün barəsində hökm yerinə yetirildi.

Təhqiqatın gedişində Yerevan sakini, Qriqoryan familiyalı bir nəfər saxlanılır. O, gizli yerdə silah saxlandığını və bir qrup şəxs tərəfindən bu qədər çox adamın həbsinə «yol verdiyinə» görə DQMV-nin partiya və sovet aktivinə qarşı guya terror aktları hazırlandığını bildirir. DTK-nın 1967-ci il üçün hesabatında göstərilir ki, «Komitə tərəfindən görülən tədbirlər nəticəsində həmin məlumatlar yoxlanılmış, nəticədə Yerevan ətrafından dörd Kalaşnikov avtomatı, iki rota pulemyotu, naqan, mauzer, avtomat üçün ehtiyat hissələr və s. götürülmüşdür».

Bundan başqa, qərara alınmışdı ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin DTK rəhbərliyi gücləndirilsin. Heydər Əliyeviç DTK vilayət şöbəsinin sədri vəzifəsinə erməni millətindən olan adamın təyin olunmasına etiraz edirdi və Moskvanı inandıra bildi ki, hamını qane edən qərar qəbul etsin: bu vəzifəyə rus millətinin



nümayəndəsini göndərsin. Namizədi özü seçmişdi: uzun müddət onun rəhbərliyi altında işləmiş yoxlanılmış yerli kadrlardan.

«1967-ci ilin yayı girmişdi, istirahət günü idi. Mən məzuniyyətə getməyə hazırlaşırdım. Heydər Əliyeviç zəng vurdu. «Salam, Bıstrov, deyirlər məzuniyyətə gedirsən?» – «Bəli, hazırlaşıram». – «Nə vaxt yola düşürsən?» – «Biletlər sabaha alınıb». – «Yaxşı. Onda get istirahət elə, qayıdanda dərhal mənim yanıma gələrsən».

İşə çıxan kimi mən qayıtmağım barədə məruzə etdim və «birincinin» kabinetinə yollandım. «Bilirsən səni niyə dəvət eləmişəm?». – «Xeyr, bilmirəm». – «Biz rəhbərliklə məsləhətləşdik və qərara gəldik ki, səni vəzifədə böyütmək, daha məsuliyyətli iş tapşırmaq lazımdır. Məsələn, fikrimiz var səni Dağlıq Qarabağa işləməyə göndərək. Özün də bilirsən ki, orada vəziyyət heç də yaxşı deyil, kadrları dəyişmək lazımdır»*.

Tez-tez sərhədyanı rayonlarda yaşayan sakinlərin ərazi mübahisələrinin həllində iştirak etmək lazım gəlirdi. Bu vaxt münaqişələrin təşəbbüskarı həmişə erməni tərəfi olurdu. «Yerli əhəmiyyətli» belə münaqişələrdən biri haqqında DTK veteranı Məmmədəli Saracov danışır:

«1968-ci ildə Gədəbəy rayonunun Tağalar kəndinin sakinləri ilə Ermənistanın sərhədyanı Şəmsəddin rayonunun sakinləri arasında münaqişə baş verdi. Ekstremistlərin təhriki ilə ermənilər Tağalar kəndinin torpaqlarının bir hissəsinə iddia edirdilər və hətta tələb irəli sürmüşdülər ki, Azərbaycan əhalisi bu kənddən çıxsın. Azərbaycan və Ermənistanın o vaxtkı rəhbərləri İcevanda görüş keçirdilər, mən onda Azərbaycan DTK Gəncə şöbəsinin rəisi idim və danışıqlarda iştirak edirdim. Təəssüf ki, o zaman görüş bir nəticə vermədi. Yeganə nəticə o oldu ki, əslində münaqişənin səbəbkarı olan Şəmsəddin rayon partiya komitəsinin birinci katibi (səhv etmirəmsə, familiyası Avakyan idi) Azərbaycan tərəfinin tələbi ilə vəzifədən azad edildi. Düzdür, bu işdə heç bir günahı olmayan Gədəbəy rayon partiya komitəsinin birinci katibini də işdən çıxarmalı oldular. Ancaq tərəflər arasındakı gərginlik tam aradan götürülmədi. Az sonra Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi oldu. 1969-cu ilin sentyabrında o Qazaxa gəldi, sərhəddə

* V.Mustafayevin «Professional» filmindən polkovnik Bıstrovun söhbəti.

Ermənistanın rəhbəri Koçinyanla görüşdü, onlar Yerevanda, sonra isə Gəncədə bir sıra görüş və danışıqlar keçirdilər, nəticədə münaqişə yoluna qoyuldu. Tağalar kəndinin camaatı öz doğma yurd-yuvalarında qaldı, baxmayaraq ki, bir qədər əvvəl bizim başıbəla rəhbərlərimiz onların köçürülməsi haqqında düşünürdülər, hətta kənddən aralıda təzə qəsəbə də salmışdılar».

Azərbaycan xüsusi xidmət orqanlarına «başağrısı» gətirən daha bir amil «Daşnaksütun» partiyası agenturasının baş qaldırması idi. «Dəmir pərdə» zəifləyəndən, SSRİ-dən Qərbə və əks istiqamətdə turist axını artandan sonra Ermənistan və DQMV-yə turist adı altında okeanın o tayındakı havadarlarından konkret tapşırıqlar alan daşnak agentləri ayaq açdı. DTK arxivlərində SSRİ NS yanında DTK 2-ci Baş İdarəsi 2-ci şöbəsinin rəisi H.Əliyevin adına göndərdiyi məxfi məktub saxlanılır ( 2Π-383, 7 fevral 1962-ci il). Məktubda deyilirdi ki, «1961-ci il noyabr ayının sonunda Livanda, xüsusi olaraq buraya gəlmiş Amerika kəşfiyyatının nümayəndəsi daşnak partiyasının «Xarici büro» rəhbərləri ilə gizli müşavirə keçirmişdir...

«Xarici büro» tərəfindən bir sıra qərarlar qəbul edilmişdir: təxribat işləri aparmaq üçün agentura hazırlanması və qeyri-leqal yolla repatriasiya kanalları vasitəsilə sərhədyanı ölkələrdən Ermənistan SSR-ə göndərilməsi; SSRİ-yə yollanan turist qrupları və qohumlarının yanına gedən ayrı-ayrı ermənilərdən casusluq məqsədi ilə istifadə edilməsi; bütün vasitələrdən istifadə etməklə, o cümlədən repatriasiyaya fəal kömək göstərən adamlara qarşı terror aktları törətməyə qədər, ermənilərin Sovet İttifaqına gözlənilən repatriasiyasına mane olmaq».

Sənədin üstünə H.Əliyevin öz xətti ilə xarici daşnak təşkilatlarının əlaqələrini öyrənmək və aşkar etmək üçün konkret tədbirlərin hazırlanması, həmçinin casusların SSRİ sərhədinin Azərbaycana aid hissəsindən göndəriləcəyi halda onların tutulmasına dair göstərişlər olan dərkənar qoyulmuşdur.

Filipp Bobkovun sözlərinə görə, «Bakı beynəlmiləl şəhər olsa da, daşnak partiyası Azərbaycan əhalisinin təbəqələşməsi istiqamətində çox fəal işləyirdi. Daşnak təsirinin, agenturasının yayılması problemini Heydər Əliyevlə tez-tez müzakirə edirdik. «Daşnaksütunun» destruktiv fəaliyyətinin qarşısını almaq, əks-təsir göstərmək daim onun diqqət mərkəzində idi».





AzSSR
XALQ MAARIF QOMISSARIATЬ

ATTESTAT

Bu attestat 1923 ildə doğulmuş Əlijev Hejdər Əlirza oğluna Naxçıvan şəhər internasional Pedaqoji məktəbi ... şəraitində ... ə'la ... əsasında göstərilən elmlər ... verildi:

| | |
|---|---|
| Ana dili | ə'la |
| Ana dilinin tə'limi metodikası | ə'la |
| Ədəbijjat | ə'la |
| Azərbaycan dili | — |
| Rus dili və ədəbijjatı | ə'la |
| Rus dili tə'limi metodikası | ə'la |
| Arifmetika | ə'la |
| Arifmetika tə'limi metodikası | ə'la |
| Algebra | ə'la |
| Geometrija | ə'la |
| Triqonometrija | ə'la |
| Təbiijjat | ə'la |
| Təbiijjat tə'limi metodikası | ə'la |
| Tarix | ə'la |
| Tarix tə'limi metodikası | ə'la |
| Geoqrafija | ə'la |
| Geoqrafija tə'limi metodikası | ə'la |
| Fizika | ə'la |
| Kimja | ə'la |
| Pedaqogika | ə'la |
| Məktəb gigijenası | ə'la |
| SSRİ Konstitusijası | ə'la |
| Xarici ( fransız ) dil | ə'la |
| Rəsm | ə'la |
| Rəsm tə'limi metodikası | ə'la |
| Rəsmxətt | ə'la |
| Fizkultura | ə'la |
| Fizkultura tə'limi metodikası | ə'la |
| Nəğmə və musiqi | ə'la |
| Hərbi iş | ə'la |
| Məktəbdə praktika | ə'la |

Vətəndaş Əlijev Hejdər Əlirza oğlu

1938/39 ildə tədris planı ... müəjjən edilmiş tələbləri ödədiji üçün ... məktəbdə ... ibtidai və orta məktəbin I-IV siniflərində müəllimlik hüququna malikdir.

25 ijun - июня 1939
№ 2027

Pedaqoji məktəb direktoru: [signature]
Директор педучилища

НАРОДНЫЙ КОМИССАРИАТ ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ
Азербайджанской ССР

## ХАРАКТЕРИСТИКА

См. На ст. оперуполномоченного НКГБ Нах. АССР лейтенанта - Алиева Гейдара Али Рза оглы

согласно приказа НКГБ Азербайджанской ССР № 028 от 12 июня 1945 года тов. Алиев Гейдар Али Рза оглы с 20-го июня по 10 июля 1945 года обучался на курсах по повышению чекистской квалификации оперативных работников при Бакинском двадцатидневном семинаре НКГБ Азерб. ССР, прослушал цикл лекций по программе ОК НКГБ Союза ССР, в объеме 104 часов и на зачетных испытаниях показал следующие успехи:

ПО ДИСЦИПЛИНАМ:

1. Общие сведения о разведках капиталистических стран ....... Отлично
2. "Агентурно-оперативная работа органов НКГБ" ........... Отлично
3. "Борьба органов НКГБ с подрывной деятельностью иностранных разведок" ............. Отлично
4. Следственная работа органов Н К Г Б. ...................... Отлично

ОБЩИЙ БАЛ: .... Отлично

ПРЕДСЕДАТЕЛЬ КОМИССИИ:

1. [signature]

ЧЛЕНЫ:

2. [signature]
3. [signature]
4. [signature]

---

МИНИСТЕРСТВО ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ СОЮЗА ССР
УПРАВЛЕНИЕ КАДРОВ

# СВИДЕТЕЛЬСТВО

## ОБ ОКОНЧАНИИ ШКОЛЫ МГБ СССР

С отличием
Ст. лейтенант Алиев Гайдар
с „16" мая 1949 г. по „6" июля 1950 г. обучался в Ленинградской школе переподготовки руководящего оперативного состава МГБ СССР и сдал экзамены со следующими оценками:

1. Основы марксизма-ленинизма . . отлично (выпускной экзамен)
2. Диалектический и исторический материализм . . . . . . . отлично (выпускной экзамен)
3. Чекистская подготовка . . . . отлично (выпускной экзамен)
4. Экономическая и политическая география СССР и зарубежных стран . . . . . . . . . отлично
5. Уголовное право . . . . . . . отлично
6. Русский язык . . . . . . . . отлично
7. Литература . . . . . . . . зачёт
8. Военное дело . . . . . . . . зачёт

Начальник школы
полковник [signature] (Пинчук)

Начальник учебного отдела
подполковник [signature] (Румбин)

№ 62
6 июля 1950 г.
гор. Ленинград

зак. 1169

СЛУЖЕБНАЯ ХАРАКТЕРИСТИКА

ст. лейтенанта АЛИЕВА Гейдара Али Рза Оглы.

/за время пребывания в Ленинградской школе переподготовки руководящего оперативного состава МГБ СССР/.

Ст.лейтенант АЛИЕВ Г. с мая 1949 года по июнь 1950 года обучался в Ленинградской школе МГБ СССР и проявил себя только с положительной стороны. К учебе относился весьма серьезно. Много и настойчиво работал над изучением учебного материала. Прилежно и усидчиво готовился к классным и семинарским занятиям, дополнительно работая над повышением своего идейно-политического и общеобразовательного уровня во внеучебное время.

В результате на зачетах и экзаменах по всем изучаемым дисциплинам получил отличные оценки. На протяжении всего периода обучения являлся отличником учебы, за что приказом начальника школы ему об"явлена благодарность и занесен на доску почета отличников учебы школы.

В ходе учебы тов. АЛИЕВ приобрел значительные знания в области социально-экономических дисциплин, повысил свой общеобразовательный и культурный уровень и усовершенствовал свои знания по вопросам чекистской работы. Умело находит главное при решении оперативных вопросов, свободно и правильно ориентируется в оперативной обстановке, принимая правильные решения, всесторонне и мотивированно составляет оперативные документы.

Тов. АЛИЕВ отличную учебу сочетал с партийной и общественной работой, добросовестно выполняя партийные поручения. Во время выборов в Верховный Совет СССР работал агитатором на избирательном участке гор. Ленинграда.

Дисциплинирован, морально выдержан, в быту скромен, во взаимоотношениях с товарищами общителен, вежлив и тактичен. Среди слушателей пользовался авторитетом.

Заслуживает выдвижения по службе.

НАЧАЛЬНИК ЛЕНИНГРАДСКОЙ ШКОЛЫ МГБ СССР - П О Л К О В Н И К

21 июня 1950 г. /ПИНЧУК/.

СПРАВКА: До поступления в школу, тов. АЛИЕВ работал нач-ком 5 отделения ~~в г.~~ Вахичевано ~~по Араксе~~, МГБ ~~Азерб.~~ ССР.

---

Секретно

# ПРИКАЗ
## ПРЕДСЕДАТЕЛЯ КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СССР

за 196 год

№ 0158 СОДЕРЖАНИЕ: О награждении сотрудников 2 Главного управления КГБ при СМ СССР и Комитета госбезопасности при СМ Азербайджанской ССР.

№ 0158 9 сентября 1961 г. гор. Москва

За успешное выполнение специального задания и проявленную при этом инициативу и настойчивость -

ПРИКАЗЫВАЮ:

~~Объявить благодарность и~~ Наградить ценным подарком:

подполковника АЛИЕВА Гейдар Али Рза Оглы.

Объявить благодарность:

генерал-майору КАРДАШЕВУ Александру Васильевичу,
полковнику ЛЕОНОВУ Михаилу Александровичу,
капитану ЕЛИСЕЕВУ Николаю Михайловичу.

ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ

(А.ШЕЛЕПИН)

КОМИТЕТ ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СОЮЗА ССР

Хранить в личном деле

**— ВЫСШАЯ ШКОЛА —**

имени Ф. Э. Дзержинского

# СВИДЕТЕЛЬСТВО

об окончании курсов усовершенствования руководящего оперативного состава

Полковник

АЛИЕВ Гейдар Али Рза оглы

(звание, фамилия, имя и отчество)

с февраля по май 1966 г. обучался в Высшей школе им. Ф. Э. Дзержинского на курсах усовершенствования руководящего состава органов КГБ при СМ СССР.

За время обучения им сданы экзамены и зачеты по следующим дисциплинам:

| | |
|---|---|
| 1. Контрразведывательная работа органов госбезопасности СССР | отлично |
| 2. Основы советского уголовного права | зачет |
| 3. Основы советского уголовного процесса | зачет |

Кроме того, тов. АЛИЕВ Г.А.Р.о. прослушал цикл лекций по основам научного коммунизма, международному праву, специальной части советского административного права, советской криминалистике и военным дисциплинам.

Начальник Высшей школы КГБ при Совете Министров СССР генерал-майор танковых войск (ГРИШИН)

Начальник 3 факультета ВШ КГБ при Совете Министров генерал-майор (БЕТИН)

№ 465

21 мая 1966 г.

г. Москва

---

Присвоено звание

Приказ КГБ при СМ СССР

№ 136 от 30/X 1967 г.

Протокол №

от Пост. См СССР № 985 27/X-67

СЕКРЕТНО

(по заполнении)

Предельное звание, предусмотренное штатами: Генерал-майор

# ПРЕДСТАВЛЕНИЕ

к присвоению воинского звания Генерал-майора

(какого)

Кому Полковнику АЛИЕВУ Гейдару Али Рза оглы (личный № Б-01 II)

(звание, фамилия, имя, отчество, личный номер)

1. Должность председатель КГБ при Совете Министров Азербайджанской ССР

(с указанием места работы)

2. Год рождения 1923 3. Национальность азербайджанец Партийность чл.КПСС с 1945

5. Образование высшее, окончил Азербайджанский госуниверситет им.С.М.Кирова в 1957 г.

(что и когда окончил)

6. Время службы в Советской Армии, в органах и войсках госбезопасности с мая 1944 г., в Советской Армии не служил

(с указанием перерывов)

7. Дата и № приказа о присвоении предыдущего звания 31 марта 1965 г. № 181

АТТЕСТАЦИЯ

Тов. АЛИЕВ в органах госбезопасности с 1944 г., на руководящих должностях с 1945 г. Продолжительное время являлся начальником 2 отдела КГБ Азербайджана, с 1965 г. заместителем председателя, а с июня 1967 г. возглавляет Комитет госбезопасности при Совете Министров Азербайджанской ССР.

Обладает необходимыми организаторскими способностями. Хорошо зная национальные особенности и оперативную обстановку в республике, целеустремленно направляет подчиненных на выполнение стоящих задач.

В КГБ республики активно проводятся мероприятия по разработке разведчиков и агентов, посещающих республику в числе иностранцев, а также лиц, подозреваемых в проведении шпионской и другой враждебной деятельности. Ведется настойчиво работа по совершенствованию агентурного аппарата.

Много внимания уделяет организации работы периферийных органов КГБ. В решении служебных вопросов проявляет принципиальность и настойчивость. Принимает личное участие в разработке и проведении наиболее сложных мероприятий.

За умелое осуществление оперативных мероприятий неоднократно поощрялся, в 1962 г. награжден орденом Красной Звезды.

По личным качествам трудолюбивый, волевой и принципиальный руководитель.

Среди личного состава Комитета и партийно-советского актива пользуется авторитетом, избран кандидатом в члены ЦК КП Азербайджана и депутатом Верховного Совета республики.

Тов. АЛИЕВ заслуживает присвоения очередного воинского звания генерал-майора.

НАЧАЛЬНИК УПРАВЛЕНИЯ КАДРОВ КГБ при СОВЕТЕ МИНИСТРОВ СССР
полковник (ЧЕБРИКОВ)

ЗАМЕСТИТЕЛЬ ПРЕДСЕДАТЕЛЯ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ
при СОВЕТЕ МИНИСТРОВ СССР генерал-майор (ЦВИГУН)

25 октября 1967 г.

ЗАКЛЮЧЕНИЕ СТАРШИХ НАЧАЛЬНИКОВ

Тов. АЛИЕВ достоин представления к очередному воинскому званию генерал-майора.

ЗАМЕСТИТЕЛЬ ПРЕДСЕДАТЕЛЯ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СССР
генерал-полковник (ЗАХАРОВ)

« 25 » X 1967 г.

ЗАКЛЮЧЕНИЕ УПРАВЛЕНИЯ, ОТДЕЛА КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СССР

Представить тов. АЛИЕВА к присвоению очередного воинского звания генерал-майора.

ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ СССР

АНДРОПОВ

« 26 » октября 1967 г.

верно: [signature]

# ОПИСЬ

инвентаря, находящегося в комнате № 139, телефон № 21-06

| № п/п | Наименование предмета | | Кол-во 196_ год | Кол-во 196_ год | Примечание |
|---|---|---|---|---|---|
| 1 | Вентиляторы | | | | |
| 2 | Вешалки | стенные | | | |
| | | стоячие | 1 | | |
| 3 | Диван с кров.-не кров. | | 1 | | |
| 4 | Занавеси | тюлевые | | | |
| | | декоративн. | | | |
| | | х/бумажные | | | |
| | | [illegible] | 4 | | |
| 6 | Картотеки | малые | | | |
| | | большие | | | |
| 6 | Кресла | мягкие | | | |
| | | жесткие | 1 | | |
| 7 | Кассы | несгораемые | 1 | | |
| | | холодные | | | |
| 8 | Лампы | настольн. эл. | 1 | | |
| | | керосиновые | | | |
| 9 | Люстры | | 1 | | |
| 10 | Портреты | | 1 | | |
| 11 | Пишущие машинки | | | | |
| 12 | Плитки электрические | | | | |
| 13 | Печки электрические | | | | |
| 14 | Плевательницы | | 1 | | |
| 15 | Полотенца | | 1 | | |
| 16 | Радиоприемники | | | | |
| 17 | Репродукторы „Север" | | 1 | | |
| 18 | Сундуки железные | | | | |
| 19 | Счеты конторские | | | | |
| 20 | Стулья | Дубообразн. | 14 | | |
| | | Венские | | | |
| 21 | Столы | пись. 2 тумб. | 1 | | [illegible] |
| | | 1 тумб. | | | |
| | | приставные | 3 | | |
| | | для п/машин | | | |
| | | телефонные | | | |
| 22 | Стекла настольные | | | | |

| № п/п | Наименование предмета | | Кол-во 196_ год | Кол-во 196_ год | Примечание |
|---|---|---|---|---|---|
| 23 | Скатерти | [illegible] | 1 | | |
| 24 | Тумбочки | | | | |
| 25 | Часы | [illegible] | 1 | | |
| 26 | Чернильн. приборы | мраморные | | | |
| | | орг. стекло | | | |
| 27 | Чехлы на | диваны | | | |
| | | кресла | 1 | | |
| | | стулья | 14 | | |
| 28 | Шкафы деревян. | книжные | | | |
| | | канцелярск. | | | |
| | | картотечные | | | |
| 29 | Шкафы железные | 1 створчатые | | | |
| | | 2 створчатые | | | |
| 30 | Шторки | шелковые | | | |
| | | х/бумажные | | | |
| | | [illegible] | 8 | | |
| 31 | [illegible] | | 1 | | |
| 32 | [illegible] | | 1 | | |
| 33 | Ковров. дорожка | | 1 | | 2,95×2,1 |
| 34 | | | | | |
| 35 | | | | | |
| 36 | | | | | |
| 37 | | | | | |
| 38 | | | | | |
| 39 | | | | | |
| 40 | | | | | |
| 41 | Графины | | | | |
| 42 | Стаканы | | 1 | | |
| 43 | Пепельницы | | 1 | | |
| 44 | Блюдца | | 1 | | |
| 45 | Тарелки | | 1 | | |
| 46 | Корзины д/бумаг | | 1 | | |
| 47 | | | | | |
| 48 | | | | | |
| 49 | | | | | |
| 50 | | | | | |

Ответхранитель [signature] (Алиев Г.А.)

29 ноября 196_ г.

Сов. Секретно

Справка

(О том, как были ~~представлены~~ турецкие [«раскрыты»] ~~«[illegible]»~~ агенты, участвующие в комбинации „Дуэль“).

~~Справка~~

~~По делу „Дуэль“~~

В соответствии с данной агенту „Радист“ легендой [в период пребывания в Турции на допросах у турок] ~~что в числе своих знакомых~~ на территории СССР должен был назвать ряд наших агентов [„Юпитер“ и „Сабахлы“, как оказавших ему содействие] ~~из коих некоторые якобы оказали ему содействие~~ в нелегальном переходе границы, ~~„Моряк“~~ „Сейда“, как [„Моряк“, как [illegible]] своего дальнего родственника, „[illegible]“, „[illegible]“, „Балабек“ и „Акада“, как своих сослуживцев по совместному пребыванию у немцев.

При выработке мероприятий по делу ~~„Радист“~~ „Дуэль“ эта агентура нами подбиралась в основном с расчетом на то, что ~~эти лица~~ они по своему прошлому, а связями ~~с~~ ~~в Тур~~ за границей и на территории СССР могут заинтересовать турецкую разведку и тем самым мы будем иметь возможность в последующем подставить их турецкой разведке.

С этой целью „Радист“ по нашему заданию в отношении указанных агентов туркам рассказал следующие данные:

1. С агентом „Юпитер“ он впервые встретился в 1942 году в Лушвицкой развед-

школе немцев, куда он прибыл в числе группы военнопленных. Спустя 3 месяца „Юпитер“ был отправлен из Лушвица и ~~„Радист“~~ больше он ~~с ним в не встречался~~ его у немцев не видел. Вторично „Радист“ встретился с „Юпитером“ в 1948 году в гор. Баку, где последний рассказал, что после отъезда из Лушвица он 3-4 месяца обучался на курсах переводчиков и служил в [illegible] переводчиком, будучи на Украине, при отступлении немцев, остался в одном селении и по прибытии советских войск, как местный житель вторично был мобилизован в Советскую Армию, был на фронте и после окончания войны, как советский солдат ~~[illegible]~~ демобилизовался и вернулся домой, скрыв таким образом свое нахождение в плену у немцев.

В Баку „Юпитер“ устроился на работу в скульптурной мастерской, где и работает.

После этой встречи „Радист“ иногда ~~встречался~~ посещал квартиру „Юпитера“. Однажды будучи у „Юпитера“ познакомился с родственником его по жене агентом „Сабахлы“.

Впоследствии „Юпитер“ ~~[illegible]~~

"~~Радист~~" договорился с "Сабаклы", который и организовал переправу "Радиста" в Турцию.

~~Что~~ ~~и~~ "Юпитер" в курсе дела нелегального перехода "Радиста" в Турцию.

Агент "Юпитер" действительно был в плену у немцев и служил в ~~их~~ легионе в качестве переводчика. Однако "Радист" его у немцев не видел и не знал. ~~Перед выводом за кордон~~ "Юпитер" был показан "Радисту" на улице, ознакомлен его фотокарточкой и биографическими данными.

2. Агент "Сабаклы" по легенде проходит как родственник "Юпитера" по жене и якобы будучи у последнего на квартире "Радист" познакомился с ним.

"Радист", узнав, что "Сабаклы" является переселенцем из Армении и проживал в пограничных с Турцией районах, обратился к "Юпитеру" поговорить с ним, не может ли он за определенное вознаграждение помочь ему в деле нелегального ~~побега~~ ~~перехода~~ перехода в Турцию.

Через некоторое время "Юпитер" передал сообщение "Радисту", что он поговорил с "Сабаклы", который, хотя

и немного боится, но все же обещал помочь ему в этом деле.

Затем "Радист" ~~совме~~ совместно с "Юпитером" встретился с "Сабаклы", ~~с которым конкретно договорился~~ и который обещал за 5000 руб. организовать его переправу через границу в Турцию.

Спустя некоторое время "Радист" совместно с "~~Юпитером~~" "Сабаклы" выехал в Ведин-ский район Арм. ССР, где с помощью последнего ~~и~~ одного местного жителя, ~~личность которого "Радисту" не известна,~~ переправил его в Турцию.

В беседе с "Радистом" "Сабаклы" якобы рассказывал, что он в прошлом долгое время проживал в пограничных с Турцией районах Армении и нелегально переправил через границу много людей.

Агент "Сабаклы" действительно является переселенцем из Арм. ССР и ранее проживал в пограничных с Турцией районах, и по своему прошлому должен быть известен многим жителям пограничных сел Турции.

Перед выводом за кордон "Радист" по нашему заданию познакомился с ним у книжного киоска в г. Баку, где он работает и несколько раз под предлогом покупки книг встречался с ним, ~~[illegible]~~

Кроме того «Радист» был снабжен краткими биографическими данными «Сабахлы».

[redacted] Турция

3. Агент «Сеид» проходит по легенде как дальний родственник «Радиста» по отцу, проживающий в г. Баку.

~~Живя в~~

В беседе с «Радистом» якобы «Сеид» [illegible] рассказал, что он в ~~период~~ 1921-23 гг. имел близкое знакомство с работниками турецкого консульства в Баку и рядом турок из числа преподавателей бакинских школ. При отъезде из Баку указанные турки предлагали «Сеиду» выехать с ними в Турцию, ~~чему очень сожалеет~~ но он отказался, чему очень сожалеет.

~~Кроме того~~ «Сеид» очень часто восхвалял турок, турецких писателей и вообще Турцию, и все это ~~в определенной мере~~ ~~повлияло на «Радиста»~~ оказало определенное влияние на «Радиста», который решил бежать именно в Турцию.

В действительности «Сеид» в 1921-23 г. был камердинером быв. турецкого военного атташе турции в Баку Шерафаддин бея и сотрудничал с ним. После отъезда последнего связь «Сеида» с турецкой разведкой прервалась. В 1927 году он был арестован

[redacted]

и осужден за шпионскую деятельность на три года, по отбытии наказания вернулся в Баку.

«Радист» перед выходом за кордон по нашему заданию познакомился с агентом «Сеид», который рассказал ему кое-какие данные о про своей семье, родственниках и прошлом знакомстве с турками. Остальными же данными в отношении «Сеида», о которых «Радист» рассказал туркам, был снабжен нами.

4. В качестве своего знакомого по гор. Баку «Радист» назвал туркам агента «Мирза», рассказав, что он с ним познакомился в 1950 году через коменданта Нагорного парка культуры и отдыха им. Кирова Джаббарова Якова.

При последующих встречах с «Радистом» «Мирза» якобы рассказал, что он перед войной был арестован и осужден за кражу, но будучи в лагере, был отправлен на фронт, по окончании войны вернулся в Баку, женился, имеет сына по имени Рустам, работает комендантом 21 ПУ.

Рассказывая в отношении «Мирзы», «Радист» упомянул, что будучи на службе у немцев в г. Берлине видел одного эмигранта, прибывшего из Турции ________ Сфузайт бей. Поскольку фамилии его и «Мирзы» одинаковы, возможно они являются братьями.

В действительности «Радист» с агентом «Мирза» знаком не был, а перед выездом — отправкой за кордон по нашему заданию познакомился с ним и один раз был у него на квартире.

~~«Мирза» имеет в Турции отца~~

Отец «Мирзы» — ________ Абдуламбек

Мать ________ Салиханат, брат ________ — Сфузайт бей и другие братья и сестры одновременно эмигрировали в Турцию и проживают в г. Стамбуле.

Абдуламбек и Салиханат входят в ~~турецкий~~ мусаватский националистический центр и ведут активную борьбу против СССР.

В отношении нахождения отца, матери, других братьев и сестер «Мирзы» в Турции «Радист» ориентирован не был и об этом не знал.

5. Агенты «Ага», «Агаронов», «Талыбек» и «Ахад» проходят по легенде как сослуживцы «Радиста» по службе ~~службе у~~ немцев.

«Радист» кроме агента «Ахад» с остальными из них ~~знает~~ не знаком и по службе у немцев их не знает.

В связи с тем, что ~~сослуживцы~~ лица служившие с «Радистом» у немцев, ~~выходцы из Баку и Азербайджана~~ в основном арестованы, ему было поручено назвать у турок в качестве ~~своих сослуживцев по~~ служивших вместе с ним у немцев указанных выше агентов.

При этом «Радист» был снабжен краткими биографическими данными ~~в отношении~~ указанных этих агентов, ознакомлен их фотокарточками и приметами.

~~Агента «А~~

С агентом «Ахад» «Радист» находился ~~учился~~ вместе в немецкой разведшколе и лично с ним знаком.

Кроме названных агентов «Радаст» согласно нашему заданию на допросах у турок ~~в составе своих~~ в числе своих знакомых назвал Мамедова Абдул Рагима, проживающего в Кюрдамирском районе, брат которого ~~[illegible]~~ Мамед-заде Абдул Вахаб, активный мусаватист, в 19[illegible]-х годах эмигрировал в Иран, и по имеющимся данным в настоящее время находится в Турции.

Перед ~~его~~ уходом ~~его~~ в Турцию «Радаст» по нашему заданию выезжал в Кюрдамирский район и знакомился с Мамедовым Абдул Рагимом. Кроме этого он был нами снабжен краткими данными о брате ~~его~~ его — Абдул Вахабе.

Мамедов Абдул Рагим нами взят в разработку и изучается возможность его вербовки.

На допросах у турок «Радаст» назвал ~~своим хорошим~~ как своего хорошего знакомого коменданта нагорного парка культуры и отдыха им. Кирова — Джабарова Якуба, у которого около 2-х лет работал ночным сторожем и впоследствии поддерживал с ним приятельские отношения.

В действительности «Радаст» с Джабаровым Якубом не знаком, но перед уходом в Турцию ~~его~~ по нашему заданию несколько раз посещал ~~как~~ Джабарова Якуба в парке и знакомился с его внешними приметами.

Начальник 6 отделения 2 отдела
МГБ Азерб. ССР ст. лейтенант
(Алиев)

" " июня 1952 г.

Сов. Секретно

# Справка

16 июня 1956 года была направлена Начальнику Управления погранвойск МВД Закавказского округа генерал-майору тов. Банных С.А. телеграмма, в которой, сообщая об имевших место на границе войсковых мероприятиях (ракеты, выстрелы и т.д.) при задержании в ночь с 12 на 13-е июня нашего агента «Волгин», прибывшего из Турции, и проведенной инсценировке по поиску нарушителя границы, просим с целью закрепления этой операции и создания у турок мнения о том, что «Волгин» преодолел границу безнаказанно, дать указание 39 погранотряду направить соответствующему турецкому погранкомиссару представление о якобы уходе в Турцию неизвестного нам лица с просьбой принятия мер его розыска и возвращения обратно.

В этих же целях просим предполагаемую замену начальника погранзаставы на участке задержания «Волгина» произвести вскоре после названного представления туркам.

Зам. Нач. 2 Отдела КГБ при СМ Азерб. ССР
Подполковник (Алиев Г.) [signature]

21/VI-56 г.

---

эк. 13

СССР
**КОМИТЕТ
ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ
при СОВЕТЕ МИНИСТРОВ СССР**

2 Главное управление

7 февраля 1962 г.

№ 2/II-383

гор. Москва

Копия
Совершенно секретно
Экз. № 1

9.II.62 1264

НАЧАЛЬНИКУ 2 ОТДЕЛА КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ АЗЕРБАЙДЖАНСКОЙ ССР
подполковнику

тов. АЛИЕВУ Г.А.

гор. Баку

Тов. Гордееву
тов. Бакирову
Зейналову

Для сведения сообщаем, что в конце ноября 1961 года в Ливане специально прибывший туда представитель американской разведки провел секретное совещание с руководящими деятелями "Загранбюро" дашнакской партии: ТЕР-ГАЛУСТЯНОМ, СААКЯНОМ Арамом, ХАЧАТУРЯНОМ Ованесом и другими.

На совещании обсуждались вопросы об активизации разведывательной деятельности дашнаков против СССР, принятии мер, направленных на срыв решения Советского правительства относительно репатриации зарубежных армян в Советский Союз и принятия необходимых шагов для освобождения дашнаков, арестованных в 1961 году в Сирии за шпионскую деятельность (в этих целях американцами ассигновано 50 тысяч долларов).

По этим вопросам "Загранбюро" приняты решения о подготовке и направлении нелегально по каналам репатриации в Армянскую ССР с территории сопредельных стран агентуры для подрывной работы; об использовании в шпионских целях поездки в СССР групп туристов и отдельных армян к своим родственникам; о срыве предстоящей репатриации армян в Советский Союз путем использования всех средств, вплоть до совершения террористических актов в отношении лиц, которые активно будут содействовать репатриации. Эту работу дашнаки намерены проводить во всех странах, где имеется армянское население.

Особая роль ими отводится Ирану, учитывая общность его границ с Советским Союзом и сходство диалектов армянского языка в Иране и СССР.

Тов. Алиеву Г.А.
Прошу подготовить соответствующие указания периферийным органам.
[signature]
13.II.62

Копия.

ЯК/3

IO/579

26 июня 7

Секретно

экз.№ 2

ПЕРВОМУ СЕКРЕТАРЮ ЦК КП АЗЕРБАЙДЖАНА

товарищу АХУНДОВУ В.Ю.

В ночь с 23 на 24 июня о.г. на некоторых улицах города Степанакерта распространено около 300 листовок на армянском языке, отпечатанных на фотобумаге размером 8х9 см. Листовки содержат требования о присоединении Нагорного Карабаха к Армянской ССР и клеветнические измышления националистического характера.

Для установления авторов и распространителей листовок и проведения других необходимых мероприятий в город Степанакерт направлена оперативная группа.

ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ Азербайджанской ССР

/ Г.АЛИЕВ /

Верно: [illegible]

26.VI.67 [illegible]

---

Копия.

ЯК/3

IO/480

6 июня 7

Секретно

экз.№ 2

ПЕРВОМУ СЕКРЕТАРЮ ЦК КП АЗЕРБАЙДЖАНА

товарищу АХУНДОВУ В.Ю.

30 апреля сего года в аппарат уполномоченного КГБ при СМ Азербайджанской ССР в городе Степанакерте поступило сообщение, что некоторые учащиеся степанакертской средней школы № 2 хотят изготовить и распространить на Iе мая листовки с призывом к борьбе за присоединение Нагорного Карабаха к Армении.

В результате проведенных мероприятий было установлено, что инициатором этих намерений является ученик 9 класса САРКИСЯН Рома Егишевич, 1951 года рождения, член ВЛКСМ, отец которого САРКИСЯН Е., член КПСС, работает заместителем редактора газеты "Советский Карабах".

О своих планах САРКИСЯН Рома поделился с одноклассниками КАРАКЯНОМ Армансом Суреновичем, 1951 года рождения, членом ВЛКСМ и ГРИГОРЯНОМ Эдикином Арменаковичем, 1951 года рождения, членом ВЛКСМ, которые поддержали его инициативу и приняли участие в изготовлении на квартире КАРАКЯНА фотографическим способом 20 экземпляров вышеупомянутой листовки. Все они были найдены и изъяты.

САРКИСЯН, КАРАКЯН и ГРИГОРЯН во время опроса правдиво

обо всем рассказали, осознали и осудили свое неправильное и вредное поведение и заверили, что сделают для себя необходимые выводы.

В связи с изложенным, по согласованию с областным Комитетом партии, намечаем совместно с областным и городским комитетами комсомола, а так же дирекциями школ г.Степанакерта осуществить в отношении перечисленных выше лиц профилактические мероприятия.

5 мая в городе Степанакерте и в ночь с 15 на 16 мая в поселке Мартуни неизвестными лицами вновь были распространены листовки провокационно-националистического и клеветнического содержания в количестве 80 штук. В них, в частности, говорится об отсутствии в Степанакерте армянской литературы, о запрещении в НКАО говорить на родном языке и о ряде других явно надуманных измышлениях, в связи с чем авторы указывают на необходимость решительного выступления с требованиями о присоединении Нагорного Карабаха к Армении.

Листовки написаны на армянском языке, подражением печатному шрифту и размножены фотографическим способом. Распространение их велось в предутренние часы путем разбрасывания в людных местах, раскладки в телефонных будках и бросков в почтовые ящики.

Направленной в НКАО оперативной группе в результате предпринятых мер вскоре же удалось установить инициаторов изготовления и распространения листовок, которыми оказались:

ПЕТРОСЯН Марсоль Гайказович, 1948 года рождения, член ВЛКСМ, техник студии областного радиовещания, студент I курса заочного отделения филологического факультета Ереванского государственного университета. Еще в 1965 году, будучи секретарем Комитета комсомола школы № 2 г.Степанакерта, он совместно со своими товарищами изготовил от руки и распространил листовки политически невыдержанного содержания, а также пытался создать организацию под названием "Сова карабахской молодежи". В то время ПЕТРОСЯН полностью признал свою вину



и просил простить ему, в связи с чем было принято решение ограничиться профилактикой.

Отец ПЕТРОСЯНА работает крановщиком, является членом КПСС.

БЕГЛАРЯН Эдик Артемович, 1942 года рождения, член ВЛКСМ, образование среднее, работает заведующим методкабинетом Нагорно Карабахского Обкома ЛКСМ Азербайджана, до этого был на комсомольской и клубной работе в "Карпелкомбинате". Родители проживают и работают в колхозе.

МАТЕВОСЯН Георгий Егорович, 1942 года рождения, член ВЛКСМ, монтер Степанакертского электротехнического завода, учится в 9 классе вечерней школы. Родителей не имеет.

Как показало предварительное изучение, ПЕТРОСЯН, БЕГЛАРЯН и МАТЕВОСЯН, проникшиеся идеей присоединения Нагорного Карабаха к Армении, стали на путь сколачивания нелегальной группы, куда в основном вовлекали учащихся старших классов. При вскрытии группа насчитывала свыше 20 членов, причем была разделена на звенья, по 5 человек в каждом.

21 мая по инициативе ПЕТРОСЯНА и БЕГЛАРЯНА участники группы за городом с соблюдением элементов конспирации организовали сборище, где было принято решение именовать группу "Союзом арцахских патриотов" /арцах – древнее название Нагорного Карабаха/. На сборище обсуждались вопросы, касающиеся причин собрания, задачи группы и о членских взносах. Выступившие ПЕТРОСЯН и БЕГЛАРЯН говорили о том, что их действия не направлены против Советской власти, что азербайджанцев они не презирают и что речь идет лишь о дальнейшей борьбе за присоединение НКАО к Армении путем изготовления и распространения листовок, а также расширения состава группы. На покрытие расходов, необходимых для изготовления листовок было принято решение взимать с каждого ежемесячно по 1 рублю.

Выступавшие на сборище другие участники призывали к конспирации, советовали остерегаться органов КГБ, не выдавать

друг друга.

В настоящее время нами проводится работа по установлению возможно еще невыявленных членов этой группы и лиц, могущих оказывать вредное влияние на молодежь.

И.О.ПРЕДСЕДАТЕЛЯ КОМИТЕТА ГОСУДАРСТВЕННОЙ БЕЗОПАСНОСТИ при СОВЕТЕ МИНИСТРОВ Азербайджанской ССР

Самедов

/ Г.АЛИЕВ /

Верно: Ст. пом. нач. 3 отделения майор Полухин (Полухин)

---

ли/3

10/115

29 января 69

С е к р е т н о
экз. № 3

ПЕРВОМУ СЕКРЕТАРЮ ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

товарищу АХУНДОВУ В.Ю.

По имеющимся в Комитете государственной безопасности данным, получаемое Бакинским и Забратским объединенными авиаотрядами Азербайджанского управления гражданской авиации топливо для заправки самолетов Ил-18, Ан-24 и Вертолетов Ми-2 и Ми-8 в своем составе содержит больше допустимого мыло-нефтеновых кислот, которые приводят к интенсивному засорению фильтров вышеуказанных типов самолетов и вертолетов, что может привести к тяжелым летным происшествиям.

Проверка в Бакинском аэропорту, поступившего с завода им.Караева топлива Т-I показала, что оно имеет ниже допустимого государственным стандартом предел фильтруемости.

Загрязнение топлива происходит и на пути его транспортировки от завода изготовителя до нефтеналива. Так, готовая продукция поступает в старые товарные резервуары, часть которых не имеет герметических крыш. Отстой воды из резервуаров

тщательно не удаляется, а с ней не удаляется и попадающая в резервуары грязь.

Пункт налива топлива в железнодорожные цистерны (~~Вороншловский тупик~~) крайне загрязнен темными нефтепродуктами, отсутствует эстакада, из-за чего рабочие обслуживая цистерны и производя замер, заносят в них замазученную грязь.

Учитывая изложенное, Азербайджанское Управление гражданской авиации, с санкции Министерства гражданской авиации СССР, было вынуждено временно отказаться от снабжения топливом с Бакинских нефтеперерабатывающих заводов. В настоящее время самолетное топливо Бакинскому объединенному авиаотряду поставляется из города Грозного.

п/п ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ ПРИ СОВЕТЕ МИНИСТРОВ АЗЕРБАЙДЖАНСКОЙ ССР

Верно: [подпись]

( Г. А Л И Е В )

---

К о п и я

рс/3

[redacted]/46I

16 апреля 9

С е к р е т н о.

Экз.№ 2

ПЕРВОМУ СЕКРЕТАРЮ ЦК КП АЗЕРБАЙДЖАНА

товарищу АХУНДОВУ В.Ю.

По поступившим данным, среди некоторой части населения Иранского Азербайджана проявляется большой интерес к передачам азербайджанского радио и высказываются пожелания об увеличении количества передач на марксистско-ленинскую тематику, о современном коммунистическом и рабочем движении, об опыте строительства социализма и коммунизма в Закавказских республиках, об основах колхозного строя, о решении национального вопроса в СССР.

п/п ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ ПРИ СОВЕТЕ МИНИСТРОВ АЗЕРБАЙДЖАНСКОЙ С С Р

/ Г.АЛИЕВ /

Отп.3 экз.
I- в адрес
2- в Секретариат КГБ
3- в дело 5 отдела
исп.Септа
печ.Смирницкая 4.4.69г. с р.т.171

Верно: зам. нач. [illegible] [подпись] /[illegible]/

нт/2

Ю/107

31 января 9

Секретно

экз.№ 2

СЕКРЕТАРЮ ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

товарищу КОЗЛОВУ С.В.

По поступившим в Комитет госбезопасности при Совете Министров Азербайджанской ССР данным, на предприятиях Министерства промстройматериалов Азербайджанской ССР, Министерства нефтедобывающей промышленности Азербайджанской ССР, Министерства черной металлургии СССР, Управления Совета Министров Азербайджанской ССР по геологии, Объединения Совета Министров Азербайджанской ССР по цветной металлургии и Азербайджанского Управления "Союзвзрывпром", в Управлении Азербайджанской железной дороги, гражданского воздушного флота, Каспийского пароходства и добровольном обществе содействия армии, авиации и флоту (ДОСААФ) имеют место ряд серьезных недостатков в деле учета, хранения и использования оружия, боеприпасов и взрывчатых материалов.

За последние годы случаи утери служебного оружия и боеприпасов имели место в Управлении Азербайджанской железной дороги (в Кировабадской стрелковой команде ВОХРа), Управление гражданского воздушного флота (в Забратском аэродроме), а также в пограничных и в ряде других воинских частях.

На многих объектах вышеперечисленных министерств и ведомств неудовлетворительно поставлен учет взрывчатых материалов.

Так, например, в книге учета прихода и расхода Гюзденского базисного склада конторы морской геофизической разведки объединения "Морнефть" имеется отметка о поступлении I.IУ.68 года толовых шашек в количестве 33.490 кг., однако от кого принято и кому выдано это количество взрывчатых веществ не указано.

На некоторых складах отсутствуют образцы подписей ответственных лиц за расходованием взрывчатых материалов; допускаются исправления записей в книгах учетов прихода и расходования взрывчатых материалов, помещения многих складов находятся в запущенном состоянии, отсутствует противопожарный инвентарь и т.д. (склад Чираги-Дзорского рудника Министерства промстройматериалов, Северо-восточного рудника и базисный склад Министерства черной металлургии СССР, Загликского алунитового рудника Министерства цветной металлургии СССР, Парагачайского и Гюмушлугского рудоуправления объединения Совета Министров Азербайджанской ССР по цветной металлургии, Нахичеванской геолого-разведочной экспедиции, Азербайджанского филиала ВНИИ геофизики и др.)

Допускаются факты грубого нарушения трудовой дисциплины со стороны работников службы охраны (оставление поста); по ряду объектов количество постов караульной службы не обеспечивает надежную их охрану. (Базисный склад Министерства черной металлургии СССР имеет всего один пост).

Имеются нарушения также в вопросах хранения взрывчатых

веществ: отсутствуют помещения для хранения взрывчатых веществ, допускается смешанное хранение; во многих складах взрывчатые материалы хранятся в количестве, намного превышающем допустимые нормы.

Например, на базах центральной геофизической конторы треста "Азнефтегеофизика" расположенных на острове Артема и на Нефтяных камнях отсутствуют хранилища; на складах Азербайджанского филиала ВНИИ Геофизика взрывные патроны, заряды кумулятивные с детонаторами хранятся в одном помещении с взрывчатыми веществами; на складах Нахичеванского соляного рудника перегрузка детонаторами составляет 13.750 штук, на Чирагидзорском складе перегруз аммонитом составляет 4.477 кг.

Серьезные нарушения имеют место на Степанакертском расходном складе взрывчатых материалов, принадлежащем Азербайджанскому управлению "Союзвзрывпром". Так, например, накладные и путевки хранятся небрежно, книги учета ведутся не систематически, нет ответственного лица по учету взрывчатых веществ передвижного склада и др.

В результате указанных грубых нарушений в июле 1968 года взрывником САРКИСЯНОМ при доставке из Баку в Степанакерт было утеряно три ящика детонаторов (2.520 шт.).

В ноябре 1968 года в Шамхорской геофизической партии Управления Совмина по геологии при транспортировке утерян один ящик взрывчатых материалов весом 25 кг.

Указанные недостатки являются следствием того, что многие руководители предприятий и организаций не уделяют должного внимания вопросам улучшения учета, хранения и использования оружия, боеприпасов и взрывчатых материалов, несвоевременно выполняют предписания Госгортехнадзора и других контролирующих органов по устранению выявленных нарушений.

ПРЕДСЕДАТЕЛЬ КОМИТЕТА ГОСБЕЗОПАСНОСТИ ПРИ СОВЕТЕ МИНИСТРОВ АЗЕРБАЙДЖАНСКОЙ ССР

(Г.АЛИЕВ)

Верно

Uzun illər sonra, müstəqil Azərbaycanın prezidenti olarkən Heydər Əliyev görkəmli Azərbaycan yazıçıları ilə söhbət zamanı Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəblərini təhlil edərkən, erməni millətçilərinin Azərbaycan ərazilərinə iddialarının qarşısını kəsmək üçün necə böyük çətinliklərlə üzləşməli olduğunu, yüksək hakimiyyət dairələrində bəzən öz mövqeyini müdafiə etməyin heç də asan başa gəlmədiyini yada salırdı.

1969-cu ilin yayında Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən sonra, Dağlıq-Qarabağ Muxtar Vilayətini diqqət mərkəzində saxlayacaq və opponentlərinə DQMV-ni Ermənistana birləşdirməyin xeyrinə heç bir əsaslı dəlil vermənək üçün sırf siyasi metodlarla hərəkət etməyə üstünlük verəcəkdir. 70-ci illərdə onun «erməni» istiqamətində fəaliyyəti barədə kitabın ikinci hissəsində danışacağıq.

## Heydər Əliyev və Azərbaycan DTK-sının milli kadrları

1977-ci ildə Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları qarşısında çıxış edərkən Heydər Əliyev respublika DTN mərkəzi aparatında işə başladığı ilk dövrü belə xatırlayır: «Mən 1950-ci ildə Leninqradda bu orqanın ali məktəbini bitirəndən sonra Bakıda işləməyə başladım. O vaxt Dövlət Təhlükəsizliyi Nazirliyi adlanırdı. Təhlükəsizlik nazirliyinin əks-kəşfiyyat şöbəsi çox böyük şöbə idi. İlk dəfə məni o şöbədə bölmə rəisi təyin etdilər. Bu şöbənin altı bölməsi var idi, bircə şöbənin rəisi azərbaycanlı idi, üç müavini azərbaycanlı deyildi – ikisi erməni, biri başqa millətdən idi, ilk dəfə mən 1950-ci ildə azərbaycanlı kimi altı bölmədən birinə rəis təyin olunmuşdum. Qalan bölmə rəislərinin heç biri azərbaycanlı deyildi»[13].

İki ildən sonra Türkiyə və siyasi mühacirət bölməsinin başında daha bir azərbaycanlı, respublikanın gələcək xarici kəşfiyyat rəisi İ.Hüseynov durdu. General-mayor Hüseynov söyləyir ki, bu təyinat birmənalı qarşılanmadı:

«Bu onunla bağlıdır ki, o vaxt dövlət təhlükəsizliyi orqanlarında, xüsusilə 2-ci şöbədə, rəhbər vəzifələrdə ermənilər çox idi: məsələn, məndən əvvəl bu bölmənin rəisi erməni Konstantin

Aruşanov, bu qurumun fəaliyyətinə kuratorluq edən isə başqa erməni – Armais Akopov idi. Onların arasında, əlbəttə ki, təmiz, vicdanlı işçilər vardı. Amma saxtakarlar da az deyildi, bu yöndə xüsusilə Damazyan adlı birisi seçilirdi. İran bölməsinin rəisi olan bu adam, o vaxt şah hakimiyyətinin təqiblərindən tez-tez Sovet Azərbaycanına qaçan azərbaycanlılar arasından İran xüsusi xidmət orqanlarının agenturasını böyük «ustalıqla ifşa» edirdi. Belə pozuntular türklərə qarşı da baş verirdi: erməni millətçiləri hər zaman öz vətəndaşlarına Türkiyə və onun xalqına qarşı nifrət aşılayırdılar. Məhz bu səbəbdən də, cavan azərbaycanlı zabitin bu yüksək vəzifəyə, özü də daim Ermənistanı maraqlandıran xətt üzrə təyin olunması, saxtakarları açıq-aydın qane etmirdi»[44].

Yeri gəlmişkən, DTK veteranı, polkovnik-leytenant Məmmədəli Saracov xatırlayır ki, Damazyan 50-ci illərdə Abşeronda fəaliyyət göstərən filtrasiya məntəqəsində işləmiş Petrosov adlı bir nəfərin cinayətlərini ört-basdır etməyə cəhd göstərmişdi:

«Bizə məlumat daxil olmuşdu ki, o bu məntəqədə qanuna zidd olan hərəkətlərə yol verir, Cənubi Azərbaycandan bizim tərəfimizə keçənlərin ailə üzvlərini təhqir edir. Heydər Əliyev o vaxt 2-ci şöbənin rəisi vəzifəsinə təzə təyin edilmişdi, müavini isə Petrosova havadarlıq edən Damazyan idi. Hələ üstəlik məlum oldu ki, onun qohumu imiş.Heydər Əliyev mənə tapşırdı ki, bu məsələni araşdırım. Mən düşərgəyə getdim və informasiyanı yoxladım. Nəticələr ağlasığmaz idi, məsələn, dəqiq müəyyən olunmuşdu ki, Petrosov fərari ailələrindən olan həddi-buluğa çatmamış qızları zorlayırmış. Aparılmış yoxlama əsasında mən Petrosovun cinayət məsuliyyətinə cəlb olunması haqqında müfəssəl arayış hazırladım.

Heydər Əliyev arayışla tanış olub mənim təklifimi dəstəklədi. Yemelyanova məruzə etdi, o da göstəriş verdi ki, cinayət işi qaldırmaq üçün materiallar hərbi prokurorluğa təqdim olunsun. Heydər Əliyevin təkidi və prinsipiallığı nəticəsində Petrosovun işini hərbi prokurorluğa verdilər və hərbi tribunal cinayətkara 5 il iş kəsdi».

30-cu illərin sonuna yaxın, XDİK-in mərkəzi aparatında işləyənlərin əsas hissəsini ruslar, ermənilər, yəhudilər təşkil edirdi. Amma müharibədən sonra M.C.Bağırov hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrə yerli əhalidən olan kadrları daha



aktiv surətdə irəli çəkməyə başladı. Tarixçi E.İsmayılov Azərbaycanda DTN-in kadr strukturunu hərtərəfli təhlil edərək iddia edir ki, 1953-cü ilin əvvəli üçün DTN-də rəhbər işçilərin xeyli hissəsini azərbaycanlılar təşkil edib (təxminən 50%)[45]. Həm də DTN-də birinci şəxs rus idisə, bütün başqa nazirliklərə həmişə azərbaycanlılar rəhbərlik edirdilər. Müharibədən sonrakı illərdə Azərbaycan SSR prokuroru postunda bir-birinin ardınca Əfəndiyev, Əliyev, Rəhimov olub. Daxili işlər naziri vəzifəsini Yaqubov və Atakişiyev tutub. Ədliyyə nazirliyinə Əliməmmədov rəhbərlik edib. Aydəmirov və Ələkbərov Ali Məhkəmənin sədri olmuşlar. E.İsmayılov qeyd edir ki, 1951-ci ildə azərbaycanlılar artıq Azərbaycan SSR Prokurorluğunun kadr tərkibinin 75 faizini, o cümlədən mərkəzi aparat səviyyəsində 61 faizini təşkil ediblər. 1947-ci ildə Azərbaycan SSR Ali Məhkəməsinin 23 nəfərdən ibarət tərkibi seçilib. Onlardan 16 nəfəri azərbaycanlı, 5 nəfəri rus və yəhudi, 2 nəfəri erməni idi. Daxili işlər və ədliyyə nazirlikləri üçün də eyni mənzərə səciyyəvidir. E.İsmayılov hesab edir ki, bu meyil «həmin orqanların fəaliyyətində antiazərbaycanlı əhval-ruhiyyəsinin ortaya çıxmasını məhdudlaşdırır, yerli əhalinin həyat tərzi və psixologiyasının nəzərə alınmasına kömək edirdi. Və bu işdə M.C.Bağırovun rolunu görməmək insafsızlıq olardı»[46].

Dövlət təhlükəsizliyi orqanlarının azərbaycanlılaşdırılması prosesi Bağırovdan sonrakı dövrdə də davam etdirildi, ancaq, Heydər Əliyevin etiraf etdiyi kimi «çox çətinliklə, ağırlıqla. Ancaq 1960-cı ildən ki, ixtisar zamanı o şöbələri birləşdirməyə başladılar, biz çox iş görə bildik. Çox adamlardan, necə deyərlər, canımızı qurtardıq, çox adamlar xaric olundu və bu zaman gənc kadrlar irəliyə çəkildi, azərbaycanlılar rəhbər vəzifələrdə əksəriyyəti təşkil etməyə başladılar... Təxminən 1953-cü ildən saflaşma, sağlamlaşma prosesi gedibdir və mən də bu prosesin bilavasitə iştirakçısı, son illərdə də təşkilatçısı olmuşam»[47].

DTK-ya Şelepin və Semiçastnının, daha sonra Andropovun rəhbərlik etdiyi illərdə DTK-da rəhbər vəzifələrə komsomol, partiya işindən, inzibati işdən adamlar gəldi. Sosialist qanunçuluğunun möhkəmlənməsi davam edirdi, Stalindən sonrakı DTK əsaslı surətdə Sov.İKP-nin nəzarəti altına keçmişdi. Partiya nəhayət «yadına saldı» ki, orqanlara «siyasi rəhbərlik» etməli, onların işindəki özbaşınalığın qarşısını almalıdır. Halbuki DTK

veteranlarının çoxu orqanlara partiya və komsomol kadrlarının axıb gəlməsinə ehtiyatla yanaşırdı. DTK veteranlarından biri artıq «yenidənqurma» dövründə «Oqonyok» jurnalında dərc etdiyi «Susmaq ayıbdır» adlı məqalədə yazırdı: «Mənə elə gəlir ki, dövlət təhlükəsizliyi orqanlarının əllinci illərdən başlayaraq ta səksəninci illərə qədər (bəlkə də bugünə kimi), özünə aid olmayan funksiya və işlərlə məşğul olmasına kadr dəyişikliklərinin çox böyük təsiri olmuşdur. Qovulmuş «mütəxəssisləri» orqanların həyatına kütləvi səriştəsizlik, hakimi-mütləqlik və karyerizm gətirmiş partiya və komsomol funksionerləri əvəz etmişdi...»[48].

İcazə verin bu fikirlə razılaşmayım. Ola bilsin ki, orqanlara gələn gənc kadrların professional hazırlığı arzuolunan səviyyədə deyildi, əvəzində onların əlləri bulaşmamışdı, təmiz idi. Orqanlardan qovulmuş «mütəxəssislər» isə əsas etibarilə markaryan və borşşovların əlaltıları, heç bir gunahı olmayan on minlərlə insanı katorqalara və ya o dünyaya göndərən adamlar idi. H.Əliyevin bu qəbildən olan «sistem işçilərini» görməyə gözü yox idi, imkan düşən kimi onları kənarlaşdırırdı, yerlərinə isə təcrübə sarıdan bir qədər geri qalsalar da, özlərini Stalin repressiyaları ilə ləkələməyən adamlar götürməyə üstünlük verirdi. Fikrimcə, H.Əliyevin onlardan həm də ona görə zəhləsi gedirdi ki, o adamlar 50-ci illərdə az qala onun DTK orqanlarındakı onillik zəhmətini puça endirəcəkdilər.

Ramiz Məmmədzadə xatırlayır:

«Dəqiq bilirəm – o DTK-ya gələndən sonra gənclərin irəli getməsinə şərait yaratdı. Komsomolun zəmanəti ilə işə xeyli cavan adam götürdü, onları Moskvaya oxumağa göndərdi. Onlar da bir müddət sonra DTK-da ona dayaq oldular. Artıq o vaxt o bu qənaətə gəlmişdi ki, göhnə çekist məktəbi keçmiş əməkdaşlar 30-40-cı illərin metodları ilə işləyirlər, onların bilik səviyyələri, ideoloji təmayülləri günün tələblərinə cavab vermir...

Köhnə partiya işçiləri DTK-dan çəkinirdilər, Komitəyə inanmırdılar, etibar etmirdilər. Mən bir dəfə bunu artıq DTK sistemində işləyərkən Sumqayıt şəhər partiya komitəsinə yolum düşərkən, orada həmkarlarımla görüşərkən hiss etdim. Hər halda mən bu binada altı il işləmişdim. Ancaq köhnə yoldaşlarım məni görəndə söhbətlərini kəsdilər, tutuldular. Bir sözlə, söhbətimiz



alınmadı. Mən onlar üçün daha Ramiz Məmmədzadə yox, orqan əməkdaşı idim. Bu hal xüsusilə yaşlı nəsildə, Stalin repressiyaları dövrünü yaşamış insanlarda daha güclü idi.

Gənclər artıq başqa ruhda tərbiyə almışdı, ona görə Heydər Əliyevlə bizim baxışlarımız üst-üstə düşürdü, onunla bir yerdə işləmək bizə rahat idi. Təsadüfi deyil ki, o mənim zəmanətimlə komsomoldan DTK-ya təxminən on nəfər götürdü. Orqanlara 40-cı illərdə gəlsə də, onun çekist kimi formalaşması 50-ci illərə təsadüf edir. Necə olsa, o, «Xruşşov mülayimliyi»nin adamı idi.

DTK veteranlarından biri, general rütbəsinə qədər gəlib çatmış Bahadur Hüseynov söyləyir ki, milli kadrlar problemi Heydər Əliyevi həmişə narahat edib.

«Mən ilk dəfə Heydər Əliyeviçlə 1958-ci ildə Cəlilabad rayonunun Prişib qəsəbəsində rastlaşdım. O vaxt mən sərhəd qoşunlarında xidmət edirdim, podpolkovnik rütbəsində dəstə rəisinin kəşfiyyat üzrə müavini idim. DTK 2-ci şöbəsinin rəisi olan Heydər Əliyev Lənkəranda ezamiyyətdə idi və qayıdanbaş Prişib sərhəd dəstəsinə döndü. Tanışlığımız oradan başladı. Onun verdiyi ilk sual bu oldu:

– Burada azərbaycanlı çoxdur?

– Cəmi iki nəfərdir, – dedim, – mən, bir də kapitan Qasımov.

– Bəs niyə belə az, bu cür böyük dəstədə?

– Kadrları Bakıda və Moskvada seçirlər, – dedim.

– Biabırçılıqdır! Biz respublikadan əsgərliyə on minlərlə adam göndəririk, burada isə vur-tut iki nəfər var.

Onda mən başa düşdüm ki, orqanlarda, sərhəd qoşunlarında milli kadrların yoxluğu onu narahat edir. Mənim bu insan haqqında ilk təəssüratım belə idi...

Sonralar, onunla Azərbaycan DTK-sında işləyərkən, milli kadrlar haqqında necə narahatçılıq çəkdiyini mən daha aydın hiss etdim. Yadıma gəlir, məni Naxçıvana göndərəndə tapşırdı:

– Kadrların yetişdirilməsi ilə məşğul olun, onlar gərək günün tələblərinə cavab versinlər, irad tutmasınlar ki, guya azərbaycanlılar işləyə bilmir. Məsuliyyət daşımaq, işi təşkil etmək bacarığınızı tabeliyinizdə olan adamlarla mütləq bölüşün ki, gələcəkdə biz onları irəli çəkə bilək.

Heydər Əliyevin təşəbbüsü ilə 70-ci illərdə sərhəd qoşunlarına sərhəd dəstəsi, zastava, ştab rəisi vəzifələrinə xeyli

azərbaycanlı gəldi. Heydər Əliyev bütün istiqamətləri milli kadrlarla möhkəmləməyə çalışırdı. Və bu iş SSRİ dağılandan sonra Azərbaycan dövlətçiliyinin qurulmasında özünü doğrultdu».

İstefada olan general-mayor Mustafa Nəsirov 1968-ci ildə DTK sədrinin təşəbbüsü ilə Zaqafqaziya sərhəd dairəsi əməliyyat-qoşun şöbəsinin rəis müavini təyin edilməsinin tarixçəsini mənə danışdı.

1968-ci ildə milli sərhəd dairələri vahid Zaqafqaziya dairəsində birləşdirildi. Bu zaman qarşıya məsələ çıxdı ki, Zaqafqaziya sərhəd dairəsi dövlət sərhədinin belə böyük və mürəkkəb hissəsini idarə edə bilməz. Dairənin qoşunları beş respublikanın sərhədini qoruyurdu: Gürcüstanın, Ermənistanın, Azərbaycanın və qismən Rusiya Federasiyasının (Novorossiysk sərhəd dəstəsi), bundan əlavə Tükmənistanın dəniz hissəsinin. Buna görə qərara alındı ki, aralıq qurum kimi əməliyyat-qoşun şöbələri yaradılsın. Onları ərazi prinsipi əsasında Bakı, Yerevan, Aşqabad və Petrozavodskda yaratdılar.

M.Nəsirov xatırlayır: «Əməliyyat-qoşun şöbəsinə kimin rəis təyin olunması məsələsi ortaya çıxdı. Mən bunu dəqiq bilirəm, Heydər Əliyev Vəli Axundov vasitəsilə çalışırdı ki, rəis məni qoysunlar. Xatirimdədir, mən və bütün sərhəd dəstələrinin rəisləri Tbilisidə, Zaqafqaziya qoşunları dairəsinin rəisi general-polkovnik Peskovun kabinetində müşavirədə idik. Peskov SSRİ DTK sədri Semiçastnı ilə çox yaxın münasibətlərdə olduğundan özünü olduqca təkəbbürlü, arxayın aparırdı. Müşavirə vaxtı o hətta hökumət telefonunu da operativ növbətçinin otağına keçirmişdi. Növbətçi içəri daxil olub dedi: «Yoldaş general, birinci katib Axundov zəng vurur». Peskov ayağa qalxıb narazı halda dilləndi: «İndi Axundov xahiş edəcək ki, polkovnik Nəsirov əməliyyat-qoşun şöbəsinə rəis təyin olunsun».

Vəli Axundov həqiqətən məhz bu barədə xahiş etdi. Ancaq o vaxt belə xahişi yerinə yetirmək asan iş deyildi, çünki əvvəlcə dairə qoşunları rəisinin müavini vəzifəsinin ləğv olunması nəticəsində ixtisara düşmüş generalları «yerbəyer» edib işlə təmin etmək lazım idi. Əməliyyat-qoşun şöbələrinə məhz generallar – Kosovets və Donskoy rəis təyin edilmişdilər. Belə olan surətdə Heydər Əliyev Bakıda əməliyyat-qoşun şöbəsində ümumi məsələlər üzrə müavin vəzifəsi yaradılmasına və mənim bu vəzifəyə təyin olunmağıma nail oldu. O biri əməliyyat-qoşun şöbələrində ümumi məsələlər üzrə müavin vəzifəsi yox idi. Bizim üçün Heydər Əliyevin xatirinə müstəsna hal kimi bu icazəni verdilər. Onun milli kadrlara münasibəti belə idi. 1972-ci ildə isə mən əməliyyat-qoşun şöbəsinin rəisi və eyni vaxtda SSRİ DTK Qırmızı Bayraqlı Zaqafqaziya sərhəd dairəsi qoşunları rəisinin müavini oldum».



General Ziya Yusifzadə xatırlayır ki, 1980-ci ildə onu DTK sədri təyin edən zaman birinci katib Azərbaycan çekistlərinin kadr tərkibinin təzələnməsi barədə göstəriş vermişdi. Özü də konkret rəqəmlərlə: 1981-ci ildə Azərbaycan millətindən olan cavanlardan xüsusi xidmət orqanlarına 40 nəfər, növbəti ildə isə daha 30 nəfər işə götürülsün. Bundan əlavə, Heydər Əliyev tapşırdı ki, hər il Dzerjinski adına SSRİ DTK ali məktəbinə sonradan respublikaya qayıtmaqla silahlı qüvvələrdə xidmətdə olmuş 20-yə qədər azərbaycanlı göndərilsin. Bu uzaqgörən göstərişlər çekist kadrlarının azərbaycanlılaşdırılmasına xidmət edirdi. İllər keçəcək, XX əsrin sonlarında məhz Heydər Əliyevin irəli çəkdiyi adamlar büsbütün dəyişmiş tarixi və geosiyasi şəraitdə qarşısında tamamilə yeni vəzifələr duran Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin özəyini təşkil edəcəklər.

Azərbaycan dövlət təhlükəsizliyi orqanlarının qocaman əməkdaşlarından biri, istefada olan polkovnik Adil Bağırov, mənə Heydər Əliyevin DTK-ya işləmək üçün seçilən gənc namizədlərlə necə söhbət etdiyi barədə danışdı:

«İkinci şöbəyə gələndən sonra, o «qocalardan» yaxa qurtarıb şöbəyə cavanları gətirməyə başladı. Onları özü seçirdi, böyük diqqətlə. Hər biri ilə vaxta qənaət etmədən təkbətək söhbət edirdi. İntellektual səviyyəsini, həmsöhbətin rəğbətini qazanmaq bacarığını, fərasətini, dünyagörüşünü yoxlayırdı. Mütləq maraqlanırdı ki, namizəd hansı kitabları oxuyur, doğma Azərbaycan yazıçı, şairlərini tanıyırmı, öz ölkəsinin tarixini bilirmi? Bir dəfə namizədlərdən biri Sabirin şerini əzbərdən dedi. Bu, Heydər Əliyeviçi elə sevindirdi ki, dərhal onun əmrini imzaladı. Yeri gəlmişkən, Andropov da həmişə deyərdi: çekist səviyyəsinə görə işləyəcəyi (yaxud onlara qarşı işləyəcəyi) adamlardan üstün olmalıdır. O inandırmağı bacarmalıdır, bunun üçünsə böyük intellektual potensiala malik olmaq lazımdır.

O vaxt respublikada DTK məktəblərində təhsil almış professional çekistlər çox deyildi. Ona görə də bizim ekspertlər perspektivli gəncləri müəssisə, idarə, institutlardan seçirdilər. Bizdə mühəndislər də, filoloqlar da, bir sözlə, fiziklər də, liriklər də işləyirdi. Sonra onları oxumağa Moskvaya, Leninqrada göndərirdilər. Bakının özündə də birillik Diyarlararası DTK məktəbi vardı».

Aşağıda orqanlara komsomol və partiya işindən general Əliyevin "xeyir-duası" ilə gəlmiş, mənimlə həmsöhbət olan keçmiş sovet DTK-sının bir neçə təcrübəli çekistinin xatirələrini veririk:

«1965-ci ildə məni DTK orqanlarına dəvət etdilər. Əli-Bayramlı şəhər komsomol komitəsinin birinci katibi idim. Mən və Bakı şəhər komsomol komitəsinin birinci katibi Şakir Kərimov komissiya və müsahibədən keçdik. Ancaq son anda Azərbaycan LKGİ MK məni buraxmadı. Mərkəzi Komitənin birinci katibi Maqsud Əlizadə məni çağırıb məzəmmət etdi: heç 26 yaşın yoxdur, şəhər komitəsinin birinci katibisən, hara tələsirsən? Mən Əli-Bayramlı DRES-inin zərbəçi komsomol tikintisinə də rəhbərlik edirdim.

1967-ci ildə Sviqunun yerinə Heydər Əliyev gəldi. O ilk növbədə gənc kadrların seçilməsi ilə məşğul olmağa başlayır. Kadrlar şöbəsinin əməkdaşından orqanlarda işləmək üçün tövsiyə edilənlərin şəxsi işlərini gətirməyi xahiş edir. Digərləri ilə bərabər mənim işimi də ona təqdim edirlər. Başa salırlar ki, iki il qabaq məni MK buraxmayıb. Heydər Əliyev gülümsəyir: «Onda buraxmayıb, indi buraxar», ancaq xahiş edir ki, mənimlə bir də danışsınlar, bəlkə cavan oğlan fikrini dəyişib, hər halda üstündən iki il keçib.

Məni tapıb xahiş etdilər ki, DTK sədri ilə müsahibə üçün gəlim, ancaq bu barədə heç kim bilməməlidir. Şəhər partiya komitəsinin birinci katibindən icazə aldım, ertəsi gün Komitədə idim. Üçə on dəqiqə qalmış məni sədrin qəbul otağına apardılar. Növbətçi dedi: «Gözləyin, onun yanında hesabat verməyə gəlmiş adam var». Hətta o adamın familiyası da yadımdadır: Straxov, radio əks-kəşfiyyat rəisi. Düz üç tamamda Heydər Əliyev məni qəbul etdi.



İlk təəssüratım: hündürboy, yaraşıqlı, əynində yaxşı tikilmiş kostyum olan adam. Qalxıb mənimlə səmimi görüşdü: "Arif, keç içəri, əyləş!"

Söhbətin mövzusu çox geniş idi, onunla demək olar ki, hər mövzuda danışırdıq – musiqi, ədəbiyyat, tarix, klassiklərimiz. O bilirdi ki, mən rus dili və ədəbiyyatı fakültəsini fərqlənmə ilə bitirmişəm. Ona görə də rus ədəbiyyatına toxunmadı, ancaq Azərbaycan ədəbiyyatından biliklərimi yoxladı. Mən dedim ki, Bəhmənyar, Fələki Təbrizi, Qövsi Təbrizi, Zülfüqar Şirvanidən başlayaraq doğma ədəbiyyatımıza həmişə maraq göstərmişəm. Götürək elə Zülfüqar Təbrizini, virtuoz idi, hər sətrində üç qafiyə var.

Mənim bilgilərimdən məmnun oldu. Sözarası soruşdu ki, mənim fikrimcə kimdir indi müasir Azərbaycan poeziyasının ən görkəmli nümayəndəsi? Dedim ki, Bəxtiyar Vahabzadəni yüksək qiymətləndirirəm. O susdu, sonra birdən soruşdu: «Bəs «Gülüstan»* barəsində nə deyə bilərsiniz?». Cavab verdim: «Heydər Əliyeviç, baxır poemaya hansı aspektdən, hansı tarixi nöqteyi-nəzərdən yanaşasan. Əlbəttə, problemli məsələdir. Ancaq bu, axı, şair xəyalının məhsuludur». Əliyev gülümsündü: «Bəlkə də siz deyən düzdür».

Söhbətimiz 1 saat 50 dəqiqə çəkdi. Heydər Əliyevi MK-ya çağırdılar. O vidalaşmaq üçün qalxdı və dedi: «Arif, mən hesab edirəm ki, söhbətimiz alındı. Sənə nə deyə bilərəm? İstədiyin vaxt DTK-da yerin var, komsomolla vidalaşanda, buyurub gələ bilərsən. Məsələ həll olunub!»

Cavabında dedim: "Mənim də arzum var: gələn görüşümüzdə sizi general görmək istəyərdim". O, güldü. Elə də oldu – çox keçmədən onu general-mayor rütbəsinə təqdim etdilər.

Bir həftədən sonra mənə LKGİ MK birinci katibi Elmira Qafarova zəng vurur: «Nə olub, yenə hara yığışmısan?» Başa düşdüm ki, yuxarıda işə təkan verilib. O təsdiqlədi: «Heydər Əliyeviç zəng vurmuşdu mənə. Hesab elə ki, MK-nın qərarı stolumun üstündədir».

---

* B.Vahabzadənin Xruşşov «mülayimləşməsi»nin qızğın vaxtlarında yazdığı poema. Əsərdə iki dövlət arasında bölünmüş Azərbaycan xalqının faciəsindən bəhs olunur.

Bir neçə gündən sonra mən DTK-ya keçdim. Mən qəfildən, xüsusi hazırlıqsız, məktəbsiz gəlmişdim. Bu nadir hallarda olur. Məni 1967-ci ilin dekabrında işə götürdülər. 5-ci şöbənin dördüncü bölməsinə. Bölmə anonim sənəd müəlliflərinin axtarışı ilə məşğul olurdu. Elə-belə anonimkaların yox, partiya, sovet xadimlərinin, deputatların və s. ünvanına hədə-qorxu olan anonimkaların.

İşə çıxdım, dörd tərəfimə iş istiqamətimin spesifikasına uyğun dərslikləri, vəsaitləri yığdım: anonimka müəllifinin xətti, xüsusiyyətləri, xarakteri. Təxminən on gündən sonra Heydər Əliyev kabinetimə baş çəkdi. Xəbərdarlıq etmədən. Bu onun iş üslubu idi – gözlənilmədən Komitəni gəzib yoxlamaq. Ayağa qalxdım. «Otur, otur! Bu nədir belə, iş vaxtı kitab oxuyursan?» «Bu bədii ədəbiyyat deyil, təzə işimə aid dərsliklərdir». O, kitabları vərəqlədi, tapıb gətirdiyim təlimatları gözdən keçirdi. «Hə, bunu mən bəyənirəm. Sən deyəsən hər şeyin axırına çıxan adamsan. Başqaları gözləyir, nə vaxt onlara başa salacaqlar. Sən isə ədəbiyyatı özün tapmısan, – sonra əlavə etdi: – Ümumiyyətlə mən yoldaşların səhvini düzəldəcəyəm. Səni gərək bu sahəyə göndərməyəydilər. Sənə canlı iş tapşırmaq lazımdır. Bu sahədə isə qoy təcrübəli işçilər otursunlar, təqaüdə bir-neçə ili qalanlar. Eybi yox, səni bir azdan oxumağa göndərəcəyəm».

1968-ci il yanvarın dördündə o məni çağırıb dedi: «Arif, səni Kiyev DTK məktəbinə təqdim etdim». Bu, nüfuzlu, yaxşı şəraiti, əla müəllimləri olan məktəb idi. Operativ heyətin yarımillik hazırlıq məktəbi. Ancaq oranın bir ili iki ilə dəyərdi. Mən həmin məktəbi fərqlənmə ilə bitirdim. Bir neçə ildən sonra oradaca rəhbər heyət məktəbini qurtardım. Daha sonra Moskvada DTK ali rəhbərlərinin kurslarını».

*(Arif Zeynalovun xatirələrindən)*

«1977-ci ildə mən rayon partiya komitəsinin ikinci katibi işləyirdim. Sovet dövründə komsomol, sovet, partiya rəhbər işçilərini vaxtaşırı oxumaq üçün Moskvaya, İctimai Elmlər Akademiyasına, Ali Partiya məktəbinə, digər təhsil ocaqlarına göndərirdilər. Bizim iş yerinə də İctimai Elmlər Akademiyasından gəldilər, bir neçə partiya işçisi ilə söhbət edib mənim namizədliyimin üzərində durdular.



Heydər Əliyev məni yanına dəvət etdi. Heç ağlıma da gəlməzdi ki, o mənə oxumaq üçün İEA-ya deyil, DTK Ali məktəbinə getməyi təklif edə bilər. Bir saatdan çox danışdıq, bu mənim H.Əliyevlə ilk söhbətim idi. Dedi ki, mənim üçün İctimai Elmlər Akademiyasına yol açıqdır. «Ancaq məsləhət görərdim ki, DTK Ali məktəbinə gedəsən». Fikrini belə əsaslandırdı ki, sovet hakimiyyətinin ilk illərindən DTK-da əsas etibarilə azərbaycanlı olmayan adamlar işləyiblər. Azərbaycan xalqının başına 30-50-ci illərdə gələn bəlaların bir səbəbi də bundadır. O vaxt SSRİ ideoloqları yeni birlik yaradırdılar – sovet xalqı, milli maraq məsələləri isə heç vaxt müzakirə predmeti kimi ortaya çıxarılmırdı. Bir sözlə o məni inandırdı: dedi ki, millətə, xalqa xidmət etmək istəyirsənsə, bu sahə daha məqsədəuyğundur. Bax, beləcə, yetkin vaxtımda, 37 yaşında mən professional maraq dairəmi kəskin surətdə dəyişdim. İki il Moskvada oxudum. bu illər ərzində Heydər Əliyevin qayğı və diqqətini hiss etdim. Hərdən MK xətti ilə mənə maddi köməklik də göstərirdilər. Qayıdandan sonra o həmişə məni özü irəli çəkdiyi kadr kimi himayə edirdi».

*(Azərbaycanın sabiq dövlət təhlükəsizliyi naziri, general-polkovnik Namiq Abbasovun söhbətindən)*

«H.Əliyev milli kadrların tərbiyəsinə xüsusi diqqət yetirirdi. 60-cı illərdə DTK-da azərbaycanlıların say tərkibi o qədər də böyük deyildi. Bəzi vəzifələrə, məsələn istintaq, operativ-texniki, radiokəşfiyyat şöbələrinə rus və yerli olmayan başqa millətlərin nümayəndələrini daha həvəslə təyin edirdilər. Bakının rayon şöbələrinin rəisləri də rus və ya ermənilərdən təyin edilirdi. Heydər Əliyev DTK-ya rəhbərliyə gələndən sonra DTK-nın şəxsi heyətində azərbaycanlıların faizi artmağa başladı. Məsələn, 1967-ci ildə mənimlə bir yerdə daha iki azərbaycanlı Minskə ali DTK kurslarına göndərildi. Bizdən əvvəl orada milli kadrlardan 4 nəfər oxumuşdu, bizdən sonra daha 5 nəfər göndərildi.

O cavanlarla ünsiyyətdə olmaqdan, bilik və bacarığını onlarla bölüşməkdən zövq alırdı. Yadımdadır, o çıxışlarında F.Dzerjinskinin bir ifadəsini tez-tez təkrar edərdi: «Çekistin beyni soyuq, ürəyi alovlu, əlləri təmiz olmalıdır». Onun fenomenal yaddaşı var idi, bütün əməkdaşlarını, hətta cavanları belə adı ilə tanıyırdı. Ümumrespublika müşavirələrinin birində işlətdiyi ifadə heç vaxt

yadımdan çıxmayacaq: «Yaxşı əməkdaş rütbə və vəzifə dalınca qaçmaz. Rütbə və vəzifə özü gəlib yaxşı əməkdaşı tapacaqdır».

*(MTN əməkdaşı Pərviz Hətəmzadənin söhbətindən)*

«1963-cü ildə, Orconikidze rayon partiya komitəsində təlimatçı işləyərkən, məni DTK orqanlarına dəvət etdilər. 1964-cü ildə mən Minskə əks-kəşfiyyat xətti ilə SSRİ DTK Ali kurslarına göndərildim.

2-ci şöbədə işləyəndə, divar qəzetimiz üçün məqalələr yazırdım. O vaxt artıq Azərbaycan DTK sədrinin müavini işləyən Heydər Əliyevin diqqətini də elə bu cəlb etmişdi. Hələ o illərdə, mən leytenant rütbəsində adi əməliyyat müvəkkili olduğum vaxt, o bir neçə dəfə məni söhbət üçün kabinetinə dəvət etmişdi. Onun ümumiyyətlə iş üslubu belə idi: komitəyə gələn bütün adamları dərindən öyrənirdi, hər birinin şəxsiyyəti, bacarıq və qabiliyyəti, tələb və ehtiyacı ilə maraqlanırdı. İstər gənc olsun, istər yaşlı nəslin nümayəndəsi, heç kimi diqqətdən kənar qoymazdı.

Bir də gördün, səni yanına çağırıb elə «ovsunlayıb» ki, ən yaxın adamına söyləmədiyini də açıb ona danışırsan. Ancaq elə ki sual verməyə başladı, başa düşürsən ki, o, səni sənin özündən yaxşı tanıyır. Məsələn, o bilirdi ki, mənim atam cəbhədə həlak olub, anam rusdur, mən əvvəlcə çilingər, sonra elektrik montyoru işləmişəm. AzSİ-nin energetika fakültəsində oxumuşam, əvvəl qiyabi, sonra axşam şöbəsində. O, evdəki vəziyyət, ailəmiz barədə soruşurdu, hazırda nə ilə məşğul olmağımı, ehtiyaclarım barədə maraqlanırdı, işlə əlaqədar məsləhətlər verirdi. Hərdən heç bir əhəmiyyəti olmayan xırda şeylərlə elə maraqlanırdı, elə bilirdim atam mənə öyüd-nəsihət verir. Mən həmişə onun yanından ruh yüksəkliyi ilə çıxırdım, söhbətləri mənə qanad verirdi.

Bu insan dövlət təhlükəsizliyi orqanlarındakı işi çox sevirdi. O istəyirdi ki, onunla bir yerdə çalışan adamlar irəli getsinlər, professional səviyyələrini yüksəltsinlər. Belə sorğu-suallarla o sanki özü üçün seçim aparırdı – kimə arxayın olmaq olar, kimə isə bir o qədər də yox, kimə inanmaq olar, kimə yox. O incə psixoloq idi.

Komitənin Kollegiya rəhbəri və üzvü olduğundan, Heydər Əliyeviç əməkdaş və vətəndaşları şəxsi məsələlərlə bağlı hər gün qəbul edirdi. İnsanların rəğbətini qazanmağı, sözlərini kəsmədən hövsələ ilə dinləməyi bacarırdı, çox vaxt da xahişlərini yerinə yetirirdi. Ona görə həm sadə insanlar, həm də yaradıcı ziyalılar, alimlər, jurnalistlər ona tərəf meyl göstərər, yaxın olmağa çalışardılar. Bu hal ona respublika üzrə qiymətli və geniş məlumat əldə etməyə və bunu nəzərə almaqla DTK aparatının işini tənzimləməyə imkan yaradırdı.

DTK-nın rəhbəri olduğu zaman o bütün çekist kollektivinin iş səviyyəsini artırmaq istiqamətində çox işlər gördü. Heydər Əliyeviç tez-tez operativ müşavirələr keçirir, partiya iclaslarında həmişə iştirak edirdi, partiya xətti ilə 2-ci şöbəyə təhkim olduğundan bu şöbə ilə əlaqəsi daha sıx idi. Həmişə özü gəlib partiya üzvlük haqqını ödəyirdi. Üzvlük haqqı üçün partiya özəyinin katibinə heç vaxt kabinetinə gəlməyə icazə verməzdi. Hərdən o kabinetindən çıxıb bütün komitəni gəzərdi. Ondan əvvəlki sədrlər DTK kabinetlərində olmurdular. O isə gəlirdi: söhbət edirdi, iş barədə soruşurdu, şəraitlə tanış olurdu, iradlarını bildirirdi. Yəni o kollektivi daim səfərbər vəziyyətdə saxlayırdı, hamı bilirdi ki, Heydər Əliyeviç istənilən vaxt otağa daxil olub bizim nə işlə məşğul olduğumuzu görəcək».

*(İstefada olan polkovnik Albert Salamovla söhbətdən)*

«Bir neçə il ərzində o, demək olar ki, kadr məsələsində inqilab etdi. Kadrları təzələdi, bir çoxlarını DTK məktəblərinə oxumağa göndərdi, onlar üçün Mərkəzdə yerlər «açdı». Milli tərkib xeyli dərəcədə dəyişildi, orqanlara çoxlu sayda gənc azərbaycanlı kadrlar gəldi.

Heydər Əliyevin cavan çekistlərlə keçdiyi dərslər mənim yadımdadır. Bizdə ümumi zal var idi, cavan işçilərlə dərslər müntəzəm olaraq orada keçirdi. Daha təcrübəli əməkdaşlardan biri öz sahəsi üzrə biliklərini cavanlarla bölüşürdü. Heydər Əliyeviç sədr müavini, sədr olanda da bu dərslərdə iştirak edirdi. O, gənclərə praktik iş vərdişləri aşılamağa çalışırdı».

*(DTK veteranı Zaur Əfəndiyevin xatirələrindən)*

Heydər Əliyev müstəqil və iradəli DTK rəhbəri idi. Və Mərkəz hər hansı məsələni, xüsusilə də kadrlarla bağlı olan məsələni, onunla məsləhətləşməmiş həll edəndə xoşuna gəlmirdi. Hətta bu kadrların vəzifəsi yüksəldiləndə də. Bununla bağlı Ək-

rəni Səlimzadə mənə H.Əliyevin rəhbər keyfiyyətlərini aydın göstərən maraqlı bir epizod danışdı.

Sovet qoşunlarının Çexoslovakiyaya girməsi ərəfəsində SSRİ DTK-sında 80 nəfərdən ibarət «tsinyev» qrupu adlanan dəstə formalaşdırıldı. Bu qrup Moskva ətrafındakı Qolitsinoda yerləşən kəşfiyyat məktəbində bir neçə müddət hazırlıq keçmişdi. Azərbaycan çekistlərindən bu qrupa 2-ci şöbənin rəis müavini Vladimir Qavriloviç Bantserev, sədrin köməkçisi Vladimir Trofimoviç Yarovov və bir də Səlimzadə özü daxil edilmişdi.

«Biz yola düşməyə hazırlaşırıq, – Səlimzadə yada salır, – birdən üçümüzü, bakılıları Svıqunun yanına çağırırlar. Gəlirik DTK-nın Lubyankada yerləşən mərkəzi aparatına. Sviqunun köməkçisi, polkovnik Podorojkin məruzə edir və biz kabinetinə daxil oluruq. Semyon Kuzmiç hamımızın əlini sıxıb görüşür. O, Bantserevin və Yarovovun xatirini çox istəyirdi. Sonuncu onun köməkçisi olmuşdu, onlar ötən günləri yada salmağa başlayırlar.

– Mən Azərbaycanda kabab yeyib konyak içirdim, – deyə Sviqun gülümsəyir, – burada isə məni tutublar qatığa.

Çay gələndən sonra Sviqun dedi:

– Hə, dostlar, Çexoslovakiyaya gedirsiniz. Azərbaycanın adını batırmayın, mən sizin namizədliyinizi vermişəm. Heydər Əliyeviçə zəng vurub məhz sizi ezam etməyi xahiş etmişəm, çünki bilirəm, bizi pis vəziyyətdə qoymazsınız, etimadı doğruldarsınız. Açıq deyirəm, bu hadisələrdən sonra mən sənə, Vladimir Qavriloviç, general vəzifəsi təklif edirəm. Almaniyada, sovet qoşunları qrupunda qalıb işləyəcəksən. Səni, Vladimir Trofimoviç, – o, Yarovova müraciətlə dedi, – general rütbəsinə məsləhət görəcəyəm, Bolqarıstana xüsusi şöbə rəisi gedəcəksən. Əkrəm, sən isə Moskvaya, SSRİ DTK-sında işləməyə gəl. Öyrət buradakılara necə işləmək lazımdır!

Mən səsimi çıxartmıram, ürəyimdə fikirləşirəm – nə Moskva? Moskvada işləmək istəmirəm.

Hələ 1967-ci ildə, valyutaçılarla mübarizə başlayanda, Heydər Əliyeviç, artıq DTK sədrı olan zaman, məni yanına çağırıb dedi:

– Əkrəm, gedirsən Moskvaya işləməyə, istintaq şöbəsinə.

– Bacarmaram, Heydər Əliyeviç.

– Necə yəni bacarmaram? – o təəccübləndi. – Onlar rus dilini bilən, yaxşı hazırlıqlı azərbaycanlı istəyirlər. İndi valyutaçılarla mübarizə gedir. Orada həbsxanaya çoxlu valyutaçı azərbaycanlılar düşür. Onlara azərbaycanlı lazımdır, mən başqasını göndərə bilmərəm, qorxuram biabır edər.



Mən o vaxt imtina etdim, çünki atam ağır xəstə idi. İflic vurmuşdu, mən də ona qulluq edirdim.

Məsələni Heydər Əliyeviçə başa salıram, o isə deyir:

– Erməni olsaydın gedərdin. Biz azərbaycanlılarda isə doğma yurda bağlılıq qanımızdadır.

İndi, üstündən bir il keçmiş Moskvada işləməyi mənə Sviqun təklif edir.

Dinməzcə oturmuşuq, Bantserev pul kimi qızarıb.

Mən təkcə bunu dedim:

– Çox sağ olun, Semyon Kuzmiç. Mən Moskvada tədqiqatçı qismində aspiranturaya daxil olmuşam. Semyon Kuzmiç, hesab edirəm ki, bu problemi ezamiyyətdən qayıdandan sonra həll etmək olar.

– Aspiranturaya, çox yaxşı. Hə, çalış qurtar. Nə lazımdırsa görək edərik.

Sviqun çox xeyirxah adam idi. Biz onu sevirdik.

Sviqunun yanından çıxdıq, Bantserev deyir:

– Heydər Əliyeviçə məruzə etmək lazımdır.

Elə o saat hökumət telefonu ilə zəng vurdu:

– Heydər Əliyeviç, Bantserevdir, Semyon Kuzmiçin qəbul otağından danışıram.

Heydər Əliyeviç hiddətləndi:

– Nə gəzirsən orada?

– O bizi çağırmışdı, Əkrəm Səlimzadə ilə Yarovov da buradadır. Semyon Kuzmiç deyir ki, mən indi arvadımla məsləhətləşim, o məni Almaniyaya işə göndərmək istəyir. Əkrəmi də söz verir ki, hadisələrdən sonra Moskvaya gətirsin.

Heydər Əliyeviç hirsləndi, onun üstünə qışqırmağa başladı.

– Sənə kim icazə verib Sviqunun yanına getməyə? Niyə getmisən? Vəzifə dilənirsən, polkovnik rütbəsi? Mən söz vermişdim axı mütləq sənə polkovnik rütbəsi verəcəyəm! Niyə Semyon Kuzmiç mənim ən yaxşı kadrlarımı əlimdən alır? Bəs mən kiminlə işləyim? Yaravovu qoy götürsün. Sizə isə toxunmasın!

– Dəstəyi Əkrəmə verirəm, qoy o hər şeyi təsdiq etsin.

– Sən orada nə əl-ayağa dolaşırsan?– Heydər Əliyev mənim üstümə düşdü.

– Heydər Əliyeviç, bizim üçümüzü dəvət etdilər. Semyon Kuzmiç dedi ki, biz bura onun məsləhəti ilə gəlmişik. Bantserevin sizə dedikləri doğrudur. Yarovov razılıq verdi, Batserev isə yox, dedi ki, əvvəlcə arvadı ilə məsləhətləşməlidir.

– Dəstəyi ona ver!

Dəstəyi ona verib deyirəm:

– Niyə mənə ötürdün dəstəyi? Heydər Əliyeviç mənim üstümə acıqlandı.

Birinci dəfə idi ki, o mənimlə yüksək tonda danışırdı. Mən heç vaxt onu belə hirsli görməmişdim.

– Çexoslovakiyadan sonra gələrsən yanıma, boşboğaz, – Heydər Əliyeviç onu danlamaqda davam edirdi. – Bu məsələni mən özüm həll edəcəyəm!

Biz pörtmüş halda dayanıb durmuşuq. Bantserev məndən soruşur:

– Əkrəm, mən nə edim, axı o məni gözləyir, necə olsa general-leytenantdır.

Mən ona məsləhət gördüm ki, Sviqunun yanına gedib birtəhər təklifdən boyun qaçırsın.

– Azərbaycanda mən heç vaxt general ola bilməyəcəyəm, – Bantserev deyir, – indiki isə müstəsna haldır.

– Volodya, – deyirəm, – mən sənə heç nə deyə bilmərəm, hələlik bu işdən bir təhər yaxanı qurtar, sonra baxarıq.

O idarəyə getdi, mən isə mehmanxanaya qayıtdım. Bir az keçəndən sonra onlar da qayıtdılar: Yarovovun üzü gülürdü. Onu həqiqətən sonradan Bolqarıstanda, Sovet qoşunları qrupunda saxladılar, general rütbəsi verdilər. Azərbaycana o yalnız ailəsinin dalınca gəldi. Heydər Əliyeviç onun başqa işə keçməsinə etiraz etmirdi. Bantserev isə Bakıya döndü və həmişəlik burada qaldı. Axı o Heydər Əliyeviçlə çoxdan işləyirdi, Heydər Əliyeviç əkskəşfiyyat şöbəsində rəis olan zaman onun müavini idi».

H.Əliyev öz say-seçmə kadrlarını belə qoruyub saxlayırdı, hətta Moskva ilə «üz-göz» olmaqdan belə çəkinmirdi.

Axırda H.Əliyev şəxsiyyətini, onun ətrafdakılara göstərdiyi az qala maqnetik təsiri başa düşmək üçün daha bir ştrix. Veteranların xatırladıqlarına görə, Heydər Əliyev dəhlizlə gedəndə, hamı ayaq saxlayırdı, divara söykənib dümdüz dururdu. Mülki geyimdə olsalar belə, onu görən kimi qeyri-ixtiyari özlərini yığışdırıb «farağat» vəziyyətini alırdılar. Çox guman ki, məsələ yalnız



müdiriyyət qarşısında olan qorxuda deyil. Sadəcə olaraq H.Əliyev həmişə o dərəcədə səliqəli, şax qamətli və qüsursuz görünürdü ki, bütün DTK əməkdaşları özlərini ona oxşatmağa, azacıq olsa da ona bənzəməyə çalışırdılar.

## «O bizdən ürək ağrısı ilə ayrılırdı»

Dövlət təhlükəsizliyi orqanlarının rəhbəri kimi Heydər Əliyevə əməkdaşlarının çoxsaylı sosial-məişət, mənzil problemləri, həmçinin ilk baxışda DTK-nın funksiyasına daxil olmayan məsələlərlə də məşğul olmaq lazım gəlirdi. Bu sırada əhalinin şikayətləri ilə iş xüsusi yer tuturdu.

Dövlət aparatının qeyri-mükəmməlliyi, bürokratik süründürməçilik və məmurların «daş qəlbli» olması vətəndaşlardan gələn bir çox məktub və şikayətlərin uzun müddət cavabsız qalmasına gətirib çıxarırdı. Adamlar raykomların, şəhər komitələrinin, MK və Nazirlər Sovetinin qəbul otaqlarının qarşısında uzun-uzadı düzülür, nəticədə isə çox vaxt məsələnin mahiyyətinə varmadan başdan edilirdilər. Belə olanda hər yerdən əli üzülmüş insanlar həqiqət axtarışında DTK-ya üz tuturdular.

Ziya Yusifzadə xatırlayır ki, DTK sədri olandan sonra Heydər Əliyev bütün şöbə rəislərini yığıb göstəriş verdi ki, həftədə bir dəfə iş vaxtından sonra vətəndaşları qəbul etsinlər. Onun vaxtında bu ilk dəfə olaraq DTK-nın praktikasına salındı. Azərbaycan MTN Akademiyasının kursantları qarşısında çıxış edərkən Z.Yusifzadə yada salırdı:

"Heydər Əliyev DTK rəhbəri olanda onun adına gələn şikayətlərin sayı artdı. O vaxt adətən raykoma, şəhər komitəsinə, MK-ya, Moskvaya, hətta Lenin Mavzoleyinə şikayət yazırdılar. Hamı da bu şikayətləri bir-birinin üstünə atırdı, nəticədə məsələlər həll olunmurdu. H.Əliyev DTK-da rəhbər vəzifəyə gələndən sonra insanlar ağrılı məsələlərlə ona müraciət etməyə başladılar, çünki inanırdılar: baxacaq, diqqətsiz qoymayacaq, ədalətlə həll edəcək. O özü də həftədə bir dəfə adamları qəbul edirdi (hər qəbulda 30-40 nəfərədək), müavinlərini, şöbə rəislərini də bu işə cəlb etmişdi. Bu səbəbdən də sadə adamlar arasında DTK-nın hörməti kəskin şəkildə artdı. Camaat artıq çatışmayan cəhətlər barədə bu orqana şikayət etməkdən qorxmurdu. Heydər Əli-

yev üçün belə görüşlərin başqa məqsədi də var idi – respublikada operativ vəziyyəti, insanların əhval-ruhiyyəsini daha yaxından öyrənmək. Çox keçmədən rayon və şəhər partiya komitələrinə yönəlmiş şikayət məktublarının axını Azərbaycan DTK-sını da öz məcrasına aldı.

Heydər Əliyeviç DTK-ya əhalidən çoxsaylı şikayət müraciətləri və məktublarının daxil olması barədə vaxtaşırı MK-ya məlumat verirdi. Bundan sonra MK-nın «Zəhmətkeşlərin şikayət və məktubları ilə iş haqqında» qərarı qəbul edildi. Və əhali ilə aparılan iş xeyli düzəldi».

«DTK və hakimiyyət» kitabında F.Bobkov Rusiyada zəhmətkeşlərin şikayətləri ilə oxşar vəziyyət yarandığından yazır, lakin Azərbaycandan fərqli olaraq orada problemi həll etməyə çalışan komitəçilərin operativliyi Sov.İKP MK-da narazılıq doğurmuşdu: orada hesab etdilər ki, DTK xalq qarşısında özünü rəhmdil göstərmək istəyir! K.U.Çernenko və K.M.Boqolyubovun rəhbərlik etdiyi ümumi şöbədən daha «yuxarıya» zənglər getməyə başladı – guya DTK özünə aid olmayan işlə məşğuldur və müvafiq məktub Sov.İKP MK Baş katibinin stolu üstünə qoyuldu»[49].

60-cı illərin əvvəlində Kirovabad şəhər prokuroru işləmiş Sabir Hüseynov Heydər Əliyevlə olan ilk görüşünü xatırlayır. Məhz onun üçün əlamətdar olan həmin görüşdə sıravi vətəndaşların məktublarına münasibət barədə söz düşmüşdü:

«1962-ci ilin iyunu idi. Kirovabad şəhərinin prokuroruyam, 29 yaşım var. Kağızların içində itib-batıram. Həm «özümünkilərin», həm də Tovuzdan, Xanlardan, Şamxordan, Qazaxdan, Daşkəsəndən gələnlərin. Prokurorluq vəzifəmə DTK rayon və şəhər şöbələrinin hüquqi fəaliyyətinə nəzarət də daxil idi. Belə məsələlərdən biri ilə bağlı paytaxtdan gəlmiş Azərbaycan DTK-sının şöbə müdiri Heydər Əliyev adlı şəxsi gözləyirdim.

Qapı açıldı, içəriyə çöhrəsində mülayim təbəssüm, iti baxışları sanki öyrənirmiş kimi mənə dikilmiş hündürboy, idmançılar sayağı şax qamətli bir nəfər daxil oldu. Sifəti mənə çox tanış gəldi. Fikirləşdim ki, yəqin müharibədə ağır yaralanmış böyük qardaşıma oxşadığından mənə belə gəldi.

İndi, üstündən 45 il keçəndən sonra, o ilk görüşümüzü xatırlayanda, o görüşün xırdalıqlarını yada salmaq üçün dərin düşüncələrə dalmağıma ehtiyac yoxdur. Çoxdan bəllidir: ilk



görüş, ilk təəssürat kimi bir çox başqa incəlikləri ilə həmişəlik sənin yaddaşına həkk olur.

O, əlini uzatdı:

– Mən Heydər Əliyevəm.

– Buyurun, – onu yazı masasına bitişik stolun arxasına dəvət edib, özüm üzbəüzdə oturdum.

Elə insanlar var ki, xarici görkəmindən, tutduğu vəzifəsindən asılı olmayaraq ilk andan özünə hörmət hissi oyadır. Ancaq elələri də var ki, lap başına imperator tacı qoyasan, özlərinə ehtiram yarada bilmirlər. Mənim qonağım birinci qəbildən idi.

O, topa-topa yığılmış qovluqlara, tən ortada isə indicə üstündə işlədiyim yoğun qalın bir qovluğa baxıb başını buladı. Mən elə başa düşdüm ki, bu səliqəsizlik onun xoşuna gəlməyib.

– Neynəmək olar, Heydər müəllim...

– Heydər Əliyeviç, – o, sözlərimə düzəliş verdi, sezdirdi ki, «müəllimsiz» keçinməyi üstün tutur. – Bəs sizin atanızın adı nədir?

– Sabir Mamedoviç.

O vaxtdan hamı və hər yerdə məni belə çağırırdı – Sabir Mamedoviç. Yalnız o, Heydər Əliyeviç, uzun illərin tanışlığından, bir yerdə işləyəndən sonra məni Sabir çağırıb, sən deyə müraciət edirdi. Özü də yalnız təkbətək qalanda.

– Şikayətlərin arası kəsilmir, Heydər Əliyeviç, – mən söhbətə davam etdim, – stolun üstündə səliqə-sahman yaratmağa macal tapa bilmirəm.

O razılaşdı:

– Aydın məsələdir, buna deyirlər işgüzar şərait. Mənim stolumun üstü də bu gündədir. Bir qalaq işi qurtarıb-qurtarmamış o birilərini gətirirlər.

– Özü də birinci qalaqdan da böyüyünü, – mən onun dediyini dəstəklədim.

O gülür.

– Hərdənbir, – deyirəm, – «JEK» müdirlərinə paxıllığım tutur. Onların kağız-kuğuzu da azdır, imza və möhürü də nə vaxt istəsələr vura bilərlər. Onlar üçün bu adi dəftərxana işidir.

– Burada məsələ, Sabir Mamedoviç – o özünəməxsus tərzdə gözlərini qıyır, – adamın xasiyyətindən asılıdır. Onun daxili məsuliyyətindən və vicdanlı olmasından. Axı hər bir ərizə, kağız kiminsə problemidir. Bizim işimizdə isə – hətta taleyidir. Və

mən çoxdan bu nəticəyə gəlmişəm: məktublara, ərizələrə, ümumiyyətlə sənədlərə olan münasibətinə görə insan haqqında fikir yürütmək olar. Əgər o bu məktublara gərəksiz bir dəftərxana işi kimi baxırsa, deməli qarşındakı daşqəlbli, ürəyi olmayan, lap elə bu kağızlar kimi bir subyektdir. Ancaq o, hər sətrə diqqət yetirirsə, problemin dərinliyinə varır, onu görür və özünü ərizə yazanın və ya günahlandırılanın yerinə qoya bilirsə...

Heydər Əliyeviç sözlərinə ara verdi, sonra əlavə etdi:

– ... deməli o yaxşı adamdır. Hər halda – obyektivdir. Onun qərarı da ədalətli olacaqdır.

Mən bilaixtiyar və bir qədər təəccüblə ona baxdım.

– Nədir, yoxsa düz demirəm? – o ciddiləşdi.

– Əksinə... Bu yaxınlarda, şəhərin təsərrüfat rəhbərlərinin müşavirəsində, məktublarla aparılan iş müzakirə olunurdu, bu fikir mənim beynimdə fırlanırdı, ancaq onu lazım olan kimi ifadə edə bilmirdim. Siz isə zərrə qədər əziyyət çəkmədən düz gözündən vurdunuz.

Heydər Əliyeviç güldü:

– Mən sizin şefiniz olsaydım, elə bilərdim bu sözləri mənə yarınmaq üçün deyirsiniz.

– Yarınmaq yox. Yaxşı mənada qibtə. Siz fikri elə asanlıqla və sadə tərzdə ifadə etdiniz ki, elə bil teoremdir.

– Buna deyirlər təcrübə. Siz də buna nail olacaqsınız, – o mehribancasına əlini əlimin üstünə qoydu».

Ötən fəsildə biz Heydər Əliyevin DTK rəhbəri olduğu dövrdə dövlət təhlükəsizliyi orqanlarının əməkdaşları üçün altı çoxmərtəbəli yaşayış binasının tikilməsi barədə danışmışdıq. Bakıda DTK üçün yeni bina da H.Əliyevin təşəbbüsü ilə inşa olunmuşdu. 60-cı illərin ortalarında Naxçıvanda sərhəd dəstəsinin rəisi işləmiş general Mustafa Nəsirov Naxçıvan Muxtar Respublikasında əsasən Heydər Əliyevin köməyi və dəstəyi sayəsində yeni sərhəd şəhərciyinin tikilməsini indi də xatırlayır.

«Sərhəd qoşunları Baş idarəsinin pulu var idi, ancaq onlar yeni şəhərciyin tikilməsi üçün vəsait ayırmaq istəmirdilər, – general Nəsirov danışır. – Belə olanda biz məsələnin həllinə kömək etmək üçün Naxçıvan Nazirlər Sovetinə, Azərbaycan DTK-sına müraciət etdik. Çox keçmədən Heydər Əliyev DTK



sədrinin birinci müavini təyin edildi və bu işin həllində bizə yardımçı oldu.

Mən bilirdim ki, bu respublika üçün xeyirli iş olacaq. Naxçıvan Nazirlər Soveti ilə danışığımız var idi: onlar bizə torpaq sahəsinin ayrılması və tikinti işlərində kömək edəcək, biz də köhnə şəhərciyi onlara təmənnasız verəcəyik. Orada hamam-camaşırxana kombinatı, klub, stadion, dörd yaşayış korpusu və bir çox başqa obyektlər var idi. Biz yeni şəhərciyi tikib başa vurandan sonra, köhnəni dərhal Nazirlər Sovetinin balansına keçirtdilər və orada Naxçıvan Universiteti yerləşdirildi.

60-cı illərdə tikilmiş şəhərcik indinin özündə belə bizim sərhəd qoşunlarımızın iftixarıdır. Dördmərtəbəli tədris korpusu, dördmərtəbəli qərargah korpusu, anbarlar, hamamlar, stadion, bütün hərbi infrastruktur. Tikinti işləri 1965-ci ildə başlandı və o vaxt üçün qısa müddətdə, iki-üç ilə başa çatdırıldı. Bütün bu illər ərzində mən daim Heydər Əliyevin böyük dəstəyini hiss edirdim. Artıq o vaxt onun Moskvada böyük hörmət və nüfuzu var idi".

DTK sədri operativ heyətin məişət şəraitinin yaxşılaşdırılması, müalicə və istirahəti üçün xeyli vəsait ayırırdı. DTK veteranları xatırlayırlar ki, onlar Heydər Əliyevin hörməti hesabına Moskvadan Kislovodsk, Yalta, Yessentuki, Pyatiqorsk və digər kurort mərkəzlərinə başqa respublikalarla müqayisədə daha çox yollayış alırdılar.

Kitab üzərində işləyərkən görüşə bildiyim bir çox DTK veteranı onların bir xahişini belə cavabsız buraxmayan Heydər Əliyevin həssas, diqqətli münasibətini öz üzərlərində hiss etmişdilər.

İstefada olan podpolkovnik Cabbar Bəylərov 1963-ci ildə Heydər Əliyevin sayəsində Lənkərandan Bakıya işə keçə bilməsini minnətdarlıqla yada salır. Bəylərovun uşaqlarında həkimlər revmokardit tapdığından Lənkəranın rütubətli iqlimi onlar üçün zərərli idi. O, paytaxta köçürülməsi xahişi ilə sədrin adına raport yazmışdı, Kardaşev isə heç cür buna razılıq vermirdi: hara göndəriblərsə, orada işləyəcəksən. Bəylərov o zaman əks-kəşfiyyat rəisi olan Heydər Əliyevin yanına gedir.

– Eybi yoxdur, narahat olma, hər şey düzələr, – deyə Heydər Əliyev onu sakitləşdirir.

Cabbar müəllim indi də təəccübünü gizlətmir: görəsən Heydər Əliyev sədrin qadağasına baxmayaraq, onu Bakıya köçürüb öz şöbəsində işə götürməyə necə müvəffəq olmuşdu?

«1963-cü ilin apreli idi. Heydər Əliyeviç tədricən şöbədə ermənilərı yerli kadrlarla əvəz etməyə başlamışdı. Özü də bunu çox mədəni şəkildə, təzyiq göstərmədən həyata keçirirdi. Məsələn, erməniləri təqaüdə göndərir, onların yerinə isə cavan azərbaycanlıları götürürdü. Vəzifəmi dəyişəndə də bu cür etmişdi. Məni bir erməninin yerinə baş əməliyyat müvəkkili götürdülər».

Bir neçə ildən sonra, Cabbar Bəylərovun ürəyi ağrımağa başlayanda, artıq o vaxt Komitənin sədri olan Heydər Əliyev, onu Kislovodska, DTK-nın ən yaxşı sanatoriyasına göndərir. Müalicədən sonra Bəylərov Kiyevə, rəhbər heyətin altıaylıq ixtisasdəyişmə kurslarına yollanır.

«Təsəvvür edirsiniz? Mən qayıdandan sonra o məni çağırıb dedi:

– Yadımdadır, sən ürəyindən şikayət edirdin. Kislovodska yaxşı yollayış var, get bir az da müalicə al.

Bir tərəfdən, qayğıkeş münasibət, digər tərəfdən isə – qibtəolunası yaddaş: yarım ildən çox vaxt keçmişdi, mənim xəstəliyim isə onun yadında idi».

Kamal Əliyevin oğlu Volodyanın ali DTK məktəbinə qəbul olunmasında Heydər Əliyevin göstərdiyi kömək barədə söhbəti də məni heyrətləndirdi. Faktın özündə qəribə bir şey yoxdur – qəribəlik bunun necə və hansı şəraitdə baş verməsindədir.

«Bir dəfə Moskvada olanda, DTK Ali məktəbinə baş çəkdim, orada Nikonov adında bir nəfər işləyirdi, mən ona vaxtı ilə iş üçün maraqlı materiallar verirdim. Aramız çox yaxşı idi. O mənə deyir: «Sən həmişə istəyirdin ki, oğlun burada oxusun. Qabaq biz gəncləri yalnız orduda xidmət edəndən sonra götürürdük, indi isə bu təhsil ocağına orta məktəbi qurtaran kimi də daxil olmaq olar». Mən sevindim, göndəriş almaq xahişi ilə DTK sədrinin kadr məsələləri üzrə müavini Səmədovun yanına getdim. O razılıq vermədi, dedi mümkün deyil. Baxmayaraq ki, mən ona məktəb rəisinin yanına getdiyimi, orada yeni qəbul qaydalarını öyrəndiyimi danışmışdım. Onda mən birbaşa Heydər Əliyevin – DTK sədrinin yanına getdim. O məni dinlədi və telefonda Səmədova dedi: «Sənədləri hazırla, bürokratiya açma!»



Daha bir maraqlı detal: 1969-cu ildə oğlum üçün sənədləri hazırlayanda respublikadan Ali DTK məktəbinə daha bir namizəd göndərdilər. Yer isə cəmi bir dənə idi. Ancaq Heydər Əliyev məni sakitləşdirdi: "İşinizdə olun, əgər sənin oğlun imtahanları müvəffəqiyyətlə versə, mən məktəbin rəisinə zəng vuraram, ikisini də götürərlər".

Qərəz, oğluma aid materialları göndərdik. İyulun əvvəlində Heydər Əliyeviçi Moskvaya çağırdılar, mən də oğlumla Balaşixaya, müsahibədən keçmək üçün yollandıq. "Pekin" mehmanxanasına düşdük. Yadımdadır, Heydər Əliyeviçin yanına dostu, rəssam Tahir Salahov gəlmişdi. Heydər Əliyeviç məni onunla tanış etdi.

SSRİ DTK 2-ci idarəsindən olan uşaqlar, Heydər Əliyevin Moskvaya çağırıldığını eşidib, məndən xahiş etdilər ki, şefdən soruşum Andropov onu niyə dəvət edib: "Bəlkə onu bizə, nazirliyə götürmək istəyirlər?" Səhər bufetdə yemək yeyəndə, mən ondan soruşmağa ürək etdim. Heydər Əliyeviç gülümsəyərək cavab verdi: "Mənim baş leytenant olduğum vaxtlar sənin yadındadır? Hələ o vaxt məni Moskvaya dəvət edirdilər. İndi isə mən baş leytenant deyiləm. – Bir az susub əlavə etdi: – Sənə də məsləhət görmürəm". O vaxt mənə Moskvada iş təklif olunurdu. O da işarə edirdi: yəni ki, tələsmə, mən vətəndə generala qədər yüksəldim, sən də yüksələrsən.

Bir sözlə, o Moskvada bir neçə gün qaldı, mənimlə vidalaşıb Bakıya qayıtdı. Oğlumla mən qaldıq. Bir-iki gündən sonra uşaqlar mənə zəng vurub deyirlər: tez aşağı düşüb "Pravda" qəzeti al. Oxuyuram, gözlərimə inanmıram: iyulun 14-də keçirilən Azərbaycan KP MK plenumu Heydər Əliyevi birinci katib seçmişdir. Fikirləşirəm: hər şey batdı, əgər mənim oğlum bütün imtahanları müvəffəqiyyətlə versə belə, ola bilər ki, onu götürməsinlər. Yer axı bir dənədir! Heydər Əliyevə çatmaq isə indi müşkül olacaq. Özünün də ki, çətin yadına düşə, o qədər işi var!

Ancaq iki gündən sonra Azərbaycan DTK sədrinin müavini Xalıqov məni Moskvada tapdı. "Kamal, Heydər Əliyeviç dünən burada idi. Dedi, Kamala çatdır ki, narahat olmasın, məktəbin rəisi ilə danışmışam". Təsəvvür edirsiniz?! MK-nın birinci katibi seçiləndən sonra, yeni iş və qayğıların qaynar vaxtında o, sadə bölmə rəisinin xahişini unutmayıb. Bu həm onun heyrətamiz

yaddaşına, həm də verdiyi sözə məsuliyyətlə yanaşmasına dəlalət edir.

Oğlum müvəffəqiyyətlə oxuyub qurtardı, Bakıda, sonra Moskvada kəşfiyyat şöbəsində işlədi, Türkiyədə rezident oldu".

*(Kamal Əliyevin xatirələrindən)*

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında işlədiyi son dövrə aid daha bir maraqlı epizodu mənə MK-nın keçmiş şöbə müdiri Mikayıl Nəzərov danışdı.

«Mənim Heydər Əliyeviçlə şəxsi tanışlığım 1968-ci ildə, o DTK sədri, mən isə MK-nın təşkilat şöbəsində təlimatçı olduğum vaxt baş tutub. O vaxt Bakıya respublika ilə tanışlıq üçün Sov.İKP nəzdində Ali Partiya Məktəbinin 25 nəfərdən ibarət dinləyici qrupu gəlmişdi. Məni qonaqları Azərbaycanın rayonlarına müşayiət edən qrupun rəhbəri təyin etdilər. Mingəçevir, Ağdaş, Şəki və Zaqatalada olduq. Tanışlıq proqramında sonuncu məntəqə DTK-nın Zuğulbada yerləşən pansionatı idi. İstirahət günü səhər-səhər pansionata gəldik, ancaq növbətçi dedi ki, əraziyə daxil olmaq üçün rəhbərliyin icazəsi olmalıdır. Onda mən Heydər Əliyeviçlə telefon əlaqəsi saxladım, xoşbəxtlikdən o, ailəsi ilə pansionatda idi. Heydər Əliyeviç məni yanına dəvət etdi, nümayəndə heyəti barədə suallar verdi. Mən ona dedim ki, qonaqların içində Almaniya Demokratik respublikasının təhlükəsizlik orqanlarının əməkdaşları var. Heydər Əliyev məmnuniyyətlə qrup üzvləri ilə görüşdü, rayonlara səyahətdən aldıqları təəssüratla maraqlandı, sonra özü qonaqlara pansionatın ərazisini, yaşayış korpuslarını, çimərliyi göstərdi, onlar üçün gözəl istirahət və nahar təşkil etdi. Həmin gün mənim yaddaşımda uzun müddət qaldı. Heydər Əliyev isə öz sadəliyi və insanlara olan diqqəti ilə məndə silinməz təəssüratlar oyatdı. Axı o qrupu köməkçilərindən birinə tapşırıb öz yeganə istirahət gününü bizə sərf etməyə də bilərdi».

H.Əliyev DTK-dan partiya işinə keçəcəyini biləndən sonra da, son günə qədər Komitənin həyatı ilə yaxından maraqlanır, əməkdaşlar qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsini və nəticələrini şəxsən yoxlamağa çalışırdı.

Albert Salamov 1969-cu ildə özünün ilk xarici ezamiyyətindən qayıtmasını xatırlayır. O, sovet turistlərini – 30 Azərbaycan vətəndaşının da daxil olduğu böyük turist qrupunu müşayiət



edirdi. Qrupa operativ işçi qismində istehsalatçı-mühəndis adı altında salınmışdı. Yola düşmək ərəfəsində Heydər Əliyev Türkiyə ilə bağlı ona bəzi tapşırıqlar vermişdi.

«Ezamiyyət çox ağır keçmişdi: bir nəfər həlak olmuşdu, bir qız isə yüz faiz türk xüsusi xidmət orqanlarının işçisi olan türk bələdçisinin burada qalacağı təqdirdə onunla evlənmək vədlərinə uyub az qala bu ölkədə qalacaqdı. Bir sözlə, əsəblərim tarım çəkilmişdi.

Ezamiyyətdən sonra, müdiriyyət qarşısında hesabat vermək üçün mən bir müddət Moskvada qalası oldum. Adətən biz şifahi məruzə edirdik, sonra isə Bakıdan yazılı hesabat göndərirdik.

İki gün sonra DTK aparatından zəng gəldi ki, Heydər Əliyev məni görmək istəyir və «Pekin» mehmanxanasında, 504-cü nömrədə gözləyəcək. Bu Azərbaycan DTK-sının adına yazılmış lüks nömrə idi.

«Pekinə» saat 10 radələrində gəldim. Beşinci mərtəbəyə qalxdım. Qapıya yaxınlaşanda elektrik üzqırxanının səsini eşitdim. Əsəblərim elə gərilmişdi, elə yorulmuşdum ki, üzqırxanın qıjıltısı kəsilən kimi zəngin düyməsini basdım. Heydər Əliyeviç qapını açdı, yadımdadır, əynində dinamoçuların geydiyi göy rəngli idman forması vardı.

Məni oturmağa dəvət etdi və söhbətə başladıq. Əlbəttə, əsasən mən danışırdım, hər şey barədə ətraflı məlumat verdim. Söhbətimiz təxminən qırx dəqiqəyə yaxın çəkdi, deyəsən onu yormuşdum. Ancaq onun üzündə narazılıqdan əsər-əlamət belə yox idi.

Mən onda bilmirdim ki, Heydər Əliyevi Siyasi Büronun iclasına dəvət ediblər və onun birinci katib seçilməsi məsələsi müzakirə olunur. Hələ üstəlik Moskvada iki günlük yubanmaq üçün ondan icazə də istədim. O gülümsəyərək razılıq verdi. Beləcə, «ən son məqamda» mənə hörmət etdi».

**– Son dərəcə qəribədir: o nəinki xidməti karyerası, hətta bütün respublika üçün olduqca mühüm olan bir məsələnin həll olunduğu Siyasi Büronun iclasına gəlib. Burada isə sıravi əməkdaş adi, artıq onu maraqlandırmaya da bilən ezamiyyətdən qayıdıb. Ancaq bununla belə, o dərəcədə məsuliyyətli insan idi, işə elə can yandırırdı ki, sizi tapıb hesabatınızı dinləməyi özünə borc bilib.**

– Bu xasiyyətdə hamı özünü ona oxşatmağa çalışırdı. O hər hansı bir işi sona çatdırmağı xoşlayırdı. Ezamiyyətdən Bakıya qayıdıb biləndən sonra ki, Heydər Əliyeviç artıq MK katibidir, mən, təbii ki, sevindim, eyni vaxtda mat qaldım.

Bizim son görüşümüz Dzerjinski adına klubda oldu. Azərbaycan DTK-sının bütün heyəti ora yığılmışdı, Heydər Əliyev bizimlə vidalaşmağa gəlmişdi. Zal dolu idi, qabaqda qadınlar oturmuşdu, hamısının da əlində yaylıq, gözlərində yaş. O çıxış etdi, sağollaşırdı, deyirdi ki, partiya işinə gedir, bu işi onun öhdəsinə qoyublar, xahiş ediblər ki, respublikaya başçılıq etsin, ancaq o, buradan ürək ağrısı ilə gedir, çünki 25 il işlədiyin kollektivdən ayrılmaq çətindir. Qadınlar ağlayırdılar. Mən də o biri kişilər kimi özümü güclə saxlayırdım, çünki bu cür insanın bizdən ayrılması kədərli idi".

*(Albert Salamovla olan söhbətdən)*

## DTK sədrinin şəxsi həyatı

Heydər Əliyev öz işini çox sevirdi, fədakarcasına ona bağlı idi, ömrünü ona həsr etmişdi. İşin, xidməti borcun maraqları həyatının mənasını, cövhərini təşkil edirdi. Bu yolda bir çox başqa maraqları qurban vermək lazım gəlirdi – asudə vaxtı, istirahəti, əyləncəni. Sonralar xarici jurnalistlərlə söhbət zamanı, prezident boynuna alırdı ki, xobbisi yoxdur. Olsa-olsa bəlkə üzməyi sevib, bir də ömür boyu hər səhər idmanla məşğul olub. Ancaq bu xobbi deyil, sadəcə olaraq sağlam həyat tərzidir. O ki qaldı partiya-dövlət elitası sıralarında dəbdə olan ova çıxmaq, yaxud balıq tutmaq həvəsinə, belə aktiv istirahət üçün onun sadəcə vaxtı yox idi, çünki bütün intellektual və fiziki qüvvəsi işə sərf olunurdu.

Ancaq, desək ki, Heydər Əliyev tamamilə işə aludə olmuş, ondan savayı həyatda heç nə ilə maraqlanmayan adam idi, düz olmaz. Onun üçün birinci yerdə həmişə ailəsi dururdu – həyat yoldaşı, uşaqları. Onların əhatəsində özünü son dərəcə xoşbəxt hiss edirdi.

Heydər Əliyev öz gələcək həyat yoldaşı və onun ailəsi ilə necə tanış olması barədə tarixçəni dəfələrlə danışıb. Sonradan tanınmış Azərbaycan kinorejissoru Vaqif Mustafayev onun söhbətləri əsasında beynəlxalq kinofestivallarda mükafatlar qazanmış sənədli film çəkmişdir.



Heydərlə Zərifənin məhəbbət tarixçəsində Stalin dövrünün gerçəklikləri qəribə tərzdə öz əksini tapmışdı: o vaxt insanın nəinki xitməti karyerası, hətta şəxsi həyatı, ən məhrəm hissləri belə "qüdrətli" partiya bütlərinin ötəri istəyi nəticəsində hər an ayaqlar altına atıla bilərdi. Tale qəhrəmanımın mətinliyini yoxlayırmış kimi onun qarşısına yeni-yeni sınaqlar çıxarırdı. Zərifəyə rast gəlib həyatını onunla bağlamaq qərarına gələndən sonra, sevdiyi qızla bir yerdə olmaq hüququnu qorumaq üçün Heydər yenidən tale ilə barışmamaq, ona meydan oxumaq məcburiyyətində qaldı.

Zərifə xanımın atası – Əziz Məmmədkərim oğlu Əliyev, həqiqətən əfsanəvi şəxsiyyət idi. Belə adamlar haqqında deyirlər: «Öz taleyini özü yazıb». İrəvanda, kasıb ailədə dünyaya gəlib, böyük çətinliklərə baxmayaraq gimnaziyanı qızıl medalla bitirərək inqilabdan əvvəl Peterburqda Hərbi-Tibbi Akademiyaya daxil olmuş Əziz Əliyev, respublikada sovet səhiyyəsinin təşkilatçısı olub. 32 yaşında yeni açılan tibb institutunun rektoru olandan sonra, Azərbaycan dilində tibbi ədəbiyyatın hazırlanması işinə başçılıq edib. Üç il ərzində ana dilində 45 dərslik və dərs vəsaiti nəşr olunur, fundamental əsərlər yazılır. Əziz Əliyevin təşəbbüsü ilə «Azərbaycan tibb jurnalı», Fizioterapiya institutu, Bakı göz xəstəxanasının bazası əsasında Oftalmologiya ETİ yaradılır. 50-ci illərdə o Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunu yaradır və ömrünün sonuna qədər orada çalışır[10].

Əziz Əliyevin parlaq təşkilatçılıq bacarığı Mir Cəfər Bağırovun gözündən yayınmır, ona respublikada yüksək dövlət vəzifələri həvalə edilir. 1938-1939-cu illərdə Əziz Əliyev Azərbaycan Ali Soveti Rəyasət Heyətinin katibi, səhiyyə naziri, müharibə illərində Azərbaycan KP MK katibi vəzifələrini tutmuş, İranda məsul missiya yerinə yetirmişdir*. Nəhayət, altı il Dağıstan Vilayət Partiya Komitəsinin rəhbəri olmuşdur. Dağıstanda bu gün də Əziz Əliyevin xatirəsini hörmətlə yad edirlər. Tahir Talıblının

---

* Əziz Əliyevin missiyası və Cənubi Azərbaycanda baş verən hadisələr barədə bu kitabın 2-ci fəslinə bax. Ə.Əliyevin həyat və yaradıcılığına aid maraqlı təfərrüat həmçinin Tahir Talıblının «Əziz Əliyev: dövr, ömür, şəxsiyyət» kitabında yer almışdır.

kitabında deyilir ki, Stalin repressiyaları zamanı Əziz Əliyev 416-cı Taqanroq diviziyasının tərkibində faşistlərə qarşı müvəffəqiyyətlə vuruşan suvari eskadron yaradaraq dağıstanlıları deportasiyadan xilas etmişdir. Paralel olaraq Dağıstanda cəbhəyə kömək istiqamətində böyük işlər görülürdü. Onun təşəbbüsü ilə Samur-Dəvəçi kanalının tikintisi başlanmışdır. Bir sözlə, dağıstanlılar Əziz Əliyevi az qala millət atası sayırdılar, o başqa işə keçəndə onu böyük izdiham yola salırdı, atlılar isə qatarı Samur-Dəvəçi kanalına qədər müşayiət etmişdilər.

1949-cu ilin yanvarında onu Moskvaya, ÜK(b)P MK-ya aparırlar. Çox güman ki, bu hal respublikanın ali rəhbərlərini təşvişə salır. MK katibi M.Q.Seyidovun şəhadətinə görə, Bağırov Əziz Əliyevin Azərbaycana qayıdıb hökumət sədrinin müavini vəzifəsini tutmağa razılıq verməsi üçün onu güclə yola gətirmişdi. 1950-ci ilin fevralında Q.Malenkova yazdığı məktubda o ÜK(b)P MK-dan Əliyevin Bakıya işə keçməsinə razılıq verməyi xahiş edir. Tarixçi E.İsmayılovun fikrinə görə, "Bağırovun bu məsələdə inadkarlıq göstərməsini yalnız bir şeylə izah etmək olar: Moskva rəhbərlərinin gözü qabağında olan azərbaycanlı, onlar tərəfindən Bağırovun yerinə Azərbaycan MK katibi vəzifəsinə real namizəd kimi qarşılana bilər. Əliyev Bakıya dönəndən sonra onun Bağırovla konflikti qaçılmaz idi"[51].

1950-ci ilin sentyabrında Əziz Əliyevi Nazirlər Soveti sədrinin müavini vəzifəsindən azad edirlər və nə vaxtsa özünün yaratdığı Bərpa Cərrahiyyəsi və Ortopediya İnstitutuna direktor təyin edirlər. Paralel olaraq Azərbaycan DTN-ində ali partiya orqanlarına birdən-birə daxil olmağa başlayan anonim məktubların yoxlanması başlayır. DTN 5-ci şöbəsi ona «millətçilik» və «sosial mənşəyini gizlətməsi» ittihamı ilə operativ yoxlama işi açır. Tezliklə Əziz Əliyevi yenə də vəzifədə kiçildirlər, rayon xəstəxanasına baş həkimin müavini təyin edirlər, 1951-ci il iyunun 12-də AK(b)P MK-nın bürosunda isə ona şəxsi işinə yazılmaqla şiddətli töhmət elan edirlər.

Heydərlə Zərifənin məhəbbəti Əziz Əliyevin ailəsi üçün heç də münasib olmayan belə bir məqamda qığılcımlandı. Yaranmış vəziyyətin digər qəribə, incə, ağrılı cəhəti həm də onda idi ki, gənc zabit gələcək qayınatası barədə kompromat toplamaq tapşırığı almış həmin o təşkilatın özündə işləyirdi. Vəziyyətin qeyri-müəyyənliyi, ikimənalılığı Zərifəni də narahat edirdi – qız ehtiyat



edirdi ki, bilaixtiyar sevdiyi adamın xidməti karyerasına mane ola bilər. Növbəti görüşləri zamanı o Heydərə deyir: «Bilirsən, biz daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxardıblar, onu bir çox məsələlərdə günahlandırırlar. Sən dövlət təhlükəsizliyi orqanlarında işləyirsən, bu sənə ziyan gətirə bilər. Bir yerdə olmağımız qismət deyilmiş, deyəsən»*.

Bu söhbətin üstündən çox keçməmiş, Heydər Əliyevi dövlət təhlükəsizliyi naziri Yemelyanov çağırır. Xoşagəlməz bir söhbət olur. General faktiki olaraq ona əmr edir ki, gözdən düşmüş Əziz Əliyevin ailəsi ilə bütün əlaqələrini kəssin, əks halda o, Heydər Əliyevi orqanlardan xaric etməli olacaqdır. Cavan oğlan çəkinə-çəkinə soruşanda ki, Əziz Əliyevin partiya və xalq qarşısında konkret olaraq nə təqsiri var, cavab səmimi olur: "Sən hələ cavansan, çox şeyi başa düşmürsən. Mir Cəfər Bağırov yoldaş bizə göstəriş verib, biz də onu yerinə yetirməliyik".

Əslində Yemelyanovun əmri onu çıxılmaz vəziyyətdə qoyurdu: ya xidməti karyera, ya sevdiyi qız. Bu, Heydər Əliyev üçün mənəvi yetkinlik imtahanı idi. Məgər o vaxt siyasi təzyiqlərə məruz qalan, hakimiyyətin gözündən düşən adamlardan ən yaxın dostların, hətta qohumların belə üz döndərməsi, onları görəndə gizlənməyə yer axtarması azmı olub? Vəzifə xatirinə, karyera eşqinə və ya sadəcə olaraq canının qorxusundan ər arvadından imtina edib, nişanlılar sevgililərindən «partiyanın hökmü ilə» üz döndəriblər.

Xoşbəxtlikdən Heydər bu məsələdə tərəddüd nə olduğunu bilmədi: o vaxt Zərifə, zəngin daxili aləmi, qadın gözəlliyi, nadir tapılan ziyalılıq mədəniyyəti ilə artıq onun ruhuna elə hakim kəsilmişdi ki, o həyatını bu qızdan ayrı təsəvvür edə bilmirdi.

«Hətta, bilirsiniz, beynimə necə fikirlər gəlirdi, çünki mən DTK-da işləyirdim, onun atasının ətrafında nələr baş verdiyindən xəbərim vardı, onların izləndiyini bilirdim. Və mən onların ailəliklə buradan Qazaxıstana köçürülmə planının olduğunu da bilirdim, eşitmişdim. Düşünürdüm: əgər onları köçürsələr, mən onun dalınca Qazaxıstana gedəcəyəm, orada bəlkə mənim üçün iş tapmaq daha asan olar"[52].

---

* H.Əliyev həyatının bu dövrü haqqında 14 may 1998-ci ildə Respublika Sarayında Əziz Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli gecədə danışmışdır.

**Cəlal Əliyev:** – Evdə olan söhbətlərdən mən bilirdim, əgər ona deyiblər ya deyəcəklər ki: sən belə etmə, bu ailədən olan qızla, bu adamın qızı ilə evlənmə, – qardaşım bunu etməyəcək. Ona görə də evimizdə heç bir söz-söhbət, müzakirə olmadı, anam sadəcə olaraq ona dedi: «Necə lazım bilirsən, elə də elə».

**Heydər Əliyev:** – Mən qərarımı dəyişmədim, əlaqələri kəsmədim, işimi də əvvəlki kimi davam etdim. O vaxt Bakı indiki kimi gur işıqlandırılmamışdı, şəhərdə istənilən qədər qaranlıq, xəlvət yerlər var idi.

...Mən nə onu, nə də məni görə biləcəkləri bir neçə belə yer gözaltı elədim. Bizim evin yanında, Azadlıq prospektində park var idi, sonra orada Caparidzenin heykəlini qoydular. Üzbəüzdə tramvay dayanacağı vardı. Ətraf isə qaranlıq idi. Mən, məsələn, orada görüş təyin edirdim, düz tramvay dayanacağının yanında.

Mən cavan kişiyəm, zabitəm, heç nədən qorxmuram, üstəlik üstümdə silah var. O yazıq isə, cavan, gözəl qız idi. Belə qızlar həmişə diqqəti cəlb edirlər. Ona görə də mən onu lap dayanacağın yanında gözləyirdim. Tramvaydan düşürdü, mən onu qarşılayırdım və biz gedirdik parka.

Yemelyanov yenə məni dəvət etdi.

– Mən axı səni xəbərdar etmişdim.

– Etmişdiniz.

– Bəs onda niyə mənim göstərişimi yerinə yetirmirsən?

Aramızda böyük yaş fərqi var idi. O vaxt, 1952-ci ildə mənim heç otuz yaşım tamam olmamışdı, o isə əllini keçmişdi. Ancaq mən özümü toplayıb ona etiraz etdim:

– İş öz yerində, şəxsi həyat öz yerində. Mən işimi sevirəm, siz də məni bir əməkdaş kimi qiymətləndirirsiniz. İşdə qüsurum yoxdur. Ancaq həyatımın ikinci, bəlkə də daha vacib tərəfi mənim gələcək ailəm, şəxsi hisslərim, məhəbbətimdir. Mən o qızı sevirəm, o da məni sevir. Mən axı necə ondan ayrıla bilərəm? Ona ayrılacağımızı söyləmək mənim üçün çox çətin olacaq. Axı gərək səbəbini izah edəm. Ya gərək deyim ki, daha onu sevmirəm, ya da gərək deyim ki, onun hansısa nöqsanları var, ona görə mən ondan ayrılıram. Deyə bilmərəm ki, onunla ancaq dövlət təhlükəsizliyi orqanlarında qalmaq üçün ayrılıram.

Yemelyanov ağıllı adam idi:

– Sən düz deyirsən.

– Bəs onda mən nə eləyim?



– Özün həll elə, ancaq bil ki, sənin orqanlarda işləməyin hələlik böyük sual altındadır"[53].

Həyat doğrudan da qəribədir! Bəzən ən mahir detektiv ustasının ağlına belə gəlməyən süjetlər yaradır. Kim inanardı ki, cəmi iki ildən sonra Yemelyanov Bağırovla yanaşı müttəhimlər kürsüsündə əyləşəcək, zabit Əliyev isə məhkəmə prosesinin təhlükəsizlik tədbirlərinə başçılıq edəcəkdir. Kim deyə bilərdi ki, iyirmi beş ildən sonra DTN-in sabiq başçısı Bakıya qayıdacaq, nə vaxtsa ona tabe olan adamdan yardım istəyəcək və o da imkansız, həbs düşərgələrində əldən düşmüş qocaya kömək əlini uzadacaqdır. Yəqin ki, Heydər Əliyevin Yemelyanova təkcə yazığı gəlməyib, müəyyən mənada buraya minnətdarlıq hissləri də qarışıb: o vaxt DTN sədri üçün gənc zabiti cəzalandırmaq, lap elə orqanlardan xaric etmək çətin məsələ deyildi. Ancaq o bunu etməmişdi, əməkdaşının Əziz Əliyevin qızı ilə davam edən gizli görüşləri barədə, çox güman, yuxarıya məlumat verməmişdi.

Hər halda Zərifə ilə Heydərin belə dramatik şəraitdə başlayan məhəbbəti xoşbəxt sonluqla nəticələndi. 1954-cü ilin noyabrında onlar evləndilər və Heydər Əliyevin bir qədər əvvəl DTN-dən aldığı mənzildə xudmani toy məclisi qurdular. Toyun tamadası onun yaxın dostu İbrahim İsmayılov idi. O, xatırlayır:

«Bu toya biz hamımız möhkəm hazırlaşırdıq. Çətin vaxt idi, pul çatmırdı. Ona görə də bacardığımızdan Heydərə kömək edirdik. Əsasən ərzaq tapırdıq – ət, toyuq. Toy stolunu onun anası İzzət xala hazırlayırdı, bacıları kömək edirdilər.

Toy Heydərin evində idi, keçmiş Yerevan döngəsində, 6 nömrəli məktəbin yanında. Ona bu binada ikiotaqlı mənzil vermişdilər. Otaqların biri böyük, o birisi balaca idi. VVAQdan bəylə gəlin qonaqlarla birlikdə Heydərgilə gəldilər. Cəmi on beş qonaq çağrılmışdı, ancaq özümüzünkülər. Nə musiqi, nə də başqa artıq bir şey yox idi.

Hamı stolun arxasına əyləşəndən sonra Əziz Mamedoviç dedi:

– Biz gərək elə tamada seçək ki, hər iki evə eyni dərəcədə yaxın olsun. İçimizdə yeganə belə adam – İbrahimdir. Ona görə də onu tamada seçməyi təklif edirəm.

Hamı da razılaşdı. Məsələ ondadır ki, Əziz müəllim mənim əmim oğlu Əsgər İsmayılovla çox yaxın idi. Bir yerdə tibb institutunda oxumuşdular, dost idilər. Əmioğlunun sayəsində

mənim də bu ailə ilə get-gəlim vardı. Heydərin toyu çox sadə keçdi, buna heç toy da demək düzgün deyildi. Sadəcə olaraq VVAQdan gəlib ən yaxın adamların əhatəsində bunu qeyd etdilər.

Heydərin toyunda qonaqlar arasında akademik Murtuza Nağıyev, Həsən Əliyev, Əziz Mamedoviç, mənim əmim oğlu Əsgər, Heydərin qohumları, deyəsən kürəkənləri İsmayıl, Heydərin qohumu Rzaqulu var idi.

Toydan sonra cavanlar Yerevan döngəsində, həmin bu mənzildə yaşamağa başladılar".

Əziz Əliyevin ailəsi, bu evin qəribə ab-havası haqqında çox yazılıb. Təkcə bunu söyləmək kifayətdir ki, Zevin (hazırda Əziz Əliyev adına küçə) küçəsindəki mənzilə mədəniyyətimizin Üzeyir Hacıbəyov və Müslüm Maqomayev (məşhur müğənninin babası), Bülbül və Niyazi, Səməd Vurğun və Qara Qarayev kimi korifeyləri gəlib-gedirdilər. Ancaq məni daha çox mütəəssir edən Heydər Əliyevin qayınatasının mənəvi ucalıq və ziyalılıq göstəricisi kimi, onun ağır infarkt keçirməsinə, son nəticədə isə ölümünə səbəb hadisə haqqında eşitdiyim söhbət oldu. Klassik Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin nə zamansa söylədiyi paradoksal bir fikir var: "Yalnız ölüm insanın həyatını taleyə çevirə bilər". Əziz Əliyevin həyatı həqiqətən bu cür məntiqli sonluqla bitmişdi (əgər ölümdə hər hansı bir məntiq ola bilərsə). Zərifə xanımla institutda dostluq etmiş professor Zəhra Quliyeva bunu belə xatırlayır:

«Onların qulluqçuları vardı, Nina. Onlar bu sadiq qadına çox bağlanmışdılar, uşaqlar onun qucağında böyümüşdü.

Bir dəfə yay vaxtı Nina qohumlarının yanına Rusiyaya getməyə yığışmışdı. Əziz müəllim onu vağzala ötürmək qərarına gəlir. O dərəcədə nəzakətli adam idi ki, sürücüyə çemodanı götürməyə də imkan vermir. Onlar gecikirdilər, onun da, axı, yaşı az deyildi. Çemodan ağır idi, onu pilləkənlə qaldırmaq, sonra istidə açıq platforma ilə xeyli yol getmək lazım idi. Elə oradaca, vağzalda, o ağır infarkt keçirtdi və dünyasını dəyişdi».

Sevimli qızı Zərifə də belə sadə və təbii insan idi. Nə özünün yüksək elmi adları (elmlər doktoru, professor, nəhayət, Elmlər Akademiyasının həqiqi üzvü, oftalmologiyada ən nüfuzlu SSRİ Tibb Elmləri Akademiyasının Averbax adına mükafatın laureatı),



nə də həyat yoldaşının yüksək mövqeyi onun xasiyyətini zərrə qədər də dəyişə bilmədi. Zərifə xanımı tanıyan bütün adamlara eyni sualı verirdim: «O necə adam idi?» Cavab adətən belə olurdu: «Çox sadə idi». Bu əsl ziyalı insanı başqalarından fərqləndirən ən yüksək əyarlı sadəlik idi. Sözümün təsdiqi kimi nəhayətsiz misallar gətirə bilərdim. Lakin Zərifə xanıma ən yaxın adamların – rəfiqəsi Zəhra Quliyevanın* və qızı Sevilin bir neçə ifadəsi ilə kifayətlənirəm.

«Azərbaycanın say-seçmə adamları, cəmiyyətin qaymaqları Əziz Əliyevin evində olurdular. Böyük yazıçılar, bəstəkarlar, artistlər, alimlər, professorlar. Bütün bunlar uşaqların düşüncəsinə hopurdu. Ailə üzvləri Əziz Əliyevin MK katibi, yaxud Mahaçqalanın birinci şəxsi olmağı ilə öyünmürdülər. Nə uşaqlar, nə də ki, valideynlər. Zərifənin xasiyyətində bu cür meşşanlığın əsər-əlaməti belə yox idi. Yadıma gəlmir ki, o nə vaxtsa əyninə qeyri-adi, diqqətçəkən nəsə geysin. Çox sadə geyinərdi. Çalışardı ki, başqalarından seçilməsin.

Bu ailədə hər bir adamı əziz qonaq kimi qarşılayırdılar. Yadımdadır, ev işlərində onlara bir qadın kömək edirdi. Əri süpürgəçilik edirdi, kasıb yaşayırdılar. Həmin qadının əri xəstələnəndə Zərifə onlara zənbil-zənbil yemək, dərman daşıyırdı. «Mən onu müalicə edib sağaltmalıyam», – deyirdi. Bax, belə sadəlik, insanlara bu cür münasibət. Onlar hər an insanlara köməyə gəlməyə hazır idilər. Əziz Əliyev və onun həyat yoldaşı Leyla xanım belə insanlar idi, uşaqlarını da belə tərbiyə etmişdilər.

Biz bir yerdə işləyəndə vaxtımız yeknəsək keçirdi: iş – ev, ev – iş. Zərifə əyləncə fikirləşdi: ayda bir dəfə biz kiminsə evində qız məclisi qururduq. Şənliyin məhz kimin evində keçəcəyini təyin etmək üçün püşk atırdıq. Hər kəs nə bacarırdısa onu edirdi. Kimi şirniyyat stolu açır, kimi başqa bir şey hazırlayırdı. Yemək əsas şərt deyildi – başlıcası bir yerə yığışmaq idi. Zərifə həm rəqs edirdi, həm oxuyurdu. Tatar dilində də, rus dilində də, Maştağa ləhcəsilə də oxuyurdu. Bir yerdə qərar tuta bilmirdi.

---

* Zəhra Quliyeva 1972-1983-cü illərdə Azərbaycan Tibb İnstitutunun rektoru vəzifəsində çalışmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra ömrünün sonuna qədər Qadın Problemləri üzrə Dövlət Komitəsinə rəhbərlik etmişdir.

Nə qədər xeyirxah insan idi! Bir dəfə həmin bu qız yığıncaqlarında növbə mənə çatdı. Mənzilimi görəndə dəhşətə gəldi. Tibb institutunun həmkarlar təşkilatına mənim adımdan ərizə yazdı. Mən evdə olmayanda gəlib mənzilə baxdılar.

– Sizdə ikinci mərtəbədir, uçota götürə bilmərik, indi zirzəmidə yaşayanlara mənzil veririk.

Bizdə Belousova familiyalı baş tibb bacısı işləyirdi, o da ağır şəraitdə yaşayırdı. Zərifə təşkilat qalmadı ki, onun haqqında ora yazmasın və öz istəyinə nail oldu. Biz hətta o tibb bacısıgilə təzə mənzili qeyd etməyə də getmişdik.

Zərifə xanım Bakıda kafedra müdiri idi, Həkimləri Təkmilləşdirmə İnstitutunda mühazirə oxuyurdu. Ora SSRİ-nin hər tərəfindən həkimlər gəlirdi.

Hərdən deyirdi:

– Bilirsən, Zara, bəzən özümü birtəhər hiss edirəm. Mühazirəni oxuyub çıxıram, onlar isə mənə təşəkkür edirlər.

– Sən buna layiqsən, – söyləyirdim.

Zərifə xanım Averbax mükafatını alıb Bakıya gələndə mən Oftalmoloqlar Cəmiyyətinin sədri idim.

– Azərbaycan oftalmoloqları üçün bu ən yüksək mükafatdır, – dedim, – sən bunu qazanmısan. Cəmiyyətin yığıncağında biz səni təbrik edəcəyik.

O bərk həyəcanlandı.

– Nə edəcəksiniz ki?

– Tutalım, gül-çiçək bağışlayacağıq.

– Yox-yox! Heç kim bir manat da xərcə düşməməlidir.

O, xəstələrdən bir dənə də olsun çiçək, bir qutu konfet belə götürməzdi. O, ağ xalatının paklığına bircə toz ləkəsi belə gətirmədi.

Elə o vaxt da, oftalmoloqların həyatındakı bu bayramı qeyd etməyə onu güclə yola gətirə bildik, zorla dilə tutduq ki, özü də gəlsin. Belə təvazökar qadın idi.

Uşaqlar hələ balaca olanda Zərifə bir dəfə mənə ürək qızdırdı:

– Zara, dünən biz Heydərlə bütün gecəni uşaqları necə böyüdəcəyimizdən danışmışıq. Onları necə tərbiyə edəcəyik. Bu axı çox böyük məsuliyyətdir!

Güldüm:



– Sən nə danışırsan, Zərifə, sən də, o da, ali savadlı, ziyalı, həssas adamlarsınız. Yüz faiz əminəm: uşaqlarla heç bir probleminiz olmayacaqdır.

İndi mən onları görəndə, xüsusilə İlhamı, düşünürəm ki, indi o necə də öz övladları ilə fəxr edərdi».

*(Professor Zəhra Quliyevanın xatirələrindən)*

«Bilirsiniz, qeyri-adi təvazökarlıq onun təbiətində idi. Hətta Lenin adına sarayda rəsmi tədbirlər zamanı da anam, ya az qala boş olan zala gəlib hamıdan əvvəl əyləşirdi, ya da ki, zal dolu olanda, foyedən qalxıb yuxarı sıralardan öz yerimizə düşürdük. Daha bəzi nazir xanımları kimi qəsdən gecikərək aşağıdan yuxarıya hərəkət edib özünü camaata göstərmirdi. Anam diqqəti cəlb etməyi xoşlamırdı. Həmişə mühafizəçilərdən xahiş edirdi: televiziya işçilərini xəbərdar edin ki, bizi çəkməsinlər. O ki qaldı atamın bütün tədbirlərə anamla bir yerdə getməyinə, bu onun anama çox bağlı olmasından doğur. Atam onsuz yaşaya bilmirdi».

*(Sevil Əliyevanın söhbətindən)*

Bu qadında məni məftun edən bir xüsusiyyət də var: sakit, səs-küydən uzaq vətənpərvərliyi, xalqına əməli, sözlərə ehtiyacı olmayan məhəbbəti. Bu məhəbbət özünü dəbdəbəli ibarələr və gözəl deklamasiyalarla deyil, Zərifə Əliyevanın xidmət etdiyi canlı işdə, konkret əməllərdə büruzə verirdi.

Respublikanın birinci şəxsinin xanımı kimi rahat, ölçülüb-biçilmiş həyat sürmək əvəzinə, Zərifə xanım sanki qəsdən, prinsipial olaraq qarşısına bir-birindən çətin məqsədlər qoyurdu. Gah yoluxmaqdan ehtiyat etmədən müharibədən sonrakı illərdə traxoma epidemiyasına qarşı könüllü mübarizə aparan həkimlərin sırasına qoşulur, gah da, artıq 70-ci illərdə, zərərli istehsal bazasında (Bakı şin zavodunda, Gəncə qum-gil kombinatında və s.) gözün professional patologiyasının müalicə və tədqiqi üzrə laboratoriyalar təşkil edirdi. Və yaxud, o vaxtkı oftalmologiya üçün tamamilə yeni bir sahədə – iridodiaqnostikada elmi araşdırmalara başlayaraq «İridodiaqnostikanın əsasları» adlı unikal kitabın müəlliflərindən biri olurdu. Mən həkim deyiləm, ancaq ehtimal edə bilərəm ki, bu zərif qadının məhz zərərli kimyəvi istehsalat sahələrində uzun müddət olması Zərifə xanımın ağır xəstələnməsinə və dünyadan belə tez köçməsinə səbəb oldu.

Bununla yanaşı, o çalışırdı ki, həyatının işlə bağlı tərəfi heç vəchlə onun əsas vəzifəsinə – həyat yoldaşı və analıq borcunu yerinə yetirməyə mane olmasın. Zərifə xanım bəzən elmin, tədqiqat işinin ailəsinə həsr edə biləcəyi saatları onun əlindən aldığı üçün sanki özünü günahkar sanırdı. Zərifə xanımın qızı Sevil mənə söyləyib:

«O uşaqlara, ailəyə çox bağlı idi, bü onun üçün hər şeydən vacib tələbata çevrilmişdi. Ailə onun üçün birinci yerdə idi. Atam bilirdi ki, anamın böyük elmi potensialı, istedadı var, ona görə də onda irəliyə getməyə həvəs oyadırdı. Yadımdadır: gecə biz hamımız yatmağa uzananda o oturub öz işlərini yazırdı – məqalələr, kitablar. Biz Moskvaya gedəndə o həmişə oftalmoloq həmkarları ilə görüşürdü. Ancaq onda şöhrətpərəstlik, məşhur olmaq, başqalarından seçilmək həvəsi yox idi. Nəyə nail olubsa – gərgin elmi axtarışların, çəkdiyi böyük zəhmətin nəticəsidir. Atam da onun imkanlarına bələd olduğundan bu potensialın itib-batması ilə barışa bilmirdi. Bax, siz fikir ayrılığı, mübahisələr barədə soruşurdunuz. Onların mübahisəsi məhz bunun üstündə düşürdü: atam deyirdi ki, geri qalmaq olmaz, tədqiqatları davam etdirmək lazımdır. O, həmişə anamı bu istiqamətdə ruhlandırırdı».

İşinin hədsiz dərəcədə çox olmasına baxmayaraq, Heydər Əliyev ailəsi üçün vaxt tapırdı. Sevil xanım, anası işdə yubananda atası ilə gəzməyə çıxdıqlarını, qardaşı ilə ona atasının üzmək öyrətdiyini xatırlayır. Kədərlə gülümsəyərək «atamın saçıma bant bağlaması da yadımdadır», – deyir. Əkrəm Səlimzadə mənə danışıb ki, onlar Heydər Əliyeviçlə tez-tez hər ikisinin oğlanları getdiyi DTK-nın uşaq bağçasında rastlaşırmışlar:

«Heydər Əliyev olduqca təvazökar insan idı, uşaqlarını çox sevirdi. İlhamın 5-6 yaşı var idi, yaman dəcəl idi. Oğlum Pərvizlə DTK bağçasında eyni qrupa gedirdilər. Bağça köhnə sirkin yanında yerləşirdi.

Heydər Əliyeviç hərdən İlhamı ora piyada gətirirdi, elə mən də. Pərviz mənə o qədər oxşayırdı ki, Heydər Əliyeviç hərdən onu «balaca Səlimzadə» çağırırdı. Bir dəfə, o, İlhamı gətirəndə, mən oğlumun paltarını dəyişirdim. Oğlanlar şuluqluq edib bir-birinin papağını çıxarmağa başladılar. Əvvəlcə İlham başladı, sonra Pərviz ona qoşuldu. Heydər Əliyeviç gülə-gülə:



– Ay, dəcəllər! Əgər bizim yanımızda özünüzü belə aparırsınızsa, gör biz olmayanda nə oyun çıxarırsınız?»

O, ailəsi ilə bir yerdə respublikadan kənara çıxmağı həddindən artıq sevirdi. Düzdür, bu çox nadir hallarda olurdu, xüsusən də DTK rəhbəri işlədiyi dövrdə. Sevil xanım yada salır ki, on yaşı olanda anası və atası ilə birlikdə gözəl bir səyahətdə olub. Bu 1966-cı ildə, Heydər Əliyev Moskvada DTK ali rəhbərliyinin kurslarında oxuyanda olub. Bir həftəlik vaxt taparaq o, həyat yoldaşı və qızını öz cavanlıq şəhərinə, Leninqrada gəzməyə aparıb. Oradan da maşınla Pribaltika paytaxtlarına yola düşüblər.

* * *

Kitab üçün material toplayarkən, mən onunla işləyən adamlardan xahiş edirdim ki, qəhrəmanımın xidməti fəaliyyəti ilə bağlı olmayan epizodları yada salsınlar. Gözlənilmədən xeyli material yığıldı. Əliyevin təhlükəsizlik orqanlarında işlədiyi dövrə aid olan bir neçə epizod gətirirəm.

## Ad günü

«Bir dəfə onun ad günündə iştirak etmək mənə qismət oldu. Bu ya 1961 ya da 1962-ci ildə olmuşdu. Heydər Əliyeviç şöbə rəisi işləyirdi, mən isə bölmələrdən birində rəis əvəzi idim. Əliyevin ad gününü köhnə «İnturist»də qeyd edirdik. Orada bizim üçün ehtiyatda həmişə ikiotaqlı nömrə saxlanılırdı. Qonaq otağında royal qoyulmuşdu. Şöbənin əməkdaşlarından ancaq yaxın olanlar yığılmışdı. Ümumiyyətlə belə tədbirlərdən onun xoşu gəlmirdi, öz təşəbbüsümüzlə yığılmışdıq. Özümüz stol açıb onu dəvət etdik. O öz ad günlərinin keçirilməsini sevmədiyindən, nəsə bir fənd işlətdik ki, gəlsin.

Mən orada ilk dəfə gördüm ki, Heydər Əliyev necə istedadlı adamdır. Azərbaycan mahnılarını çox gözəl oxuyurdu».

*(Zaur Əfəndiyevin xatirələrindən)*

## Aleksey Sergeyeviç Boyko

«1964-cü ilin sentyabrında məni rəhbər istintaq işçilərinin hazırlıq kurslarına ezam etdilər. Bu kurslara İttifaqın hər yerindən müstəntiqlər gəlmişdi, təxminən 60 nəfərə yaxın.

Bir dəfə yataqxananın dəhlizində məni tanımadığım bir nəfər saxladı:

– Bakıdansan?

– Hə.

– Tanış olaq. Bəs Heydər Əliyeviç gəlməyib?

– Xəbərim yoxdur.

– Necə yəni? Bütün respublika və vilayətlərin DTK sədrlərinin müavinləri burdadır, 30 nəfər. Heydər Əliyeviç mənimlə bir otaqda qalmalıdır.

Mən sevindim ki, Heydər Əliyeviç də bizimlə olacaq. O, vaxt o artıq sədr müavini, podpolkovnik idi.

– Siz kimsiniz? – soruşuram.

– Mənim adım – Boyko, Aleksey Sergeyeviç, podpolkovnik. Çeçen-İnquşetiya DTK-sının sədr müavini. Öz həmyerlimi gözləyirəm. Axı mən də Bakıdanam. Bakı diyararası məktəbini bitirəndən sonra getdim Çeçen-İnquşetiyaya, o vaxtdan da orada işləyirəm. Adil Bağırov necədir, mənim dostum?

– Yaxşıdır.

– Məktub yazanda, mənim salamımı yetir. Oldu, gözləyək Heydər Əliyeviçi.

Aleksey Boyko zahirən gözəl kişi idi. Sonra mənə dedilər ki, onun ləğəbi var – «Türk». Kurslarda oxuya-oxuya onunla dostlaşdıq.

Kursları bitirəndən sonra qayıtdım Bakıya, işimə davam etdim.

Günlərin bir günü Boyko kabinetimə daxil olur. Demə Bakıya üçgünlük ezamiyyətə gəlibmiş. Məni, Adili axtarıb tapıb, Heydər Əliyeviçə baş çəkib.

İki gündən sonra zəng vurur:

– Əkrəm, yeddinin yarısında «İnturist»in qabağında ol, biz Adillə səni orada gözləyəcəyik.

Gəlirəm. Ayrıca kabinetdə artıq dördnəfərlik stol açılıb.

– Dördüncü kimdir? – soruşuram.



Adil dillənir:

– İndicə Heydər Əliyeviç gəlib çıxmalıdır, mən zəng vurmuşdum, dedi ki, on dəqiqəyə buradadır.

Heydər Əliyeviç istintaq üzrə mənim kuratorum idi. Daxilən özümü cəmlədim, hətta bir qədər narahatlıq hiss etdim. Heydər Əliyev gəldi.

– A, Əkrəm, sən də buradasan, Aleksey Sergeyeviç mənə dedi ki, kurslarda bir yerdə oxumusunuz.

Gərginlik bir anda əridi. Heydər Əliyeviç Boykonun, Adilin şərəfinə sağlıqlar deyirdi, növbə mənə də çatdı.

Bir sözlə, məclisimiz çox yaxşı keçirdi. Birdən Boyko elə bil özünə gəldi:

– Heydər Əliyeviç qatara gecikərik.

– Gecikərik, Biləcəridə çatarıq, – bunu Adil dedi.

Heydər Əliyeviç ona dəstək verdi:

– Biləcəri deyirsən, olsun Biləcəri. Gəlin tələsməyək.

Yadımdadır, həmin qonaqlıq zamanı Heydər Əliyeviç Boykoya Naxçıvan konyakının məziyyətlərindən danışırdı.

– Çox vaxt, erməni konyakını tərifləyirlər, ancaq mən sizə rəsmi şəkildə bildirirəm: Azərbaycanda istehsal olunan şərab və konyakdan heç yerdə yoxdu. Sadəcə olaraq bizim şüşə qablarımız heç nəyə yaramır. Onlar qaydasında olsa, qiymətlər də qalxar, dövlətin xəzinəsinə vəsait də gedər. – Sonra əlavə edir: – Əkrəm, söz sənindir.

– Gəlin Çeçen-İnquşetiya və Azərbaycan istintaq bölmələrinin sağlığına içək.

O vaxt artıq biz çeçenlərlə bir yerdə bir sıra uğurlu əməliyyat aparmışdıq.

Heydər Əliyeviç mənə dəstək verdi:

– Çeçen-İnquşetiya çekistlərinin sağlığına!

Maşına oturduq. O vaxt bizdə yalnız «Pobeda»lar idi, «Volqa»lar sonradan gəldi. Adillə mən qıraqlarda, Heydər Əliyeviç ortada oturdu.

– Hazırsan, Stepan? – Heydər Əliyeviç soruşur.

– Hazıram.

– Düz Biləcəriyə!

Gedirik. Kimsə bir əhvalat danışır. Heydər Əliyeviç ürəkdən gülür.

– Heydər Əliyeviç, – deyirəm, – bir az əvvəl DTK üzrə əmr olub, benzinə qənaət barədə, ondan sonra Fedya (sürücümüz Fyodor Nikolayeviç) bizi əldən salıb.

– Necə yəni «əldən salıb»?

– Düz yolda sürəti artırır və sonra da motoru söndürür, maşın da üzü aşağı «öz gücü» ilə enir, Fedya isə benzinə qənaət etdiyinə görə mükafat alır.

Heydər Əliyeviç ürəkdən gülürdü.

Gəlib Biləcəriyə çatdıq. Qatar artıq stansiyada idi. Sürücü bizi düz körpünün yanına gətirdi. Ancaq bizə lazım olan yox, əks tərəfdən.

Heydər Əliyev deyir:

– Tələsmək lazımdır, yoxsa gecikəcəyik.

Körpünün o biri tərəfinə qaçırıq. Körpü uzundur, 70-80 metr olar. Hündür, möhkəm bədənli Heydər Əliyeviç qabaqda qaçır. Biz bu vəziyyətə gülürük: Heydər Əliyeviç qabaqda, Boyko isə onun ardınca qaçır, əslində yola düşən odur, o da hamıdan çox tələsməlidir.

Nə isə, qatar tərpəndi, biz doğrudan da gecikdik. Heydər Əliyeviç Boykoya baxıb ucadan gülür, biz də gülüşürük.

– Hə, Aleksey, bəxtin gətirmədi, qalacaqsan Bakıda.

– Yox, Heydər Əliyeviç, mən getməliyəm...

Qayıtdıq maşına. Heydər Əliyev dedi:

– Stepan, sür vağzala. Qroznıdan keçən bir qatar taparıq.

Gəldik. Adil kimə lazımdır göz elədi və bizimçün o saat stol təşkil etdilər – konfet, çay, kofe. Heydər Əliyeviç evə zəng vurdu. Yadımdadır, o həyat yoldaşı ilə çox mehriban danışırdı. «Özünü necə hiss edirsən, Zarişa? Qızdırman var? İndicə gəlirəm».

O getməli olduğu üçün üzr istədi, bizə də tapşırdı ki, mütləq Aleksey Sergeyeviçi yola salaq. Biz Boykonu başqa qatara mindirib dağılışdıq.

Sonralar Boykoya general-leytenant rütbəsi verdilər, 1975-ci ildə isə o Tacikistanda DTK rəhbəri təyin olundu».

*(Əkrəm Səlimzadənin söhbətindən)*



## «Pobeda»

«1963-cü ilin əvvəlində Azərbaycan DTK-sında Mərkəzin icazəsi ilə 15 ildən artıq iş «stajı» olan köhnə xidməti maşınlar əməkdaşlara satıldı. O vaxt başqaları kimi Heydər Əliyeviç də ilk dəfə olaraq 560 manata «Pobeda» markalı şəxsi maşın aldı. Həmin ilin iyul-avqust aylarında Komitənin mənzil-məişət komissiyası əks-kəşfiyyat şöbəsinin rəisi Heydər Əliyevə və həmin şöbədə bölmə rəisi olan mənə Bilgəh istirahət evinə 24 günlük yollayış verdi. Ailələrimizlə birlikdə əsas binanın ikinci mərtəbəsində qonşu otaqlarda yerləşdik. Otaqlarımız üzü dənizə olan ümumi eyvana çıxırdı. Otaqlarda yalnız əlüzyuyan var idi, ayaqyolu və vanna otağı isə ümumi idi, koridorun axırında yerləşirdi.

Bir dəfə səhər saat 8-də Heydər Əliyevin maşınında Bilgəhdən çıxdıq. Aeroportun yaxınlığında yanıq iyi gəldi, kapotun altından tüstü vurmağa başladı. Dayandıq, kapotu qaldırdıq, gördük ki, yanan motordur. İkimizin də motordan başı çıxmırdı, bilmirdik neynəyək. Yoldan keçən yük maşınını saxladıq, bəxtimizdən sürücü peşəkar imiş. O, gişlə alovu söndürdü və başa saldı ki, motor benzin itkisindən alışıb. Sonra benzin şlanqını dəyişdi, biz də sürücüyə minnətdarlığımızı bildirib sağ-salamat gəlib iş yerimizə çatdıq.

Sonralar bu epizodu tez-tez yada salıb gülürdük, ancaq həmin anda gülmək yadımıza düşmürdü: əks-kəşfiyyat rəisi, özü də yolda ilişib qalıb».

*(Ziya Yusifzadə ilə söhbətdən)*

Tabeliyində olan adamlarla münasibətdə sadə və sərbəst, hər boş dəqiqədən ləzzət almağı bacaran, yumoru, zarafatı sevən, ürəkdən gülə bilən – Heydər Əliyev onu nadir istirahət dəqiqələrində görməyə müyəssər olmuş xüsusi xidmət orqanları veteranlarının yaddaşında belə qalmışdı.

Heydər Əliyev dostluqda sadiq adam idi. Heç vaxt, hətta yüksək vəzifələrdə olanda belə dostlarını yaddan çıxarmırdı. İsa Məmmədov 60-cı illərdə, Əliyevin DTK sədri işləyən vaxtı Naxçıvan Muxtar Respublikasının 40-illik yubiley şənliklərinə gəldiyi zaman onunla olan görüşünü xatırlayır:

«Mən o vaxt Naxçıvanda internat məktəbin direktoru işləyirdim. Çoxdan görüşmürdük. O eşidəndə ki, mən evlənmişəm, bizim yaxın dostlarımızdan birinə deyib: mən İsanın ailəsinə baş çəkməliyəm. Vaxt tapıb bizə gəldi, qonağımız oldu. Mən niyə bunu xatırlayıram? O vaxt mən sıravi məktəb direktoru idim. Heydər Əliyev isə Bakıda yüksək vəzifə tuturdu. Ancaq o insan münasibətlərini hər şeydən yüksək tutan şəxsiyyət idi. Bu hər adamın işi deyil»[54].

*İyirmi ildən sonra bu dostlardan bəziləri ondan üz döndərəcək, gözdən salınmış sabiq Siyasi Büro üzvi ilə münasibətləri davam etdirməkdən çəkinəcəklər. Və bəzən açıq satqınlıq həddinə çatan bu biganəlik Heydər Əliyevi çox yandıracaq, bəlkə də adət etdiyi sosial statusunu itirməkdən daha çox.*

Bu fəsli polkovnik Kamal Əliyevin sadiq ömür-gün yoldaşı Yekaterina Əliyevanın emosional söhbəti ilə bitirmək istəyirəm:

«60-cı illərdə biz tez-tez Kislovodskda, SSRİ DTK-sının sanatoriyasında istirahət edirdik, Heydər Əliyeviçlə Zərifə xanım da orada istirahətdə olurdular. Bir dəfə (gərək ki, bu 1965-ci il idi) hamımız birlikdə anamgilə (Kislovodskda onun evi vardı) kabab yeməyə getdik. Alma ağacının altında stol açdıq. Kamal «improvizə» edilmiş manqalda gömürü alovlandırmağa başladı. Heydər Əliyeviç çubuqlardan şiş düzəldirdi. Gözlənilmədən yağış çilədi, kömür islandı, Kamal heç cür kömürü odlaya bilmirdi. Heydər Əliyeviç ona yaxınlaşıb başladı sataşmağa ki, bəs, əlindən bir iş gəlmir və s. Sonra təşəbbüsü əlinə alıb məharətlə manqalı odladı. Nəsə, kababı demək olar ki, yağışın altında çəkdik, elə oradaca, alma ağacının altında yedik. Hamının kefi yaxşı idi, kişilər gülməli əhvalatlar danışırdılar. Sonra qaranlıq düşdü və biz yağışın kəsməsini gözləməyərək sanatoriyaya qayıtmaq qərarına gəldik. Gölməçələrin içi ilə gedirdik, yağış dayanmaq bilmirdi, biz gülüşürdük, tullana-tullana qaçırdıq və necə də xoşbəxt idik! Cavan idik, bütün ömür qarşıda idi».



# Sözardı

Bəli, qarşıda qəhrəmanımı qələbə və uğursuzluq, ən xoşbəxt dəqiqələr və sonsuz kədərlə dolu böyük ömür yolu gözləyir... O, sitayiş etdiyi idealların puça çıxmasını görəcək, sədaqətlə, canidildən xidmətində durduğu ölkənin dağılmasına da tab gətirəcəkdir. O, yeni dövrə qədəm basacaq, həyatını sıfırdan başlayaraq siyasi Olimpi bir daha fəth edəcəkdir. Lakin bu tamamilə başqa bir ölkədə, başqa bir dövrdə baş verəcək. Hərdən mənə elə gəlir ki, mən müxtəlif adamlar haqqında yazıram, çünki ağlagəlməz dərəcədə fərqli faktların, hadisələrin bir insan ömrünə sığması inanılmazdır. Bir neçə tarixi dövrü əhatə etmiş ömür. Qəhrəmanımın özü kimi ölçüyə gəlməyən, ziddiyyətli, faciəli və parlaq XX əsri güzgü kimi özündə əks etdirmiş tale.

Biz onunla qısa müddətə, romanın ikinci kitabında, Sərt dönüşdə görüşmək üçün ayrılırıq. **Hakimiyyət və məsuliyyətin ağır yükü altında.**

**(ardı var)**

Bakı.

2003-2005-ci illər.

1. Bakı Post.1998. Xüsusi buraxılış. S. 2-3.
2. Xalqa, vətənə, dövlətə sədaqət. Bakı. 1997. S. 23.
3. Bakı Post.1996. №№ 1-4.
4. Xalqa, vətənə, dövlətə sədaqət. S. 24.
5. Гусейнбейли А. Интервью с генералом разведки. Баку, 1997. С. 47.
6. Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С. 95.
7. Шелест П. Как это было. Совершенно секретно. 1990, № 6. С. 22.
8. Шелест П. …Да не судимы будете. М., 1995. С. 282.
9. Шелест П. Как это было. Совершенно секретно. 1990. № 6. С. 22.
10. Медведев Р. Неизвестный Андропов. С. 97.
11. Шахназаров Г. С вождями и без них. М., 2001. С. 107-108.
12. Леонов Л. Лихолетье. М., 1997. С. 210.
13. Гришин В.В. От Хрущева до Горбачева. М., 1996. С. 60.
14. Медведев Р. Неизвестный Андропов. С. 147.
15. Yenə orada. S. 148.
16. Бобков Ф. КГБ и власть. М., 2003. С. 221.
17. Azərbaycan yazıçılarının X qurultayı. 28-30 oktyabr 1997-ci il. Bakı. 1998. S. 260.
18. Кенан А. Неповторимый исследователь азербайджанской народной музыки. Зеркало. 2005. 29 октября.
19. Шебаршин Л. Рука Москвы. М., 2002. С. 74.
20. Azərbaycan tarixi 7 cilddə. cild7. Bakı, 2003, S. 160.
21. Xalqa, vətənə, dövlətə sədaqət. S. 23.
22. Yenə orada. S. 26.
23. Bakı Post.1996. №№ 1-4.
24. Гусейнбейли А. Интервью с генералом разведки. С. 42.
25. Yenə orada. S. 45.
26. Azərbaycan yazıçılarının X qurultayı. 28-30 oktyabr 1997-ci il. S. 260.
27. Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С. 324.
28. Мирзоева С. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. Баку, 2004. С. 177.
29. Yenə orada. S. 155-156.
30. Легостаев В. Загадки Лигачева. Завтра. 2000. № 52. С. 6.
31. Kommunist. 1991. № 7. S. 51-57. Sitat R.Medvedevin «Naməlum Andropov» (S. 203) kitabından gətirilir.
32. Алиев Г.А. На страже завоеваний Октября. Бакинский рабочий. 1967. 20 декабря.
33. Гусейнбейли А. Интервью с генералом разведки. С. 35.
34. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. Баку, 2003. С. 293.
35. Алиев И. Нагорный Карабах. История, факты, события. Баку, 1989. С. 89.
36. Исмаилов Э. Власть и народ. С. 300.



37. Гаджиев А. Все понять, но не все простить. Баку, 2000. С. 170-171.
38. Heydər Əliyev. Mədəni irsin keşiyində. Bakı. 2001. 1-ci kitab. S. 367.
39. Гусейнбейли А. Интервью с генералом разведки. С. 57.
40. Караулов А. Вокруг Кремля. М., 1993. т. 1. С.26.
41. Бобков Ф. КГБ и власть. С. 313.
42. Бобков Ф. КГБ и власть. С. 312.
43. Xalqa, vətənə, dövlətə sədaqət. S. 21.
44. Гусейнбейли А. Интервью с генералом разведки. С. 17.
45. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. С. 154.
46. Yenə orada. S. 155-156.
47. Xalqa, vətənə, dövlətə sədaqət. S. 23.
48. Карпович Я.В. Стыдно молчать. Огонек. 1989. № 29. С. 9.
49. Бобков Ф. КГБ и власть. С. 224.
50. H.Əliyevin bioqrafiyasından bu və digər faktlar Azad Şərifovun «Əziz Əliyevin ömrünün səhifələri» oçerkindən götürülmüşdür. Zerkalo. 2004. № № 68, 73, 78.
51. Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. С. 154.
52. Любовь, похожая на сон. Телепередача О.Пушкиной «Женский взгляд»
53. V.Mustafayevin «Professional» filmindən.
54. Məmmədov İ. Heydər Əliyev mənim həyatımda. Azərbaycan. 2003. 13 may.

# Mündəricat

**İki əsrin qəhrəmanı** *(Oljas Süleymenov)* ............ 3

**Heydər Əliyevin xeyir-duası ilə** ............ 8

*Birinci fəsil.* **Ömür yolunun başlanğıcı** ............ 19
Qaynaqlar ............ 19
Faciələrdən keçən yeni həyat ............ 22
Şərqin qədim qapısı ............ 29
Uşaqlığı keçən məhəllələr və küçələr ............ 32
Uşaqlıq oyunları ............ 42
Məktəb illəri ............ 48
Gənclik əyləncələri ............ 67

*İkinci fəsil.* **Müharibə. Seçim qarşısında** ............ 85
Böyük arzulara doğru ............ 85
Naxçıvana qayıdış ............ 89
Müharibənin ilk illəri ............ 97
Zəruri haşiyə ............ 104
Müvəkkildən bölmə rəisinə qədər ............ 106
Odla su arasında ............ 115
Biz necə də gənc idik... ............ 126

*Üçüncü fəsil.* **Dövlət təhlükəsizliyi orqanlarında keçdiyi həyat məktəbi** ............ 137
«Xidməti vəzifədə irəli çəkilməyə layiqdir» ............ 137
Şərq istiqamətində ............ 141
«Alagöz» ............ 145
«Duel» ............ 145
Stalinin ölümü və Bağırovun karyerasının sonu ............ 154
Bütlərin devrilməsi ............ 164
Əks-kəşfiyyat rəisi vəzifəsində *(1958–1964-cü illər)* ............ 172



*Dördüncü fəsil.* **Azərbaycan DTK-sının rəhbərliyində *(1965–1969-cu illər)*** ............ 229
Sədr təyin olunsun ............ 229
Dissidentlər. 5-ci idarənin yaradılması ............ 237
DTK sədri və yaradıcı ziyalılar ............ 259
DTK general-mayoru ............ 266
Xüsusi əməliyyat və xüsusi tədbirlər ............ 269
«Naturalist» ............ 280
Laura üçün nişanlı ............ 284
Xarici tələbələr və Abdelhaninin işi ............ 289
DTK və erməni ekstremizmi ............ 294
Heydər Əliyev və Azərbaycan DTK-sının milli kadrları ............ 305
«O bizdən ürək ağrısı ilə ayrılırdı» ............ 321
DTK sədrinin şəxsi həyatı ............ 330
Ad günü ............ 341
Aleksey Sergeyeviç Boyko ............ 342
«Pobeda» ............ 345

**Sözardı** ............ 347

**Axundova Elmira Hüseyn qızı**

**HEYDƏR ƏLİYEV**
**Şəxsiyyət və Zaman**

*I HİSSƏ*

| | |
|---|---|
| Tərcüməçilər: | **Nərgiz Qurbanova,**<br>Əməkdar jurnalist<br>(I-II fəsillər)<br>**Yaşar Quluzadə,**<br>filologiya elmləri namizədi<br>(III-IV fəsillər) |
| Redaktor: | **Məmməd Oruc** |
| Korrektor: | **Gülarə Əmirxanova** |
| Texniki redaktor: | **Cəsarət Qasımov** |

Yığılmağa verilib: 12.10.2006. Çapa imzalanıb: 25.10.2007.
Formatı: 60x90 1/16. Ofset çapı. Həcmi: 22
Sifariş № 180. Tiraj: 2000.

CBS POLYGRAPHIC PRODUCTION
mətbəəsində çap olunmuşdur